NAZİM RZA İSRAFİLOĞLU

# NEFT. QLOBAL MÜNAQİŞƏLƏR MƏNBƏYİ

- 19499 -

PREZİDENT KİTABXANASI

BAKI
2009

NAZIM RZA ISRAFILOGLU

# OIL. SOURCE of GLOBAL CONFLICTS

BAKU
2009

НАЗИМ РЗА ИСРАФИЛОГЛУ

# НЕФТЬ. ИСТОЧНИК ГЛОБАЛЬНЫХ КОНФЛИКТОВ

PREZIDENT KİTABXANASI

БАКУ
2009

Elmi redaktor: Elmira Muradəliyeva
*tarix elmləri doktoru, professor*

Redaktor: Seyfullah Cəfərli

**Nazim Rza İsrafiloğlu. Neft. Qlobal münaqişələr mənbəyi.** Bakı, "Şərq-Qərb", 2009, 464 səh.

Kitab, yüzilliklər boyu işıqlandırıcı və qızdırıcı məziyyətlərinə görə geniş istifadə olunan, odur ki, müstəsna iqtisadi əhəmiyyət daşıyan neftin XIX yüzilliyin sonlarından, xüsusilə də XX yüzilliyin əvvəllərindən başlayaraq misilsiz hərəkətverici qüvvəyə malik enerji mənbəyi olması səbəbindən son dərəcə mühüm hərbi-siyasi amilə çevrilməsi tarixinə həsr olunmuşdur

ISBN 978-9952-34-209-3

© Nazim Rza, 2009



## MÜƏLLİFDƏN

Bəşər sivilizasiyasında neftin özünəməxsus önəmi, dəyəri və müstəsna əhəmiyyəti vardır. Çağdaş dünyamızı neftsiz təsəvvür etmək gerçəkdən də mümkün deyildir. Zaman irəliləyir, həyatda hər şey dəyişir, bir-birini əvəzləyir. Kosmos fəth edilir. Bəşər övladı fəzanın əsrarəngizənginliklərinə cəsarətlə nüfuz edir, sirlərini açmağa çalışır. Elm və texnikanın nailiyyətləri cahanşümul ixtira və kəşflərin həyata keçirilməsinə xidmət edir. Çağdaş tərəqqinin durmadan artan tələblərini təmin edə biləcək yeni kompleks texnologiyalar yaranır və tətbiq edilir. İnsanların həyata baxışları, ətraf mühitə münasibətləri dəyişdikcə, dünya haqqında bilik və təsəvvürləri də dəyişir, daha da təkmilləşir. Cahanda baş verən bu təbəddülatları sehrli qüvvəyə malik enerjisiz təsəvvür etmək əsla mümkün deyildir. Qeyri-adi güc mənbəyi olan enerjinin cövhəri isə "qara qızıl" adlandırdığımız Əlahəzrət n e f t d i r.

Neft haqqında çox deyilib, çox da yazılıb. Bu sətirlərin müəllifi də, neftin gül camalına aşiq olub, onun hüsnünə bəzək vuranlardan biridir. Fəqət, necə deyərlər, elimizin sərvəti olan neft haqqında hələ öz sözümü deyib qurtarmamışam. Belə bir qəti nəticəyə gəlmişəm ki, neft və onun əsl rolu və mahiyyəti haqqında bildiklərimiz nə qədərdirsə, bilmədiklərimiz daha çoxdur. Dünyada hökmranlıq edən Böyük Siyasət baxımından yanaşdıqda bu, daha aydın görünür.

Neftin mahiyyət və dəyəri etibarilə hərbiləşməsinin və siyasiləşməsinin səbəbləri, bu yolda atılan ilk addımlar, iqtisadi amildən hərbi-siyasi amilə çevrilmə prosesinin əsas məqamları və mərhələləri məndə son dərəcə böyük maraq doğurmuşdur. Bu prosesdə dünya neft tarixinin ayrılmaz tərkib hissəsi olan Bakı neftinin də mövqeyi kifayət qədər əzəmətlidir

Araşdırmalar zamanı bir daha əmin oldum ki, misilsiz iqtisadi potensiala malik olan neftin, uzun illər boyu məqsədyönlü şəkildə davam edən proseslər nəticəsində hərbi-siyasi amilə çevrilməsi, neft hasil edən ölkələrin və xalqların taleyində yaxşılı-yamanlı köklü dəyişikliklərə səbəb olmuşdur. Neftə olan əvvəlki münasibət əsaslı surətdə dəyişmişdir. Yeni baxışlar təşəkkül tapmağa başlamışdır. Neft mənbələrinə sahib çıxmaq məqsədilə dünyanın yenidən bölüşdürülməsinə güclü təkan verilmişdir. Neft hər şeyə hakim kəsilmişdir. Hərbə də, sülhə də, siyasətə də, iqtisadiyyata və hətta mənəviyyata da.

Daha dəqiq desək, dünya başdan-başa neftlə nəfəs almaq zorunda qalmışdır – güclülər də, gücsüzlər də.

Nəhayət, bəs mənim üçün neft nədir? Mənim düşüncəmə görə, qan insan bədəni üçün qüvvət, taqət, hərəkət, təravət və s. mənbəyi olduğu kimi, neft də əbədi məskənimiz olan Yer kürəsinin və insanlığın mövcud olması üçün həmin şeydir. Odur ki, həyat cövhəri olan qara qızılımızın hər tonunun, hər kiloqramının deyil, hər qramının qədir-qiymətini bilməliyik.

Hörmətli oxucum! İmkanım daxilində bu prosesin mənə görünən tərəflərini qələmə alıb geniş araşdırmağa çalışdım. Məqsədimə nə qədər nail olduğumu Siz daha yaxşı bilərsiniz. Ümidvaram ki, şəxsi mülahizələrim və qeydlərim sizin diqqətinizi çəkəcəkdir. Zəhmət çəkdiyinizə görə Sizə öz minnətdarlığımı bildirirəm.





## GİRİŞ

Yer üzü faydalı qazıntılarla zəngindir. Onların bir çoxunun tarixi olduqca mürəkkəb və qədimdir. Bəşəriyyətin intibahında və tərəqqisində onların hər birinin özünəməxsus rolu və yeri vardır. Fəqət bu dəfinələrin arasında neftin rolu və yeri son dərəcə müstəsnadır. Çünki əsas faydalı qazıntılardan olmaqla, o, özəlliklə də çağdaş elmi-texniki tərəqqi əsrində qlobal məna daşıyır. Neft nəinki ona sahib olan xalqların həyat tərzinə, həm də dünya siyasətinə təsir edə bilən, onu faydalı-ziyanlı yeni çalarlarla zənginləşdirən fövqəladə gücə malik sirli-sehrli ilahi nemətdır.

Yer kürəsində mövcud olan heç bir faydalı qazıntının axtarışına və əldə olunmasına neft qədər vaxt və vəsait sərf edilməmişdir. Xüsusilə də XX yüzillikdə. Heç bir faydalı qazıntı neft qədər diqqət mərkəzində olmamışdır. Siyasi qalmaqallar və hərbi münaqişələr obyektinə çevrilməmişdir.

XX yüzillikdə dövlətlər arası danışıqların, müqavilələrin, sazişlərin çoxunun əsas baiskarı məhz neft olmuşdur. Müharibələr tarixində keyfiyyət və kəmiyyətcə yeni mərhələnin – dünya müharibələri mərhələsinin başlanması da bilavasitə neft adı ilə bağlıdır. “Neft” kəlməsi müxtəlif dillərdə müxtəlif cür adlansa və səslənsə də, öz mahiyyəti və ictimai-siyasi əhəmiyyətinə görə neft məfhumu vahid mənanı özündə ehtiva edir. Bu məna onun son dərəcə gərəkli və əvəzolunmazlığından irəli gəlir.

Dünyada neçə-neçə enerji mənbələri mövcuddur. Və onlar yüzilliklər boyu insanların xidmətində olub. Neft öz mahiyyəti və imkanları etibarilə nadır və yeganədir. Hətta qiymətli metallar da daxil olmaq şərtilə heç bir faydalı qazıntı neft qədər tanınıb, dillər əzbəri olmayıb. Yaxud da neft qədər adı hallanmayıb: “Neft və iqtisadiyyat”, “Neft və siyasət”, “Neft və sənaye”, “Neft və Cahan savaşı”, “Neft və imperializm”, “Neft və müstəmləkə

siyasəti", "Neft və terrorizm", "Neft və diktatura" və sair, və ilaxır. Belə söz birləşmələri yetərincədir.

Fəqət neft haqqında ilkin məlumatların tarixi miladdan əvvəlki çox-çox qədim dövrlərə gedib çıxsa da, dünya neftinin tarixinin əsaslı şəkildə öyrənilməsi yalnız XX yüzilliyin əvvəllərindən başlanmışdır. Halbuki ona qədərki dövrlərdə ayrı-ayrı səyyahların, coğrafiyaşünasların, diplomatların, yazarların, siyasət və ticarət mənsublarının memuarlarında, əsərlərində, yol qeydlərində, rəsmi və şəxsi məktublarında neft haqqında bildikləri, gördükləri və eşitdikləri qismən də olsa öz əksini tapmışdı. Lakin bu yazılanlar əsasən səthi və təsviri xarakter daşıdığından, tədqiq və təhlil anlayışından xeyli uzaq idilər. Təbii ki, başqa cür ola da bilməzdi. Çünki təbiətin son dərəcə maraqlı və cazibədar bir təzahürü olmasına baxmayaraq, öz qeyri-adiliyi ilə onu seyr edənləri özünə cəlb edən neft, obyektiv səbəblərdən – yəni bəşər intibahının o zamankı inkişaf səviyyəsi baxımından özünün həqiqi və misilsiz potensialını, əsl qüdrətini nümayiş etdirmək imkanlarından hələ məhrum idi. Daha doğrusu, insan təxəyyülü ulu Tanrının neftə bəxş etdiyi fantastik imkanlardan hərtərəfli bəhrələnmək üçün tələb olunan səviyyədən hələ xeyli uzaq idi. Neft bir qayda olaraq, işıqlandırma, yandırıcı və qızdırıcı keyfiyyətlərilə məşhur idi. Diqqəti də məhz elə buna görə cəlb edirdi. Və bir də ekzotik xüsusiyyətlərinə görə. Neftli torpaqlarda səmt qazından alovlanan məşəllər həqiqətən də cazibədar olardı və hətta dünyagörmüş ən məşhur insanları belə hədsiz dərəcədə heyrətləndirərdi. Xəzərdəki məşəllər isə o qədər əsrarəngiz idi ki, hətta qüdrətli təxəyyül sahibi kimi məşhur olan fransız yazıçısı Aleksandr Dümanı da məftun edə bilmişdi.

İqtisadiyyatda müəyyən yer tutmasına və bu çəkinin durmadan yüksəlməsinə baxmayaraq, hətta XIX yüzilliyin demək olar ki, sonlarına qədər neftin qüdrətli və geniş mənada indiyə qədər əvəzi olmayan hərəkətverici enerjiyə malik olması heç kimə bəlli deyildi. Və bu, uzun müddət bir sirr olaraq açılmamış qaldı.

Fəqət, bu sirr XIX yüzilliyin sonlarında nəhayət ki, faş oldu. Məlum oldu ki, başqa xüsusiyyətləri ilə yanaşı, neft ilk növbədə hərəkətverici qüvvədir. Məhz bu amil onun istifadə dairəsini





misilsiz dərəcədə genişləndirdi, elmin, texnikanın inkişafında əsl inqilab yaratdı. Hərbi texnikanın yaranması da məhz bu inqilabın bəhrəsi idi.

Neftə olan əvvəlki baxışlar durmadan dəyişdi. Məlum oldu ki, neft təkcə iqtisadi deyil, həm də strateji hərbi amildir. Və bu amil durmadan daha da güclənərək dünya siyasətini öz orbitinə çəkməyə başladı.

Neftin insan cəmiyyətinin ən müxtəlif sahələrinə nüfuz etməsi o qədər vüsət aldı ki, hətta onu istər-istəməz tədqiq və təhlil obyektinə çevirdi. Tarix elmində tədriclə yeni istiqamət təşəkkül tapmağa başladı. Neft tarixinin, eləcə də neft uğrunda gedən mübarizə tarixinin öyrənilməsi məsələsi bir problem olaraq diqqət mərkəzində durdu. Məlum oldu ki, bu, son dərəcə maraqlı məsələdir. Fəqət o da məlum oldu ki, dünya neft tarixini əsaslı şəkildə öyrənmədən, ümumiyyətlə bəşər tarixini tam və obyektiv şəkildə tədqiq və təhlil etmək qeyri-mümkündür. Bu, XIX-XX yüzilliklərə xüsusilə aiddir. Çünki neft elə bir nemətdir ki, o nəinki ayrı-ayrı ölkələri, hətta qitələri belə bir-birinə yaxınlaşdırmağa qadirdir. Neftə söykənən elmi-texniki sıçrayış, onun bütün dünya üçün eyni taleyüklü önəm kəsb etməsinə səbəb oldu.

Neft haqqında ilk araşdırmalar XX yüzilliyin əvvəllərinə təsadüf edir. Lakin onların demək olar ki, böyük əksəriyyətində mövzuya əsas etibarilə neftin iqtisadi və maliyyə yönümü nöqteyi-nəzərindən yanaşılırdı. Bu, həm qərb müəlliflərinə, həm də rus və sovet müəlliflərinə aiddir. Maraqlıdır ki, rus sovet, eləcə də Azərbaycan tarixçiləri neftlə bağlı tədqiqatlarının böyük əksəriyyətində, bir qayda olaraq, çarizm dövrünə daha çox maraq göstərirdilər. Bunun da təbii ki, öz səbəbləri vardı.

Marksizm–leninizm ideologiyasından bəhrələnmiş SSRİ və Azərbaycan sovet tarixçiliyi çarizm dövrünün neft tarixini hərtərəfli tədqiq və təhlil etmək istəyindən son dərəcə uzaq idilər. Bunu Azərbaycan Xalq Cümhuriyyəti dövrünə də bilavasitə şamil etmək olar. Belə tədqiqatlar yetərincədir. Lakin neft tarixinin bu cəhəti bizi o qədər də maraqlandırmadığı üçün, onun üzərində ətraflı söhbət açmağı lazım bilmədik. Halbuki bu məsələlər qərb

tarixşünaslığında da özünəməxsus şəkildə tədqiq və təhlil edilmişdir.

L.Fişerin "Neft imperializmi" ("Империализм нефти"), R.Tolfun "Rusiya Rokfellerləri. Nobel ailəsi və Rusiya neft sənayesi haqqında saqa"* ("Российские Рокфеллеры. Сага о семье. Нобель и нефтяной промышленности России") monoqrafiyaları, Azərbaycan neftinin çarizm və Birinci cahan savaşı dövrünü tədqiq edən maraqlı əsərlərdəndır. Fəqət dünya neft tarixinin geniş tədqiqi yalnız Birinci cahan savaşından sonrakı dövrə təsadüf edir. Elə bir dövrə ki, neftin iqtisadi amildən hərbi-siyasi amilə çevrilməsi prosesi əsasən başa çatmışdı. Və bu prosesin getdikcə daha da sürətlənəcəyi, hətta ən bədbin adamlarda belə heç bir şübhə oyatmırdı. Neftə olan tələbat və maraq artdıqca, onun tədqiqinə və təhlilinə maraq və diqqət də bir o qədər artırdı. Bu dövrdə aparılan araşdırmalar, işıq üzü görən monoqrafiyalar neft tarixini və neft amilini, habelə onun ətrafında cərəyan edən müxtəlif məzmunlu hadisələri daha dolğun, daha geniş təsvir edirdilər. Bu baxımdan Amerika jurnalisti Ladvell Denninin səyləri xüsusilə qiymətləndirilməlıdir. Onun Birinci cahan savaşından sonra yazdığı "Neft inhisarı uğrunda mübarizə" ("Борьба за нефтяную монополию") və "Amerika Britaniyanı istila edir" ("Америка завоевывает Британию") əsərləri dünya neftinin problemlərinə həsr olunmuş ilk fundamental əsərlərdir. Və bəlkə də birincilərıdir. Maraqlıdır ki, dünya neftinin tarixı ilə bağlı bu və ya digər səpgidə elmi araşdırmalar aparan ən nüfuzlu müəlliflərin əksəriyyətı Denninin bu iki əsərindən yararlanmağı özlərinə borc bılərdılər.

Denninin elmi araşdırmalarının məhsulu olan bu monoqrafiyaların dəyərli cəhəti bir də ondan ibarətdir ki, müəllif neft tarixinin müxtəlif cəhətləri ilə yanaşı, həm də neft amilinin hərbi-siyasi mahiyyətini və bu cəhətdən də onun uğrunda gedən hərbi-siyasi mücadilələri, demək olar ki, ilk dəfə, ön plana çəkməyə nail olmuşdur. Doğrudur, hələ bundan bir qədər əvvəl, yəni 1926-cı ildə L.Fişerin "Neft imperializmi" ("Oil imperialism") monoqrafiyası Konnektikutda (ABŞ) işıq üzü görmüşdü. Orada, xüsusilə də "Bakı uğrunda mübarizə" fəslində müəllif "imperialist dövlətlərin planlarında Bakının strateji məntəqə kimi mühüm yer tutduğu" obyektiv olaraq qeyd edilir[1].

* Saqa – Skandinaviya ölkələrində dastan əvəzinə işlədilən söz.





Şübhəsiz ki, "strateji məntəqə" dedikdə, Fişer Bakı neft rayonunu nəzərdə tuturdu. Bu monoqrafiyada neftlə bağlı hərbi-siyasi motivlərə işıq salınsa da, Denninin bu sahədəki araşdırmaları daha əhatəli, daha qlobal xarakter daşıyır.

Lakin buna baxmayaraq, ədalət naminə demək lazımdır ki, neftin iqtisadi cəhətləri və iqtisadi mahiyyəti dünya tarixçiliyində daha ətraflı tədqiq olunmuşdur. Xüsusilə İkinci cahan savaşına qədərki dövr. Sovet tarixçiliyində isə araşdırmalar əsasən Rusiya, sonralar isə sovet nefti kimi təqdim edilən Bakı nefti ətrafında aparılaraq, onun hərbi-siyasi amil olması faktına ikinci dərəcəli bir məsələ kimi yanaşılmışdır. Bakı neftindən söz düşdükdə, bir qayda olaraq, neft mədənlərində çalışan fəhlələrin bolşeviklərin rəhbərliyi ilə apardıqları "sinfi mübarizə" ön plana çəkilirdi. Bakı nefti ətrafında gedən pərdəarxası oyunlar və bəd niyyətlər isə adətən beynəlxalq imperializmin ayağına yazılardı. Azərbaycan Xalq Cümhuriyyətinin neft siyasətinə, Genuya və Haaqa konfranslarına bolşeviklərin münasibəti həmişə mənfi olmuşdur. Halbuki Bakı neftinə münasibətdə, Lenin başda olmaqla, Sovet Rusiyası hökuməti sözün əsl mənasında müstəmləkə siyasəti yeridərdi. Bu başqa cür ola da bilməzdi. Çünki Bakı nefti Rusiya üçün son dərəcə hərbi-siyasi mahiyyət daşıyardı. Məhz elə buna görə də Xalq Cümhuriyyəti dövründə Azərbaycana qarşı açıq-aşkar hərbi-siyası təzyiqlər etməkdən yorulmayan Sovet Rusiyası, Bakı neftini ələ keçirmək yolunda dəridən-qabıqdan çıxırdı. Hətta 1920-ci ilin aprel çevrilişindən sonra, Azərbaycan hüquqi cəhətdən Xalq Cümhuriyyətinin varisi kimi, "müstəqil dövlət" olmasına baxmayaraq, onun neft sənayesi bütünlükdə Rusiyanın "Başneft" ("Главнефть") idarəsinə tabe edilmiş, peşəkar inqilabçı Serebrovski isə "Azneft"in rəhbəri vəzifəsinə təyin edilmışdi. Bununla Rusiya bolşevikləri imperializmin yeni variantını – sovet imperializmini praktiki olaraq tətbiq etmiş oldular.

Bakı neftinin hərbi-siyasi əhəmiyyətini dərk etməsinə baxmayaraq, Rusiya, sonralar da onu əvəz edən SSRİ hökuməti, təəssüflər olsun ki, həmişə Bakı neft rayonuna nəhəng duru yanacaq çəlləyi kimi yanaşır və öz münasibətini bu müstəvidə ifadə etməyə çalışırdı. Neft strategiyasını da Azərbaycan hökuməti deyil, məhz Rusiya – SSRİ hökuməti müəyyənləşdirirdi. Azərbaycan iqtidarının səlahiyyətli vəzifəsi isə Moskvanın müəyyənləşdirdiyi neft hasilatı planını, habelə "könüllü" olaraq üzərinə götürdüyü öhdəlikləri nəinki vaxtında, hətta vaxtından da xeyli əvvəl yerinə yetirməkdən ibarət idi. On illər boyu davam edən bu siyasəti izləmək məcburiyyətində qalan siyasiləşmiş Azərbaycan sovet tarixçiliyi Azərbaycan neftinin tarixini obyektiv tədqiq və təhlil etməkdənsə, daha çox kommunist ideologiyasının üstünlüklərini əks etdirməli olan neft "salnamə"lərini yaratmağa rəvac verirdi. Başqa cür ola da bilməzdi. Çünki bu "salnamə"lərin hazırlanmasında istifadə olunan faktıki materialların əsasını Sov.İKP və Azərbaycan Kommunist Partiyası qurultaylarının direktivləri, Mərkəzi Komitə plenumlarının qərar və göstərişləri, şəhər və rayon partiya komitələrinin bu sahədəki fəaliyyətləri, neft hasil edən ayrı-ayrı idarələrin fəhlə və qulluqçularının yığıncaqlarında götürülən sosialist öhdəlikləri və qələbə raportları, habelə bu tipli başqa sənədlər böyük üstünlük təşkil edərdilər.

Azərbaycan neftinin baş dəllalı rolunu ifa edən Lenin və onun komandasının fəaliyyəti, xüsusilə də Genuya və Haaqa konfranslarında yeridilən neft siyasəti, habelə Almaniya ilə bağlanmış Rapallo müqaviləsi və digər bu kimi tədbirlər Azərbaycan tarix elmində kommunizm ideyalarının və sovet quruluşunun böyük təntənəsi kimi qiymətləndirilirdi. Hətta N.Nərimanovun Genuyada Azərbaycan neftini guya təmsil etməsinə də xüsusi don geydirilərək şişirdilməsi Azərbaycan sovet tarixçiliyində onun böyük uğurlarından biri hesab edilirdi. Halbuki faktiki materiallar, o cümlədən, Leninin, Çiçerinin, Litvinovun yazışmaları, habelə Miryaqub Mehdizadənin şahidi olduğu və gördüklərini sonralar qələmə aldığı "Beynəlxalq siyasətdə petrol" monoqrafiyası bunun tam əksini sübut edir. Onu da deyək ki, Azərbaycan sovet





tarixçiliyi, ümumilikdə 70 il ərzində, sovet tarixçiliyinin tərkib hissəsi olduğundan fərqli ifadə nümayiş etdirə də bilməzdi. O da qalmışdı ki, neft kimi həssas bir məsələ olsun.

XX yüzilliyin əvvəllərindən, xüsusilə Birinci cahan savaşından sonra neft amili beynəlxalq xarakter daşıdığından, onun tarixinin tədqiq və təhlil edilməsi də bu miqyasda aparılmalıdır. Və aparılırdı da. Dünya neft tarixinin ayrılmaz hissəsi olan Bakı neftinin zəngin və ibrətamiz tarixi də bu kontekstdə öyrənilməlidir. Əks təqdirdə, Azərbaycan da daxil olmaqla, dünyada neftlə əlaqədar olan hadisələri hərbi və siyasi baxımdan izləmək, proseslərin məntiqi axarını və bağlılığını müəyyənləşdirmək, obyektiv nəticə çıxarmaq müşkül bir işə çevrilə bilər. Çünki dünyada neft qədər hərbi-siyasi amilə çevrilmiş ikinci bir faydalı qazıntı təsəvvür etmək qeyri-mümkündür. Lakin bu birdən-birə, qəflətən baş verməyib. Əksinə, mürəkkəb və üzüntülü bir prosesin nəticəsidir.

1825-ci ildə ingilis fiziki Maykl Faradey tərəfindən neftin destillə edilməsi yolu ilə əldə edilən və sonralar paltar təmizləyicisi kimi yalnız apteklərdə satılan, son dərəcə cüzi miqdarda istehsal olunan benzinin sonralar, on illər keçdikdən sonra bütün dünyanı fəth etməsi, bununla da neft tarixinə benzin erası kimi daxil olması məhz bu prosesin tərkib hissələrindən biridir.

F.Merks yazır: "İctimai istehsalın digər elə bir sahəsini tapmaq qeyri-mümkündür ki, onun inkişafı bu qədər çevrilişlər, daxili və xarici münaqişələr, böyük və kiçik müharibələr, prezident və baş nazirlərin qətlə yetirilməsi, siyasi xadimlərin, alimlərin və biznesmenlərin oğurlanması ilə bilavasitə əlaqəli olsun"[2].

Təbii ki, bütün bunlar neftin sadəcə olaraq nəhəng qazanc mənbəyi olmasından irəli gəlmir. Neft ilk növbədə dünya miqyasında hərbi-siyasi üstünlüyü təmin edən nadir bir təzahürdür.

Ser Alan Herbert 1941-ci il avqustun 27-də "Punch" jurnalında dərc etdirdiyi məqaləsində bunu özünəməxsus şəkildə ifadə edərək yazırdı: "Neft, sən zəif bəşər övladını zamanın hökmdarı və məkanın fatehi etdin... Neft, sənin sayəndə dənizləri və dağları qət etmək insanlar üçün daha asan oldu, nəinki arılara məftil çəpərləri aşmaq"[3].

Beləlıklə, dünya neft tarixini əsaslı şəkildə öyrənmək nə qədər vacıbdirsə, neftin iqtisadi amildən hərbi-siyası amılə çevrilməsi prosesinin ətraflı və obyektıv öyrənılməsı də bır o qədər vacıb və əhəmiyyətlıdir. Çünkı bu son dərəcə taleyüklü və ağrılı məsələ olmaqla yanaşı, həm də ibrətamiz məsələdir. Neft. Hərb, yoxsa sülh! XX yüzilliyin əvvəlindən start götürən bu problem hər bir bəşər övladı üçün eyni əhəmıyyət daşıyır və çox güman ki, bundan sonra da daşıyacaqdır.



## I fəsil

# İLK ODLU SİLAH

XX yüzillikdə başlanan və təəssüflər olsun ki, XXI yüzıllikdə isə yeni vüsətlə davam etdirılən və sözün əsl mənasında, ardı-arası kəsilməyən qlobal mücadılələrin səbəbkarı olan neft haqqında ilk məlumatlar bəşər sivilizasiyasının ən qədim dövrlərinə gedib çıxır. Arxeoloqların on ıllər boyu səylə apardıqları tədqiqatlar onu deməyə əsas verir ki, eramızdan 5-6 min il əvvəl neft nəinkı hasil olunurdu, hətta ondan məışətdə ıstifadə etməyın üsulları da mövcud idi.

Qədim Mısirdə neft, meyidlərin balzamlaşdırılması zamanı ıstıfadə olunan maddənın tərkibınə daxil edilirdı. Qədim Babılıstanda isə tikinti məhlulu hazırlanarkən onun tərkibinə bir qayda olaraq, neft də əlavə olunurdu.

Deyılənlərə görə, əfsanəvi Babil qülləsinin tikıntisində məhlulun möhkəmliyını daha da artırmaq üçün sementə neft bitumu qarışdırılırdı.

Neftın təbabətdə tətbıqinın tarixi də mın ıllərlə ölçülür. Belə ki, hələ eramızdan əvvəl IV-V yüzilliklərdə yaşamış və antik tıbb elminin ıslahatçısı sayılan qədım yunan həkımı Hippokrat tərkibınə neft daxıl edilmış çoxlu sayda dərman reseptləri haqqında ətraflı məlumat vermışdır.

Qədim bir məlumat kıtabçasında yazılmışdı: “Xəstələri neftlə sürtürük, o zaman xəstəlık gerı çəkılir. Ağ neft soyuqdəymədən yaranmış ağrıları götürür. Qara neft isə xoşa gələn olmasa da öskürəyı və qarın ağrılarını aradan qaldırır”[1].

Neftın müalıcəvi əhəmıyyətı bununla məhdudlaşmırdı. Qədim məxəzlərdən bırındə deyilir ki, neft bir sıra göz xəstəliklərinin də müalicəsındə son dərəcə faydalıdır. Məsələn, “kimin göz bəbəklərındə ağ pərdə vardısa, yaxud gözləri yaşarırdısa, ora neft damcıdılardı”[2].

Neftın buxarlanmasından əmələ gələn və sonralar asfalt adlandırılan qətranlıq maddədən də tikinti işlərində geniş istifadə olunurdu.

19490
...ntinin
PREZİDENT KİTABXANASI

Dünyanın yeddi möcüzəsindən biri olan Semiramidanın məşhur asma bağlarının, habelə böyük Çin səddinin inşasında asfaltın geniş tətbiqi barədə məlumatlar yetərincədir. Tarixi mənbələrə görə Makedoniyalı İskəndərin özü də asfalta böyük maraq göstərmişdir.

Asfaltla bağlı digər bir məlumat isə daha qədimdir. Mohenco-Daro adlı qədim Hind şəhərinin xarabalıqlarında 5 min il əvvəl inşa olunan nəhəng bir hovuz aşkar edılmişdır. Aparılan tədqıqatlar sübut etdi ki, onun divarları və dibi asfalt təbəqəsi ilə örtülmüşdür[3].

Su keçirməzlik keyfiyyətinə görə asfaltdan Fərat çayı üzərində salınmış qədim bəndlərin inşasında geniş istifadə olunurdu.

Neft haqqında ilkin məlumatlar Çində də qeydə alınıb. Eramızdan əvvəl 220-ci ıldə Tsin sülaləsindən olan Çin imperatoru duz tapmaqdan ötrü yeri qazmağı əmr edır[4]. Lakin nəticədə duz əvəzinə neft tapılır. Çox çəkmədən ondan istifadə etməyin yolları müəyyən edılır. Neftin bəsit üsullarla təmizlənməsi ilə eyni vaxtda işıqlandırma lampaları məişətə daxil olur.

Müxtəlif dillərdə müxtəlif adlarla adlanan müasir "neft" kəlməsi bəzi mənbələrdə: Kiçik Asiya xalqlarının dılındə işlədılən "nafata" (sızma) sözündən[5], digər bir mənbədə isə Midiya sözü "nafta"dan[6] götürüldüyü bıldırılır. Lakin neft kəlməsinın ərəblərə məxsus "nafata"[7] və qədim yəhudi dılındəki "naftar"[8] sözü ılə eyni olduğu bıldırılır. Hətta belə bir mülahızə də mövcuddur kı, "nafta" sözünün mənşəyi "naftar" adlanan dini ayinlə bağlıdır və mənası "pak olmaq" deməkdir[9].

"Rəvayətə görə Persiyaya (İrana) məcburi köçürülən yəhudilər müqəddəs bildikləri odu bir quyuda gizlədirlər. Bır müddət keçdikdən sonra peyğəmbər Neyetiya ilə birlıkdə onların Fələstinə geri dönən xələfləri od əvəzinə "qatılaşmış su" tapırlar. Bərk qızdırılmış qurbanlıq daşı üzərinə töküldüyü zaman həmin su gözlənilmədən böyük alovla yanmağa başlayır. Həmin yer alınıb, müqəddəs elan edıldi və pak olmaq yeri – "naftar", yaxud "nafta" adlandırıldı"[10]

Qədim əlyazmalarda və kitablarda neft haqqında müxtəlif səpgili məlumatlar yetərincədir. Onların böyük qismı yunan tarixçilərinin və coğrafiyaşünasların qələminin məhsuludur. İlk məlu-





matlar da onlara məxsusdur. Bu mənada Strabonun və Plutarxın adları xüsusi qeyd olunmalıdır. Birincinin "Coğrafiya" adlı əsərindən neft haqqında kifayət qədər hərtərəfli məlumat əldə etmək mümkündür. Hələ o zaman Strabon qeyd edirdi: "İki cür neft mövcuddur: ağ və qara neft".

Birincini o, "duru kükürd", ikincini isə "quru qatran" adlandırırdı[11]. Sonuncu işıqlandırma lampalarında istifadə olunurdu[12].

Strabon neft mənbələrinin Ərbildə, Babildə və Dəclə çayı yaxınlığında olduğunu göstərir və qamışdan hazırlanmış gəmilərin Fərat çayına salınmaqdan öncə onun neftlə hopdurulduğunu da qeyd edirdi[13].

Eramızın əvvəllərində yaşayıb yaratmış görkəmli yunan tarixşünası Plutarxın neftlə bağlı məlumatları son dərəcə böyük maraq doğurur. Tarixdə dərin izlər qoymuş 50 böyük şəxsiyyətə həsr etdiyi üç cıldlik "Müqayisəli tərcümeyi-hallar" əsərinin Makedoniyalı İskəndərin həyat və fəaliyyətini təsvir edən bölümündə Plutarx, İskəndərin Babılistanı işğal edəndən sonra Həmədan (Ekbatan) yaxınlığındakı uçurum bır yerdə gördüklərindən heyrətləndiyini təsvir edərək yazırdı: "Bu uçurumdan sanki hansısa bir bulaqdan



olduğu kimi, fasiləsiz alov püskürür və uçurumun yaxınlığında göl əmələ gətirən güclü neft seli axırdı. Neft dağ qatranına çox oxşayırdı. Lakin oda qarşı o qədər həssas idi ki, hətta alov toxunmamış onun işığının təsirindən alovlanırdı. Neftin təbii gücünü göstərmək üçün barbarlar İskəndərin yaşadığı evin olduğu küçə boyu bu yanacağı çilədilər, qaranlıq düşəndə bir başdan od vurdular. Neft o dəqiqə alışıb o biri başa çatdı və sanki bütün küçə alova qərq oldu"[14].

Sözünə davam edərək Plutarx sonra yazırdı: "İskəndəri əhatə edənlərin içində onu müxtəlif hərəkətlərlə əyləndirib, nəşələndirmək istəyən Afinofan adlı birisi də vardı. Bir dəfə çay hamamında çarla yanaşı çimənlərin arasında Stefan adlı yaxşı səsli, amma çəlimsiz və məzəli bir oğlan da vardı. Afinofan İskəndərə dedi: "İstəyirsənmi, nefti Stefanın üstündə yoxlayaq. Hətta ona yapışsa və sönməsə mən tərəddüdsüz deyərəm ki, həmin şey dəhşətli və qüdrətlidir" (seçmə mənimdir – *N.Rza*). Stefanın özü də bu işə həvəslə razı oldu. Amma elə ki, oğlanı neftlə sürtdülər, alov ona toxunanda oğlanın bədəni başdan ayağa kimi alovlandı. İskəndər qorxub həyəcana düşdü. Əllərində hazır su dolu qab tutan qulluqçular orda olmasaydılar alovu ümumiyyətlə söndürmək olmazdı. Onlar güc-bəla ilə alovu söndürsələr də oğlanın vəziyyəti ağır idi"[15].

Lakin neftin nə dərəcədə "dəhşətli və qüdrətli" (seçmə mənimdir – *N.Rza*) olmasının əsl mahiyyəti yalnız yüzilliklər keçəndən sonra, daha doğrusu, bizim eranın iyirminci yüzilliyinin əvvəllərində bəlli oldu və dünya siyasətinin ən mühüm amillərindən birinə çevrildi. O vaxtlar buna hələ çox qalsa da, artıq onun işartıları görünməkdə idi. Çünki ilahinin insanlara bəxş etdiyi bu bənzərsiz nemətə misilsiz şöhrət gətirən və onu bütün dünyada məşhurlaşdıran əsas amil, heç də onun insanların gündəlik həyatında, məişətindəki əvəzsiz xidmətləri deyildi, nə qədər təəssüfləndirici olsa da, onun məhz "dəhşətli və qüdrətli" (seçmə mənimdir – *N.Rza*) strateji əhəmiyyətə malik olması idi.

Qədim mənbələrdən məlumdur ki, döyüş əməliyyatlarında neftdən bir silah kimi istifadə olunmasının tarixi 2 min ildən





artıqdır. "Yunan odu" adlanan yandırıcı maddənin qədim dövrdə kəşf olunması çoxdan bəllidir. Ensiklopedik ədəbiyyatda onun tərkibi belə xarakterizə edilir: "Yandırıcı maddədir, qatran, neft, kükürd və selitra (şora) qarışığından hazırlandığı güman olunur. 7-15-ci əsrlərdə dəniz döyüşlərində və qalaların mühasirəsində geniş tətbiq edilirdi. Çəlləklərdə, saxsı və şüşə qablarda yandırılaraq atıcı mexanizmlərin köməyilə düşmən gəmilərinə və qalalarına səpilirdi. Su "yunan odu"nu söndürə bilməzdi"[16].


Balaxanı. Yerdən sızan neft.

Yeni silah növü şübhəsiz ki, onu hazırlamağın sirlərinə malik olan ölkələrin hərbi qüdrətini daha da artırırdı.

Qədim dövrün bu dəhşətli silahının kimlər tərəfindən və harada yaradıldığı hələ də dürüst müəyyən edilməyib. Tədqiqatçıların bir çoxu onun Bizans kimyagərlərinin səyi nəticəsində, bəziləri isə hələ qədim Yunanıstanda hazırlandığını iddia edirlər. Lakin belə bir fərziyyə də irəli sürmək olar ki, ola bilsin "yunan odu"nun yaranmasına təkan verən amillərdən biri Makedoniyalı İskəndərin Həmədan yaxınlığında müşahidə etdiyi və Plutarxın qələmə aldığı neftlə bağlı, o qeyri-adi səhnələr də ola bilərdi. Çünki, adətən dahi sərkərdələr, böyük hökmdarlar hərb sənətinin inkişafına, daha qüdrətli silah növlərinin, döyüş vasitələrinin yaradılmasına, daim təkmilləşdirilməsinə xüsusi diqqət yetirməyə və qayğı göstərməyə çalışardılar. Zira, hər bir savaş, hər bir döyüş əməliyyatı hərb elminin, sənətinin inkişafında, təkmilləşdirilməsində azacıq da olsa irəliyə doğru atılmış bir addım idi. Hər halda hərb tarixində özünəməxsus iz qoymuş və əsasını neft maddəsi təşkil edən "yunan odu"

və neft əsasında hazırlanmış digər yandırıcı və partladıcı vasitələr yüzillər boyu irili-xırdalı, saysız-hesabsız müharibələrin, döyüş əməliyyatlarının əsas iştirakçılarından birinə çevrildi və qələbələrin əldə edilməsində mühüm rol oynadı.



İmperator Dominitsianın hakimiyyəti illərində Roma legionunun Azərbaycana (Qafqaz Albaniyasına) gəldiyini sübut edən daş kitabə. Qobustan, Böyükdaş dağının ətəyi.

Doğru deyiblər: "Əfsanə tarix deyil, lakin əfsanə tarixsiz də deyil". Odur ki, bu xüsusda Makedoniyalı İskəndərlə bağlı bir əhvalat da son dərəcə maraqlı görünə bilər. Xüsusilə də qarşıya qoyduğumuz problemin daha ətraflı tədqiq edilməsi naminə. Dahi şair Firdovsinin məşhur "Şahnamə" əsərinə isnad edərək, görkəmli siyasi və ictimai xadim Məhəmməd Əmin Rəsulzadə özünün "Əsrimizin Səyavuşu" əsərində neftlə bağlı düşüncələrini belə təsvir edir: "Neftin kömürdən keyfiyyət üstünlüyü əskidən bəri məlumdur. Odla işləyən gəmilərin icadından sonra daş kömür məlum olmuşsa da, qara neft daha çox əvvəl insanlara məlum olub, dəmir ordular yaradılmasına xidmət etmişdi. Fırdovsi, İskəndəri-Ruminin* Hindistan filləri üzərinə dəmirdən yapılma süvarilərlə hücum etdiyini nəql edir. Hindistan padşahı Fur** İskəndərə qarşı külli miqdarda fil çıxarmışdı. Bu fillər Rum ordusunu qorxutmuşdu. İskəndər mühəndislərini və fikir adamlarını toplamış, düşündürmüş, nəhayət dəmirdən atlar döydürərək, içlərinə neft doldurulmuş və fillərə qarşı sövq etdirmişdir. Dəmirdən yapılmış atlardakı neft od olan kimi alovlanmağa başlamış və üzərilərinə yüyürən fillərin xortumlarını yaxaraq məğlubiyyətlərinə səbəb olmuşdur.

* Makedoniyalı İskəndər.

** Bəzi mənbələrdə Por kimi ifadə olunur.





Təbiidir ki, Fironun (Fur – *M.Rəsulzadə*) fillərini məğlub edən bu dəmir süvariləri Ford hazırlamadığı kimi, onları hərəkətə gətirən neft də Amerikadan gələ bilməzdi: çünki o zaman nə Xristofor Kolumb anadan olmuş, nə də Amerika kəşf olunmuşdu. Qafqaziyadamı, yoxsa Mazandarandamı zühur edən bir yırtıcı vəhşi heyvanın yox edilməsi üçün neft bulaşmış məşəllərdən istifadə olunduğunu yenə Firdovsidə oxuduğumuzdan iddia edə bilərik ki, bu gün çaplınlər* uçuran, tanklar yürüdən benzinin dəmir ordular sövq edən ulu babası, şübhəsiz ki, Azərbaycandır"[17].

Salnamələrin söylədiklərinə görə, "yunan odu" doldurulmuş qab, nizənin ucuna bərkidilər və nəhəng tullama dəzgahı vasitəsilə rəqib tərəfə atılardı. O ildırım sürətilə uçar, şimşək kimi guruldayardı. Hədəfə dəydiyi zaman partlayış baş verər, tüstü-duman aləmə yayılardı. Alov həmin anda hər tərəfi bürüyərdi. Onu su ilə söndürmək mümkün deyildi"[18].

Bizans dövlətinin əsrlər boyu şöhrətini bərqərar edən zəfərli döyüşlərdə "yunan odu" son dərəcə mühüm rol oynayardı. Bu nöqteyi-nəzərdən VII əsrdə ərəblərin Konstantinopola (İstanbul) olan hücumunu xüsusilə qeyd etmək lazımdır. Salnaməçi yazır: "Ərəb donanması Bizansın paytaxtını mühasirəyə aldı. Faciəli sonluq yaxınlaşırdı. Mühasirədəkilər qurtuluşa olan ümidlərini artıq tamamilə itirmişdilər. Elə bu zaman xoşbəxt bir fikir onların köməyinə gəldi. Həmlələrin birində ərəblərin donanmasının bir qədər yaxınlaşmasına imkan verdikdən sonra, Konstantinopolun müdafiəçiləri gözlənilmədən dənizə böyük miqdarda yandırıcı maddə tökdülər, sonra da yandırdılar. Alov ərəb gəmilərini bürüdü, qara tüstü dumanı göy üzünü pərdələdi. Adama elə gəlirdi ki, yanan elə dənizin özüdür. Yanğın bir gündən artıq davam etdi. Nəticədə ərəb donanmasının demək olar ki, hamısı yanıb kül oldu"[19].

Qədim dövr və orta əsr müharibələrində son dərəcə geniş tətbiq olunan, bu, demək olar ki, ilk odlu silahın kimyəvi tərkibi olduqca gizli saxlanılırdı. Çünki bu, sözün əsl mənasında hərbi sirr olmaqla, eyni zamanda böyük qələbələrin rəhni sayılırdı. Yuxarıda qeyd etdiyimiz kimi əsasını neft təşkil edən və tərkibinə

* Təyyarə mənasındadır.

kükürd və selitra (şora) qarışığı əlavə edilmiş bu maddənin hazırlanma sirrini ərəb kimyagərləri, Konstantinopolun divarları qarşısında məruz qaldıqları məğlubiyyətdən yalnız 400 il keçəndən sonra açmağa müvəffəq oldular[20]. Artıq bu elə bir zaman idi ki, neftdən hazırlanmış bu odlu silah zaman-zaman təkmilləşərək, coğrafi hüdudlarını xeyli genişləndirmiş, istənilən rəqib üçün son dərəcə arzuolunmaz bir problemə çevrilmişdi.

Antik müəlliflərdən bizə gəlib çatan çoxsaylı məlumatlara görə "yunanlar, farslar, ərəblər və digər başqa xalqlar müharibə vaxtı yanan neftdən istifadə edər, öz rəqiblərinə tərkibində alışdırılmış kükürd və neft olan qablar tullayardılar"[21].

Ərəb mənbələrində söylənilir: "Ərəb və fars qoşunlarının tərkibində neft tullayan xüsusi bölmələr mövcud idi"[22].

Həmin dövrdə neftin hərbi texnikada geniş tətbiqi barədə maraqlı məlumatlar akademik Bartoldun da tədqiqatlarında öz əksini tapmışdır. O, "Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri"* əsərində yazır: "Masalskinin "Туркестанский край" ("Türküstan diyarı") kitabında Türküstan neft yataqlarından bəhs olunarkən göstərilir ki, onun ixracı yalnız quyulardan xam neftin çıxarılması ilə bitirdi və bundan qotur və yel xəstəliklərinə qarşı dərman kimi və bəzən də çəkməçilikdə istifadə olunurdu. Neftin belə məhdud işlənməsi o qədər də böyük gəlir verə bilməzdi, lakin şərq müəlliflərinin göstərdikləri gəlir, mənə görə yalnız neftin o vaxt hərbi texnikada geniş istifadəsi ilə izah edilə bılər. Ola bilsin ki, neft bundan qabaq hərbi məqsədlərlə Bizans dövlətində istifadə edilirdi. Buna bizə "yunan odu" haqqında əfsanə işarə edır. Bizans dövlətinə qarşı əməliyyatlar keçirən müsəlman orduları haqqında olan hekayətlərdə daim neft barədə söhbət gedir: neftdən istifadə edən dəstələr tez-tez fəaliyyətdə olan bir növ artilleriya hissələri idi. Neftdən alınan gəliri də yalnız neftin hərbi texnikada geniş istifadəsi ilə izah etmək olar"[23].

Müharibələr tarixində Aralıq dənizi hövzəsi və onunla bu və ya digər şəkildə əlaqəli su hövzələri müstəsna rol oynayır. Antik

* Бартольд В.В "Место прикаспийских областей в истории мусульманского мира".





dövrdən başlayaraq, bu məkanda zaman-zaman qüdrətli imperiyalar, güclü dövlətlər təşəkkül tapmış, dövlət quruculuğunun ən yüksək zirvələri fəth edilmiş, möhtəşəm və yenilməz ordular yaradılmışdı. Lakin zaman keçdikcə bu imperiyalar və dövlətlər tarixi proseslər nəticəsində bir-birini əvəz edərək daha yüksək mərhələyə qalxmağa nail olmuşlar. Və təbii ki, bu proseslər, necə deyərlər, yerdəyişmələr öz-özünə baş verməmiş, müharibələrsiz ötüşməmişdir.

İstər antik, istər orta əsrlər, istər də sonrakı dövrlərdə aparılmış iri miqyaslı müharibələrin miqdarına görə Aralıq dənizi bölgəsi ilə müqayisə edilə biləcək ikinci bir bölgəni təsəvvür etmək qeyri-mümkündür. İstər dənizdə, istərsə quruda. Müxtəlif sivilizasiyaların, maraq dairələrinin, siyasi ambisiyaların toqquşduğu və qovuşduğu bir yer idi bu bölgə. Onun əks-sədası o qədər güclü olardı ki, çox-çox uzaqlara gedib çatardı.

Mürəkkəb müdafiə sistemləri ilə möhkəmləndirilmiş möhtəşəm qalaları, şəhərləri almaq, hərbi qüdrəti gündən-günə artan, təkmilləşən dəniz donanmalarını məhv etmək və yaxud da eyni uğurla müdafiə olunmaq üçün soyuq silahdan daha mükəmməl, daha təsirli döyüş vasitəsi tələb olunurdu. Odur ki, geniş miqyasda tətbiq olunan ilk odlu silahın bu bölgədə yaranması heç də təəccüblü görünə bilməz. Həm də nəzərə onu da almaq vacibdir ki, ilk odlu silahın əsasını təşkil edən maddə olan n e f t (seçmə mənimdir – *N.Rza*) mənbələri yaxın ərazılərdə – Orta Şərqdə, Quzey Qafqazda və Abşeronda yerləşirdi. Hətta bizə çatan tarixi və coğrafi ədəbiyyatlarda bu haqda məlumatlar yetərincədır. Lakin digər məlumatlar neftdən hazırlanmış odlu silahın yayılma coğrafiyasını da özündə əks etdırır.

Məşhur rus tarixçi-alımi V.N.Tatişşev Kiyev knyazı İqorun qıpçaqlarla döyüşdə uğradığı ağır məğlubiyyəti, Konçakın gizli silaha malik olması ilə əlaqələndirərək yazır: "Konçak xanın odlu ox ata bilən döyüşçüsü var idi. Onun qundaqlı oxatanları o qədər böyük idi ki, səkkiz nəfər onları çətinliklə darta bilirdi. Onlar böyük bir arabaya bərkidilmişdilər"[24]. Daha sonra Tatişşev 1184-cü ildə baş vermiş bu hadisənin təfərrüatını təsvir edərək, qıpçaqların od tul-

layan mexanizminin "son dərəcə sərıştəli hazırlandığını"[25] xüsusi olaraq vurğulayırdı. Mənbədə deyılır: "Canlı od" üçün istifadə etdikləri neft Kerç və Taman mənbələrində hasil olunmuşdu[26].

Lakin nə qədər həlledici gücə malik olsa da, neftdən hazırlanmış ilk odlu sılah ilk növbədə dağıdıcı və yandırıcı rola malık idi. Fəqət illər ötəcək, yüzilliklər bir-birini əvəzləyəcək, daha fərqli bir cəhət də zühur edəcəkdi. Elə bir keyfiyyət ki, bu, onu çox tez bir zamanda dünya siyasətinın həlledici və əhəmıyyətli amıllərindən bırinə çevirəcək, beynəlxalq çəkişmələrə, hərbi qarşıdurmalara, hətta katastrofik nəticələrə gətırıb çıxara bıləcək qlobal toqquşmaların səbəbkarı edəcəkdi.

Duru yanacağın müharıbə aparan tərəflərin silahlı qüvvələrinin əsas hərəkətverici qüvvəsinə çevrilməsində Bakı neftı isə müstəsna rol oynayacaqdı. Lakin həmin vaxta hələ çox qalırdı. Qarşıda enişli-yoxuşlu yollar, ırili-xırdalı müxtəlıf hadisələrlə zəngin, üzüntülü illər dururdu. Bu hadisələr Bakı neftinə də aıd ıdi. Çünki neftlə bağlı çox az hadisə tapılar ki, Bakı neftı ondan kənarda qalmış olsun.



# II fəsil

# BAKI NEFTİ və QƏDİM DÖVR

Abşeron yarımadasında mövcud olan neft mənbələri haqqında əldə edilən ilk ciddi məlumatlar VII-VIII yüzilliklərə aid edilir və alban mənbələrinə əsaslanır. Ola bilsin ki, ondan da əvvəlki dövrlərdə yazılı ədəbiyyatda müəyyən məlumatlar olmuşdur. Lakin təəssüf ki, naməlum səbəblərdən onlar indiki dövrə gəlib çatmayıbdır. Güman etmək olar ki, Quzey Azərbaycan ərazisində neft istər məişətdə, istərsə hərb işlərində daha qədim dövrlərdə də geniş tətbiq olunmuşdu.

"Dərbəndnamə"də yazılıb ki, "Ərməniyyə və Azərbaycanın hakimi Maslama ibn əl-Malik hicri tarixi ilə 115-ci ildə (733-cü il) 20 minlik qoşunla Dərbəndi tutdu və Narınqalanın iç qalasında özünün uçurduğu köhnə bir binanın yerində cəbbəxana, ərzaq və neft üçün anbarlar inşa etdi"[1].

Başqa bir mənbədə də buna bənzər bir məlumatda VIII əsri nəzərdə tutaraq deyilir: "Dərbəndə böyük miqdarda neft daşınırdı. Orada ondan hərbi əməliyyatlarda istifadə olunurdu. Ərəb sərkərdələri Dərbəndi ələ keçirdikdən sonra orada neft ehtiyatları üçün anbarlar tikirdilər"[2].

"Dərbəndnamə"də xəlifə əl-Mütamidlə bağlı məlumatlar da böyük maraq doğurur. Məlumatlardan birində deyilir: "883-cü ildə xəlifə əl-Mütamid Şirvanın duz və neft mədənlərinin yarısını ayırdı və Dərbənd sakinlərinin (əsgərlərinin) vəqfinə verdi"[3].

Digər bir məlumatda isə həmin xəlifənin 885-ci ildə verdiyi bir fərmandan söhbət açılır. Fərmana görə "Bakının neft və duz mədənləri Dərbənd vəqfinin sərəncamına verilirdi. Xəlifə Məhəmməd ibn Əmmarı həmin mədənlərdən vergi toplayıcısı təyin etdi. Bu mədənlərdən əldə edilən gəliri Məhəmməd ibn Əmmar Dərbəndin döyüşçüləri arasında bölüşdürürdü"[4].

İstər neftin özünün, istərsə ondan əldə edilən gəlirin xeyli hissəsinin Dərbənd üçün ayrılması heç də təsadüfi deyildi. Şəhər xilafətin tərkibinə daxil olan Quzey Azərbaycanın şimal qapısı sayılırdı. Deməli strateji əhəmiyyət daşıyırdı. Şimaldan gələ

biləcək hər hansı bir təhlükənin, təcavüzün qarşısını almağa hər an hazır olmalıydı. Neftin hərbi əhəmiyyəti isə artıq çoxdan bəlli idi.

Ümumiyyətlə, Azərbaycan neftinin zəngin tarixini araşdırarkən, dönə-dönə belə bir nəticəyə gəlinir ki, bizə məlum olan bütün dövrlərdə Bakı başda olmaqla, Abşeron yarımadasının siyasi və iqtisadi həyatı əsas etibarilə neft hasilatı və onun ixracı ilə sıx bağlı olmuşdur. Şərq müəlliflərinin əsərlərində Bakı və onun nefti haqqında çoxsaylı maraqlı məlumatlar mövcuddur.

Ərəb coğrafiyaşünası və səyyahı Əbdül Həsən ibn Hüseyn Məsudi hələ X əsrdə öz xatirələrində yazır: "Bakının yaxınlığında iki neft yatağı vardır ki, onların birindən ağ və sarı neft, o birindən isə qara və göy rəngli neft çıxarılır. Bu mənbələrdən hər biri ildə min dirhəm gəlir verir. Dünyada bu yerdən başqa heç yanda ağ neft yoxdur. Nefti olan bu torpaqda daim alov püskürən vulkan vardır"[5].

Tarixi mənbələrdə neftin ixracı və onun daşınma üsulları barədə də məlumatlar yetərincədir. Məsələn, bir məlumatda deyilir ki, Bakıda "suiti dərilərindən kisə düzəldir, onlara neft doldurur və gəmilərlə başqa ölkələrə daşıyırdılar".

Akademik Bartold X yüzilliyin axırında yazıb-yaradan naməlum iranlı coğrafiyaşünasın əsərində verilmiş bir xəbərə istinad edərək yazır: "Deyləmilər ölkəsində işlənən bütün neft Bakıdan gətirilir (X əsrdə bütün İranda Deyləmdən çıxan Buveyhilər sülaləsi hökmranlıq edirdi. Bunlar Sasanilər taxtının bərpasına cəhd etdilər və onların vaxtında şahənşah ünvanı yenidən bərpa oldu). Buveyhilər dövlətində də işlədilən bütün neft Bakıdan gəlirdi"[6].

"Bakı XV yüzillikdə Xəzər dənizinin əsas limanı idi. Bura Dərbənddən, İranın şimal limanlarından və Orta Asiyadan gəmilər gəlirdi... Bakıdan duz və neft aparırdılar. Ondan (yəni neftdən – *N.Rza*) işıqlandırma və müalicə məqsədləri üçün istifadə edirdilər... italyanlar Xəzər dənizini bəzən Bakı dənizi adlandırırdılar"[7].

Bakıdan neftin gəmilərlə daşınması ehtimalına tanınmış İtaliya səyyahı Marko Polo da işarə vururdu. Uzaq Şərqi gəzmək məqsədilə səfərə yollanan məşhur venetsiyalının yolu Güney Azərbaycandan, Təbrizdən keçirdi. Quzey Azərbaycanda olmasına baxmayaraq, Bakı nefti haqqında müəyyən məlumat əldə etməyə nail olmuşdu. Coğrafi yanlışlığa yol versə də, onun verdiyi məlumatlar tarixi nöqteyi-nəzərdən son dərəcə maraqlıdır. Marko Polo yazırdı: "Gürcüstanla sərhəddə yağ mənbəyi var. Özü də olduqca çox. Həmin yağı birdəfəyə yüzədək gəmiyə yükləmək mümkündür. Onu yemək olmaz. Yandırmaq, qotur və qartmaqlı dəvələrin dərisinə sürtmək olar. Bu yağ üçün uzaq yerlərdən gəlirlər, onu ölkənin hər yerində yandırırlar"[8].

Digər italiyalı səyyah Covanni Batista Ramuzio isə öz xatirələrində Marko Polodan fərqli olaraq, gəmi əvəzinə, "dəvə" kəlməsi işlətmişdi[9]. Bu yerlərdə (Bakı nəzərdə tutulur – *N.Rza*) petroleyanın (neftin) olmasını Monte-Kroçe də qeyd edir[10]. Covanni Ramuzionun mətnində isə petroleyanın (neftin) müalicəvi xüsusiyyətləri bir qədər geniş müəyyənləşdirilir. Xarici müalicə vasitəsi kimi insanlar onu bir çox xəstəliklərə qarşı istifadə edirdilər[11]. Cozafato Barbaro isə, ondan (neftdən) dəvələrin müalicəsi üçün də tətbiq edildiyini bildirir[12].

Barbaro Bakıda şəxsən heç vaxt olmamışdı. 1474-cü ildə Təbrizə gəlmiş və Azərbaycan şahı Uzun Həsən Ağqoyunlunun sarayında Venetsiya Respublikasının səfiri vəzifəsində çalışmışdı.

Hələ orta əsr müəllifləri qeyd edirdilər ki, Abşeronda neft yerin üzərinə çıxır, torpaqları yararsız hala salırdı. Elə həmin vaxtda nefti təmizləmək üçün sadə bir üsul tətbiq etdilər. Bakı nefti ilə doldurulmuş dəvə karvanları Yaxın Şərqə doğru yollanardılar. Marko Polonun yazdığına görə, bu, ərəblər üçün böyük əhəmiyyət kəsb edirdi[13].

Bakı nefti haqqında maraqlı məlumatlar 1647-ci ildə Bakıda olmuş türk səyyahı Övliya Çələbinin də xatirələrində yetərincədir. Burada o, nəinki neft mənbələrinin, həmçinin neftin yerin altından sızaraq üzə çıxmasının təsvirini verir, eyni zamanda neftin ixracı, onun tətbiqi, hərbi əhəmiyyəti barədə də geniş söhbət açır. Çələbi yazır: "Neft, dövlət gəlirinin əsas mənbəyidir və hər il şaha yeddi min tümən qazandırır. Neftin hasilatı ilə məşğul olan adamlar gecə və gündüz quyulara enirlər, nefti yığıb tuluqlara doldururlar. Sonra onu tacirlər alıb, müxtəlif ölkələrə daşıyırlar. Səkkiz



Bakı 1683 il. (E.Kempferin çəkdiyi şəkil)

rəngdən ibarət neft vardır. Lakin ən yaxşısı sarı neftdir. Qara neft şahın mülkıyyətıdir. Bu qara nefti Özbəkistana, Hındistana, İraqa, Kürdüstana, Gürcüstana, Dağıstana və osmanlılarla sərhəddə yerləşən qalalara göndərırlər. O yerlərdə ondan ışıqlandırma üçün istifadə edirlər"[14]. Daha sonra Çələbi onu da qeyd edır ki, qalaları və şəhərləri müdafiə etmək üçün o, (yəni, neft – *N.Rza*) bir döyüş ehtiyatı kimi əhəmıyyətlidir. Hətta İran şahı və Osmanlı paytaxtı üçün yanan çıraqlar Bakı neftindən hazırlanır. Nefti gecə və gündüz keşikçilər qoruyurlar. Çünki əgər ona od düşsə o, axıra qədər yanacaq. Elə buna görə də neft çıxan yerlərin yanında qum təpəcikləri yaradılır. Neft mənbəyi alovlandığı təqdırdə bütün əhali ora axışır və qumla alovu söndürməyə başlayırlar. Çünki başqa bir üsul mövcud deyil"[15].

Orta əsr müəlliflərinin Bakı neftinə hədsiz marağı, öz əsərlərində, xatirələrində ona böyük yer ayırmaları onu deməyə əsas verir ki, təbiətin bu nadir hadisəsi istər yaxın, istərsə də uzaq ölkələrdə sözün əsl mənasında böyük təəccüb və heyrət doğururdu. Hətta Bakıda olmayan, onu gözləri ilə görməyən, yalnız başqalarının dilindən, söhbətindən, hətta şayiələrdən eşidənlər belə onun haqqında yazmağı, fikir yürütməyi özlərinə borc bilirdilər. Odur ki,







Bakı. Qoşaqala qapısı (fraqment)

təbii olaraq belə bir sual meydana çıxır: "Görəsən, bu nə ilə əlaqədardır? Nəyə görə bu diyara istər Avropanın, istərsə də Asiyanın ən müxtəlif ölkələrindən təşrif gətirən ən müxtəlif peşə sahibləri, bir qayda olaraq, Bakı və onun ətrafındakı neft çıxan əraziləri böyük bir şövqlə seyr edir, gördüklərini bacardıqları qədər ətraflı, mükəmməl və maraqlı təsvir etməyə səy göstərirdilər?

Məsələn, 1555-ci ildə Londonda yaradılmış "Moskva Şirkəti"nın Bakıda olmuş ticarət agenti Ceffri Düketin Bakı nefti haqqında yazdıqları son dərəcə maraqlıdır. Düket yazırdı: "Şəhərin yaxınlığında qəribə hal müşahidə olunur – burada yerin altından heyrət doğuran qədər yağ çıxır: İranın uzaq yerlərindən gəlib həmin yağdan aparırlar: ölkənin hər yerində bu yağ işlədilir. Rəngi



Bakı. Qala divarları. XIX əsr.

qaradır və "nefte" adlanır. Onu 400-500 qatıra və ulağa yükləyib ölkənin hər yerinə daşıyırlar, belə karvanlara tez-tez rast gələrsiniz. Göstərilən Bakı şəhərinin yaxınlığında başqa növ yağ da var – ağ rəngli və çox qiymətlidir, güman edilir ki, bizdə netroleum adlanan mayenin eynidir"[16].

Belə maraqlı məlumatlara və təsvirlərə Fransadan olan missioner rahib Jurden Katalani de Severakın, İtaliya səyyahı Pyetro della Vallenin, ingilis – rus ticarət şirkətinin rəhbəri İ.Henveyin, alman səyyahları A.Olearinin və Engelbert Kempferin də yazılarında yetərincə rast gəlmək mümkündür. Kempferin 1693-cü ildə latın dilində nəşr etdirdiyi beş hissədən ibarət əsəri xüsusilə əhəmiyyətlidir. Həm də ona görə ki, əsərin ikinci hissəsində Abşeronun neft mədənləri haqqında ətraflı məlumatlar verilmişdir. Gördüklərini mümkün qədər doğru-dürüst təsvir etməyə səy göstərən və bununla yanaşı öz heyrətini də biruzə verən Kempfer, neftin nəqli ilə də maraqlanmış, müşahidələrini qeyd etmışdır.

Digər mənbələrdə olduğu kimi, Kempfer də yazır: "Ağ neft ölkənin hüdudlarından kənara aparılırdı"[17].

Bir daha təsdiq olunur ki, neftin daşınması təkcə gəmilərlə deyil, başqa nəqliyyat vasitələri ilə də həyata keçirilirdi. Məsələn, qatır, ulaq, dəvə və at arabaları ilə.




Tarixi "İpək Yolu"nun xəritəsi





Bir qədər əvvəl qoyduğumuz suallara cavab olaraq, zənnimizcə onu söyləmək olar ki, Abşeronun bir çox yerlərində səpələnmiş neft mənbələri son dərəcə qeyri-adi təsir bağışlayırdı. Əvvəla onu deyək ki, qədim və orta əsrlərdə aşkar olunmuş neft mənbələrinin sayı olduqca az idi. Tarix kitablarında ən qədim neft mənbələrinin Fərat çayı sahillərində, Kerçdə və Çinin Sıçuan əyalətində olduğu bildirilir.

Bibliyada Ölü dənizin ətrafında da neft tərkibli qatran ifraz edən mədənlərin olmasından xəbər verilir. Lakin bu mənbələrin məhsuldarlığının hansı səviyyədə olması barədə məlumatlar demək olar ki, yox dərəcəsindədir. Yüz illər keçdikdən sonra da həmin mənbələr böyük miqdarda neft hasil edən bölgələrə çevrilmədilər. Hazırda Yaxın və Orta Şərqdə, habelə Quzey Afrikada fəaliyyət göstərən neft mənbələri yalnız yüz illər yox, min illər keçdikdən, müasir neftçıxarma texnologiyası yaradıldıqdan sonra aşkar edildilər.

Dərin qazma üsullarının mövcud olmadığı dövrdə, neft məhsulunun xarici təsir olmadan asanlıqla yer üzərinə çıxması çox mühüm əhəmiyyət kəsb edirdi. Odur ki, bu baxımdan Abşeronun neft mənbələri həqiqətən də qeyri-adi təsir bağışlayır. Onu öz gözləri ilə görənləri son dərəcə heyrətləndirirdi.

Bütün bu deyilənlər onu sübut edir ki, Bakı neftini ən qədim dövrlərdə belə asanlıqla hasil etmək mümkün olmuşdur. İstənilən tələbatı da ödəyə bilirdi. Neftın müxtəlif vasitələrlə və müxtəlif istiqamətlərdə daşınıb aparılması da buna əyani sübutdur.

Daxili və xarici bazarlarda neftə olan böyük tələbat təkcə məişətdə deyil, həm də hərbi sahədə müxtəlif məqsədlər üçün işlədilməsi ilə əlaqədar idi.

Abşeron da daxil olmaqla Quzey Azərbaycan ərazisi qədim dövrlərdən başlayaraq özü qaynar bölgələrdən biri olmaqla yanaşı, həmçinin digər qaynar bölgələrlə də bu və ya digər şəkildə təmasda olmaq zorunda idı. İstər Aralıq dənizi ətrafı olsun, istərsə də Yaxın və Orta Şərq. Azərbaycanın şimalında da yüzilliklər boyu baş verən və ölkəmizə təsirsiz ötüşməyən hadisələri də nəzərə alsaq, mənzərə daha da aydınlaşar.

Lakin məqsədimiz bu hadısələrı araşdırıb təhlil etməkdən ibarət deyil. Bizi maraqlandıran əsas məsələ Bakı neftindən istər qədim, istərsə sonrakı dövrlərdə hərbi məqsədlər üçün istifadə edılməsidir. Professor Oqtay Əfəndiyev haqlı olaraq yazır: "Bakıda və Abşeronda neft çıxarılması haqqında məlumat verən Qərbi Avropa mənbələrində neftin hərbi işdə tətbiqindən heç nə danışılmır, halbuki Şərq mənbələrindən yaxşı məlum olduğuna görə orta əsrlərdə hərbi texnikada, xüsusən qalaların müdafiəsi zamanı neftdən geniş istifadə olunmuşdur"[18]. Lakin bir qədər də uzağa gedərək, ehtimal etmək olar ki, qədim və orta əsrlərdə "yunan odu" adlanan ilk odlu silahın geniş miqyasda yayılmasında və total şəkildə tətbiq edilməsində Bakı nefti də az rol oynamamışdır. Çünki Abşeronda neftin çox asanlıqla yer səthinə çıxması haqqında məlumatlar çox güman ki, hələ antik və qədim dövrlərdə də geniş yayılmış olardı.

Əgər eramızdan əvvəl birinci yüzillikdə yaşamış qədim yunan coğrafiyaşünası və tarixçisi Strabon Xəzərin şərq sahilində yerləşən indiki Türkmənistan ərazisində "Oq", yaxud "Ox" çayı həndəvərində[19] yer qazanlar tərəfindən aşkar edilmiş yağ mənbələri haqqında məlumat verirsə, deməli Xəzərin qərb sahilindəkı Abşeronun neft mənbələri haqqındakı məlumatlar da az olmamışdır. Çünki professor Kovalevskinin dediklərinə görə, geoloji ədəbiyyatda "Abşeron dövrü" adlandırılan dövrdə, Bakı ətrafında, dəniz sularında, Abşeron mənbələrindən sızaraq axan neft qaysaqları üzərdi[20]. Daha sonra Kovalevski yazırdı: "Çox güman ki, artıq Bibi-Heybət yataqları dağılırdı..."[21]

Strabonun verdiyi məlumata gəldikdə isə, Kovalevski göstərir: "Uzboy çayının yatağı boyunca Boya-Dağ, Neft-Dağ və Çələkəndə həqiqətən də yağ-neft mənbələri vardır. Onların hamısı Oxun Uzboya töküldüyü yerdən xeyli aşağıda yerləşir"[22]. Deməli, Strabonun iki min il əvvəl verdiyi məlumat şayiə deyil, əsl həqiqət idi. Strabon onu anonim formada versə də, əsl tarixi müəyyənləşdirmək heç də çətin deyildır. Neft yatağının kəşfi Strabonun yaşadığı günlərə təsadüf edirdi. Lakin Kovalevskinin fikrincə neftin əsl qiymətinin hələ dərk edilmədiyi bir dövrdə





onun tapıntısı elə bir fövqəladə hadisə sayılmırdı, sadəcə olaraq, yerli təbiətin nadir hadisəsi kimi qiymətləndirilirdi. Lakin Kovalevskinin bu mülahizəsilə razılaşmamaq da olar. Çünki, artıq bizə məlumdur ki, eramızdan əvvəl dördüncü yüzillikdə yaşamış Makedoniyalı İskəndər haqqında yazdığı əsərdə Plutarx nefti dəhşətli və qüdrətli[23] (seçmə mənimdir – *N.Rza*) maddə adlandırmışdı.

Bakı neftinə gəldikdə isə qədim yunanlar da, romalılar da, bizanslılar da, hərb də daxil olmaqla, ən müxtəlif məqsədlər üçün dəfələrlə Quzey Azərbaycanda olmuş, onun bənzərsiz neft mədənləri, gecəli-gündüzlü alışıb-yanan əbədi alovları barədə şübhəsiz ki, ətraflı bilgilərə malik olmuşdular. Hətta qədim yunanların Xəzərlə Qara dəniz arasında su yolunun mövcud olduğu bir vaxtda gəmilərlə Xəzərin qərb sahillərinə qədər gəlməsi barədə də tarix ədəbiyyatında məlumatlar vardır. Digər tərəfdən Bakı neftinin başqa ölkələrlə yanaşı, Yaxın və Orta Şərqdə də intensiv olaraq daşınması çox-çox mətləblərdən xəbər verır.

Həm də dünyada yazılmamış belə bir qanun da var ki, tələb olan yerdə təklif də mövcuddur. Eyni zamanda da tarix, coğrafiya, həmçinin geoloji ədəbiyyatdan yaxşı bəllidir ki, nə qədim Yunanıstan, nə qədim Roma, nə də Bizans dövlətləri ərazisində neft mənbələri heç zaman olmamışdır. Deməli, həmin ölkələr idxal etdikləri malların sırasına təbii ki, nefti də daxil etməli idilər. Onu da əldə etməyin ən əlverişli variantı Orta Şərqə müxtəlif vasitələrlə daşınan Bakı nefti ola bilərdi. Neftin isə təkcə işıqlandırma vasitəsi deyil, həm də güclü odlu silah olması barədə isə biz artıq xeyli məlumatlıyıq.

Azərbaycan eyni zamanda yüz illər boyu bu və ya digər şəkildə şimal qonşusu Rusiya ilə də hərtərəfli təmasda olmaq zorunda idi. Bu təmaslar müxtəlif məqsədlər daşıyırdı: iqtisadi, siyasi, hərbi və s.

Rusiyanın Azərbaycandakı maraqları sırasına çox keçmədən neft möhkəm daxil edildi. Görünür bu, ilk növbədə neftin hərbi texnikada geniş tətbiqi ilə əlaqədar idi. Çünki müxtəlif müəlliflərin dəfələrlə qeyd etdiklərinə görə, həmin dövrdə neftin əsas tətbiqedilmə sahəsi hərbi texnika hesab edilirdi. Və bu hal mütəxəssis-

lərin mülahizələrinə görə XVII yüzilliyin sonlarına qədər davam etdi. Lakin bununla razılaşmamaq da olar. Fəqət, bu barədə bir qədər sonra.

Hələlik isə onu deyək ki, Moskva dövlətinin 1637-ci il sənədlərində, "Top ehtiyatları siyahısı"nda və sonralar 1640-cı ildə müxtəlif hərbi materiallar arasında, yanan vəziyyətdə dəhşətli silah kimi istifadə olunan Bakı neftinin də adı çəkilir"[24].

Lakin başqa bir məlumata görə, hələ XVI yüzillikdə rus tacirləri Bakı neftini Həştərxan vasitəsilə hərbi məqsədlərdə istifadə olunmaq üçün nəinki Rusiya dövlətinə, habelə Qərbi Avropa ölkələrinə də daşıyırdılar[25].

Övliya Çələbi də deyirdi ki, neftlə yanan əskiləri hücum zamanı düşmənin qalalarına tullayırdılar[26].

Rusiyada hakimiyyət başına gələn Birinci Pyotr ölkədə hər sahədə geniş islahatlar aparılmasına təkan verdi. Xüsusilə də hərb sahəsində. O, rus ordusunu Avropa standartlarına uyğun qurmağa, güclü hərbi-dəniz donanması yaratmağa böyük səy göstərirdi. Məqsədi isə məlum idi. Rusiya imperiyasını bir dövlət kimi gücləndirmək, ərazisini isə mümkün qədər genişləndirmək. Baltik dənizi vasitəsilə Avropaya pəncərə açan, İsveç üzərində əhəmiyyətli qələbə qazanan, Osmanlı imperiyası ilə uzunmüddətli müharibəyə rəvac verən Birinci Pyotr, nəhayət öz nəzərlərini Bakı neftinə də yönəltdi. Onu ələ keçirmək yolunda məqsədyönlü siyasi və hərbi tədbirlər həyata keçirməyə başladı. Osmanlı ordusunun Bakıya can atmasından təşvişə düşən Pyotr hərbi hazırlıqların sürətləndirilməsini tələb etdi və özü də bilavasitə bu işə rəhbərlik etməyə başladı. Nəhayət Bakıya göndəriləcək hərbi ekspedisiya Həştərxanda hazır vəziyyətə gətirildi. Hərbi donanmanın və şəxsi heyətin tərkibi və miqdarı müəyyənləşdirildi. Ekspedisiyaya rəhbərlik general Matyuşkinə həvalə edildi. Osmanlıların sürətli hərəkəti Birinci Pyotru Matyuşkinə belə bir məzmunda məktub göndərməyə vadar etdi: "Gürcüstandan aldığımız xəbərə görə, türklər onları öz təbəəliyinə zorla qəbul ediblər və paşa artıq Şamaxıya doğru hərəkət edir. Bu çox təhlükəlidir, Bakını tuta bilərlər. Mümkün qədər tələs"[27]. Matyuşkin əmrə tabe





olub tələsdi. Artıq 1723-cü il iyulun 6-da rus donanmasının öncül gəmiləri Bakı körfəzinə çatıb lövbər saldılar. İyulun 17-də Matyuşkinin olduğu gəmi də Bakıya çatdı və əsas qüvvələrlə birləşdi. Əvvəlcə Matyuşkin diplomatik təzyiqlə Bakı sultanı Məhəmməd Hüseyn bəyi şəhəri təslim etməyə məcbur etmək istədi. Lakin bu alınmadı. Belə olduqda Matyuşkin şəhəri mühasirəyə alıb, şiddətli top atəşinə tutdu. Şəhərin qala divarları dağıdıldı. Saysız-hesabsız mərmilərdən şəhərdə yanğın baş verir[28]. Rus qoşunları iyulun 28-də Bakının işğalına müvəffəq oldular [29].

Hələ Bakıya yola düşməmişdən əvvəl Birinci Pyotr Matyuşkinə təlimat xarakterli bir məktub göndərmişdi. Orada deyilirdi: "Müəyyən miqdarda əbədi və müqəddəs odun-alovun əsası olan qara neftdən mümkün qədər çox Peterburqa göndərin və neft işi ilə məşğul olan bir neçə nəfər usta və mütəxəssis də tapın, ezam edin"[30].

Bakı işğal edildikdən sonra Pyotrun neftə olan tələbləri daha da artır. 1724-cü il 9 sentyabr tarixli fərmanında o, Matyuşkinə belə bir tapşırıq verir: "Tapşır, Bakıdan bir neçə pud ağ neft götürsünlər və bizə göndərsinlər, ya da özün gətir"[31]. Bir qədər keçdikdən sonra Matyuşkin imperatordan yeni bir tapşırıq alır: "Min pud, yaxud nə qədər mümkündürsə ağ neft göndərin."[32]

Bölgədə hərbi-siyasi vəziyyətin qeyri-sabitliyi, Osmanlı imperiyası ilə mövcud olan qarşıdurmanın gələcək perspektivinin hələ də dumanlı olduğunu gözəl başa düşən Pyotr, sənədlərdən də göründüyü kimi, Bakıdan mümkün qədər çox neft götürməyə ciddi-cəhd göstərirdi. Nəzərə alsaq ki, Pyotr sələflərindən fərqli olaraq, elmin, texnikanın inkişafına böyük diqqət yetirir. Avropanın müxtəlif ölkələrindən elm adamlarını Rusiyaya cəlb edirdi. O, hətta ölkədə ilk dəfə olaraq Elmlər Akademiyası yaratmağa nail olmuşdu. O zaman Pyotrun neftlə bağlı səylərini başa düşmək olar. Görünür o, neftin hərbi əhəmiyyətini gözəl dərk edir və onun daha səmərəli tətbiqi üçün əlindən gələni əsirgəmirdi. Lakin onun qəflətən ölümü və Rusiyanın Birinci Aleksandrın işğalına qədər faktiki olaraq Bakı neftindən hərbi və siyasi cəhətdən təcrid olunması bu niyyətlərin həyata keçirilməsinin daha uzun müddətə təxirə salınmasına səbəb oldu.



Bakı limanı XVIII əsr

Maraqlı burasıdır ki, Bakı nefti uzun illər boyu qarşı-qarşıya durmuş hər iki ölkəni – Türkiyəni və Rusiyanı eyni dərəcədə maraqlandırırdı. Çünki hər iki ölkənin hərbi-siyasi elitası neftin yalnız işıqlandırma və istilik mənbəyi deyil, ilk növbədə hərbi-strateji əhəmiyyət kəsb etdiyini gözəl anlayırdı. Odur ki, hər iki ölkənin hərbi-siyasi maraqlarının kəsişdiyi vacib nöqtələrdən biri də şübhəsiz ki, Bakı və onun nefti idi

Lakin tarixi gedişatın bu kövrək mərhələsində Rusiya geri çəkilməli oldu. Buna səbəb bir yandan Birinci Pyotrun qəfil ölümü idisə, digər tərəfdən isə İran şahı Nadirin ciddi qələbələri idi. Təbii ki, Osmanlı təhlükəsini də inkar etmək olmazdı. Odur ki, çevriliş yolu ilə Rusiya taxt-tacına sahib olan Anna İohannovna 1735-ci il martın 10-da saziş imzalamağa məcbur oldu. Sazişin şərtlərinə əsasən Rusiya qoşunları iki həftə ərzində Bakını tərk etməli idi. Və tərk etdi də. Lakin Bakı nefti bundan sonra da hər iki dövlətin








I Pyotrun sərəncamı ilə tərtib edilmiş Xəzər dənizinin xəritəsi

diqqət mərkəzində durmaqda davam edirdi. Bu baxımdan 1738-ci ildə Rusiyanın İrandakı konsulu S.Arapovun Peterburqa göndərdiyi bir məktub indinin özündə də diqqəti cəlb etməyə bilməz. Rus diplomatı həmin məktubda təşvişlə yazırdı: "Türklər dörd dəfə Bakıdan neft aparıblar. Hər dəfə də karvanda 40 dəvə olub. Onlar apardıqları neftdən rus gəmilərini yandırmaq üçün istifadə edəcəklər"[33].

Bir növ kəşfiyyat xarakteri daşıyan bu məktub bir daha əyani şəkildə sübut edir ki, neft hər halda XVIII yüzilliyin ortalarında belə öz hərbi əhəmiyyətini itirməmiş, döyüş əməliyyatlarında, xüsusilə də dəniz döyüşlərində geniş tətbiq olunurdu. O dövrün gəmilərinin taxtadan hazırlandığını nəzərə alsaq, aydın olar ki, onları məhv etmək üçün ən etibarlı vasitələrdən biri məhz neft idi. Odur ki, XVII yüzilliyin sonlarından etibarən neftin hərbi əhəmiyyətinin itməsi barədə deyilənlər həqiqətdən xeyli uzaqdır.

Lakin bir müddət keçəndən sonra, müəyyən bir dövr ərzində neftin odlu silah kimi hərbi əhəmiyyəti xeyli azaldı. Bunun səbəbi hərbi əməliyyatlarda artilleriyanın ön plana çıxması və həlledici rol oynaması idi. Döyüş təyinatına uyğun olaraq müxtəlif tipli artilleriya nümunələri yaradıldı və zaman keçdikcə təkmilləşdirilərək döyüş qüdrəti daim artırıldı. Dağıtma gücünə və vurulan hədəfin məsafəsinə görə artılleriya böyük üstünlüyə malik idi. Artıq müharibələr tarixində yeni bir dövr başlamışdı. Artilleriyanın böyük üstünlük təşkil etdiyi bir dövr. Lakin bu dövr uzun sürmədi. Çox keçmədən müharibələr tarixində tamam yeni era başladı. Elə bir dövr ki, nəinki müharibələrin müqəddəratını həll etməyə, həm də dünya siyasətində görünməmiş texniki yeniliklərə təkan verməyə, onu istiqamətləndirməyə qadir oldu. Bütün bunlara isə çox az qalırdı.



## III fəsil

# ÜFÜQDƏ YENİ ƏSR GÖRÜNÜR

1932-ci ildə özünün "Учение о нефти" ("Neft haqqında təlim") kitabının ilk nəşrinə yazdığı müqəddimədə akademik İ.Qubkin belə bir fikir söyləmişdi: "Bəşəriyyətin həyatının son onilliklər ərzində siyasi əmtəə xarakteri əldə edən neft, böyük əhəmiyyət kəsb etdi, onun ətrafında və onun uğrunda gedən mübarizədə beynəlxalq siyasətin çox-çox mürəkkəb düyünləri bir-birinə dolaşdı"[1].

İ.Qubkın bu fikrə birdən-birə gəlməmışdi. Qısa zaman kəsiyində baş vermiş müxtəlif hadisələrın, özünün şəxsən gördüklərinin, tədqiq və təhlil etdiklərinin məntiqi nəticəsi idi bu fikirlər. Görkəmli alım daha sonra sözünə davam edərək yazırdı: "Neft hələ qədim dövrlərdən bəşəriyyətə məlum olmasına baxmayaraq, insanlar ondan g e n i ş  i s t i  a d ə (seçmə mənimdir – *N.Rza*) etməyi lap bu yaxınlardan öyrənməyə başlayıblar"[2].

Birinci cahan savaşından sonra, İkinci cahan savaşından öncə deyilmiş bu sözlər, zənnimizcə maraqlı olduğu qədər də mənalıdır. Çünki "geniş istifadə" dedikdə Qubkin, şübhəsiz ki, neftin hərbi əhəmiyyətini də nəzərdə tutmamış deyildi. Zira, Birinci cahan savaşının sonu və nəticələri bunun üçün yetərincə əsas vermışdı. Lakin "ot kökü üstə bitər" deyərlər. Odur ki, vaxtından qabaq irəli getməyərək hər şeyin kökünü araşdırmağı daha məqsədəuyğun sayaq.

Hər şey 1860-cı ildən başlandı. XX yüzilliyin birinci yarısında baş vermış cahan savaşlarının mahiyyəti də, neft uğrunda gedən son dərəcə şiddətli ölüm-dirim mübarizələrinin tarixi də o cümlədən. Həmin ildə heç kəsin tanımadığı bir fransız konstruktoru Etyenn Lenuarın yaratdığı ilk daxiliyanma mühərriki, o vaxta qədər və ondan bir qədər sonra da heç kəsin ağlına gəlməyən yeni eranın başlanmasından xəbər verirdi. Çoxlarına mənasız görünən bu texniki kəşf neftin işıqlandırma və yandırma keyfiyyətlərindən başqa, hərəkətvermə imkanına malik olmasını da əyani olaraq üzə çıxardı.

Akademik İvan Qubkin bununla əlaqədar yazırdı: "Dünya neft sənayesinin əsl inkişafı, onun ehtiva etdiyi bütün müasir xassələri və tətbiqinin geniş vüsət alması o zaman müəyyənləşməyə başlayır ki, neftin enerji, hərəkətverici və qismən də kimyəvi əhəmiyyəti meydana çıxmağa başladı"[3].

Əsası 1859-cu ildə Edvin Dreykin ABŞ-ın Pensilvaniya ştatının Taytesvill şəhəri yaxınlığında qazılmış ilk quyudan hesablanan Amerika neft sənayesinin tarixini nəzərdə tutaraq, Qubkin yazırdı: "Həmin vaxtdan başlayaraq, Amerika tarixinin, onunla birlikdə dünya neft sənayesi tarixinin, işıqlandırma, yaxud kerosin adlanan dövrü başlandı. Neft sənayesinin mövcudluğunun ilk dörd onilliyini əhatə edən bu dövrdə, kerosin, neft hasil edilməsinin əsas və demək olar ki, müstəsna məqsədi idi: benzin və müxtəlif yağlar geniş tətbiq edilməyə yararlı deyildilər və hətta heç də hər zaman emal edilmir, "neft qalıqları" adı ilə neftin ən ucuz qiymətli ağır hissəsi* ilə birlikdə yandırılırdı"[4].

Dünya neft tarixinin görkəmli tədqiqatçılarından olan Harvey O'Konnor da bunu təsdiq edərək yazır: "İlk dövrdə benzin ilişik sayılırdı. Kerosin gəlir gətirdiyi halda, benzin üçün tətbiqedilmə sahəsi tapılmırdı. Neft emalı müəssisələrinin vicdanlı sahibləri, benzindən yaxa qurtarmaq üçün onu sadəcə olaraq, axıdırdılar, ancaq daha insafsız olanlar qanunların qadağalarına baxmayaraq, onu kerosinlə qatışdırırdılar; nəticədə benzin qatışdırılması səbəbindən ABŞ-da yanğınlar və partlayışlar daha tez-tez baş verirdi, nəinki, qaydaların tənzimlənməsinin daha ciddi olduğu İngiltərədə"[5].

Beləliklə, ilk dəfə 1858-ci ildə ABŞ-da əldə edilmiş kerosin tezliklə və çox sürətlə dünya bazarına yol açmağa başladı. 1861-ci ilin dekabrında "Elizabet Uotts" gəmisi çəlləklərə doldurulmuş kerosinlə Filadelfiyadan Londona doğru yol aldı. Kerosinin ilk idxalını K.Tügendhet və A.Hamilton belə təsvir edirlər: "Yük gəmisinin göyərtəsinə qaldırılan zaman, matroslar onun nə olduğunu bildikdə, diri-diri yanmaqdan ehtiyat edərək, gəmini dərhal tərk etdilər. Son anda gəmi sahibləri Delaver çayının sahilindəki barlarda sərxoşlardan ibarət başqa bir komanda yığmağa məcbur oldular. Buna baxmayaraq, səfər uğurlu oldu: 1865-ci ilin sonuna qədər əsas müştərilər İngiltərə, Fransa və Almaniya oldular. Əsrin dördüncü rübündə isə ABŞ-da il ərzində hasil edilən neftin 1/3 ixrac olunurdu"[6].

* Ağır hissə dedikdə mazut nəzərdə tutulur







Bakı. XIX əsr

Bakı neftinin olmasına baxmayaraq, Rusiya da Amerika kerosinini idxal etmək məcburiyyətində idi. Təkcə 1872-ci ildə Rusiya idxal etdiyi Amerika kerosini üçün 10 milyon 500 min rubldan artıq pul ödəmişdi[7]. Bu, o dövr üçün böyük məbləğ idi. Belə bir vaxtda, yəni kerosinin bütün Avropada və başqa ölkələrdə ayaq tutub yeridiyi dövrdə Bakıda kerosin istehsalını təşkil etmək yolunda ciddi-cəhdlər göstərildi. Bakı və Qroznıda kerosin istehsalının pioneri adlandırılan Cavad Məlikovun səyləri sayəsində bu mühüm iş nəhayət uğurla nəticələndi. Əgər 1873-cü ildə 500 min[8] pud kerosin istehsal edilmişdisə, 1880-ci ildə bu rəqəm artıq 8 milyon puda[9] qədər artdı. Bakıdan daşınan kerosin Rusiyanın bütün tələblərini tam ödədiyinə görə 1883-cü ildən başlayaraq, Amerika kerosininin idxalı dayandırıldı. Artıq 1890-cı ildə Rusiya ixrac etdiyi neftə və neft məhsullarına görə 27,5 milyon rubl gəlir əldə etdi[10]. Bu, o dövr üçün samballı məbləğ idi.



Sabunçu. Lianozovun neft sahəsi. 1888 il (Foto A.Mişonundur)

Beləliklə, dünya neft bazarında Amerikanın neft imperiyasına çevrilmiş məşhur "Standard Oil"la rəqabətə girə biləcək yeni neft mərkəzi yarandı. Həm də son dərəcə ciddi və perspektivli bir mərkəz. Neft tədqiqatçıları Kristofer Tügendhet və Adrian Hamilton özlərinin "Neft. Ən böyük biznes" ("Oyl the biggest business") kitabında bunu belə qiymətləndirirlər: "Dünya neft sənayesində "Standard Oil"un hökmranlığına ilk təhlükə Rusiya tərəfindən baş verdi. Bakı və Qafqazda neft yüz illər boyu yer səthi üzərinə sızırdı və Zərdüştün davamçılarının müqəddəs əbədi alovları üçün yanacaq kimi istifadə olunurdu. Onun türbəsinə təzim etməkdən ötrü zəvvarlar hətta Persiyadan (İrandan – *N.Rza*) və Hindistandan gəlirdilər. Lakin çar rejimi üçün neft yataqlarının kommersiya əhəmiyyəti yalnız 1883-cü ildə, bu bölgəyə özəl kəşfiyyat aparanları buraxmaq haqqındakı qərardan sonra aydın oldu. Bu imkandan nəinki rus, həmçinin əcnəbilər də istifadə etdilər. İlk pionerlərin – neft kəşfiyyatçılarının arasında isveçli üç qardaş da vardı: Lüdviq, Robert və Alfred Nobellər"[11].







Neft quyusunun qazilması

Onu da ayrıca qeyd etmək vacibdir ki, XIX yüzilliyin dördüncü rübündən etibarən Bakı neft sənayesinin kəskin sıçrayışına səbəb olan əsas amillərdən biri 1872-ci ilə qədər Bakı neft sənayesində on illər boyu hökmranlıq etmiş iltizam sisteminin ləğvi idi. O dövrün mütərəqqi düşüncə sahibləri, o cümlədən böyük kimyaçı-alim Dmitri Mendeleyev neft sənayesini ləngidən, onun təbii və normal inkişafına əngəl törədən bu mürtəce sistemin əleyhinə çıxış edərək, çar hökumətini inandırmağa çalışırdılar ki, bu sistem nəinki iqtisadiyyatın bu vacib sahəsinin inkişafına mane olur, hətta onu şikəst eləyir. Çünki iltizamçı quyuları icarəyə götürərkən, müəyyən bir dövr ərzində mümkün qədər çox gəlir əldə etməyə səy göstərirdi. Bir qayda olaraq, qısa müddətə, 3-5 ilə icarəyə verilən bu quyular vəhşicəsinə istismar edilərdi. İstismar etdiyi quyuların nəinki yeni texnika və texnologiya ilə təchiz edilməsi, heç onların gələcək taleyi də iltizamçını maraqlandırmırdı. Əsas məqsəd nəyin bahasına olur-olsun yüksək gəlir götürməkdi.

İltizam sisteminin aradan götürülməsi Bakı neft sənayesinin misli görülməmiş sıçrayışına səbəb oldu. Elə bir sıçrayışa ki, kiçik bir zaman kəsiyində Bakı neftini, Con Rokfellerin "Standard Oil"unun belə ən ciddi və perspektivli rəqibinə çevirdi.

İlk zamanlar Bakının neft sənayesinin bütün müəssisələri tamamilə yerli və rus kapital sahiblərinin əlində cəmləşmişdi. Lakin yeni iqtisadi münasibətlərin getdikcə dönməz prosesə çevrildiyi bir şəraitdə xarici kapitalın Bakıya axını da gücləndi. Bu şəhərə ilk təşrif gətirənlərdən biri alman kapitalı ilə sıx əlaqədə olan Nobel qardaşları idi. Onlar 1879-cu ildə "Nobel qardaşları neft şirkəti" yaratdılar və nə onlardan əvvəl, nə də ki sonra heç kimin əldə edə bilmədiyi nailiyyətlər qazandılar. Tügendhet və Hamilton bu barədə belə yazırlar: "Qardaşlar (Nobellər nəzərdə tutulur – *N.Rza*) Bakıda öz hökmranlığını çox tez bərqərar etdilər və Rokfellerdən nümunə götürərək, neftin Qafqazdan Rusiyanın başqa bölgələrinə və xaricə nəql edilməsini faktiki olaraq inhisara aldılar. Bu mürəkkəb proses idi. Çünki o vaxt Qara dəniz sahili ilə dəmir yolu əlaqəsi mövcud deyildi. Halbuki o, Bakıdan ixrac üçün məntiqi kanal idi. Nefti Volqa ilə Saritsinə (indiki Volqoqrad, bir qədər əvvəl isə Stalinqrad adlanırdı – *N.Rza*), oradan da dəmir yolu ilə Baltik dənizinə daşımaq lazım gəlirdi"[12].

Nobel qardaşlarından bir qədər sonra, 1883-cü ildə Parisdə yaşayan baron Alfons de Rotşildi təmsil edən fransız bank kapitalı da Bakıda məskunlaşdı. Lakin dünya bazarına çıxmaqdan ötrü nəinki etibarlı, həm də alternativ yollar tələb olunurdu. Belə bir yol, yuxarıda deyildiyi kimi, Bakı – Qara dəniz sahili ola bilərdi. Fəqət bu layihə böyük maliyyə vəsaiti tələb edirdi. Onu yalnız xaricdən maliyyə dəstəyi almaqla reallaşdırmaq mümkün idi. Odur ki, 1880-ci ildə kömək almaq məqsədilə Rotşildə müraciət etmək qərara alındı. Rotşildin Bakı neft səhnəsinə gəlişi üçün şərait belə yarandı. Tügendhet və Hamilton bu hadisəni belə təsvir edirlər: "Rotşildlərin əsas məşğuliyyətlərinin bank işi olmasına baxmayaraq, bu ailənin Paris qolu neft sənayesi ilə sıx bağlı idi. Baron Alfons de Rotşild Birləşmiş Ştatlardan gətirdiyi nefti və Rusiyadan idxal etdiyi külli miqdarda nefti emal etməkdən ötrü





Adriatik dənizində, Fiumdakı rahat bir yerdə olan nefttəmizləyici müəssisənin də sahibi idi. Rotşildlər Batum dəmir yolunun tikintisi üçün məhz bankir kimi pul verməyə razı oldular. Lakin əvəzində neft mədənlərinin sahiblərinə məxsus aktivlərin girov kağızlarını və ixrac etmək üçün neft almaq hüququnun verilməsini tələb etdilər"[13].

Transqafqaz dəmir yolunun istifadəyə verilməsi Bakı neftinin dünya bazarlarına çıxmasına əlverişli imkan yaratdı. İqtisadi məqsədlər üçün inşa edilmiş bu yol bir müddət keçdikdən sonra mühüm hərbi-strateji əhəmiyyət kəsb etdi. Onu nəzarətdə saxlamaqdan ötrü əsl mübarizə meydanına çevrildi. Lakin bu barədə bir qədər sonra. Hələlik isə yeni nəqliyyat dəhlizinin fəaliyyətə başlaması nəticəsində Rusiyada (Bakıda) neft sənayesi inanılmaz bir sürətlə inkişaf etməyə başladı. 1888-ci ildə neft hasilatının həcmi 2,5 milyon tondan artıq idi[14]. Bu, o dövr üçün böyük rəqəm sayılırdı. Lakin bu səviyyəyə çatmaq o qədər də asan olmamışdı. Doğrudur, XIX yüzilliyin ikinci yarısından etibarən Bakının neft mədənləri, texniki səviyyəcə xeyli irəli getsələrsə də, bu hələ müasir üsulların tam tətbiqi demək deyildi. Məhz mütərəqqi texnoloji üsulların tətbiqi nəticəsində ABŞ-ın neftçıxarma sənayesi dünyada aparıcı mövqeyə çıxmağa nail olmuşdu. Halbuki Abşeronun neft mədənləri daha böyük tarixə malik idi və burada neftli sahəni aşkar etmək bir o qədər də çətin deyildi. Hər halda əgər hələ 1859-cu ildə ABŞ neft hasilatına görə Bakıdan geridə qalırdısa, artıq 1860-cı ildə mütərəqqi qazma üsulunun tətbiqi nəticəsində onu xeyli qabaqlamağa nail oldu.

Mütərəqqi qazma üsulunun tətbiqi, təəssüflər olsun ki, rəsmi dairələr tərəfindən nədənsə son dərəcə qısqanclıqla qarşılanırdı. Lakin amerikanların bu sahədəki böyük uğuru və sürətlə irəliləməsi, Abşeron mədənlərində, necə deyərlər, buzun sınmasına səbəb oldu. Çar hökumətinin razılığını alan mədən sahibləri 1868-ci ildən başlayaraq yeni qazma üsulunu kütləvi şəkildə tətbiq etməklə hasil edilən neftin miqdarını kəskin şəkildə artırmağa nail oldular. Məsələn, 1871-ci ildə neft sahibkarı Mirzəyevə məxsus sahədə qazılmış quyudan vuran fontan gün ərzində 2000 pud neft verirdi.

Quyunun dərinliyi isə cəmi 45 metr idi[15]. 1873-cü ildə Balaxanıda qazılmış quyu da son dərəcə məhsuldar oldu. Quyudan 13 gün ərzində hündürlüyü 600 metrdən artıq olan neft fontanı püskürürdü. Bu qeyri-adi quyu gündə 1600 ton neft verirdi[16].

Dmitri Mendeleyev xatirələrində yazırdı: "Bu günlərdə Bibi-Heybətdə, dənizin yaxınlığında Tağıyev və Sarkisov cənablarının mədənində fontan açılışında idim. Quyunu 50 sajın* dərinliyə hazırcavablığı ilə burada məşhur olan texnik Lents qazırdı. Onun üsulları (qazma nəzərdə tutulur – *N.Rza*) son dərəcə əlverişli idi və mövcud torpaq şəraitinə uyğunlaşdırılmışdı. Qazma quyusunu bizim yanımızda əsaslı surətdə təmizlədilər və o, 10-15 dəqiqədən sonra elə güclü fontan vurdu ki, neftlə birlikdə 20-30 funt** ağırlığında daşlar da tullayırdı. Burada bununla belə fontanları qapamağı və onların fəaliyyətini tənzimləməyi də bacarırlar. Məsələn, cənab Kokorevdə bir fontan var ki, onu yarım saatdan bir açırlar. Külli miqdarda neft var... İndi bu kütləni işə tətbiq etməyi bacarmaq lazımdır. Rusiyanı, Şərqi və Qərbi işıqlandırmaq və yağlamaq üçün"[17].

Dünya şöhrətli alim Bakı neftinin əhəmiyyətini düzgün qiymətləndirir, onun gələcək perspektivini əsasən aydın təsəvvür edirdi. Çünki Bakı həqiqətən də uzun illər boyu Rusiya imperiyası başda olmaqla Şərqi də, Qərbi də həm işıqlandırdı, həm də yağladı. Fəqət, Mendeleyev təbii olaraq o zaman təsəvvürünə belə gətirə bilməzdi ki, Bakı nefti təkcə bu xidmətləri ilə kifayətlənməyəcək, iqtisadi potensial həddini çox sürətlə aşıb, dünyanın ən mühüm hərbi-siyasi əhəmiyyət daşıyan potensialına çevriləcəkdir.

Bakı nefti həm də çox ucuz başa gəlirdi. Əgər Şimali Amerikada bir pud neftin qiyməti 36-37 qəpik idisə, Abşeronda onun qiyməti cəmi 3-4 qəpik idi[18]. Lakin Bakı nefti ilə ABŞ-ın Pensilvaniya nefti arasındakı fərq təkcə bundan ibarət deyildi.

Tügendhet və Hamilton bunu belə səciyyələndirirlər: "Bakıdakı neft mədənləri Pensilvaniyada olduğu kimi böyük ərazidə səpələnməmişdi, yalnız bir neçə on kvadrat kilometr ərazini tuturdu.

* 1 sajın 2,134 metrə bərabərdir.

** 1 funt bir girvənkə (təqribən 400 qram) idi.





Lakin oradakı quyulardan çıxan neft, Birləşmiş Ştatlarda olduğundan müqayisə edilməz dərəcədə çox idi. Əzəmətli "fontanlar" adlandırılan bəzi ən bahalı quyular, havaya hündürlüyü 90 metrdən artıq olan neft ata bilirdilər. Nobellərə məxsus bir quyu isə gün ərzində 1 milyon qallondan* artıq neft verirdi"[19].

Həqiqətən də dünyada ikinci elə bir yer tapmaq olmazdı ki, Abşeron kimi kiçik bir ərazidəki qədər neft mənbələri olsun. Materikdən Xəzər dənizinin içərilərinə 60 km uzanan, eni cəmi 30 km olan Abşeron yarımadası ərazisinin cəmi 3 faizində neft hasil edilir. Nahaq yerə demirdilər ki, "əgər neft kraliçadırsa, Bakı onun tacıdır".

Mendeleyev hələ o zamanlar yazırdı: "Bakının ətrafı indiyə qədər də Qafqazda neft hasilatının qeyri-adi və demək olar ki, yeganə məskəni olaraq qalmaqdadır. Çünki neft dünyada misli görünməyən asanlıqla hasil edilir, qiyməti isə yüksəlməyir. Qafqazda, Tersk vilayətində və Rusiyanın digər yerlərində, həmçinin də Amerika Birləşmiş Ştatlarında neftin hasilatı Bakıda olduğundan qat-qat bahadır. Ona görə də hasil edilən yerdə neftin qiyməti, Bakıdakı qiyməti üstələyir. On dəfə olmasa da, heç olmasa beş dəfə"[20].

Rəsmi məlumata görə, Bakıda neft yataqlarından kustar üsulla neft çıxarılmasına 1821-ci ildən, yəni Amerikadan 37 il qabaq başlanmışdı. Lakin 1859-cu ilin 27 avqustu Amerikanın neft tarixinə qızıl hərflərlə yazıldı. Billi Smit adlı bir qazma ustasının 76 dollara şəxsən özü oğlu ilə birlikdə hazırladığı və 300 funt ağırlığında olan qazma qurğusu, hamının "polkovnik" adlandırdığı Edvin Dreykin başladığı və heç kimin də inanmadığı çətin bir işi nəhayət ki, başa çatdırandan sonra Amerika sürətlə Abşeronu geridə qoymağa başladı.

Günəşin doğması ilə çox az adama məlum olan, kiçik bir əyalət şəhərciyi Taytesvill üzərində qazma ustası Billi Smitin: "Neft!" "Biz neft tapmışıq!"[21] kimi bağırtıları Abşeron mədənlərinə gəlib çatmasa da, dünyanın o başında yeni bir neft mərkəzinin yaranması tezliklə aləmə bəlli oldu.

* Qallon – təqribən 4,5 litrə bərabər ölçü vahididir.

Hələlik isə neft yağışı altında atılıb düşən, sevincindən özünə yer tapa bilməyən, əvvəllər Dreykə rişxənd edib ələ salan, onu döyməklə, hətta Taytesvilldən qovmaqla hədələyən, indi isə özlərini son dərəcə xoşbəxt sayan adamların sevinc dolu səsləri bir-birinə qarışmışdı. Bu hadisənin əsas səbəbkarı olan Dreyk isə elə bil heç yox imiş. Bu vakxanalıyada özünü ələ alan yeganə adam yenə qazma ustası oldu. O, "Dreyk! Biz Dreyki tapmalıyıq. Bu onun neftıdir! Bu uğura görə, biz ona borcluyuq!"[22] – deyə çığırdı. Lakin bu neft, bir çoxları kimi, Dreykə də qismət olmadı. Neft kralı olmaq arzusu başqaları kimi onun da yalnız ürəyində qaldı. O, 1880-ci ildə demək olar ki, dilənçi vəziyyətində dünyasını dəyişdi.

Dreykin böyük məhrumiyyətlər bahasına Taytesvilldə ərsəyə gətirdiyi ilk uğurlu neft quyusu, ABŞ-da yalnız əsl neft sənayesinin başlanğıcı deyildi. O, eyni zamanda, sonda dünyada neft uğrunda misli görünməmiş, hətta bir çox məqamlarda ölüm-dirim savaşlarına çevrilmiş dəhşətli bir rəqabətin də bünövrəsini qoymuş oldu. Bu məsələ yalnız neft müharibələri ilə yekunlaşmadı. Daha qlobal, daha taleyüklü xarakter aldı. Elmi, texnoloji, iqtisadi rəqabət təəssüf ki, çox tezliklə hərbi, siyasi qarşıdurmalara çevrildi. Problemlərin aradan qaldırılmasına deyil, onların daha da qızışmasına xidmət göstərdi əlahəzrət neft.

Lakin hadisələri qabaqlamadan onu deyək ki, çox keçmədən Taytesvilldə ikinci quyu da qazıldı və beş ay ərzində öz sahibinə 16 min dollar qazanc gətirdi. Başqa bir sahibkar isə qısa bir vaxtda 1,5 milyon dolların sahibinə çevrildi. Quyuların sayı durmadan artırdı. Artıq 1860-cı ildə Taytesvilldə fəaliyyətdə olan quyuların sayı 2 minə çatdırıldı. Bu, artıq Amerikada əsl neft həyəcanlarının başlanması demək idi.

Belə bir həyəcan Amerikadan çox-çox uzaqda, kiçicik Abşeron torpağında da baş qaldırdı. Taytesvill hadisələri Abşeronu da silkələdi. Çar hökumətini də sanki qəflət yuxusundan oyatdı. İltizam sisteminin ləğvindən sonra, mütərəqqi qazma üsulunun tətbiqi və eyni zamanda da xarici kapitalın axını Bakının neft infrastrukturunun keyfiyyət və kəmiyyət etibarilə daha yüksək tələblər səviyyəsinə çıxmasına səbəb oldu.





"Nobel qardaşları" şirkəti Abşeronda ilk olaraq nefti daşımaq üçün dəmir yolu çənlərindən istifadə etdi. Hökumətin 1888-ci ildə verdiyi icazədən istifadə edərək, şirkət təkcə Güney Qafqaz dəmir yolunda 465 şəxsi vaqondan istifadə edirdi[23].

Neft kəmərlərinin çəkilməsi tarixi 1865-ci ildən başlayır. Amerikada inşa edilmiş ilk kəmərlər, nefti mədənlərdən dəmir yolu xətləri keçən yerlərə qədər nəql etmək üçün nəzərdə tutulmuşdu. Bu, sözsüz ki, irəliyə doğru bir addım idi. Çünki əvvəllər nefti daşımaq üçün bir qayda olaraq palıd ağacından hazırlanmış çəlləklərdən istifadə edirdilər. Palıd isə az tapılan material sayılırdı. Digər tərəfdən, palıd çəlləklərlə neft daşınması, neft kəmərləri ilə müqayisədə xeyli baha idi.

Belə bir vəziyyət Abşeronda da mövcud idi. Bunu, "Bakı neft sənayesinə nəzər" məqaləsində "Nobel qardaşları" şirkətinin təsisçilərindən biri olan Lüdviq Nobel də etiraf edirdi. O, yazırdı: "Xam nefti nəql etmək çox baha başa gəlır. Çünki yerli sənayeçilər nefti arabalarla daşıyırlar. Belə ki, hətta qısa məsafəyə daşınan 20 pudluq çəlləyin hər puduna 2 qəpikdən 10 qəpiyə qədər pul vermək lazım gəlır. Bu məhsulun özündən 10 dəfə bahadır"[24].

Bu, əlbəttə şirkəti heç cür təmin edə bilməzdi. Digər tərəfdən 1891-ci ildə şəxsi adamlara məxsus olan vaqonlar dövlət tərəfindən pul ilə alınıb dəmir yolu idarəsinin sərəncamına verildi. Odur ki, bu "Nobel qardaşları" şirkətini qəti addımlar atmağa vadar etdi. Amerikada mövcud olan neft kəmərlərinin təcrübəsindən istifadə edərək və iqtisadi amilləri nəzərə alaraq şirkət neft kəmərərinin inşasına qərar verdı.

Bir qədər sonra isə şirkət Bakıda tanker donanmasının əsasını qoydu. Bu onunla əlaqədar idi ki, neftin uzaq məsafələrə, xüsusilə də xarici ölkələrə nəqlı olduqca ciddı problem idi. Qısa müddətdə hazırlanmış "Zoroastr" ("Zərdüşt"), "Moisey", "Spinoza", "Darvin", "Məhəmməd" adlı tankerlər yaranmış problemi tez bir zamanda aradan qaldırdılar. Bundan sonra neft daşıyan tankerlərın sayı ildən-ilə çoxaldı. Bu da öz növbəsində başqa bir problem yaratdı. Bu problem ondan ibarət idi ki, belə bir donanmanı hərəkətə gətırmək üçünü küllı miqdarda kerosin tələb olunurdu.

Kerosin isə ən çox tələb olunan əsas neft məhsulu sayılırdı. Odur ki, qiyməti ən baha olan yanacaq növü idi. Vəziyyətdən çıxış yolunu Lüdviq Nobel tapdı. O, kerosin əvəzinə mazutdan istifadə etməyi təklif etdi və yəqin ki, heç özü də bilmədən yaxın gələcəkdə hərbi-dəniz donanmalarının kömürdən duru yanacağa keçmələri üçün ideya bazası yaratmış oldu. Bu isə, neftin hərbi müstəviyə keçməsi yolunda atılan addımlardan biri kimi qiymətləndirilməlidir. Birinci cahan savaşı bunu bir daha təsdiq etdi.

Hələlik isə Lüdviq Parisdə olan qardaşı Alfredə məktub göndərib xahiş etdi ki, mazut barədə ona dəqiq və hərtərəfli məlumatlar göndərsin. Alfred qardaşının xahişini çox tez yerinə yetirdi və göndərdiyi cavab məktubunda mazut haqqındakı fikirlərini qısaca belə izah etdi: "...Mazutun olduqca böyük gələcəyi var. Əgər sizdə onun qiyməti aşağıdırsa, yubanmadan iri çənlər inşa edin və onları ağzına qədər mazutla doldurun. Beş-on ildən sonra mazut böyük gəlir gətirəcək"[25].

O dövrün ən güclü partladıcı maddəsi olan dinamitin və bir çox başqa texniki yeniliklərin yaradıcısı olan Alfred Nobelin mazutun iqtisadi cəhətdən böyük gələcəyə malik olacağını bildirməsi, Lüdviqi ruhlandırdı. O, bir neçə növdə pulverizatorlar* hazırladı və öz şəxsi gəmilərində qazanların qızdırılmasında istifadə etdi. Onlardan biri 1882-ci ildə Moskvada, Ümumrusiya sərgisində nümayiş etdirildi[26].

Çox keçmədən naviqasiya mövsümü də başlandı və "Nobel qardaşları"nın tanker donanması yeni yanacaqla hərəkətə başladı. Alfred Nobelin uzaqgörənliyi də bir növ təsdiqləndi. Şirkətin Volqaboyu bazalarında toplanmış yüz minlərlə pud mazut satıldı. Şirkətin xəzinəsinə pul yağışı yağdı[27].

Bu həm də gələcəyə atılmış bir addım idi. O zaman bunu hələ dərk etməsələr də, hər halda 1904-1905-ci illərdə rus-yapon müharibəsi zamanı, Tsusimada rus hərbi-dəniz donanması məhv ediləndən sonra, donanmanın tədriclə duru yanacağa keçirilməsində bu, mühüm və təkanverici bir addım oldu.

* Pulverizator – mayeni qaz halında fışqırdan cihaz.





Müntəzəm görülən tədbirlər çox keçmədən Şimali Amerikadan olan geriliyi aradan qaldırdı. Satışı Avropa ölkələrində adi hala çevrilmiş Bakı kerosini, Amerika kerosini ilə uğurlu rəqabətə qadir idi. Xarici ölkələrə kerosin ixracının ardı-arası kəsilmirdi. Bakının neft məhsulları nəinki Rusiya bazarından, habelə Avropa bazarlarından Amerikanın neft inhisarçısı olan "Standard Oil"a məxsus neft məhsullarını sıxışdırıb çıxarırdı.






Con Rokfeller. "Standard Oil" imperiyasının sahibi.

Neft hasilatı durmadan artırdı. 1894-cü ildən başlayaraq ildə 340 milyon pud həddinə çatan Abşeron yarımadası, nəhayət ki, 1898-ci ildə Şimali Amerikanı neft hasilatına görə üstələdi. 1901-ci ildə isə bütün Rusiyada hasil edilən neftin 95 faizini verən Abşeron, dünya birinciliyinə də sahib oldu. Tügendhet və Hamilton yazırdılar: "Neftin ixracı, onun hasilatı ilə bərabər artırdı. Rus nefti (yəni Bakı nefti – *N.Rza*) bütün Avropanı selə qərq elədi və bazardakı vəziyyəti büsbütün dəyişdi. Almaniyada, Qalitsiyada və Rumıniyada o vaxta qədər bir neçə il əvvəl müəyyən miqdarda neft hasil edilirdi. İngiltərə, Fransa və Almaniyada həmçinin şistdən, liqnitdən və kömürdən kerosin alınardı. Amerika neftinin soxulmasına Şotlandıyanın şist şirkətləri xüsusilə şiddətli

mübarizə aparırdılar. XIX yüzilliyin 80-ci illərində onlar şistin hər bir tonundan 30 qallona qədər xam neft əldə edirdilər. Lakin buna baxmayaraq, Amerika neftinin yolunu heç nə kəsə bilməzdi. Əgər rus nefti peyda olmasaydı, "Standard Oil" ABŞ-da olduğu kimi, Avropada da o cür maneəsiz olaraq hökmranlıq edərdi"[28]. Hətta vəziyyət o yerə gəlib çatmışdı ki, Avropanın cənubunda, İtaliyanın Triest şəhərində iri neft limanı yaradılmışdı. O, bazarın böyük hissəsini ələ keçirdi və hətta şimalda, İngiltərədə, ölkənin illik idxal həcmində onun payı bəzən 30 faizə çatır, bir sıra hallarda artıq da olurdu.

XIX yüzilliyin 90-cı illərində Avropada tuğyan edən şiddətli neft rəqabəti nəhayət ki, Uzaq Şərqi də öz ağuşuna aldı. Buna səbəb yenə də Bakı nefti oldu. Çünki Süveyş kanalı Bakı neftini Uzaq Şərq bazarına Amerika neftindən daha asan çatdırmağa imkan verirdi. Lakin tezliklə Hollandiyaya məxsus Ost-İndiya nefti bu rəqabəti daha da qızışdırdı. Belə vəziyyət "Standard Oil"un maraqlarına ciddi təhlükə yaradırdı. Zərərin yerini doldurmaq, yüksək gəlir əldə etmək getdikcə çətinləşdi. Bu azmış kimi, digər tərəfdən Amerikanın özündə də gözlənilmədən yeni rəqiblər peyda oldu və "Standard Oil"un illərdən bəri əldə etdiyi rahatlığı müəyyən qədər pozdu. Fəqət bu barədə bir qədər sonra. Çünki, ondan bir qədər əvvəl baş vermiş bir hadisə, ilk vaxtlarda son dərəcə adi görünsə də, əslində neft strategiyasında yeni qlobal keyfiyyətlərin meydana çıxmasından xəbər verirdi. Elə keyfiyyətlər ki, üfüqdə görünməkdə olan yeni əsrin – XX yüzilliyin beynəlxalq neft siyasətinin təşəkkül tapmasında əsaslı rol oynamış oldu. Təbii ki, özünün istər mənfi, istərsə müsbət keyfiyyətləri ilə bir yerdə. Maraqlıdır ki, burada da Bakı nefti hadisələrin əsas iştirakçılarından biri oldu. Neft ətrafında səngimək bilməyən beynəlxalq miqyaslı avantüraların cazibə mərkəzlərindən birinə çevrilməklə, bu ağır yükü müəyyən fasilələrlə yüzilliyin sonuna qədər daşımaq məcburiyyətində qaldı[29].



## IV fəsil

# BAKI NEFTİ UZAQ ŞƏRQDƏ

Əsas neft məhsulu sayılan kerosinin uzaq məsafələrə nəqli uzun müddət böyük çətinliklərlə üzləşirdi. Onunla bağlı iki əsas məsələ – təhlükəsizlik və mənfəətlilik bir-birilə ziddiyyət təşkil edirdi. İlk dövrlərdə və hətta bir qədər sonra da kerosin tutumu 5 qallona[1] (təxminən 18 litr) bərabər olan dəmir bankalarda daşınırdı. Hər iki banka ayrıca olaraq, taxta yeşiklərə yerləşdirilirdi. Lakin alıcılara sərfəli və rahat olan bu üsul iqtisadi cəhətdən sərfəli deyildi. Gəmidə xeyli yer tutan bu yeşiklər yüklənmə və boşaltma əməliyyatları zamanı xeyli vaxt itkisinə səbəb olurdu. Odur ki, daha mütərəqqi, iqtisadı cəhətdən daha faydalı nəqletmə üsulları tələb olunurdu. Bu zərurətdən doğan neft tankerləri bu sahədə, sözün əsl mənasında, böyük inqilaba səbəb oldular. İngilis dilində sistern mənasını daşıyan belə tankerlər ilk dəfə Xəzər dənizində həyata vəsiqə aldılar və hər cəhətdən əlverişli olan bu üsul tezliklə bütün dünyada yayıldı.

XIX yüzilliyin 90-cı illərindən başlayaraq, Qara dənizdəki Batum limanı Bakı neftinin Avropaya daşınması üçün əsas məntəqəyə çevrildı. Doğrudur, keyfiyyətsiz inşa edildiklərindən bəzən partlama halları da baş verirdi. Lakin texniki cəhətdən bu üsulun tayı-bərabəri yox idi. Sonrakı hadisələr göstərdi ki, XX və hətta XXI yüzilliklərdə belə dəniz və okeanlarda neft daşınmasında tankerlə neft nəqli üsulunun alternativi yoxdur. Təsadüfi deyil ki, hələ XIX yüzilliyin 90-cı illərində onun sorağı çox-çox uzaqlara yayıldı.

1890-cı ilin əvvəlləri idı. Günlərin birində Batum limanında hər şeylə maraqlanan orta yaşlı bir nəfər peyda oldu. Bu Markus Samuel idı. Lakin o tək deyildı. Onun yanında Fred Leyn də vardı. Fred Leyn Rotşildlərin neft əməliyyatları üzrə London agenti idi. O, Rusiya (Bakı) kerosinini Uzaq Şərqdə satmaq üçün yollar axtarırdı. Leyn hələ 80-ci illərdə Uzaq Şərqdə ticarət əlaqələri qurmuş Markus və Sem Samuel qardaşlarına dəfələrlə təklif

etmişdi ki, onlar kerosini də öz satış mallarının siyahısına daxil etsinlər. Həmin dövrdə Uzaq Şərq bazarlarında "Standard Oil"un hökmranlığı artıq hamıya bəlli idi. Onunla rəqabətə girmək son dərəcə təhlükəli və perspektivsiz sayılırdı. "Standard Oil" istədiyi vaxt qiymətləri aşağı salmaqla, hər hansı bir rəqibi müflis etməyə qadir idi. Onun qarşısında duruş gətirmək üçün kerosini daha ucuz qiymətə satmaq lazım gəlirdi. Bu isə son dərəcə mümkünsüz görünürdü. Çünki neftin bir qədər əvvəl qeyd etdiyimiz üsulla daşınması kommersiya nöqteyi-nəzərindən əlverişlı deyildi. Neft satışını Uzaq Şərqdə inhisara almış "Standard Oil"un qoyduğu qiyməti aşağı salmağın başqa bir yolu neftin Süveyş kanalı vasitəsilə daşınması ola bilərdi. Lakin "Süveyş Kanal Kompani" şirkəti neft kimi təhlükəli yükün etibarsız üsulla kanaldan keçməsinə qəti etiraz edirdi. Odur ki, Leynin o zamankı təklifinə Markus Samuelin şübhəli münasibəti anlaşılan idi.


Markus Samuel

Lakin Batum limanında tankerlərlə bağlı gördükləri Samueli son dərəcə heyrətləndirdi və bu üsulla Uzaq Şərq limanlarına kerosin daşınmasının mümkünlüyünü yəqin etdi. Bunun üçün ilk növbədə "Süveyş Kanal Kompani"nin müəyyən etdiyi təhlükəsizlik tələblərinə cavab verən tankerlər inşa edilməli idi. Elə tankerlər ki, əsaslı surətdə yuyulub təmizləndikdən sonra geriyə, Avropaya boş deyil, müxtəlif çeşidli yüklərlə qayıda bilsin. Belə olduğu təqdirdə "Standard Oil" ilə ciddi və uzunmüddətli rəqabət uğurla nəticələnə bilərdi.

Bundan illər keçəndən sonra Samuel belə demişdi: "Biznesdə uğur qazanmaq üçün ən əsas yeni ideyaların olmasıdır. Asan yolla uğur qazanmaq mümkün deyildir".

Dövrün təhlükəsizlik tələblərinə cavab verən tankerlərin layihəsinin hazırlanması İngiltərənin o zamankı məşhur dəniz





mühəndislərindən biri olan ser Forteskü Flennerə həvalə olundu. 1891-ci ildə Samuelin bu planını "Süveyş Kanal Kompani"nin rəhbərliyi də dəstəklədi. Beləliklə, Bakı neftini Uzaq Şərq bazarlarına daşımaq yolunda qızğın iş başladı.

Eyni zamanda Uzaq Şərq limanlarında Markus Samuel kerosin saxlamaq üçün iri metal çənlər inşa etdi. Sonra isə Batumdan uzunmüddətli kerosin təchizatını təmin etməkdən ötrü "Bnito" adlı bir rus konserni ilə müqavilə də bağladı. Bu konsern nefti hasil və emal edənlərə məxsus idi və Rotşildlər ailəsi tərəfindən nəzarət edilirdi[2].

Hazırlıq işlərinin qızğın çağında "Standard Oil" Bakı neftinin timsalında qarşıdan gələn real təhlükəni dərhal hiss etdi və bunun qarşısını almaq tədbirlərinə əl atmaq məcburiyyətində qaldı. İlk növbədə İngiltərə hökumətinə və şirkətinə etiraz edildi. Mətbuatda böyük hay-küy qaldırıldı. Öz növbəsində "Süveyş Kanal Kompani"yə də təzyiqlər edildi. Lakin yeni gəlir mənbələri əldə etməkdə maraqlı olan şirkət rəhbərliyi "Standard Oil"un bu iddialarını qətiyyətlə rədd etdi.

Bu qarşıdurmaya baxmayaraq, Markus Samuel öz tankerlərini inşa etməkdə davam edirdi. İngiltərə hökuməti də öz tərəfindən bu məsələyə müdaxilə etməməyi daha məqsədəuyğun saydı. Bu isə Markus Samuelin qələbəsi demək idi. Tezliklə su tutumu 5010 ton olan ilk tanker hazır oldu. Nəhayət "Müreks" adlanan bu tanker, göyərtəsində 4000 ton Bakı kerosini 1892-ci il avqustun 24-də yedək gəmilərinin köməyilə (mühərrikləri işlətməyə icazə verilmirdi), Süveyş kanalını keçib özünün qiymətli yükü ilə Sinqapura və Banqkoka doğru üz tutdu[3].

Proqnozlar özünü tamamilə doğrultdu. Onların gətirdikləri Bakı nefti "Standard Oil"un təklif etdiyindən iki dəfədən də çox ucuz idi[4]. Bundan əlavə yerli əhalinin adət etdiyi və məişətinə daxil olan bir məsələ də tezliklə öz həllini tapdı. Neft anbarlarının yaxınlığında dəmir konteyner istehsal edən zavodlar inşa edildi[5]. Çünki yerli alıcılar kerosini məhz belə konteynerlərdə almağa adət etmişdilər. Çünki bu konteynerlərin dəmirindən yerli əhali "fincan, boşqab, səhəng və minlərlə başqa gündəlik tələbat mal-




Bakı neftini Uzaq Şərqə daşıyan "Müreks" tankeri

ları hazırlayır, evlərin tikintisində istifadə edirdilər"[6]. "Standard Oil" vaxtilə bu mühüm amili nəzərə alaraq, kerosini məhz belə konteynerlərdə alıcılara təklif edirdilər. Odur ki, konteyner istehsal edən zavodların inşası son dərəcə vacib idi. Beləliklə, neft satışına mənfi təsir göstərə biləcək son maneələrdən biri də aradan qaldırılmış oldu.

Samuelin əldə etdiyi uğurlar "Standard Oil"un Çində durmadan artan nüfuzuna ciddi təhlükə yaradırdı. Digər tərəfdən "Standard Oil"un banisi və sahibi Rokfeller də buna qarşı tədbirlər görmək əzmində idi.

Lakin bütün bunlara, yəni təkzibedilməz uğurlara, meydana çıxa biləcək təhlükələrə baxmayaraq, Markus Samuel Bakı neftini Uzaq Şərq limanlarına daşımaqda israrlı idi. Odur ki, ilk uğurdan ruhlanan Samuelin, 1893-cü ildə daha 11 tankeri suya buraxıldı[7]. Onu da deyim ki, 1895-ci ilın sonuna kimi Süveyş kanalından Bakı nefti ilə yüklənmiş 69 tanker keçmişdi[8]. Onlardan 65-i Samuel qardaşlarının idi.





Markus Samuelin neft əməliyyatları o qədər genişləndi ki, nəhayət 1897-ci ildə o, yeni firma – "Shell Transport and Trading Company Limited"i yaratdı[9]. Bu elə bir dövr idi ki, Markus Samuel nəinki Rokfellerin "Standard Oil"u ilə, həmçinin 1890-cı ildə yaradılmış və Hollandiya Ost-İndiyasında (indiki İndoneziya) neft çıxarılması ilə məşğul olan digər Avropa şirkəti "Royal Dutch" ilə də ciddi rəqabət aparmağa məcbur oldu. Beləliklə XIX yüzilliyin sonuna yaxın dünya bazarında neftlə bağlı rəqabətin güclənməsi artıq göz qabağında idi. XX yüzilliyin astanasında bu rəqabət daha da güclәndi. O'Konnor bu xüsusda yazır: "XIX yüzillikdə hər şey sadə idi. Dünyanın bütün ölkələrini neftlə təkcə Con D.Rokfeller təchiz edirdi. Demək olar ki, yüzilliyin sonuna qədər ABŞ-dan başqa, faktiki olaraq, neft təchizatının digər iri mənbəyi, Birləşmiş Ştatların özündə isə "Standard Oil trast"dan daha böyük neft təchizatçısı yox idi. Onun tankerləri dünyanın dəniz və okeanlarını yarıb keçir, yüklərini Londondan Şanxaya qədər bütün limanlarda



Rokfellerlər ailəsi

boşaldırdılar. Həmin dövrlərdə əsas etibarilə Çinə və Hindistana işıqlandırma kerosini və dünyanın bütün ölkələrinə sürtgü yağları göndərilirdi. Lakın 90-cı illərə yaxın "Standard Oil"un inhisarı dağılmağa başladı. İsveç-rus "Nobel qardaşları şirkəti" Qafqazda zəngin neft yataqlarını işlədirdi. 1898-ci ildən 1901-ci ilə qədər olan qısa bir dövr ərzində Rusiya neft hasilatının miqdarına görə hətta ABŞ-ı ötüb keçə də bılmişdi. Rotşildların Avropa bank evi, çara, onun maliyyə problemlərini çözməyə kömək göstərməklə, özünə də kömək etdi, Bakının neft mədənlərinin sahələrini ələ keçirtdi"[10].



Rotşildlər aılәsi

Beləliklə də, Avropanı fəth edən Nobel qardaşlarının ardınca Bakı neftinin köməyilə Markus Samuel də Uzaq Şərqi fəth etməyə nail oldu. Lakin bu hələ başlanğıc idi. Əsl hadisələrə isə çox az qalırdı.



## V fəsil

# KEROSİN ERASINDAN BENZİN ERASINA KEÇİD və DÜNYA SİYASƏTİNDƏ YENİ ÇALARLAR

**1901**-ci il yanvar ayının 10-u dünyanın neft tarixinə özünəməxsus bir gün kimi daxil oldu. Həmin gün dünyanın ən məşhur neft quyusu "Spindlton"dan səsi bir neçə mil uzaqdan eşidilən bir partlayışla, qəflətən bir neçə yüz fut yüksəkliyə qalxan neft və palçıq fontanı vurdu[1]. Bu, eyni zamanda, Texasda neft sənayesinin yaranması demək idi. Beləliklə də ABŞ-da Pensilvaniyadan sonra ikinci böyük neft bölgəsi meydana gəldi. Texasa həsr etdiyi kitabında tədqiqatçı alim Con Beynbric bu münasibətlə yazırdı: "Tariximizin dönüş nöqtəsi olan bu hadisə, neft inhisarının sonu və duru yanacaq erasının başlanğıcı kimi əlamətdar oldu."[2]

"Spindlton" adi quyulardan deyildi. Quyu Amerikada misli görünməmiş bir məhsuldarlıq nümayiş etdirdi. Cəmi bir il ərzində bu ilk quyunun verdiyi neftin miqdarı Şərq ştatlarındakı 37 min quyunun birgə verdiyi neftə bərabər idi[3].

Lakin "Spindlton"un məhsuldarlığı uzun sürmədi. 1902-ci il avqustun 10-dan etibarən onun fontanvurma gücü bitərək, gündəlik hasilatı 62 mindən 5 min barrelə qədər azaldı[4]. Buna baxmayaraq, neft axtarışı bir an belə səngimirdi. Bu axtarışların nəticəsi olaraq, Texasın digər bölgələrində, bir qədər sonra isə Luiziana və Oklahomada da neft yataqları aşkar edildi. Yeni yataqların aşkarlanması elə bir dövrə təsadüf etdi ki, artıq neft məhsullarına olan tələbatda mühüm dəyişikliklər müşahidə olunmağa başlamışdı.

Məlumdur ki, 1859-cu ildən başlayaraq, 40 ildən artıq bir dövr ərzində ən vacib neft məhsulu kerosin hesab olunurdu. "Nobel qardaşları şirkəti"nin neft gəliri isə ilk növbədə əsasən kerosindən əldə edilirdi. O cümlədən, neft imperiyası sayılan ABŞ-ın "Standard Oil" şirkətinin də çiçəklənməsi, birmənalı olaraq, kerosinin satışı ilə bağlı idi. Həqiqətən də kerosin bütün dünyada əsas və əvəzolunmaz işıqlandırma vasitəsi idi. Onun alternativi yox idi desək, zənnimizcə səhv etmiş olmarıq. O'Konnorun "Kerosin

erası" adlandırdığı o dövr, işıqlandırma sahəsində sözün əsl mənasında bir inqilab idi. O'Konnor yazır: "XIX yüzilliyin əvvəlində zülmətə qarşı şamlar mübarizə aparırdı. Daha varlı adamlar balina yağı yandırmağı özlərinə rəva bilirdilər və Nyu-Bedfard çiçəklənirdi. Yer səthinə sızaraq çıxan yerdə əldə olunan neft özünün müalicəvi xassələrinə görə də məşhur idi. Lakin işıqlandırmada istifadə etmək üçün olduqca baha başa gəlirdi.

Lütfkar adam olduğuna görə "polkovnik" adlandırılan Edvin L.Dreyk sadə, qətiyyətli və orijinal ideyası ilə insanlara çoxlu işıq verdi. O, duz quyularının qazma texnikasının surətini çıxardı və məqsədyönlü şəkildə bir çox duz mədənlərini çirkləndirən nefti əldə etmək üçün həmin quyuları qazmağa başladı. Nəticədə barrellərlə neft çıxarıldı. Sonra kerosin lampası ixtira edildi. O, əvvəllər olduğu kimi, daha çox ev və komaları işıqlandırır, nəinki elektrik işığı"[5].

1955-ci ildə yazılmış bu sözlər təkcə Amerikaya deyil, bütün dünya ölkələrinə, o cümlədən Azərbaycana da şamil edilə bilər.

Fəqət XX yüzilliyin əvvəlindən etibarən elektrik enerjisinin insanların məişətinə sürətlə və geniş miqyasda daxil olması, onun köhnə kerosin lampalarından daha mütərəqqi və ekoloji cəhətdən daha təmiz olması, kerosinə olan tələbatın perspektivini şübhə altında qoydu. Və illər keçdikcə kerosinə olan maraq və tələbat kəskin surətdə aşağı düşməyə başladı. Xüsusilə də iqtisadi və sənaye cəhətdən inkişaf etmiş ölkələrdə və iri şəhərlərdə.

Kerosinə tələbatın sürətlə azalması elektrik enerjisinin tətbiqi ilə izah olunurdusa, on illər boyu demək olar ki, tullantı kimi qiymətləndirilən benzinə olan böyük tələbat başqa amillərlə səciyyələnirdi. Benzinə yaranan kəskin tələbat, bir növ, benzin erasının əsasını qoymuş oldu. Bəs bu tələbat nə ilə əlaqədar idi? Bu suala cavab verməkdən ötrü bir qədər geriyə qayıtmaq lazım gələcək. Çünki bütün dünyanı əlinə almış kerosinin təkbaşına hökmranlıq etdiyi günlərin sayı get-gedə azalırdı. Neftdən alınan digər məhsullar zamanın tələbinə uyğun olaraq həyata vəsiqə almaqda idilər. Neftin təkcə işıqlandırma deyil, daha çox hərəkətverici gücə malik olması artıq heç kəsdə şübhə oyatmırdı. Fransız Etyenn Lenuarın





ilk dəfə daxiliyanma mühərriki kəşfindən 25 ildən artıq bir vaxt keçsə də, düşünən başları silkələdi, elmin, texnikanın imkanlarına daha açıq gözlə baxmağa məcbur etdi. Yeni ideyaların, perspektivli elmi-texniki konsepsiyaların meydana çıxmasına güclü təkan verdi. Məlum oldu ki, dünya sivilizasiyasının gələcək inkişafı üçün neftin imkanları təsəvvür edildiyindən də geniş və misilsizdir.


Etyenn Lenuar

Fəqət ulu Tanrının insanlara bəxş etdiyi bu bənzərsiz sərvət çoxlu suallar da yaratdı. Məlum oldu ki, misli görünməyən hərəkətverici gücə malik olan neft, nəinki insan fəaliyyətinin ən müxtəlif sahələrini, həmçinin irili-xırdalı bütün məmləkətləri və cəmiyyətləri də hərəkətə gətirib dəyişdirmək iqtidarındadır.

1860-cı ildə ixtira edilmiş ilk daxiliyanma mühərrikini əsaslı şəkildə həyata tətbiq etmək xeyli müddət mümkün olmadı. Yalnız 1885-86-cı illərdə uzun axtarışlar əməli nəticəsini verdi. Həmin vaxt Almaniyada Q.Daymler və K.Bents soyadlı heç kimin tanımadığı iki nəfər daxiliyanma mühərriki ilə işləyən ilk avtomobil ixtira etdilər. Bu, öz dövrü üçün gerçəkdən əlamətdar hadisə idi. Təbii ki, bu hadisə diqqətdən kənarda qala bilməzdi. Avtomobilin gələcək perspektivi son dərəcə nikbin görünürdü. Belə də oldu. Tezliklə dünyanın iqtisadi və texnika cəhətdən inkişaf etmiş ölkələri sürətlə avtomobilləşmə yoluna qədəm qoydular. XIX yüzilliyin sonla-


İlk daxiliyanma mühərriki



Q.Daymler



K.Bents

rında Fransa, Almaniya, ABŞ və Böyük Britaniyada avtomobil sənayesinin möhkəm təməli qoyuldu[6]. 1903-cü ildə əsası qoyulan "Ford-motor" avtomobil şirkəti ABŞ-da avtomobili konveyer üsulu ilə istehsal etməyə başladı. Bu həm də avtomobilə olan tələbatın artması zərurətindən irəli gəlirdi. Bu mütərəqqi üsulu ilk dəfə Henri Ford tətbiq etmişdi. Sonralar Henri Ford dünyanın başqa ölkələrində, o cümlədən də Almaniyada və Böyük Britaniyada seriyalı avtomobil istehsalı yaratdı. Bu münasibətlə O'Konnor yazırdı: "Henri Ford "T" modelli avtomobilin yaradıl-



İlk avtomobil





masını başa çatdırdıqdan sonra kerosin yenə də təhlükəsiz oldu"[7]. Bu ifadəyə aydınlıq gətirmək üçün bir qədər əvvələ qayıtmağa ehtiyac var.

Benzin haqqında danışarkən qeyd etmişdik ki, neft emalçıları gərəksiz saydıqları benzindən yaxa qurtarmaq üçün müxtəlif vasitələrə əl atardılar. Bəziləri onu təhlükəsizlik tələblərinə zidd olaraq, istehsal etdikləri kerosinə qatışdırmaqdan belə çəkinmirdilər. Qeyri-qanuni sayılan bu əməllər çoxlu partlayışların, yanğınların əmələ gəlməsinə səbəb olurdu. İndi isə benzin get-gedə dəyərini artırır, qiyməti durmadan yüksəlirdi.

1897-ci ildə alman mühəndisi Rudolf Dizel daxiliyanma mühərrikinin yeni bir növünü yaratdı. Bu mühərrik sonralar "Dizel" mühərriki adlandırıldı. Dizel yanacağı ilə işləyən bu mühərrik əsas etibarilə gəmilərdə, lokomotivlərdə, yük avtomobillərində, traktorlarda və dizel elektrik stansiyalarında quraşdırılırdı. Kerosin, qazoyl və solyar fraksiyasından yaranan dizel yanacağı neftin hərəkətverici imkanlarını daha da genişləndirdi. Artıq quruda və suda neft əsas hərəkətverici amilə çevrilməkdə ikən, onun tətbiqedilmə dairəsinin yeni parametrləri müəyyənləşdirilir, ilk baxışda ağlabatmaz görünən cəsarətli ideyalar irəli sürülürdü.



Orvill Rayt



Uilber Rayt

İnsanların yüzillər boyu nəsilbənəsil arzuladıqları fantastik bir ideya nəhayət reallığa çevrildi. 1903-cü il dekabrın 17-də amerikalı mexaniklər U. və O. Rayt qardaşlarının idarə etdikləri və daxiliyanma mühərriki ilə işləyən ilk təyyarə havaya qalxdı və bir müddətdən sonra uçuşu uğurla başa çatdırıb sağ-salamat yerə endi. Bu, indiyədək təsəvvürə belə gətirilə bilməyən bir hadisə idi və duru yanacağın misilsiz imkanlarını üzə çıxardı.

Latın dilində "quş" mənasını verən "avis" sözündən götürülmüş aviasiya XX yüzilliyin əvvəllərindən etibarən öz coşqun inkişaf yoluna qədəm qoydu. Avropa da bu sahədə geridə qalmırdı. A.Santos-Dümon, F.Ferber və başqaları təyyarə istehsalı ilə ciddi məşğul oldular.



Havaya qalxan ilk təyyarə. 17 dekabr 1903-cü il

Nəticədə benzinə olan tələbat günbəgün artdı. Məsələn, 1902-ci ildə Amerika yollarında cəmi 23 min avtomobil şütüyürdü, benzin satışının həcmi isə ildə 5,7 milyon barrel idi[8]. 1912-ci ildə minik və yük avtomobillərinin sayı 1 milyondan artıq idi[9]. Benzinə tələbat 20,3 milyon barrelə çatmışdı[10].

Tügendhet və Hamilton yazırlar: "1914-1915-ci illərdə benzin kerosindən çox satılmışdı və o, (yəni, benzin) neft məhsullarının hamısından ən üstünü oldu"[11].

O'Konnor isə 1911-ci ili şərti olaraq "benzin erasının başlanğıcı"[12] adlandırır. O qeyd edir ki, həmin ildə (Amerika nəzərdə tutulur – *N.Rza*) 619 min avtomobil mövcud idi və benzinin böyük hissəsi baqqal dükanlarının qarşısında qoyulmuş əl ilə





idarə olunan kolonkalar (silindr formalı dəmir qablar) vasitəsilə satılırdı[13].

Avtomobil istehsalı Avropanı da silkələdi. Minik maşınlarına tələbat durmadan artırdı. 1909-cu ildə təkcə İngiltərədə avtomobilləşmə ilə əlaqədar benzinə olan tələbat ildə 40 milyon qallondan (1 qallon 4,5 litrdir) artıq idi[14].

Azərbaycanın da daxil olduğu keçmiş Rusiya imperiyasında da ötən yüzillikdə bu sahədə ciddi canlanma hiss olunurdu. Texniki və texnoloji cəhətdən Qərb ölkələrindən xeyli geridə olmasına baxmayaraq, istər avtomobil, istərsə də təyyarə istehsalında müəyyən uğurlu çalışmalar və irəliləyişlər nəzərə çarpırdı. Belə ki, Rus-Baltik zavodunda 1909-cu illər ərzində 600 avtomobil istehsal edilmişdi[15]. Əlbəttə ABŞ, Böyük Britaniya və digər Avropa ölkələri ilə müqayisədə bu, o qədər böyük rəqəm olmasa da, hər halda Abşeron neftinin hesabına böyük neft ehtiyatlarına malik Rusiya imperiyası üçün son dərəcə önəmli bir məsələ idi. Həm də hadisələrin sonrakı inkişafı göstərdi ki, avtomobil sənayesi hər hansı bir ölkənin beynəlxalq nüfuzuna müsbət çalarlar gətirməklə yanaşı, həm də sözün əsl mənasında, strateji əhəmiyyətli çox mühüm bir sahədir. Özəlliklə də bir qədər sonra SSRİ libasında zühur edən Rusiya İkinci cahan savaşında bunu bütün gerçəkliyi ilə dərk etmək zorunda qaldı.

U. və O.Rayt qardaşlarının 1903-cü ildə təyyarə ilə səmaya sensasiya doğuran uçuşu Rusiyada da böyük əks-sədaya səbəb oldu. 1909-1914-cü illərdə mühəndis-konstruktorların əməyi uğurla nəticələndi. U.M.Qakkel, D.P.Qriqoroviç, İ.İ.Sikorski özlərinin ilk təyyarə konstruksiyalarını yaratdılar[16].



Rusiyada istehsal olunmuş ilk avtomobil. 1896



"İlya Muromets" təyyarəsi

Məşhur sovet avia-konstruktoru A.Yakovlev bu barədə yazırdı: "İnqilabdan əvvəl Rusiyada təyyarə istehsalı ilə 15-ə qədər müəssisə məşğul olurdu. Əsas etibarilə xarici markalı təyyarələr hazırlanırdı. Başlıca olaraq, bunlar fransız modelli təyyarələr idi: "Forman", "Maran", "Vuazen", "Nyupor". Halbuki Rusiya konstruksiyası ölkədə hazırlanmış bir sıra təyyarə növünə malik idi. Məsələn: "Lebed", "Parasol", "Sikorski", "İlya Muromets" və s."[17].

Bir müddət sonra başlanacaq Birinci cahan savaşı təyyarələrin ilkin nəsli üçün əsl sınaq meydanına çevriləcəkdı. Lakın ılk təyyarə modelləri hazırlanarkən onların yaxın gələcəkdə hərbı əhəmıyyət kəsb edəcəkləri barədə düşünənlərin sayı yəqin kı, o qədər də çox olmazdı.



VI fəsil

# DURU YANACAQ və HƏRBİ-DƏNİZ STRATEGİYASINDA İNQİLAB

Neftin hərbi-dəniz donanmasında tətbiqinin tarixi, əgər belə demək mümkündürsə, daha qədimdır. Hələ XIX yüzıllıyın 70-ci ıllərində Xəzər dənizindəki hərbi-dəniz donanmasının neft yanacağına keçırılməsi üçün praktıkı addımlar atılmışdı. Donanmanın "Çilıngər", "Pışal", "Böyük knyaz Konstantin" gəmılərində neft avadanlığı uğurla sınaqdan keçirildi[1]. Lakin Rusıyanın rəsmı dairələri hərbi gəmilərin neft yanacağına keçırilməsi ideyasına mənfi münasibət göstərirdılər. Odur ki, S.Quluşambarov və A.Odintsovun təklif etdikləri bu ıdeya bır müddət unuduldu da.



Ludviq Nobel

Lakin 10 ıl sonra, yənı 80-ci ıllərın əvvəlindən etibarən Dəniz nazirliyi hərbı donanmanın gəmilərində neft yanacağından istifadə etməyin mümkünlüyünü yəqin etməkdən ötrü yeni avadanlığın sınaqlarını təşkil etdi. 1885-ci ildə neft avadanlığı eyni vaxtda bir neçə gəmidə quraşdırıldı[2]. Tarixi mənbələr məlumat verirlər ki, nəticələr müxtəlif olurdu: bir qismi uğurlu, bır qismi uğursuz. Məsələn, hələ 1882-ci ildə "Gelencik" mınadaşıyan gəmisində aparılmış sınaqlar uğursuzluqla nəticələnmişdi[3]. Onu da qeyd etmək vacibdir ki, gəmilərdə bir qayda olaraq, "Nobel forsunkaları"* sınaqdan keçırılırdi[4]. Bu isə heç də təəccüblü deyildı. Çünki bundan hələ bır qədər əvvəl öz gəmılərində bahalı kerosinı mazutla əvəz edərkən, bıldı-



"Spinoza" tankerı

* Forsunka - mühərriklərin silindrinə və sairəyə maye və ya toz halında yanacaq vermək üçün cihaz.

yimiz kimi Lüdviq Nobel Rusiyada ilk dəfə olaraq, yeni konstruksiyalı pulverizatorlar ixtira etmişdi. Nəticədə şirkətə böyük iqtisadi xeyir gətirən bu ixtira gələcəkdə dəniz donanmasında yeni ideyaların yaranmasına güclü təkan vermişdi. Əgər o zaman söhbət tankerlərin iqtisadi səmərəliliyindən gedirdisə, indiki mərhələdə bu tamamilə başqa əhəmiyyət kəsb edirdi.

Lakin sınaqlarda başqa sistemlərdən də istifadə edilir, onların texniki imkanları müəyyənləşdirilirdi. Sınaqların yekunları sübut etdi ki, neft yanacağının sərfi o zamanlar ən keyfiyyətli kömür sayılan kardif adlanan ingilis kömüründən 2-2,5 dəfə azdır[5].

Neft avadanlığının sınaqları Baltik hərbi donanmasının gəmilərində daha fəal şəkildə aparılırdı. 1885-1888-ci illərdə aparılan bu sınaqlarda Bakı neftindən alınmış sürtgü yağları müvəffəqiyyətlə tətbiq edilirdi[6].

Əldə edilmiş nəticələr ona gətirib çıxardı ki, hərbi-dəniz donanmasının neft yanacağına keçirilməsi məsələsi Rusiyanın dövlət müəssisələrində və elmi dairələrində geniş müzakirə obyektinə çevrildi. Müzakirələr zamanı məlum oldu ki, nasosların köməyilə 200 min pud neft yanacağının gəminin anbarına doldurulması üçün cəmi 1 saat vaxt lazımdır[7]. Halbuki bu qədər kömürü yükləməkdən ötrü nə az, nə çox 12 saat vaxt tələb olunur[8].

Döyüş gəmisi açıq dənizdə neft yanacağını hətta hərəkətdə olan zaman da qəbul edə bilər. Neft yanacağı ilə işləyən gəmi eyni miqdarda kömürlə işləyən gəmidən iki dəfə artıq məsafə qət edə bilərdi[9].

Neft yanacağının başqa üstünlükləri də vardı. Məsələn, neft yanacağının mühərrikə ötürülməsi prosesi daha çox avtomatlaşdırılmışdı. Bu da öz növbəsində maşın şöbəsindəki komandanın sayının azalması demək idi. Digər tərəfdən isə neft yanacağının Rusiyanın hərbi limanlarına daşınması xeyli ucuz, rahat və tez başa gəlirdi[10]. Nəhayət, xüsusi dövlət komissiyası belə qənaətə gəldi: "Rusiyanın hərbi gəmilərində neft yanacağının tətbiqi üçün heç bir çətinlik yoxdur."[11]





Gəmilərdə yanacaq kimi, Bakının neftayırma müəssisələrində emaldan sonra ayrılmış neft qalıqlarından istifadə olunurdu. 1888-1890-cı illərdə "Nobel qardaşları şirkəti" Dəniz idarəsinə 1,4 milyon ton neft göndərmişdi[12].



"Nobel qardaşları" şirkətinin təsisçiləri

Lakin Rusiyanın hökumət dairələrində hərbi-dəniz donanmasının neft yanacağına keçirilməsinə münasibətdə rəylər müxtəlif olaraq qalmaqda davam edirdi. Halbuki Qərbi Avropada bu məsələ artıq xeyli vaxt idi ki, ciddi müzakirə obyektinə çevrilmiş və praktiki nəticələr əldə edilmişdi.

1883-cü ildə sakit kurort şəhəri Marienbadda iki nəfər ingilisin böyük ehtirasla apardığı söhbət son dərəcə maraqlı və eyni dərəcədə də ibrətamiz idi. Söhbət daxiliyanma mühərriklərindən, onların gələcək perspektivindən gedirdi.

Duru yanacaqla işləyən yeni mühərriklərin qəti tərəfdarı olan Fişer soyadlı bir kapitan, tamamilə əks mövqedə duran və bu məsələyə xeyli dərəcədə şübhə ilə yanaşan həmsöhbətinə öz qənaətlərini qətiyyətlə müdafiə edərək deyirdi: "Müharibədə sürət hər şeydir. Duru yanacağın donanmada tətbiq edilməsi gəmilərin döyüş qabiliyyətini 50 faiz artırır. Çünki onları birbaşa açıq dənizdə də yanacaqla doldurmaq olur. İndi isə gəmilərin üçdə bir hissəsi kömür ehtiyatı yığmaq üçün körpülərdə işsiz durub. Əgər biri neft, digəri isə kömürlə işləyən eyni tonnaja malik, iki iri döyüş gəmisini müqayisə etsək, o zaman birincinin sürəti ikincininkindən üç dəniz mili qədər çox olacaq. Müharibədə isə bu, həlledici əhəmiyyətə malikdir.

Neft kimi yüksək keyfiyyətli yanacaqdan istifadə edilməsi, maşınlara xidmət edən heyəti 66 faiz ixtisara salmağa imkan

verər. Uzun müddət saxlamaqdan neftin keyfiyyəti pisləşmir, kömür haqqında isə bunu demək olmaz. Dəniz döyüşü ərəfəsində gəmiyə heç olmasa bir funtun (kömür nəzərdə tutulur – *N.Rza*) belə yüklənməsi cinayətkarlığa bənzər bir yüngüllükdür"[13].

Maraqlıdır ki, Rusiyadan fərqli olaraq, heç bir neft yataqlarına malik olmayan Qərbi Avropa ölkələri özlərinin hərbi-dəniz donanmalarını neft yanacağına keçirmək məsələsində daha qətiyyətli və ardıcıl təsir bağışlayırdılar. Məsələn, XIX yüzilliyin sonlarında İngiltərənin hərbi-dəniz donanması neft yanacağını uğurla tətbiq etməyə başladı. Donanmaya daxil olan "Devasteyşn" kreyserinin 4 min at gücündəki mühərrikinə 1899-cu ildə neft yanacağının uğurla tətbiq edilməsi gözləniləndən də yaxşı nəticəyə səbəb oldu. Kreyser tam yanacaq ehtiyatı ilə 30 gün səfərdə oldu. Halbuki kömür ona cəmi 4-5 gün bəs edə bilərdi[14].


Akademik İ.Qubkin

Gəmilərin kömürdən neft yanacağına keçməsini şərh edərək akademik Qubkin sonralar yazırdı: "İlk dövrlərdə hərəkətverici enerji mənbəyi rolunu əsasən kömür oynayırdı. Yalnız XIX yüzilliyin sonlarında bəşəriyyət tədriclə neftin bu istiqamətdə istifadə olunmasının şəksiz üstünlüklərini qiymətləndirməyə başladı.

Gəmilərdə kömürün neftlə əvəzlənməsi xüsusi əhəmiyyətə malikdır. Belə əvəzlənmə bir tərəfdən gəmilərin yükdaşıma qabiliyyətinin artmasına, digər tərəfdən isə rahat manevr etməsinə səbəb olur. Çünki belə gəmilər kömür işlədən və vaxtaşırı yanacaq ehtiyatı əldə etmədən keçinə bilməyən gəmilərdən fərqli olaraq, özlərinin yanacaq təchizatı bazalarından uzun müddət və uzaq məsafələrə ayrıla bilirlər. Bu isə olduqca vacibdır. Neft yanacağının nəhəng üstünlükləri və neftin özünün s i y a s i (seçmə mənimdir – *N.Rza*) əhəmiyyəti, ilk baxışda oqədər də mühüm görünməyən məhz bu faktda özünü





biruzə verır. Neftin yanacaq əhəmiyyəti isə fabriklərə, zavodlara, dəmir yollarına və s. şamil edilir."[15]

Beləliklə Qubkin neftin ayrı-ayrılıqda s i y a s i və y a n a c a q (seçmə mənimdir – *N.Rza*) amili olmasını xüsusi qeyd edərək, daha sonra yazır: "Neft, kömür və digər bərk yanacaq növləri ilə əvvəllər, sözün əsl mənasında yanacaq kimi rəqabət aparırdı. Çünki odluğların qazanlarında yandırılmağa məhkum idi. Lakin tezliklə hərəkətverici enerji mənbəyi olması ilə neftin sonrakı təbəqələşməsi baş verdi: mazutla yanaşı, yanacağın mühərrik növü kimi benzin və qazoylu (solyar yağı) da ayırd etməyə başladılar. Onlar artıq odluğlarda deyil, daxiliyanma mühərriklərində tətbiq olunurdular"[16].

Maraqlıdır ki, neftin bir yanacaq kimi daxiliyanma mühərriklərində tətbiq edilməsi uğurları ilk növbədə həm mülki, həm də hərbi gəmilərlə bağlı idi. Bu istiqamətdə aparılan araşdırmalar və sınaq işləri xeyli ciddi və ardıcıl idi. Quruda və havada gözəçarpan belə uğurlar əldə edilməsinə baxmayaraq, dəniz nəqliyyatındakı vəziyyət tamamilə başqa cür idi. Xüsusilə də hərbi sahədə.

XX yüzilliyin əvvəlində ingilis, fransız, alman və digər hərbi donanmalarda döyüş gəmilərinin neft yanacağına keçirilməsi üzrə işlər davam edirdi. Həmin vaxta qədər təkcə ingilis donanmasında neftlə işləyən 15 iri gəmi vardı. Bu gəmilər (kreyserlər və zirehdaşıyanlar) böyük sürətlə hərəkət edir və yüksək manevretmə qabiliyyətinə malik idilər[17].

Rusiyada isə həmin dövrdə (1901-ci il) bir sıra uğurlu sınaqdan sonra Baltik donanmasının 9 minadaşıyan gəmisi kömürdən neft yanacağına keçirilmişdi. Baltik və Qara dəniz hərbi limanlarında hətta neft yanacağı üçün anbarların inşasına da başladılar[18].

Lakin Qərbi Avropa ölkələri bu sahədə daha israrlı görünürdülər. Belə ki, artıq 1902-ci ildə İngiltərədə müxtəlif tipli 200 döyüş gəmisi neftlə işlədilirdi[19].

Belə xəbərlər Qərbi Avropanın digər ölkələrindən də gəlməkdə idi. Dünyanın aparıcı ölkələri öz hərbi-dəniz donanmalarını durmadan neft yanacağına keçirirdilər.

Belə bir vaxtda və bu kimi amillərin təsiri ilə Rusiyanın Dəniz nazirliyi bir qərar qəbul etdi. Bu qərara əsasən yeni inşa edilən zirehli gəmilər neft avadanlığı ilə təchiz edilməli idilər[20].

1903-cü ildə İngiltərə, Fransa, Almaniya donanmalarının iri gəmilərində neft yanacağının tətbiqində əldə edilmiş yeni uğurlar bu işlərin Rusiyada davam etdirilməsinə təkan verdi[21]. Lakin əvvəllərdə olduğu kimi yenə də qətiyyət və ardıcıllıq gözə dəymirdi. Dünyanın ən zəngin və məhsuldar neft yataqlarına sahib çıxan Rusiya imperiyasının bürokratiya xəstəliyinə tutulmuş rəsmi dairələri son dərəcə ləng tərpənir, dünyada baş verən taleyüklü hadisələrin quyruğunda sürünməyə üstünlük verirdilər.

Rusiya hökuməti neft yanacağının ölkənin hərbi-dəniz donanmasındakı gəmilərdə istifadə olunması barədə konkret qərar qəbul etməkdən hələ də çəkinirdi.

Artıq 1904-cü il idi. Rus-yapon müharibəsinin başlanmasına çox az qalırdı. Çürüməkdə olan çar Rusiyasını qarşıda çətin sınaqlar gözləyirdi. Elə həmin vaxtda, yəni 1904-cü ildə ingilis və italyan donanmalarında neftdən yanacaq kimi istifadə edən zirehli gəmilərin sayı daha da artdı[22].

ABŞ-da bu məsələni öyrənməkdən ötrü hökumətin qərarı ilə xüsusi komissiya yaradıldı[23]. Fransız donanmasının sualtı qayıqlarında xam neft ilə işləyən dizel mühərrikləri quraşdırıldı[24].



Fransız sualti qayığı. 1900-cu ıl

Maraqlıdır ki, həmin dövrdə Xəzər donanmasının döyüş gəmilərinin bir çoxunda neft yanacağı uğurla tətbiq edılırdi.

Lakin beynəlxalq vəziyyət heç də Rusiyanın maraqlarına uyğun şəkildə inkişaf etmirdi. Bir yandan Yaponiya ilə müharibə vəziyyəti, digər tərəfdən isə İngiltərə ilə münasibətlərin pisləşməsi heç də yaxşı perspektivdən xəbər vermirdi. İngiltərədə antirus mövqeyi o dərəcədə yüksək idi ki, onu aradan qaldırmaq üçün çar Rusiyası hər vasitəyə əl atmağa çalışırdı. Hətta Bakı neftindən də mümkün qədər faydalanmağa çalışır, ingilis kapitalının Bakının neft sənayesində təmsil olunması üçün əlverişli şərait yaradırdı. Bunun nəticəsində XX yüzilliyin əvvəlində Bakı neft sənayesində 12 iri ingilis şirkəti fəaliyyət göstərirdi[25]. Bakıda təmsil olunan xarici kapitalın arasında birincilik məhz ingilis kapitalına məxsus idi[26].





İngilislər yerli və rus sahibkarlarından bir sıra mədən və zavodları satın alıb böyük firmalar yaratdılar. Bakının ən böyük və qiymətli neft rayonları ingilislərin əlinə keçdi. Birinci cahan savaşı ərəfəsində neft sənayesinə qoyulan xarici kapitalın 37 faizi ingilis kapitalistlərinin idi.

Rusiya və İngiltərənin rəsmi dairələrinin hərbi-dəniz donanmasında neft yanacağından istifadə olunması məsələsinə qeyri-adekvat münasibətini səciyyələndirən bir fakt diqqəti xüsusilə cəlb edir. Orada deyilir: “1905-ci ilin mart ayından etibarən İngiltərənin hərbi-dəniz donanmasının bir çox gəmisində qarışıq yanacaq (neft və kömür) üçün avadanlıq quraşdırılırdı. Bununla belə İngiltərənin öz neftinin olmaması və ondan donanmada istifadə olunmasının baha başa gəlməsi ingilis hökumətini heç də narahat etmirdi”[27]. Halbuki əksinə, neftlə zəngin olan Rusiyada bu çətin dövrdə hərbi donanmada əsasən ingilis kömüründən hazırlanmış daş kömürlü briketlərdən (preslənmiş daş kömür) yanacaq kimi istifadə olunması davam edirdi[28].



“Devasteyşn” kreyseri. 1899-cu il

Maraqlıdır ki, Rusiyada daş kömür briketlərilə bağlı müxtəlif təcrübələr keçirıldiyi bir vaxtda dünyanın digər dövlətlərində hərbi-dəniz donanmalarının neft yanacağına keçirilməsi prosesi qətiyyətlə davam edirdi. 1905-cı ildə Fransa hərbi donanmasının demək olar ki, bütün buxar gəmıləri neft və kerosin mühərrikləri ilə işləyirdi. İngiltərədə 18 sualtı qayıq yanacaq olaraq qazolindən istifadə edirdi. ABŞ-da da həmçinin, 18 sualtı qayıq kerosin mühərrikləri ilə işləyirdi[29].

ABŞ hökuməti Amerika donanmasının iri döyüş gəmilərində neft avadanlığının sınaqlarının keçirilməsi üçün böyük məbləğdə vəsait ayırdı[30]. Hətta heç bir neft mənbələrinə malik olmayan Almaniyanın, İtaliyanın və Avstriyanın da əksər döyüş gəmilərində yanacaq kimi neft və neft məhsullarından istifadə olunurdu[31]. Almaniya bu sahədə xüsusi canfəşanlıq göstərirdi.

Hələ 1898-ci il martın 25-də Almaniya reyxstaqında "Dəniz donanması haqqında qanun" təsdiq olundu[32]. Qanuna görə hərbi gəmilərin sayı kəskin surətdə artırılmalıydı. Həmin il martın 30-da "Almaniya dəniz ittifaqı" təsis edildi[33]. İki il sonra 1900-cü il martın 12-də Almaniyada dəniz donanması haqqında daha bir qanun qəbul edildi[34]. Bununla da hərbi-dəniz donanmasının 1917-ci ilə qədər iki dəfə artırılması üçün hüquqi baza yaradıldı.

Əgər 1902-ci ildə alman donanmasının yaradılması üçün 221 mln. marka[35] ayrılmışdısa, 1913-cü ildə bu məbləğ 481 mln. markaya[36] çatdırıldı. Bu onu göstərirdi ki, Almaniya qarşıya qoyduğu məqsədə hətta dörd il əvvəl nail ola bilmişdi.



UC-1 tipli sualti qayiq. 1904-cü il

1904-cü ildə Kil şəhərinin gəmi tərsanələrində almanların UC-1 tipli ilk sualtı qayığı inşa edildi[37]. 1910-cu ilə qədər alman donanmasının sərəncamına duru yanacaqla işləyən daha 17 sualtı qayıq verildi[38]. Müharibə başlayana qədər ilk dizel sualtı qayığı – U-19[39]-da alman donanmasının tərkibinə daxil edildi. Bir qədər sonra bu tipli daha 10 qayıq[40] hərbi donanmada öz yerini tutdu. Ümumiyyətlə 1912-ci ilə qədər artıq 72 sualtı qayıq inşa edilib istifadəyə verilmişdi.

Böyük Britaniyanın Dünya okeanındakı hökmranlığı Almaniya kimi iri Avropa dövlətini təbii ki, narahat etməyə bilməzdi. Odur ki, onunla rəqabət apara biləcək səviyyədə hərbi donanma yaratmaq yolunda heç nəyi əsirgəmirdi. Bunun üçün isə duru yanacaqla işləyən müasir gəmilərin olması tələb edilirdi.





1905-ci ildə Mərakeşin Tanjer şəhərində olarkən Almaniya kayzeri İkinci Vilhelmin verdiyi bəyanatda hər şey son dərəcə aydın göstərilirdi. Bəyanatda deyilirdi: "Dənizləri fəth etmək, dünyanı fəth etmək deməkdir."[41] Bu sözlər, Almaniya ilə İngiltərə arasında olan rəqabəti daha da gücləndirdi. Rəqabətin güclənməsində neftlə bağlı problemlər də az rol oynamamışdı. Bu problemin kəskinliyi Birinci cahan savaşı illərində, xüsusilə də onun sonlarına yaxın bütün kəskinliyi ilə ortaya çıxmışdı. Lakin bu məsələnin təfsilatı ilə bir qədər sonra. Hələlik isə bütün dünyanın gözü qarşısında neftin iqtisadi amildən, hərbi və siyasi amilə çevrilməsi prosesi gündən-günə şiddətlənməkdə idi.

Rusiya hərbi donanmasının neft yanacağına keçirilməsi üçün edilən səylər, atılan adda-budda addımlar köklü dəyişikliklərə səbəb olmadı və ola da bilməzdi. Bir sıra cüzi uğurlara baxmayaraq, Rusiyanın hərbi donanmasının bütün gəmilərinin neft yanacağına keçirilməsi məsələsi tam həllini tapmadı. Nəticədə rus donanması 1905-ci ildə yapon donanması tərəfindən ağır məğlubiyyətə uğradıldı. Elə bir neft ehtiyatına malik olmayan Yaponiya Rusiyanın hərbi strategiyasının tutarsızlığını əyani surətdə sübut etdi.

Ağır məğlubiyyət çar Rusiyasının siyasi və hərbi elitasını şoka saldı. Onun hərbi doktrinasının puçluğunu, zəngin neft imkanlarına malik olduğu halda, ondan hərbi məqsədlər üçün səmərəli istifadə edə bilməməsinin ağır nəticələrə səbəb olduğunu üzə çıxardı.

Müharibənin nəticələri hökuməti təcili tədbirlər görməyə məcbur etdi. Beləliklə 1907-1909-cu illərdə vəziyyət xeyli dəyişdi. Neft məhsullarının hərbi gəmilərdə tətbiqi sahəsində aparılan sınaqlar fəallaşdı. 1907-ci ildə Baltik donanmasının tərkibinə kerosin mühərrikləri ilə təchiz olunmuş 3 sualtı qayıq daxil edildi[42]. "Nobel qardaşları şirkəti" onları 22 min pud yüksək keyfiyyətli kerosinlə təmin etdi[43]. Elə həmin ildə Portsmutda, Maltada və Cəbəllüttariqdə Baltik dənizinin gəmiləri üçün 20-30 min qallon həcmində iri dəmir çənlər inşa edilməyə başlandı[44]. Bu, uzaq səfərlər zamanı zəruri olan kerosin ehtiyatı üçün idi.

Lakin rus donanmasında istifadə olunan benzin və kerosin mühərrikləri əsasən kiçik və orta həcmli gəmilər üçün nəzərdə tutulduğu halda, xarici donanmalarda yeni tipli mühərriklərlə iri gəmilər də təchiz olunurdular. 1907-ci ildə İngiltərədə neft yanacağı ilə işləyən 24 yeni minadaşıyan gəmi suya salınmışdı. Su tutumu 250 ton, sürəti 27 dəniz mili olan minadaşıyan gəmi 10 millik məsafəyə saatda cəmi 1 ton neft sərf edirdi[45]. Bu öz dövrünə görə olduqca gözəl nəticə sayılırdı. Kömürlə işləyən heç bir gəmi onunla rəqabət apara bilməzdi. Bu bir daha sübut etdi ki, ingilis avadanlığı başqaları ilə müqayisədə daha müasir idi.

1900-1909-cu illərdə Rusiyanın iqtisadi vəziyyəti, yumşaq desək, heç də qənaətbəxş deyildi. Ölkədə narazılıq gündən-günə artırdı. İqtisadi-siyasi durumun pisləşməsinə Yaponiya ilə müharibənin məğlubiyyətlə başa çatması da öz təsirini göstərməmiş deyildi. Belə bir vaxtda kerosin və benzin mühərrikləri ilə işləyən müasir tipli gəmilərin inşası külli miqdarda maliyyə vəsaiti tələb edirdi. Vaxt isə gözləmirdi. Dünyanın qabaqcıl ölkələri öz donanmalarını müasir tələblər səviyyəsində qurmaq işini sürətlə davam etdirirdilər.

Çətinliklə olsa belə Rusiya da bu prosesdən geri qalmamağa çalışırdı. Odur ki, 1908-ci ildə Almaniyadakı məşhur Krupp zavodunda kerosin dizel mühərrikləri ilə işləyən sualtı qayıqların inşası üçün sifariş verildi[46]. Onlardan 3-ü Baltik, 3-ü isə Qara dəniz donanması üçün nəzərdə tutulmuşdu.

Lakin kerosin ilə işləyən dizel mühərrikli sualtı qayıqların xarici tərsanələrdə inşası baha başa gəlirdi. Odur ki, geniş vüsət ala bilmirdi. Onu da qeyd etmək vacibdir ki, "1908-ci ildə rus donanmasının tərkibində olan 30 sualtı qayıqdan yalnız 6-sı kerosinlə işləyirdi. Avropanın digər dövlətləri ilə müqayisədə bu, əlbəttə ki, olduqca az idi"[47].

Birinci dünya müharibəsi yaxınlaşdıqca neftin hərbiləşməsi prosesi gündən-günə artırdı. Belə bir vaxtda neft uğrunda mübarizə daha da şiddətləndi və keyfiyyət etibarilə yeni mərhələyə qədəm qoydu.



VII fəsil

# BAKI DÜNYANIN CAZİBƏ MƏRKƏZİNƏ ÇEVRİLİR

1898-ci ildə xam neft hasilatına görə Bakının ABŞ-ı üstələməsi, 1901-ci ildə isə dünyada birinci yerə çıxması, yanacaq bazarında böyük təlatümə səbəb oldu. Bundan bir qədər əvvəl, yəni 1892-ci ildən bəri uğurla fəaliyyət göstərən Bakı-Batum-Uzaq Şərq neft xətti bu təlatümü daha da şiddətləndirdi.

Dünyanın neft biznesində indiyədək görünməmiş bir hadisə baş vermişdi. ABŞ-ın neft imperiyası sayılan qüdrətli "Standard Oil Trast"a tarixində ilk dəfə ciddi təhlükə yaradan bu hadisə, son dərəcə qeyri-adi və inanılmaz görünürdü. Xüsusilə də "Standard Oil"un banisi Con Rokfellerə. Fred Merks özünün "Qara qan" ("Черная кровь") kitabında yazır: "Rokfellerin düşərgəsində təşvişə düşdülər. Rus nefti (Bakı nefti nəzərdə tutulur – *N.Rza*) xüsusilə perspektivli və sərfəli idi. Çünki yüksək keyfiyyətə malik idi və onun yataqları Avropa bazarlarına məsafəcə əlverişli yerdə yerləşirdi"[1].

Belə bir vaxtda Rokfellerin nəzərləri Bakıya doğru yönəldi və özünün şəksiz nüfuzundan və maliyyə imkanlarından istifadə edərək o, burada da əlverişli mövqe əldə etməyə çalışdı. Lakin bu, o qədər də asan deyildi. Çünki Bakı da müəzzəm neft nəhəngləri diyarı idi. Alman, ingilis, fransız kapitalının cəmləşdiyi neft sənayesi üçün labüd olan infrastrukturun artıq təşəkkül tapdığı bir yerdə "Standard Oil"un da məskunlaşması son dərəcə problematık görünürdü. Bu hələ bir yana qalsın, digər tərəfdən Parisdəki Rotşildlər ailəsinə məxsus kreditlərin köməyilə Bakının neft biznesində əlverişli mövqe tutan və perspektivli imkanlar əldə edən "Shell" şirkəti də "Standard Oil"un qarşısında duran ciddi maneələrdən biri idi.

Doğrudur, bundan bir qədər əvvəl "Shell"in vəziyyətində müəyyən problemlər yaransa da, 1901-ci ildə Amerikanın Texas ştatında aşkar edilmiş "Spindlton" neft yatağı, çox keçmədən onların aradan qaldırılmasında mühüm rol oynadı. Markus

Samuel Mellonların təzəcə yaratdıqları "Gulf Oil" şirkəti ilə böyük bir müqavilə imzalamağa nail oldu. Müqaviləyə əsasən "Gulf Oil", "Shell" şirkətinə hər il 10 min ton neft[2] verməli idi. Nefti Atlantik okeandan daşımaqdan ötrü Samuel köhnə tanışı, məşhur gəmi konstruktoru Forteskü Flennerə, hər biri 20 min ton neft daşıya biləcək 4 yeni tankerin layihələndirilməsini tapşırdı[3]. O, eyni zamanda Böyük Britaniyanın Hərbi-dəniz nazirliyini inandırmağa cəhd göstərirdi ki, yanacaq kimi Texas neftindən istifadə etsin. Bu tədbirlər "Shell"in mövqelərini bir qədər də möhkəmləndirdi. Məhz belə bir vaxtda "Standard Oil" "Shell"ə növbəti dəfə birləşmək haqqında təklif irəli sürdü. Uzun sürən danışıqlardan sonra "Standard Oil" Samuelə 8 milyon funt sterlinq pul təklif etdi[4]. Fəqət "Standard Oil" şərtsiz də ötüşmədi. Bu şərtə görə, birləşmiş şirkətə tam nəzarət, ona məxsus olmalı idi. Samuel bu təklifi rədd etdi və alyans yaratmaq üçün başqa partnyorlar axtarmağa başladı. Axtarışlar uzun sürmədi. Tezliklə belə bir tərəfdaş tapıldı. Bu Henri Deterdinqin başçılıq etdiyi "Royal Dutch" şirkəti idi.

Hollandiya firması olan "Royal Dutch Petroleum Company"* 1890-cı ildə Haaqada yaradılmışdı və Niderland kralı III Vilyamın himayədarlığı altında fəaliyyət göstərirdi. "Royal Dutch" titulu da elə bununla əlaqədar idi. Şirkət Ost-İndiyanın (İndoneziyanın – *N.Rza*) Sumatra adasındakı neft yatağının işlənməsi ilə məşğul idi. Laboratoriya analizi vaxtı məlum oldu ki, aşkar edilmiş neftin tərkibinin 60 faizi kerosindən ibarətdir[5]. Tezliklə, qazılmış ilk quyudan güclü neft fontanı vurdu və bu quyu, 50 il ərzində kommersiya nöqteyi-nəzərindən öz hasilatını saxlamaq gücündə qaldı[6]. Avqust Kessler şirkətə sərəncamçı-direktor vəzifəsinə təyin edildikdən sonra o daha da möhkəmləndi və cəlbedici uğurlar qazandı. Və çox keçmədən, nəinki "Shell" ilə, hətta "Standard Oil" ilə də rəqabət apara biləcək bir qüvvəyə çevrildi. Bu elə bir zaman idi ki, Asiyanın gündən-günə artan neft bazarlarında rəqabət son dərəcə şiddətlənmişdi. Belə bir vaxtda gənc bir bank işçisi ilə tanış olan Kessler çox keçmədən onu şirkətin işlər müdiri

* Hollandiya Kral Neft Şirkəti.





təyin edir. Bu gənc oğlan sonralar "Neft Napoleonu" adlandırılan Avqust Henri Deterdinq idi. O, tezliklə özünün olduqca bacarıqlı və məharətli işçi olduğunu göstərdi və "Royal Dutch"ın fəaliyyətinin daha geniş vüsət tapmasında mühüm rol oynadı. O, Uzaq Şərqdəki rəqabət meydanına cürət və sürətlə daxil oldu. Bakı nefti ilə rəqabətə girmək üçün tankerlərin və iri metal çənlərin genişmiqyaslı inşası üçün əlindən gələni əsirgəmədi.

"Standard Oil" ilə üzüntülü rəqabətdə olan "Markus Samuel Company" istər-istəməz "Royal Dutch" ilə də rəqabət aparmaq zorunda qaldı. Beləliklə, Uzaq Şərqdə yeni bir təhlükə mənbəyi yaranmış oldu.

Lakin Uzaq Şərqdə Hollandiyanın ən iri neft şirkətinə çevrilməsinə baxmayaraq, istər "Standard Oil"un, istərsə də "Shell"in mövqeləri hələ də güclü idi. Digər tərəfdən Ost-İndiyanın keçilməz cəngəlliklərində işləmək son dərəcə ağır məhrumiyyətlərlə üzləşmək demək idi. Təbii ki, kapital əldə etmək də asan məsələ deyildi. Kapital olmadıqda isə, ingilislərlə və amerikanlarla rəqabət aparmaq üçün tələb olunan satış şəbəkəsi yaratmaq mümkün deyildi. Günlərin bir günü baş vermiş arzuolunmaz bir hadisə şirkəti ciddi bir təhlükə ilə üz-üzə qoya bilərdi. Şirkətin iri neft yatağından neft əvəzinə duzlu su çıxmışdı. Bu hadisə şirkətə baha başa gələ bilərdi. Odur ki, Kessler 1899-cu ilin yayında Rusiyadan böyük miqdarda Bakı kerosini almaq məcburiyyətində qaldı. Bunun sayəsində "Royal Dutch" başladığı işi davam etdirmək şansı əldə etdi. Nəticədə 1899-cu ildə şirkət Sumatra adasında yeni neft yatağı açmağa nail oldu[7].


J.B. Avqust Kessler

Bütün bu illər ərzində Kessler, "Shell" şirkəti ilə bir ittifaqda birləşmək haqqında düşünürdü və hesab edirdi ki, belə birləşmə şirkətin qarşısında duran problemlərin uzunmüddətli həlli üçün

əlverişli ola bilər. O, öz fikirlərini Markus Samuelə də bildirmişdi. Halbuki Deterdinq həmişə bu ideyanın əleyhinə idi. Onun fikrincə, belə birləşmə daha güclü şirkətin yaranmasına səbəb olsa da, digər tərəfdən ingilislərin nüfuzunun artmasına gətirib çıxaracaq. Yəni əsas söz sahibi "Shell"i təmsil edən ingilislər olacaq. Çünki, dünya neft biznesində "Shell"in nüfuzu da, mövqeyi də daha güclü idi. Odur ki, Deterdinq "Royal Dutch"ın da tez bir zamanda qüvvətlənməsini və "Shell"in səviyyəsinə çatmasını arzulayır və bunun üçün əlindən gələni əsirgəmirdi.

1900-cü ilin dekabrında Kesslerin vəfatından sonra onun yerinə keçən Deterdinq öz fəaliyyətini daha da genişləndirdi. Eyni zamanda "Shell" ilə birləşmək ideyası da gündəlikdə dururdu. Fəqət məsələni uzatmaq da təhlükəli idi. Çünki Deterdinq "Standard Oil" ilə "Shell" arasında gedən danışıqlardan da xəbərsiz deyildi. Baş tutacağı təqdirdə, bu ittifaqın son dərəcə qüdrətli olacağı heç kimdə şübhə doğurmurdu. Deterdinqdə də həmçinin. Deterdinq onu da başa düşürdü ki, "Standard Oil" – "Shell" ittifaqının mövcudluğu, eyni zamanda Uzaq Şərqdən "Royal Dutch" da daxil olmaqla digər neft şirkətlərinin sıxışdırılıb çıxarılması ilə nəticələnə bilərdi. Digər tərəfdən "Royal Dutch"ın Avropa bazarlarına ünvanlanmış arzuları da boş bir xəyal olaraq qalardı. Odur ki, Deterdinq ləngimədən hərəkətə keçməyə qərar verdi. Başa düşdü ki, artıq vaxt yetişib, fürsəti əldən vermək olmaz.

Nəhayət, 1902-ci ilin aprelində Samuel və Deterdinq həyatlarında ikinci dəfə olaraq görüşdülər[8] və birləşmək arzusunda olan hər iki şirkətin gələcəyi, onun quruluşu, strategiyası haqqında geniş müzakirələr apardılar. Maraqların heç də hamısının üst-üstə düşməməsinə baxmayaraq, hər iki şirkətin başçısı çox gözəl başa düşürdü ki, bu birləşmə hər ikisinin strateji maraqlarına tam uyğundur. Çünki əgər "Shell" güclü tanker donanmasına malik idisə, "Royal Dutch"ın zəngin neft mədənləri vardı. Rokfellerlə təkbaşına rəqabətin mümkünsüzlüyünü və perspektivsizliyini dərk edən Deterdinq "Shell" ilə birlikdə "Standard Oil Trast"a qarşı uğurlu mübarizəni real qiymətləndirirdı.






Ser Henri Deterdinq

Lakin birləşməyə aparan yollar son dərəcə çətin və mürəkkəb idi. Hadisələr göstərdi ki, bu yolun uzunluğu 5 ilə bərabərdır. Bu illər ərzində dünyanın neft bazarında müxtəlif hadisələr baş verdi. Qabarmalar və çəkilmələr müşahidə edıldi. "Royal Dutch"ın Asiyadakı mövqeləri günbəgün möhkəmləndiyi halda, "Shell" əksinə, bir sıra ciddi problemlərlə üzləşməli oldu. Belə bir vaxtda "Royal Dutch"ın mövqeyi "Shell"i xeylı üstələmiş oldu. Odur ki, Samuel Deterdinqə birləşməyi və bu birləşmədə hər bir şirkətin iştirak payının 50 faiz miqdarında olmasını təklıf etdi. Lakin "Shell"ın zəifliyindən yetərincə məlumatlı olan Deterdinq birləşməyə razı olsa da, Samuelin təklif etdiyi pay bölgüsünü rədd etdi və əvəzində öz variantını irəli sürdü. Deterdinqin təklifinə əsasən, pay bölgüsü belə müəyyən edilməlı idi: 60 faiz "Royal Dutch"a, 40 faiz "Shell"ə. Samuel bu təklifi qəbul etmək məcburiyyətində qaldı. Nəticədə 1907-ci ildə idarə heyətləri Londonda və Haaqada olmaqla yeni bir şirkət yarandı: "Royal Dutch/Shell". Lakin bu sadəcə olaraq birləşmə deyildi. Bu daha çox iki şirkətin alyansı, bir növ ittifaqı idi. Çünki onları ümumi maraqlar birləşdirsə də, müstəqil strukturlar kimı fəalıyyət göstərir, əldə edilən gəlirləri də, uğursuzluqları da 60:40 nisbəti ilə bölüşürdülər[9]. Dünyanın kommersiya mərkəzi London olduğuna görə, şirkətə rəhbərlik edən Deterdinq öz şəxsi idarəsini də orada açmağı lazım bildi[10]. Bir müddət sonra Bakı neft məkanına gələcək möhtəşəm neft şirkəti belə yarandı.

Markus Samuel iki şirkətin ittifaqını belə səciyyələndirdi: "Bu ittifaqa daxil olmuş şirkətlər mahiyyətcə möhkəmdirlər: onlar öz xammalını – nefti hasil edir və onu Yer kürəsinin istənilən nöqtəsinə ən səmərəli üsulla çıxarırlar. ...Onlar öz məhsullarının nəqlini, xammalın emalını, məhsulun öz şəxsi satış şəbəkəsi

vasitəsilə paylaşdırılmasını özləri həyata keçirirlər. Bundan daha möhkəm bünövrə üzərində təsis edilmiş biznesi təsəvvür etmək çətindir"[11].

İttifaqa daxil olmuş hər iki şirkətin biznes fəaliyyətini və keçdiyi yolu səciyyələndirən cəhətlər indi də böyük maraq doğurur. Çünki neft sənayesinə onların gəlmə yolları son dərəcə müxtəlif idi. Əgər "Royal Dutch" özünün neft sənayesindəki fəaliyyətini neftin çıxarılması və emalı ilə başlayıb, yalnız sonra özünün nəqliyyat və satış sistemini inkişaf etdirmişdisə, "Shell", əksinə, fəaliyyətə özünün nəqliyyat sistemi olan bir neft satıcısı kimi başlamış və yalnız bir qədər sonra öz nəzərlərini kəşfiyyat-axtarış və emal işlərinə yönəltmişdi.

Bir ittifaqda birləşəndən sonra isə "Royal Dutch/Shell"in imkanları daha da artdı, nəzərləri daha əlverişli və perspektivli ideyaların həllinə yönəldi.

1910-cu il üçün "Shell Transport and Trading" Bakıdan neftin ixracı sahəsində artıq 20 illik bir təcrübəyə malik idi. "Royal Dutch"ın isə Bakı ilə biznes əlaqəsinin tarixi 11 illə ölçülürdü[12].

Birləşdikdən sonra onların Bakıya, eləcə də Qafqaz neftinə olan maraqları daha da artdı. Həmin dövrdə Bakının, habelə



Bakı nefti dünya bazarında





Qafqaz bölgəsinin neft sənayesində hökmranlıq əsasən iki qrupa məxsus idi. Onlardan birinə Nobel ailəsi, digərinə isə Rotşildlərin bankir ailəsinin Paris qolu başçılıq edirdi.

Bir daha xatırlatmaq vacibdir ki, qeyd etdiyimiz hər iki qrup Markus Samuelin Bakının neft məkanına daxil olmasında bu və ya digər şəkildə iştirak etmişdi. Nobel qardaşlarının ilk dəfə olaraq inşa etdirib, Xəzərdə böyük uğurla istismar etdikləri tankerlər, Samueli də ruhlandırıb belə bir işə sövq etmişdilərsə, Rotşildlərin maliyyə vəsaiti ilə inşa edilmiş Bakı-Batum neft kəməri isə Samuelə Süveyş kanalı vasitəsilə tankerlərlə Bakı neftini Uzaq Şərq limanlarına daşımağa əlverişli imkan yaratmışdı. Məhz Bakı neftinin uğurlu satışı sayəsində Samuel "Standard Oil"a qarşı rəqabət apara biləcək qüdrətli bir şirkət yaratmağa müvəffəq olmuşdu. Odur ki, "Royal Dutch/Shell"in Bakıya artan marağı heç də təsadüfi deyildi. Həmçinin o da maraqlıdır ki, sonralar Bakı nefti ətrafında baş vermiş hadisələrdə, istər iqtisadi, istər siyasi xarakter daşıyan müzakirələrdə, mübahisələrdə, habelə 1920-ci ilin aprel çevrilişindən sonra yenidən Bakı neftinə sahib çıxmış və bu dəfə kommunizm bayrağı altında zühur etmiş yeni imperiyanın – Sovet Rusiyasının Abşeronun neft mədənlərini hərraca qoymaq məqsədilə apardığı avantüra xarakterli oyunlarda belə kənarda qalmamış, fəal tərəf qismində çıxış etməyə çalışmışdır.

Lakin həmin il, yəni 1910-cu ildə "Royal Dutch/Shell"in məqsədi heç də nobellərin və rotşildlərin Azərbaycandakı neft maraqlarına meydan oxumaq deyildi. Onların ilkin məqsədi, Quzey Qafqazda özləri üçün neftli sahə əldə etmək idi ki, tezliklə buna da nail oldular. Nəhayət ilk belə sahə Qroznıdan 520 kilometr aralıda əldə edildi. Həmin dövrdə dünyada neft hasilatı gündə təxminən 923 min barrelə çatdı[13]. Onun da 44 min barreli "Shell"* şirkətinin payına düşürdü[14]. Qafqazda neftli sahənin əldə edilməsi nəticəsində bu rəqəm, tezliklə 62 min barrelə qədər artdı[15].

"Royal Dutch/Shell"in biznes fəaliyyəti onun rəhbərlərinin dediklərinə görə, əsasən iki prinsipə söykənirdi. Birincisi, "rəqabətdənsə, əməkdaşlıq yaxşıdır[16]. İkincisi, "aşkarlıq və səmimiy-

* "Shell" – ingilis dilində "balıqqulağı" deməkdir.

yət"[17]. Deterdinq deyirdi: "Bizim işimiz heç vaxt bu cür uğurlu ola bilməzdi, əgər biz işimizin ümumi strategiyasının hansısa bir hissəsini gizlətməyə cəhd etsəydik"[18].

Məhz belə bir konstruktiv siyasətə əsaslanaraq, "Shell" tezliklə Qafqazda öz iştirakını xeyli genişləndirməyə nail oldu. Beləki, 1911-ci ildə o, Ural Xəzər neft şirkətinin Xəzər dənizindəki Ural bölməsində olan böyük perspektivli sahələrinin səhmlərinin əsas hissəsinə sahib çıxdı[19].



Bakı. XIX əsrin əvvəlləri

Nəhayət, Bakının da zamanı gəlib çatdı. 1918-ci ildə rotşildlərə məxsus "Bnito" şirkətinin 80 faizini[20] ələ keçirdikdən sonra, "Shell" digər şirkətləri də içərisində həzm edə bildi. Bir qədər sonra "Dreyfus və Rotşild" bankına məxsus səhmlərin daha 10 faizi "Shell"in ixtiyarına keçdi[21]. Bununla da o, Bakıda öz mövqeyini möhkəmləndirdi və gələcək planlarını həyata keçirmək üçün gözəl imkanlar əldə etdi. "Mazut" cəmiyyəti də duruş gətirə bilmədi. Ona məxsus səhmlərin böyük bir hissəsi, tezliklə "Shell"in əlində cəmləşdi[22]. Bununla da Samuelin simasında "Shell"in və Kesslerin simasında "Royal Dutch"ın təşəkkül tapmasında bu və ya digər şəkildə iştirak etmiş rotşildlər həmişəlik olaraq Bakı





səhnəsindən çəkıldılər. O'Konnor X. IX yüzilliyin sonlarında, XX yüzılliyin əvvəlində "Shell", "Royal Dutch" və rotşildlər arasında mövcud olan münasibətləri təhlil edərək yazırdı: "Rokfellerin heç də dostu olmayan rotşildlər 1898-ci ildə gənc şirkət olan "Royal Dutch"ı xilas etdilər, onun Rokfellerin məngınə keçməsinə imkan vermədilər, "Standard Oil"u sıxışdırıb, İndoneziya nefti ilə Uzaq Şərqin bir sıra bazarlarına yol açmaqda ona kömək etdilər"[23].

Fikrini davam etdirərək O'Konnor daha sonra yazırdı: "İndoneziyada balıqqulaqlarını alıb onları emal edən bacarıqlı bir London firması Samuel öz şirkəti ilə birlikdə onları bəzək-düzək yerinə sata-sata, həm "Royal Dutch" şirkəti, həm də "Standard Oil" üçün neft daşımağa başladı. Sonra isə özü də neft axtarmağa risq etdi. Rotşildlərin dilxorluğuna baxmayaraq "Shell Transport and Trading", "Royal Dutch" və "Standard Oıl" şirkətləri arasında üçtərəfli müharibə başladı. Halbuki 1902-ci ıldə rotşildlər hər iki Avropa şirkətini sülh şəraitində yaşamağa inandıra bılmışdılər. Kerosin və sürtgü yağlarının satışı üçün dünya bazarları uğrunda "Standard Oil" ilə istər hərbi, istərsə də ticarət gəmiləri üçün bunker yanacağı kimi istifadə olunan Texas və Meksika mazutu üçün sürətlə genişlənən bazarlar uğrunda daha uğurlu mübarizə aparmaqdan ötrü, bu iki şirkət beş ildən sonra bir-birinə qovuşdu. Səhmlərin 60 faizi əsas partnyor kimi "Royal Dutch"a, 40 faizi isə "Shell Transport and Trading"ə məxsus idi"[24].

Rotşildlərin Bakı səhnəsindən çəkilməsini bəzi tədqiqatçılar əsasən iki səbəb ilə əlaqələndirirdilər: əvvəla rotşıldlərin xarici bazarda "Standard Oil"a qarşı rəqabət apara bilməməsi, ikincisi isə daxildə Nobel qardaşlarının şəksiz üstünlüyü idi. Lakin rotşildlərin geri çəkilməsinin başqa səbəblərinin də olduğu iddia edılır.

"Shell" ilə rotşildlər arasındakı münasibətlərə işıq salarkən, Tügendhet və Hamılton yazırdılar: "Ötən yüzilliyin (XIX əsr nəzərdə tutulur – *N.Rza*) 90-cı illəri ərzində gəlirlərinin artmasına baxmayaraq, o, (yəni "Shell") neft göndərilməsi məsələsində demək olar ki, əvvəlkitək tamamilə rotşildlərlə bağlanmış müqavilədən asılı idi"[25].

O zaman Samuel Uzaq Şərqdə özü üçün şəxsi neft mənbələri əldə etməyə çalışırdı. Nəticədə Borneo adasında, Kutay adlı bir yerdə 1897-ci ildə böyük çətinliklərdən sonra neft yatağı aşkar etməyə nail oldu. Lakin o da Samuelin arzuladığı nəticəni verə bilmədi. Tügendhet və Hamilton bu münasibətlə belə yazırdılar: "Artıq o zaman aydın oldu ki, bu neft kerosin istehsalı üçün yararlı deyil. Samuel əvvəlki kimi rotşildlərdən asılı vəziyyətdə qaldı və 1899-cu ildə artıq aydın idi ki, o, onunla yenidən müqavilə bağlamalı olacaq. Özünün zəifliyini pərdələmək məqsədilə, o, güc tətbiq etmək qərarına gəldi. Digər rus şirkətlərinə mümkün qədər çox neft sifariş verərək, bütün dünyada neft alıcılarını böyük miqdarda neftlə təchiz edəcəyinə söz verirdi. İngilis-bur müharibəsi başlananda bazarlarda neftə tələbat kəskin surətdə qalxmağa başladı. 1900-cü ilin oktyabrında rotşildlərlə müqavilə lazımi şəkildə yenidən bağlandı"[26]. Beləliklə "Shell" əvvəlkitək əsasən Bakı nefti ilə qidalanırdı.



Neftin daşınması

İndi isə öz əvvəlki himayədarı rotşildləri Bakı məkanında əvəz edən "Royal Dutch/Shell" birliyi qarşısında duran iki əsas problemi – Nobel qardaşları ilə rotşildlər arasında mümkün ola





biləcək blokun yaradılması təhlükəsini həmişəlik olaraq aradan qaldırdı və əksinə, özü nobellərlə birləşib əzəli rəqibi "Standard Oil"un Bakı neft məkanına girmək üçün həyata keçirmək istədiyi planların qarşısına sipər çəkmiş oldu.

Lakin məsələ yalnız bununla bitmədi. "Shell" Bakı məkanında çoxdan bəri arzuladığı mövqeləri daha da genişləndirmək əzmində idi. Odur ki, 1900-1902-ci illərdə ingilis kapitalı bazasında yaradılmış "Şibayev" və "Tumayev" şirkətləri də çox keçmədən "Shell"in tərkibinə daxil oldular[27]. Daha sonra, 1913-cü ildə Londonda "Yeni Şibayev neft şirkəti" yaradıldı. "Shell" onun vasitəsilə Rusiyada sürtgü yağları istehsalı sənayesində qabaqcıl mövqeyə çıxdı[28]. Bakı neftindən alınan sürtgü yağlarının son dərəcə yüksək keyfiyyəti, ona dünya bazarında şəksiz nüfuz qazandırdı. Dünyada baş verən texniki-texnoloji sıçrayış, istər quruda, istər havada, istərsə də dənizdə neftlə işləyən daxiliyanma mühərriklərinin tətbiqi və s. duru yanacaqla yanaşı, sürtgü yağlarına da tələbatı gündən-günə artırırdı. Və sonrakı hadisələr göstərdi ki, bu prosesi geri döndərmək artıq qeyri-mümkündür.

Dmitri Mendeleyev "Bakı nefti ilə nə etməli?" məqaləsində yazırdı: "...Bakı nefti 20 faiz gözəl keyfiyyətli sürtgü yağı verirdisə, Pensilvaniya nefti cəmi 7 faiz verir"[29]. Dünya bazarında rus yağının (Bakı yağı – *N.Rza*) bir puduna 25-30 funt sterlinq



Bakı neft mədənlərindən birinin görünüşü

verırdılər. Amerika sürtgü yağlarının qiyməti isə 15-dən 8 funt sterlinqə qədər aşağı düşmüşdü[30]. Halbuki, hələ 1875-ci ildən etibarən daxili bazarda satılmağa başlayan Bakı sürtgü yağları, ilk dövrdə dünya bazarında müəyyən çətinliklərlə üzləşməli olmuşdu. Çünki onun keyfiyyəti və xassələri barədə o zaman heç kimdə lazımi məlumat yox idi. Lakin çox keçmədən Bakı yağları dünya bazarında sözün əsl mənasında hökmranlığı ələ aldı[31]. Odur ki, "Shell"in sürtgü yağları ilə əlaqədar uğurları heç də təsadüfi deyildi. Əksinə, son dərəcə təbii idi.

Lakin "Shell" Bakıdakı fəaliyyətini təkcə şirkətlər yaratmaq və yaxud almaqla məhdudlaşdırmırdı. O, həmçinin himayəsində olan şirkətlərin və müəssisələrin maddi-texnıki bazasının gücləndirilməsinə, yeniləşdirilməsinə cıddi diqqət yetirirdi.

Bunun nəticəsində 1913-cü ildə "Shell"in nəzarəti altında olan bütün müəssisələr ümumiliklə, 17,5 milyon barrel (gündə 48 min barreldən artıq) neft hasil etdılər. Bu isə çar Rusiyasının neft hasilatının təqribən dörddə biri demək idi[32].

Beləliklə, Birinci cahan savaşı ərəfəsində Bakıda iki möhtəşəm neft şirkəti fəaliyyət göstərirdi. Biri "Nobel qardaşları şirkəti", digəri isə "Shell" idi. Lakin həm Birinci cahan savaşı zamanı, həm də ondan sonra Rusiyada baş vermiş 1917-ci ilin oktyabr çevrilişi nəticəsində dünyanın istər neft bazarında, istərsə də neft siyasətində arzuolunmaz təlatümlər baş verdi. Hətta bir sıra hallarda müəyyən kataklizmlər də qeydə alındı. Bu hadisələr və onların nəticələri Bakıdan da yan ötmədi.

Dünya neft məkanının əsas və mühüm tərkib hissələrindən və həlledici söz sahiblərindən olan Bakı, təkcə iqtisadi deyil, tezliklə daha çox hərbi-siyasi maraqları cəlb edən bir cazibə mərkəzinə çevrildı.

Sürətlə cərəyan edən hadisələr tam aydınlığı ılə göstərdi ki, neft artıq əvvəllər olduğu kimi, yalnız tək-tək şirkətlərin deyil, həm də ayrı-ayrı dövlətlərin siyasi, hərbi və iqtisadi dairələrinin maraq daırəsinə daxıl olan mühüm strateji amıllərdən biri, bəlkə də əslində birıncisidir.



# VIII fəsil

# İRAN NEFTİ və DÜNYA NEFT STRATEGİYASININ İLK ƏLAMƏTLƏRİ

Neftin tətbiqi dairəsinin get-gedə genişlənməsi onun son dərəcə böyük gəlir gətirmə imkanlarını artırırdı. XX yüzilliyin əvvəllərində neft biznesi ilə məşğul olmaq istəyən hər bir kəsi yeni duru yanacaq mənbələrinin aşkar edilməsi kimi mürəkkəb, eyni zamanda da uğurlu olacağı təqdirdə gələcəkdə misilsiz sərvət sahibi olmağa şərait yaradacaq bir işə sövq etdi.

Təsadüfi deyil ki, bu axtarışlar tezliklə dünyanın neft xəritəsində yeni bir nəhəngin peyda olması ilə nəticələndi. Halbuki onun ilk addımları heç də uğurlu gələcəkdən deyil, əksinə, daha çox bəslənilən böyük ümidlərin puça çıxmasından xəbər verirdi. Lakin bu barədə bir qədər sonra. Əvvəlcə gəlin, qədim və yaxın tarixə qısa bir nəzər salaq.

Hələ 1871-ci ildə bir dəstə alman geoloqu Osmanlı imperiyasının tərkibinə daxil olan Mesopotamiyanın Bağdad və Mosul vilayətlərinə etdikləri səfərdən böyük ruh yüksəkliyilə qayıtdılar. Onlar öz məruzələrində həmin ərazilərdəki yataqlardan çoxlu neft çıxarıldığını iddia edirdilər. Halbuki Orta Şərqdə neftin olması barədə məlumatlar hələ qədim zamanlardan bəlli idi. Məsələn, Fərat çayı üzərindəki Hit şəhəri 5 min il ərzində bitum mənbəyi olmuşdu[1]. Hətta Herodot da Babil divarlarının tikintisində bitumdan istifadə olunduğunu qeyd etmişdi. Nuhun da öz gəmisini kərişkələməkdən ötrü xam neftdən əmələ gəlmiş qatrandan yararlandığı bildirilir.

Tədqiqatlar, eyni zamanda, İranın da neft perspektivinin yüksək olduğunu sübut edirdi. Lakin bununla yanaşı, o da məlum idi ki, hər iki bölgə iqtisadi cəhətdən son dərəcə geridə qalmışdı və coğrafi mövqeləri heç də əlverişli sayıla bilməzdi. İrandakı vəziyyət, o cümlədən siyasi durum xüsusilə mürəkkəb idi. Belə ki, ölkənin quzey əyalətləri Rusiyanın təsir dairəsinə daxil idi. Güney əyalətləri isə Britaniyanın. Mərkəzi hökumət o dərəcədə zəif idi ki, şahın əmr və göstərişləri ölkənin paytaxtından bir

qədər kənarlarda heç bir qüvvəyə malık deyildı. Daxildəki qarşıdurmalar isə yetərincə idı.

Belə bir vaxtda üfüqdə yeni bir şəxsiyyət peyda oldu. Bu, Uılyam Noks d'Arsi idı. İxtisasca vəkıl olan d'Arsi bir qədər əvvəl Avstraliyada, "qızıl qızdırması" deyilən dövrdə külli-miqdarda vəsait toplamağa nail olmuşdu. Bu səbəbdən sonralar Londonda böyük nüfuz sahibinə çevrildi. O, krallara xas həyat sürməyə çalışırdı. D'Arsi belə hesab edirdi ki, pul yalnız xərcləmək üçün deyil, həm də gəlir gətirmək üçündür. Beləlıklə, o, öz varıdatını daha da artırmaq eşqilə alışıb yanırdı. O, bu məqsədini həyata keçirmək üçün əlverışlı imkan və şəraıt axtarırdı. Tezlıklə belə bir imkan yarandı. Özü də İranda. D'Arsı öz köməkçısı Alfred Marriottu bır geoloqun müşayıətı ilə İrana göndərdı. Geoloji ədəbiyyatdan ona məlum idı kı, ölkə ərazisində neft yataqlarının əmələ gəlməsi üçün potensıal əlverışli şəraıt mövcuddur. Bunu, hələ qədım zamanlardan bərı neftin yer səthinə sızması da sübut edirdi.

Beləliklə d'Arsı İran hökumətindən 60 il müddətinə konsessıya almağa müvəffəq oldu. Bunun əvəzində d'Arsı İran hökumətinə rüşvətdən əlavə 20 mın funt sterlinq[2] nəğd pul verdi. O, həmçının səhmlərlə daha 20 mın funt sterlınq[3] ödəyəcəyını öhdəsinə götürdü. Əldə olunan razılığa görə bundan başqa, gələcəkdə əldə edıləcək gəlırın də 16 faızi[4] İran hökumətınə ödənılməlı idi. Bunun müqabılındə d'Arsı İranın Rusiyaya yaxın olan 5 əyalətini çıxmaq şərtılə qalan bütün ərazısındə müstəsna hüquqlar əldə etdı. Bu isə, nə az, nə çox 1.243200 kvadrat kılometrə[5] bərabər idı. Bu İran ərazısinin 5/6 hıssəsı demək idı[6].



Uılyam D'Arsi (ortada). Norfolk, 1897



Uılyam D'Arsi

Maraqlıdır kı, bu, İran şahı Müzəffərəddının də şəxsı maraqlarına cavab verırdı. Belə kı, həm Böyük Brıtanıya, həm də Rusıyaya böyük məbləğdə borcu olan İran şahı üçün bu əlverışlı çıxış yolu idı.

Nəhayət, 1902-ci ıldə Xuzıstanın uzaq və isti guşələrindən birində ilk quyunun qazılmasının startı verildı. Quyular son dərəcə ağır və dözülməz şəraitdə qazılırdı. İran körfəzinə yaxın olan bu ərazidə yay aylarında artıq səhər saat 7 radələrində havanın temperaturu kölgədə 43⁰S-dən[7] artıq olurdu. İngiltərədən daşınan texnoloji avadanlıq, qazma bölgəsinə Bəsrə və Bağdad vasıtəsilə çatdırılırdı.

Ekspedisıyanın ışini mürəkkəbləşdirən cəhətlər yetərincə idi. Yerli qəbılələrin başçıları şahın ali hakimiyyətini tanımırdılar. Odur kı, onları əldə saxlamaq üçün küllı miqdarda pul xərcləmək lazım gəlirdı. Dıgər tərəfdən yoluxucu xəstəlıklər də işı xeylı ləngidır, onsuz da dözülməz olan şəraitı daha da dözülməz edirdi.

Bütün bunlara baxmayaraq 1904-cü ilın yanvarında nəhayət ki, ilk neft əldə edıldı. Lakin ilk quyunun ehtiyatı çox tez tükəndi. Artıq may ayında o, öz əhəmiyyətını tam itirdı. Odur kı, hər şeyə yenidən başlamaq lazım gəldı. Lakın məhz elə bu vaxt d'Arsının

maliyyə imkanları əsaslı dərəcədə zəiflədi. İndiyədək 225 min funt sterlinq[8] xərclənməsinə baxmayaraq (bu o dövr üçün çox böyük məbləğ idi), real nəticə hələ də görünmürdü. Banklardan borc pul götürmək son dərəcə müşkül işə çevrilmişdi. Nikbinlərin sayı isə gündən-günə azalırdı. Londondan hadisələri izləyən d'Arsinin şəxsi vəsaiti artıq tükənmək üzrə idi. Əlavə sərmayədarların cəlb olunmasına böyük ehtiyac vardı.

Digər tərəfdən Uzaq Şərqdə neft mənbələrinin olmasına baxmayaraq, İngiltərə hökumətinin özü çalışırdı ki, Avropadan məsafəcə çox da uzaq olmayan bir bölgədə hər hansı bir ingilis şirkəti tərəfindən neft mənbəyi aşkar edilsin. Elə bir bölgədə ki, İngiltərə onu tam nəzarətdə saxlaya bilsin. Qabaqcadan onu da deyək ki, sonrakı hadisələr birmənalı şəkildə təsdiq etdi ki, bu son dərəcə uzaqgörən bir siyasət imiş.

Məlumdur ki, İran heç vaxt Britaniya imperiyasının tərkibində olmayıb. Həmin dövrdə də həmçinin. Lakin onun yerləşdiyi coğrafi məkan ingilis siyasətçilərinin və hərbi strateqlərinin qənaətincə son dərəcə əlverişli hesab oluna bilərdi. Odur ki, bu vacib bölgədə neft axtarışına İngiltərə hökuməti ciddi maraq göstərdi. Bu elə bir vaxt idi ki, artıq Böyük Britaniyanın hərbi-dəniz donanması zabitlərinin əksəriyyəti kömür yanacağının daha yüksək texniki üstünlüyə malik neft yanacağı ilə əvəzlənməsinin tərəfdarı idi. Onların arasında admiral lord Fişer xüsusilə fərqlənirdi. 1904-cü ildə Baş dəniz qərargahının rəisi təyin edildikdən sonra o, bu məsələ ilə bağlı olan işləri daha da qızışdırdı və neft üzrə xüsusi komissiya yaratdı. Onun sədri vəzifəsinə isə yaxın məsləkdaşı, hərbi-dəniz nazirliyinin mülki lordu İ.C.Pritimanı təyin etdi.

Elə bu zaman məlum oldu ki, o vaxta qədər bir o qədər də tanınmayan "Burmah oil Company"* adlı bir firma İranın neft yataqlarının işlədilməsi sahəsində fəaliyyətə başlamaq niyyətindədir. Fəaliyyətinin miqyas etibarilə kiçik olmasına baxmayaraq şirkət Birmada böyük iş təcrübəsi qazana bilmişdi. Odur ki, Pritiman ilk addım olaraq, d'Arsi ilə "Burmah oil Company" arasında əlaqə

* Birma neft şirkəti





yaradılmasına nail oldu[9]. Lakin bəzi dairələrdə o da məlum idi ki, şirkət Deterdinqin rəhbərlik etdiyi "Royal Dutch/Shell" ilə sıx əlaqədədir[10]. Fəqət bu əlaqələrin nə dərəcədə dərin olmasını heç kim təsəvvür edə bilməzdi[11].

Nəhayət, 1905-ci ilin mayında hər iki tərəf, yəni d'Arsi və "Burmah oil Company" Pritimanın birbaşa vasitəçiliyi ilə müştərək müəssisə yaratmaq barədə razılığa gəldilər. "Burmah oil Company" üzərinə götürdüyü öhdəliyə görə, həm lazımi miqdarda dövriyyə kapitalı ilə, həm də aşkar edilmiş istənilən neft yatağının işlənilməsini təmin etməli idi[12].

Bir neçə uğursuz qazma əməliyyatından sonra, 1908-ci ilin yanvarında ekspedisiya başqa bir yerə – Zaqros dağlarındakı Məscidi – Süleyman adlanan bölgəyə köçürüldü və qazma işlərinə yenidən başlandı. Lakin heç cür uğurlu nəticə əldə etmək mümkün olmurdu. Aylar, günlər ötdükcə d'Arsinin pulları da sürətlə ərimədə davam edirdi. Vəziyyət gerçəkdən katastrofik hal almaqda idi.

Quyunun dərinlıyı 1 kilometrə[13] çatdıqda Londondan gələn təcili bir teleqram hamını sarsıtdı. Teleqramda deyilirdi ki, 500 metr dərinliyə çatdıqdan sonra[14] bütün işlər dayandırılmalı, ekspedisiya isə geri qayıtmalıdır. Lakin ekspedisiyanın rəhbəri Reynolds, aldığı xəbər nə qədər acı olsa da Londondan teleqramı bir daha təsdiqləyən məktub gələnə qədər qazma işlərini davam etdirməyi qərara aldı. Həm də deyilənlərə görə kodlaşdırılmış teleqramın məzmunu təhrif olunmuşdu. Altı il ərzində böyük məhrumiyyətlər bahasına görülən işlərə heyfi gələn Reynolds, beləliklə həm də dörd həftəlik qiymətli bir vaxt qazanmış oldu. Sonrakı hadisələr göstərdi ki, onun bu təşəbbüsü təqdirəlayiq imiş. Çünki dörd həftə yox, cəmi iki həftədən sonra 1908-cı il mayın 26-da səhər saat $4^{30}$-da qazma quyusundan hündürlüyü 15 metrə çatan neft fontan vurdu[15]. Bu qələbə demək idi. Artıq kommersiya əhəmiyyəti daşıyan yeni neft yatağı aşkar edilmişdi. Bu yataq həm də Orta Şərqdə neft sənayesinin binövrəsinin qoyulmasından xəbər verirdi.



Londondan gələn təcili teleqram




"Anglo-Persian oil Company"-nin müqaviləsi

Bir ildən sonra, yəni 1909-cuildə"Anglo-Persian oil Company" şirkəti təsis edildi[16]. Sonralar o, "Anqlo-İranian"[17] adlandırıldı*. Qazılmış "F-7" quyusu 10 il ərzində 30 milyon barrel neft vermişdi[18]. "Anglo-Persian oil" yarandığı ilk günlərdən başlayaraq nəinki yeni yataqların axtarışına, həm də neft kəmərinin və neft emalı müəssisəsinin tikintisinə ciddi diqqət yetirdi. Zira geniş miqyaslı belə işlər həm də böyük maliyyə vəsaiti tələb edirdi. Onu əldə etmək isə o qədər də asan deyildi. Lakin belə bir zamanda İngiltərənin hərbi-siyasi elitasında bu layihələrə böyük əhəmiyyət və dəstək verən bir şəxs də tapıldı. Bu Uinston Çörçill idi.

U.Çörçill Böyük Britaniya hərbi-dəniz donanmasının birinci lordu idi**. 1911-ci ildə bu mühüm vəzifəyə təyin olunan gənc Çörçill hərbi gəmilərin duru yanacağa keçməsinin vacibliyini çoxlarından daha yaxşı dərk edirdi. O, itisürətli linkorların yeni eskadrasını yaratmaq arzusunda idi. Elə eskadra ki, o alman hərbi-dəniz qüvvələrinin gəmilərindən nəinki xeyli sürətli olmalı, həm də sayca çox və daha ağır silahlarla təchiz olunmalı idi.

* Hazırda bu, dünyanın ən iri neft şirkətlərindən biri – Britiş petroleum (BP) şirkətidir.

** Sonralar o, Böyük Britaniyanın baş naziri oldu.







Uinston Çörçill (sağda)

Doğrudur, o vaxta qədər ingilis donanmasında neft yanacağına keçmiş bir neçə esminets və sualtı qayıqların olmasına baxmayaraq, çoxları belə güman edirdilər ki, linkorların konstruksiyasını neft yanacağına uyğunlaşdırmaq məqsədəuyğun deyıldır. Çünki xaricdən gətirilən neftlə müqayisədə, guya ingilis kömürünə daha çox etibar etmək olar. Belə ki, müharibənin başlayacağı təqdirdə onun (yəni neftin, – *N.Rza*) daşınması müşkül problemə çevrilə bilərdı. Lakin Çörçill öz niyyətində son dərəcə israrlı idi. O hərbi-dəniz qüvvələrinin neft yanacağına keçirilməsinin texniki səmərəsini olduqca yüksək qiymətləndirirdi. O, sonralar yazdığı kitabında* öz mülahizələrini belə ifadə edirdi: "Duru yanacağın tətbiqinin verdiyi üstünlüklərin qiyməti misilsizdir. İlk növbədə bu, sürətdir. Eynı gəmilərdə kömür ilə müqayisədə neft sürətin daha çox artmasını təmin edirdı. O, bu sürəti daha tez artırmağa imkan verirdi... Neft, yəni duru yanacaq donanmaya dənizdə öz yanacaq ehtiyatlarını heç bir çətinlik çəkmədən doldurmaq üçün əlverişli idi. ...Neftin tətbiqi istənilən növ gəmilərdə daha güclü odlu silah

* W.Churchill. The World Crisis 1911-1914. Thornton Butterworth.

tətbiq etmək imkanı yaradırdı. ...Elə təkcə bunlar gəmilərin bəzi növlərində yüksək sürət əldə etmək imkanı verirdi ki, bu da onlara taktiki vəzifələrini yerinə yetirməkdə olduqca vacib idi"[19].

Beləliklə U.Çörçill neftlə təchizatın etibarlı təminatına son dərəcə ciddi əhəmiyyət verərək, hökumətə yeni yaranmış neft şirkətinin səhmlərinin nəzarət paketini almağı təklif etdi. O, hərbi-dəniz donanmasının neft mənbələrinə təminatlı şəkildə daxil ola bilməsinin zəruriliyinə hökuməti inandırmağa nail oldu.

Çörçillin uzaqgörənliyi həm də onunla izah olunurdu ki, o, hərbi-dəniz donanması üçün tələb olunan duru yanacağın böyük bir hissəsinin "Standard Oil" və "Shell" şirkətlərindən alınmasının tərəfdarlarından deyildi. Çünki, o belə hesab edirdi ki, hər iki şirkət əcnəbilərə məxsusdur və onlar özlərinin kommersiya maraqlarını ingilislərin strateji maraqlarından üstün tutacaqlar[20].

Çox güman ki, illər boyu "Standard Oil" ilə "Shell" arasında gah səngiyən, gah da qızışan neft müharibəsi Çörçillin də iti nəzərlərindən yayınmamışdı. Hər iki rəqibin qiymətlərin qalxmasında maraqlı olmaları da Çörçilli narahat etməyə bilməzdi. O, bunun məqsədyönlü olduğunu güman edirdi. Nəticədə hökumət Çörçillin təqdim etdiyi bu layihəyə 2,5 milyon funt sterlinq miqdarında sərmayə qoymağa razılıq verdi. Bu, "tarixdə ən sərfəli kapital qoyuluşlarından biri"[21] kimi qiymətləndirilirdi.

1914-cü ildə Uinston Çörçill Britaniyanın icmalar palatasında bəyan etdi ki, "Anglo-Persian oil" şirkətindəki kapitalın 56 faizi hərbi-dəniz donanmasına və digər hökumət təşkilatlarına məxsusdur[22]. Beləliklə də tarixdə ilk dəfə olaraq, nadir bir iqtisadi birlik yarandı. Bu birlik öz fəaliyyətində təkcə ayrı-ayrı səhmdarların maraqlarını deyil, həm də hökumətin siyasi mülahizələrini rəhbər tutmalı idi[23].

"Anglo-Persian oil Company"nin direktorlar şurasının tərkibində hökumətin iki nümayəndəsi təmsil olunmuşdu. Lakin onlar şirkətin gündəlik kommersiya fəalıyyətinə müdaxilə etmir, yalnız hərbi-dəniz donanmasının neft təminatı ilə əlaqədar olan siyasi problemlərin və məsələlərin həllində veto hüququndan istifadə edə bilərdilər[24].





Beləliklə, 1914-cü ilin mayında, Birinci dünya müharibəsinin başlanmasına 3 gün qalmış kralın imzaladığı qanun layihəsi icmalar palatasına təqdim olundu. Və tezliklə Britaniya hökuməti elan etdi ki, hərbi-dəniz nazirliyi dünyanın ən iri neft şirkətlərindən birinin nəzarət şurasında onu təmsil edir[25]. Hadisələri qabaqlamadan bircə onu deyək ki, Birinci cahan savaşı illərində "Anglo-Persian oil Company"nin hasil etdiyi neft olduqca mühüm və əhəmiyyətli rol oynamışdı. Onu da qeyd etmək maraqlıdır ki, sonrakı illərdə İranın neft potensialı günbəgün artaraq, dünyanın aparıcı dövlətlərinin maraq dairəsinə düşmüş və İkinci cahan savaşı illərində Almaniyanın hərbi və siyasi maraqlarının cazibə nöqtələrindən birinə çevrilmişdi. Həmin illərdə milyon tonlarla İran nefti Almaniyaya qarşı mübarizə aparan müttəfiq ölkələrin hərbi əməliyyatlarında da az rol oynamamışdı.




U.D'Arsinin konsessiya üzrə İranda aldığı ərazi

Belə ki, İran ərazisi vasitəsilə Sovet İttifaqına silahların və döyüş texnikasının nəql edılməsi əməliyyatı məhz bu şirkət tərəfindən maliyyələşdirilirdi. Beləliklə, Birinci cahan savaşı ərəfəsində Çörçillin həyata keçirdiyi neft siyasəti İran neftinin gələcəyini lap başlanğıcdan etibarən hərbi-siyasi müstəviyə keçirilməsinə səbəb oldu. Bu, dünya neft tarixində məqsədyönlü şəkildə atılmış ilk belə addım kimi də qiymətləndirilə bilər. Şübhəsiz ki, bunun davamı da olmalı idi. Və oldu da. Özü də təkcə İranda deyil, başqa bölgələrdə də. Məsələn, Mesopotamiyada və ən nəhayət Azərbaycanda. Ümumiyyətlə, gələcəkdə hərbi-siyasi məna kəsb edəcək dünya neft strategiyasının konturları artıq görünməkdə idi.



# IX FƏSİL

# NEFTƏ KÖKLƏNMİŞ SİYASƏT

**1871**-ci ildə bir qrup alman geoloqunun Mesopotamiyanın Bağdad və Mosul vilayətlərində apardıqları neft axtarışlarının ümidverici nəticələri çox keçmədən bu bölgənin də dünyanın aparıcı dövlətlərinin hərbi-siyasi maraqlarının cazibə nöqtələrindən birinə çevrilməsinə səbəb oldu. Lakin o zamanlar hər iki vilayət Osmanlı imperiyasının tərkibində idi və təbii ki, Türkiyə hökumətinə tabe idi. Buna baxmayaraq, Almaniya hökuməti öz strateji maraqlarını əsas tutaraq, bölgəyə nüfuz etməkdən ötrü ciddi təşəbbüslərdə bulunmağa səy göstərdi. XIX yüzilliyin sonlarından etibarən Almaniyanın xarici siyasətinin əsas istiqamətlərindən biri Berlin ilə Bağdad arasında dəmir yolunun inşası ilə bağlı idi. Bu yolun tikintisi çox-çox mətləblərdən xəbər verirdi. Onlardan da ən ümdəsi təbii ki, neft idi. Bu xüsusda, zəngin neft yataqlarına malik olan Mosul vilayəti Almaniya üçün həyati əhəmiyyət kəsb edirdi. Çünki dünyanın maraq və təsir dairələrinə bölüşdürülməsi demək olar ki, artıq başa çatmışdı.

Mosul isə Avropadan kənarda olan yeganə neft bölgəsi idi ki, almanlar üçün əlçatan idi. Buna görə də Almaniya taleyinə düşən bu qismətdən mümkün qədər gen-bol bəhrələnməyə çalışırdı. Odur ki, Berlin-Bağdad dəmir yolunun alternativini tapmaq həqiqətdən son dərəcə uzaq idi.

Almanların Mosul neftinə olan marağı Osmanlı hökumətini də hərəkətə gətirdi və müəyyən tədbirlərə əl atmağa sövq etdi. Mosul neftinə maraq göstərənlər arasında ingilislər də var idi. Bununla əlaqədar Harvey O'Konnar yazır: "Birinci dünya müharibəsinə qədər ingilis və alman kapitalistləri Dəclə və Fərat çayları arasındakı torpaqlar barəsində sultanın vəziri ilə sövdələşmələr aparırdılar. İstefada olan ABŞ admiralı Kolbi M.Çester də konsessiya alınmasına çalışırdı. Baş vəzir isə tədbirə əl atıb bu neftli torpaqları dövlət mülkiyyətindən çıxarıb, sultanın "şəxsi xəzinəsinə" ötürdü"[1].

Sultanın şəxsi maliyyəsinin mühafizəçisi Hakop paşa** və mədənlər naziri Səlim əfəndi hesab edirdilər ki, imperiyada nəsə qiymətli bir şey tapmaq mümkündürsə, o, sultana məxsus olmalıdır, əcnəbi konsessiyaçılara yox[2].

Lakin Almaniya xeyli əvvəldən Orta Şərqdə möhkəmlənməkdə son dərəcə israrlı görünürdü. Kayzer İkinci Vilhelmin 1898-ci ildə İstanbula səfəri də elə bu niyyətdən irəli gəlirdi. Sultan Almaniya kayzerini görünməmiş bir dəbdəbə ilə qəbul etdi. Kayzeri müşayiət edən nümayəndə heyətinin tərkibi də son dərəcə müxtəlif idi. Bura ənənəvi hərbçilərdən və diplomatlardan savayı, Almaniyanın iri inhisarlarının nümayəndələri də daxil idilər. Onların arasında Almaniya bankının direktoru Georq fon Simmens xüsusilə seçilirdi.



II Vilhelm

Adətən səyahətlərə böyük üstünlük verən İkinci Vilhelmin bu dəfəki gəlişi adi gəliş deyildi. Bu, əsas etibarilə mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyan bir səfər idi. Onun burada söylədiyi sözlər də gəlişinin məqsədini özünəməxsus şəkildə ifadə edirdi. O demişdi: "Ola bilsin ki, dünyanın hər tərəfinə üç yüz milyona yaxın Məhəmməd hümməti səpələnmişdir. Onlar Almaniya imperatorunun əbədi dostları olacaqlar"[3].

Almaniyanın o dövrdə inhisarçı kapitalının mötəbər qəzeti sayılan "Alldeutschen Blättern" isə 1898-i ilin 6 noyabr sayında kayzerin bir qədər üstüörtülü, lakin patetik bir formada söylədiklərindən daha uzağa gedərək, Almaniya hökumətinin əsl niyyətini xeyli açıqcasına izah edirdi. Qəzet yazırdı: "Beləliklə, tam sürətlə Fərat və Dəclədən irəliyə, İran körfəzinə doğru, sonra da quru yolu ilə Hindistana. Hər şeyi qəbul olunduğu kimi – əməyə sevinən, döyüşməyə hazır olan alman əllərinə tabe etmək"[4].

** Milliyyətcə ermənidir. Ümumiyyətlə, Osmanlı imperatorluğu zamanında ermə nilərə ən mötəbər vəzifələr və rütbələr etibar olunurdu.





Nəhayət, 1899-cu il dekabrın 23-də Almaniya bankının direktoru Georq fon Simmens ilə Türkiyə hökuməti arasında Bağdad dəmir yolunun tikintisi barədə müqavilə imzalandı. Simmens isə bu müqavilədən sonra "Almaniya Bağdad yolunun atası" adlandırıldı[5].

Tikinti işləri çox tez başlandı. Türkiyə ərazisindən baş götürən Konya-Bağdad-Bəsrə dəmir yolunu alman vəsaiti hesabına alman şirkətləri inşa edirdilər. Almaniyanın "Deutsche Bank"ının nəzarət etdiyi "Anadolu dəmir yolu şirkəti" bu məqsədlə Anadoluda və Mesopotamiyada konsessiyalar əldə etdi. Konsessiya (hüquq, imtiyaz) müqaviləsinin şərtlərinə görə şirkət, tikilməsi nəzərdə tutulan dəmir yolunun hər iki tərəfindəki 20 kilometrlik məsafədə olan ərazidə neft də daxil olmaqla, digər faydalı qazıntıların axtarışını aparmaq və hasil etmək hüququnu da əldə etdi[6].

1904-cü ildə qəbul edilmiş qanuna əsasən Mosul və Bağdad vilayətlərində də neft axtarışına razılıq əldə olundu[7]. Tezliklə o da məlum oldu ki, "Deutsche Bank"ın neft kəşfiyyatına marağı dəmir yolu tikintisindən heç də az deyildir. Almaniyanın özündə neft yataqlarının olmadığını nəzərə alsaq, əldə edilmiş bu imkanın nə qədər misilsiz əhəmiyyət daşıdığını aydın təsəvvür etmək çətin deyildir.

Hər iki ciddi əhəmiyyət kəsb edən sahədə, yəni dəmir yolunun tikintisində və neftlə zəngin bölgənin işlənməsində öz iştirakını təmin etməsi, Birinci cahan savaşı ərəfəsində Almaniyaya olduqca ciddi hərbi-siyasi üstünlüklər qazandırırdı.

Beləliklə, tikintisi bir gün belə təxirə salınmayan bu dəmir yolu Almaniyanın çoxdankı arzusunu – Mərkəzi Avropa ilə Orta Şərqi birləşdirəcək transkontinental nəqliyyat arteriyasının reallaşdırılmasına xidmət etməli idi.

Lakin zəngin neft yataqlarına və böyük strateji əhəmiyyətə malik olan bu bölgədə Almaniyanın geniş və hərtərəfli fəaliyyəti onun rəqiblərinin böyük qısqanclığına səbəb oldu. Xüsusilə də İngiltərənin. Belə ki, ingilislər Bağdad dəmir yolunun tikintisi haqqındakı müqaviləni özlərinin neft maraqlarına böyük bir təhlükə kimi qəbul etdilər. Halbuki bir müddət öncə özləri belə bir

layihəni həyata keçirməyə çalışırdılar. Lakin bu onlara müyəssər olmadı. Ötkəm Almaniya ingilisləri sıxışdıra bildi.

Fəqət rəqiblərin heç biri öz niyyətindən əl çəkmək fikrində deyildi. Dəmir yolunun çəkilişini əngəlləmək, tikintini dayandırmaq üçün ən müxtəlif vasitələrə əl atmaqdan belə çəkinmirdilər. Hətta muzdlu quldurların fəhlə düşərgələrinə vaxtaşırı hücumları təşkil edilir, yolun inşa edilmiş sahələri dağıdılaraq yararsız vəziyyətə salınırdı. Törədilən bu terror aksiyaları dəmir yolunun inşasını mümkün qədər ləngitmək məqsədi daşıyırdı.

Bunlarla yanaşı, İngiltərə hökuməti sultan Əbdülhəmidə diplomatik yolla təzyiqlər göstərməkdən belə çəkinmirdi. Hər vasitə ilə Türkiyə hökumətini layihənin maliyyələşdirilməsindən imtina etməyə təhrik edirdilər.

Osmanlı imperiyası hüdudları daxilində neft uğrunda gedən mübarizəni təsvir edərkən Kristofer Tügendhet və Adrian Hamilton politoloji nöqteyi-nəzərdən zənnimcə maraqlı olduğu qədər də ağlabatan bir qənaətə gəlmişdilər. Onlar yazırlar: "Səciyyəvi cəhət ondan ibarətdir ki, məşhur sultan Əbdülhəmid, özünün gözləmədiyi halda, əldə etdiyi sərvətlərin istismar edilməsi üçün heç bir tədbir görmədi; ekspropriasiya (müsadirə) edilmək üçün sərf olunan səylər, onun çürüməkdə olan iqtidarının bütün qüvvələrini tükəndirdi. Əgər Hakop paşa vilayətləri tutmaqdan ötrü sərf etdiyi qüvvə və vəsaiti onların inkişaf etdirilməsinə də sərf etsəydi, XX yüzillikdə Yaxın Şərqin tarixi indi olduğu kimi yox, tamamilə başqa cür təşəkkül tapardı.

Birinci cahan savaşı ərəfəsində Osmanlı imperiyası elə qüdrətli olardı ki, Almaniya ilə ittifaqa ehtiyacı qalmazdı. Əgər o zaman o, bitərəfliyini saxlamış olsaydı, belə olan təqdirdə ingilislər 1914-cü ildən sonra ərəblərin üsyanını dəstəkləməzdilər. Əgər üsyan baş versəydi belə, türklər çox güman ki, o dərəcədə dövlətli və möhtəşəm olardılar ki, üsyanı yatıra bilsinlər"[8].

Zənnimcə, ingilis müəlliflərin bu fikri həqiqətdən heç də uzaq deyil. Çünki sonrakı hadisələr, xüsusilə də Birinci cahan savaşının nəticələri də deyilənləri bir növ təsdiq etmiş oldu. Müharibə sona yetdikcə Türkiyə də daxil olmaqla Yaxın və Orta Şərq onun





əsas ağırlıq mərkəzlərindən birinə çevrildi. Lakin o vaxta hələ çox qalırdı. Bölgədə neftə sahib olmaq uğrunda mücadilə yenicə qızışırdı. Onun qızdırma dərəcəsi ilbəil, aybaay deyil, günbəgün artırdı. Onun daim artan hərarəti və ətrafında cərəyan edən müəmmalı hadisələr və pərdəarxası oyunlar Rusiya imperiyasının da diqqətindən yayına bilməzdi. Hadisələrə birbaşa müdaxilə edə bilməsə də, neft bazarında yeni bir rəqibin meydana gəlmək perspektivi onu da az narahat etmirdi.

Almaniya isə öz məqsədinə çatmaqda son dərəcə israrlı, planları qibtəediləcək dərəcədə fundamental idi. Onlar hətta Bosfor üzərindən Avropa ilə Asiyanı birləşdirəcək dəmir yolu körpüsünü inşa etmək, üzərində isə məşhur Krupp firmasının istehsal etdiyi topları yerləşdirmək niyyətində idilər[9].

İngiltərənin bölgədəki intensiv fəaliyyətini, Rusiyanın isə özünəməxsus şəkildə artan marağını diqqətdən yayındırmayan alman diplomatiyası mövcud ziddiyyətlərdən mümkün qədər bəhrələnmək üçün əllərindən gələni əsirgəmirdilər. Hətta onlar öz niyyətlərini açıq-aşkar bəyan etməkdən belə çəkinmirdilər.

1900-1909-cu illərdə Almaniyanın reyxskansleri vəzifəsində çalışmış knyaz Bernhard Byulov təmsil etdiyi hökumətin gələcək planlarını açıq şəkildə belə ifadə edirdi: "Biz, Asiyada İngiltərə ilə Rusiya arasında mövcud olan rəqabətdən mükəmməl surətdə istifadə etməliyik. Bunun üçün isə, gah Britaniya aslanına baş əyməliyik, gah da rus ayısına təzim etməliyik ki, İran körfəzi rayonunda Küveytə qədər olan yolun tikintisini başa çatdıraq"[10].

Almanlar təkcə sözlə deyil, körülən praktiki işlərlə də niyyətlərinin ciddiliyini sübut etməyə çalışırdılar. Belə ki, XIX yüzilliyin 90-cı illərinin əvvəllərində alman inhisarlarının bilavasitə maliyyə dəstəyi ilə Balkanlarda və Türkiyə ərazisində artıq 2 min kilometr uzunluqda dəmir yolu inşa edilmiş, XX yüzilliyin ilk onilliyi ərzində Bağdad dəmir yolunun ayrı-ayrı sahələrinin tikintisi başa çatdırılmışdı[11].

Fəqət Əbdülhəmid hakimiyyətinin süqutu, tədricən bölgədəki vəziyyəti əsaslı surətdə dəyişdirdi. 1909-cu ildə hakimiyyətə gələn "Gənc türklər" İngiltərə ilə yaxınlığa üstünlük verdilər və ondan

dəstək almağa çalışdılar. Bölgədən Almaniyanı sıxışdırıb çıxarmaq və öz mövqelərini möhkəmlətmək üçün İngiltərəyə əlverişli imkan yarandı. Və o, bu imkandan hərtərəfli bəhrələnməyə tələsdi. 1910-cu ildə Londonun məşhur maliyyəçiləri ser Ernest Kassel, lord Revelstouk və ser Aleksandr Henderson Türkiyənin Milli bankını təsis etdilər[12].

Maraqlıdır ki, onun idarə heyətinə milliyyətcə erməni olan, keçmiş Türkiyə vətəndaşı Qalust Gülbenkyan da daxil edildi. Neftin kəskin qoxusuna böyük "məhəbbət" bəsləyən Gülbenkyan neft ətrafında cərəyan edən fırıldaqlarda və pərdəarxası oyunlarda böyük təcrübə əldə etmişdi. Atası vaxtilə İstanbulun tanınmış biznesmenlərindən sayılırdı. 1896-cı ildə Türkiyəni tərk edən Gülbenkyan qısa bir müddət Qahirədə yaşasa da, sonradan Londonda məskunlaşmaq qərarına gəldi. Faydalı qazıntıların, xüsusilə də neft yataqlarının işlənilməsi sahəsində mütəxəssis sayılan Gülbenkyan lap gənc yaşlarından neft biznesinə qatıldı və tez bir zamanda anladı ki, burada olduğu qədər sərvət heç yerdə yoxdur. Təcrübəsini artırmaq məqsədilə Rusiyaya yollandı və onun neft sənayesinin ənginliklərinə mümkün qədər dərindən nüfuz etməyə, şəxsi əlaqələr yaratmağa çalışdı. Hətta gördükləri, eşitdikləri barədə bir sıra məqalələr də yazıb Parisin aparıcı jurnallarından biri olan "Revue de monde"də çap da elətdirdi[13].

Tezliklə o, Bakının tanınmış neft maqnatlarından biri, milliyyətcə erməni olan Aleksandr Mantaşevlə tanış oldu. Onun rəğbət və məhəbbətini qazanmaq üçün əlindən gələni əsirgəmədi. Öz ailəsinin narahatlığı bahasına olsa belə Mantaşevə yarınmaq üçün min bir cildə girməklə və hər cür xidmətlər göstərməklə, onun etibarını qazanmağa nail oldu. Məhz Mantaşevin hesabına Bakıda fəaliyyət göstərən bir sıra neft sənayeçilərinin Londondakı təmsilçisi vəzifəsini qamarladı[14]. Bakı neftinin hərarəti onu daha da çevikləşdirdi və cəmi bir neçə il ərzində Londondakı neft dairələrinin nüfuzlu fiqurlarından birinə çevirdi. Əlaqələri gündən-günə genişləndi. Hətta məşhur Henri Deterdinq ilə də yaxınlaşmağa nail oldu. Lakin Türkiyəni tərk edən Gülbenkyan İstanbul ilə olan əlaqələrini də kəsmək fikrində deyildi. Əksinə, bu







Q.Gülbenkyan

əlaqələri daha da möhkəmləndirmək üçün əlindən gələni edirdi. Belə ki, o, hətta Paris və Londondakı Türkiyə səfirliklərinin maliyyə məsləhətçisi qismində fəaliyyət göstərməyə nail olmuşdu[15]. O'Konnor Gülbenkyanın o dövrdəki kəskin sıçrayışını belə təsvir edir: "Pərdə arxasında tədbirli erməni Qalust Sarkisoviç Gülbenkyan görünürdü. O bir əli ilə Bakıda fəaliyyət göstərir, digəri ilə iri maliyyə işlərini fırladırdı. O, "Royal Dutch/Shell" şirkətinin Napoleonu – ser Henri Deterdinqin, necə deyərlər, bir növ yalançı şəxsi nümayəndəsi sifətində qulluq edirdi. 1909-cu ildə "Gənc türklər" sultanı və onun vəzirini devirdikdən sonra, Gülbenkyan gələcəkdə "Turkish petroleum company"nin yaradılması üçün zəmin hazırlamağa başladı"[16].

Beləliklə, türklərlə əlaqəni, Deterdinqlə dostluğu əldə əsas tutaraq və Bakı neftinin xarici bazarlardakı satışında özünün xüsusi mövqeyinə arxalanan Gülbenkyan, nəhayət öz nəzərlərini Mesopotamiya neftinə də yönəltmiş oldu.

Vaxtilə böyük səhvə yol verərək, İranda neft çıxarılması barədə ona təklif edilmiş konsessiyadan imtina edən Gülbenkyan indi "Anglo-Persian Company"ni inkar edərək, Türkiyənin Milli bankı ilə "Deutsche Bank" arasında ittifaq yaratmağa və onun tərkibinə Henri Deterdinqin və "Shell" şirkətinin də daxil olmasını təmin etməyə çalışırdı.[17]

Lakin "Anglo-Persian Company"nin də öz mülahizələri vardı. Artıq İranda böyük uğurlar qazanmış, böyük maliyyə vəsaiti qoymuş şirkət belə hesab edirdi ki, Mesopotamiyada da konsessiyaya sahib çıxmağa haqqı və hüququ var. Odur ki, şirkət bu sahədəki fəaliyyətini daha da genişləndirdi. Və hətta onsuz da bu işlərdə maraqlı olan Britaniya hökumətinin də dəstəyini əldə etməyə nail oldu.

1911-ci ildə Londonda bir şirkət təsis olundu. 1912-ci ildə o, "Turkish petroleum company" adlandırıldı[18]. Şirkət tezliklə fəaliyyətə başlasa da "Anglo-Persian Company" Mesopotamiya neftinə olan iddialarında əvvəlkitək son dərəcə israrlı idi. Hətta o dərəcədə ki, rəqibləri ilə mübarizədə Rusiyanın çar hökumətindən də yararlanmağı unutmurdu. Nəticədə 1911-ci ildən başlayaraq Böyük Britaniya öz planlarını tədricən həyata keçirməyə başladı. Məhz rus çarının dəstəyi ilə Almaniyanı Bağdad dəmir yolunun tikintisindən uzaqlaşdırdı. Sonra da növbə Mesopotamiya neftinə çatdı.

Nəhayət, 1914-cü ildə Londonda keçirilən müşavirədə İngiltərə hökumətinin təzyiqi ilə Türkiyə Milli bankı, "Anglo-Persian Company"nin xeyrinə olaraq oyundan çıxmaq məcburiyyətində qaldı[19]. Səhmlər bölüşdürüldükdə "Shell" və "Deutsche Bank" hərəsi 25 faizə, "Anglo-Persian Company" isə 50 faizə sahib oldu[20]. Öz əvvəlki mövqelərini itirməsinə baxmayaraq, Gülbenkyan da paysız qalmadı. "Shell" və "Deutsche Bank" onun əvvəlki "xidmətlərini" nəzərə alaraq hər biri öz paylarından 2,5 faizini ona peşkəş etmək qərarına gəldilər. Bu isə nə az, nə çox, düz 5 faiz demək idi. Məhz elə buna görə də o, "Mister Beş faiz" ləqəbinə layiq görüldü[21].

Nəticədə bir vaxtlar Bakı neftinin satışından böyük sərvət toplamış və rəsmi dairələrdə əlverişli mövqe əldə etmiş bu şəxs öz var-dövlətini daha da artırmaq üçün gözəl imkan əldə etmiş oldu. Və çox keçmədən o, dünyanın ən varlı adamlarından birinə, bəlkə də birincisinə çevrildi. Bəzi məlumatlara görə onun varidatı bir milyard dollar[22] həcmində idi. Bu, o dövr üçün olduqca böyük rəqəm idi. Neft tarixini tədqiq edən Alfred Liston onun haqqında belə yazırdı: "Beş faiz (yəni Gülbenkyan – *N.Rza*) bəzi dairələrdə dünyanın ən varlı adamı hesab olunurdu. Onunla yalnız Səudiyyə Ərəbistanı kralı, Küveyt şeyxi və Texasın tək-tük varlıları rəqabət apara bilərdilər. Məlumdur ki, bu neft bilicisi dünyada ən gözəl rəsm kolleksiyalarından birinə və misli-bərabəri olmayan sair sənət əsərlərinə sahib idi"[23].

Dünya neft tarixinin tədqiqatçılarından olan Fred Merks bu münasibətlə yazır: "Elə gətirdi ki, özünün heç bir şəxsi kapitalı,





özəl müəssisələri olmayan Gülbenkyan konsessiyalarla bağlı bütün danışıqlarda iştirak edirdi. Belə mövqeyə o, Türkiyəyə və orada aşkar edilmiş neft yataqlarına son dərəcə bələd olduğuna görə çata bilmişdi. Gülbenkyan rəqabət aparan şirkətlərin güclü və zəif tərəflərindən, həmçinin danışıqların məzmunundan və hökumətlərin fəaliyyətlərindən xəbərdar olmasından məharətlə istifadə edərdi. O, əgər qüdrətli rəqibləri barışdırmaq və razılığa gətirmək üçün yol tapa bilməyəndə gizli sövdələşmələri faş edəcəyi ilə qorxudardı. Bu onları (yəni rəqibləri – *N.Rza*) ayıldardı. Konyukturaya yaxşı bələd olmaqla o, duymuşdu ki, Birinci dünya müharibəsi ərzində və ondan sonra amerikan və fransız imperialistləri Yaxın Şərq neftinin hasil olunmasında iştirak etmək iddiasında olacaqlar"[24]. Hadisələri qabaqlamadan onu demək olar ki, bu həqiqətən belə oldu. Lakin müharibə ərəfəsində o da məlum oldu ki, İngiltərə Yaxın və Orta Şərq bölgəsində əhəmiyyətli mövqeyə malikdir və bölgənin neft mənbələrinə nəzarəti də öz əlində saxlayır. Almaniya bir növ oyundan kənar vəziyyətdə qalmış oldu. Nə kayzer İkinci Vilhelmin, nə də ölkənin maliyyə və işgüzar dairələrinin ardıcıl olaraq göstərdiyi səylər heç bir nəticə vermədi. Ölkə üçün son dərəcə əhəmiyyətli olan bu problemin həlli alman diplomatiyası üçün qeyri-mümkün oldu. Odur ki, belə bir sual yarandı: Görəsən, diplomatların bacara bilmədiklərini hərbçilər bacara biləcəklərmi?

Əlbəttə, burada ilk növbədə alman hərbçiləri nəzərdə tutulur. Odur ki, Almaniya öz puç olmuş ümidlərini müharibəyə bağlamalı oldu. Həm də tarixdə ilk dəfə baş verən dünya müharibəsinə.

Cahan savaşının mənhus kabusu artıq Avropa üzərində dolaşmaqda idi. Neftin iqtisadi amildən qlobal hərbi və siyasi amilə, özü də çox böyük sürətlə çevrilməsi artıq göz qabağında idi. Bu, həm də dünyada yeni siyasətin, yeni dəyərlərin, yeni dünyagörüşün, yeni geostrateji maraqların və nəhayət dünyanın yenidən müxtəlif təsir və maraq dairələrinə bölüşdürülməsi uğrunda başlanacaq ölüm-dirim çarpışmasının yaxınlaşmasından xəbər verirdi. Çünki Böyük Neftin nə demək olduğu artıq lazımınca dərk edilmişdi. O hamıya su-hava kimi gərək idi. Neftə sahib olmaq istəyi ildən-ilə yox, aydan-aya, gündən-günə, hətta anbaan yüksəlirdi.

Bəşəriyyət sözün əsl mənasında yeni eranın – neft erasının başlanması ərəfəsində idi. Beləliklə də XX yüzilliyin tarixi təkcə qanla yox, həm də neftlə yazılırdı.

"Neft Napoleonu" adlandırılan ser Henri Deterdinqin yavəri olmuş ser Elliot Alves hələ Birinci dünya müharibəsinin əvvəlində neftə – bu sehirli maddəyə olan münasibətini belə bildirmişdi: "Ordu, donanma, dünyanın bütün qızılı və bütün xalqları neftə sahib olanlar qarşısında gücsüzdürlər. Avtomobillər, motosikletlər, gəmilər, tanklar, təyyarələr – bu qara mayesiz keçinə bilmirlər. Kimlər ki, ona kifayət qədər malikdirlərsə, şübhəsiz üstünlük onların tərəfindədir"[25]. Bu sözlərin həqiqətə nə dərəcədə uyğun olduğu, tezliklə bütün dünyaya da bəlli oldu. Müharibənin başlanmasına hələ bir il qalmış Uinston Çörçill İngiltərənin icmalar palatasında çıxış edərkən deyirdi: "Siyasətimizin son məqsədi ondan ibarətdir ki, admirallıq duru yanacağın lazımi ehtiyatlarının yeganə müstəqil sahibkarı və hasilatçısı olsun. Biz əvvəla öz ölkəmizdə neft ehtiyatları yaratmalıyıq; ikincisi, təmizlənməmiş neft almaq hüququ əldə etməliyik. Çünki neft bazarda baha deyil. Üçüncüsü, neft yataqları üzərində nəzarəti təmin etməli və yaxud onları öz mülkiyyətimizə çevirməliyik"[26].

Daha sonra Çörçill sözünə davam edirək onu da göstərirdi ki, admirallıq artıq mövcud olan "Anglo-Persian Company"nin əsas payçılarından biridir və "neft Napoleonu Deterdinq" "Royal Dutch/Shell" şirkətinin neft ehtiyatlarını Britaniya tacının ixtiyarına verməyə hazırdır[27].

Beləliklə, Çörçillin çıxışı həm də Böyük Britaniyanın hərbi-siyasi dairələrində artıq təşəkkül tapmaqda olan yeni siyasi kursdan xəbər verirdi.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, neftə köklənmiş bu siyasətin bir istiqaməti də Bakıya, daha doğrusu, Bakı neftinə doğru yönəldilmişdi. Lakin bu hələ sonralar məlum olacaqdı.



X fəsil

# NEFT və RUSİYANIN HƏRBİ-DƏNİZ DONANMASINDA İNQİLAB

Birinci cahan savaşı başlamazdan bir qədər əvvəl, artıq bəşəriyyət tarixində müəyyən iz buraxmış ingilis-bur (1899-1902-ci illər), rus-yapon (1904-1905-ci illər) müharibələri, habelə 1905 və 1911-ci illərdəki Mərakeş və 1912-1913-cü illərdəki Balkan böhranları, dünyanın aparıcı ölkələri arasındakı ziddiyyətlərin getdikcə daha da dərinləşdiyindən xəbər verirdi. Yeni bazarlar, xammal mənbələri, maraq və təsir dairələri uğrunda müxtəlif yollar və vasitələrlə aparılan mübarizələr nəinki səngimir, əksinə daha da şiddətlənirdi. Ayrı-ayrı ölkələr hərbi ittifaqlarda birləşərək öz milli maraqlarını daha etibarlı müdafiə etməyə çalışırdılar. Hələ 1882-ci ildə Almaniyanın başçılıq etdiyi "Üçlər ittifaqı" yaradıldı. Onun tərkibinə Avstriya-Macarıstan və İtaliya daxil oldu. Bunun ardınca 1893-cü ildə yaradılmış rus-fransız hərbi ittifaqı ilk növbədə məhz "Üçlər ittifaqı"na qarşı yönəldilmişdi. Lakin bir qədər keçdıkdən sonra, yəni 1904-cü ildə İngiltərə-Fransa müqaviləsi, 1907-ci ildə İngiltərə-Rusiya sazişi imzalandı. Beləliklə də tarixdə Antanta kimi məşhur olan hərbi-siyasi ittifaq həyata vəsiqə almış oldu. Yaranmış hərbi ittifaqlar dünyanın inkişaf etmiş ölkələri arasında onsuz da gərgin olan münasibətləri daha da gərginləşdirdi. Ziddiyyətlər daha da qabardı. Bununla əlaqədar müharibə çağırışları da durmadan artdı. Almaniya kayzeri II Vilhelm müharibədən söhbət düşəndə onu, "günlərin bir günü başlaya biləcək elementar zəruriyyət"[1] adlandırdı.

Lakin müharibəni təbliğ edən təkcə Almaniya kayzeri deyildi. Digər böyük dövlətlərin başçıları da ondan geri qalmır, öz ölkələrində müharibə əhval-ruhiyyəsini qızışdırmağa çalışırdılar. Avropa üzərində müharibə kabusu dolaşdıqca, bəşəriyyət özü də bilmədən tarixdə ilk dəfə cahan savaşına sürüklənirdi. Elə bir savaşa ki, üzüntülü, məhrumiyyətlərlə zəngin, əhatə dairəsinə, insan təlefatının miqdarına görə indiyədək misli görünməmişdi. Qarşı-qarşıya durmuş hər iki hərbi ittifaqın liderləri də artıq məlum

idi. Antanta blokunda İngiltərə, "Üçlər ittifaq"ında isə Almaniya. 1914-cü ilin oktyabr ayından etibarən Türkiyə də "Üçlər ittifaqı"na daxil oldu. İtalıya isə əksinə, 1915-ci ildən başlayaraq Antanta blokunda təmsil olunmağa üstünlük verdi.

Beləliklə, əsasən İngiltərə və öz siyasi, iqtısadi və hərbi qüdrətini günbəgün artıran Almaniya arasındakı dərin ziddiyyətlər bəşəriyyəti dünya müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Duru yanacaqla hərəkətə gətirilən hərbi texnikanın gündən-günə həlledici əhəmiyyət daşıması, qarşıdakı müharibənin istər kəmiyyət, istərsə keyfiyyət etibarilə əvvəlkilərdən əsaslı surətdə fərqlənəcəyi hərbi mütəxəssislərdə heç bir şübhə oyatmırdı. Odur ki, orduların hərbi texnika ilə təchiz olunması müharibə ovqatına köklənmiş ölkələrin əsas qayğısına çevrildi. İstər quruda, istər dənizdə, istərsə də havada. Hamı bir-birini qabaqlamağa çalışır, daha güclü, daha etibarlı duru yanacaq ehtiyatı yaratmağa və ordusunu mükəmməl hərbi texnika ilə təchiz etməyə çalışırdı. Təbii ki, İngiltərə və Almaniyanın bu sahədəki səyləri daha səmərəli, daha çox cəlbedici idi.

Rusiya imperiyası da dəstədən geri qalmamağa çalışır, öz hərbi potensialını artırmaq üçün müxtəlif tədbirlərə əl atırdı. Lakin rus-yapon müharibəsindəki ağır məğlubiyyətdən sonra, hərbi-siyasi elitası da daxil olmaqla Rusiyanın ictimai-siyasi həyatında yaranmış süstlük, ətalət, təşəbbüskarlığın aşağı səviyyədə olması, bürokratik əngəllər və s. dövrün tələbindən doğan bu vacib işin yüksək səviyyədə təşkilinə ciddi maneələr yaradırdı. Halbuki Bakının hesabına zəngin neft mənbələrinə malik olan Rusiya imperiyası bu məsələdə daha qətiyyətli, daha israrlı olmalı idi.

Bütün bunlara baxmayaraq, çətinliklə də olsa, Rusiyanın mühəndis və konstruktorları istər döyüş gəmilərinin duru yanacağa keçirilməsi üçün, istərsə də təyyarə istehsalını təşkil etmək üçün xeyli əmək sərf etməli oldular. Lakin dünyanın qabaqcıl ölkələri, ilk növbədə İngiltərə, Almaniya və ABŞ ilə müqayisədə əldə edilən nailiyyətlər xeyli zəif görünürdü. Məşhur rus təyyarə konstruktoru Aleksandr Yakovlev bu münasibətlə görün bir nə yazırdı: "Müharibə elan edilən gün rus ordusu cəbhədə cəmi 250 ədəd yararlı təyyarəyə malik idi.





Çar hökumətinin təyyarələrə və mühərriklərə tələbatının onların xaricdən alınması hesabına ödənilməsinə bəslədiyi ümidləri özünü doğrultmadı. Müharibənin gedişatında onların daşınmasında böyük çətinliklər yarandı[2].

Müharibənin gedişi ərzində Rusiya xaricdən 1500 təyyarə və 3500 mühərrik almışdı. Halbuki rus-alman cəbhəsinə daxil olmuş təyyarələrin ümumi miqdarının yalnız dörddə biri xaricdən alınmışdı"[3].

Bu onu göstərirdi ki, müharibə dövründə Rusiya imperiyasının öz müəssisələrində 6.000 təyyarə, 14.000 təyyarə mühərriki istehsal edilmişdi. Deməli bu onu deməyə əsas verir ki, rus ordusunun təyyarə potensialı, xaricdən alınmış təyyarələr də daxil olmaqla, təqribən 75.000 ədəd təşkil edirdi. Bu, əlbəttə, aviasiyanın yenicə yarandığını nəzərə alsaq, öz dövrü üçün heç də pis göstərici deyildi. Zira müharibədə iştirak edən digər aparıcı ölkələrin təyyarə potensialı daha yüksək idi. Ancaq belə bir cəhət də var ki, Rusiya özünün təyyarə istehsalını ilbəil artırmaq iqtidarında idi. Bunu təyyarə konstruktoru Aleksandr Yakovlev də təsdiq edir. O, yazırdı: "Səciyyəvi cəhət odur ki, əgər Birinci dünya müharibəsi ərəfəsində Rusiya bir ay ərzində müxtəlif tipli 40 təyyarə istehsal edirdisə, müharibənin sonunda – 1917-ci ildə* təkcə "Duks" zavodu ayda 75-100 təyyarə buraxırdı.

1913-cü ildə Peterburqdakı "Rusiya-Baltika" vaqonqayırma zavodunda İqor Sikorskinin rəhbərliyi ilə dünyada ilk çoxmühərrikli ağır "İlya Muromets" təyyarəsi yaradıldı. Müharibə ərzində cəbhə onlarla belə təyyarə aldı. Onlar uğurla döyüşürdü"[4].

Rusiyada təyyarə istehsalının sürətli inkişafını şərtləndirən mühüm amillərdən biri də onun kifayət qədər duru yanacaq ehtiyatına malik olması idi. Ölkənin əsas neft mənbəyi olan Bakıda yüksək keyfiyyətli benzin və sürtgü yağlarının istehsal edilməsi, nəinki ümumilikdə təyyarə istehsalının genişləndirilməsini stimullaşdırır, həm də daha yüksək keyfiyyətlərə malik döyüş təyyarələrinin yaradılmasına etibarlı şərait yaradırdı.

---

* 1917-ci il oktyabr çevrilişindən sonra Sovet Rusiyası müharibədən çıxdığını elan etdi.

"Konstruktor (İ.Sikorski nəzərdə tutulur – *N.Rza*) öz maşınını daim yaxşılaşdırırdı, yükqaldırma qabiliyyətini, uçma məsafəsini artırırdı. "E" tipli 4 mühərrikli "İlya Muromets" təyyarəsi saatda 135 kilometr uçur, 4 min metr hündürlüyə qalxa bilirdi. Təyyarə 7 nəfərdən ibarət uçuş heyətinə malik idi və 800 kiloqram mərmi də daxil olmaqla 2,5 ton yük qaldırırdı. O, düşmən qırıcılarından müdafiə üçün öz dövrünə görə, 7 pulemyotdan ibarət güclü silaha da malik idi"[5].

1905-ci ildə Mərakeşin Tanjer şəhərinə etdiyi səfər vaxtı Almaniya kayzeri II Vilhelmin öz çıxışında "dənizləri fəth etmək – dünyanı fəth etmək deməkdir"[6], söyləməsi çox-çox mətləblərdən xəbər verirdi. Bu sözlər, şübhəsiz ki, ilk növbədə dünya okeanlarında ağalıq edən Böyük Britaniyaya və onun müttəfiqlərinə ünvanlanmış bir xəbərdarlıq idi. Bu, təbii ki, İngiltərənin əsas müttəfiqlərindən biri olan Rusiyaya da şamil edilirdi. Yaxınlaşmaqda olan müharibənin taleyinin dənizlərdə də həll olunacağı artıq heç kimdə şübhə oyatmırdı. Gəmilərin duru yanacağa keçməsi səbəbiylə Böyük Britaniyanın hərbi-dəniz donanmasının hərbi göstəricilərinin keyfiyyətcə daha yüksək pilləyə qalxması Almaniyanın hakim dairələrinə yaxşı məlum idi. Lakin Almaniya da ondan geri qalmamağa, öz hərbi-dəniz potensialını intensiv şəkildə yüksəltməyə çalışırdı. Lakin bu barədə bir qədər sonra.



Böyük Britaniyanın Hərbi Dəniz Donanması

Almaniyanın gələcək rəqib kimi bu bəyanatları və hərbi-dəniz donanmasının modernləşdirilməsi yolunda atdığı ciddi addımlar, təbii ki, Rusiyanı narahat etməyə bilməzdi. Odur ki, toparlanıb özü də bu sahədə ciddi addımlar atmalı idi. Həm də artıq o da məlum idi ki, dəniz döyüşlərinin taleyi təkcə suyun səthində





deyil, həmçinin suyun altında da həll edilə bilərdi. Bunu isə duru yanacaqla hərəkət edən sualtı qayıqlar olmadan etmək qeyri-mümkündür.

1908-ci ildə dünyada ilk dəfə olaraq Nobelin Sankt-Peterburqdakı zavodunda sualtı qayıqlarda tətbiq edilmək üçün 120 at gücünə malik və geriyə də hərəkəti təmin edə biləcək dördtaktlı dizel mühərriki inşa edildi. Həmin vaxtdan başlayaraq sualtı qayıqlar üçün dizel mühərrikləri Rusiya müəssisələrində inşa edilməyə başlandı[7].

Onu da qeyd etmək vacibdir ki, rus donanmasının sualtı qayıqları üçün yüksək keyfiyyətli "Meteor" kerosinini "Nobel qardaşları şirkəti" göndərirdi[8].

Bakıda istehsal olunan kerosinin yüksək keyfiyyəti Rusiyanın hərbi-dəniz donanmasının da diqqətindən yayınmırdı. Belə ki, 1908-ci ildə onun rəhbərliyi Bakıda fəaliyyət göstərən 17 neft sənaye firmasına müraciət edərək Baltik donanmasının sualtı qayıqlar dəstəsinə, təklif etdikləri normativlərə cavab verən, yüksək keyfiyyətli kerosin göndərmələrini xahiş etdi. Lakin bu müəssisələrin əvəzinə "Nobel qardaşları şirkəti" cavab verdi və keyfiyyətli kerosin təklif etdi. Nəticədə hər iki tərəf müqavilə bağlamağa razılıq verdi. Onun şərtlərinə əsasən "Nobel qardaşları şirkəti" Baltik donanmasına 1908-ci ildə bir pudunun qiyməti 1 rubl 80 qəpik olmaqla 20 min pud kerosin göndərdi[9].

Həmin il nobellərin Sankt-Peterburqdakı müəssisəsində xam neft ilə işləyən yeni tipli dizel mühərrikləri hazırlandı və rus hərbi donanmasının gəmilərində tətbiq edildi. 1909-cu ildə inşa edilmiş 8 kanoner qayığında nobellərə məxsus xam neftlə işləyən və hər biri 1000 at gücünə malik dizel mühərrikləri quraşdırıldı[10].

Neft yanacağına bəzi dairələrin hələ də mənfi münasibət bəsləməsinə baxmayaraq Rusiyanın mütərəqqi düşüncələri günün nəbzini tutaraq hərbi-dəniz donanmasının təxirəsalınmadan neft yanacağına keçirilməsini son dərəcə zəruri hesab edirdilər. Xarici ölkələrin gəmilərində neft avadanlığının geniş şəkildə tətbiqi Rusiya hökumətini bu mühüm problemi tezliklə aradan qaldırmağa vadar etdi.

Həmin dövrdə Rusiyanın gələcək rəqibi Almaniyanın demək olar ki, bütün kiçik döyüş gəmiləri neft yanacağı ilə işləyirdi. Almaniyanın minadaşıyan gəmiləri neft yanacağının tətbiqi sayəsində saatda 38-dən 50-dək dəniz mili qət edə bilirdilər. Zirehli gəmilərin maşın komandasının heyəti 260 nəfərdən 40 nəfərə qədər azalmışdı[11].



Almaniyanın Hərbi Dəniz Donanması

Hətta heç bir neft mənbəyinə malik olmayan İtaliya, İspaniya və Portəgiz donanmalarının döyüş gəmilərinin bir hissəsi neft ilə işləyirdi[12].

Dünya ölkələrinin hərbi-dəniz donanmalarında baş verən mütərəqqi proseslər nəticəsində, 1909-cu ildə Rusiya Dəniz nazirliyinin texniki şöbəsi donanmada dizel mühərriklərinin müxtəlif növlərinin geniş tətbiq olunmasını təşkil etdi. Elə həmin ildə rus donanmasının daha bir sıra sualtı və kanoner qayığı, minadaşıyan və zirehli gəmiləri dizel mühərrikləri ilə təchiz olundu. Dəniz nazirliyinin rəsmi hesabatına görə hərbi donanmada dizel mühərriklərinin tətbiqi sahəsində Rusiya dünyada birinci yeri tuturdu[13].





Hərbi donanmanın neft yanacağına keçirilməsi məsələsi 1909-cu ilin martında hətta Rusiyanın Dövlət Dumasında da müzakirə olundu. Bu məsələni qaldıran deputat Zvyagintsev onu dövlət əhəmiyyətli bir iş kimi qiymətləndirdi[14].

Hərbi-dəniz donanmasına lazım olan bütün neft məhsulları ilə təchizatı bir qayda olaraq Bakı neft sənayeçilərinin, əsasən də "Nobel qardaşları şirkəti"nin öhdəsinə düşürdü.

Neft yanacağının tətbiqi ilə bağlı qərb ölkələrində görülən tədbirlər barədə gələn xəbərlərin sayı gündən-günə artmaqda idi. İngiltərə hökuməti hərbi gəmiləri duru yanacaqla fasiləsiz olaraq təchiz etməkdən ötrü Maltada və Cəbəllüttariqdə iri neft tutum-çənlərin inşası üçün külli miqdarda maliyyə vəsaiti ayırdı. ABŞ-da qəbul olunmuş qanuna əsasən, hökumət donanmada istifadə edilmək üçün hər il 25 milyon barrel neft almaq hüququna malik idi[15].

1910-cu ilin baharında Bakı firmaları ilə uğursuz danışıqlardan sonra İtaliyanın dəniz idarəsi 30 ton yüksək keyfiyyətli Amerika nefti aldı[16]. Almaniyada isə hərbi-dəniz donanmasında görülən genişmiqyaslı işlər bilavasitə ölkə başçısı II Vilhelmin nəzarətində idi.

1911-ci ildə Fransa donanmasının da sualtı qayıqlarının bir hissəsi artıq dizel mühərriki ilə təchiz olundu.

1912-ci ildə İngiltərədə hərbi-nəqliyyat gəmisi inşa olundu. O, hər biri 2.500 at gücündə olan 2 dizel mühərriki ilə təchiz edilmişdi[17]. Həmin ildə Almaniya donanmasının tərkibinə 3.500 at gücündə dizel mühərrikləri olan buna bənzər 2 gəmi daxil oldu[18].

Sualtı qayıqların inşası istər Avropada, istərsə ABŞ-da geniş miqyas almışdı. Onları hərəkətə gətirən dizel mühərriklərinin gücünün artırılması gündəlikdə duran ən vacib məsələlərdən biri idi.

Həmin vaxtda Almaniyanın Auqsburq zavodu Avstriyanın, İtaliyanın, Hollandiyanın və Almaniyanın sualtı donanmaları üçün nəzərdə tutulmuş 350 at gücünə malik dizellərin istehsalını mənimsədi. ABŞ-da sualtı qayıqları 520 at gücündə olan dizellərlə təchiz etməyə başladılar[19].

Neft yanacağı daha güclü mühərriklərin yaradılması üçün gerçəkdən hədsiz imkanlar açırdı. İxtiraçılar, mühəndislər, texnoloqlar bu imkanlardan mümkün qədər səmərəli istifadə etməyə çalışırdılar.

Məsələn, 1913-cü ildə Almaniyanın müttəfiqi Avstriyanın admirallığı Almaniyadakı məşhur Krupp zavoduna dizel mühərriklərinin hər biri 1000 at gücündə olan 5 sualtı qayıq istehsalını sifariş etdi[20].

Sanki buna cavab olaraq, həmin ildə ingilis donanmasında 2.500 at gücündə 8 silindrli dizel mühərrikləri tətbiq olundu[21].

Rusiyanın Dəniz nazirliyi yaranmış vəziyyəti nəzərə alaraq, döyüş gəmilərinin neft yanacağına keçirilməsi işlərini daha da intensivləşdirdi.

Bakının neft sənayeçiləri Rusiyanın hərbi donanması üçün tələb olunan neft yanacağını göndərməkdə davam edirdilər. Xüsusi keyfiyyətə malik neft məhsullarını əsasən "Nobel qardaşları şirkəti" göndərirdi. Bir neçə il ərzində həmin şirkət Baltik donanmasının gəmilərini "Enqler-5" kerosini və yüksək keyfiyyətli benzin ilə təmin etdi[22].

1913-cü ildə yaranmış yanacaq qıtlığına baxmayaraq, Rusiyanın Dəniz nazirliyi donanmanın neft yanacağına keçməsi üçün qəti addımlar atdı. Halbuki yanacaq qıtlığı, yanacağın başqa növləri kimi, neftin də qıtlığına səbəb olmuşdu. Bunun nəticəsində də qiymətlər kəskin surətdə artmışdı. Onu da qeyd etmək lazımdır ki, Birinci cahan savaşı ərəfəsində yaranmış bu qıtlıq ümumilikdə götürdükdə Rusiya iqtisadiyyatına son dərəcə mənfi təsir göstərdi. Lakin buna baxmayaraq, Rusiyanın Nazirlər Şurası qərar qəbul etdi. Bu qərara əsasən 1914-cü ildən başlayaraq hərbi donanma üç il ərzində 12,5 milyon pud, "pay" nefti almalı idi[23]. Bu, "pay" deyilən neft nəyi nəzərdə tuturdu? Bunun üçün bir qədər əvvələ qayıdaq. Belə ki, hələ 1913-cü ilin iyununda Dəniz nizirliyi, Ticarət və Sənaye nazirliyinə müraciət edib xahiş etdi ki, Dəmir yolları nazirliyi üçün nəzərdə tutulmuş "pay" adlandırılan neftin bir hissəsi hərbi gəmilər üçün ayrılsın[24].

Lakin necə deyərlər, "pay" neftinin əsl tarixçəsi bir qədər də əvvələ, 1908-ci ilə gedib çıxır. Həmin ilin iyununda Rusiya





Nazirlər Şurasının qəbul etdiyi bir qərar birbaşa Abşerona aid idi. Məlum olduğu kimi, o zaman neft sənayesi Ticarət və Sənaye nazirliyinə tabe idi. Odur ki, qəbul edilmiş qərara əsasən adı çəkilən nazirliyə, dövlət dəmir yolları üçün hər il 8 milyon pud neft ayırmaq hüququ verilirdi. Bu neft isə öz növbəsində Abşeronun neftli torpaq sahələrini icarəyə götürən xüsusi şəxslərdən pul ödəməsi əvəzinə natura ilə alınırdı[25]. 1910-cu il 18 iyun qərarına əsasən, Dəmir yolları nazirliyi üçün ayrılan illik neft "payı"nın həcmi 15 milyon puda qədər artırıldı[26]. Lakin tezliklə onun həcmi 39 milyon puda çatdırıldı[27]. Odur ki, 1913-cü ilin yanvarında çar hökumətinin qərarı ilə Rusiyanın Ticarət və Sənaye nazirliyinin yanında yaradılmış İdarələrarası Məsləhət şurası, məhz elə bu vaxt Dəniz nazirliyinin sərəncamına ayrılmalı olan "pay" neftinin həcminin 12,5 milyon puda qədər artırılmasını təklif etmişdi[28]. Beləliklə, Nazirlər Şurasının qəbul etdiyi 1913-cü il qərarı da, məhz İdarələrarası Məsləhət şurasının həmin təklifinə əsaslanırdı.

Məsləhət şurası Abşeronun neftli torpaqlarının daha 180 desyatinlik sahəsini şəxsi sahibkarlara bir şərtlə icarəyə verməyi təklif etdi ki, bu torpaqlarda hasil edilmiş neftin müəyyən hissəsi Dəniz nazirliyinin sərəncamına verilmiş olsun[29]. Bundan başqa, donanmanın neft yanacağına tələbatı artdığı təqdirdə, Nazirlər Şurası Suraxanıdakı neftli torpaqların 300 desyatinə qədərini şəxsi sahibkarlara icarəyə verilməsini nəzərdə tutaraq, yenə də eyni şərti – lazımi həcmdə neft yanacağının donanmaya göndərilməsi şərtini irəli sürmüşdü[30]. Lakin Dəniz nazirliyi anbarların olmaması ucbatından ona ayrılan "pay" neftinin yalnız 6 milyon pudunu qəbul etmək iqtidarında idi[31].

Odur ki, 1914-cü ilin aprelində qəbul edilmiş qərara əsasən "Nobel qardaşları şirkəti" "pay" neftinin 6 milyon pudunu Dəniz nazirliyinə, Bakının digər firmaları isə qalan 6,5 milyon pudunu Dəmir yolları nazirliyinə verməli idilər[32].

Bununla əlaqədar elə həmin vaxt Bakıya təşrif gətirən ixtisasca mühəndis-mexanik olan general-mayor Qolov və Dəniz nazirliyinin Baş təsərrüfat idarəsinin məsləhətçisi Verbitski "Nobel qardaşları şirkəti" ilə müqavilə şərtlərini müzakirə etdilər[33]. Müqavilə

imzalandıqdan sonra Rusiyanın hərbi-dəniz donanması Bakıdan "pay" neftini almağa başladı[34].

Fəqət 1914-cü ilin mayında, yəni müqavilə imzalandıqdan təqribən bir ay sonra məlum oldu ki, nazirlik anbarların olmaması ucbatından, hətta bu mıqdarda belə neft yanacağını qəbul etmək iqtidarında deyil[35]. Buna görə də artıq qalan "pay" neftini də Dəmir yolları nazirliyinə vermək qərara alındı.

Maraqlıdır ki, Rusiyanın əsas müttəfiqlərindən olan İngiltərə özündən xeyli uzaqlarda hərbi-donanması üçün iri neft anbarları inşa etdiyi halda, Rusiya hətta öz hüdudları daxilində belə, tələb olunan miqdarda və həcmdə neft anbarlarına malik deyildi. Bu isə öz növbəsində rus donanmasının neft yanacağı ilə təchiz olunmasında xoşagəlməz problemlərin yaranması demək idi.

Lakin bütün bunlara, habelə Rusiya imperiyasına xas olan digər çoxsaylı çatışmazlıqlara baxmayaraq, hərbi-dəniz donanmasının neft yanacağı ilə təchiz edilməsi son dərəcə həyati əhəmiyyətə malik vacib məsələ sayılırdı. 1914-cü ildən başlayaraq neft yanacağının alınması üçün maliyyə vəsaitinin ayrılması məsələsi Dövlət Dumasında müzakirə olunur, Rusiyanın Dövlət Şurası tərəfindən təsdiqlənirdi. Beləliklə, bu məsələ mühüm dövlət əhəmiyyəti daşımağa başladı[36]. Ümumiyyətlə götürdükdə isə demək olar ki, neft yanacağının tətbiqi hərbi-dəniz donanmasında əsl inqilab yaratdı.



## XI fəsil

# RUSİYA BÖHRAN MƏNGƏNƏSİNDƏ

XIX əsrdəki ingilis-rus münasibətləri tam mənasında düşmənçiliyin bariz nümunəsi kimi qiymətləndirilə bilər. Avropanın hər iki böyük dövlətinin Asiyaya, xüsusilə də Hindistana və Çinə böyük maraq göstərmələri, əsrin ikinci yarısından etibarən niyyətlərinin daha da ciddiləşməsi və praktiki addımların atılması bu münasibətləri daha da gərginləşdirdi. Türküstanda öz hərbi fəaliyyəti ilə böyük "uğurlar" qazanmış general Skobelevin Hindistana hərbi səfərə hazırlaşması və bunun üçün hətta müvafiq plan da tərtib etməsi çox-çox mətləblərdən xəbər verirdi. Rusiyanın Yaxın və Uzaq Şərqdə möhkəmlənmək və bu bölgəni öz maraq dairəsinə salmaq cəhdləri təbii ki, İngiltərəni narahat etməyə bilməzdi. Rusiyanın ekspansianist siyasəti nəticəsində bu qarşıdurma demək olar ki, artıq Hindistan sərhəddinə yaxın olan bir bölgədə formalaşırdı.

Həmin dövrdə İngiltərənin xarici siyasətinin əsas istiqamətlərindən biri Rusiyanın bir dövlət kimi zəiflədilməsi, parçalanması və siyasi cəhətdən təklənməsi idi. Rusiyanın Şərqə doğru irəliləməsinin qarşısını almaqdan ötrü Böyük Britaniya ən radikal addımlar atmağa belə hazır idi. Rusiyanın Çinə soxulmaq istəyi isə İngiltərəni daha fəal addımlar atmağa sövq etdi. 1902-ci ilin yanvarında Yaponiya ilə bağlanmış ittifaq İngiltərənin niyyətinin ciddiliyindən xəbər verirdi. Əsas məqsəd rəqibinə ciddi zərbə vurmaq idi. Xüsusilə də hərbi sahədə. Tezliklə bunun üçün əlverişli imkan da yarandı. Bu rus-yapon müharibəsi idi. İngiltərənin də hərtərəfli dəstəyi istisna edilməyən bu müharibə Rusiyanın tam məğlubiyyəti ilə nəticələndi. İngiltərə bu müharibədə bilavasitə iştirak etməsə də, onun bu savaşa qatılmaq niyyəti son dərəcə ciddi sayılmalı idi. Buna səbəb rus admiralı Rojdestvenskinin rəhbərlik etdiyi Baltik eskadrası ola bilərdi. Belə ki, Uzaq Şərqə səfərə yollanan rus hərbi gəmilərinin İngiltərənin Hall şəhərindən olan balıqçı gəmilərini atəşə tutmaqları buna bəhanə idi. Hərbçilər

onları yapon mınadaşıyan gəmiləri ilə səhv saldıqlarını və məhz elə buna görə də atəş açdıqlarını iddia edirdilər. Lakin Rusiya hökumətinin əhəmiyyətsiz adlandırdığı Hall münaqişəsi, az qala İngiltərənin Rusiyaya müharibəyə başlaması ilə nəticələnə bilərdi. Fəqət belə olmadı. Amma elə bunsuz da rus-yapon müharibəsinin nəticələri çar hökumətinin Asiyadakı mövqelərini xeyli zəiflətdi. 1905-ci il avqustun 5-də bağlanmış yeni ingilis-yapon müqaviləsi isə, İngiltərə-Yaponiya idtifaqına yeni çalarlar gətirməklə yanaşı, Britaniya tacının gövhəri sayılan Hindistana Rusiyanın hərbi-siyası cəhətdən nüfuz etməsinin bir növ qarşısını almış oldu. Çünki hər hansı bir ölkənin Hindistana hücum edəcəyi təqdirdə, Yaponiya öz silahlı qüvvələrini İngiltərənin sərəncamına verməyi öhdəsinə götürmüşdü.

Lakin bundan bir il əvvəl, daha doğrusu 1904-cü ildə Rusiyanın müttəfiqi Fransa ilə ittifaq müqaviləsi bağladıqdan sonra, yaranmış yeni vəziyyəti nəzərə alan İngiltərə, Rusiya ilə də müqavilə bağlayaraq, Antantanın yaranmasını reallaşdırdı. Bu isə öz növbəsində Almaniyanın diplomatiya nöqteyi-nəzərindən mühasirəyə alınması demək idi.

1902-ci ildən başlanan ingilis-alman danışıqları illər keçməsinə baxmayaraq, heç bir nəticə vermirdi. Əksinə, maraqlar üst-üstə düşmür, mövqelər isə getdikcə daha da uzaqlaşırdı.

Ziddiyyətlər əsas etibarilə hər iki ölkənin dənizdə apardıqları kəskin rəqabətdən qaynaqlanırdı. Yaranmış neft problemi də məhz bu zidiyyətin bəhrəsi idi. Almaniyanın dənizdə qüdrətinin gündən-günə artması və hərbi-dəniz donanmasını ardıcıl şəkildə neft yanacağına keçirməsi İngiltərəni, ilk növbədə isə öz müstəmləkələrinin gələcək taleyi narahat etməyə bilməzdi.

Zira Almaniyanın da gələcək planları artıq heç kimdə şübhə doğurmurdu. Başqa dövlətlərdən xeyli gec müstəmləkə ovuna çıxan Almaniya öz hərbi qüdrətini artırmaqla İngiltərə və Fransanın Afrikadakı və Yaxın Şərqdəki müstəmləkələrini ələ keçirmək niyyətində idi.

Lakin getdikcə hamı artıq yaxşı başa düşürdü ki, yeni müharibə əvvəlkilərdən xeyli fərqlənəcək. Qarşıya qoyulan məqsədlər,





müharibəni dünyanın müxtəlif bölgələrində, qitələrində, bir-birindən xeyli məsafədə olan, irili-xırdalı saysız-hesabsız cəbhələrdə aparılmasını tələb edəcək. Bu isə ordu birləşmələrinin indiyədək görünməmiş yerdəyişməsi, mütəhərrikliyi deməkdir. Özü də qısa zaman kəsiyində. Bu da təbii ki, quruda da, suda da, göydə də külli-miqdarda neft yanacağı tələb edəcəkdi. Müharibəyə iddialı ölkələrdən yalnız ikisi özünü duru yanacaqla təmin etmək iqtidarında idi. Bu, ilk növbədə Rusiya idi. Bakının və Qafqazın digər neft mənbələri hesabına. İkincisi isə Böyük Britaniya idi. Fəqət onun da öz problemləri vardı. Lakin bu barədə bir qədər sonra.

Almaniyaya gəldikdə isə onun neft problemi daha ciddi idi. Təkcə hərbi yox, daxili tələbatda da duru yanacağa böyük ehtiyac duyan Almaniya, etibarlı neft mənbələrinə sahib olmaq iştahında idi.

Almaniyanın neftə ehtiyacını və müharibə dövründə bu sahədə atdığı addımları, Birinci dünya savaşının fəal iştirakçılarından biri olan alman generalı Erix Lüdendorf sonralar öz xatirələrində yazırdı: "Müharibənin ümumi gedişatı üçün kömür, dəmir və polad ilə bərabər, sualtı qayıqlar, yük avtomobilləri və aeroplanlar üçün yanacaq, habelə sürtkü yağları da mühüm əhəmiyyət kəsb edirdilər. Bu cəhətdən biz, Avstriya – Macarıstandan və Rumıniyadan asılı idık. Avstriya – Macarıstanın bizə lazımi qədər neft verə bilməməsi və onun hasilatının qaldırılması üçün edilən bütün cəhdlərin nəticəsiz qalması ucbatından, müharibənin uğurla davam etdirilməsi üçün rumın nefti həlledici əhəmiyyət daşımış oldu. Lakin neftin Rumıniyadan gətirilməsinə baxmayaraq, neft məsələsi son dərəcə ciddi olaraq qalırdı və müharibənin davam etdirilməsini və Almaniyanın daxili həyatını olduqca çətinləşdirirdi"[1].

Böyük Britaniyanın isə neftlə bağlı öz problemləri vardı. Hərbi-dəniz donanmasının 45 faizinin müharibədən əvvəl duru yanacağa keçirilməsi neft məsələsinin aktuallığını daha da artırdı.

Dünya okeanlarının müxtəlif yerlərinə səpələnmiş hərbi gəmiləri yanacaqla müntəzəm təchiz etmək ən vacib məsələyə çevrıldı. Əsas problem ondan ibarət idi ki, İngiltərə müharibədən əvvəl

neftin 70 faizini[3] Amerıkadan daşıyırdı. Müharibə dövründə bu rəqəm hətta 85 faizə[4] qədər yüksəldi. Beləliklə də ingilis donanmasının səmərəli fəaliyyəti ilk növbədə Amerika neftındən asılı idı. Doğrudur, ingilislər Amerika qitəsinin digər ölkələrində konsenssiyalara malik idilər. Lakin ABŞ ilə, yumşaq desək, hər hansı bir gərginliyin yaranacağı təqdirdə neftin İngiltərəyə daşınması böyük çətinliklərlə üzləşə bilərdı. Digər tərəfdən məsafənin böyüklüyünü, habelə almanların çoxlu sayda sualtı qayıqlarını da nəzərdən qaçırmaq olmazdı. 1915-ci il mayın 7-də İngiltərənin ərazi sularında ingilislərə məxsus "Luzitaniya" sərnişin gəmisinin almanların sualtı qayığı tərəfindən batırılması sualtı müharibənin son dərəcə ciddi və səmərəli olmasından xəbər verirdi. O zaman 200-dən artıq sərnişin də dəniz sularına qərq olmuşdu[5]. Odur ki, Yaxın Şərq neftinə İngiltərənin göstərdiyi böyük diqqət və qısqanclıq başa düşülən idi.



«Luzitanya» sərnişin gəmisinin süqutu

1907-ci il avqustun 31-də İngiltərə ilə Rusiya arasında Sankt-Peterburqda bağlanmış müttəfiqlik müqaviləsi də əsasən məhz bu nigarançılıqdan irəli gəlirdi. Müqavilənin İrana aid hissəsi diqqəti xüsusilə cəlb edır. İlk baxışda İngiltərənin, İranın ərazi baxımından Rusiyaya böyük güzəştlərə getməsi kimi görünsə də, əslində İngiltərə hökuməti strateji baxımdan daha uzaq məqsədlər güdürdü. O, hətta ölkənin paytaxtı Tehran da daxil olmaqla, İranın təxminən yarısını təşkil edən şimal hissəsinin Rusiyanın maraq dairəsinə daxil edilməsinə razılıq verdi. Onun tərkibində İranın bir sıra varlı əyalətləri də var idı. Ölkənin böyük bir ərazısı isə bitərəf zona elan edilmişdi. Fəqət bitərəf adlandırılan bu zona, Böyük Britaniya üçün strateji cəhətdən böyük əhəmiyyət kəsb edirdi. Əvvəla, 1901-ci ildən başlanan və 1907-ci ildə uğurla başa çatdırılan neft kəşfiyyatı, iki ildən sonra burada "Anglo-Persian





Company"nın təşəkkül tapması ilə nəticələndi. Digər tərəfdən isə Hindistanın qərb sərhədləri tamamilə onun nəzarətinə keçdi. Bununla da Rusiyanın Hindistana nüfuz etməsi müşkül məsələyə çevrildi. Çünki Hindistan ilə birbaşa sərhəddi olan Əfqanıstan, bağlanmış müqaviləyə əsasən, Rusiyanın maraq dairəsindən çıxarılmışdı. İngiltərənin əldə etdiyi digər uğur isə, Rusiyanın anti-alman cəbhəsinə bağlanması oldu.

Zira İngiltərənin ən böyük uğuru şübhəsiz ki, İranla bağlı idi. Daha doğrusu, İran neftı ilə. Çünki çox tezliklə bəlli oldu ki, İran həqiqətən də zəngin neft ehtiyatlarına malikdir. Müharibədən sonrakı hesablamalara görə məlum oldu ki, İranın neft ehtiyatları ABŞ-ın o zamankı ehtiyatlarının üçdə ikisinə bərabərdir[6].

Məhz bu səbəbdən İran Birinci cahan savaşı ərəfəsində mühüm strateji rol oynamaqla bərabər, həm də qüvvətli cazibə nöqtələrindən birinə çevrildi. Ən başlıcası isə İran İngiltərənin neft ehtiyaclarını təmin etmiş olurdu. Başqa bir üstünlüyü də o idi ki, coğrafi cəhətdən İran neftı son dərəcə əlverişli bir məkanda yerləşirdi. Onun nəqli təhlükəsizlik baxımından da problemsiz görünürdü. Çünki faktiki olaraq İngiltərənin tam nəzarəti altında olmalı idi.

Lakin İngiltərənin neftlə bağlı hərbi-strateji planlarına ciddi surətdə mane ola biləcək başqa bir təhlükə də mövcud idi. Nə qədər qəribə görünsə də bu təhlükə elə İranın özündən qaynaqlanırdı. Buna səbəb, 1905-ci ildə başlanan və əhatə dairəsi gündən-günə genişlənən Məşrutə hərəkatı oldu.

Həmin dövrdə İran son dərəcə taleyüklü və mürəkkəb bir dövrünü yaşayırdı. Ağır iqtisadi durum, dini xurafat, məmur özbaşınalığı, ifrat orta əsr psixologiyasına və idarəçilik üsullarına söykənən şahlıq rejimi İranı dünyanın ən geridə qalmış ölkələrindən birinə çevirmişdi. Dözülməz həyat və həddi-hüdudu olmayan haqsızlıq xalqı ölüm-dirim mübarizəsinə qaldırmışdı. Səttarxanın başçılıq etdiyi bu hərəkat sözün əsl mənasında milli-azadlıq mübarizəsi, milli oyanış idi. Güney Azərbaycanda başlamış bu hərəkatda çar hökumətinin qadağalarına baxmayaraq, Quzey Azərbaycandan da böyük miqdarda könüllülər iştirak edirdilər.

İrandakı hadisələr istər Avropa, istərsə də Rusiya mətbuatında geniş şərh edilirdi. Və əksər hallarda rəsmi dairələrin birmənalı mövqeyini əks etdirirdi.

1908-ci ildə Təbriz üsyanına həsr edilmiş bir məqaləyə V.İ.Lenin də öz münasibətini bildirmişdi. "Proletari" qəzetinin 1908-ci il 16 (29) oktyabr tarixli sayında çap etdirdiyi "Balkanlarda və İrandakı hadisələr" məqaləsində o yazırdı: "Oktyabrın 18-də (5-də) "Новое Время" belə gurultulu bir məqalə dərc etmişdi ki, "Təbrizdə özbaşınalıq misilsiz dərəcəyə çatmışdır", bu şəhər guya "yarımvəhşi inqilabçılar tərəfindən yarıya qədər dağıdılmış və talan edilmişdir". Gördüyünüz kimi, Təbrizdə inqilabın şah qoşunları üzərində qələbəsi dərhal Rusiyanın yarımrəsmi hiddətinə səbəb olmuşdur. İnqilabçı İran qoşununun başçısı Səttarxan həmin məqalədə "Azərbaycan Puqaçovu" elan edilmişdir (Adərbaycan və ya Azərbaycan İranın şimal əyalətidir, bu əyalətin baş şəhəri Təbrizdir. Reklünün (məqalə müəllifinin soyadı – *N.Rza*) dediyinə görə, bu əyalətin əhalisi (azəri türkləri nəzərdə tutulur – *N.Rza*) bütün İran əhalisinin 1/5 hissəsinə çatır)*. "Novoye Vremya" ("Новое Время") yazırdı: "Sual olunur ki, İran sərhəddində bizim milyon dəyərində olan ticarətimizi pozan bütün bu biabırçılıqlara Rusiya daim dözə bilərmi?.."

Yaddan çıxarmaq lazım deyildir ki, bütün Şərqi Zaqafqaziya (Quzey Azərbaycan nəzərdə tutulur – *N.Rza*) və Azərbaycan (Güney Azərbaycan – *N.Rza*) etnoqrafik cəhətdən bir tam təşkil edir...

Zaqafqaziyadakı müsəlman yarıziyalıları rus təbəəsi olduqlarını unudaraq, Təbriz iğtişaşlarına qızğın bir rəğbətlə yanaşmışlar və oraya öz könüllülərini göndərirlər"**.

Oktyabrın 20-də "Peterburqdan alman "Frankfurt Qəzeti"nə teleqrafla belə bir xəbər verilmişdi ki, Rusiya üçün "əvəz olaraq Azərbaycanın işğalı nəzərdə tutulur. Oktyabrın 24-də (11-də) həmin qəzet Təbrizdən belə bir teleqram dərc etmişdi: "Üç gün

* Səhv göstəricidir. Güney Azərbaycan əhalisinin sayı xeyli çox idi.

** Bu məqalə hərbi müdaxilə üçün ideoloji və informasiya müharibəsi kimi qiymətləndirilə bilər.





bundan əvvəl altı batalyon rus piyadası, müvafiq mıqdar süvari və topçu hissəsi İran sərhəddini keçmişdir və bu gün Təbrizdə gözlənilir"[7].

Leninin şərh etdiyi həmin məqalədə Səttarxana ünvanlanmış ikiüzlü və eyni dərəcədə də məkrli olan bir tövsiyə də özünə yer almışdır. Orada deyilir: "Azərbaycan sakitləşdirilsin. Bu nə qədər kədərli olsa, hadisələr Rusiyanı heç bir şeyə qarışmamaq arzusunda olduğuna baxmayaraq, bu işi öz üzərinə götürməyə vadar edə bilər".

Məqalənin sonunda Lenin İrana qoşun yeridilməsi faktına bir daha diqqət yetirərək yazır: "P.S. Bu məqalə çapa verildikdən sonra qəzetlərdə Peterburq teleqraf agentliyinin İran sərhəddini rus qoşunlarının keçməsi haqqındakı xəbəri təkzib edən bir teleqramı dərc edilmişdir. Həmin teleqram 24.X tarixli "Frankfurter Zeitung" qəzetinin ikinci səhər nəşrində dərc edilmişdir. 3-cü nəşrində İstanbuldan oktyabrın 24-də saat $10^{50}$ dəqiqədə verilən bir teleqram vardır. Həmin teleqramda deyilir ki, oktyabrın 24-də axşam rus qoşunlarının İran sərhəddini keçməsi xəbəri alınmışdır. Sosialist mətbuatı istisna olmaqla, xarici mətbuat rus qoşunlarının İrana soxulması haqqında hələ susur.

Yekunu: bütün həqiqəti tamamilə bilməyə bizim hələlik imkanımız yoxdur. Hər halda çar hökumətinin və SPB (Sankt-Peterburq – *N.Rza*) *teleqraf agentliyinin* "təkziblərinə", əlbəttə, qətiyyən inanmaq olmaz. Dövlətlərin razılığı (seçmə mənimdir – *N.Rza*) ilə Rusiyanın fitnəkarlıqdan başlamış qoşun göndərməyə qədər bütün vasitələrlə İran inqilabına qarşı mübarizə aparması bir faktdır. Onun Azərbaycanı işğal etmək məqsədi güdən siyasət yeritməsinə də şübhə yoxdur. Qoşunlar hələ sərhəddi keçməmişsə, yəqin ki, bunun üçün bütün tədbirlər görülmüşdür: "od olmasa, tüstü çıxmaz"[8].

Rusiyanın İrandakı proseslərə müdaxilə etməsi barədə Avropa mətbuatına sızan məlumatlar çox tezliklə təsdiqləndi. Polkovnik Lyaxovun komandanlıq etdiyi kazak diviziyası Səttarxan hərəkatının boğulmasının ən fəal iştirakçılarından biri oldu. Bu həmin Lyaxovdur ki, sonralar Rusiyada baş vermiş vətəndaş müharibəsi

zamanı Quzey Qafqazda general Denikinin başçılıq etdiyi könüllülər ordusunda fəaliyyət göstərərək bir çox "qəhrəmanlıqlara" imza atmışdı.

Təbriz üsyanı bütün Avropada böyük əks-səda yaratdı və çoxlarını qorxutdu. Xüsusilə də Rusiya və İngiltərəni.

İlk dövrdə İngiltərə hökuməti bu hadisəyə bir o qədər də ciddi münasibət bəsləmirdi. Çünki uzun sürən neft axtarışları, həlakı nikbinlikdən daha çox bədbinlikdən xəbər verirdi. Əsas təhlükə, axtarış sahəsində məskunlaşan yerli qəbilələrin aqressiv münasibətindən irəli gəlirdi.

Lakin 1908-ci il mayın 26-da üzüntülü neft axtarışının uğurla nəticələnməsi və bundan bir qədər sonra "Anglo-Persian Company"nin yaradılması, çox keçmədən vəziyyəti köklü surətdə dəyişdirdi. İngiltərə hökumətinin Məşrutəyə olan münasibəti son dərəcə kəskinləşdi. Bu baxımdan əzəli rəqibi Rusiyanın simasında özünə əlverişli müttəfiq də əldə edə bildi. 1907-ci ildə hər iki ölkə arasında bağlanmış və İranı iki təsir dairəsinə bölünməsini təsdiqləyən müqavilə də lap yerinə düşmüş kimi oldu.

Bir tərəfdən Səttarxan və onun silahdaşlarının ciddi qələbələri, habelə geniş xalq kütlələrinin Məşrutəyə olan dərin rəğbəti, digər tərəfdən isə Məmmədəli şahın simasında İran rejiminin iflas həddinə çatmış durumu, İngiltərə və Rusiyanın hakim dairələrini son dərəcə əndişələndirdi və qəti addımlar atmağa sövq etdi.

Əgər Rusiya Güney Azərbaycandakı azadlıq hərəkatının, hökmranlığı altında saxladığı Quzey Azərbaycana da sirayət edəcəyindən ehtiyatlanırdısa, İngiltərənin hakim dairələrini ilk növbədə İrandakı neft maraqlarının gələcək taleyi daha çox narahat edirdi. Odur ki, hər iki imperialist dövlət xalq-azadlıq hərəkatının qələbəsi ilə heç cür barışa bilməzdi. Odur ki, yerli irticanın fəal köməkliyilə iki imperiyanın birləşmiş qüvvələri 1911-ci ildə Məşrutənin süqutuna nail oldular.

Beləliklə də XX yüzilliyin lap əvvəlində dünya siyasətində qorxunc bir ənənənin, milli-azadlıq hərəkatlarının, demokratik vətəndaş cəmiyyətlərinin qurulması uğrunda aparılan mübarizələrin müqəddəratının dünyanın aparıcı və inkişaf etmiş dövlətlərinin gündən-





günə artmaqda olan neft maraqlarına qurban verilməsi ənənəsinin bünövrəsinin qoyulması kimi qiymətləndirilə bilər. Hadisələri əvvəlcədən qabaqlamaq niyyətimiz olmasa da, onu deməliyik ki, buna bənzər olaylar XX yüzillik boyunca, təkcə İranda deyil, neftlə zəngin digər məmləkətlərdə dəfələrlə təkrarlandı. Quzey Azərbaycanda da o cümlədən. Neft amili son dərəcə siyasiləşdi, hərbiləşdi. Neft amili əksər hallarda demokratiya və insan haqlarından üstün tutuldu. Nəticədə XX yüzillik bəşər tarixində ən mürəkkəb, ən taleyüklü, hərbi-siyasi və ideoloji qarşıdurmalarla son dərəcə zəngin olan bir dövr kimi yaddaşlara həkk olundu. Neftlə zəngin olan ölkələrdə əksər hallarda diktatura rejimlərinin bərqərar olması, mahiyyəti dəyişmədən bir-birini əvəzləməsi, hakimiyyəti ələ keçirmək uğrunda aparılan qanlı mübarizələr, pərdəarxası oyunlar, intriqa və avantüralar adi normaya çevrildi. Özü də mütərəqqi bəşəriyyətin gözü qarşısında. Lakin bu barədə bir qədər sonra. Hələlik isə Birinci cahan savaşına aparan yollar gündən-günə qısalır, arqumentlər isə çoxalırdı. Tərəf müqabillər müəyyənləşir, oriyentirlər dəqiqləşdirilirdi. Müharibədən xeyli əvvəl bağlanmış müqavilələr, sazişlər bəs etmirmiş kimi, onun gedişatında da yeniləri imzalanırdı.

1914-cü ilin oktyabrında Türkiyə Almaniya tərəfində müharibəyə qoşulduqdan dərhal sonra, Antanta da adekvat tədbirlərə əl atdı. 1915-ci ilin aprel-may aylarında yeni bir ingilis-fransız-rus gizli sazişi imzalandı. Notalardan və ayrı-ayrı göndərişlərdən tərtib olunmuş bu sazişə əsasən İstanbul da daxil olmaqla, Qara dəniz boğazları Rusiyanın ixtiyarına keçməli idi*. Lakin bir şərtlə ki, Rusiya qələbə əldə olunana qədər Almaniya ilə müharibədə iştirak etsin. Bunun əvəzində isə 1907-ci il müqaviləsində müəyyən edilmiş bitərəf zona Rusiya hökumətinin razılığına əsasən İngiltərənin təsir dairəsinə verilirdi. Bu, ingilis diplomatiyasının böyük uğuru idi. Əvvələ İstanbulun və boğazların** Rusiyaya verilməsi nisyə söhbət idi və müharibənin nə ilə nəticələnəcəyi hələ heç kimə

* 1917-ci ildə Sülh haqqında dekretə əsasən ləğv edildi.

** Bosfor və Dardanel.

bəlli deyildi. Sonrakı hadisələr göstərdi ki, bu həqiqətən belədir. Çünki Rusiya imperiyasının taleyi indi hamıya yaxşı bəllidir.

İngilislər isə İranda daha sərbəst olmaqla, neft mənbələrinin təhlükəsizliyini tam təmin etdilər. Digər tərəfdən isə coğrafi nöqteyi-nəzərdən əlverişli məkanda yerləşən daha bir neft mənbəyinə – Rusiyanın nəzarəti altında olan Bakıya yaxınlaşmaq fürsəti əldə etdilər. Zamanı gələndə onun sərvətlərindən bacardıqları qədər bəhrələnə də bildilər.

Bakı başda olmaqla Qafqaz neft bölgəsi bütövlükdə Rusiyanın tükənməz nəhəng duru yanacaq çəlləyi idi. Müharibəyə qoşulmağa hazırlaşan ölkələr arasında Rusiya, ABŞ istisna olmaqla* özünü duru yanacaqla təmin etmək iqtidarında olan yeganə ölkə idi. Azərbaycandakı neftlə zəngin olan sahələrin demək olar ki, əksəriyyəti** dövlətə məxsus idi[9]. Onların müəyyən hissəsi neft sənayeçilərinə icarəyə verilmişdi. Bakı-Batum neft kəmərinin, Güney Qafqaz dəmir yolunun, nəhəng vaqon-sistern parkının da sahibi dövlətin özü idi[10]. Ümumi tutumu 101,5 milyon pud neft və neft məhsullarına bərabər olan 1.830 neft anbarı, 1914-cü ildən Dövlət dəmir yolları idarəsinə və Dəniz idarəsinə məxsus idi[11].

Məlumdur ki, müharibə dövrünün öz özəllikləri var. Onun spesifik şərtlərindən biri, iri neft şirkətlərinin hökumət strukturları ilə qovuşmasından ibarət idi. Bu sahədə ilk addımı atmış İngiltərə onun bariz nümunəsi idi. Görünür, başqa cür ola da bilməzdi. Çünki neft artıq iqtisadi maraqdan, hərbi-siyasi amilə çevrilmişdi. Rusiyada da həmçinin. Birinci dünya müharibəsi dövründə Azərbaycanın neft sənayesi də bu yeni ab-havadan kənarda qalmadı. Onun neft şirkətlərinin Rusiyanın hərbi və hərbi-dəniz strukturları ilə qarşılıqlı münasibətləri məhz bu müstəvidə quruldu.

Ordunu, donanmanı duru yanacaqla, əsasən "Nobel qardaşları şirkəti", "Mazut", "Petrol", "Восточное общество" cəmiyyətləri, Şibayev, Əsədullayev firmaları və digər neft ticarəti müəssisələri təchiz edirdilər[12]. Lakin ən böyük neft təchizatçısı şübhəsiz ki,

* ABŞ Birinci dünya müharibəsinə yalnız 1917-ci ilin aprel ayında qoşuldu.

** 6 mln. desyatindən artıq.





"Nobel qardaşları şirkəti" idi. Məsələn, 1914-cü ilin sentyabrından 1915-ci ilin yanvarınadək şirkət hərbi idarəyə 150 min pud aviasiya benzini göndərdi[13]. 1916-cı il martın 30-na qədər isə bu qiymətli məhsulun göndərilməsi 2 milyon puda qədər artdı[14]. Bağlanmış müqaviləyə əsasən "Nobel qardaşları şirkəti" Dövlət dəmir yollarına 30 milyon pud mazut, Volqa donanmasına 21 milyon pud neft yanacağı[15], habelə Petroqrad hərbi dairəsinin artilleriya dairə idarəsinə hər ay 35 min pud benzol, 65 min pud toluol göndərməli idi[16].

1914-cü ildə Hərbi və Dəniz idarələrinin sərəncamına göndərilən defisit benzinin ümumi həcmi 750 min ton idi[17]. 1915-ci ildə "Nobel qardaşları şirkəti"nin müxtəlif hərbi istehlakçılara göndərdiyi neft məhsulları digər məhsulların illik satışının 70 faizi qədər idi[18]. Şirkətin Volqaboyunda səpələnmiş 23 yanacaq anbarı isə müdafiə üçün işləyən müəssisələrin ehtiyacının ödənilməsində bilavasitə iştirak edirdi[19].

Neft yanacağına Dəniz idarəsinin də marağı son dərəcə artdı. Məsələ burasında idi ki, hərbi donanmanın gəmiləri üçün "dəniz mazutu"[20] deyilən xüsusi yanacaq tələb olunurdu. Onu isə hər hansı bir neftdən yox, yalnız xüsusi növ neftdən almaq mümkün idi. Bu duru yanacaq neft sənayeçiləri tərəfindən həmişə yüksək qiymətləndirilirdi. Çünki ondan yüksək keyfiyyətli sürtkü yağı almaq mümkün idi[21]. Təbii ki, belə mazutun qiyməti də xeyli baha idi.

Diqqəti cəlb edən məsələlərdən biri də müharibə dövründə Dəniz idarəsinin "Nobel qardaşları şirkəti" ilə bağladığı üç müqavilə idi. Onlardan birincisi, 1915-ci il yanvarın 13-nə, ikincisi 1916-cı il fevralın 24-nə, üçüncüsü isə 1917-ci il aprelin 20-nə təsadüf edir.

Müqaviləyə əsasən şirkət Dəniz idarəsinin sərəncamına müvafiq olaraq, 1915-ci ildə 12,5 milyon pud[22], 1916-cı ildə 20 milyon pud[23], 1917-ci ildə isə 4,5 milyon pud[24] yüksək keyfiyyətli mazut göndərməli idi. 1917-ci ildə göndərilməli olan mazutun həcminin əvvəlki illərə nisbətən xeyli aşağı olmasının əsas səbəbi çox güman ki, həmin ildə Rusiyada baş vermiş fevral burjua inqilabı

idi. Yaranmış hakimiyyət böhranı, siyasi qarşıdurmalar, bolşeviklərin pozucu fəaliyyətləri, imperialist müharibəsinin qeyri-populyar olması, rus ordusunun uğursuzluqları, ölkəni bürüyən sosial-iqtisadı böhran, ümumi ruh düşkünlüyü, Rusiya imperiyası daxilındə müstəmləkə əsarətində inləyən xalqların milli oyanışı və s. şübhəsiz ki, nəticəsiz qala bilməzdi.

Lakin bütün bunlar yalnız sonralar baş verdı. Hələlik isə rus dövləti Birinci dünya müharibəsi şəraitində neft sənayesi məhsullarının əsas sifarişçisi qismində çıxış edirdi. Hərbi sifarişlərin verilməsi də, maliyyə borclarının ödənilməsi də məhz dövlətdən asılı idi. Təbii ki, məhsulun kəmiyyətini və çeşıdini də, hazırlayıb sifarişçiyə çatdırılması müddətini də onu istehlak edənlər – dövləti təşkil edən hərbi idarələr müəyyən edirdilər.

Bakı və Quzey Qafqazın zəngin neft ehtiyatlarına sahib olan, lakin dünyanın qabaqcıl ölkələrindən, ilk növbədə İngiltərə və Almaniyadan müasir hərbi-texniki cəhətdən xeyli geridə qalan Rusiya qarşıdan gələn müharibəyə böyük ümidlər bəsləyirdi. Çar hökuməti ilk növbədə Birinci Pyotrun vəsiyyətlərinə əməl edərək, Bosfor və Dardanel boğazları üzərindəki nəzarəti öz əlinə almaq və İran körfəzinə çıxışa nail olmaq məqsədini həyata keçirməyə çalışırdı. Digər tərəfdən o, Baltikyanı torpaqlarda və Qalitsiyada öz hökmranlığını möhkəmləndirmək əzmində idi. Lakin sonrakı hadisələr göstərdı ki, Rusiyanın nəzərdə tutduğu ümidlər boş xülyadan başqa bir şey deyildi. O nəinki çoxdan arzuladığı İstanbula sahib ola bildi, əksinə, 300 ildən artıq istər Avropada, istərsə də Asiyada saysız-hesabsız qəsbkarlığa imza atmış bir sülaləni – Romanovlar sülaləsini tarix səhnəsindən silmək təhlükəsi ilə üzləşdi. Bu, Birinci dünya müharibəsinin ən ibrətamiz dərslərindən biri idi. Onun əks-sədası hər tərəfə yayıldı və yaxın gələcəkdə bəşəriyyət tarixində məzmun və forma etibarilə daha fərqli, daha ciddi və mürəkkəb qarşıdurmaların yaranmasına gətirib çıxardı.



# XII fəsil

# EHTİRASLAR QIZIŞIR

Nəhayət 1914-cü il gəlib çatdı. İngiltərə – Almaniya münasibətləri gündən-günə gərginləşirdi. Halbuki bir qədər əvvəl bu münasibətlər isti xarakter daşıyırdı. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, 1911-ci ildə Londonda təsis edilmiş "Türkiyə neft şirkəti"nin* səhmlərinin 50 faizi "Anglo-Persian Company"nin, 25 faizi Almaniyanın "Deutsche Bank"ının, 25 faizi isə ingilis-holland şirkəti "Shell"in sərəncamına verilmişdi. Bu, 1914-cü ilın martında Londonda, "Foreign Affairs"** da hər iki ölkə arasında keçirilmiş müşavirədən və əldə edilmiş razılaşmadan sonra təsdiq edilmişdi. Məhz, elə bu müşavirədən sonra, İngiltərə hökumətinin təkidi ilə Türkiyənin Milli bankı bir növ oyundan çıxmaq məcburiyyətində qalmışdı[1]. İngiltərə və Almaniya hökumətləri isə o zaman öz növbələrində nəhayət ki, qərara gəlmişdilər ki, hər halda konsessiyaya yiyələnməkdən əvvəl, mübahisələr tənzimlənməli, qaldırılmış iddialar qarşılıqlı şəkildə obyektiv olaraq həll edilməlidir[2]. O vaxt yəqin ki, çoxları belə hesab edirdilər ki, İngiltərə ilə Almaniya arasındakı əməkdaşlıq möhkəmlənəcək və mübahisəli məsələlər tezliklə öz həllını tapacaq. Çünki məhz ingilis-alman işbirliyi nəticəsində 1912-ci ildə ABŞ admiralı Çesterin konsessiya əldə etmək cəhdinin qarşısı qətiyyətlə alındı. Ladvel Denni bu münasibətlə yazır: "Məhz həmin vaxtdan etibarən İngiltərə hökuməti öz mövqeyini açıq şəkildə bildirdi. Almaniya xarici işlər nazirliyinin köməyilə Türkiyə hökumətini əski alman iddialarını təsdiqləməyə məcbur etdi. Bu iddialar isə, "Türkiyə neft şirkəti"nin Bağdad-Mosul neft yataqlarına olan konsessiyalarından ibarət idi"[3]. Sözsüz ki, bu, İngiltərə hökumətinin bilavasitə işə qarışması nəticəsində əldə edilmişdi.

1914-cü ildə baş verən bu hadisə nə qədər təəccüblü görünsə də həm də ingilis-alman əməkdaşlığının böyük bir dövr ərzində

* "Turkish petroleum company".
** İngiltərənin xarici işlər və Birlik (millətlər) üzrə nazirliyi.

yeganə nümunəsi kimi qeydə alındı. Halbuki, İngiltərənin özündə hökumətin yeni neft şirkətinin yaradılması ("Türkiyə neft şirkəti" nəzərdə tutulur, N.Rza) məsələsinə müdaxilə etməsinə qarşı mənfi münasibətdə olanlar da az deyildi. Məsələn, "Shell" şirkətinin direktoru ser Rober Valey Kogen öz mövqeyini belə izah edirdi: "Bu müqavilə ("Türkiyə neft şirkəti"nin yenidən təşkil edilməsi), Britaniya hökumətinin təşəbbüsü ilə bağlanıb. Biz, siyasətin kommersiya işləri ilə qarışdırılmasının tərəfdarı deyilik; bu, bəzən korrupsiyaya aparır, daim işlərin yarıtmaz getməsinə gətirib çıxarır, milli ədavətə çevrilir. Bu isə son dərəcə ciddi və mənfi haldır"[4].

Britaniya hökumətinin isə gələcəyə köklənmiş öz mövqeyi mövcud idi. Onu, milli ədavətin qarşısını almaq yox, əksinə, düşmənçilik münasibətləri nəticəsində başlaya biləcək müharibəni udmaq üçün görülən hazırlıq daha çox əndişələndirirdi[5]. Bu məsələdə neft üzərində nəzarət mühüm amillərdən biri sayılırdı. Odur ki, Britaniya hökuməti öz strateji maraqlarını əldə əsas tutaraq, xarici konsessiyalar və bazarlar uğrunda gedən mübarizənin fəal iştirakçısına çevrilməyə rəvac verdi. Bu qərarın əsası 1905-ci ildə qoyulmuşdu[6].

Yuxarıda qeyd etdiyimiz ingilis-alman əməkdaşlığına gəldikdə isə bu, çox güman ki, səmimi əməkdaşlıq deyildi. Odur ki, uzun müddət davam edə bilməzdi. Necə ki, davam etmədi də. Çünki Avropanın inkişaf etmiş bu iki ölkəsinin ayrı-ayrılıqda öz fərqli niyyətləri, öz strateji maraqları mövcud idi. O maraqlardan ümdəsi təbii ki, əlahəzrət neft idi. İngiltərə bu sahədə nəzərə çarpacaq uğurlar əldə etmişdisə, Almaniyanın neft sarıdan problemləri göz qabağında idi. K.Tügendhet və A.Hamilton sonralar müharibə dövrünə işarə edərək, hər iki ölkənin neftlə bağlı vəziyyətini təhlil edərək yazırlar: "Özünün Qafqaz neft mədənləri olan Rusiyanı çıxmaq şərtilə İngiltərə döyüşən digər bütün ölkələrdən daha yaxşı vəziyyətdə idi. Yarıdan çoxu Hollandiya şirkəti* olmasına baxmayaraq, "Shell" bütünlüklə İngiltərənin hərbi fəaliyyətlərində əməkdaşlıq edirdi və özünün Ost-İndiyada və Venesueladakı mədənlərinə daxil olmaq imkanı vermişdi. İngiltərə həmçinin,

* Hollandiya bitərəf ölkə idi.





Meksikada və Birmada lord Kaudreyə məxsus olan ehtiyatlardan və nəhayət, İrandan, döyüşlər başlamazdan bir qədər əvvəl, Abadanda işə salınmış "Anglo-Persian Company"nin neftayırma müəssisəsindən neft ala bilərdi. Bütün bunlardan əlavə ingilis hərbi-dəniz donanmasının dənizdəki üstünlüyü onu göstərirdi ki, ABŞ-dan idxal məhsulları* bundan sonra da maneəsiz olaraq gələ bilər"[7].

Daha sonra müəlliflər Almaniya və Avstriya-Macarıstanın neftlə bağlı imkanlarını təsvir edərək yazırdılar: "Almaniya və Avstriya-Macarıstanın vəziyyəti xeyli dərəcədə pis idi. Onlar bir müddət amerikanlardan neft almaqda davam edirdilər. Onlar isə hər iki tərəfdən böyük gəlirlər əldə edirdilər. Lakin düşmən limanlarının İngiltərə tərəfindən blokadaya alınması, onları bu imkanlardan məhrum etdi. İndi onlar yalnız cüzi miqdarda olan öz yerli məhsullarına və Rumıniyadan** çıxarmağa imkan tapdıqları neftə ümid bəsləyə bilərdilər. Oradakı quyular və digər qurğular bilavasitə qoşunların ora soxulmalarından əvvəl partladılmışdı"[8].

Hadisələri qabaqlamaq zorunda qalsaq da, bir qədər əvvələ qayıdıb yarımçıq qalmış bir fikri davam etdirmək və tamamlamaq zənnimcə yerinə düşərdi. Bu, yuxarıda qeyd etdiyimiz və qısa bir zaman kəsiyində mövcud olmuş İngiltərə-Almaniya əməkdaşlığı barəsindədir.

Bu qısa əməkdaşlığın səbəblərini təhlil etdikdə, aydın olur ki, bu heç də iki ölkə arasında qarşılıqlı məhəbbətin və işbirliyinin mövcudluğundan irəli gəlmirdi. Bu, ilk növbədə İngiltərə tərəfindən ABŞ-ın neft maraqlarına vurulan zərbə kimi qiymətləndirilə bilər. Bu, həm də Amerika şirkəti "Standard Oil" ilə "Royal Dutch/Shell" arasında illərdən bəri gedən, gah səngiyən, gah da daha da vüsət alan bir mübarizənin davamı kimi də qəbul edilə bilər.

Almaniya isə bu mübarizədə İngiltərə üçün sadəcə müvəqqəti tərəfdaş rolunda çıxış edirdi. Qısa müddətdən sonra hər şey öz

* İlk növbədə neft və neft məhsulları nəzərdə tutulur.

** Rumıniya 1916-cı il avqustun 14-də (27-də) Antanta tərəfində müharibəyə qoşuldu. Lakin həmin ilin sonunda rumın ordusu Almaniya bloku tərəfindən darmadağın edildi. Rumıniya işğal olundu.

yerini tutdu. Dünənki tərəfdaşlar bir nömrəli düşmənə çevrıldılər. ABŞ isə gec də olsa Antanta tərəfində müharibəyə qatıldı.

Almaniyanın neftlə bağlı ciddi problemləri İngiltərəyə yaxşıca bəlli idi. Onun zəngin neft mənbələri ələ keçirmək niyyəti də o cümlədən. Odur ki, onların əks cəbhələrdə mövqe tutmaları heç də təəccüblü deyildi. İngiltərə də öz növbəsində illərdən bəri addım-addım ələ keçirdiyi neft mənbələrini havayı paylamaq fikrindən xeyli uzaq idi. Əksinə, həm də yeni mənbələrə sahib olmaq uğrunda istənilən mücadiləyə girişmək əzmini daim nümayiş etdirirdi. Bunun üçün son dərəcə vacib olan, dünyada ən qüdrətli hərbi-donanma da gecəli-gündüzlü onun sərəncamında idi. Sonrakı hadisələr birmənalı şəkildə sübut etdi ki, Almaniyadan fərqli olaraq, İngiltərənin neftlə bağlı iddiaları daha real, daha əsaslıdır.

Hələ 1913-cü ildə Henri Deterdinq Britaniyanın kral neft komissiyasına ərz etmişdi ki, "Rumıniya, Rusiya, Kaliforniya, Trinidad, Ost-İndiya və bu yaxınlardan Meksikadakı neft müəssisələrinə nəzarət ona məxsusdur. "Anglo-Persian" şirkəti isə İraqı ələ keçirərək İranı sıxışdırır. Oralar neft tüstüsünə bürünmüş və demək olar ki, toxunulmamış nəhəng sahələrdir[9].

Ser Tomas Brauninq isə öz növbəsində Henri Deterdinqin başçılıq etdiyi şirkətin – "Royal Dutch/Shell"in imkanlarını belə qiymətləndirirdi: "Royyal-Datç/Shell" kombinatı, bir vaxt qüdrətli olmuş Amerika tresti "Standard Oil"dan daha möhtəşəm, daha təcavüzkardır[10]. Ser Brauninq sözünə davam edərək daha sonra demişdi: "Odur ki, bu insanın (Deterdinq nəzərdə tutulur – *N.Rza*) sözlərini böyük diqqətlə dinləməliyik. Dünyada ən qüdrətli təşkilat üzərində icraedici nəzarət yalnız ona məxsusdur. O, elə bir güc mənbəyi yaratmaq məqsədi güdür ki, nəticədə bizim hərbi donanmamızın qüdrətini demək olar ki, təqribən iki dəfə artırmış olur"[11]. Lakin müharibənin başlandığı elə ilk gündən məlum oldu ki, neft amili, hətta nəzərdə tutulduğundan da qat-qat artıq mühüm və əvəzedilməz əhəmiyyət daşıyır.

Böyük Britaniyanın sonralar xarici işlər naziri olmuş Corc Kerzon bu xüsusda belə demişdi: "Müharibənin başlandığı ilk günlərdən neft və onun məhsulları əsas amillərdən biri oldular.





Məhz onların köməyilə onlar (müttəfiqlər – *N.Rza*) müharibəni aparmaq məcburiyyətində idilər və onun köməyilə müharibəni uda bilərdilər. Neft olmasaydı donanmanın mütəhərrikliyini onlar necə təmin edər, öz ordularını bir yerdən başqa yerə necə göndərə bilər, hər cür partladıcı maddələri necə istehsal edə bilərdilər"[12].

Neftin həyati əhəmiyyəti o dərəcədə artdı ki, hökumətlər özlərinin neft nazirlərinə kabinə üzvlüyü hüququ da verməli oldular. Lakin məsələ bununla bitmədi. Əlahəzrət neft müttəfiqlər qarşısında yeni problemlər qoymuş oldu. Cəbhələrdə külli-miqdarda duru yanacaq sərfi, yaxın gələcəkdə onun çatışmamazlığı təhlükəsini yaratdı. Onun təzahürləri artıq görünməkdə idi. Odur ki, duru yanacağın daha səmərəli bölüşdürülməsi naminə hətta müttəfiqlərarası neft şurası da yaradıldı. Çünki müharibə ərzində duru yanacaqla təchizat sarıdan yaranan problemlər ciddi əngəllərin yaranmasına səbəb olur, hətta katastrofik vəziyyətlərin yaranmasına da gətirib çıxara bilirdi. Bir sözlə, neft müharibənin əsas amilinə çevrilməklə yanaşı, həm də savaşa qatılan dövlətlər üçün bir nömrəli baş ağrısına da səbəb olmuşdu. Təsadüfi deyil ki, müharibənin sonu yaxınlaşdıqca, neftin heç də xoşagəlməz qoxusu, acı barıt qoxusunu xeyli üstələmiş oldu. Halbuki, müharibənin müqəddəratı heç də tam bəlli deyildi. Çünki onun gedişatında elə məqamlar yaranmışdı ki, onun indi bizə məlum olan nəticələri çox güman ki, başqa cür də ola bilərdi. Bunu hökumət mənsublarının ayrı-ayrı etirafları da təsdiq edir. Lakin bu barədə bir qədər sonra. Hələlik isə müharibə dövründə baş verən, bu və ya digər şəkildə neftə aidiyyatı olan çoxsaylı hadisələri mümkün qədər ətraflı və obyektiv şəkildə təhlil edək. Qabaqcadan onu da deyək ki, təhlil zamanı subyektiv fikirlər, mülahizələr də özünə yer ala bilər. Zənnimizcə bu, təbii sayılmalıdır. Çünki, hadisələrin bir mövqedən işıqlandırılması heç də əsl həqiqəti üzə çıxarmağa xidmət etmir. Necə ki, yaxın keçmişdə, daha doğrusu, iyirminci yüzilliyin təqribən 70 ili ərzində formalaşmış sovet, o cümlədən də onun bir növ tərkib hissəsi olan Azərbaycan sovet tarixçiliyi, əksər hallarda məhz belə bir mövqedən – sinfi mövqedən, yalançı proletar həmrəyliyi mövqeyindən çıxış edər, başvermə tarixinə,

onun əsl səbəblərinə məhəl qoymadan hadisələrin təhlilinə birtərəfli yanaşmaqla, onun mahiyyətini mümkün qədər saxtalaşdırmağa çalışardı. Bu da bir qayda olaraq, növbəti saxtakarlıqlar üçün münbit zəmin yaratmış olurdu. Halbuki, bu bir aksiomadır ki, əsl həqiqəti hərtərəfli üzə çıxarmaqdan ötrü, müxtəlif fikirlər, mülahizələr, arqumentlər və onların toqquşması gərəkdir. Əks halda iyirminci yüzilliyin 70 ili ərzində müxtəlif üsullarla bizə təlqin edilən "dəyərlər"dən başqa heç nəyə yiyələnə bilməyəcəyik. "Bizə" dedikdə əlbəttə ki, yalnız və yalnız biz də daxil olmaqla keçmiş sovet xalqı və bu xislətı yaşamış və yaşamaqda davam edən bir sıra xalqlar və millətlər nəzərdə tutulur.

Fəqət onu da qeyd etmək vacibdir ki, xeyli dərəcədə obyektiv olan qərb ölkələri tarixçiliyi də bir çox hallarda arzuolunmaz xətalardan özünü qorumaq iqtidarında deyil. Tarixi hadisələrə sinfi mövqedən olmasa da, müəyyən qədər patriotik və öz ölkələrinin nüfuzu mövqeyindən yanaşmağa meyllidirlər. Bu ilk növbədə konkret tarixi hadisələrin bilavasitə iştirakçısı və ya hərəkətverici simalarından olmuş ayrı-ayrı şəxsiyyətlərin memuar ədəbiyyatına aiddir.

Lakin illər, on illər ötdükcə hadisələrin hərtərəfli təhlili, onların sonrakı hadisələrə təsiri və ya bağlılığı, müəyyən tarixi mərhələlərin nəticələri və yekunları əsl həqiqətləri obyektivliklə üzə çıxarmağa qadirdir. Həm də yaxşı deyiblər ki, həqiqət nazilər, lakin üzülməz.



## XIII fəsil

# I CAHAN SAVAŞININ BAŞLANMASI və NEFT AMİLİ

**1914**-cü il iyun ayının 28-i bəşər tarixində yeni bir mərhələnin başlanğıcı kimi qeydə alındı. Həmin gün Bosniyanın Sarayevo şəhərində Bosniya və Hersoqovinanı Avstriya-Macarıstan işğalından azad etmək uğrunda mübarizə aparan "Gənc Bosniya" təşkilatının Qavrilo Prinsip adlı gənc bir üzvü, Avstriya taxt-tacının vəliəhdı Frans Ferdinandı qətlə yetirdi. Sarayevoda açılan atəş Avropada son dərəcə böyük əks-səda yaratmaqla yanaşı, tarixdə ilk dəfə cahan savaşının başlanmasına güclü təkan vermiş oldu. Elə bir savaş ki, sonda, sözün əsl mənasında, böyük neft uğrunda nəhəng bir çarpışmaya çevrildi.

Avropa silkələndi. Qitə ölkələri bir-birinə dəydi. İllərdən bəri yığılıb qövr eləyən ziddiyyətlər nəhayət ki, tam çılpaqlığı ilə üzə çıxdı. Diplomatik cəhd və səylər bir tərəfə tullandı. Əvvəlcə Avropanı, sonra isə bütün dünyanı barıt qoxusu bürüdü.

1914-cü il iyulun 15-də (28-də) Avstriya-Macarıstan Sarayevo qətliamını əldə əsas tutaraq Serbiyaya müharibə elan etdi. Bundan 4 gün sonra Almaniya da müharibəyə qoşulmaq qərarına gəldi. İyulun 19-da (avqustun 1-də) o əvvəlcədən Rusiyaya, sonra isə iyulun 21-də (avqustun 3-də) Fransaya müharibə elan etdi. Böyük Britaniyanın müharibəyə qoşulmasını isə çox da gözləmək lazım gəlmədi. Hadisələri diqqətlə izləyən Antantanın aparıcı dövləti ertəsi günü öz əzəli rəqibi Almaniyaya qarşı müharibəyə başlamaq qərarına gəldi.

Hadisələr sürətlə inkişaf edirdi. 1914-cü il avqustun 10-da (23-də) Antanta tərəfində Yaponiya, həmin il oktyabrın 16-da (29-da) isə Almaniya bloku tərəfində Türkiyə də müharibəyə qoşuldular.

Beləliklə Avropada başlanan müharibə çox tezliklə öz hüdudlarını aşaraq, qısa zaman kəsiyində bəşər tarixinə ilk cahan savaşı kimi daxil oldu. Güney Qafqazda, Mesopotamiyada, Suriya və Fələstinin şərq sərhəddində belə cəbhələr meydana gəldi.




I Cahan savaşı ərəfəsində Avropa





Müharibə qızışdıqca öz orbitinə yeni-yeni iştirakçılar cəlb etdi. 1915-ci il mayın 10-da (23-də) Antanta blokuna İtaliya, oktyabrın 1-də (14-də) isə Almaniya-Avstriya-Macarıstan blokuna Bolqarıstan da cəlb olundular.

İlk baxışda müharibənin başlanması səbəbi neft ilə əlaqədar olmasa da, hər halda Antanta bloku dövlətlərinin duru yanacaq ehtiyatları və imkanları müqabil tərəfinkindən qat-qat artıq idi. Bu da son nəticədə öz həlledici rolunu oynamış oldu. Çünki müharibələr tarixində ilk dəfə idi ki, qoşunların mütəhərrikliyini əvvəlkilərlə müqayisədə son dərəcə artıran, hərbi əməliyyatların səmərəliliyini inanılmaz dərəcədə yüksəldən külli miqdarda döyüş texnikası tətbiq edilirdi: dənizdə, havada, quruda.

Hər sahədə olduğu kimi, müharibənin də öz qanunları və tələbləri var. Qarşıdurma şiddətləndikcə və məsələ uzandıqca hərbi texnikanın daha da təkmilləşdirilməsi, hətta yeni növlərinin yaradılması son dərəcə böyük əhəmiyyət kəsb etməyə başlayır. Hamı bir-birini qabaqlamağa, üstələməyə, hərbi vəziyyətə diqtə etməyə çalışır. Zira, duru yanacağın və daxiliyanma mühərriklərinin mövcudluğu ən ağlabatmaz ideyaları həyata keçirmək üçün gözəl imkan yaradır.

Birinci cahan savaşının ən qorxunc silahlarından biri olan tank da, məhz belə bir zərurətdən yaranmışdı. 1916-cı ildə İngiltərədə həyata vəsiqə almış bu tırtıllı, zirehli döyüş maşınlarının artıq ilk dəstəsi həmin ilin sentyabr ayının əvvəlində döyüşlərdə iştirak etmək üçün hazır vəziyyətə gətirildi.

O zaman İngiltərənin hərbi-dəniz naziri olan Uinston Çörçill yeni döyüş maşınının hərbi əhəmiyyətini çox yüksək qiymətləndirdi. Hətta Lloyd Corcun rəhbərliyi ilə tank istehsalı üzrə gizli komitə də yaradıldı.

Hadisələri qabaqlamaq fikrində olmasaq da, tankın müharibədəki rolu barədə fikirləri bir qədər də genişləndirməyi məqsədəuyğun hesab edirik. Çünki o qeyri-adi hadisə olmaqla yanaşı, həm də eyni dərəcədə gözlənilməz və anlaşılmaz idi. Xüsusilə də Almaniya üçün.

Onu da qeyd edək ki, tankın yeni hərbi texnika kimi ilk tətbiqi gözlənilmədən (hər halda ingilis hərbçiləri üçün – *N.Rza*) tam uğursuzluqla nəticələndi. Belə ki, dəniz vasitəsilə İngiltərədən Fransaya çatdırılmış bir dəstə tank təcili olaraq ölkənin cənub-şərqinə göndərildi və tez bir zamanda Fransa ilə Belçika sərhəddi yaxınlığındakı Somme çayı istiqamətində gedən döyüşlərə qatıldı. Lakin ərazinin bataqlıq olması bu ağır zirehli döyüş maşınlarının hərəkətini son dərəcə məhdudlaşdırdı. Əksər hallarda hətta hərəkət və imkanlarından büsbütün məhrum etdi. Nəticədə alman artilleriyası onların bir qismini sadəcə olaraq, top atəşləri ilə məhv edə bildi. Bu, təbii ki, ilk növbədə ingilis hərbi komandanlığının bağışlanmaz taktiki səhvlərinin nəticəsi idi, nəinki tankların hərbi texnika kimi yararsızlığının.



İngilis tankı. 1914-1918-ci illər

Hər halda bu hadisə böyük əks-səda doğurdu. Heç bir tankı olmayan alman hərbi komandanlığını xeyli ruhlandırdı. Hətta onun praktiki əhəmiyyətini azaltmaq və gözdən salmaq cəhdləri də edildi. Yüksək keyfiyyətli alman topları qarşısında onların heç zaman duruş gətirə bilməyəcəkləri fikri də geniş yayıldı. Zira, məşhur Krupp müəssisələrində istehsal olunmuş alman toplarının qüdrəti hamıya yaxşı bəlli idi.

Fəqət ingilis mütəxəssisləri ilk uğursuzluğun nəticələrini araşdırıb, tanklardan daha səmərəli istifadə etməyin üsullarını müəyyən etməyə nail oldular. Lakin bunun üçün xeyli vaxt tələb olundu. Uğursuz hərbi əməliyyatdan təqribən bir il sonra, 1917-ci il noyabrın 20-də ingilis komandanlığı Fransada, Kambre yaxınlığındakı döyüş əməliyyatına 324[1] ədəd tank yeritməyə müvəffəq oldu. Eni 13 kilometrə bərabər olan cəbhə xətti boyunca çox asanlıqla hərəkət edən ingilis tank birləşməsi az vaxtda alman mövqelərini darmadağın etdi və müdafiə xəttini yararaq, düşmən





qoşunları arasında dəhşətli çaxnaşma yaratdı. İngilislərin gözlənilməz tank hücumu almanları öz döyüş mövqelərini buraxıb nizamsız qaçmağa məcbur etdi. Nəticədə, onlar 9 km$^2$ məsafəyə qədər geri çəkilməli oldular.

Alman generalı Erix Lüdendorf bu vuruşma haqqında öz xatirələrində yazır: "Kambre yaxınlığında tanklar böyük nəticələrə nail oldular"[3].

Daha sonra Lüdendorf alman qoşunlarına bir qədər bəraət qazandırmaq istəyində də olmuşdu: "Lakin o zaman onlar (ingilislər – *N.Rza*) olduqca seyrək müdafiə olunan mövqelərə soxulmuşdular, belə ki, ora əsasən xidmət müddəti köhnə olan əsgərlər və çox köhnə artilleriya vasitələri ilə müdafiə olunurdu. Başqa hallarda isə, əlbəttə tanklar bizim qoşunlara çox əziyyət verirdilər"[4].

Odur ki, hər halda tank amili alman hərbi strateqlərini ciddi maraqlandırdı və onları bu sahədəki çatışmazlığı təcili olaraq aradan qaldırmağa məcbur etdi.

Kambre yaxınlığındakı ciddi uğursuzluqdan dərhal sonra Almaniyanın Baş qərargahı geniş müşavirə keçirdi və təxirəsalınmadan tank sənayesinin yaradılmasının son dərəcə zəruri olduğunu ölkə sənayeçilərinin nəzərinə çatdırdı. Müşavirədə Almaniyanın məşhur avtomobil şirkətlərinin rəhbərləri də iştirak edirdilər. Lakin tank haqqında məlumatın yetərli olmaması, təbii ki, müəyyən çətinliklər yaradırdı. Buna baxmayaraq, vəziyyətin ciddiliyini dərk edən alman mütəxəssisləri bu sahədəki fəaliyyətlərini xeyli artırdılar. Nəhayət, 1917-ci ildə məşhur "Daimler-Benz" şirkəti A7V markalı[5] ilk alman tankının istehsalına müvəffəq oldu. Onun ağırlığı 120 ton[6] idi. Tank, 600 at[7] gücündə olan 4 mühərriklə[8] təchiz olunmuşdu.

Bununla belə görünür hazırlanmış ilk tank alman komandanlığını tam qane edə bilməmişdi. Bunu general Lüdendorf da etiraf edir: "1917-ci ildə ali komandanlığa təqdim edilmiş tank modeli qoyulmuş tələblərə cavab vermirdi. Mən yalvarırdım ki, tankların istehsalını tezləşdirsinlər. Ola bilsin ki, mən bu məsələni həll etmək üçün daha kəskin hərəkət etməli idim. Belə olduqda 1918-ci ilin həlledici məqamında bizim ixtiyarımızda olduğundan bir qədər də artıq tank əldə etmiş olardıq"[9].

Tank istehsalının artırılması üçün müəyyən problemlər də mövcud idi. Bu problemlərdən biri işçi qüvvəsinin çatışmazlığı idi. Lüdendorf bu barədə belə deyir: "Biz cəbhədən böyük miqdarda fəhlə göndərə bilməzdik. Arxada isə bekar fəhlə qüvvəsi yox idi"[10].

Odur ki, almanlar əsasən döyüş zamanı ələ keçirdikləri düşmən tanklarından faydalanırdılar. Lüdendorf bunu şərh edərək yazır: "Ələ keçirdiyimiz tanklardan biz tank dəstələri yaratdıq. 1918-ci ilin fevralında hücumçu batalyonların təlimi zamanı mən təşkil edilmiş ilk tank dəstəsinin fəaliyyətini seyr etdim və o, mənə böyük təsir bağışlamadı. Sonrakı döyüşlərdə bizim tank dəstələri ağır itkilərə məruz qaldılar və əsaslı rol oynaya bilmədilər"[11].

Almanlardan fərqli olaraq İngiltərə və Fransa komandanlığı məhz tankların sayəsində bir sıra mühüm qələbələrə imza atmışdılar. Bu barədə F.Merks yazır: "1918-ci il iyulun 10-da səhər tamamilə gözlənilmədən 300-ə qədər fransız tankı Viler-Kotre yaxınlığında meşə tərəfdən hücum edərək, düşməni qaçmağa məcbur etdi. Almaniya həmin dövrdə qərb cəbhəsində cəmi 25 zirehli avtomobilə malik idi"[12].

Təbii ki, tanklarla mübarizədə zirehli avtomobillərin duruş gətirəcəyi son dərəcə şübhəli görünürdü. Həm də tankdan istifadə dairəsi xeyli geniş idi. Lüdendorf bu barədə yazır: "Tankların piyadaları müşayiət etməsinin özü də bir silahdır. Biz belə silaha malik deyildik. Tanklar əsl hücum vasitələri idi"[13].

Almanlar, şübhəsiz ki, mövcud müharibədə tankların əhəmiyyətini gözəl anlayırdılar. Odur ki, bu istiqamətdə gördükləri işin səmərəsini daim artırmağa çalışırdılar. Laikn onların başqa bir problemi də vardı. Son dərəcə ciddi olan bu problem yanacaq çatışmazlığı idi. Hətta istehsal etdikləri və sayca bir o qədər də çox olmayan tanklardan döyüş əməliyyatlarında geniş istifadə olunması da yanacaq qıtlığına görə böyük problemlə üzləşirdi.

Qərb cəbhəsində isə ingilis-fransız qüvvələrinə duruş gətirməkdən ötrü çoxlu tank tələb olunurdu. Bu münasibətlə Lüdendorf yazır: "1918-ci ildə tankların kütləvi tətbiqinə biz nail ola bilmədik. Tanklar isə kütləvi şəkildə tətbiq edildikdə əhəmiyyət kəsb edə bilirlər"[14].





Alman sənayesi yalnız müharibənin sonuna yaxın tank istehsalını artırmaq imkanı əldə edə bildi. Bunu Lüdendorf da təsdiq edir: "Müharibənin sonuna yaxın sənaye tez və böyük miqdarda tank istehsal etmək iqtidarında olduqda, ali komandanlıq da hərbi təchizat departamentinə çoxlu miqdarda döyüş maşını istehsalını sifariş etdi"[15].

Fəqət tezliklə bəlli oldu ki, bu artıq gec atılmış bir addımdır. Belə ki, 1918-ci il avqustun 8-də Amyen altında həyata keçirilən hücum əməliyyatında 420 ingilis[16], 90 fransız tankı[17] iştirak edirdi. F.Merks yazır: "Benzin mühərriki ilə hərəkətə gətirilən bu möcüzəli silah (tank – *N.Rza*) nəinki hərbi əməliyyatlara, eyni zamanda müharibənin aparılması konsepsiyasına da dəyişiklik gətirmiş oldu"[18].

Almanların bütün ciddi-cəhdlərinə baxmayaraq, onlar həm tank istehsalına və təbii ki, həm də tətbiqinə görə rəqiblərindən əhəmiyyətli dərəcədə geri qaldı. Birinci dünya müharibəsinin sonuna yaxın ingilislərin təqribən 3 min, fransızların 3 mindən çox tankı vardısa, almanlarınkı cəmi 50-yə qədər idi[19]. Onların da böyük əksəriyyəti ələ keçirilmiş qənimət idi.

Belə çıxırdı ki, almanların tank sarıdan geriliyi başqa amillərlə yanaşı, ən çox duru yanacaq çatışmazlığı ilə əlaqədar idi. Çünki ağır çəkiyə malik və güclü mühərriklərlə təchiz olunmuş bu zirehli maşın, sözsüz ki, külli miqdarda duru yanacaq da tələb edirdi. Və bu yanacağı lazımi yerə çatdırmaqdan ötrü, onu daşıyan nəqliyyat vasitələrini müntəzəm olaraq yanacaqla təchiz etmək tələb olunurdu. Təbii ki, bütün bunlar isə müttəfiqlərdən fərqli olaraq, Almaniyanın imkanları xaricində idi. Halbuki müttəfiqlərin də bəzi hallarda yanacaqla bağlı problemləri meydana çıxırdı. Xüsusilə də Fransanın. Lakin Almaniyanın bu problemi isə xroniki xarakter daşıyırdı. Qəribədir ki, bu problem alman komandanlığını başqa bir problem ilə, müttəfiqlərin tank hücumlarının qarşısını almaq problemi ilə də üz-üzə qoydu.

Lüdendorf yazır: "...Uzun çəkməyən, lakin son dərəcə güclü artilleriya atəşindən sonra düşmən tankların köməyilə Skarpa çayının hər iki sahilində orduya təsirli zərbə endirdi. Bizim bir neçə diviziyamız əzişdirildi"[20].

Duru yanacaq amili başqa sahələrdə də mövcud idi. Çünki müharibə səhnəsində sualtı qayıqlar və suüstü hərbi gəmilər, təyyarə və avtomobillərin də tətbiqi gündən-günə genişlənirdi. Müharibənin mütəhərrikliyi artdıqca, hərbi texinkanın da tətbiqi istər kəmiyyətcə, istərsə də keyfiyyətcə genişlənirdi. Bu da öz növbəsində duru yanacağa olan tələbatı durmadan artırırdı. Odur ki, rəqibi yanacaq mənbəyindən təcrid etmək üçün qarşı-qarşıya duran hər iki tərəfdən müxtəlif tədbirlərə əl atılırdı.

Məcburiyyətdən doğan bu faktın özü də müharibə konsepsiyasında bir yenilik kimi qiymətləndirilə bilər. Sonralar o daha da təkmilləşdirildi və hərbi texnika kəmiyyət və keyfiyyət baxımından daha geniş vüsət aldıqca, onun tətbiqi strategiyası da təbii hala çevrildi. Məntiqi nəticə ondan ibarət idi ki, rəqibin hərbi texnikasını zərərsizləşdirməyin ən səmərəli üsulu onu hərəkətsiz qoymaqdan ibarətdir. Buna nail olmaq üçün isə onu yanacaq mənbəyindən təcrid etmək gərəkdir.

Müharibələr tarixində ilk dəfə olaraq geniş miqyasda tətbiq olunan bu üsul İkinci cahan savaşında xüsusilə böyük rol oynadı. Xüsusilə də Stalinqrad cəbhəsindəki döyüşlərdə. Bu, əlbəttə, başqa bir söhbətin mövzusudur.

Lakin maraqlı cəhət burasıdır ki, Almaniyanın İkinci cahan savaşındakı duru yanacaq problemləri, bir növ, Birinci cahan savaşından qaynaqlanır. Doğru deyiblər ki, tarix iki dəfə təkrar olunur. Almaniyanın nümunəsində bu bir daha təsdıqləndi.

Almanların yanacaq problemi nəinki tanklarda, həmçinin qoşunların mütəhərrikliyini təmin etməli olan avtomobillərdə də bütün kəskinliyi ilə özünü büruzə verdi. Alman ordusunun sayca onsuz da o qədər çox olmayan avtomobillərini duru yanacaqla təmin etmək son dərəcə müşkül məsələyə çevrilmişdi. Müttəfiqlərin tətbiq etdikləri dəniz blokadası vəziyyəti daha da çətinləşdirirdi. Həm də təkcə Almaniyanın deyil, onun əsas müttəfiqi olan Avstriya-Macarıstanın da.

Odur ki, vəziyyəti öz xeyrinə dəyişmək üçün Almaniya da öz növbəsində cavab tədbirlərə əl atmaq məcburiyyətində qaldı.



## XIV fəsil

# QURUDAKI ƏMƏLİYYATLARDA NEFTLƏ BAĞLI PROBLEMLƏR

K.Tügendhet və A.Hamilton yazırlar: "Müharibə nefti maqnat və möhtəkirlər üçün gəlir mənbəyindən, sənaye üçün mühüm strateji xammala çevirdi. Bu, müharibənin elə ilk həftələrindən aydın oldu. Belə ki, Paris taksiləri "Marnada döyüşlər" zamanı qoşunları tələsik savaş gedən yerlərə çatdırırdılar. Sonralar isə müttəfiq orduları daxiliyanma mühərriklərinin işindən getdikcə daha çox asılılıq hiss etməyə başladılar. Müharibənin sonunda tək bircə ingilis ordusunun sərəncamında 79 min avtomobil və yük maşını, habelə 34 min motosiklet vardı. Halbuki döyüşlərə qoşulmuş ekspedisiya qoşunlarının cəmi 827 avtomaşını və 15 motosikleti vardı"[1].

Buna bənzər vəziyyət Fransa ordusunda da hökm sürürdü. Belə ki, sərəncamında cəmi 110 yük maşını[2] olmaqla müharibəyə qoşulan fransız qoşunları, artıq 1918-ci ildə 70 mindən[3] artıq avtomobilə malik idilər.

Bu onu sübut edir ki, qoşunların mütəhərrikliyini təmin etmək üçün nəqliyyat vasitələrinin miqdarının mütəmadi artırılması tələb olunurdu. Faktlar göstərir ki, Antanta dövlətləri – İngiltərə və Fransa bunun öhdəsindən uğurla gəlirdilər.

Almaniyanın daxil olduğu blok haqqında isə bu sözləri demək qeyri-mümkündür. Yanacaq çatışmazlığı ordunun mütəhərrikliyini təmin etməli olan nəqliyyat vasitələrinin də imkanlarını son dərəcədə azaldırdı. Alman qoşunları səhra şəraitində yük maşınlarının və motosikletlərin əvəzinə atlardan istifadə etmək məcburiyyətində idi. Bunun da səmərəsi son dərəcə az olurdu. Çünki döyüş vaxtı tankların, təyyarələrin qarşısında atlar nə edə bilərdi?[1] Belə şəraitdə onların əksəriyyəti tələf olurdu. Halbuki alman komandanlığı motorlu nəqliyyatın misilsiz əhəmiyyətini gözəl anlayır, vəziyyəti sabitləşdirmək üçün bütün imkanlardan istifadə etməyə çalışırdı. "Total müharibə" konsepsiyasının müəllifi sayılan general Lüdendorf yaranmış vəziyyəti sonralar şərh edərək yazır: "Bizim avtomobil sənayemizə yük maşınlarını istehsal

etmək üçün geniş tapşırıqlar verilmişdi. Çünki bizdə onlar çatışmırdı. Bizdə Antanta kimi piyadalarımızı uzun müddət savaşın təsir dairəsindən kənarda, rahat mənzillərdə saxlamaq və vaxtında döyüş yerlərinə daşımaq imkanı yox idi. Artıq mən qeyd etmişdim ki, yük maşınlarının istehsalını nə dərəcədə yüksək qiymətləndirirdim. Əgər yanacaq sarıdan bizim vəziyyətimiz kifayətləndirici deyildisə, o zaman onun ehtiyatlarının artırılmasına da bir o qədər diqqət yetirilməliydi. Buna görə yük maşınlarının istehsalı ləngidilməməliydi. Arxada xidmət etmək, piyadaları daşımaq üçün lazımi qədər yük maşını istehsalının təmin olunmasında həddindən artıq can yandıra bilmirdik. Ordu qərargahları isə öz sərəncamlarında məhz onların (yük avtomobillərinin – *N.Rza*) çatışmazlığını tez-tez ürək ağrısı ilə hiss edirdilər"[4].

Nəqliyyat çatışmazlığı qoşunların təchizatı məsələsində də əngəllər yaradırdı. Belə ki, bir çox hallarda döyüş sursatı daşımaq üçün nəzərdə tutulmuş yük maşınları piyadaların sərəncamına göndərilirdi. Nəticədə qoşunların etibarlı təchizatı pozulurdu. Bu da öz növbəsində ağır nəticələrə gətirib çıxarırdı. Ehtiyat qüvvələrin çatdırılması ləngiyirdi.

Cəbhə xəttindən uzaqda olan Almaniyanın özündə vəziyyət daha gərgin idi. Sənaye müəssisələrinin fəaliyyəti iflic vəziyyətinə düşmüş, istehsal xeyli azalmışdı. Evləri işıqlandırmaq üçün hələ də istifadə olunan kerosini əldə etmək müşkül məsələyə çevrilmişdi. Yanacaq böhranı son nəticədə mülki nəqliyyatın da fəaliyyətinin dondurulmasına səbəb oldu.

General Lüdendorf yaranmış vəziyyəti belə izah edir: "Minik avtomobillərinin hərəkətini getdikcə daha çox məhdudlaşdırmağa məhkum idik. Sakit vaxtlarda isə yük maşınlarının da hərəkətini azaltmaq qərarına gəldik. Ona görə ki, böhranlı dəqiqələrdə onlardan daha geniş istifadə etmək imkanı qazanmaq mümkün olsun. Ordu üçün olduğundan daha çox neft tələb edə bilmirdim"[5].

Almaniyanın müharibə dövründəki vəziyyətini isə Lüdendorf belə təsvir edir: "Almaniyanın neftə ehtiyacı oduqca böyük idi. Ölkə qış üçün kifayət qədər ağ neft əldə edə bilməmişdi. Kəndlərdə uzun qış gecələrini qaranlıqda keçirirdilər. Bu, adamlarda əhval – ruhiyyəni çox aşağı salırdı. Xarakterik cəhət belə idi ki, ölkədə bu narahatlıqlar haqqında çox az danışılardı. ...Almaniyada özəl avtomobillərin hərəkəti demək olar ki, tamamilə dayandırıldı. Bütövlükdə yanacaq məsələsi uzun müddət son dərəcə ciddi olaraq qaldı. O, daimi diqqət tələb edirdi. Mənim ordu və donanmanın eyni qaydada təchiz edilməsi barədə arzum yalnız 1918-ci ilin sonunda həyata keçirildi. Ordu və ölkənin yanacaq tədarükü birləşdirildi"[6].





General Lüdendorf vəziyyəti belə təsvir edir: "Rumıniyada tapdığımız neft ehtiyatları çox cüzi idi. Hər yerdə buruqlar əməllibaşlı dağıdılmışdı; neft quyuları böyük ustalıqla tıxanmışdı. İngilis polkovniki Tomsen* neft mənbələrindən istifadə etməyimizi çətinləşdirmək məqsədilə ona həvalə edilmiş vəzifəni məharətlə yerinə yetirmişdi. Doğrudur, onun fəaliyyəti Antanta üçün həlledici əhəmiyyətə malik deyildi. Lakin hər halda ölkəmizin və ordumuzun neftlə təchiz edilməsini son dərəcə azaltdı. Ölkəmizdə neft qıtlığının səbəbi qismən onun hesabına yazılmalıdır. Hərbi idarə Rumıniyanın neft sənayesinə yaxşı bələd olanları ölkəyə cəlb etdi və özünün ikinci çox mühüm vəzifəsini – neft hasilatının bərpa olunmasını qızğın surətdə həyata keçirməyə başladı. O, buna həm quyuların təmizlənməsi, həm də yenilərinin qazılması vasitəsilə nail oldu. Eyni zamanda da neft təmizləyici müəssisələrin işə salınması yolu ilə. Bununla belə neft hasilatı çox az artırdı"[7].

Fəqət görülən tədbirlər də Almaniyanın neft problemlərini həll etmək iqtidarında deyildi. Müharibənin bütün gedişi boyu bu problem heç cür öz həllini tapa bilmirdi. Bunu öz xatirələrində Lüdendorf da dəfələrlə etiraf edir: "Neft ehtiyatları fövqəladə dərəcədə məhdud idi. Rumıniyada neft hasilatının artırılması yeni-yeni səylər tələb edirdi"[8].

Təbii duru yanacaq problemini heç bir vəchlə həll etməyə iqtidarı olmayan Almaniya vəziyyəti bir qədər yüngülləşdirmək üçün, hətta yanacağı süni üsullarla əldə etmək yolunda da ciddi cəhdlərdə bulundu. Lüdendorf yazır: "Hərbi komandanlıq yanacaq

---

* Ola bilsin ki, təhrif olunub və Tomsen əvəzinə Tomson yazılmalıdır – *N.Rza*

surroqatlarının istehsalının bütün üsullarının təkmilləşdirilməsi məsələsini daim qaldırırdı. Lakin belə təkmilləşdirmələrin həyata keçirilməsi yolunda çoxlu sayda təbii çətinliklər dururdu və onun mümkünlüyünü istisna edirdi"[9].

Süni üsullarla duru yanacaq əldə etmək sahəsində Almaniya elə də əhəmiyyətli uğurlar əldə edə bilmədi. Digər tərəfdən tezliklə məlum oldu ki, onun keyfiyyəti də lazımi səviyyədə deyil. Almaniyanın siyasi və hərbi strateqləri gözəl başa düşürdülər ki, bəşər tarixinin ən ciddi, ən mürəkkəb savaşını qələbə ilə başa çatdırmaqdan ötrü etibarlı duru yanacaq mənbələri gərəkdir. Onu əldə etmək perspektivi isə yalnız 1917-ci ildə Almaniya hökumətinin bilavasitə dəstəyi və təşkilatçılığı ilə Rusiyada baş vermiş oktyabr çevrilişindən sonra yarandı. Belə bir vaxtda Almaniyanın nəzərləri Bakı neftinə doğru yönəldi. Almaniyanın hərbi strateqləri çox doğru hesab edirdilər ki, ölkəni kəskin yanacaq böhranından qurtara biləcək yeganə bəxt və ümid yolu, məhz Bakıdan keçir. Bunu Lüdendorf da etiraf edir. Şübhəsiz ki, ilk növbədə Bakı mədənlərini nəzərdə tutaraq o, yazır: "1918-ci ildə Qafqazın ehtiyatları bizə gözəl perspektivlər açdı"[10].

Zira o günlərə hələ çox qalırdı. Perspektivin reallaşması isə son dərəcə müəmmalı və yetərincə mürəkkəb məsələ idi. Çünki Bakı neftinə göz dikənlərin sayı müharibə sona yaxınlaşdıqca gündən-günə çoxalırdı.

Hələlik isə Almaniya gündəlik yanacaq problemləri ilə üz-üzə duraraq, vəziyyətdən çıxış yolları arayırdı. Odur ki, bütün nəzərlər məhdud miqdarda olan rumın neftinə və süni üsulla alınan benzol tipli yanacağa dikilmişdi. Lakin benzol da istənilən tələbə tam cavab vermirdi. Bakı neftindən qaynaqlanan perspektivdən danışarkən, Lüdendorf benzolun keyfiyyətindən də gileylənməyi unutmurdu. O, yazır: "Hərbi sənayemizin ümumi çərçivəsində özümüzün benzol istehsalı bilavasitə artırıla bilməzdi. Həm də benzol sualtı qayıqlar və təyyarələr üçün yararlı deyildi. Əgər müharibənin sonunda biz uçan cihazlar üçün təyyarəçilərə benzol vermək qərarına hər halda gələ bilmişiksə, bu yalnız və yalnız benzin çatışmazlığı ucbatından baş vermişdi. Hərçənd dərk edirdik ki, belə yolla biz onların iş qabiliyyətini azaldırıq və onlar üçün yeni təhlükə yaratmış oluruq"[11].





Neft qıtlığı Almaniyanın onsuz da ağır olan strateji vəziyyətini daha da mürəkkəbləşdirirdi. Bu onun müttəfiqlərini də narahat etməyə bilməzdi. Xüsusilə də Avstriya – Macarıstanı. Bunu Tügendhet və Hamilton da təsdiqləyirlər: "Hərbi əməliyyatlar inkişaf etdikcə neft çatışmazlığı Almaniya və Avstriya – Macarıstan üçün getdikcə daha ciddi əngələ çevrilirdi"[12].

Lüdendorfun xatirələrində Avstriyada baş qaldıran narahatlıq öz əksini tapıb. O yazır: "Vyanadakı* ehtiyaclara hövsələsiz, bizlərə isə qərəzli olan bir sıra şəxslər belə düşünürdülər ki, ...neft sənayesinin bərpa sürəti kifayət qədər deyil. 1917-ci ilin fevralında bununla əlaqədar Vyanadan əks-sədası həmçinin Berlinə çatan şikayətlər yağmağa başladı.

Bir məqamda mən özüm şübhələndim ki, iş doğrudanmı məqsədyönlü görülür? Lakin Kovnoda əldə etdiyim öz şəxsi təcrübəmə görə, mən Rumıniyada aradan qaldırılmalı olan çətinliklər haqqında fikir söyləyə bilərdim. Odur ki, özümü aldanmağa qoymadım. Doğrudan da apreldə şikayətlərin arası kəsildi və idarənin xidmətlərini hamı təsdiqlədi"[13].

Rumıniya mənbələrindən nefti daşımaq üçün, ilk növbədə ölkənin ingilislər tərəfindən dağıdılmış dəmir yolları bərpa edilməli idi. Neftin nəqli üçün digər əlverişli vasitə Dunay çayı idi. Tezliklə hər iki xətdə nəqliyyatın fəaliyyəti bərpa edildi. Rumın neftinin nəqli üçün əlverişli şərait yarandı. General Lüdendorf bu münasibətlə yazır: "Bizim nəqliyyat, qarşısına qoyulmuş vəzifələrin öhdəsindən həmişə gəlirdi. Neft daşınmasının gözlənilən artımını nəzərə alaraq, sisternlərin və neftdaşıyan barjların inşası işini gücləndirmək üçün tədbirlər görüldü. Ployeştidən** Ciurciuya qədər neft kəməri çəkildi. Müharibəyə qədər bu kəmər mövcud idi, lakin inşası tam başa çatdırılmamışdı"[14].

Fəqət görülən bu tədbirlər Almaniya və onun əsas müttəfiqi Avstriya – Macarıstanın müharibə dövründə duru yanacağa gün-

* Avstriyanın paytaxtıdır.

** Rumıniya neft sənayesinin mərkəzi.

bəgün artan tələbatını istər cəbhədə, istərsə də arxada qənaətbəxş səviyyədə ödəmək iqtidarında deyildi.

Beləliklə neft Almaniya və onun müttəfiqləri üçün sözün əsl mənasında milli təhlükəsizlik məsələsinə çevrildi. Odur ki, alman komandanlığının qarşısında həll ediləcək iki mühüm məsələ dururdu. Birincisi, alman ordusunun və arxa cəbhənin duru yanacaqla mütəmadi təmin edilməsi. İkincisi, qarşı tərəfin neftlə bağlı geniş imkanlarının mümkün qədər məhdudlaşdırılması. Antantaya yanacaq problemi yaratmaqla, müttəfiq ordularının hərbi texnikadan istifadə etmələrinə əngəllər törətmək, bir qədər yuxarıda göstərdiyimiz kimi, onların bu sahədəki üstünlüyünü xeyli dərəcədə azaltmaq olardı. Qabaqcadan onu da deyək ki, müharibənin gedişatı bunun həqiqətdən heç də uzaq olmadığını əyani sübut etdi.

Almaniyanın hərbi strateqləri belə hesab edirdilər ki, mövcud şəraitdə buna yalnız sualtı müharibə yoluyla nail olmaq mümkün idi. Zira Almaniyanın duru yanacaqla işləyən müasir tipli sualtı qayıqları yetərincə idi. Odur ki, bu möhtəşəm və zəhmlı donanmaya böyük ümidlər bəslənirdi. Onların dəniz səthində qəfildən peyda olmaları daha böyük vahimə yaradırdı, nəinki ingilis tankları quruda.

Beləliklə Almaniya 1904-cü ildən başlayaraq, yaratdığı və duru yanacaqla işləyən sualtı donanmaya daha geniş meydan verdi. Və onu üzüntülü müharibədə öz hərbi doktrinasının əsas arqumentlərindən birinə çevirdi.



## XV fəsil

# SUALTI MÜHARİBƏ və YANACAQ BÖHRANI

Birinci cahan savaşının ən gözəçarpan hadisələrindən biri olan sualtı müharibənin başlanması 1915-ci ilin əvvəlinə təsadüf edir. Bəşər tarixində ilk belə hadisə olmaqla yanaşı bu, dəniz müharibələri tarixində keyfiyyət və kəmiyyət etibarilə yeni mərhələnin başlanğıcı demək idi.

Bununla əlaqədar general Lüdendorf yazır: "Admiral fon Tirpitsin istəyinin ziddinə olaraq, 1915-ci il fevralın 4-də İngiltərə sahilləri yaxınlığındakı qadağan zonasında düşmənin ticarət donanmasına qarşı sualtı müharibə başlandı. O, (yəni Tirpits – *N.Rza*) hesab edirdi ki, məqam hələ yetişməyib. Sualtı qayıqların sayı məhduddur və mən bunun hansı düşüncələrdən doğduğunu aydınlaşdırmıram. Sualtı qayıqların nəyə qadir olduqları yalnız müharibə zamanı bəlli oldu. Onların şəxsi heyətlərinin arasıkəsilmədən artan uğurları və onlara söykənən təcrübəsi əsasında"[1].


Admiral Alfred fon Tirpits

Bir qədər əvvəl qeyd etmişdik ki, ilk dövrdə Almaniya neftə olan tələbatını ABŞ-dan aldığı duru yanacaq hesabına ödəyə bilirdi. ABŞ isə, hələ ki müharibəyə qatılmaq fikrindən xeyli uzaq idi.

İngiltərə isə, öz növbəsində ABŞ-ın tezliklə Antanta tərəfində savaşa qatılacağına böyük ümidlər bəsləyirdi. Lakin müharibənin başlanmasından xeyli vaxt keçməsinə baxmayaraq, ABŞ-ın niyyəti hələ də bəlli deyildi. Əksinə, qarşı-qarşıya duran hər iki tərəfə neft satmaqla böyük gəlir əldə etməyə çalışırdı. Zira hazırkı müharibə neft alveri üçün son dərəcə əlverişli idi.

Belə olduqda Böyük Britaniya bir güllə ilə, necə deyərlər iki dovşan vurmaq – bir tərəfdən ABŞ-ı müharibəyə qoşulmağa təhrik

etmək, digər tərəfdən isə bunun məntiqi nəticəsi olaraq Almaniyanın etibarlı neft təchizatının qarşısını almaq qərarına gəldi. Və bunun üçün səbəb də tapıldı. Nə qədər təəccüblü görünsə də, məhz elə almanların öz əli ilə.

1915-ci il mayın 7-də İngiltərənin qərb sahilinə doğru istiqamət götürən və ingilislərə məxsus "Luzitaniya" sərnişin gəmisinin almanların sualtı qayıqlarından biri tərəfindən batırılması barədə bir qədər əvvəl məlumat vermişdik. O zaman göyərtəsində uşaq və qadınların da olduğu 200-dən artıq sərnişin bu mənasız və dəhşətli cinayətin qurbanı olmuşdu.

Alman tədqiqatçısı Fred Merks bu hadisənin səbəblərini araşdıraraq yazır: "Qəzanın təhqiqatı göstərdi ki, sərnişin gəmisinin məhv edilməsində Britaniyanın hərbi-dəniz qüvvələri komandanlığı, o cümlədən o zamankı dəniz naziri Uinston Çörçill də müəyyən qədər məsuliyyət daşıyırlar. Alman sualtı qayıqları haqqında sahil mühafizə dəstəsinin xəbərdarlığına baxmayaraq, "Luzitaniya" Britaniya sularında konvoysuz hərəkət edirdi. Hətta alman sualtı qayığının peyda olması haqqında məlumat təsdiq edildikdən sonra belə Dəniz idarəsi "Luzitaniya"nın geri qayıtması barədə əmr vermədi. Həmin rayona hərbi gəmilər göndərmədi. Beləliklə layner birbaşa məhvə doğru irəliləyirdi"[2].

Amerika Birləşmiş Ştatlarının müharibəyə qatılması məsələsinə gəldikdə isə Merks bunu belə izah edir: "O dövrün siyasi müşahidəçiləri yazırdılar ki, Uinston Çörçillin rəhbərlik etdiyi İngiltərə Hərbi-Dəniz Donanması nazirliyi "Luzitaniya"nın məhvinə ona görə imkan verdi ki, bu məqsədə nail olsun"[3]. Yəni ABŞ müharibəyə qoşulsun. Doğrudur, ABŞ-ın müharibəyə qatılmasına hələ çox qalsa da, hər halda "Luzitaniya" fəlakəti böyük əks-sədaya səbəb oldu. Sualtı qayıqların dəhşətli xofu bir çoxlarını, o cümlədən Amerikanın neft maqnatı Con Rokfelleri düşünməyə vadar etdi. Bununla əlaqədar Merks yazır: "Alman sualtı qayıqlarının qorxusundan ticarət gəmiləri Avropanın dəniz sərhədlərindən uzaqda durmağa məcbur olurdular. Məsələn, Rokfeller öz tankerlərini Avropaya göndərmirdi, halbuki ABŞ 1917-ci ilin aprelində İngiltərə tərəfində çıxış etdi. Avropada





müttəfiqlər Rokfellerin bu hərəkətlərinə görə şiddətli yanacaq qıtlığı keçirirdilər; yanacaq ehtiyatları tükənirdi"[4].

Sualtı müharibə qarşı tərəfdə, yəni Antanta blokunda böyük təşviş yaratmaqla yanaşı, hədsiz narazılıqlara da səbəb oldu. Almaniyanı müharibə qaydalarını kobudcasına pozmaqda, qeyri-humanist üsullardan istifadə etməkdə günahlandırmağa çalışdılar.

Həmin hadisələri şərh edərək Lüdendorf yazır: "Rəqiblərimiz sualtı müharibədən əndişələnərək, onun beynəlxalq hüquqa zidd olduğu və qeyri-qanuni üsulla aparıldığı kimi qiymətləndirdilər. Müharibənin yeni vasitələri beynəlxalq hüququn yeni normalarını yaradırlar. Bu, 1915-ci il martın 5-də Birləşmiş Ştatların İngiltərəyə göndərdiyi notada da etiraf edilib. İngilis rəhbərliyinin də fikri belədir. Admiral ser Persi Skotta məxsus olan bu mülahizə "The Times"ın 1914-ci il 16 iyul sayında dərc olunmuşdur. O yazır: "Minalar və sualtı qayıqlar vasitəsilə blokadanın elan edilməsini, mən tamamilə mümkün hesab edirəm. Əgər blokada elan edildikdən sonra ingilis və bitərəf gəmiləri ona məhəl qoymasalar, onu yarmaq istəsələr, o zaman israr etmək olmaz ki, onlar bununla lord Sidenqamın dediyi kimi, dinc məqsədlər güdürlər. Və əgər blokadanı yarmağa təşəbbüs göstərən vaxt gəmi batırılsa, bunu heç bir vəchlə barbarlığın və quldurluğun, hətta ən qaranlıq formalarına qayıtmaq kimi qiymətləndirmək olmaz"[5].

Bu sözlər deyilərkən müharibə yenicə qızışırdı. Sualtı müharibənin isə hələ konturları cızılır, hərbi səmərəsinin nədən ibarət olacağı bir o qədər də bəlli deyildi. Lakin "Luzitaniya" faciəsi hər şeyin son dərəcə ciddi olmasından xəbər verirdi. Nəticədə Almaniya kimi Fransa da neft böhranı ilə üzləşməli oldu.

Tügendhet və Hamilton yazırlar: "İngiltərə olmasaydı, Fran-sanın vəziyyəti heç də ondan (Almaniyadan – *N.Rza*) yaxşı olmazdı. Hələ ötən yüzilliyin (19-cu yüzillik nəzərdə tutulur – *N.Rza*) 70-ci illərində fransızlar özlərinin neftayırma müəssisələrinin inşasının vacibliyini israr edirdilər. Ona görə ki, ABŞ-dan neft məhsulları deyil, xam neft idxal etsinlər. Lakin özlərinin neft sənayesinin inkişaf etdirilməsində bundan uzağa gedə bilmədilər. Fransız sərmayədarları ölkə xaricində neft kəşfiyyatı kimi risq

tələb edən təşəbbüslərə vəsait qoymaq istəmirdilər; onlar "təhlükəsiz" olan dövlət və kommersiya, xüsusilə də Rusiya istiqrazlarına üstünlük verirdilər*. Neft tədarükünə münasibətə gəldikdə isə ölkə "trestlərə" güvənirdi. İngilis və Amerika şirkətlərini fransızlar məhz belə ("trest"lər – *N.Rza*) adlandırırdılar"[6].

Beləliklə müharibə başlanan gündən ta sonuna kimi Fransanın neft təchizatı tamamilə öz müttəfiqlərindən, yəni ABŞ və Böyük Britaniyadan asılı vəziyyətə düşdü. Almanların başladıqları sualtı müharibə isə bu asılılığı daha da şiddətləndirdi. Hətta Fransanı son dərəcə ciddi problemlər qarşısında qoymuş oldu. Belə ki, müharibənin gələcək taleyi də böyük sual doğurdu. Belə olduqda Fransa hökuməti təcili tədbirlər görmək məcburiyyətində qaldı. Baş nazir Jorj Klemanso ABŞ prezidenti Vudro Vilsona müraciət etməli oldu. Müraciətdə deyilirdi: "Benzin ehtiyatlarının doldurulmasının mümkünsüzlüyü, ordumuzun tezliklə iflicinə səbəb olacaq, bu da sonda bizi müttəfiqlərlə əlverişli olmayan sülh bağlamağa məcbur edə bilər. Fransız ordusunun baş komandanının hesablamalarına görə minimal ehtiyat 45 min tondur, aylıq tələbat 35 min tona bərabərdir. Son dərəcə vacib olan ehtiyat bu gün 28 min tona qədər azalıb. Əgər Birləşmiş Ştatlar təxirəsalınmaz tədbirlər görməsə, o, sıfıra enə bilər. Müttəfiqlərin təhlükəsizliyi naminə onları (yəni tədbirləri – *N.Rza*) təcili, süründürmədən görmək lazımdır. Cənab prezident, Sizin, Amerikanın neft şirkətlərinin qalan 100 min ton yanacağın arasıkəsilmədən göndərilməsinə nail olmanız lazımdır. Müttəfiqlərin təhlükəsizliyi qorxu altındadır. Əgər müttəfiqlər müharibəni uduzmaq istəmirlərsə, onlar imkan verməməlidirlər ki, Fransa b e n z i n s i z (seçmə mənimdir – *N.Rza*), qalsın."[7]

Klemansonun Vilsona ünvanladığı müraciətdəki bir fikir yaranmış vəziyyəti daha dolğun təsvir edir: "Gələcək mücadilələrdə n e f t (seçmə mənimdir – *N.Rza*) də qan kimi vacibdir"[8].

Almanların bütün cəbhə boyu hücumlarından haqlı olaraq ehtiyatlanan Klemansonun təşviş dolu müraciəti Fransanın yana-

* Rotşild bankının Bakıdakı fəaliyyəti buna misaldır.





caqla bağlı təhlükəzliyinin son dərəcə acınacaqlı olduğunun bariz nümunəsi kimi qiymətləndirilə bilər. Bu adi müraciət deyildi. O daha çox fəryada bənzəyirdi. Klemanso sanki imdad diləyirdi.

Merks buna öz münasibətini bildirərək yazır: "Fransızların baş nazirinin imdad səsləri birmənalı surətdə onu göstərirdi ki, müharibədə neft nə dərəcədə böyük əhəmiyyət kəsb edir. Gələcəkdə neft Avropanın müharibə səhnəsində daha da zəruri oldu"[9].

Beləliklə, Böyük Britaniyanın xarici işlər naziri lord Kerzonun dediyi sözlər həqiqətdən heç də uzaq deyildi: "Müharibənin başlaması ilə neft və onun məhsulları əsas amillərdən biri oldu. Onun köməkliyilə onlar (müttəfiqlər) müharibəni aparmalı idilər və onu uda bilərdilər. Neft olmasaydı onlar donanmanın mütəhərrikliyini necə təmin edər, öz ordularını necə daşıyar və yaxud müxtəlif çeşidli partladıcı maddələri necə istehsal edərdilər?"[10]

Maraqlıdır ki, nə qədər qəribə görünsə də, yanacaq böhranı İngiltərədən də yan keçmədi. Neft mənbələrindən təcrid olmuş Almaniya öz rəqiblərini də bu baxımdan mürəkkəb vəziyyətə salmağa çalışırdı. Və nəhayət müharibənin ikinci yarısında bu sahədə böyük uğurlar qazandı.

Almaniyanın sualtı hərbi kampaniyasının əsas zərbələri müttəfiqlərə fasiləsiz neft daşıyan tankerlərə qarşı yönəldilirdi. Nəticədə 1917-ci ilin sonunda İngiltərə hərbi-dəniz donanması çox ciddi şəkildə yanacaq qıtlığı ilə üzləşməli oldu. Belə vəziyyət ölkənin təslim olması təhlükəsini yarada bilərdi. Klemansonun ABŞ prezidenti Vilsona ünvanladığı müraciət də məhz bu dövrə təsadüf edirdi.

Nəhayət Amerika müttəfiqlərin köməklik göstərmək barəsindəki müraciətlərinə cavab vermək qərarına gəldi. Prezident Vilsonun bilavasitə göstərişi ilə Rokfellerə məxsus tankerlər Avropaya doğru üz tutdu. Nəticədə müharibənin son 18 ayı ərzində müttəfiqlərin sərəncamına nə az, nə çox – 13 milyon ton[11] neft göndərildi.

Fəqət Avropa da borclu qalmadı. Merks qeyd edir: "Bununla əlaqədar, "Standard Oil Company of New Jersey" hər il 100 milyon dollar təmiz gəlir əldə edirdi"[12].

Böyük Britaniyanın xarici işlər nazırı lord Kerzon özü də etiraf etmişdi ki, "müttəfiqlərin neft məhsullarına tələbatının 80 faizini ABŞ təmin etmişdi"[13].

Müharibənin gedişatı əyani surətdə sübut etdi ki, müttəfiqləri sarsıtmaq, onların hərbi texnika cəhətdən açıq-aydın üstünlüyünü aradan qaldırmaq üçün ən etibarlı və səmərəli vasitə sualtı müharibədir. Alman komandanlığı tamamilə doğru olaraq müəyyən etdi ki, divin canı şüşədə olduğu kimi, müttəfiqlərin də canı duru yanacaqdadır.

Lüdendorf alman komandanlığına haqq qazandıraraq yazır: "Hüdudsuz sualtı müharibə onu sonsuza qədər uzatmadan qələbə ilə başa vurmaq üçün son vasitə idi Əgər sualtı müharibə belə həlledici ola bilirdisə, donanma isə buna ümid edirdi, o zaman bizim hərbi vəziyyətimizdə bu, alman xalqına münasibətdə vətəndaşlıq borcuna çevrilirdi"[14].

Neft amilinə qiymət verərkən Ladvell Denni yazır: "Quruda və dənizdə aparılan hərbi kampaniyada n e f t (seçmə mənimdır – *N.Rza*) iri silahdan da artıq idi. Əksər hallarda o, (neft – *N.Rza*) bu kampaniyaların əsas obyekti olurdu"[15].

Sanki bununla həmahəng olaraq Lüdendorf öz fikrini belə açıqlayır: "Savaş bizə sualtı müharibənin normalarına istinad etməyə tam ixtiyar verirdi. Elə normalara ki, bizim mülahizəmizə görə qarşımıza qoyduğumuz hərbi məqsədləri uzlaşdırmış olsun..."[16]

Onu da qeyd edək ki, "norma" dedikdə Lüdendorf "humanist və bitərəf dövlətlərin maraqları"nı[17] nəzərdə tutur.

Almanlar sualtı müharibələrdə müttəfiqlərə böyük tələfat verir, mürəkkəb problemlər yaradırdılar. Onları əndişələndirən, narahat edən əsas cəhət ondan ibarət idi ki, sualtı qayıqların harada olduqlarını uzun müddət müəyyən edə bilmirdilər. Nəticədə sualtı qayıqlara qarşı mübarizə bəzən arzuolunan səmərəni vermirdi.

Bunu Lüdendorf da təsdiq edir. O, yazır: "1916-cı ilin oktyabrında kreyser sualtı müharibəsi başlandı. Gəmilər dayandırılıb axtarılırdı. Bu, gözəl nəticələr verdi və düşmənin iqtisadi həyatına narahatlıq gətirdi. Bu, sualtı qayıqların faydasını sübut edirdi"[18].





Belə bir vaxtda sualtı qayıqların yerinin müəyyənləşdirilməsi üçün ciddi çalışmalar aparıldı. 1916-cı ildə fransız fizika alimi Pol Lanjeven ultrasəsin su mühitində yayılmasının qanunauyğunluqlarını kəşf etdi. Bu yenilik 1917-ci ildə ilk dəfə tətbiq edildi. Bunun ardınca Aleksandr Bem dəniz dərinliklərini ölçmək üçün sonralar "exolot" adlandırılan hidroakustik cihaz hazırlamağa nail oldu, elə həmin ildə də gəmilərdə quraşdırıldı. Bu texniki tapıntılar sualtı qayıqlarla mübarizədə, sözsüz ki, müsbət rol oynadı.

Lakin almanların sualtı müharibədəki uğurları müttəfiqlərə hələ də ciddi başağrısı olaraq qalmaqda davam edirdi. Xüsusilə də 1917-ci ildə. Bunu Lüdendorf belə təsvir edir: "Sualtı müharibə yaxşı nəticələr verirdi. Bu, dənizçilik dairələrinin gözlədiklərindən də xeyli yüksək oldu... "Ekonomist" 1918-ci il 7 sentyabr sayında hesab edirdi ki, 1917-ci ilin əvvəli, müharibə başladığı gündən bəri İngiltərənin yaşamış olduğu ən böhranlı, ən ümidsiz bir dövr idi. Antanta indiyə qədər qurudakı əməliyyatlar üçün sərəncamında olan insan ehtiyatlarını və maddi imkanları dənizdəki müharibəyə cəlb etmək məcburiyyətində qaldı. Və bu tələbat getdikcə artmaqda davam edirdi"[19].

1917-ci il aprelin 5-də nəhayət ABŞ da öz sözünü demək qərarına gəldi. Və Almaniya hökumətinə elan etdi ki, bu gündən etibarən onunla müharibə vəziyyətindədir. 1918-ci ilin mayından isə ABŞ qoşunları hərbi əməliyyatlara qatıldılar.

ABŞ-ın müharibəyə qoşulmaq qərarını tədqiqatçılar müxtəlif cür yozurdular. Bəziləri bunu Rusiya imperiyasının süqutu, digərləri isə almanların müttəfiqlərə qarşı apardıqları uğurlu sualtı müharibə ilə əlaqələndirirdilər. Alman komandanlığı isə hər iki amilin mövcud olduğunu məqbul sayaraq, sualtı müharibəni bir səbəb kimi ön plana çəkirdi. Və onu da diqqətə çəkirdi ki, ABŞ öz hərbi-texniki vasitələri ilə almanların sualtı qayıqlarına qarşı mübarizədə müttəfiqlərə kömək etmək məqsədi güdürdü.

Hər halda faktlar sübut edir ki, Almaniyanın uğurlu sualtı müharibəsi son dərəcə mühüm bir məsələ idi. Özü də qarşı-qarşıya durmuş hər iki tərəf üçün. Burası da maraqlıdır ki, o dövrün duru yanacaqla işləyən ən qüdrətli hərbi-dəniz donanmasına

malik olan Böyük Britaniya sualtı savaş qarşısında aciz görünürdü. Həm də bu savaşın törətdiyi fəsadlar o dərəcədə ağrılı idi ki, böyük neft potensialına malik olmasına baxmayaraq, İngiltərə çox ciddi şəkildə yanacaq böhranı ilə üzləşmiş oldu. Elə böhran ki, son nəticədə istər onun, istərsə əsas müttəfiqi Fransanın fəlakəti ilə sonuclana bilərdi.

Bununla əlaqədar, müharibədən bir qədər sonra, onun isti nəfəsi hələ də soyumamış vaxtda, 1919-cu il yanvarın 12-də İngilterədə işıq üzü görən “Sunday Pictorial” qəzetində dərc olunan Uinston Çörçillin xatirəsi son dərəcə maraqlı görünür. O, Antantanın o böhranlı dövrdəki hərbi durumunu təhlil edərək yazırdı: “Bir qədər də belə olsaydı, dəniz ticarətinə qarşı yönəldilmiş sualtı müharibə Amerikanı bizim tərəfimizə cəlb etmək əvəzinə, aclıq ucbatından bizi mütləq təslim olmağa vadar edəcəkdi... Belə mübahisəli mübarizə sona qədər davam etdi. Nəticədə biz qalib gəldik, belə ki, bütün millət tərəddüd etmədən elliklə buna çalışırdı...

Mübarizə şəraiti ilə nə qədər yaxından tanış oluruqsa, bir o qədər aydın dərk edirik ki, uğurumuz nə dərəcədə kiçik, cılız və təhlükəli tükdən asılı idi”[20].

Çörçillin bu etirafı son dərəcə paradoksal görünür. Çünki müharibənin taleyüklü və təlatümlü ili olan 1917-ci ildə bütün dünyada hasil edilən neftin ümumi miqdarı 70 milyon tona[21] bərabər idi. Onun cəmi 1,5 milyon tonu[22] Almaniya və Avstriyanın payına düşürdüsə, 68,5 milyon tonu[23] Antantaya məxsus idi. Necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur. Müharibənin gedişatı belə bir gerçəkliyi sübut edirdi ki, duru yanacaq qıtlığına düçar olmuş ordu, ölkə və ya hər hansı bir hərbi blok gec-tez iflasa məhkumdur. Hərbi əməliyyatların ilk dövründə bu amil hələ lazımınca dərk olunmasa da, sonralar hər şey aydınlaşdı və müharibə strategiyasına və taktikasına yeni çalarlar və nüanslar gətirmiş oldu. Fəqət əsl hadisələr hələ qabaqda idi.



## XVI fəsil

# YAXIN ŞƏRQDƏ MÜHARİBƏ və NEFT EHTİRASLARI

Amerika Birləşmiş Ştatlarının müharibəyə gec qoşulmasının səbəbini araşdırarkən belə nəticəyə gəlinir ki, bu, ilk növbədə neft ilə əlaqədardır. Daha dəqiq desək, Böyük Britaniyanın Yaxın Şərq siyasəti ABŞ-ı son dərəcə narahat edirdi. Bir daha xatırlatmaq yerinə düşər ki, İngiltərənin bu bölgədəki maraqları əsas etibarilə neft ilə bağlı idi. Bu maraqlar onun bu bölgəyə onsuz da yüksək olan nüfuzunu daha da gücləndirməyə sövq edirdi.

Əsrin əvvəllərində Mesopotamiyanın ərazisindəki Mosul nefti uğrunda iki böyük imperiya – Böyük Britaniya ilə kayzer Almaniyası arasında gedən şiddətli mübarizədən qalib çıxan İngiltərə çox keçmədən yeni bir rəqiblə üzləşməli oldu.

Meydandan sıxışdırılıb çıxarılan Almaniyanın yerini İngiltərənin Antanta üzrə müttəfiqi Fransa tutdu. Lakin müharibənin qızğın vaxtında belə bir fikir yarandı ki, müttəfiqlərə bir-birilə dil tapmaq müyəssər olub. Belə ki, onlar hətta Yaxın Şərqdə öz təsir dairələrini bölmək əzmindədirlər. Lakin bu ilk baxışdan belə görünürdü. Çünki İngiltərə öz payını asanlıqla heç kimə vermək niyyətində deyildi. Hətta ən yaxın müttəfiqinə belə. Məsələn, 1916-cı ildə qarşılıqlı razılaşmaya əsasən Mosul Fransanın maraq dairəsinə aid edilsə də, ingilis qoşunları 1917-ci ilin martında Mesopotamiyada hücum əməliyyatlarını genişləndirdilər. Nəticədə Bağdad və fransızlara verilməsi nəzərdə tutulan Mosul onların əlinə keçdi.

Fransaya gəldikdə isə İngiltərə onun "könlünü" almağı da bacardı. Belə ki, Almaniyanın Rur vilayətini işğal etməkdə ona öz xeyir-duasını əsirgəmədi. Həm də nəzərə almaq lazımdır ki, Fransanın neft təchizatı əsasən İngiltərədən asılı idi.

İngiltərənin Yaxın Şərqdəki fəaliyyətini diqqətlə izləyən ABŞ hökuməti isə məmnunluq hissi keçirməkdən xeyli uzaq idi. Əksinə, belə hesab edirdi ki, böyük və güclü bir dövlət kimi onun da maraqları lazımınca təmin olunmalıdır. Odur ki, Rokfellerin

"Standard Oil Trast"ı Amerika maraqlarının təminatı uğrunda əzmlə mübarizə aparır və bu mübarizədə öz ölkəsindən mənəvi dəstək də alırdı.

İngiltərənin Yaxın Şərqdəki fəaliyyətləri ABŞ-ın neft sənayeçilərini o dərəcədə hiddətləndirmişdi ki, onları kəskin ifadələr işlətməkdən belə çəkindirmirdi. Baxmayaraq ki, müharibə son dərəcə həlledici mərhələyə qədəm qoymuşdu və onun gələcək taleyi xeyli dumanlı görünürdü. Həm də Rusiyadakı fevral inqılabı da daxil olmaqla, Avropada gedən siyasi proseslər yeni məcrada inkişaf etməyə meyllı idi. Müharibə gedən bir vaxtda bu proseslər vəziyyəti daha da mürəkkəbləşdirirdi.

Odur ki, belə məqamda "Standard Oil Trast"ın direktoru Tiqlin verdiyi bəyanat maraqlı olduğu qədər də düşündürücü idi. Tıql demişdi: "Britaniyanın hökmranlığı "Standard Oil" üçün Almanıyanın müharibədəki qələbəsi qədər təhlükəlidir"[1].

Bu elə bir dövr idi ki, İngiltərə və Fransa ciddi yanacaq böhranı keçirir, ABŞ-dan imdad diləyirdilər. Klemansonun ABŞ prezidenti Vudro Vilsona ünvanladığı müraciət bunun təkzibolunmaz sübutu idi.

Lakin zənnimizcə, Amerikanın müharibəyə qoşulmamaqda tələskənlik göstərməməsinin başqa səbəbi də vardı. Bu ilk növbədə hər iki tərəfi mümkün qədər zəiflətmək cəhdi ilə bağlı idı. Xüsusən də İngiltərəni.

Çağdaş dünyada neftin hərbi-siyasi əhəmiyyəti artıq bəlli idı. Gələcəkdə, yəni müharibə bitdikdən sonra duru yanacağın əhəmiyyətinin daha da artacağı heç kimdə şübhə oyatmırdı. Savaş teatrı səhnəsində mövcud olan irili-xırdalı bütün cəbhələrdə hərbi texnikanın tətbiqi gündən-günə genişlənir, hərbi əməliyyatların nəticəsinə əhəmiyyətli təsir göstərirdi. Bu da öz növbəsində duru yanacaq sərfini durmadan artırırdı. Halbuki müharibədən əvvəl duru yanacaq sərfinin miqdarını dürüst bilmək son dərəcə müşkül idi. Çünki hərbi əməliyyatlarda iştirak edəcək hərbi texnikanın miqdarını da əvvəlcədən müəyyənləşdirmək qeyri-mümkün idi. Nəticədə hərbi texnikanın sayı artdıqca, yanacaq sərfi də durmadan çoxalırdı.





Rəsmi məlumatlara görə müharibə ərzində təkcə Böyük Britaniyanın hərbi-dəniz donanmasının sərf etdiyi yanacağın miqdarı 9 milyon 100 min tona[2] bərabər idi.

Qurudakı əməliyyatlarda da yanacaqdan geniş istifadə olunurdu. İngilis quru qoşunları 1 milyon 219 min ton[3], fransız ordusu isə ondan bir qədər çox, 1 milyon 855 min ton[4] duru yanacaq işlətmişdi. Bu, o dövr üçün böyük məsrəf idi. Beləliklə, neft amili hər bir ölkənin milli maraqlarına yeni çalarlar gətirmiş oldu.

Böyük Britaniyanın Yaxın Şərq neftinə köklənmiş xarici siyasəti və durmadan artan hərbi təzyiqi, həm də onsuz da yüksək olan hərbi-dəniz qüdrətinin gündən-günə daha da artması ABŞ-ı narahat etməyə bılməzdi. Dünya okeanında hökmranlıq Böyük Britanıyanın ən üstün cəhətlərindən biri idi. Onun hərbi gəmilərinin yarısı neftlə işləyirdi.

ABŞ-ın İngiltərəyə olan inamsızlığının kökündə, şübhəsiz ki, Mosul nefti də dururdu. Məhz Mosul nefti müharibədən əvvəl ABŞ ilə Qərbı Avropa dövlətləri arasında kəskin rəqabətə səbəb olmuşdu. Sonralar məlum oldu kı, bu rəqabətin kökləri nə qədər dərindirsə, həlli yolları da bir o qədər mürəkkəb və uzundur. O zaman Mosul konsessiyasının admiral Çesterin simasında amerikanların əlinə keçməməsi üçün Britaniya hökuməti "Turkish Petroleum Company"ni yaratmağa nail oldu. Və hətta iştirak payının 25 faizini öz əzəli rəqibı Almaniyaya güzəştə də getməyə razılıq verdi. Bu münasibətlə sonralar doktor Parker Mur yazırdı: "Bu yaxınlarda dərc edilmiş diplomatik sənədlər sübut edir ki, konsessiyanın Çester tərəfindən alınması təhlükəsi müharibədən qabaq avropalı rəqiblərin öz aralarında razılaşmasında və amerikanların kənarlaşdırılmasında öz rolunu oynamış oldu"[5].

Öz növbəsində İngiltərənin də ABŞ ilə münasibətində istər obyektiv, istərsə də subyektiv səciyyə daşıyan bir inamsızlıq hökm sürürdü. Bunun da öz səbəbləri vardı. Müharibədən əvvəl İngiltərənin istehlak etdiyi neftin 70 faizi Amerikadan gətirilirdi. Müharibə dövründə isə bu rəqəm daim artaraq, 85 faizə qədər yüksəldi. Bu da təbii ki, İngiltərə üçün arzuolunmaz perspektivlər yaradırdı. Belə ki, Birləşmiş Ştatlarla münasibətlərdə hər hansı bir

ciddi gərginlıyin, fövqəladə vəziyyətin yarandığı təqdirdə yanacaq təchizatı ilə bağlı belə asılılıq Böyük Britaniyanın vəziyyətini son dərəcə ağırlaşdırmış olardı. Zira, İngiltərənin hərbi-dəniz donanmasının qüdrəti və müharibə səhnəsindəki geniş fəaliyyəti ilk növbədə Amerika neftinin fasiləsiz olaraq daşınması ilə əlaqədar idi.

Doğrudur, Meksika və Mərkəzi Amerikada İngiltərəyə məxsus neft konsessiyaları mövcud idi. Lakin bu da vəziyyətdən çıxış yolu sayıla bilməzdi. Çünki ABŞ ilə hərbi toqquşma olacağı təqdirdə, Atlantik okeanının o biri sahillərindən neftin təhlükəsiz daşınıb gətirilməsi heç də inandırıcı görünmürdü. Belə ki, su yollarının blokadası labüd bir məsələ idı. İngiltərəni təşvişdə saxlayan da məhz bu təhlükə idi.

ABŞ ilə müharibə olmasa da, hər halda onun, yəni yanacaq qıtlığı təhlükəsinin ilk əlamətləri artıq görünməkdə idi. Onun acısını dadan İngiltərə bunun nə ilə nəticələnə biləcəyini artıq dərk etmişdi. Bu barədə əvvəlki fəsildə ətraflı məlumat vermişdik. Odur kı, müharibədən əvvəl neftlə bağlı başladığı siyasətini müharibə dövründə daha böyük inadkarlıqla davam etdirmək əzmində idi.



Soldan sağa: Almanya kayzerı II Vilhelm, Bolqarıstan çarı Ferdinand, Osmanlı sultanı V Mehmet, Avstriya imperatoru Frans İosif





Müharibə onun Yaxın Şərq neftinə diqqətini daha da artırdı və yeni neft sahələrini ələ keçirmək üçün gözəl imkanlar yaratmış oldu. Lakin bunu reallaşdırmaq son dərəcə məşəqqətli və üzüntülü idi. 1914-cı il oktyabrın 16-da (29-da) Türkiyənin Almaniya ilə bir blokda müharibəyə qatılması İngiltərənin problemlərini bir qədər də artırdı. Lakin Almaniyanın hərb maşınının başını Avropa cəbhəsinə qatmaqla, Yaxın Şərqdə bu problemləri həll etməyə çalışdı. Amma nəzərə almalıydı ki, Almaniyanın da öz növbəsində bu bölgədə öz maraqları mövcuddur. Müharibədən əvvəl meydana gələn bu maraqlar ilk növbədə neftə söykənir.

Türkiyə ilə müttəfiqlik Almaniyanın imkanlarını xeyli genişləndirdi və onda Yaxın Şərq neftinə böyük ümidlər yaratdı. Beləliklə müharibənin ağırlıq mərkəzi getdikcə bu istiqamətə yönəldi.

Maraqlı burasıdır ki, Birinci cahan savaşından əvvəl, daha dəqiq desək, 1913-cü ildə dünya üzrə verilmiş statistik məlumatda ən çox neft hasil edən ölkələr sırasında, İran da daxil olmaqla, Yaxın Şərq bölgəsinin adı qeyd olunmayıb. Həmin məlumata əsasən, ən çox neft hasil edən ölkələrin təsnifatı belə idi: [6]

| | |
|---|---|
| Amerika Birləşmiş Şatatları | 33 mln.ton; |
| Rusiya | 8,6 "____"; |
| Meksika | 3,8 "____"; |
| Rumıniya | 1,9 "____"; |
| Hollandiya Ost-İndiyası | 1,6 "____"; |
| Birma və Hindistan | 1,1 "____"; |
| Polşa | 1,1 "____"; |

Beləliklə, Birləşmiş Ştatları çıxmaq şərtilə, şərq yarımkürəsində ən böyük neft hasilatçısı əsasən Bakının simasında Rusiya idi. Bu onu göstərir ki, bütövlükdə Yaxın Şərqdə hasil edilən neftin ümumi miqdarı hətta 1 faizdən də aşağı idi. Buna baxmayaraq, neft bölgələrini ələ keçirmək uğrunda gedən mübarizə gündən-günə daha da şiddətlənirdı. Və maraqlı cəhət burasıdır ki, bu mübarizədə təkcə hərbi vasitələrdən istifadə olunmurdu.

Potensial rəqibi zəiflətmək məqsədilə, başqa vasitələrə də əl atılırdı: süni yolla dini və milli qarşıdurmalar, təxribatlar, qiyamlar, dövlət çevrilişləri, terror aktları, pərdəarxası oyunlar və s. Bu vasitələrin rəngarəngliyi və müxtəlifliyi həmin mübarizənin möhtəşəmliyindən xəbər verirdi. Beləliklə müharibənin gedişatında yeni neft "siyasətinin" əsasları yaradılırdı. Bu siyasətdə çox keçmədən Bakı nefti də öz yerini tutmuş oldu.

Qabaqcadan onu da deyək ki, məqsədimiz Birinci cahan savaşının bütün tarixini araşdırmaq, hərbi əməliyyatlar da daxil olmaqla bütün prosesləri təhlil etmək deyil. Çünki bu barədə çox deyilib, çox yazılıb, hərtərəfli tədqiq və təhlil edilib. Odur ki, bizi yalnız və yalnız neftlə əlaqədar olan məsələlər, daha dəqiq desək, bu qanlı müharibədə neft amili və o cümlədən, bu labirintdə Bakı neftinin yeri daha çox maraqlandırır. Bu amil o qədər güclü idi ki, münaqişəyə qoşulmuş ölkələrin hamısını öz orbitinə cəlb edə bildi.



## XVII fəsil

# BAKI NEFTİ və RUSİYANIN YANACAQ PROBLEMLƏRİ

Müharibəyə elə ilk günlərdən qatılan və onun fəal iştirakçılarından biri olan Rusiyada neft məhsullarına olan tələbat sürətlə artdı. Hətta neft sənayesi müdafiə əhəmiyyətli sənaye hesab edildi. Bu da öz növbəsində neft hasilatının artmasını stimullaşdırdı. Digər tərəfdən Hərbi, Dəniz və Artilleriya idarələrindən alınan sərfəli dövlət sifarişləri də hasilatın artmasına təkan verən güclü amillər idi. Lakin müharibə Bakı neftinin ixracının qarşısının alınmasına da səbəb oldu. Savaş xarici bazarları Bakı neftinin üzünə qapadı. Yalnız əvvəllər bağlanan müqavilələrə əsasən bəzi firmalar İrana neft məhsulları ötürməyə nail oldular. 1914-cü ildə Bakı firmalarının İrana göndərdikləri kerosinin həcmi 2 milyon puda[1] bərabər idi. Onu da deyək ki, İran bazarlarında Bakı kerosini ilə rəqabət aparmaq mümkün deyildi.

İxracın dayandırılması ölkədə maliyyə vəsaitinin çatışmazlığını kəskin surətdə artırdı. Bu da təbii ki, neft sənayesinə öz mənfi təsirini göstərməyə bilməzdi.

Neft məhsullarına tələbat kəskin surətdə artdığı halda hasilat xeyli azaldı. Məsələn, 1915-ci ildə neft hasilatının artmasına baxmayaraq, 1916-cı ildə 14 milyon pud azalaraq 550 milyon pud[2] təşkil etdi. Bunun əksinə, neftə tələbat əvvəlki il ilə müqayisədə 62 milyon pud[3] çoxaldı.

Doğrudur, kiçik partiyalardan ibarət neft məhsulları hələ 1914-cü ilin sentyabrında Skandinaviya ölkələrinə göndərilmişdi[4]. Lakin İsveç və Norveç üçün nəzərdə tutulmuş bu neft məhsulları hələ müharibədən əvvəl "Nobel qardaşları" tərəfindən öz alıcılarına satılmışdı. Və müqaviləyə əsasən onlar göndərilməli idi. Buna razılığı isə "Nobel qardaşları şirkəti"nin etdiyi xahişə əsasən Nazirlər Şurası vermişdi.

Xahişnamə bir şərtlə yerinə yetirilmişdi ki, göndərilən neft məhsullarının miqdarı həmin ölkələrin daxili tələbatını ödəyəcək



Bakı neft mədənlərindən birinin görünüşü

qədər olsun. Bu qərar onunla izah olunurdu ki, əsas ixrac predmeti olan maşın və ox yağları Rusiyanın özünə də lazım idi. Digər tərəfdən ehtiyat edilirdi ki, göndərilmiş neft məhsulları yenidən Almaniyaya satıla bilər, o isə həmin yanacaqdan hərbi məqsədlər üçün istifadə edər[5].

1915-ci ilin fevralında hərbi nazir V.Suxomlinov Nazirlər Şurasının sədri İ.L.Qoremıkinə məlumat verirdi ki, "Nobel qardaşları şirkət"i Fransa və İngiltərəyə 800 min puda qədər ağ vazelin, maşın və ox yağlarının, İsveç və Norveçə 220 min pud maşın və ağ vazelin yağlarının, 50 min puda qədər təbii neftin və 100 min puda qədər kerosin göndərilməsinə icazə verilməsi barədə xahiş ediblər[6].

V.Suxomlinov Rusiyada hasil edilmiş neft məhsullarının İsveçə və digər ölkələrə göndərilməsinin tam qadağan olunmasını tələb edirdi. 1916-cı ilin noyabrında "Nobel qardaşları şirkət"i İsveçə 200 min pud və Norveçə maşın üçün 40 min pud mineral yağların göndərilməsinə icazə verilməsi haqqında yeni məsələ qaldırdı[7].





Çar hökuməti istəsə də, istəməsə də neft məhsullarının ixracında maraqlı olmalı idi. Bir tərəfdən ölkə özünə su-hava kimi lazım olan əlavə vulyuta əldə edirdi, digər tərəfdən isə Avropa bazarlarını əldə saxlamaq imkanı qazanırdı. Zira müharibənin də öz qanunları, öz tələbləri var. Nəhayət neft məhsullarının ixracı tamamilə dayandırıldı.

O dövrdə nəşr olunan "Qornozavodskoe delo" ("Горнозаводское дело") jurnalında 1917-ci ildə dərc olunmuş bir məqalədə deyilirdi: "Azərbaycandan neft çıxarılması təkcə onun hasilatı hesabına deyil, həm də çox böyük ehtiyatlar bahasına başa gəlirdi. Bakı rayonunda bütün neft məhsullarının ehtiyatı 1915-ci ildə 90,1 milyon pud, 1916-cı ildə 86,8 milyon pud, 1917-ci ildə 81 milyon pud təşkil edirdi"[8]. Lakin neft hasil edilən yerlərdə və anbarlarda (1916-cı il yanvarın 1-də mədənlərdəki anbarlarda 8 milyon puddan artıq neft vardı) yanacaq ehtiyatlarının mövcudluğu, ölkə daxilindəki yanacaq istehlakçılarının təmin edilməsi demək deyildi. Yanacağı istehlak edilən rayonlara çatdırmaq lazım idi[9].

Səciyyəvidir ki, 1914-cü ildə naviqasiyanın başlanması ərəfəsində artıq Bakı rayonunda 101,9 milyon pud neft yığılıb qalmışdı[10].

Volqa magistralının körpülərində, neft sənayeçilərinin anbarlarında 1915-ci il naviqasiya mövsümünün sonunda 60 milyon puda yaxın neft məhsulları vardı. Onlardan 5 milyon pudu xam neft, 46 milyon pudu mazut, 7 milyon pudu isə kerosin idi[11].

Rusiyanın daxili quberniyalarının neft yanacağına olan tələbatının 90 faizi Xəzər dənizi ilə Volqaya daşınır və Həştərxandan Petroqrada qədər olan bütün su yollarındakı sahil anbarlarına paylaşdırılırdı. Gətirilmiş neft Volqadan dəmir yolları ilə daşınırdı. Lakin neft çatışmazlığı səbəbindən neft yanacağının Volqa limanlarına daşınması 1916-cı ildə 310 milyon puddan 277 milyon puda qədər azaldı[12].

1915-ci ilin payızında son dərəcə yüksək nöqtəyə çatan neft böhranı təkcə neftin qıtlığı ilə deyil, həm də yanacağın həddindən artıq bahalaşması ilə əlaqədar idi. Qiymətlər gündən-günə artırdı.

Müharibənin ilk dövründə bir pud mazutun qiyməti 54-56 qəpik civarında idisə, 1915-ci ilin sentyabr, oktyabr və noyabr aylarında 75-80 qəpiyə çatmışdı. Petroqradda isə yanacağın qiyməti daha yüksək – 97 qəpik idi[13].

Kerosin və benzinin də qiymətləri görünməmiş həddə çatdı. Qiymətləri tənzimləmək istiqamətində hökumətin həyata keçirmək istədiyi tədbirlər neft inhisarçılarının ciddi müqavimətilə üzləşirdi.

Müharibə şəraitində neft məhsullarının əsas sifarişçisi dövlət özü idi. Odur ki, məhsulun miqdarını və çeşidini təkcə azad bazarın tələbatı deyil, həm də hərbi istehlakçılar müəyyən edirdi.

Müharibədə iştirak edən digər dövlətlərdən fərqli olaraq Rusiya hökuməti ölkənin təsərrüfat həyatının tənzimlənməsini xeyli gecikdirmişdi. Ölkənin demək olar ki, əsas sahələrini əhatə etmiş və günbəgün genişlənən böhran ilk növbədə bununla əlaqədar idi. Müharibə sadəcə olaraq bunu daha da qabartdı və şiddətləndirdi. Neft böhranı daha təhlükəli idi və yaxın gələcəkdə daha böyük sarsıntılardan xəbər verirdi. Onun bir sıra əlamətləri artıq müharibənin ilk günlərində, nə qədər təəccüblü görünsə də, həm də neft sahəsində özünü büruzə verdi. Halbuki müharibə iştirakçıları arasında Rusiya yeganə ölkə idi ki, özünün etibarlı neft mənbələrinə, xeyli inkişaf etmiş neft infrastrukturuna və mükəmməl nəqletmə vasitələrinə malik idi. Volqa magistralından savayı, dövlətin sərəncamında olan Bakı – Batum kəməri neft nəqlində əhəmiyyətli rol oynamaq qabiliyyətinə malik idi. Bundan savayı Güney Qafqaz dəmir yolunun mövcudluğu vaqon-çənlər vasitəsilə neft daşınmasının səmərəsini xeyli artırmağa qadir idi.

Fəqət bütün bunlara baxmayaraq, çar Rusiyasının çürümüş və sağalmaz bürokratiya xəstəliyinə tutulmuş dövlət quruluşu özünün bu aşkar üstünlüklərindən istifadə etmək iqtidarında deyildi.

Ölkənin neft yanacağı ilə təchiz olunması məsələsi hələ müharibənin yenicə başlandığı dövrdə o dərəcədə ciddi narahatlıq doğurdu ki, bu, Rusiya imperatorunun Qafqazdakı canişini qraf İ.Vorontsov-Daşkovun 1914-cü il iyulun 26-da Nazirlər Sovetinin sədrinə məktub göndərməsinə səbəb oldu. Qafqaz canişini yazırdı:





"Döyüşən ordunun, donanmanın və dəmir yollarının mazut, kerosin, benzin, yağlar və digər neft məhsulları ilə təmin olunmasının son dərəcə vacibliyini nəzərə alaraq, israrla hesab edirəm ki, təcili surətdə xüsusi qaydalar tərtib edilib tətbiq olunmalıdır. Bu, məhsulların Hərbi İdarənin nəzarəti altında neft rayonlarından düzgün çıxarılmasını və dəqiq hesabını təmin edərdi. Bu, ilk növbədə hərbi şəraitdən doğan tələbatı təmin etmiş olardı"[14].

Lakin Vorontsov-Daşkovun hətta bu ciddi xəbərdarlığı belə rus mühafizəkarlığı və bürokratiyasına xeyli müddət ayıldıcı təsir göstərmək gücündə deyildi. Yalnız bir il keçəndən sonra, 1915-ci ilin avqustunda dörd xüsusi məşvərət orqanı yaradıldı. Onlar xalq təsərrüfatının dörd əsas sahəsini: sənaye, nəqliyyat, yanacaq və ərzaq sahələrini tənzimləməli idilər. Onlar ali dövlət orqanları statusuna malik idilər və yalnız çara hesabat verməyə borclu idilər.

Yanacaq üzrə yaradılmış xüsusi məşvərət orqanı qısaca olaraq "Osotop" adlanırdı. Digər tənzimləmə orqanları kimi o da 1915-ci il avqustun 17-də yaradıldı. Lakin yanacaq böhranı yüksələn xətt üzrə inkişaf edirdi.

1914-1917-ci illər ərzində olan neft böhranının əsas səbəblərindən biri müharibə amili və onun nəticəsində nəqliyyatın pozulması idisə, digəri hakimiyyət dairələrinin fərsizliyi və bacarıqsızlığı ilə izah olunurdu. Müharibə edən digər dövlətlərdən fərqli olaraq çar Rusiyasında "pozğunluq daha müdhiş idi..."[15]

1915-ci ilin sonunda müdafiə üzrə xüsusi məşvərət orqanının ümumi işlər üzrə komissiyasına Baş hərbi-texniki idarənin Nobeldən çox yüksək qiymətə – 1 pudu 7 rubl 50 qəpiyə 50 min pud benzin almaq barədə bir xahişnaməsi daxil oldu[16]. Onun ümumi qiyməti əlavə xərclərlə birlikdə 366.500 rubl[17] edirdi. Xüsusi məşvərət orqanı razılıq verməyə məcbur idi. Çünki 39 yeni təyyarə dəstəsinin benzinlə təchiz edilməsi məhz bundan asılı idi[18].

Neftin qiymətləri o dərəcədə artdı ki, hökumətin ünvanına saysız-hesabsız şikayətlərin, ərizələrin, tələblərin gəlməsi ilə nəticələndi. Onların hamısında qiymətlərin təsbit edilməsi tələb olunurdu. Volqa magistralı birja komitələrinin mövqeyi xüsusilə qətiyyətli idi. Hətta 1915-ci il aprelin 15-də Nazirlər Şurasının

sədri İ.Qoremıkinın adına göndərdikləri məktubda neft yanacağının qiymətinin təsbit edilməsini təxirəsalınmaz bir ölçü kimi təklif etdilər[19].

Hökumət bu tələbləri nəzərə alıb müəyyən addımlar atmaq istəsə də qarşı tərəfin müqaviməti ilə üzləşmək zorunda qaldı. Neft sənayeçılərinin maraqlarının müdafiəçiləri rolunda nə qədər təəccüblü görünsə də, hətta ölkənin dəmir yolları naziri S.Ruxlov və Qafqaz canişini qraf Vorontsov-Daşkovun adları hallandı.

Belə ki, senator Nikolski Vorontsov-Daşkova göndərdiyi teleqramda təklif edirdi: "Baş komandan kimi öz səlahiyyətilə Bakı neftinin qiymətini... 38-40 qəpik həcmində müəyyən etsin"[20].



Qraf İ.İ.Vorontsov-Daşkov

Vorontsov-Daşkovun cavabı birmənalı oldu. O, yazırdı: "Bakı neftinin qiymətini məcburi olaraq müəyyən edilməsini... həyata keçirməkdə çətinlik çəkirəm. Hesab edirəm ki, bu ifrat tədbirdir, bilavasitə ordunun ehtiyaclarından doğmur"[21].

Yollar naziri Ruxlov da öz növbəsində bəyan etdi ki, o "neft qiymətlərinin təsbit edilməsinin tərəfdarı deyil"[22].

Vorontsov-Daşkova gəldikdə isə, bu məsələdə o, yüksək rütbəli dövlət məmuru kimi yox, ilk növbədə neft sahibkarı kimi çıxış edirdi. Beləki, o, "Nobel qardaşları şirkət"i ilə sıx əlaqədə olmaqla, həm də Bakı mədənlərinin sahibkarlarından biri idi.

"Nobel qardaşları"nın köməkliyi ilə o, hələ 1903-cü ildə öz mədənini yaratdı. 1905-ci ildə Qafqaz canişini təyin olunduqdan sonra da şirkətlə öz ticarət münasibətlərini daima saxlamaqda davam edirdi[23].





Gecikmiş də olsa görülən tədbirlərə, atılmış bir sıra addımlara baxmayaraq, yanacaq böhranının qarşısını almaq mümkün olmurdu. Fəlakət gündən-günə yaxınlaşırdı. 1916-cı ildə dəmir yolları neftə olan tələbatı daha 40 milyon pud artırdılar. İmperiyanın quzey bölgələri neftsiz qalmaq təhlükəsi ilə üzləşdilər[24].

Neftin çatışmazlığı hər yerdə özünü göstərirdi. Sənayedə, nəqliyyatda, məişətdə. Duru yanacaqla işləyən sənaye müəssisələri bir-birinin ardınca, yenidən kömür yanacağına keçmək məcburiyyətində qalırdılar. Lakin onun da əldə edilməsi böyük problemlərlə üzləşirdi.

Hərbi idarənin neftə olan tələbatı isə son dərəcə yüksək idi. Çünki tarixdə misli görünməyən bu müharibənin özü də döyüşən tərəflər qarşısında yeni-yeni tələblər qoyur, döyüş vasitələrinin daha da təkmilləşdirilməsini, yeni sahələrin yaradılmasını tələb edirdi. Məhz bu səbəbdən Rusiyada bir sıra yeni istehsal sahələri meydana çıxdı. Partladıcı maddələrə tələbatın son dərəcə yüksək olduğunu nəzərə alaraq, onlar üçün ilkin xammal olan ksilol, benzol, toluol istehsalı yaradıldı.

1916-cı ilin sonunda kəskin kerosin qıtlığı ölkəni bürüdü. Bunun ağır nəticələrini dəf etmək üçün xüsusi "Kerosin komitəsi" təşkil olundu. Fəqət görülən tədbirlər müsbət nəticələr vermirdi. Nəqliyyatda yaranmış acınacaqlı vəziyyət müharibə aparan ölkə üçün xüsusilə fəlakətli idi. Hərbi daşımaların pozğunluğu son dərəcə təhlükəli idi. Cəbhə bölgəsinə ordu birləşmələrinin, hərbi sursatın və digər strateji yüklərin vaxtlı-vaxtında çatdırılmasını təmin etməkdən ötrü ölkənin təsərrüfat həyatı üçün son dərəcə vacib olan başqa məhsulların, müxtəlif xammalın daşınması xeyli məhdudlaşdırıldı. Bu, neft və neft məhsullarına da aid idi. Güney Qafqaz dəmir yolunda neft daşımalarının ildən-ilə azalması aşağıdakı cədvəldə aydın görünür: [25]

| Yanacaq | 1913-cü il | 1914-cü il | 1915-ci il |
|---|---|---|---|
| Kerosin | 32257 min pud | 15292 min pud | 3998 min pud |
| Neft | 15169 min pud | 11342 min pud | 5485 min pud |
| Sürtgü yağları | 17005 min pud | 7810 min pud | 1671 min pud |

Belə vəziyyət nəinki orduya, həmçinin təsərrüfat fəaliyyətinə də sarsıdıcı zərbə vururdu. Halbuki çar hakimiyyətinin fərsizliyi ucbatından neft hasil olunan yerlərdə külli-miqdarda neft ehtiyatları mövcud idi. Təkcə Bakı rayonunda 1914-cü ildə 31,7 milyon pud[26], satılmamış neft ehtiyatı var idisə, 1917-ci ildə onun həcmi 43,4 milyon puda[27] qədər artmışdı.

Beləliklə, müharibəyə qoşulmuş ölkələr arasında ən etibarlı, ən zəngin neft mənbələrinə malik olan Rusiya da "neft böhranı, neft qıtlığı mərhələsinə daxil oldu. Bu da yaxınlaşmaqda olan fəlakətin əlamətləri idi"[28]. Sonrakı hadisələr birmənalı şəkildə göstərdi ki, bu fəlakətin nəticələri son dərəcə dəhşətli oldu və yaxın gələcəkdə yeni fəlakətlərin əsasını qoydu.

Üç yüz ildən artıq davam edən Rusiya imperiyası özünün qaçılmaz və şərəfsiz sonluğuna doğru sürüklənirdi. Bunun qarşısını isə heç nə ala bilməzdi. Hətta ixtiyarında olan tükənməz əlahəzrət neft (seçmə mənimdir – *N.Rza*) amili də.



## XVIII fəsil

# RUSİYANIN MÜHARİBƏYƏ QOŞULMASI və BUNUN ƏSAS SƏBƏBLƏRİ

Rusiya və Türkiyənin müharibəyə qatılmaları onun sonrakı gedişatına yeni çalarlar gətirmiş oldu. Müharibə səhnəsindəki vəziyyət daha da mürəkkəbləşdi. Rusiyanın ardınca Almaniyanın müttəfiqi kimi Türkiyənin məcburi olaraq müharibəyə qoşulması çox-çox mətləblərdən xəbər verirdi. Mesopotamiya nefti və Bağdad dəmir yolu ətrafında bir qədər əvvəl başlamış diplomatik qarşıdurma nəhayət hərbi müstəviyə keçirildi. Nəticədə yeni bir cəbhə – Qafqaz cəbhəsi yarandı. Güney Qafqaz cəbhə xəttinə yaxın bir əraziyə çevrildi. Və yaxın gələcəkdə Rusiya imperiyasının süqutunda əhəmiyyətli rol oynadı. Ümumiyyətlə, Birinci cahan savaşı Avropada kommunist ideologiyasının geniş yayılmasında və əməli nəticələrə gətirib çıxarmasında əlverişli şərait yaratdı. Rusiyada və Almaniyada baş verən hadisələr bunu bir daha təsdiq etdi. Gələcəkdə Avropada kommunizm kabusunun uzun müddət dolaşmasında bu müharibə mühüm rol oynadı.

Hələ 1912-ci ildə II Beynəlmiləlin Bazel konqresində qəbul olunmuş və tarixdə "Bazel manifesti" adlanan sənəddə imperialist müharibəsi təhlükəsi qeyd olunur və ona qarşı mübarizənin labüdlüyü diqqətə çatdırılırdı. Sənəd müharibə başlayacağı təqdirdə onun yaratdığı böhrandan kapitala söykənən hakimiyyətin devrilməsi üçün istifadə etməyə çağırırdı. Manifestdə elə beləcə də yazılmışdı: "Qoy hökumətlər yaxşı yadda saxlasınlar ki, Avropanın çağdaş vəziyyətində və fəhlələr arasındakı mövcud əhval-ruhiyyədə hər hansı bir müharibə onların özləri üçün təhlükəsiz olmayacaqdır. Qoy unutmasınlar ki, fransız-alman müharibəsi Kommunanın inqilabi partlayışına səbəb oldu, rus-yapon müharibəsi rus xalqının inqilabi qüvvələrini hərəkətə gətirdi..."[1].

Rusiyanın özündə də müharibəyə münasibət son dərəcə mənfi idi. Xüsusilə də hakimiyyətə qarşı müxalifətdə olan qüvvələr arasında. Müharibənin əsl səbəblərini təhlil edərkən, V.Lenin bu müharibədə iki toqquşmanın birinci yerdə olduğunu göstərərək

yazırdı: "Birinci (toqquşma – *N.Rza*) İngiltərə ilə Almaniya arasında, ikincisi Almaniya ilə Rusiya arasındadır. Bu üç böyük dövlət, böyük yolun üç böyük qulduru, hazırkı müharibənin başlıca simalarıdır, qalanları isə qeyri-müstəqil müttəfiqlərdir"[2].

İ.Stalin isə belə yazırdı: "...Çarizm Türkiyənin, İranın, Çinin və s. bölüşdürülməsində qərb imperializminin sədaqətli müttəfiqi idi"[3].

İrana və Türkiyəyə gəldikdə burada neft amili xüsusi əhəmiyyət kəsb edirdi. Leninin adlarını çəkdiyi hər üç ölkə üçün də eyni dərəcədə. Yəni Almaniya, İngiltərə və Rusiya üçün.

Türkiyənin öz ərazisində neft olmasa da, imperiyanın tərkibinə daxil olan Mesopotamiyada böyük perspektivə malik neft ehtiyatları aşkar edilmişdi. İranın isə neft perspektivi artıq yaxşı bəlli idi. Onun cənubunda ingilislər tərəfindən neft mənbələrinin aşkar edilməsi və nəticədə "Anglo-Persian" şirkətinin yaradılması ilə bir qədər əvvəl biz ətraflı tanış olmuşduq. Lakin diqqətə onu da çatdırmalıyıq ki, hələ o zaman İranın quzeyindəki beş əyalətdə də neft yataqlarının olması haqqındakı məlumatlar yetərincə idi. Lakin o zaman hamımıza artıq yaxşı bəlli olan Noks d'Arsi bu əyalətlərə laqeydlik nümayiş etdirərək ondan imtina etmişdi.

Hətta 1901-ci ildə İran ərazisinin qalan 5/6 hissəsində neft kəşfiyyatına başlamaq haqqında İran şahından uzunmüddətli konsessiya aldıqdan sonra da o, quzey əyalətləri də ələ etməyə cəhd göstərmədi. Bunun, əlbəttə, səbəbləri də yox deyildi. Əkstəqdirdə, İran ərazisinin 5/6 hissəsini bir növ ələ keçirən d'Arsı, sözsüz ki, qalan hissəyə də sahib çıxmaq istərdi. Təbii ki, əgər həmin ərazi coğrafi nöqteyi-nəzərdən əlverişli olsaydı.

Ladvel Denni yazırdı: "Çoğrafi nöqteyi-nəzərdən quzey əyalətləri (İranın – *N.Rza*) demək olar ki, ayrıca bir ölkə təsiri bağışlayır. Çünki oradan başlanan təbii yol Qafqazdan keçir"[4]. Qafqaz isə Rusiyanın əlindədir. Rusiyaya gəldikdə Luis Fişer sonralar özünün "Neft imperializmi" kitabında yazırdı: "O, Quzey İranın neft ehtiyatları üçün verilmiş hər hansı bir konsessiyaya veto qoymaq imkanına malikdir"[5].





Bir daha qeyd etmək istərdık ki, 1907-ci ildə Sankt-Peterburqda bağlanmış Rusiya-İngiltərə müqaviləsinə əsasən İran iki nüfuz dairəsinə bölünmüşdü. İranın yuxarıda qeyd olunan əyalətlərində çar Rusiyası imtiyazlı mövqe tuturdu.

Hadisələri bir qədər qabaqlayaraq onu da qeyd etmək lazımdır ki, müharibə başlayandan bir qədər sonra, daha dəqiq desək, 1916-cı ildə Rusiya vətəndaşı olan Akaki Xoştariya adlı birisi həmin bölgədə qazma işlərinin görülməsi üçün konsessiya ala bildi. Əlbəttə bu, çar hökumətinin bilavasitə köməkliyi sayəsində mümkün oldu. Maraqlıdır ki, Amerika Birləşmiş Ştatlarının dağmədən bürosunun verdiyi rəyə görə, konsessiyanın əhatə etdiyi 500 min kvadrat milə bərabər bu ərazi neftlə daha zəngin idi, nəinki Güney İran[6]. Doğrudur, sonralar – 1917-ci ildə Rusiyada oktyabr çevrilişi nəticəsində hakimiyyəti bolşeviklər ələ keçirəndən sonra İran hökuməti konsessiyanı birtərəfli şəkildə ləğv etməyə nail olmuşdu. Lakın o vaxta hələ çox qalırdı. Sonralar o da bəlli oldu ki, bu bölgəyə İngiltərənin marağı, Rusiyanın marağından heç də az deyilmiş.

Neft ehtirasları getdikcə o qədər şiddətləndi ki, nəticədə, Güney Qafqazda, Mesopotamiyada və Suriya ilə Fələstinin şərq sərhəddində yaranmış cəbhələr tədricən eyni strateji neft maraqlarına xidmət eləmiş oldu. Həm də son dərəcə ardıcıl və məqsədyönlü. Halbuki bir qədər əvvəl qeyd etdiyimiz kimi bu, elə müharibənin lap əvvəlindən də aydın görünürdü. Onun sonlarına yaxın isə bu proses daha yırtıcı xarakter almağa başladı.

Keçmiş diviziya komandiri, sonralar isə Moskvada Frunze adına Hərbi Akademiyanın professoru vəzifəsində çalışmış N.Korsun Rusiyanın Qafqaz ordusunun 1915-ci ildə apardığı döyüş əməliyyatlarını təsvir edən kitabında etiraf edir ki, "həqiqətən də, dünya imperialist müharibəsi ərəfəsində Rusiya "strateji" mülahizələri əldə əsas tutaraq, İran Azərbaycanını bütövlüklə və İran Kürdüstanının Urmiya gölü yaxınlığındakı bir zonasını işğal etdi"[7].

Məhz elə bu işğalın nəticəsi idi ki, İran hökuməti 1916-cı ildə Xoştariyaya həmin ərazidə konsessiya vermək məcburiyyətində qaldı. Sonralar konsessiyanın ləğv edilməsi səbəblərini izah edər-

kən İranın keçmiş baş naziri Dövlə bunu onunla əsaslandırırdı ki, o, təzyiq nəticəsində verilmişdi. Baş nazir onu da qeyd edirdi ki, konsessiyanın ləğv etmə təklifi Moskva hökuməti tərəfindən edilmiş, İran hökuməti tərəfindən həyata keçirilmişdir. Britaniya hökuməti isə bunu yazılı şəkildə təqdir etmişdi[8].

Maraqlı və diqqətçəkən cəhət isə ondan ibarətdir ki, konsessiyanın ləğvindən cəmi 2 il sonra İngiltərə – İran neft şirkəti* Xoştariyadan onun mübahisəli hüquqlarını almağa nail oldu. İngiltərənin bu gözlənilməz addımı böyük qalmaqala səbəb oldu və konsessiya ətrafındakı ehtirasları daha da qızışdırdı. Fəqət bu barədə daha ətraflı bir qədər sonra.

Beləliklə, İran Azərbaycanını işğal etməklə, özünün də zəngin neft mənbələrinə malik olmasına baxmayaraq, Rusiya İranın da neft sərvətlərinə iddialı olduğunu nümayiş etdirdi. Lakin məsələ bununla bitmədi. Korsun bununla əlaqədar yazır: "Türkiyə Ermənistanını Rusiya, Türkiyədən qalmış mirasın bir payı kimi sevib seçmişdi və əməliyyat nöqteyi-nəzərindən rus komandanlığı tərəfindən yüksək qiymətləndirilirdi. Çünki onun ələ keçirilməsi İranın şimal-şərq hissəsində, Anadoluda və İraqda (Mesopotamiya) onun hökmranlığını təmin edirdi. Bu mülahizələrdən çıxış edərək, Rusiya bu ərazidə dəmir yolunun çəkilişinə mane olurdu. Çünki Türkiyə ilə müharibənin olacağı təqdirdə bunun Güney Qafqaz üçün təhlükə yaradacağını güman edirdi"[9].

Fəqət Korsun səhv edirdi. Məsələ tamamilə başqa cür idi. Əvvəlki fəsillərdən birində qeyd etdiyimiz kimi, əsas vurnuxmalar Mesopotamiya neftindən və onunla əlaqəli olan Bağdad dəmir yolunun tikintisindən ötrü idi.

F.Merks yazır: "Rusiya imperiyası yeni neft yatağının aşkar edilməsinə laqeyd qala bilməzdi. Bu, ödəmə qabiliyyəti olan neft alıcılarını uzaqlaşdıra bilərdi"[10].

Mesopotamiya neftinə və Bağdad dəmir yolunun perspektivinə, bildiyimiz kimi, İngiltərə də böyük maraq göstərir və Almaniyanın bu layihələrdəki fəal iştirakına son dərəcə qısqanclıqla yanaşırdı. Almaniyanın xarici işlər stats-katibi, sonra-

* "Anglo-Persian Oil Company"





lar isə reyxkansleri olmuş knyaz Bernhard Byülovun 1900-cü ildə söylədiyi sözləri bu münasibətlə bir daha xatırlatmaq yerinə düşərdi: "Bizə son dərəcə lazımdır ki, Asiyada İngiltərə ilə Rusiya arasında olan rəqabətdən yararlanaq. İran körfəzi rayonunda Küveytə qədər dəmir yolunun tikintisini başa çatdırmaq üçün gah Britaniya şirinə, gah da rus ayısına boyun əymək gərəkdir"[11].

Odur ki, Korsunun mülahizələri həqiqətdən xeyli uzaqdır. Hər halda məhz Rusiya çarının fəal köməyi nəticəsində İngiltərə Almaniyanı nəinki dəmir yolunun tikintisindən, həmçinin bir qədər sonra Mesopotamiyanın neft yataqlarının işlənməsindən də uzaqlaşdırmağa nail oldu. Odur ki, Güney Qafqaza Türkiyə təhlükəsi ideyası cəfəngiyyatdan başqa bir şey deyil. Çünki Türkiyənin özü ağır iqtisadi, siyasi, sosial böhranlar məngənəsində boğulur, daxili durumunu sabitləşdirmək üçün qeyd etdiyimiz layihələrdən yararlanmaq məcburiyyətində bulunurdu. Müharibə təhlükəsinə gəldikdə isə o dövrün tarixinə az-çox bələd olan hər bir kəs yaxşı bilir ki, Birinci cahan savaşının səbəbkarı da, təşəbbüskarı da Türkiyə deyil, başqalarıdır.

Rusiyaya gəldikdə isə hələ Birinci Pyotrun dövründən başlayaraq, onun Osmanlı imperatorluğunun himayəsində olan ərazilərə qarşı iddiası və iştahası danılmaz bir faktdır. Bu isə hamıya yaxşı bəllidir. Lenin yazırdı: "Rusiyanın... imperialist siyasətinin məqsədi qısaca olaraq belə izah edilə bilər: İngiltərə və Fransanın köməyilə Avstriya və Türkiyəni qarət etməkdən ötrü Avropada Almaniyanı darmadağın etmək. Sonra isə Yaponiyanı, eləcə də Almaniyanın köməyilə İranı büsbütün ələ keçirmək lazımdır. Çinin bölüşdürülməsini başa çatdırmaqdan ötrü İngiltərəni Asiyada darmadağın etmək və s."[12] Gördüyümüz kimi, son dərəcə iddialı, təcavüzkar və avantürist bir siyasətdir.

Maraqlıdır ki, Türkiyənin qarət edilməsi planını aşkarlayarkən, Lenin Rusiyanın Ermənistana* və xüsusilə də Konstantinopola** olan iddialarını xüsusi olaraq vurğulamışdı.

* Türkiyədə erməni azlığının yaşadığı ərazini Rusiya Ermənistan kimi qələmə verir

** 1453-cü ildə İstanbul adlandırılıb. Buna baxmayaraq, ruslar onun köhnə adını işlətməkdən sanki həzz alırdılar

Məhz bu səbəbdən, elə Korsunun özünün də etiraf etdiyi kimi, "Türkiyə öz növbəsində bu bölgədə iqtisadiyyatın inkişafını, yol inşaatını ləngidirdi. Çünkı çar Rusıyası tərəfindən olan t ə h l ü k ə n i  a y d ı n (seçmə mənımdir – *N.Rza*) görürdü"[13].

Fəqət Rusiyanın Qafqaz ordusunun hərbi fəaliyyətinə həsr etdiyi "1915-ci ildə Qafqaz cəbhəsində Ələşkirt və Həmədan əməliyyatları" ("Алашкертская и Хамаданская операции на Кавказском фронте в 1915 г.") monoqrafiyasında ziddiyyətli mülahizələr yetərincədir. Və bu ziddiyyətlər bir çox hallarda eklektik səciyyə daşıyır. Bu xüsusilə də hər iki ölkə üçün son dərəcə həssas xarakter daşıyan milli məsələlərdə özünü daha qabarıq göstərir. Türkiyədəki milli məsələlərə qiymət verərkən, Korsun yazır: "Türkiyənin Sultan hökuməti Ermənistanın türk hissəsində məskunlaşan ermənilər və kürdlər arasındakı qan düşmənçiliyini nəinki dəstəkləyir, həm də qızışdırırdı".

"Султанское правительство Турции не только поддерживало, но и всячески раздувало кровавую вражду между армянами и курдами которые главным образом населяли турецкую часть Армении"[14].

Halbuki tarixi mənbələrdən yaxşı məlumdur kı, rusların "Türkiyə Ermənistanı" adlandırdıqları ərazini ələ keçırməkdən ötrü Rusiya hökuməti yerli erməni əhalisindən də yararlanmağı son dərəcə məqsədəuyğun sayırdı. Onları "Türkıyə Ermənistanı"nda muxtariyyət vədləri ılə şirnikləndirərək, hökumətə qarşı silahlı üsyana sövq etmişdı. Türk hökumətində və hərbı komandanlığında erməni millətindən çoxlu sayda yüksək vəzifəli komandır, ali rütbəli hərbçinin təmsil olunmasına, türk ordusunda müxtəlif hərbi ixtisaslar üzrə minlərlə erməni əsilli Türkiyə vətəndaşının xidmət etməsinə baxmayaraq, boş xülyaların xumarlandırıcı təsiri altında və Rusiya hökumətinin bilavasitə təhrıkı və hərbi yardımı sayəsində ermənilər türk ordusunun 1914-cü ilin sonunda Sarıqamış istiqamətindəki ağır məğlubiyyətindən ruhlanaraq, 1915-ci il aprelin əvvəllərində silahlı üsyan qaldırdılar və bununla da dövlət əleyhinə cinayətə əl atmış oldular.





Lakin Rusiya bununla da kifayətlənmədi. Erməni amilindən mümkün qədər gen-bol istifadə etmək üçün başqa tədbirlərə də əl atdı.

Rusiya imperiyası öz hüdudlarında, xüsusilə də Güney Qafqazda məskunlaşan ermənilərdən də faydalanmağa çalışdı. Bu işdə əsas təşkilatçılıq və rəhbərlik missiyası Rusiya imperatorunun Qafqaz canişininə həvalə olundu. Daha dəqiq desək, general-adyutant qraf Vorontsov-Daşkova tapşırıldı. Bununla da, sonralar tarixə üzdənıraq qondarma "erməni soyqırımı" kimi daxil olan və on illər boyu, Rusiya da daxıl olmaqla, irili-xırdalı bir sıra qərb dövlətlərinin Türkiyəyə qarşı ədalətsiz siyasətində təzyiq və manipulyasiya alətinə çevrilmiş bir hadisənin bünövrəsi qoyuldu. Bu məsələ barədə kitabın növbəti fəslində biz ətraflı söhbət açacaq və onun hansı məqsədlərə xidmət etməsinin əsas məqamlarına aydınlıq gətirməyə çalışacağıq.

Lakin hadisələri qabaqlamalı olsaq da, indıdən bunu demək vacibdir ki, Türkiyə daxilində təşkil edilmiş erməni üsyanı da, onun acı nəticələri də ilk növbədə Rusiyanın bölgədəki imperiya maraqlarına, xüsusilə də onun neft maraqlarına xidmət edirdi. Və bu fəlakətli hadisələrin təşkilatçısı da, ilhamvericisi də məhz çürüməkdə olan Rusiya imperiyası idi.

Rusiyanın neft iştahası o dərəcəyə çatmışdı ki, hətta Antanta bloku üzrə öz müttəfiqi İngiltərəni də hədsiz təşvişə salmışdı. Bu da təbii ki, hər iki dövlət arasında ziddiyyətlərin yaranmasına gətirib çıxarmışdı. Buna münasibət bildirərək Korsun yazırdı: "İngiltərə Rusiyanın nəinki Türkiyəni, eləcə də İranı ələ keçirməsinə dair iştahasını hər vasitə ilə əngəlləməyə çalışırdı"[15]. Çünki ingilislər artıq başa düşmüşdülər kı, Rusiyanın istər İran, istərsə Mosul neftinə olan iddiaları yetərincə ciddidir.

Bölgədə eynilə belə ciddi neft maraqları olan Almaniyaya gəldikdə isə, "alman inhisarçıları anladılar kı, "Britaniya şirinə boyun əymək", "rus ayısına reverans etmək" gözlənilən nəticələri vermədı. Odur kı, onlar özlərinin bütün ümidlərilə yeni cahan savaşına bel bağladılar"[16]. Merks yazır: "Kayzer diplomatiyasının gücü çatmayan bu problemləri baş qərargah həll etməli idi"[17].

Təbii ki, ingilislər də bu fikirdə idilər. Odur ki, öz planlarını açıq-aşkar həyata keçirməyə tələsdilər.

Beləliklə də 1914-cü il noyabrın 23-də Böyük Britaniya silahlı qüvvələrinin Şatt-əl-Ərəb çayı üzərindəki Bəsrə şəhərinə yeridilməsi ilə Yaxın Şərq nefti uğrunda dörd ilə yaxın bir müddətdə davam edəcək üzüntülü bir hərbi mücadiləyə başlandı.

Cavab tədbirlərini çox da gözləmək lazım gəlmədi. İngilislərə qarşı göndərilən türk qoşunları onları ağır məğlubiyyətə uğratdılar. Bununla da uzun illər boyu gedən gərgin diplomatiya müharibəsi bu bölgədə də hərbi qarşıdurma ilə nəticələndi.

1915-ci il dekabrın 7-də ingilislər daha bir ağır məğlubiyyətlə barışmalı oldular. Dəclə çayı üzərindəki Kut-əl Əmara şəhəri yaxınlığında başda general-mayor Çarlz Taunshend olmaqla 3 min ingilis və 6 min hind əsgərindən təşkil olunmuş Britaniya hərbi kontingenti türklər tərəfindən mühasirəyə alınaraq, təslim olmağa məcbur edildi. Fəqət əsl hadisələr hələ irəlidə idi. Bu zaman savaşın gələcək müqəddəratı hələ heç kimə bəlli deyildi.



## XIX fəsil

# RUSİYANIN YAXIN ŞƏRQ NEFT SİYASƏTİNDƏ ERMƏNİ KARTI

Çar Rusiyasının böyük ehtirasla savaşa qatılmasının səbəblərini Korsun belə izah edir: "Müharibənin başlanması ilə çar hökuməti öz tələblərini tez bir zamanda müəyyənləşdirdi. Bu, necə deyərlər, "tarixi vəzifələrin" həyata keçirilməsi kimi izah oluna bilərdi. Yəni Konstantinopol (İstanbul) ilə birgə boğazların* və Türkiyə Ermənistanının ələ keçirilməsi kimi"[1].

Daha sonra müəllif bu vəzifələrin həyata keçirilməsi üçün Rusiya strateqlərinin planlarına işıq salaraq yazır: "Çar hökuməti yuxarıda qeyd edilən zonaların öyrənilməsinə ciddi diqqət yetirdi, xüsusilə, mürəkkəb milli-siyası şəraitə malik Türkiyə Ermənistanına, belə ki, orada kürdlərdən əlavə daha üç "məzlum" xalq vardı: e r m ə n i l ə r (seçmə mənimdir – *N.Rza*), yunanlar (əsas etibarilə Qara dəniz sahılındə) və aysorilər (Van gölündən cənub-şərq zonasında). Rus komandanlığı Qafqaz ordusunun Türkiyə hüdudlarına daxıl olduğu zaman ermənilərə və aysorilərə arxalanmağı nəzərdə tuturdu"[2].

Təbii ki, Rusiya hökumətinin nıyyətlərindən üzdəniraq erməni ideoloqları da xəbərsiz deyildilər. Odur ki, yaranmış əlverişli şəraitdən mümkün qədər səmərəli faydalanmağa çalışdılar.

Erməni "baş bilənlərinin" yaramaz əməllərinə, avantürist fəaliyyətınə qarşı həmişə kəskin mövqe nümayiş etdirən Rusiyanın Qafqaz canışını Qolıtsının yerinə 1905-ci ildə təyin olunmuş qraf Vorontsov-Daşkov ermənılərə münasibətdə tamamılə fərqli siyasət yeritdı. Ş.Basilaya bunu belə şərh edir: "Ermənilərə münasıbətdə öz sələfinin (Qolitsın nəzərdə tutulur – *N.Rza*) siyasətini qınaması, əlbəttə nə onun ınsanpərvərliyindən, nə də ki, xalqa olan hörmətindən irəli gəlirdı. Bunun öz səbəbləri vardı. Belə ki, erməni məsələsində öz rəğbətını o, 1912-ci il oktyabrın 10-da II Nıkolaya göndərdıyı məktubunda ıfadə etmışdi"[3].

* Bosfor və Dardanel boğazları

Vorontsov-Daşkov çara yazırdı: "Böyük Pyotrdan başlayaraq rus siyasəti ermənilərə qarşı xeyirxah münasibətlərə əsaslanırdı, onlar da qoşunlarımızın hərbi əməliyyatlarında bizə fəal yardım göstərməkləriylə əvəzini çıxırdılar... Ermənilərə himayədarlıq etməklə, bizə həmişə böyük xidmətlər göstərmiş sədaqətli dostlar əldə edərdik".[4]

Yeri gəlmişkən Qafqaz canişini qraf Vorontsov-Daşkovun Azərbaycana və azəri türklərinə qarşı yeritdiyi fitnəkar siyasətə də toxunmaq istərdik. Belə ki, 1905-i ildən Qafqazda fəaliyyətə başladığı elə ilk günlərdən etibarən bu yüksək rütbəli və böyük səlahiyyətlərə malik çar məmuru erməni-türk qırğını törətməklə tarixdə çirkin ad çıxardı. Ermənilərdən bir alət kimi istifadə etməyin mümkünlüyünü yaxşıca dərk edən və onlara qarşı loyal münasibətini heç zaman gizlətməyən Vorontsov-Daşkov bu qırğını törətməyə nəinki rəvac verdi, həm də birtərəfli qaydada erməni tərəfini rus silahı ilə gen-bol təchiz edərək, Azərbaycan xalqının soyqırımını bir növ təşkil etməklə məşhurlaşdı.

1905-ci ildən başlayan və tarixin qara ləkəsi kimi damğalanan bu dəhşətli qırğının nə qədər uzanacağını yəqin ki, cənab canişinin özündən başqa heç kim bilmirdi. Şuşada törədilən bu qırğın tezliklə Gəncəyə, bir qədər sonra isə Bakıya və Azərbaycanın digər bölgələrinə yayıldı və çoxlu insan tələfatı ilə nəticələndi. Nəhayət onun qarşısını almaq iqtidarında olan qüvvələr də tapıldı.

1906-cı ildə Gəncədə Azərbaycan xalqının bir dəstə vətənpərvər övladı bu qanlı qırğının qarşısını almaq, onun qızışdırılmasında xüsusi fəallıq və riyakarlıq nümayiş etdirmiş yüksək rütbəli çar məmurlarını və xüsusi xidmət orqanlarının əməkdaşlarını cəzalandırmaq qərarına gəldi. Bunu həyata keçirmək üçün firqə yaradıb "Difai" adlandırdılar.

Tezliklə "Difai"nin cavab tədbirləri bütün Qafqaza lərzə saldı, əks-sədası Sankt-Peterburqa qədər gedib çıxdı. Vorontsov-Daşkovun təşvişi yerə-göyə sığmırdı. Qafqaz canişini aidiyyəti olan qurumlardan təcili tədbirlər görülməsini tələb etdi. Elə bu zaman Güney Azərbaycanda da milli oyanış gündən-günə yüksəlir, Səttarxanın başçılıq etdiyi Məşrutə hərəkatı geniş vüsət alırdı.





Vəziyyətin gərginləşməsindən, məsələnin dərinləşməsindən əndişələnən Qafqaz canişini "Difai"ni zərərsizləşdirmək üçün səylərin daha da artırılması barədə əmr verdi. Casuslar, xəfiyyələr, milli satqınlar işə salındı. Nəhayət, 1908-ci ildə "Difai"nin izinə düşərək, onun rəhbərlərindən iki nəfəri: Gəncə gimnaziyasının müəllimi Mirzə Məhəmməd Axundzadəni və Həmidbəy Usubbəylini həbs etməyə nail oldular. Uzun çəkən istintaqdan sonra onlar, 1910-cu ildə müvafiq olaraq, biri Səmərqənd quberniyasına, digəri isə Krımın Bağçasaray şəhərinə 5 il müddətinə sürgün olundular. Lakin buna baxmayaraq, "Difai" qarşısına qoyduğu vəzifəni yerinə yetirməyə nail olmuşdu. Qırğının qarşısı alınmış, onu süni surətdə qızışdıranlar, erməni tərəfinə açıq-gizli dəstək verənlər isə "Difai"nin özəl fəaliyyəti sayəsində layiqli cəzalarına çatdırılmışdılar.

Beləliklə də erməni kartının oynanılmasında müəyyən "təcrübə" toplamış Vorontsov-Daşkovun II Nikolaya ünvanladığı məlum məktubdan təhrikçilik xarakteri daşıyan başqa təhlükəli məqamların da az olmadığı bəlli olur. Rusiyanın hakimiyyət dairələrində bir çox hallarda onun bu siyasətinə qarşı qəzəbli hücumların olmasına işarə edərək daha sonra yazırdı: "Dövlət xadimlərinin bir çoxu ermənilərə olan xeyirxah münasibəti məzəmmət edirdilər. Lakin Rusiya sədaqətli təbəələri nəinki rus erməniləri, həmçinin Türkiyə erməniləri arasında da əldə edirdi"[5].

Basilaya yazır: "Beləliklə Vorontsov-Daşkovun ermənilərin xeyrinə danışması, Türkiyə Ermənistanında Rusiyaya qarşı hüsn-rəğbət oyatmaq məqsədi daşıyırdı. Bu isə çarizmin təcavüzkar məqsədli planlarına daxil idi"[6].

Fəqət, yaxşı məlumdur ki, adətən cızılan planlar yalnız kağız üzərində qalmır, bir qayda olaraq həyata keçirilirlər. Odur ki, rusların səpdikləri toxumların ilk cücərtiləri də tezliklə özünü göstərməyə başladı. Bunu Korsun da etiraf edir: "...bir çox əlamətlər Türkiyə hökumətinə ölkə ərazisində ermənilərin təhlükəli meyllərinə işarə edirdi. Çünki rusların soxulacağı təqdirdə ermənilərin türklərə qarşı üsyanının mümkünlüyü ilə hesablaşmaq gərək idi"[7].

Vorontsov-Daşkovun ermənilərə loyal münasibəti onun "Daşnaksütyun" partiyasına qarşı gedən məhkəmə prosesi zamanı da açıq-aydın özünü göstərdi. O, hətta ölkənin ədliyyə naziri İ.Şeqlovitovla və daxili işlər naziri ilə labüd toqquşmadan belə çəkinmədi. Çünki qatı millətçi-şovinist erməni partiyasının ideologiyası onun fikirləri ilə üst-üstə düşürdü. Məhkəmə prosesinin əleyhinə çıxan Vorontsov-Daşkov "Daşnaksütyun"u müdafiə edərək demişdi: "Daşnaksütyun partiyası bir o qədər də cinayətkar deyil. Məsuliyyətə cəlb edilmiş belə adamları həbs etmək... "əhalini" qıcıqlandırmaq deməkdir"[8].

Rusiyanın ədliyyə naziri İ.Şeqlovitovun məhkəmədə dindirmə zamanı stenoqram edilmiş bu sözləri Vorontsov-Daşkovun erməni kartından istifadə məsələsində nə qədər israrlı olduğunu aydın göstərir. Təsadüfi deyil ki, Qafqaz canişini tezliklə istəyinə çatdı. Türkiyə ilə müharibə başladıqdan dərhal sonra "Daşnaksütyun"un üzvləri həbsdən azad edildilər. Bir qədər sonra isə daşnaklardan təşkil olunmuş könüllü döyüş dəstələri rus qoşunları ilə birlikdə Türkiyə ərazisində "Ermənistan muxtariyyatı" xülyası ilə mübarizəyə qoşuldular. O zaman onların ağıllarına belə gəlməzdi ki, bu mübarizə "Ermənistan muxtariyyatı" uğrunda deyil, Rusiyanın Yaxın Şərqdəki neft maraqları və nüfuz dairələri uğrundadır.

Qafqaz canişini və eyni zamanda da Qafqaz cəbhəsinin baş komandanı Vorontsov-Daşkovun rolu və əhəmiyyəti, habelə erməni əhalisinin rusların tərəfinə cəlb edilməsi barədə Rusiya daxili işlər nazirliyinin 1915-ci il 15 may tarixli məktubunda toxunulmuş məsələləri şərh edərək Korsun yazır: "Türkiyə ilə müharibə Qafqazda məskunlaşan çoxsaylı xalqlar arasında gözəçarpacaq dərəcədə təşvişə səbəb oldu. Həmin nazirliyin göstərdiyinə görə, kampaniyanın başlaması ilə bütün bu xalqlar arasında Qafqazın ali hakimiyyət orqanlarının xüsusi himayədarlığından yalnız ermənilər bəhrələnirdilər. Bu da daxili işlər nazirliyinin gəldiyi qənaətə görə, müxtəlif tayfalardan ibarət olan əhali arasında son dərəcə arzuedilməz dedi-qodulara səbəb oldu. Xüsusilə də baş komandanın arvadı stats – dama qrafinya Vorontsova-Daşkovanın rolu barəsində. Belə ki, ermənilərin xeyrinə xüsusi fəaliyyəti





sayəsində onların arasında olduqca məşhurlaşmışdı. Və onlar (ermənilər – *N.Rza*) unudublar ki, "idarənin rəhbərliyinə o yox, onun əri Vorontsov-Daşkov təyin olunub"[9].

Daxili işlər nazirliyinin məlumatına əsaslanaraq Korsun daha sonra yazır: "Müharibənin əvvəlində, xüsusilə də Sarıqamış döyüşlərinin ilk mərhələsində erməni əhalisi bütünlüklə ən yeni silahla təchiz olunmuşdu, həm də bu silahlanma çox yüksək sürətlə davam edirdi. Hətta türklərin Güney Qafqaz hüdudlarına hər hansı bir daxil olmaq təhlükəsi sovuşduqda belə. Daxili işlər nazirliyinin məlumatına görə erməni dəstələri özlərinin xüsusi qərargahlarına da malik idilər. Həm də ora göndərilən yazışmalar belə ünvanlanırdı: "Tiflis, baş erməni qərargahı, Xatisova (şəhər başçısı)"[10].

Məlumatda daha sonra deyilirdi: "Güney Qafqazın şərqində yaşayan əhali arasında qarşılıqlı münasibətlər məsələsi olduqca ciddidir və özünə qarşı son dərəcə qayğıkeş münasibət tələb edir, lakin... bunun haqqında düşünən yoxdur. Bu geniş diyar.., hakimiyyətsiz və rəhbərsiz qalıb. Qafqazın indiki canişini general-adyutant qraf Vorontsov-Daşkov tamamilə xəstə və əldən düşmüş bir insandır, faktiki olaraq, əmək qabiliyyətinə malik deyil. Türklərin Sarıqamışa hücum etdikləri zaman Qafqazda yaşanılmış ən həyəcanlı günlərdə o, heç kimi qəbul etmirdi. Bununla belə hakimiyyəti də heç kimə vermirdi. Odur ki, nəticədə Qafqazda tam hakimiyyətsizlik hökm sürürdü və indi də sürməkdə davam edir. Kim nə istəyirsə, onu da edir. Xalq arasında isə belə bir rəy formalaşıb ki, Qafqazı qrafinya Vorontsova-Daşkova idarə edir"[11].

Vorontsov-Daşkov administrasiyasının hələ 1905-ci ildən başlayan, müharibənin ilk günündən isə özünün ən yüksək mərhələsinə çatan ermənipərəst siyasəti Güney Qafqazın nəinki müsəlman əhalisini, hətta xristian gürcüləri də qəzəbləndirirdi. Bu, daxili işlər nazirliyinin məlumatında da öz əksini tapmışdı. Orada böyük narahatlıqla qeyd olunurdu: "Bu dəstələrin (ermənilərin, – *N.Rza*) təşkili və onlara göstərilən xüsusi himayədarlıq ermənilərlə Qafqazın digər xalqları arasında gərgin münasibətlər törədib"[12].



Qafqaz canişini qraf İ.İ.Vorontsov-Daşkov və onun iqamətgahı.
Tiflis. 1905-1915-ci illər

Vəziyyət hətta o dərəcəyə çatmışdı ki, erməni dəstələrinin ümumiyyətlə nə dərəcədə sərfəli olması müəyyən edilsin və onların tərksilah olunması məsələsi qaldırılsın. Onlara verilmiş üçatılan tüfənglər silah ehtiyatı yaratmaq məqsədilə müsadirə olunsun.

Lakin Qafqaz ordusunun qərargahı buna qarşı etiraz etdi və onu erməni dəstələrinin ləğv olunması kimi qiymətləndirdi.

Qərargah rəhbərlərinin məntiqi təbii ki, başa düşülən idi. Çünki erməni dəstələrinin rus ordusuna göstərdiyi "xidmətlər" danılmaz idi. Sonda qəbul edilmiş qərarda göstərilirdi ki, bundan sonra erməni dəstələrinin təşkili və üçşeşli tüfənglərlə silahlandırılması dayandırılsın"[13].

Fəqət bu tədbirlərin səbəbləri də az deyildi və çox təbii ki, məcburiyyətdən doğan bu qərar idi. Əvvəla, mövcud narazılıqlar bölgədə mərkəzdənqaçma meyllərini son dərəcə gücləndirdi. Almaniya və Türkiyə ayrı-ayrılıqda öz hərbi-siyasi maraqlarını təmin etməyə ciddi meyl göstərdilər. Bu da Rusiyanın ciddi təşvişinə səbəb oldu. Müsəlmanların və xaçpərəst gürcülərin gündən-günə artan narazılıqları son nəticədə Rusiya üçün olduqca





böyük təhlükə vəd edirdi. Almaniya və Türkiyə bundan yararlanmaq əzmində idilər. Rusiya hökuməti də artıq bu təhlükəni dərk etməyə başlamışdı. Ermənilərlə münasibətdə ehtiyatlı olmaq və məsafə saxlamaq prinsipi də məhz elə bu vəziyyətdən qidalanırdı. Ümumiyyətlə çar rejiminin on illər boyu təqdir edilən "parçala və ağalıq elə!" prinsipinə söykənən milli siyasəti çox ciddi şəkildə zədələnməyə uğrayırdı. Bu həm də Rusiya tarixinin ən taleyüklü və ciddi imtahanlar qarşısında durduğu bir dövrdə baş verirdi.

Vorontsov-Daşkovdan qabaqkı Qafqaz canişinliyinin rəhbəri Qolitsının tətbiq etdiyi üzdəniraq "milli favoritizm" metodunun zərərli nəticələrini araşdıran məşhur publisist A.Amfiteatrov özünün "Erməni məsələsi" ("Армянский вопрос") kitabında yazırdı: "Ermənilər şərəfə layiq görüləndə gürcülər şübhə altında olurdular. Gürcülər şərəfə layiq görüləndə ermənilərə qarşı təqiblər başlanırdı. Hər ikisindən məyus olanadək yabancı müsəlmanlar gözümçıxdıya salınırdılar... Ermənilər "etibarsız" oldular, gürcülər isə bürokratiyanın arzu etdiyi kimi kifayət qədər sədaqətli olmadılar. - gəlin, tatarları (azəri türkləri – *N.Rza*) əzizləyək!.. Məhz elə o zaman hakimiyyətin rəğbəti və nifrətinin əksi kimi, Rusiyaya qarşı gürcü etinasızlığı, erməni ümidsizliyi zəminində Əbdülhəmidin* panislamist siyasətinin Qafqaz uğurları yetişdi"[14].

Çar rejiminin milli ədavəti qızışdırmaq siyasətinin nəticəsi olaraq, Rusiyanın "müsəlman əhalisi: türklər, türkdilli xalqlar, kürdlər və acarlar açıqdan-açığa Türkiyəyə meyllənirdilər"[15].

Bunun əsasında türk komandanlığı hesab edirdi ki, çarizmin zülm etdiyi Güney Qafqaz xalqlarının xeyli hissəsi, 3-cü türk ordusunun keçmiş qərargah rəisinin sözləri ilə desək, "səbrsizliklə türk hücumunu gözləyirdilər ki, üsyan qaldırsınlar"[16].

Erməni millətçilərinin gündən-günə artan qəddarlığı və bunun nəticəsində milli münasibətlərin son dərəcə gərginləşməsi artıq çar rejimi üçün ciddi baş ağrısına çevrilmişdi. Ölkənin vəziyyəti üçün böyük təhlükədən xəbər verirdi. Təsadüfi deyil ki, daxili

* 1876-1909-cu illərdə Türkiyə sultanı.

işlər nazirliyinin hesabatında da bu məsələ öz əksini tapmış və ermənilərin azğınlaşmasına səbəb olmuş Vorontsov-Daşkov idarəçiliyinin zərərli və yararsız olduğu dolayısı yolla vurğulanmışdı.

Nəhayət 1915-ci ildə Vorontsov-Daşkovu Qafqaz canişini vəzifəsində Nikolay Romanov əvəzlədi. Və tezliklə Qafqaz canişinliyinin ermənilərlə bağlı siyasətində əhəmiyyətli dəyişikliklər baş verdi. Basilaya bunu izah edərək yazır: "Dəyişiklik onunla əlaqədar idi ki, rus ordusunun "Türkiyə Ermənistanı"ndakı uğurları, daşnak dəstələrinin köməyini lazımsız edirdi, əksinə ermənilərin "Türkiyə Ermənistanı"nın muxtariyyəti barəsindəki tələbləri Qafqaz canişinliyini bərk əsəbiləşdirirdi. Qəzetlərə bu barədə yazmaq qadağan edilmiş, qaçqınlara (ermənilər nəzərdə tutulur – *N.Rza*) öz "vətən"lərinə qayıtmaqda maneələr yaradılırdı. Çarizm Türkiyənin işğal etdiyi bölgələrdə kazakların yerləşdirilməsi planı üzərində əlləşirdi"[17].

Rusiyanın Vorontsov-Daşkovun simasında fərsiz milli siyasəti Gürcüstan əhalisinin bir qisminin (ermənilər istisna olunmaqla – *N.Rza*) Türkiyəyə, digərinin isə Almaniyaya meyllənməsinə səbəb oldu.

Basilaya yazır: "Müharibə alovlananda Almaniya, Türkiyə ilə Rusiya arasında hərbi əməliyyatların başladığı təqdirdə bir qrup gürcü millətçisinin köməyilə sərhəddə acarların silahlı çıxışına ümid bəsləyirdi"[18].

Gürcüstanın sosial-federalist partiyasının bir qrup üzvü, hətta belə bir bəyanatla çıxış etdi: "Onlar türklərə tərəfdar olacaqlar, çünki onlara dəqiq məlumdur ki, türklər gürcü xalqını incitməyəcəklər (seçmə mənimdir – *N.Rza*)"[19].

Belə bir vaxtda aranı qızışdırmaq məqsədilə müxtəlif xarakterli təxribatlara əl atılırdı. Necə deyərlər, hərənin öz məqsədi vardı. Qarşı-qarşıya duran tərəflərin biri digərinin səhvlərindən, zəif cəhətlərindən faydalanmağa çalışırdılar. Rusiyanın zəif cəhətlərindən biri də, məlum olduğu kimi, milli münasibətlərin bərbad vəziyyətdə olması idi. Belə vəziyyət təbii ki, rəqib tərəfin xüsusi xidmət orqanlarının nəzər-diqqətindən yayına bilməzdi.





Odur ki, Petroqrad teleqraf agentliyi vasitəsilə yayılmış belə bir məlumat diqqəti xüsusilə cəlb edir. Qafqazdakı fəaliyyəti barədə gizli alman agentliyi tərəfindən tərtib edilmiş bu məlumat Almaniyanın İstanbuldakı səfirliyinə ünvanlanmışdı.

"Новое время" qəzetinin 1915-ci il 5 mart sayında dərc edilmiş bu məlumatda deyilirdi: "Sizdən xahiş edirəm ki, aşağıdakı teleqramı Almaniya imperiyasının hökumətinə göndərəsiniz.

Gürcüstanın müsəlman təşkilatı yaxşı hazırlanıb, silahlar paylanıb, müsəlmanlar dağlara qalxıblar. Tamamilə eyni ilə rus qoşunları da çəkildilər. Sərhəddən Çoruk çayına doğru çəkilən sərhəd mühafizə dəstəsi orada səngər tutdu.

Türklərlə apardığım son danışıqlar əsasında müəyyən etdim ki, onlar əsas etibarilə müsəlman Gürcüstanına hücum etməyi nəzərdə tuturlar. Xaçpərəst Gürcüstanına qarşı hərəkəti təxirə salmağa meyllidirlər.

Xaçpərəst Gürcüstanı bizim intibahnamələrlə hazırlanıb. Lakin əhali təşkılata inamsızlıq nümayiş etdirir. Çünki tərkibinə əsas etibarilə türklər daxıldirlər və almanların köməyinə arxayın deyillər.

Tam uğur bir şərtlə təmin oluna bilər. Gürcüstan əhalisi Almaniyanın köməyinə o zaman bel bağlayar ki, Gürcüstan milli komitəsinə tabe olan bir neçə yüz dəniz piyadasının sahilə çıxarılması və irəliyə hərəkət etməsi həyata keçirilsin. Desant çıxarma yeri Batumidan 50 kilometr şimalda, Natanebi çayının mənsəbindədir, çünki bu məntəqəni əhatə edən rayon yalnız gürcülərlə məskunlaşıb.

Yeni silahların və mərmilərin daşınması olduqca zəruridir; silahlar minadaşıyan gəmi ilə gətirilə bilər. O bununla eyni zamanda məni və gürcü komitəsini öz göyərtəsinə götürə bilər"[20].

Məlumat təxribat xarakteri daşısa da, hər halda cəmiyyətin ən müxtəlif dairələrində böyük gərginliyə səbəb oldu və birmənalı qarşılanmadı. Həm də doğru deyiblər ki, od olmasa, tüstü çıxmaz. Hər halda Rusiyanın rəsmi dairələrində "belə məlumatlar var idi ki, müharibənin əvvəlində Rusiyaya qarşı düşmənçilik əhval-ruhiyyəsində olan bəzı sosial-federalistlərlə alman agentləri arasında

doğrudan da almanların hərbi uğurlarına köməyin mümkünlüyü barədə danışıqlar aparılmışdı"[21]. Bu barədə Tıflis quberniyası jandarın idarəsinin rəisi polkovnik Pastryulin də məlumatlı idi.

Belə bir fikir də iddia edilir ki, guya "hələ müharibədən əvvəl Petroqraddakı Almaniya səfiri Purtales, Türkiyənin Güney Qafqazda hərbi əməliyyatlara başlayacağı təqdirdə Gürcüstanı Rusiyaya qarşı silahlı mübarizəyə təhrik etmək və Qafqaza 50 min nəfər üçün silah və iki milyon rubla qədər pul göndərmək niyyətində idi. Gizli polisin məlumatlarına görə, 30 min rubl artıq verilmişdi"[22].

Nikolay Romanovun Qafqaz canişini təyin olunması ermənilərə qarşı münasibəti köklü surətdə dəyişdi. Hər halda onlara strateji tərəfdaş kimi baxılmadı. Yeni canişin öz fəaliyyətində daha sərbəst idi. Daşnakların törətdikləri saysız-hesabsız vəhşiliklərə özünü cavabdeh hesab etmirdi. Zira bunları Vorontsov-Daşkov dövrünün acı təzahürləri hesab edirdi. Həm də "daşnak dəstələri rus qoşunlarının "Türkiyə Ermənistanı"na soxulduğu vaxt çarizmin onlara həvalə etdiyi rolu artıq yerinə yetirmişdi. Odur ki, erməni burjuaziyasının nazı ilə oynamağa artıq heç bir ehtiyac yox idi. Əksinə, çarizm işğal etdiyi türk vilayətlərinin ilhaqını hazırlayırdı və kazakların bu rayonlarda məskunlaşmasında daha maraqlı idi, nəinki türklərin qırğınından qaçmış yerli əhalinin doğma yerlərinə qaytarılmasında. Eyni zamanda müsəlman əhalisinin ünvanına bəzi şırnikdirmələr edib, gələcəkdə erməni əhalisi ilə mübarizədə çarizm özünə müttəfiqlər tapmağa ümid bəsləyirdi"[23].

Beləliklə çar rejiminin müharibədən əvvəl və müharibə dövründə ayrı-ayrı xalqlar arasında süni ədavətlər yaradıb, bir-birinə qarşı düşmənçiliyə sövq etməklə, hətta milli qırğınların yaranmasına təkan verməklə, öz alı məqsədlərinə çatmaq istəkləri göz qabağındadır. Türklərin guya ermənilərə qarşı törətdikləri üzdəniraq "qırğın" boşboğazlığı da elə bu qəbildəndir. Basılayanın yuxarıda iqtibas gətirdiyimiz "türklərin qırğını" ifadəsini də başa düşmək çətin deyil və təbii qarşılanmalıdır. Çünki kommunist ideologiyasının tərkib hissəsi olan sovet tarixçiliyi çarizmə qarşı nə qədər





amansız idisə, onun əbədi düşməni olan Türkiyəyə qarşı münasibətdə ondan da amansız idi. Odur ki, dövrün taleyüklü hadisələrini ümumən obyektiv təhlil edən Basılayanın "türk qırğını" ifadəsini də məcburi olaraq işlədilmiş bir ifadə kimi qəbul etmək zorundayıq. Çünki iyirminci yüzilliyin sonuna qədər və hətta iyirmi birinci yüzilliyin əvvəlində belə "erməni qırğını", "erməni soyqırımı" süni şəkildə şişirdilərək bir sıra qərb dövlətlərinin, eləcə də Sovet Rusiyasının bir sıra hakimiyyət dairələrinin Türkiyə dövlətinə qarşı ciddi təzyiq vasitəsinə çevrildi. Tarixçilərin təhqiqat və tədqiqat obyekti olan bu şübhəli olaylar, yəni üzdəniraq "erməni soyqırımı", çox qəribədir ki, bir sıra siyasətbazın ən sevimli və ən əlverişli mövzularından birinə çevrildi. Təəssüf doğurdan odur ki, müharibə şəraitinin törətdiyi bu olaylar ətrafında mütəmadi olaraq aparılan siyasi oyunlar əsl həqiqətin üzə çıxarılmasına deyil, tarixin növbəti dəfə saxtalaşdırılmasına, dövlətlər və millətlər arasında inamsızlığın və dözümsüzlüyün bərqərar olmasına xidmət göstərməklə yanaşı, həm də gələcəkdə də belə olayların baş verməsi üçün süni zəmin yaradılmasına və bir müddət sonra onun "nəticələrini" əldə əsas tutaraq, yeni siyasi oyunlara, manevrlərə şərait yaradır.

Belə bir misal var, deyirlər: qara məni basınca, mən qaranı basım. Keçmiş tarixə dərin ekskurs etmək məqsədim olmasa da, hər halda onun bəzi qorxunc məqamlarını xatırlamaq zənnimcə yerinə düşərdi. Bu xüsusda müdriklərin söylədikləri bir zərb-məsəldə deyildiyi kimi, oğru elə qışqırdı ki, doğrunun bağrı yarıldı.

Qədim və orta əsrlər tarixini demirəm, hətta iyirminci yüzilliyin tarixinə ötəri də olsa nəzər saldıqda, üzdəniraq "erməni soyqırımı"nı vaxtaşırı əldə bayraq edənlər, öz ölkələrinin Asiyada, Afrikada, eləcə də Avropanın özündə törətdikləri və həyata keçirdikləri hərbi cinayətlərə, əsl soyqırımlara nədənsə göz yumur, görməzliyə vururlar. Halbuki elə qeyd etdiyimiz iyirminci yüzillikdə ingilislərin, fransızların, almanların, eləcə də rusların və başqalarının insanlığa qarşı törətdikləri cinayətlərin nə sayı var, nə hesabı. Belə ki, bu qətliamlarda məhv edilmiş günahsız insanların sayı milyonlarla yox, on milyonlarla ölçülür.

Lakin nədənsə, faşist Almaniyasının İkinci cahan savaşı zamanı insanlığa qarşı törətdiyi hərbi cinayətləri çıxmaq şərtilə nə Avropa, nə də dünya ictimaiyyəti tərəfindən törədilmiş bu cinayətlərə hüquqi və siyasi qiymət verilməmiş, heç bir ciddi münasibət bildirilməmişdir. Təbii ki, heç bir tədbir də görülməmişdir. Yalnız keçmiş Yuqoslaviyada törətdiyi cinayətlərə görə ölkənin keçmiş prezidenti Slobodan Miloşeviç məhkəmə məsuliyyətinə cəlb edilmişdir. Lakin bunun da əsl səbəbləri başqa idi. Bu daha çox Miloşeviçin prezident deyil, kommunist lideri olması ilə izah edilirdi və bir növ qisas xarakteri daşıyırdı. Çünki Qərb kommunizm kabusundan birdəfəlik qurtulmaq və onun kökünü kəsməkdə son dərəcə israrlı idi.

Lakin nə fransızların Vyetnam, Mərakeş, Əlcəzairdə, nə rusların SSRİ-də yaşayan bütün millətlərə, nə ingilislərin öz müstəmləkələrindəki xalqlara qarşı törətdikləri, nə də Amerika Birləşmiş Ştatlarının Yaponiyanın heç bir günahı olmayan dinc şəhərlərinə – Naqasaki və Hirosimaya atdığı atom bombalarının doğurduğu dəhşətli fəlakətlər yüksək məhkəmələrin, hərbi tribunalların diqqətini özünə cəlb etmədi, müzakirə mövzusuna çevrilmədi.

Türkiyədə baş verənlər isə əslində Türkiyə hökumətinin iradəsinə zidd olaraq törədilmişdi və artıq hamıya bəlli olan bir faktlardır. Və bir daha qeyd etmək lazımdır ki, bu hadisələrin törənmə səbəbinin başında dünyanın böyük dövlətlərinin Yaxın Şərqdəki son dərəcə böyük əhəmiyyət kəsb edən neft maraqları dururdu. Bununla əlaqədar istər-istəməz belə bir sual meydana çıxır: görəsən, iyirminci yüzilliyin əvvəllərində İranda və Mesopotamiyada zəngin neft mənbələri aşkar edilməsəydi və bununla əlaqədar Bağdad dəmir yolunun tikintisi ideyası meydana çıxmasaydı, görəsən Birinci cahan savaşı baş verə bilərdimi? Zənnimizcə, bunun cavabı, çox güman ki, mənfi olardı.

Korsun yazır: "1914-cü ilin sonunda Qafqaz cəbhəsindəki əməliyyat nəticəsində, xüsusilə də 3-cü türk ordusunun Sarıqamış istiqamətindəki məğlubiyyəti nəticəsində bu cəbhədə ümumi götürdükdə ruslar üçün əlverişlı hərbi-siyasi şərait yarandı.





Rusların Türkiyənin əsasən ermənilər yaşayan ərazisinin içərilərinə qədər soxulması, Osmanlı imperiyasından qalmış "irsə" çar Rusiyasının şərikli maraqlarına işarə edən hərbi-siyasi əhəmiyyətdən savayı, bu dövlətin əsas bölgəsi olan Anadoluya və Yaxın Şərqdə alman-türk əməliyyatları üçün böyük strateji əhəmiyyətə malik və almanlar tərəfindən inşa olunan Bağdad dəmir yoluna təhlükə yaradırdı. Eyni zamanda bu təcavüz rusları Mosul neftinə (seçmə mənimdir – *N.Rza*) yaxınlaşdırırdı.

Bundan əlavə, rusların Türkiyənin hüdudlarının içərilərinə nüfuz etməsi, ümumiliklə Güney Qafqazın hüdudlarını və ruslar tərəfindən İranın işğal edilmiş şimal-qərb vilayətlərini, o cümlədən Bakı neft (seçmə mənimdir – *N.Rza*) rayonunu... türklərin hücumlarından mühafizə edərdi"[24].

Beləliklə Mosul və Quzey İran neftinə göz dikən Rusiya, Bakı neftinin də toxunulmazlığının hayında idi. Və bu vəzifəni məhz Qafqaz ordusu yerinə yetirməli idi. Bunu bir daha təsdiq edərək Korsun yazır: "Qafqaz ordusunun qarşısında qoyulmuş sonuncu vəzifə Qafqazın iki əsas kommunikasiya xəttinin mühafizə edilməsi idi: yəni Tiflis – Bakı – Petrovsk* – Rostov dəmir yolu, bir də Hərbi Gürcüstan – Tiflis-Vladiqafqaz yolu. Bura həmçinin, neft mərkəzi – (seçmə mənimdir – *N.Rza*) Bakı şəhərinin də mühafizəsi daxil idi"[25].

Rus komandanlığının Bakı barəsindəki narahatlığı görünür heç də əsassız deyildi.

1915-ci ilin fevralında ingilis-fransız qüvvələri İstanbulu ələ keçirmək məqsədilə geniş əməliyyata başladılar. Odur ki, türklər öz əsas qüvvələrini Bosfor və Dardanel boğazları rayonunda cəmləşdirmək məcburiyyətində qaldılar. Belə olduqda alman-türk komandanlığı qərara gəldi ki, Sarıqamış əməliyyatında böyük itkilərə məruz qaldıqdan sonra öz qüvvələrini yenidən bərpa edən 3-cü türk ordusunun mövcud imkanları sayəsində Qafqaz cəbhəsinin əsas istiqamətlərində müdafiə taktikasına keçməklə, rusların yenidən hücuma keçmək cəhdlərinin qarşısını alsın. Eyni

* Mahaç-Qala.

zamanda, rus komandanlığının dıqqətini türklərin ön cəbhəsindən, yəni Ərzurum istıqamətindən yayındırmaq üçün türk komandanlığı taktiki gedişlərə də əl atmaq istəyində bulundu. Bunun üçün yaranmış əlverişli vəziyyətdən istifadə edərək, İranın şimal-qərbində məskunlaşmış kürd əhalisinin köməyilə hərbi əməliyyata başlamaq qərarına gəldi. Uğurlu olacağı təqdirdə, o nəinki Qafqaz ordusunun mərkəzinə və sol cinahına, ən əsası isə Bakı neft rayonuna ciddi təhlükə yarada bilərdi. Bununla da rusların Türkiyənın yerli erməni əhalisindən istifadə edərək Mosul neftinə yaxınlaşdığı bir zamanda, türklər də kürdlərdən istıfadə edərək Rusiyanın əsas neft bazası olan Bakı neftinə yaxınlaşmış olardılar.

Beləliklə rusların hərbi əməliyyatda rəqib tərəfin yerli əhalisindən istifadə etmək taktikası, bir növ bumeranq* rolunu oynadı. Və Rusiyanın özü üçün də böyük problemlərin yaranmasına gətırib çıxardı. Lakin bu, hələ başlanğıc idı. Əsas hadısələr qabaqda idi.

* Ağacdan hazırlanmış oraq formalı silah. Atıldıqda havada əyri xətt cızır, sonra yenidən onu atan adama qayıdır. Avstraliyada, Cənub-Şərqi Asiyada, Cənubi Hindistanda, Meksikada, Qədim Misirdə geniş yayılmışdı.



## XX fəsil

# RUSİYANIN TÜRKİYƏ SİYASƏTİNDƏ ERMƏNİ QİYAMI və ONUN NƏTİCƏLƏRİ

**1915**-ci il aprelin əvvəllərində Türkiyə ermənilən müharibənin qızğın çağında hökumət əleyhinə silahlı üsyana qalxdılar. Van gölü ətrafındakı ərazilərdə baş vermiş bu üsyanın əsas təşkilatçısı və ilhamvericisi Rusiya hökumətinin olması heç kimdə şəkk-şübhə doğurmurdu. Lakin maraqlıdır ki, Türkiyənin erməni əhalisinin Güney Qafqaz hüdudlarına köç etməsi bir qədər əvvəl baş vermişdi. Korsun bu münasibətlə yazır: "Qafqaz cəbhəsində imperialist müharibəsinin başlanması ilə Rusiya ilə sərhəddi olan Türkiyə ərazisinin erməni əhalisinin bir hissəsi Güney Qafqaza qaçdı, digər hissəsi isə kürdlər tərəfindən qırıldı. 1915-ci ilin əvvəlində "Türkiyə Ermənistanı"nın müharibənin hələ toxunmadığı Van və Muş şəhərləri kimi əsas mərkəzlərinin əhalisi (ermənilər nəzərdə tutulur – *N.Rza*) öz yerlərində qaldı və ruslara açıq-aydın rəğbət göstərməklə, hadisələrin sonrakı inkişafını gözləməyə başladı. Həmin əhval-ruhiyyə Haqqari adlı dağlıq vilayətin əhalisi arasında da müşahidə olunurdu. "Türkiyə Ermənistanı"nın çoxsaylı kürd əhalisi də rusların Sarıqamış əməliyyatındakı müvəffəqiyyəti nəticəsində bəzi arxa cəbhə rayonlarında gözləmə mövqeyi tutdular. Lakin Rusiya ilə həmsərhəd bölgələrdə türk qoşunlarının təzyiqi ilə onları müdafiə etmək məqsədilə süvari dəstələri çıxarmağa məcbur oldular.

Münasib siyasi hazırlıq olduqda və üsyan məqamı nəzərə alındıqda, rus komandanlığı Qafqaz ordusunun əməliyyatlarına nəinki ermənilərin və aysorilərin, hətta bəzi vilayətlərin kürd əhalisinin, misal üçün qızılbaş kürdlərin... yardımına bel bağlaya bilərdi"[1].

Beləliklə hələ heç bir səbəb olmadan, yəni müharibənin ağrı-acısını dadmadan, Türkiyənin erməni əhalisi artıq Rusiyanın birbaşa təhriki ilə gələcək faciələrin fəal iştirakçısına çevrilirdi.

Erməni müəllifi A.Lalayan yazır: "1914-1918-ci illər müharibəsindən hələ xeyli əvvəl "Daşnaksütyun" partiyası Türkiyənin bir

hissəsini tutmaq və özünün "dənizdən-dənizə Böyük Ermənistan" şüarını həyata keçirmək arzusunda idi. Bununla da həm Güney Qafqazın özündə, həm də xaricdə yaşayan iri erməni ticarət-sənaye burjuaziyası üçün bazar yaratmağa can atırdı. Daşnak quldurlarının fikrincə, olduqca vaxtında baş vermiş imperialist müharibəsi, "erməni məsələsi"nin həllində, erməni kapitalı üçün "əlverişli mövqe" ələ keçirməkdə bir vasitə olmalı idi"[2].

Müəllif "Daşnaksütyun" partiyasının xarici işlər müvəkkili Zavriyevin 1915-ci ildə çar Rusiyasının London və Parisdəki səfirlərinə ünvanladığı, çar və Müvəqqəti hökumətlərin arxivindən tapdığı məktubları[3] oxucuların nəzərinə çatdırır. Orada deyilir: "İndiki müharibənin elə ilk günlərindən Rusiya erməniləri Türkiyənin savaşa cəlb edilməsini gözləyirdilər. Bu ümid etməyə imkan verirdi ki, "erməni məsələsi" yenə də növbəyə qoyulacaq və lazımi qaydada həll ediləcək*. Ona görə ermənilər (!) vaxtı çatmaqda olan hadisələrə etinasız yanaşa bilməzdilər. Odur ki, onlar bu işlərdə qızğın iştirak edirlər"[4].

1914-cü ilin payızından 1915-ci ilin sonuna qədər "Daşnaksütyun", 10.000 nəfər[5] könüllü təşkil edib Türkiyəyə qarşı vuruşmağa yeritdi.

1915-ci ilin əvvəlində "Hnçak" partiyası Kilikiya ermənilərindən təşkil edilmiş 15.000 döyüşçü dəstəsini Qafqaz ordusu komandanlığının sərəncamına verməyi öhdəsinə götürür[6].

Bununla əlaqədar Vorontsov-Daşkov 1915-ci il fevralın 20-də teleqraf vasitəsilə Rusiyanın Xarici işlər nazirinə belə bir məlumat göndərir: "Hazırda Qafqaz ordusunun qərargahına Zeytun ermənilərinin nümayəndəsi gəldi və bəyan etdi ki, 15.000 erməni, türk mövqelərinə hücum etməyə hazırdır. Lakin tüfəng və patronları yoxdur. Zeytunun, türklərin Ərzurum ordusunun yolu yaxınlığında yerləşdiyinə görə lazımi miqdarda tüfəng və patronun Aleksandrettaya (indiki İskəndərun – *N.Rza*) çatdırılması son dərəcə yaxşı olardı. Ermənilər onları oradan götürəcəklər..."[7].

A.Lalayan hələ müharibədən xeyli əvvəl, ermənilərin Türkiyəyə qarşı fitnəkar fəaliyyətdə bulunduqlarını açıqlayaraq yazır:

* Seçmə – məqalə müəllifi A.Lalayana məxsusdur – *N.Rza.*





"1912-ci ildə "Daşnaksütyun" partiyası tərəfindən təşkil edilmiş üzdəniraq "Erməni milli bürosu" (seçmə A.Lalayana məxsusdur – *N.Rza*) 1914-cü il imperialist müharibəsi ərəfəsində ermənilərin çar Rusiyası tərəfində fəal müharibəyə cəlb edilməsi üçün geniş kampaniyaya başlamışdı. "Milli büro"nun tərkibi belə idi: yepiskop Mesrop – Tiflis erməni burjuaziyasının başçısı və çarın Qafqazdakı canişini Vorontsov-Daşkovun arvadının oynaşı, "Daşnaksütyun" partiyasının fəal xadimi, sonra məşhur Al.Xatisov – erməni xalqının cəlladı, 1918-1920-ci illərdə daşnak hökumətinin başçısı, doktor Zavriyev – "Daşnaksütyun"un xarici işlər müvəkkili, Samson Arutyunov, Xmbapet* Dro, sonralar "Daşnaksütyun"un hərbi diktatoru və avantürist Andranik[8].

"Milli büro" adları göstərilən tərkibdə işə başlayır. İlk növbədə o, bütün ermənilərin "qüdrətli"** katolikosu V Gevorka müraciət edib, çar Nikolaya çatdırmağı xahiş edir ki, ermənilər "onun sədaqətli övladlarıdır" və çardan xahiş etsin ki, Türkiyə ərazisində yaşayan "qardaşlarımızın iztirablarına"*** son qoysun"[9].

Bütün ermənilərin katolikosu V Gevork "Milli büro"nun və "Daşnaksütyun"un xahişini yerinə yetirdi və 1914-cü ilin avqustunda xahişlə müraciət etdi. Orada deyilirdi: "Müharibə başa çatdığı təqdirdə, Rusiya, "Türkiyə Ermənistanı"nın ərazisini ermənilər üçün təmin etsin və muxtariyyət özünüidarəçiliyi isə Rusiyanın protektoratlığı altında olsun"[10].

Cavab məktubunda Vorontsov-Daşkov katolikosu əmin edirdi: "Rusiya ermənilərin tələblərini müdafiə edəcək..."[11]

Ermənilərin arzusu baş tutdu. 1914-cü ilin noyabrında Tiflisə təşrif gətirən çar II Nikolay bütün ermənilərin katolikosunu qəbul edərək, 15 dəqiqəlik fikir mübadiləsindən sonra onu əmin etdi ki, "erməni məsələsi" müharibə başa çatdıqdan sonra, sülh haqqında danışıqlar zamanı ermənilərin istədiklərinə uyğun olaraq həll ediləcəkdir"[12].

* Xmbapet – A.Lalayanın açıqlamasına görə, daşnakların silahlı quldur guruhunun başçısı. Özünün qanlı "şücaətlərilə" məşhur olan şəxs.

** Dırnaq işarəsi A.Lalayana məxsusdur.

*** Dırnaq işarəsi A.Lalayana məxsusdur.



1914-cü ilin noyabrında çar II Nikolay Tiflisə təşrif buyurdu

Zavallı Nikolay o zaman heç ağlına da gətirməzdi ki, az bir müddətdən sonra nəinki onun özünün və ailəsinin, hətta 300 illik tarixə malik Romanovlar sülaləsinin və Rusiya imperiyasının taleyi bolşeviklər tərəfindən birdəfəlik həll ediləcəkdir. Hələlik isə onu Rusiyanın maraqları naminə qondarma "erməni məsələsi" daha çox düşündürürdü. Odur ki, ermənilərdən yetərincə istifadə etmək üçün onların istəklərinə uyğun bolluca vədlər verməkdən belə çəkinmirdi.

Rusiyanın hamıya bəlli olan əsl niyyətini bir daha diqqətə çəkən erməni tarixçisi Lalayan yazır: "Dardanel və Bosforu ələ keçirməklə çar hökuməti kazakları orada yerləşdirmək yolu ilə Şərqi Anadolu vilayətlərində özünə dayaq yaratmış olar, özünə Aralıq dənizinə çıxışı və s. təmin edə bilərdi. Türkiyə ermənilərinin "azad edilməsi" məsələsi isə bir pərdə idi. Onun örtüyü arxasından çarizm "Daşnaksütyun"un və digər əksinqilabi erməni təşkilatlarının köməyilə öz imperialist planlarını həyata keçirirdi"[13].





Halbuki hələ 1895-1896-cı illərdə Rusiyanın xarici işlər naziri olmuş, tanınmış rus diplomatı knyaz Lobanov-Rostovski Sasunda* baş vermiş hadisələrə münasibət bildirərkən, çarın erməni məsələsinə dair planına işarə vuraraq tamamilə birmənalı şəkildə demişdi: "çarizmə ermənilərsiz Ermənistan** lazımdır".

Lalayan çar nazirinin bu açıqlamasını belə şərh edir: "Burada o, (Lobanov-Rostovski nəzərdə tutulur – *N.Rza*) "Türkiyə Ermənistanı"nı, ermənilərin özlərinin fiziki olaraq qırılması və orada kazak qəsəbələrinin salınması və kazak dəstələrinin yaradılması hesabına işğal edilməsini nəzərdə tuturdu"[14].

Maraqlıdır ki, xeyli vaxt ötməsinə baxmayaraq, Vorontsov-Daşkov 1912-ci il oktyabrın 10-da çar II Nikolaya göndərdiyi məktubda Sasun hadisələrinə və onlara qarşı münasibətdə Lobanov-Rostovskinin mövqeyinə toxunaraq, onun erməni məsələsində Birinci Pyotrun vəsiyyətlərindən uzaqlaşmasının yolverilməz olduğunu bildirirdi. O yazırdı: "Yalnız ötən əsrin*** 90-cı illərində Rusiyanın ermənilərlə münasibətdə bu köhnə siyasəti Sasun qırğını vaxtı kəskin surətdə dəyişdi, o zaman ermənilər Türkiyə qarşısında havadar olmaq barədə Lobanov-Rostovskidən qəti olaraq rədd cavabı almışdılar. Əlahəzrətə yaxşı məlumdur ki, siyasətimizin belə dəyişməsi hansı acınacaqlı nəticələrə gətirib çıxardı..."[15]

Şübhəsiz ki, ermənilərdən çar Rusiyasının maraqları naminə yenidən istifadə etmək niyyəti, bu məktubun yazılmasının əsas səbəblərindən biri idi. Zira aydındır ki, ermənilərə havadarlıq məsələsində Lobanov-Rostovskinin nümayiş etdirdiyi mövqe onun təkcə şəxsi mövqeyi deyil, ilk növbədə mövcud şəraitə uyğun olaraq, Rusiya hökumətinin öz maraqları naminə həyata keçirdiyi siyasi mövqe kimi qiymətləndirilməlidir. "Erməni məsələsi" isə, həmişə olduğu kimi, bir vasitə, bir alət rolunu oynayırdı. Sonrakı tarixi hadisələr dəfələrlə göstərdi ki, ermənilər bu rolu zaman-zaman dəfələrlə oynamışdılar və yenə də oynamağa məhkum idilər.

---

* Sasun – Türkiyədə Van gölünün cənub-qərbində yer adıdır

** Türkiyədə ermənilər yaşayan ərazi nəzərdə tutulur

*** 19-cu yüzillik nəzərdə tutulur.

Ermənilərə qarşı loyal münasibətinə haqq qazandırmaq, digər tərəfdən onlardan növbəti dəfə bir alət kimi istifadə etməyin vacibliyini vurğulamaq məqsədilə Qafqaz canişini həmin məktubda daha sonra yazırdı: "Əlahəzrət, düşünürəm ki, indi Türkiyə ermənilərinə havadarlıq etmək kimi əski rus siyasətinə qayıtmağın vaxtı yetişib. Odur ki, inadla yalnız elə formalar axtarıb tapmaq lazımdır ki, onlar hazırkı zamana uyğun gəlmiş olsun. Mənim son dərəcə fikrim belədir ki, biz, ermənilərin kürdlər tərəfindən təhlükəsizliyinin təmin edilməsi barədə Berlin traktatına istinad edərək, Portaya* qəti bəyanat verməliyik"[16].

Daha sonra Qafqaz canişini özünün erməni "qayğıkeşliyinin" əsl səbəbinin nədən ibarət olduğunu öz hökmdarına çatdırmağa tələsir. O yazır: "Mənim fikrimcə, ermənilərə himayədarlıq etmək təşəbbüsünü öz əlimizdən buraxmaq olmaz. Halbuki, qəzetlərdə bəzi erməni siyasətbazlarının Avstriyanın müdaxilə etməsi barədə qraf Bertholda, bəlkə də yalan olan bir müraciəti haqqında məlumat daxil olub. Əgər biz bu təşəbbüsü üstümüzə götürməsəydik, o zaman o, başqa böyük dövlət tərəfindən meydana gələ bilərdi. Bu da Kiçik Asiya xaçpərəstləri arasında Rusiyanın nüfuzuna düzəldilməsi mümkün olmayan zərər vurmuş olardı..."[17]

Təbii ki, Rusiyanın hakimiyyət dairələrində erməni siyasətbazlarının, necə deyərlər, dönük təbiətindən yaxşı məlumatlı idilər. Öz şovinist planlarını həyata keçirmək yolunda ermənilərin istənilən ağaya baş əymək vərdişi siyasi dairələrə yaxşı bəlli idi.

Belə ki, Birinci cahan savaşı başladıqda həm Antanta, həm də "Üçlər ittifaqı"** ermənilərin "taleyi" ilə məşğul olmağa başladılar. Onlar gözəl başa düşürdülər ki, istər Güney Qafqazda, istərsə də Türkiyədə yaşayan ermənilər, lazım gəldikdə son dərəcə gərəkli ola bilərdilər. Hətta İosif Stalin də bu məsələyə münasibət bildirərkən demişdi: "Erməni məsələsi" adlanan bu problem üzərində imperialist diplomatiyasının qoca canavarları əbəs yerə baş sındırırdılar..."[18]

---

* Porta – Osmanlı imperiyasının hökuməti Avropada bir çox hallarda belə adlanırdı.

** Almaniya, Avstriya – Macarıstan və Türkiyə.





Rusiyanın hakimiyyət dairələrini ən çox əndişələndirən də məhz elə erməni "başbılənlərinin" onların öz təcavüzkar niyyətlərinin həyata keçirilməsini təmin edə biləcək istənilən tərəfə satıla bilmək bacarığı idi.

Odur ki, erməniləri əldə saxlamaq üçün çar hökuməti tələsməli idi. Çünki əks təqdirdə onlar hətta müxalif tərəfə, yəni "Üçlər ittifaqı"na tərəf də yuvarlana bilərdilər. Xüsusilə Almaniya erməniləri öz tərəfinə çəkmək və istifadə etmək məsələsində son dərəcə israrlı idi. Türkiyə də öz növbəsində manifest verməklə Rusiya ermənilərinə Rusiya imperiyası hüdudları daxilində muxtariyyət istəməklə, Türkiyədə isə islahatlar yolu ilə ermənilərin vəziyyətini xeyli yaxşılaşdıra bilərdi. Bununla da ermənilərin arasında rus amilinə qarşı ciddi zərbə vurmuş olardı. Bu da öz növbəsində rus ordusunun Türkiyə ərazisindəki fəaliyyətini xeyli çətinləşdirərdi. Təbii ki, belə perspektiv Mosul neftinə və Bağdad dəmir yoluna can atan Rusiyanı heç cür razı sala bilməzdi. Odur ki, "Daşnaksütyun" partiyası ilə tezliklə razılıq əldə edildi.

Dörd maddədən ibarət olan bu razılığa əsasən Şərqi Anadoluda Türkiyənin altı vilayəti və Kilikiya əsasında Ermənistan "muxtariyyəti" yaradılmalı idi. Ermənilər həm də Mersin limanı vasitəsilə Aralıq dənizinə sərbəst çıxış imkanı da əldə edirdilər.

Lalayan bunu belə izah edir: "Beləliklə "Erməni məsələsi" üzrə bu razılığın mənası, Türkiyə imperiyası hüdudlarında "muxtar" Ermənistan yaratmaqdan ibarətdir. Belə ki, bu "muxtariyyət" pərdəsi altında çarizm Türkiyənin bir sıra rayonlarını öz əlinə alsın və Lobanov-Rostovskinin ədəbsiz bir formul ilə ifadə etmiş olduğu "ermənilərsiz Ermənistan əldə etmək" ideyasını həyata keçirsin"[19].

Fəqət Rusiyanın neft qoxusu gələn bu niyyəti heç də öz müttəfiqlərinin strateji maraqları ilə üst-üstə düşmürdü. Məsələn, Fransanın Kilikiyada öz maraqları vardı. Böyük Britaniyanın maraqları isə çoxdan bəlli idi. Odur ki, "Petroqradda rus-daşnak danışıqları qurtardıqdan dərhal sonra, Rusiya xarici işlər nazirliyi daşnaklara "məsləhət" görür ki, "erməni məsələsi"nin həlli üzrə hazırlanmış layihəni Ingiltərə və Fransa hökumətləri qarşısında onlar özləri (yəni daşnaklar – *N. Rza*) müdafiə etsinlər"[20].



Çar II Nikolay təntənəli nümayişdə

Lakin Rusiya hökumətinin ciddi səylərinə baxmayaraq, belə bir məqsədlə adları çəkilən ölkələrə göndərilmiş "Daşnaksütyun"un xarici işlər müvəkkili Zavriyevin missiyası uğursuzluqla nəticələndi. Onun Kilikiyanı gələcək "muxtariyyətin" tərkibinə qatmaq yalvarışına rəsmi Parisin cavabı birmənalı idi: "Kılikiyada fransız maraqları hökmran olduğuna görə, biz belə mövqeyi müdafiə edə bilmərik"[21].

Bu ilk növbədə Rusiya hökumətinə verilmiş cavab kimi qiymətləndirilməlidir. Çünkı üzdəniraq "erməni məsələsi" pərdəsi altında onun həyata keçirmək istədiyi niyyətlər müttəfiqlərə də yaxşı məlum idi.

Rusiya hökumətinin niyyəti yüksək mənsəb sahiblərinin məktublarında da öz əksini tapırdı. Rus ordusunun Qafqaz cəbhəsindəki qələbələrindən ruhlanan yer quruluşu və əkinçilik idarəsinin rəisi Krivoşein 1915-ci il fevralın 15-də öz məktubunda yazırdı: "Türkiyə cəbhəsində bizim hərbi əməliyyatların uğurlu inkişafı söyləməyə əsas verir ki, yaxın gələcəkdə Qafqazın sərhəddinin yenidən müəyyənləşdirilməsi, Kiçik Asiya və Ermənistanda bizim torpaqlarımızın tamamlanması mümkün olacaqdır. Ərzurum və Van vilayətləri rus köçkünlərini köçürmək üçün olduqca geniş imkanlara malikdir"[22].





1915-ci il aprelin 5-də Qafqaz canişininə göndərdiyi məktubda Qafqaz ordusunun komandanı general Yudeniç isə yazırdı: "Ermənilər kürdlərin və türklərin tərk etdikləri torpaqları istismar etmək üçün orada erməni qaçqınlarını yerləşdirmək niyyətindədirlər. Bu... hesab edirəm ki, qəbuledilməzdir. Çünki müharibədən sonra ermənilərin zəbt etdikləri torpaqları geri almaq və yaxud zəbt etdikləri torpaqların onlara məxsus olmadığını sübut etmək mümkün olmayacaq. Odur ki, sərhəd ərazilərinin rus elementləri ilə məskunlaşdırılması son dərəcə faydalı olardı. Ələşkirt, Diadin, Bəyazit vadıləri Rusiya imperiyasının sərhədləri hüdudlarına daxil olduqda, bu torpaqları Kuban və Don köçkünləri ilə məskunlaşdırmaq vacibdir. Beləliklə də sərhəd kazaklarını təşkil etmək lazımdır"[23].

Yudeniçin nöqteyi-nəzəri Petroqradın da yürütdüyü siyasətlə üst-üstə düşürdü. Hətta ermənilərin həyasızlığını nəhayət ki, dərk edən Vorontsov-Daşkov da onunla razılaşmalı oldu.

Lakin erməni iştahasının sonsuzluğu hələ 1914-cü ilin sonlarından etibarən bütün iyrəncliyi ilə özünü göstərməyə başlamışdı. Bu təkcə əraziləri zəbt etməklə qurtarmırdı. Ən dəhşətlisi yerli türk əhalisinə, həm də dinc əhaliyə qarşı onların törətdikləri misli görünməyən vəhşiliklər idi. Elə vəhşiliklər ki, hətta onların himayədarlarını da dəhşətə gətirirdi. Fəqət bu barədə bir qədər sonra.

Ermənilərin ipə-sapa yatmamaları, olmazın özbaşınalıqları artıq 1914-cü ilin sonlarında hakimiyyəti, erməni qaçqınlarının Tiflisə və Tiflis qubemiyasına daxil olmalarına qadağa qoymağa məcbur etdi. Jandarm polkovniki Pastryulinin sözlərinə görə, "qaçqınları qovmaq üçün zor tətbiq edirdilər, könüllü getmək istəməyənləri isə "qırmancla qovurdular""[24].

Erməni tarixçisi yazır: "Daşnaksütyunun 1914-1918-ci illərdəki imperialist müharibəsində iştirakı mürtəce və xalqa zidd xarakter daşıyırdı. Müharibədə iştirakı ilə "Daşnaksütyun" yalnız erməni burjuaziyasının iradəsini ifadə etdi və çarizmə, ingilis-fransız, habelə Amerika imperializminə nökərçilik xidməti göstərmiş oldu..."[25]

Daşnakların Türkiyə ərazisində törətdikləri vəhşiliklərə münasibət bildirən müəllif daha sonra yazır: "...Daşnak dəstələri başda qana susamış xmbapetlər (Andranik, Hamazasp və başqaları) olmaqla türk qadınlarını və uşaqlarını, qocaları və xəstələri qırmaqda maksimum "qoçaqlıq" nümayiş etdirirdilər. Daşnakların ələ keçirdikləri türk kəndləri canlı insanlardan "təmizlənir", eybəcər hala salınmış insan cəsədləri ilə doldurulmuş xarabalıqlara çevrilirdilər"[26].

Lalayan daşnaklara xas olan ölüm "dəst-xətti"nin nədən ibarət olduğunu da konkret faktlar əsasında üzə çıxarır. Dəhşətli hadisələrin fəal iştirakçılarından birinin, öz "qəhrəmanlıqları" barədə söylədikləri xatirələrin bir çoxu onun "əsərində" təsvir olunub. Daşnak quldurU öz igidliyini belə təsvir edir: "Heç nəyə məhəl qoymadan Basarkeçərdə türk əhalisini məhv etdim. Lakin bəzən gülləyə adamın heyfi gəlir. Bu köpəklərə qarşı ən düzgün çarə odur ki, döyüşdən sonra salamat qalanları toplamaq, sonra da quyuları onlarla doldurub, üstündən də ağır daşlar töküb öldürmək. Belə ki, onlar bir daha yer üzündə görünməsinlər. Mən belə də etdim: bütün kişiləri, qadınları və uşaqları topladım, sonra onları tulladığım quyuları daşla doldurub, axırlarına çıxdım..."[27]

Tükürpərdən belə faktlardan çox söyləmək olar. Fəqət geniş miqyasda götürdükdə, bu başqa bir mühüm söhbətin mövzusudur. Bizim qarşıya qoyduğumuz məqsəd isə tamamilə başqadır. Neft uğrunda gedən mübarizənin iyirminci yüzilliyin əvvəllərindən etibarən dünya dövlətləri arasında hərbi-siyasi qarşıdurmaya çevrilməsi və bu ölüm-dirim mübarizəsində ən müxtəlif, hətta ən ağlasığmaz vasitələrdən, üsullardan istifadə edilməsinin imkanları və pespektivlərinin işıqlandırılmasıdır. "Erməni məsələsi" yuxarıda da qeyd etdiyimiz kimi, belə vasitələrdən biri idi. Özü də son





dərəcə nadir bir vasitə, elə bir vasitə ki, Mosul neftinə can atan bütün dövlətlər üçün demək olar ki, eyni dərəcədə əlverişli idi. Əlbəttə, Türkiyə istisna olmaqla. Çünki, bildiyimiz kimi, Mosul Osmanlı sultanlığına daxil olan ərazidə – Mesopotamiyada yerləşirdi. Türkiyə hökumətinin isə öz maraqları vardı. Və neftə söykənən bu maraqlar, təbii ki, "erməni məsələsi"nin qızışdırılmasında heç cür maraqlı ola bilməzdi. Əksinə, buna qarşı idi. Fəqət, heç də hər şey Türkiyədən asılı deyildi. Süni olaraq ona zorla sırınmış bu problemə, öz milli təhlükəsizliyi baxımından qəti münasibətini bildirməliydi. Və haqlı olaraq bildirdi də.

Korsun yazır: "...Hərbi əməliyyatlar başlayan kimi, ermənilər kütləvi şəkildə türk ordusuna çağırışdan imtina edir, hərbi mükəlləfiyyətdən boyun qaçırırdılar. Səfərbərliyə alınmış Türkiyə ermənilərinin loyallığı olduqca şübhəli idi. Bunun nəticəsində, 1915-ci il 2 iyun tarixli dekretə əsasən sultan hökuməti səfərbərliyə alınmış erməniləri döyüşən ordudan kənarlaşdırıb, fəhlə batalyonlarına göndərdi"[28].

Rus ordusunun Türkiyə hüdudlarına soxulmasından ruhlanan daşnak dəstələrinin vəhşilikləri, hökuməti milli təhlükəsizlik naminə ölkənin cəbhə bölgələrində məskunlaşmış erməni əhalisini başqa yerlərə köçürməyə məcbur etdi. Korsun yazır: "Bu tədbirlərin həyata keçirilməsi 1915-ci ildə başlandı və iki ilə qədər çəkdi. Köçürülənlər öz əmlakları və mal-qarasını da götürürdülər. Türk jandarmları onları müşayiət edirdilər...

Qeyd etdiyimiz dövrdə bir milyona yaxın adam köçürüldü. Hərbi orqanlar və türk əhalisi köçürülənlərə münasibətdə özlərini nəzakətli aparırdılar. Lakin əhalisi kürd olan rayonlarda, jandarmların səhlənkarlığı nəticəsində, bəzən döyülmələrə məruz qalırdılar"[29].

Ermənilər, əsasən Hələb və Diyarbəkir şəhərlərinə köçürülmüşdülər. Korsun daha sonra qeyd edir: "Köçürmə 3-cü türk ordusunu erməni əsilli məmurlardan, mütəxəssislərdən və fəhlələrdən məhrum etdi. Köçürmə, həm də xeyli rayonu ermənilərin sərəncamında olan böyük ərzaq ehtiyatlarından da məhrum etmiş oldu. Kürdləri isə boşalmış rayonların mütləq sahibinə çevirdi"[30].

1915-ci il martın əvvəllərində Eçmiədzində erməni millətçilərinin qurultayı keçirildi. Qurultayın qəbul etdiyi qərardakı tələblər bir-birindən cəfəng, bir-birindən iddialı idi. Xüsusilə də bütün ermənilərin birləşdirilməsi haqqında olan maddə.

Basilaya bu barədə yazır: "Qərarın bütün ermənilərin birləşdirilməsi haqqında olan maddəsində çarizm, erməni dövləti yaradılarsa, onun tərkibində nəinki Türkiyənin erməni vilayətlərinin, həmçinin Rusiya imperiyasının ermənilər məskunlaşan hissəsinin də qatılmasına iddia olduğunu görməyə bilməzdi. Bu, nəinki daşnaklara, həmçinin "Türkiyə Ermənistanı"ndan olan qaçqınlara qarşı da inzibati cəza tədbirlərinin güclənməsi ilə nəticələndi. Öz tərəfindən daşnak mətbuatı da buna qarşılıqlı ittihamlarla öz münasibətini bildirdi"[31].


Eçmıədzin

Rusların Türkiyə ərazisində təşkil etdikləri erməni qiyamına cavab tədbiri kimi çox güman ki, Türkiyə də öz növbəsində Rusiya ərazisində analoji fəaliyyətə başlamaq fikrinə düşmüş olardı. Çünki bunun üçün imkanlar yetərincə idi. Korsun bu məsələyə diqqət çəkərək yazır: "Ələşkırt əməliyyatının inkişaf etdirilməsi ilə əlaqədar olaraq türklər də öz növbəsində rusların arxasında üsyan hazırlayırdılar. Yelisavetpol (Gəncə – *N.Rza*) şəhəri rayonundan hələ 1915-ci ilin aprelində Qafqaz cəbhəsindəki türk komandanlığına Arslanxan adlı bir başçı gəldi və üsyanın əsas məqamlarına alman-türk nöqteyi-nəzərini aydınlaşdırmaq istəyində olduğunu bildirdi. Belə ki, üsyanda böyük qüvvələrin imkanlarına ümid etmək mümkün olsun. Lakin Ələşkırt istiqamətində alman-türk komandanlığı üçün əlverişsiz şəraitin yaranması ilə əlaqədar üsyan təxirə salındı"[32].

Bu hadisə də daxil olmaqla, alman-türk komandanlığının rusların arxasında həyata keçirmək istədikləri üsyan cəhdləri, görünür





çar hökumətini ermənilərə münasibətdə müəyyən məsafə saxlamağa və daha ehtiyatlı olmağa vadar edən amillərdən biri idi.

Hətta almanlar Trapezund (Trabzon) rayonunda yerli laz əhalisindən legion hazırlayıb sonradan Güney Qafqazın qərbində üsyan vaxtı üsyanın əsas özəyi kimi istifadə etməyi planlaşdırırdılar. Legionun hazırlanması 1915-ci ilin avqustunda Ərzuruma gələn alman polkovniki qraf Şulenburqa həvalə olunmuşdu.

Bu hazırlığa xeyli vaxt sərf olundu. Çünki çoxlu sayda mürəkkəb məsələləri həll eləmək tələb olunurdu[33].

Hər halda 1915-ci ilin avqustunda rusların Van rayonunda geri çəkilməsi ermənilərə baha başa gəldi. Ermənilər bunu qərəzli və riyakar bir addım kimi qiymətləndirdilər. Rus komandanlığı bunu müvəqqəti və məcburi geriçəkilmə kimi qələmə versə də, daşnaklar başqa fikirdə idilər.

Onların deməyinə görə guya "rus hərbi başçıları Vandan qəsdən və ehtiyac olmadan ona görə qəfildən geri çəkildilər ki, erməni əhalisini kürdlərin qırğınına məruz qoysunlar və müstəqil Ermənistan haqqındakı söhbətlərə həmişəlik son qoysunlar, daha doğrusu "ermənilərsiz Ermənistan" yaratsınlar"[34].

Ruslar bu fikirləri təkzib etsələr də, ermənilərin söylədiklərini də qəribçiliyə salmaq olmaz. Çünki Rusiya tarixi belə hadisələrlə son dərəcə zəngindir.

Beləliklə, ermənilərin Türkiyə ərazisində muxtariyyət yaratmaq cəhdləri iflasa uğradı. Əksinə, zaman-zaman, lazım gəldikdə ruslar ermənilərin cilovunu yığmağı da bacarırdılar. Məsələn, 1914-cü ilin dekabrında türk ordusunun Sarıqamış istiqamətində hücumu başlayarkən, Qafqaz komandanlığı, özlərini müdafiə məqsədilə Yelisavetpol (Gəncə – *N.Rza*) quberniyasında yaşayan ermənilərin silahlandırılmasına icazə vermişdi. Lakin hərbi əməliyyatlar rus ordusu üçün uğurla nəticələndikdən sonra, yerli hakimiyyət elan etdi ki, bundan sonra ermənilərin silahlandırılmasına heç bir ehtiyac yoxdur və onlara verilmiş silahlar geri qaytarılmalıdır[35].

Əlbəttə, "özünü müdafiə" məsələsinə gəldikdə, bu əsl həqiqətə bir o qədər də uyğun gəlmir. Çünki türk ordusu rus ordusuna

qarşı döyüşürdü, ermənilərə qarşı yox. Xüsusilə də Yelisavetpol quberniyasında. Sadəcə olaraq, rus komandanlığının əsl məqsədi türk ordusunun uğurlu əməliyyat nəticəsində Qafqaz hüdudlarına, o cümlədən də Yelisavetpol quberniyası ərazisinə girəcəyi təqdirdə, ermənilərdən silahlı qüvvə kimi istifadə etmək idi.

Görünür, ermənilərin 1915-ci ilin martında Eçmiədzində qəbul etdikləri "bütün ermənilərin birləşdirilməsi" haqqındakı məlum qərar Rusiyanın rəsmi dairələrini xeyli ayıq olmağa və ermənilərə həddindən artıq əl-qol açmağa imkan verməməyə vadar etmişdi.

"Daşnaksütyun" da öz növbəsində ermənilərə, rusların onlara payladığı silahları geri qaytarmamağa çağırdı. Və əksinə, Rusiyanın muxtariyyət barədə öz öhdəliyini yerinə yetirmədiyi halda, onları rus hakimiyyətinə qarşı silahlı mübarizəyə qalxmağı tövsiyə etdi.

Eyni zamanda daşnaklar İngiltərə və Fransaya tərəf istiqamət götürməyə başladılar. Qafqaz canişini dəftərxanasının xüsusi şöbəsinə hətta gizli məlumatlar daxil oldu ki, orada ermənilərin Rusiya hesabına silahlanaraq, ona qarşı mübarizəyə qalxmaq niyyətləri var. Həmin məlumatlarda erməni əhalisinin gizli silahlanması barədə konkret faktlar da göstərilmişdi. Nəticədə Şuşada xeyli döyüş sursatı toplanmış gizli anbar, habelə daşnaklar tərəfindən yaradılmış patron və partladıcı maddə hazırlayan emalatxana aşkar edildi.

Erməni əhalisinin silahlanma coğrafiyası son dərəcə geniş idi. Bura Qars və Batum vilayətləri, Yelisavetpol, Tiflis, Bakı, Kutaisi quberniyaları, Zaqatala dairəsi və Bakı şəhər rəisinin tabeliyində olan ərazi daxil idi.

Ərzurum ələ keçirildikdən sonra Rusiya hökuməti ermənilərin orada məskunlaşmasını qadağan edən əmr verdi. Ərzurumun alınması münasibətilə erməni yepiskopu Mesropun təbrik teleqramına Qafqaz canişini Nikolay Romanovun cavabı çox-çox mətləblərdən xəbər verirdi. Orada canişin birmənalı olaraq daşnakların nəzərinə çatdırırdı ki, Rusiya Ərzurumu özünə "möhkəm" birləşdirməlidir[36].





Beləliklə, zaman keçdikcə erməni daşnaklarının "dənizdən dənizə Böyük Ermənistan" yaratmaq cəhdlərinin əbəs olduğu aydınlaşdı və məlum oldu ki, cızılan planlar da, qəbul edilən qərarlar və qətnamələr də boş kağız yığınından başqa bir şey deyil. Nə çar Rusiyası, nə Fevral inqilabından sonra yaranmış Müvəqqəti hökumət, nə də Leninin qurduğu bolşevik Rusiyası bu sərsəm ideyanın reallaşmasında nəinki yardımçı oldular, heç olmaq da istəmədilər.

Daşnakların Antantaya daxil olan digər ölkələrə də müraciəti heç bir nəticə vermədi. Və təbii ki, verə də bilməzdi. Çünki Antanta dövlətləri arasında mövcud olan gizli müqavilələrin heç birində "Qərbi Ermənistan" adlandırılan ərazinin öz müqəddəratını təyin etməsi barədə hətta eyham belə yox idi.

Lakin bütün bunlara baxmayaraq, daşnaklar müttəfiqlərdən əl çəkmir, çar Rusiyasının onlara vəd etdiyini onlardan xahiş və tələb edirdilər. "Parisdə fransız erməni komitəsi iclas keçirirdi. Fransa, İngiltərə, İtaliya və ABŞ-da diplomatlardan və ictimai xadimlərdən ibarət komitələr yaradılmışdı. Vilson* Ermənistan, Güney Qafqaz, Konstantinopol (İstanbul – *N. Rza*) da daxil olmaqla Kiçik Asiya üzərində mandat almaq arzusunda idi. İngiltərə isə daşnaklara Ermənistana "azad xalqın" nümayəndəsi kimi bir ingilisin rəhbər təyin olunmasını təklif edirdi"[37].

Daşnak hökumətinin həyasızlığı o dərəcəyə çatmışdı ki, 1918-ci ildə müstəqilliyini əldə etdikdən sonra belə, özünü Antantaya "müttəfiq" kimi sırımaq cəhdində bulunaraq, 1919-cu ildə müharibədə öz verdiyi "itkilərin" müqabilində, hətta kompensasiya da almaq fikrinə düşdü. Lakin Antantanın Ermənistana münasibəti heç də ermənilərin arzu etdikləri kimi şəffaf və canıyanan deyildi. Əksinə, daha çox öz mənfəətini güdmə xarakteri daşıyırdı.

1919-cu il martın 7-də Qafqazdakı müttəfiq qoşunlarının baş rəisi Forestye Voker ilə daşnak hökumətinin baş naziri Kaçaznuni arasında baş vermiş bir söhbətdə Antantanın "müstəqil Ermənistan" hökumətinə olan münasibəti son dərəcə aydın təsvir edilir.

* ABŞ prezidenti Vudro Vilson (1913-1921)

Erməni tarixçisi Lalayan bu söhbəti belə məlumatlandırır: "Bu söhbətdə Kaçaznuni olduqca cəsarətsiz və köləcəsinə erməni xalqının çəkdiyi iztirablardan danışdı və dedi ki, ermənilər müttəfiq ölkələr tərəfində olub, "Suriyada, Mesopotamiyada, qərb cəbhəsində, habelə Qafqazda və Rusiyada almanlar və türklərlə "qəhrəmanlıqla" döyüşüblər. Odur ki, ermənilər müttəfiqlər kimi daha böyük diqqətə layiqdirlər". Daha sonra Kaçaznuni generala yalvarıb-yaxarırdı ki, ermənilərə öz müttəfiqləri kimi münasibət bəsləsin və bir də xahiş edirdi ki, erməni xalqı arasında Antantaya qarşı düşmənçilik əhval-ruhiyyəsini aradan qaldırmaq üçün ermənilərə, onların həmrəylik etdikləri ölkələrə (Antanta nəzərdə tutulur – *N.Rza*) qulluq etmələri əvəzinə maddi yardım göstərilsin*.

General Voker özünün cavab nitqində olduqca kəskin şəkildə göstərdiyi "ədəbsizliyə" görə öz nökərinin – baş nazirin üstünə düşdü. O bildirdi ki, Kaçaznuninin məlumatı onun "əsla xoşuna gəlmədi" və məlumatın "yaramaz" tərzdə olması barədə o, hara lazımdırsa xəbər verəcək. Nəticədə "Ermənistan Respublikası" üçün olduqca pis olacaq". Daha sonra general daşnak hökumətinin başçısına anlatdı ki, o erməniləri müttəfiq hesab etmir və "ümumiyyətlə xalqa kömək üçün heç olmasa nə isə göndərirlərsə", buna görə minnətdar olmaq lazımdır.

"Müttəfiq" generalın təhdidlərindən qorxan "müstəqil" Ermənistanın baş naziri Kaçaznuni üzr istədi və bildirdi ki, xalqın müttəfiqlərə aid şübhələri "çox güman ki, əsassızdır"[38].

Beləliklə, Antanta ölkələrinin ermənilərə qarşı son münasibəti başa düşülən idi. Çünki müharibə qalibiyyətlə başa çatmış, Yaxın Şərq neftinə şərik çıxmaq arzusunda olan Almaniya və Rusiya yenilmiş, Osmanlı imperiyası büsbütün süqut etmiş, "erməni məsələsi" isə öz aktuallığını və əhəmiyyətini itirmişdi. Yaxın Şərq nefti yalnız köhnə müttəfiqlərin – İngiltərə və Fransanın nüfuz dairəsinə aid bir məsələ idi. Halbuki onun da öz özəllikləri vardı. Çünki üfüqdə yeni bir rəqib meydana çıxmışdı. Bu, Amerika Birləşmiş Ştatları idi. Lakin bu barədə sonrakı fəsillərdə.

* Qeyd: A.Lalayanın məqaləsinə istinad edilmiş bu məlumatdakı dırnaq işarələri ona məxsusdur – *N Rza.*





"Erməni məsələsi"nə gəldikdə isə bir məsələni də xatırlatmaq zənnimizcə yerinə düşərdi. Bunun üçün bir qədər əvvələ qayıtmaq tələb olunur. Bu xüsusda Fransanın İstanbuldakı böyük elçisi Kambonun hələ 1894-cü ildə söylədiyi bu fikirlər indi də böyük maraq doğura bilər: "Erməni məsələsi" barədə söz-söhbətlərin Avropada yayılmasından və başqaları kimi, Fransanın da bu "problemin" əsl mahiyyətini dərk edə bilməməsindən, odur ki, onunla maraqlanmamasından bəhs edən Kambon daha sonra yazır: "Əvəzində "erməni məsələsi" ilə İngiltərə son dərəcə maraqlandı. Şərqdə böyük müstəmləkələri olan bu dövlət orada öz hökmranlığını saxlamaq üçün Kiçik Asiyada da möhkəm kök salmalı idi. O, Rusiyanın Dardanelə doğru irəliləyişinə mane olmalı idi. Buna görə o, "erməni məsələsi"ndən yapışmalı idi"[39].

Kambon bir məqamı da xüsusi olaraq qeyd edir: "Londonda ermənilər daha yaxşı qəbul hiss etdilər"[40].

Ermənilərin müstəqillik əldə etmək iddialarına Kambonun münasibəti isə birmənalı olmuşdu. O demişdi: "Bu barədə fikirləşmək də mümkün deyil. Ermənistan Bolqarıstana, yaxud Yunanıstana bənzər təbii sərhədləri olan dövlət yarada bilməz. Çünki elə bir rayon göstərmək mümkün deyil ki, oradakı qeyri xalqlar, qismən də olsa ermənilərin içində ərimiş olsun. Ermənilər Türkiyənin dörd guşəsinə səpələniblər. Əslində isə onlar Ermənistanda hər yerdə müsəlmanlarla qarışıblar. Buna onu da əlavə edək ki, ermənilər artıq Türkiyə, İran və Rusiya arasında bölünüblər.

Əgər Avropa Ermənistanın yaradılmasını təklif edərsə, bu, əlbəttə az ağlabatandır – yeni dövlətin sərhədlərini cızmaq demək olar ki, bu da mümkün olmaz. Belə bir çətinliyə yarımmuxtar, imtiyazlara malik əyalət təşkil edildikdə də rast gəlinir. Ermənistan harada başlayır və harada da tamamlanır?.."[41]

Beləliklə, aradan 25 ilə bərabər bir dövr keçməsinə baxmayaraq, Fransanın İstanbuldakı səfiri Kambon ilə general Vokerin söylədikləri fikirlərin əsl məğzi demək olar ki, üst-üstə düşür. Bundan belə bir nəticə çıxarmaq olar ki, 19-cu yüzilliyin sonlarında işə salınmış üzdəniraq "erməni məsələsi"nə dünyanın böyük və aparıcı dövlətlərinin siyasi texnologiyalarında hələ bir müddət

bundan sonra da ehtiyac duyula bilər. Təəssüflər olsun ki, Azərbaycanın timsalında bu "məsələ" bir daha özünü göstərdi. Lakin başqa bir qiyafətdə.

Sovet İttifaqı süqut etdikdən sonra, iyirminci yüzilliyin sonlarında başlayan və iyirmi birinci yüzillikdə isə şiddətlə davam etdirilən bu problem, bu dəfə Azərbaycan nefti ilə əlaqədar işə salındı. Doğrudur, "Erməni məsələsi"nin "neft qızdırması" ilə bilavasitə əlaqəsi olmasa da, hər halda müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın əl-qolunu bağlamaqda, onun neft sərvətləri üzərində hökmranlığı ələ keçirmək uğrunda Birinci cahan savaşında olduğu kimi, dünyanın aparıcı dövlətlərinin eyni ehtirasla apardıqları açıq-gizli mübarizədə öz riyakar və ənənəvi rolunu oynamış oldu. Fəqət, o vaxta hələ çox qalırdı. Böyük neft uğrunda başlamış böyük mücadilənin ilkin mərhələsi öz axarı ilə davam edir, onun son nəticəsi isə hələ də məlum deyildi.



## XXI fəsil

# ÇAR RUSİYASININ SÜQUTU və MÜHARİBƏ STRATEGİYASINDA DƏYİŞİKLİK

V.İ.Lenin Antanta blokuna daxil olan ölkələrin bir-birinə münasibətlərini xarakterizə edərək yazırdı: "Rusiya ilə Almaniyanın soyğunçuluq maraqlarının toqquşması ilə yanaşı olaraq, ondan az deyil, bəlkə də daha böyük bir toqquşma Rusiya ilə İngiltərə arasında mövcuddur. Əsasən də Asiya ölkələrində təsir imkanına görə"[1].

Bunun müqabilində Korsun yazır: "...İran – Mesopotamıya cəbhəsində ruslarla ingilislər arasındakı hərbi əməkdaşlığa gəldikdə, onların arasında ziddiyyətlərin mövcud olduğu aşkar edildi"[2].

İngilislərin 1915-ci ildə Rusiyanın Qafqaz ordusundan öz məqsədləri üçün həm İranda, həm də Mesopotamiyadakı özlərinin ekspedisiya korpusuna kömək üçün istifadə etmələrini Korsun onunla əlaqələndirir ki, onlar, yəni ingilislər, "Asiyada özlərinin əzəli rəqibi olan Rusiyanın hər vasitə ilə zəiflədilməsinə çalışırdılar"[3].

Bu fikrini sübuta yetirmək üçün Korsun hətta dəlillərə üz tutmağı da unutmur. İngiltərənin hakim dairələrinin ikiüzlü siyasət yeritdiklərini xüsusi vurğulayaraq, onların "Qafqaz ordusu ilə qarşılıqlı əlaqə yaratmaqdan qəsdən çəkindiklərini" bəyan edir[4].

Müəllif daha sonra qeyd edir: "Hətta Bağdaddan cənubda türklər tərəfindən mühasirəyə alınmış ingilis qoşunlarına köməyə tələsdikləri vaxtda belə" ingilislər Qafqaz ordusunun yardımından imtina etməyi məqsədəuyğun hesab edirdilər. Halbuki "nəinki döyüşlərdə, həmçinin ağır iqlim şəraiti səbəbindən son dərəcə ağır itkilərə məruz qalırdılar"[5]. Lakin Korsun ingilis komandanlığının bu hərəkətlərinin səbəbini açıqlamır və ya açıqlamaq istəmir.

Halbuki bunun səbəbi son dərəcə aydın və sadədir. Rusiyanın Mosul neftinə göz dikməsi və müharibənin qalibiyyətlə qurtaracağı təqdirdə özünə əhəmiyyətli dərəcədə pay tələb edəcəyi, Böyük Britaniyanın hakim dairələrinə hər halda az bəlli deyildi. Rusiyanın üzdəniraq "erməni məsələsini" əldə bayraq edib, o

tərəfli-bu tərəfli erməni əhalisini Türkiyəyə qarşı qaldırmaqla onu hərbi cəhətdən zəiflədib, tez bir zamanda Mosula çatmaq niyyəti barədə biz əvvəlki fəsillərdə ətraflı məlumat versək də, İngiltərə ilə Rusiya arasında yaranmış və dolayısı yolla Mosul neftinə söykənən və ilk baxışdan müəmmalı görünən bu münasibətlər çərçivəsində bu problemə bir daha nəzər salmağı lazım bildik.

Erməni daşnaklarının Türkiyə ərazisində dinc əhaliyə qarşı törətdikləri misli görünməyən vəhşiliklər nəinki türkləri, həmçinin kürdləri də hiddətləndirib ayağa qaldırdı. Onlar tezliklə dərk etdilər ki, erməni vəhşiliklərinin arxasında Rusiya hökuməti dayanır. Çünki rus ordusunun istər Türkiyədə, istərsə də İranda törətdiyi vəhşiliklər heç də daşnaklarınkından geri qalmırdı. Nəticədə bu, Qafqaz ordusuna xeyli problemlər yaratmış oldu. Bunu Korsun da təsdiqləyir: "Rus süvari dəstəsinin Azərbaycanda (Güney Qafqaz nəzərdə tutulur – *N.Rza*), kürdlərin yaşayış məntəqələrinin dağıdılması ilə nəticələnən basqınları, 1915-ci ilin sonlarından başlayaraq, Qafqaz ordusu üçün son dərəcə əlverişsiz siyasi mühit yaratdı. Həqiqətən də, İranın bir sıra rayonlarının var-yoxdan çıxarılmış kürd əhalisinin xeyli hissəsi türklərin tərəfinə keçdi və rusların 1916-cı ildə Urmiya gölü zonasından Mosul şəhərinə doğru başladıqları hücum əməliyyatları zamanı rusların fəaliyyət göstərdikləri yerlərdə geniş partizan hərəkatına başladılar"[6].

Böyük əminliklə demək olar ki, bu, Böyük Britaniyanın hərbi strateji və siyasi maraqlarına tam cavab verirdi. İstər Türkiyədə, istərsə İranda yerli əhalinin müqaviməti ilə üzüntülü mücadiləyə cəlb edilməsi Rusiya qoşunlarının Mosula doğru irəliləməsinə ciddi əngəl yaradırdı. Xüsusilə də 1916-cı ildə ingilislərin türklərdən aldığı məğlubiyyət, rusların ləngiməsini son dərəcə zəruri edirdi. Belə olduqda ingilislər təcili tədbirlərə əl atdılar və Fransanın Suriyaya və Mosula olan iddialarına tərəfdar çıxdılar. Bunun əvəzində Fransa Yaxın Şərq səhnəsində ingillislərə yardım edəcəyini öhdəsinə götürdü. Nəticədə hərbi üstünlük, 1917-ci ilin əvvəllərində yenə də ingilislərin əlinə keçdi. General Lüdendorf bunu belə təsvir edir: "Mesopotamiyada tezliklə məlum oldu ki, türk ordusu İraq rayonunda bundan sonra müqavimət göstərməyə





qadir deyil. Fevralın 25-də Kut-əl Əmər təslim oldu. Martın 11-də isə ingilislər artıq Bağdadı ələ keçirdilər. Bu, Türkiyə üçün ağır zərbə idi. Nəticədə onu İranla sərhəddəki ərazisini tərk etməyə məcbur etdi. Baş vermiş hadisələrin nəticəsində Ənvər paşa* alman komandanlığına müraciət edib, Bağdadı azad etməkdən ötrü, almanların yardımçı korpusu da daxil olmaqla, alman cəbhəsinin qərargahının öz sərəncamına verilməsini xahiş etdi. Bu təşəbbüsə hazırlıq aylar tələb edirdi. Əvvəlcə cəbhə arxasını hazırlamaq, sonra isə qoşunları irəlilətmək lazım idi"[7].

Lakin çar Rusiyasının süqutu ingilislərin Mosulu ələ keçirmələrinə mane oldu. Ümumiyyətlə, 1917-ci ilin fevralında Rusiyada baş vermiş inqilab və sonrakı hadisələr, müharibənin gələcək gedişatına əhəmiyyətli dəyişikliklər etməklə yanaşı, müəyyən suallar da yaratdı. Təəccüblüsü budur ki, bu gözlənilməz hadisəni Rusiyanın müttəfiqi olan Antantanın ayağına yazanlar da tapıldı. Məsələn, Lüdendorfun özü də bu fikrin tərəfdarları sırasında idi. O, yazır: "Şərqdə (alman-rus cəbhəsi nəzərdə tutulur – *N.Rza*) çox böyük dəyişikliklər baş verdi. Martda Antantanın kömək etməsi sayəsində çarı devirdilər. Hakimiyyəti güclü sosialist meylli hökumət ələ keçirdi. İnqilab ilə əl-ələ verib işləməsində Antantanın hansı əsaslara malik olması mənə aydın deyil. Bəlkə xalq hərəkatının qaçılmaz olduğunu gördüyündən, ona birləşməyi lazım bilib və yaxud daxili çevriliş qorxusu, çarda separat sülhə meyl oyadıb və buna görə də o, kənar edilməlidir? Bəlkə bunun başqa səbəbləri də vardı?"[8]

Suallar, suallar, suallar. Hətta müharibənin ən fəal iştirakçılarından biri olan general Erix Lüdendorf da özünün irəli sürdüyü suallara birmənalı cavab tapmaqda çətinlik çəkirdi.

Digər tərəfdən isə generalın 1924-cü ildə Moskvada rus dilində nəşr olunmuş "1914-1918-ci illər müharibəsi haqqında mənim xatirələrim" ("Мои воспаминания о войне 1914-1918 г.г.") kitabında onun redaktoru tərəfindən Lüdendorfun Rusiyada baş vermiş fevral inqilabı ilə bağlı açıqladığı şəxsi mülahizələrə və verdiyi suallara istehza xarakterli bir neçə qeyd də özünə yer

* Ənvər paşa – Osmanlı Türkiyəsinin hərbi naziri.

tapmışdır. Kommunist nöqteyi-nəzərini əks etdirən bu qeydlərdə deyilir: "Hər yerdə olduğu kimi burada da Lüdendorf hər şeyi Antantanın təsiri ilə izah etməyə hazırdır. Müvəqqəti hökumətin "sosialist yönümlü olması nə qədər doğrudursa, o da (yəni Antantanın təsiri – *N.Rza*) bir o qədər doğrudur"[9].



General Erix Lüdendorf

Təhlil etdiyimiz mövzuda, Müvəqqəti hökumətin "sosialist yönümlü" olub-olmaması məsələsi təbii ki, heç bir önəm daşımır. Bizi düşündürən məsələ Lüdendorfun özü-özünə, eyni zamanda da ictimaiyyətə ünvanladığı son dərəcə maraqlı suallardır. Doğrudan da müharibənin bu həlledici dövründə Antantanın, öz müttəfiqi Rusiyada baş verən və faktiki olaraq dövlət çevrilişinə səbəb olan məlum hadisələrə son dərəcə loyal münasibəti və hətta əməkdaşlığa meylli olması, zənnimizcə elə indinin özündə də böyük maraq doğurur.

Təbii ki, Antantanın Rusiya inqilabına münasibətdə son dərəcə loyallığı, onun öz mənafeinə olan maraqlarından da qaynaqlana bilərdi. Bunu Lüdendorf da təsdiq edir. Fəqət bu maraqların sözün əsl mənasında nədən ibarət olduğunu söyləməkdə təəssüf ki, çətinlik çəkir. Odur ki, səbəbləri başqa müstəvidə axtarmağa çalışır. Lüdendorf yazır: "şübhəsiz ki, Antanta müharibəni davam etdirməkdən ötrü inqilabdan faydalanmağa ümid edirdi və heç olmasa hər nə mümkündürsə onu xilas etməyə çalışırdı. Bunu nəzərə alaraq o, tərəddüd etmədən hərəkət edirdi. Antantanın maraqları naminə müharibəyə başlayan çar devrilməli idi. Bunda sonsuz iradə gücü ehtiva olunurdu və məsələ vətənin qələbə çalması haqqında getdikdə o (yəni Antanta – *N.Rza*) heç nəyin qarşısında geri çəkilmirdi.

Antanta hələ 1916-cı ildə də elə beləcə hərəkət edə bilərdi, əgər Ştürmer* doğrudan da sülh tərəfdarı olsaydı"[10].

* B.Ştürmer – 1916-cı ildə Rusiya Nazirlər Şurasının sədri, daxili və xarici işlər naziri. Q.Rasputin və imperatriça Aleksandra Fyodorovnanın "adamı"





Təbii ki, general Lüdendorfun mülahizələri və gəldiyi ilkin nəticələr həqiqətdən heç də uzaq deyildi. Və o, ilk növbədə müharibənin bütün mərhələlərini keçmiş və onun gedişatı haqqında son dərəcə böyük məlumata sahib peşəkar bir hərbçi kimi çıxış edir. Odur ki, böyük siyasətin böyük və "incə" oyunları barədə onun nisbətən az təsəvvürə və səriştəyə malik olması bu baxımdan təbii sayılmalıdır. Lakin Böyük Britaniyanın, qeyri-rəsmi olsa da, liderlik etdiyi Antantanın Rusiyada baş vermiş hadisələrə göstərdiyi loyallıq, zənnimizcə, eyni zamanda və bəlkə də daha çox, başqa mətləblərdən də xəbər verir. Və bu xüsusda istər-istəməz yenə də neft amili meydana çıxır.

Tarixə yenidən ekskurs edərək, bir daha xatırlatmaq yerinə düşər ki, hələ 19-cu yüzilliyin sonları, 20-ci yüzilliyin lap əvvəlində rus-ingilis münasibətlərinin son dərəcə gərgin həddə olması barədə məlumatlar yetərincədir. 1907-ci ildə Sankt-Peterburqda imzalanmış Rusiya-İngiltərə sazişi isə heç də qarşılıqlı məhəbbətdən deyil, əsasən məcburiyyətdən doğan bir hadisə idi. Və təbii ki, sonrakı münasibətlərdə də səmimiyyətdən xeyli uzaq idi.

Müəyyən dövrdə Mosul neftinə Rusiyanın da iddialı olması və bu sahədə real addımlar atmaq cəhdində bulunması, əlbəttə ki, İngiltərəni narahat etməyə bilməzdi. Zira, Mosul neftinə göz dikən müttəfiqlərdən biri də Fransa idi. Lakin qərbdə almanlarla çarpışmaqda ikən Rusiya, Mosulun, necə deyərlər, iki addımlığında idi. Öz niyyətinə çatmaq üçün, hətta milli ədavəti də qızışdırmaqdan və ondan öz məqsədləri üçün istifadə etməkdən belə çəkinmirdi. Türkiyə ilə ittifaqda olan Almaniyanın da Mosula aid planlarından ətraflı məlumatı olan İngiltərə onun qarşısını kəsməkdə Rusiyadan istifadə etməyi son dərəcə səmərəli vasitə hesab edirdi. Odur ki, "erməni məsələsi"ni şişirdərək, onlardan öz "məqsədləri" üçün istifadə etməsinə İngiltərə bir növ "barmaqarası" baxmaqla, əslində o, Rusiyanın hərbi potensialının əsas hissəsini Qafqaz cəbhəsində alman-türk qoşunları ilə üzüntülü mübarizədə əritmək məqsədi güdürdü. Kürdlərin Türkiyə və İran ərazisində başladıqları partizan hərəkatı da bu baxımdan ingilislər üçün son dərəcə əlverişli sayıla bilərdi.

Digər tərəfdən Rusiya amili türkləri də iki cəbhədə mücadilə aparmağa vadar edirdi. Daxildə isə o, rusların birbaşa təhriki və təşkilatçılığı sayəsində meydana çıxmış erməni qiyamı ilə üzbəüz idi. Odur ki, Mesopotamiya cəbhəsində ingilislərlə mücadilə aparıb, Mosulu öz nəzarətində saxlamaq olduqca mürəkkəb məsələ idi.

Lenin "Öz müqəddəratını təyinetmə haqqında müzakirələrin yekunları" ("Итоги дискуссии о самоопределении") məqaləsində yazırdı: "Hazırkı müharibədə baş qərargahlar öz rəqiblərinin düşərgəsində hər cür milli və dini hərəkatlardan əsaslı surətdə istifadə etməyə çalışırlar – almanlar irland üsyanından, fransızlar çex hərəkatından və s. Öz nöqteyi-nəzərlərincə onlar tamamilə düzgün hərəkət edirdilər. Düşmənin ən cüzi səhvindən istifadə etmədən, hər cür şansı ələ keçirmədən ciddi müharibəyə ciddi münasibət bəsləmək olmaz. Xüsusən də əvvəlcədən bilmək mümkün deyil ki, burada və ya başqa yerdə, hansı məqamda və məhz hansı qüvvətlə bu, yaxud digər barıt anbarı "partlaya" bilər..."[11]

Türkiyə və Rusiyanı nəzərdə tutaraq, Korsun yazır: "Lakin Qafqaz cəbhəsində nə bu, nə də digər tərəf öz düşməninin arxasında üsyan təşkil etmək üçün "hərəkatlardan istifadə etməyə nail ola bilmədi. Qeyri-mütəşəkkil və vaxtsız başlamış erməni üsyanları türklər, kürdlərinki isə ruslar tərəfindən yatırıldı"[12].

İngilislərin Rusiyadakı fevral inqilabına loyal münasibətinin kökündə yuxarıda Lüdendorfun sadaladığı səbəblərdən başqa mühüm bir səbəb də vardı. Çar hökumətinin Mosul neftinə marağı və bölgədə möhkəmlənmək istəyi, İngiltərə üçün arzuolunmaz problemlər yarada bilərdi. Odur ki, Müvəqqəti hökuməti, çürümüş çar üsul-idarəsi ilə nisbətdə demokratik dəyərlərə daha çox cavab verən bir hökumət olacağına əminlik nümayiş etdirən İngiltərə, onun Mosul neftinə münasibətdə iddialı olmayacağına və ondan əvvəlki ekspansionist siyasəti davam etdirməyəcəyinə ümid bəsləyirdi. Onun yeni hökumətə qarşı sayğılı münasibəti də, zənnimizcə əsas etibarilə məhz bu amildən qidalanırdı.

Digər tərəfdən İngiltərə hökuməti haqlı olaraq hesab edə bilərdi ki, yeni yaranmış və tam təşəkkül tapmamış rus hökumətinin daxili problemləri onsuz da yetərincədir. Aclıq, səfalət, iqtisadi pozğunluq, müharibə əleyhinə getdikcə artan narazılıq və bu kimi başqa mənfi hallar, ingilislərin fikrincə yeni rus hakimiyyətini çarizmin dəstəklədiyi ekspansionist siyasətdən çəkindirər və hərbi sahədə yalnız öz sərhədləri həndəvərində fəaliyyət göstərməklə, əsas etibarilə düşmənin hərbi potensialının xeyli hissəsini özünə cəlb edərdi.

Digər tərəfdən İngiltərə, Rusiyanın İranın quzey əyalətlərində həddən artıq möhkəmlənməsindən heç də məmnun deyildi. Bölgənin zəngin neft yataqları üstüörtülü olsa da, təbii ki, onun diqqətindən yayınmamışdı. Qalibiyyətli müharibə onu burada da möhkəmləndirə bilərdi. Əlbəttə, belə bir perspektiv İngiltərə üçün son dərəcə qiymətli bir hədiyyə olardı. Odur ki, Rusiyanın hərbi-siyasi cəhətdən müəyyən həddə qədər zəifləməsi Böyük Britaniyanın strateji maraqlarına çox güman ki, cavab verirdi. Hər halda Rusiyanın lider olmaq iddiası İngiltərəni razı sala bilməzdi. Sadəcə olaraq, onu öz yedəyində saxlamaq istərdi.

Fəqət İngiltərə Rusiyanın tam zəifləməsini də istəməzdi. Onun tam dağılmasından isə söhbət belə gedə bilməzdi. Çünki inqilabdan dərhal sonra, hətta hakimiyyət dəhlizlərində belə antimüharibə əhval-ruhiyyəsi mövcud idi. Və bu ab-hava istər-istəməz orduda da əks-səda tapırdı.

Məsələn, 1916-cı ildə türklərlə mübarizədə uğursuzluğa düçar olan ingilislər "Sayks-Piko" müqaviləsində Fransanın Suriya və Mosula olan iddialarını dəstəklədilər və bunun əvəzində, fransızların köməyinə arxalanıb, vəziyyəti xeyli yaxşılaşdırmağa müvəffəq olmuşdular. Hətta 1917-ci ilin yazında, bir qədər əvvəl qeyd etdiyimiz kimi, Bağdadı da ələ keçirə bildilər. Lakin ingilislərin müttəfiqi olan çar Rusiyasının iflası onların (ingilislərin – *N.Rza*) Mosula çatmaqlarına mane oldu[13].

Bu əyani şəkildə sübut etdi ki, rusların hərbi potensialının zəifləməsi və rus cəmiyyətində müharibəyə olan marağın kəskin surətdə azalması Antantaya baha başa gələ bilər. Əksinə, "Üçlər ittifaqı" böyük ümidlər sorağında idi. Bu münasibətlə Lüdendorf yazır: "İnqilab Rusiyanın vəziyyətini kəskin surətdə aşkarladı:

xalq və ordu çürüyüb, əks-təqdirdə inqılab mümkün ola bilməzdi. Bizim ordumuz kimi, rus ordusu da öz xalqının bir hissəsi idi; Rusiyada xalq və ordu tam vəhdət təşkil edirdi. Mən xəyalımda hey düşünərdim ki, rus inqilabı bizim hərbi vəziyyətimizi yüngülləşdirər. Fəqət bu ümidlər həmişəlik xəyal olaraq qaldı. İndi inqilab gəlib çıxdı, özü də qəflətən. Çiyinlərimdən olduqca böyük bir yük götürüldü. Bir zamanlar mən heç düşünməzdim ki, o, gələcəkdə bizim də gücümüzü sarsıdacaq"[14].

Rus ordusunun döyüş qabiliyyətinin aşağı düşməsinin mümkünlüyünü və bunun da nəticəsində Antantanın xeyli zəifləməsinə səbəb olacağını vurğulayan Lüdendorf onu da qeyd edir ki, bu, almanların "olduqca ağır vəziyyətinin əhəmiyyətli dərəcədə yüngülləşməsi" demək idi[15].

İnqilabın ilk dövründə, xüsusilə də aprel, may aylarında Rusiyanın hərbi baxımdan bir qədər kənarda durması Antanta üçün yeni vəziyyətin yaranmasına səbəb oldu. İngiltərə və Fransa böyük hücum əməliyyatları həyata keçirməklə, görünür müharibənin müqəddəratını artıq 1917-ci ildə həll etmək arzusunda idilər.

Almanlar isə rus ordusunun döyüş qabiliyyətinin aşağı düşməsində son dərəcə maraqlı idilər. Zira, hadisələr də buna doğru gedirdi. Lüdendorf yazır: "Rusiyada sülhə doğru meyl güclənməyə başladı. Lakin sülhə münasibətdə bir yandan rus hökumətinin, o biri yandan isə rus xalqının mövqeyi müxtəlif idi. Xarici işlər naziri Milyukov müharibənin davam etdirilməsini və dördüncü ittifaqın hesabına Avropanın xəritəsinin yenidən biçilməsini tələb edir, başqa nazirlər isə ilhaqsız və təzminatsız sülh və xalqların öz müqəddəratını təyin etməsi haqda danışırdılar. Lakin Antanta ölkələri ilə ittifaqın saxlanılması daha qətiyyətlə tələb edilirdi"[16].

Rusiyanın müharibədən tamamilə çəkilməsi perspektivi "Antanta"nı razı sala bilməzdi. Çünki müharibənin bütün ağırlığı qeyd-şərtsiz onun üzərinə düşərdi. Odur ki, həmin ilin mayında Kerenskinin ön mövqeyə çıxması müttəfiqlərdə bir növ ümid çırağı yandırdı. Almanların istəyinin ziddinə olaraq, gözlənilmədən meydana çıxan Kerenski amili rus ordusunun





yenidən birləşməsinə səbəb ola bilərdi. Antantanın yay mövsümü üçün planlaşdırdığı geniş miqyaslı hücum əməliyyatları üçün bu son dərəcə vacib idi. Buna nail olmaq üçün İngiltərə, Fransa, habelə aprel ayından etibarən müharibəyə rəsmən qoşulan Amerika Birləşmiş Ştatları hər bir imkandan istifadə etməyə çalışırdılar. Fəqət Rusiya əvvəlki Rusiyaya heç də bənzəmirdi. Antantanın böyük ümidlər bəslədiyi yay kampaniyası gözlənilən nəticəni vermədi. Lüdendorf bunu belə izah edir: "Antantanın 1917-ci ilin yayında bizi darmadağın etmək üçün nəzərdə tutduğu böyük hücumu ötüb keçdi; rus inqilabı nəticəsində o, ümumi vahid bir qüvvə kimi formalaşa bilmədi. Rusiya, ingilis-fransız-italyan basqınında iştirak etmədi; rus hücumunun başlanmasına qədər qərb cəbhəsi artıq zəifləmişdi. Qərbdə biz duruş gətirdik, amma xeyli şapalaq da yemiş olduq, şərqdə isə böyük uğurlar da qeyd etməyi bacardıq. Rusiyanın hərbi tənəzzülü bütün dünya qarşısında aşkara çıxdı"[17].



I Cahan Savaşında dəniz döyüşü. 1918-ci il

Belə bir vaxtda Antanta Yunanıstan ordusunu da öz hərbi orbitinə cəlb etmək səylərini daha da artırdı. Rusiya amilinin aradan qalxdığı, rus ordusunun tənəzzül prosesinin daha da şiddətləndiyi bir vaxtda bu, Antanta üçün müəyyən taktiki imkanlar yarada bilərdi. Hər halda Mesopotamiya cəbhəsində Mosul uğrunda mücadilə verən Türkiyə, öz arxasında müəyyən iddialara malik bir ölkənin ordusunun real təhlükəsi ilə üzləşə bilərdi. Hərbi toqquşma üçün səbəb axtarıb tapmaq bir o qədər də çətin məsələ deyildi. Hər halda hər iki ölkə arasında tarixi keçmişdən miras

qalmış ziddiyyətlər yetərincə idi. Lakın yunan ordusu səfərbər edilsə də, onun döyüş qabiliyyəti hələ arzu olunan səviyyədə deyildi. Onun Türkiyəyə qarşı çıxış etməsinə xeyli vaxt qalırdı.

Mesopotamıya cəbhəsində və Fələstində Türkiyənin mövqeyi xeyli pisləşdi. 1917-ci ilin payızına və ya 1918-ci ilin yazına nəzərdə tutulmuş Bağdad əməliyyatının uğurlu olmasında Fələstin cəbhəsinin əldə saxlanılmasının böyük əhəmiyyəti vardı. Bu strateji əhəmiyyətli məsələ idi.

İstər Mesopotamiyada, istərsə də Fələstində mövcud mövqeləri saxlamaqdan ötrü, yeni qüvvələrin köməyi lazım idi. Rus-türk cəbhəsində hərbi əməliyyatların konservasiya edilməsini nəzərə alaraq, Almaniyanın silahlı qüvvələrinin komandanı general Lüdendorf Ənvər paşaya rus cəbhəsi hesabına Mesopotamiya cəbhəsini möhkəmləndirməyi məsləhət gördü.

Bu elə bir vaxt idi ki, İngiltərə Bağdadı tutduqdan sonra öz hökmranlığını Dəclə və Fərat çayları boyunca yuxarılara doğru genişləndirirdi. Nəticədə ingilis qoşunları artıq noyabr ayında Mosula gedən istiqamətdə böyük bir ərazini ələ keçirməyə nail oldu. Elə bu zaman Rusiyada bolşeviklər dövlət çevrilişi edərək, Müvəqqəti hökuməti tarix səhnəsindən sıldılər.

Oktyabr çevrilişi nəinki Rusiyanın müharibədən çıxması ilə nəticələndi, həm də gələcək hadisələrə əhəmiyyətli dərəcədə təsir göstərdi. Özəlliklə də Almaniyada. General Lüdendorf yazır: "1917-ci ilin oktyabrından başlayaraq bolşeviklər Rusiyada hakimiyyəti daha möhkəm ələ keçırdılər.

Mənim üçün heç bir şübhə yox idi ki, rus ordusunun və rus xalqının süqutu Almanıya və Avstriya – Macarıstan üçün böyük təhlükə olacaq. Almaniya və Avstriya – Macarıstan hökumətlərinin zəifliyi haqqında qorxu isə, daha böyük idi. Lenini Rusiyaya göndərməklə bizim hökumət öz üzərinə xüsusi məsuliyyət götürmüş oldu. Hərbi nöqteyi-nəzərdən onun Almanıya ərazisindən keçməsinə bəraət qazandırmaq olar; Rusiya süqut etməli idi. Lakin bizim hökumət dıqqət yetırməli idi ki, onunla birlikdə biz də məhv olmayaq.





Rusiyadakı hadisələr məni tam qane etmədi. Hərbi cəhətdən onlar bizə əhəmiyyətli dərəcədə yüngüllük verirdilər, lakin özündə bizim üçün çoxlu təhlükə də ehtiva edirdilər.

Artıq yay müddətində Rusiya ilə barışıq şərtlərinin layihəsini hazırlamışdım. Onlar sülh sazişinə getmək meylindən törəmişdi"[18].

Nəhayət noyabr ayında bolşeviklərin səyi nəticəsində rus ordusu o dərəcədə dağıldı ki, bu, Almaniyanı şərq cəbhəsindəki qoşunlarının xeyli hissəsini qərb cəbhəsinə göndərməyə sövq etdi.

Noyabrın 26-da rusların ali baş komandanı, xalq komissarı Krılenko almanların ali komandanlığı ilə əlaqə saxlayıb, sülh bağlamaq haqqında onun fikrini öyrəndi. Müsbət cavab aldıqdan sonra, dekabrın 2-də rus parlamentarları almanların cəbhə xəttını keçərək dərhal danışıqlara başladılar. Sülh danışıqları almanların şərqdəki qoşunlarının ali komandanlığının yerləşdıyı Brest-Litovsk şəhərində gedırdi. Dekabrın 7-də 10 gün müddətinə barışıq imzalandı. Ayın 12-də davam etdirilən danışıqlardan sonra, ayın 15-də yenidən barışıq sazışı imzalandı. Dekabrın 17-dən etibarən qüvvəyə minən bu sazışə əsasən barışıq 1918-ci il yanvar ayının 14-nə kimi davam etməli idi. Onu da qeyd edək ki, bu sazış yalnız şərq cəbhəsinə, daha doğrusu, rus-alman cəbhəsinə aid idı. Digər cəbhələrdə* belə nəticə əldə etmək üçün xüsusi danışıqlar tələb olunurdu. Rumıniyanın Fokşanı şəhərində gedən analoji danışıqlar da dekabrın 9-da eyni nəticə ilə yekunlaşdı.

Milad bayramından sonra başlanan sülh danışıqları, nəhayət 1918-ci il martın 3-də Brest-Litovsk şəhərində Rusiya, Almanıya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə arasında sülh müqaviləsinin imzalanması ilə nəticələndı. Tarixə "Brest sülhü" adı ilə daxil olan bu müqavilənin şərtlərinə əsasən Polşa, Baltıkyanı ölkələr, Belorusiya və Güney Qafqazın bir hissəsi Almanıya tərəfindən ilhaq edildi[19].

Brest sülhü ilə Sovet Rusiyasının Birinci dünya muharibəsindən rəsmən çıxması müharibəyə cəlb edilmiş ölkələrin hərbi-siyası durumuna ciddi təsir göstərdi. Müharibənin, hələ heç bir

* Rumıniya və Kiçik Asiya cəbhələrı nəzərdə tutulur.

taleyüklü problemi həll etmədiyi bir vaxtda, belə bir ciddi gerçəkliyin meydana çıxması müharibə strategiyasında köklü dəyişikliklər olunmasını zəruri edirdi.

Sürətlə cərəyan edən hadisələrin təəssüratı ilə yaşayan Antanta, yaranmış hərbi-siyasi boşluğu doldurmaq üçün bütün ümidlərini Amerikaya bağlamağa məcbur oldu. Zira, Amerikanın özündə də hərbi əməliyyatlara bilavasitə qatılmaq meylləri gündən-günə güclənirdi. Odur ki, hökumət ölkə daxilində müharibə əleyhinə yönəlmiş meyllərə qarşı mübarizəni fəallaşdırdı.

Rusiyanın, necə deyərlər, "oyundan kənarda" qalması başqa bir taleyüklü və bütün tərəfləri eyni dərəcədə düşündürən bir məsələni tam çılpaqlığı ilə ortaya qoydu. Məlum oldu ki, Mosul neftindən başqa Bakı nefti də mücadilə və mübahisə mövzusuna çevrilə bilər. Amerikanın tez-tələsik hərbi əməliyyatlara qatılmaq niyyətinin kökündə, heç şübhəsiz ki, bu amil də az rol oynamamışdı. Bakı neftinə çoxdan göz dikən Amerika yaranmış əlverişli vəziyyətdən təbii ki, mümkün qədər yararlanmaq istərdi. Sonrakı hadisələr sübut etdi ki, bu həqiqətən də belə idi.

Amansız neft savaşında Amerika ən müxtəlif vasitələrdən istifadə etməyə çalışırdı. Bir çox hallarda hətta ən yolverilməz üsullardan belə.

Zira bu savaşda Amerika tək deyildi. Ümumiyyətlə 1918-ci ili dünya tarixində ilk böyük neft savaşı (seçmə mənimdir – *N.Rza*) ili kimi qiymətləndirmək olar. Elə savaş ki, onun əks-sədası bütün dünyaya yayılacaq, sonrakı on illiklərin nəinki əsas mübahisə obyektinə çevriləcəkdi, hətta tarixin misli görünməmiş qanlı savaşlarına gətirib çıxaracaqdı.



## XXII fəsil

# BAKI NEFTİ UĞRUNDA MÜCADİLƏ GETDİKCƏ ŞİDDƏTLƏNİR

Almaniya hökumətinin bilavasitə dəstəyi ilə Rusiyada həyata keçirilmiş 1917-ci ilin oktyabr çevrilişi, Azərbaycan da daxil olmaqla, Güney Qafqazdakı onsuz da mürəkkəb olan siyasi vəziyyəti daha da mürəkkəbləşdirdi. Siyasi mübarizə son dərəcə kəskinləşdi. Müstəqillik ideyaları gündən-günə genişlənərək, getdikcə daha real formalar almağa başladı və konkret addımlar atıldı. Lakin tezliklə bəlli oldu ki, Güney Qafqaz hüdudlarında baş verən daxili proseslər, artıq beynəlxalq ictimaiyyətin diqqətini özünə cəlb edib. Daha dəqiq desək, ilk növbədə müharibəyə qatılmış dövlətlərin diqqətini. İstər Antantanın, istərsə Üçlər İttifaqının. Başqa səbəblərlə yanaşı, belə bir diqqətin yaranmasında əsas səbəbkar kimi Bakı neft amilinin olduğunu desək, heç də yanılmarıq. Həqiqətən də, döyüşən ölkələrin 1918-ci ildən başlayaraq, son dərəcə ciddi şəkildə Güney Qafqaza doğru meyllənməsində və bununla əlaqədar öz hərbi-siyasi strategiyalarında əsaslı dəyişikliklər etmələrində Bakı neft amili olduqca güclü katalizator rolunu oynamış oldu.

Brest sülhü bu prosesləri daha da sürətləndirdi. Lakin hadisələri qabaqlamadan oktyabr çevrilişindən sonra baş verənləri bir-bir yada salaq.

1917-ci il noyabrın 2-də Bakıda Sovet hakimiyyəti elan edilsə də, Şaumyanın rəhbərlik etdiyi bu hakimiyyət real gücə malik deyildi. Onun zəifliyini Şaumyan özü də etiraf edirdi. Odur ki, dekabrın 12-13-də Bakı Sovetinə seçkilər keçirildi. Dekabrın 18-də V.İ.Lenin S.Şaumyanı Güney Qafqaz məsələləri üzrə xüsusi komissar təyin etdi. Bu onu göstərirdi ki, Sovet Rusiyası keçmiş Rusiya imperiyasına daxil olan ərazini və orada yaşayan çoxsaylı xalqları, yaratmaq istədiyi yeni imperiyanın tərkibində görmək iddiasındadır. Lakin tezliklə o da məlum oldu ki, bu bir o qədər də asan məsələ olmayacaqdır. Çünki Güney Qafqaz xalqları istiqlaliyyət əldə etməkdə son dərəcə israrlıdırlar və bu sahədə əməli fəaliyyətlərini get-gedə daha da genişləndirirlər.

Noyabrın 11-də Tiflisdə Gürcüstan sosial-demokrat partiyası (menşeviklər), "Müsavat", "Daşnaksütyun" və sağ eserlər müşavirə keçirdilər və qəti şəkildə bildirdilər ki, Rusiyanın Sovet hökumətini tanımırlar. Müşavirədə qəbul edilmiş qərara əsasən "Güney Qafqaz müstəqil hökuməti" yaradıldı. Ondan 4 gün sonra, yəni noyabrın 15-də Güney Qafqaz komissarlığı təsis edildi. Antanta dövlətləri, habelə ABŞ Güney Qafqazda baş verənləri diqqətlə izləyir və bolşevizmə qarşı aparılan mübarizəyə özlərinin loyal münasibətlərini gizlətmirdilər. Hətta o dərəcədə ki, həmin dövlətlərin nümayəndələri – Amerika konsulu Smit, ingilis generalı Şor, fransız polkovniki Şardini və başqaları Güney Qafqaz komissarlığının yaradılması ilə əlaqədar 1917-ci il noyabrın 11-dən 15-nə kimi keçirilən iclaslarda bilavasitə iştirak etmişdilər[1].

Güney Qafqazın əsas siyasi qüvvələrinin bir araya gəlməsi ABŞ konsulu Smiti o qədər ruhlandırmışdı ki, o, prosesləri mümkün qədər sürətləndirmək məqsədilə Vaşinqtona göndərdiyi məktublarda Güney Qafqaz komissarlığını de-fakto tanımağı və bolşeviklərə zidd qüvvələrə maliyyə yardımı üçün Tiflisə 10 milyon dollar köçürülməsini təklif edirdi[2].

Lakin sonrakı çoxsaylı hadisələr göstərdi ki, Antanta dövlətlərinin, eləcə də ABŞ-ın hədsiz canfəşanlığı və bölgəyə göstərdikləri "qibtəedici" maraq və diqqət, heç də yerli xalqların azadlığa və istiqlaliyyətə qovuşmaq arzusundan irəli gəlmirdi. Çünki Güney Qafqazın qədim və zəngin tarixə malik olan xalqları, xüsusilə də Azərbaycan türkləri yerli irticaya, erməni daşnaklarının azğınlığına, bolşevik Rusiyasının ardıcıl təzyiqinə və general Denikinin açıq-aydın təhdid və hədələrinə qarşı mübarizəyə nə qədər güc, enerji sərf etmişdilərsə, öz müstəqilliklərini dünya ictimaiyyətinə tanıtdırıb sübut etməyə, habelə Antanta ölkələrinin və Amerikanın söz sahibi olduqları beynəlxalq qurumların siyasi və hüquqi dəstəyini qazanmaq üçün ondan da bir qədər artıq mücadilə aparmaq zorunda qalmışdılar.

Bir daha təkrar edirəm ki, Qərb dövlətlərinin Güney Qafqaz bölgəsinə ünvanlanmış bütün səy və çalışmaları ilk növbədə Bakı nefti ilə əlaqədar idi.





Yaxın Şərq nefti uğrunda gah səngiyən, gah da daha şiddətlə alovlanan mücadiləyə sövq edilmiş dövlətlər yeni neft perspektivinə biganə qala bilməzdilər. Odur ki, 1918-ci ilin əvvəlindən başlayaraq Güney Qafqazda siyasi vəziyyətin son dərəcə mürəkkəb olmasına baxmayaraq, müharibə səhnəsinin hər iki tərəfini təmsil edən dövlətlər – Antanta və Üçlər İttifaqı, sanki vahid bir komandanlığın əmrinə əsasən, Bakı neftinə sahib çıxmağa tələsdilər.

Ladvell Denni yazırdı: "Çar rejimi süqut etdikdən və Almaniya ilə Sovet Rusiyası arasında məcburi sülh imzalanandan sonra müttəfiqlər və Mərkəz dövlətləri Qafqazın zəngin mədənlərinə doğru can atdılar"[3].

Hətta elə bir təsəvvür yaranırdı ki, döyüşən tərəfləri Bakı nefti Mosul neftindən daha çox maraqlandırır. Hər halda müəyyən zaman kəsiyində Bakı neftinə ciddi maraq göstərən dövlətlərin misli görünməyən hərbi-siyasi və diplomatik canfəşanlığı, müstəqilliyini elan etmiş gənc respublikalara – xüsusən Azərbaycana və Gürcüstana hər cür yardım əli uzatmaq niyyətləri və bir sıra başqa aksiyalar bunu deməyə əsas verir. Bunun da təbii ki, öz səbəbləri vardı. Zənnimizcə bu səbəblər heç də az əhəmiyyət kəsb etmirdi.

Məsələn, Denni qeyd edir: "1917-ci il inqilabının başlanmasına qədər Rusiyada ən böyük xarici sərmayədarlar, rus neft sənayesinə (ilk növbədə Bakı nefti nəzərdə tutulur – *N.Rza*) 85 milyon dollar vəsait qoymuş olan ingilislər idi. Datç/Shell Bakı mədənlərinə 20 milyon dollar yatırmışdı; bundan əlavə bu cəmiyyət (şirkət – *N.Rza*) Qroznı və Maykopda böyük torpaq sahələrinə (neftli torpaqlar – *N.Rza*) malik idilər. Fransız kapitalı (əsas etibarilə Rotşildə məxsus) 25 milyon dollar, Belçika kapitalı isə 21 milyon dollar təşkil edirdi..."[4]

Bir sözlə, "Nobel qardaşları şirkəti"ni də bura əlavə etsək, görərik ki, Bakı neft sənayesində Qərb ölkələri təmsilçiləri nə dərəcədə dərin köklərə malikdilər.

Digər tərəfdən Mosuldan fərqli olaraq, Bakı neft rayonunda neftin çıxarılması, emalı, nəqli ilə bağlı lazımi infrastruktur mövcud idi. O Avropa bazarlarına daha yaxın idi. Bakı-Batum neft kəməri, Güney Qafqaz dəmir yolu Bakı neftinin nəqlində mühüm

vasitə hesab edilirdi. Bütün bunlar Bakı neft rayonunun misilsiz əhəmiyyətindən xəbər verirdi.

1918-ci il martın 3-də imzalanmış "Brest-Litovsk sülhü" Güney Qafqazdakı hadisələrin daha da sürətlənməsinə səbəb oldu. Eyni zamanda Bakı neftinə iddialı olanlar sırasına Almaniya da qatıldı. Sülhün şərtlərinə əsasən, Ərdahan, Qars və Batum Türkiyəyə verilməli idi. Lakin 1918-ci ilin fevralından fəaliyyətə başlayan Zaqafqaziya (Güney Qafqaz – *N.Rza*) Seymi Brest-Litovsk sülhünü tanımadı və Petroqrada – Rusiya Xalq Komissarları Sovetinə göndərdiyi məlumatda da bunu bir daha təsdiqlədi. Səbəbini isə belə izah etdi ki, "o, (Seym – *N.Rza*) Brest-Litovsk sülhünü tanımır. Çünki, Güney Qafqaz bolşevik hakimiyyətini və Xalq Komissarları Sovetini heç vaxt tanımayıb"[5].

Belə olduqda Türkiyə hökuməti adları çəkilən şəhərlərin təmizlənməsi barədə Seymə ultimatum təqdim etdi. Məsələnin mürəkkəbləşdiyini dərk edən Zaqafqaziya Seymi Türkiyə hökuməti ilə danışıqlar masası arxasına oturmağa məcbur oldu. Mübahisəli məsələləri həll etməkdən ötrü 1918-ci il martın 14-də Trabzonda hər iki tərəfin iştirakı ilə sülh konfransı işə başladı[6].

Martın 25-də konfransın iclasında Güney Qafqaz nümayəndə heyətinin üzvü M.Y.Mehdiyev çıxış edərək, Türkiyənin Brest-Litovsk razılaşmasına əsaslanan təkliflərinin qəbul edilməsini tələb etdi və əks təqdirdə azərbaycanlıların danışıqlarda iştirak etməyəcəklərini bildirdi[7]. Lakin Azərbaycan neft sənayesinin maraqlarını nəzərə alaraq, X.Xasməmmədov Batumun Güney Qafqazın tərkibində saxlanmasını təklif etdi. O, bunu onunla əsaslandırdı ki, o, (yəni Batum – *N.Rza*) Bakıdan gələn neft kəmərinin son nöqtəsidir[8].

Türkiyə hökuməti isə öz tələbində israrlı idi və Batumun təhvil verilməsini tələb edirdi. Halbuki hələ aprelin 10-da Güney Qafqaz tərəfi Brest-Litovsk müqaviləsini qəbul etmiş və Türkiyənin tələb etdiyi ərazilərin böyük hissəsi artıq ona verilmişdi. Əlbəttə, Batumdan savayı.

Qara dəniz limanının Azərbaycan üçün həyati əhəmiyyətini dərk edən nümayəndə heyətinin üzvü Ş.Rüstəmbəyov, hətta Güney





Qafqaz liderlərinin qapalı iclasında türklərin ültimatumunu rədd etmək barədə qəbul etdiyi qərarı dəstəkləsə də, tez bir zamanda öz mövqeyini dəyişmək məcburiyyətində qaldı. Çünki, Seymdə belə fikirlər səsləndi ki, guya Güney Qafqaz ordusu Türkiyə silahlı qüvvələrinə qarşı uğurla mübarizə aparmağa qadirdir[9].

Antitürk və müharibə əhval-ruhiyyəsinin təhlükəli həddə çatdığını hiss edən Ş.Rüstəmbəyov münaqişənin sülh yolu ilə həll edilməsinin vacibliyini diqqətə çatdırdı.

Fəqət bütün çəkişmələrə, mövqelər mübarizəsinə, türk və antitürk meyllərə baxmayaraq, Türkiyə ordusu hərbi əməliyyatları davam etdirərək, 1918-ci il martın 14-də nəinki Ərdahan və Qarsı, həmçinin Batumu da ələ keçirməyə nail oldu.

1918-ci ilin mart-aprel aylarında Stepan Şaumyanın və onun rəhbərlik etdiyi bolşevik-daşnak quldur dəstələrinin Bakı quberniyası ərazisində misli görünməmiş qəddarlıqla dinc əhaliyə qarşı həyata keçirdikləri soyqırım əməliyyatları, on minlərlə müsəlman-türk əhalisinin həyatına son qoydu. Bu dəhşətli hadisələr Azərbaycanın milli qüvvələrini, daha qəti addımlar atmağa məcbur etdi.

1918-ci il aprelin 3-də Zaqafqaziya Seymində Bakı hadisələrinə həsr olunmuş iclasda çıxış edən Fətəlixan Xoyski bəyan etdi ki, "...əgər müsəlman əhalisinin müdafiəsi üçün tədbirlər görülməsə, o zaman müsəlman nazirlər hökumətin tərkibindən çıxacaqlar"[10].

Zaqafqaziya Seymindəki müsəlman fraksiyası əhalinin müdafiəsi üçün Bakıya qoşun göndərilməsini tələb edirdi.

1918-ci il aprelin 18-də Fətəlixan Xoyski Zaqfederasiya hökumətinə bəyan etdi ki, "Bakı hadisələri Yelisavetpol (Gəncə) quberniyasının hər bir yerində müzakirə olunur və qətnamələrin hamısında olan maddələr hökumətin Bakı məsələsini aradan qaldıra bilməyəcəyi təqdirdə, türk qoşunlarının Bakıya doğru keçməsini nəzərdə tuturlar... Və elə bir məqam gələ bilər ki, xalq kütləsi özü hərəkətə başlayar ki, bu da öz növbəsində faciəli vəziyyət yaradar. Çünki Bakı məsələsi respublikanın olum, ya ölüm məsələsidir"[11].

Bakı hadisələri və bununla bağlı müsəlman fraksiyasının qəti tələbləri, aprelin 20-də gedən müzakirələr zamanı hökumət böhranına gətirib çıxardı. Aprelin 22-də Zaqafqaziya Seyminin açıq iclası keçirildi. Həmin iclasda "Güney Qafqaz müstəqil demokratik federativ respublikası"nın yaradılması haqqında qətnamə qəbul edildi. Oradaca, Güney Qafqaz hökuməti başda onun sədri Gegeçqori olmaqla istefaya göndərildi. Elə həmin gün Zaqafqaziya Seymi yeni hökumətin tərkibini təsdiq etdi.

Yeni hökumətin sədri A.Çxenkeli bu əlamətdar hadisə münasibətilə Qafqaz cəbhəsinin komandanı Vehib paşaya teleqram göndərdi və onun nəzərinə çatdırdı ki, "Güney Qafqaz müstəqil federativ respublika elan olunub və bu barədə digər ölkələr də xəbərdar edilib. Beləliklə də 1918-ci il martın 18-də Osmanlı nümayəndəliyinin bəyannaməsindəki şərtlər yerinə yetirilib"[12].

Trabzon konfransında Türkiyə tərəfindən irəli sürülən həmin bəyannamədə Güney Qafqazın müstəqilliyinin elan edilməsi məsələsi təklif olunurdu.

Elə həmin vaxtda S.Şaumyan və onun başçılıq etdiyi Bakı Soveti şəhərdə və onun ətrafında yırtıcı hakimiyyətini möhkəmlətməklə yanaşı, Azərbaycan iqtisadiyyatını və ilk növbədə onun ürəyi və canı olan neft sənayesini dağıdıb hərraca qoymaqla məşğul idi. 1918-ci il aprelin 2-də "Azərbaycan neft sənayesinin milliləşdirilməsi haqqında" Bakı Sovetinin imzaladığı dekret, Azərbaycan iqtisadiyyatına vurulmuş ən ağır və ciddi zərbə idi. Bu həm də Sovet Rusiyasının neftə olan kəskin tələbatının ödənilməsinə və onun Bakı nefti üzərində nəzarəti öz əlində saxlamasına xidmət edən bir aksiya idi.

Həmin il mayın 19-da Rusiya Xalq Komissarları Sovetinin yaratdığı Baş Neft Komitəsi bolşeviklərin Bakı neftindən əl çəkmək niyyətində olmadıqlarının bariz nümunəsi idi. Neft sənayesinin şəxsi mülkiyyətdən alınıb dövlət mülkiyyətinə verilməsi ilə bağlı bütün tədbirlərin hazırlanıb həyata keçirilməsi vəzifəsi Baş Neft Komitəsinə həvalə edilmişdi.

İqtisadi blokada və kəskin yanacaq böhranı ilə üzləşən Rusiya üçün Bakı nefti hava-su kimi lazım idi. Bunu V.İ.Lenin





RK(b)P Mərkəzi Komitəsinin partiya təşkilatlarına göndərdiyi məktubda da etiraf edirdi: "Yanacaq məsələsi bütün məsələlərin mərkəzindədir. Nəyin bahasına olursa olsun, yanacaq böhranını aradan qaldırmaq lazımdır, əks-təqdirdə nə ərzaq, nə hərbi, nə də ümumi təsərrüfat məsələlərini həll etmək mümkün olmaz"[13].

Rusiyada isə neft sənayesinin milliləşdirilməsi haqqında dekret bir qədər gecikdi. Bakıda verilmiş dekretdən xəbərdar olan Lenin iyunun 18-də Şaumyana göndərdiyi teleqramda gecikməni etiraf etdi və səbəbini də açıqladı. Orada deyilirdi: "Neft sənayesinin milliləşdirilməsi haqqında dekret hələ olmamışdır*. Neft sənayesinin milliləşdirilməsi haqqında dekreti naviqasiyanın axırında vermək fikrindəyik. Hələlik neft məhsulları ticarətinin dövlət inhisarlarına alınmasını təşkil etməkdəyik. Neft məhsullarının tezliklə Volqaya daşınması üçün bütün tədbirləri görün. Baş Neft İdarəsinə neft sənayesinin vəziyyəti haqqında hər gün məlumat verin"[14].

Maraqlıdır ki, V.İ.Leninin S.Şaumyana ünvanladığı bu teleqram "Azərbaycanın müstəqilliyi haqqında akt"ın qəbul edilməsindən sonra göndərilmişdir. Xalqın öz müqəddəratlarını təyin etməsi ideyasını həmişə əldə bayraq edən Lenin, bununla da əyani şəkildə sübut etdi ki, bu yalnız bir təbliğatdır. Daha dəqiq desək, bir növ gözdən pərdə asmaq deməkdir. Sonrakı hadisələr göstərdi ki, Rusiya imperiyasını yeni "məzmunda" bərpa etmək və eləcə də Bakı neftinin bundan sonra da bu imperiyanın daimi mülkiyyətində qalmasına nail olmaq üçün Lenin və onun "silahdaşları" ən məkrli, ən çirkin, ən qanlı vasitələrə belə əl atmaqdan çəkinmədilər.

Bakı nefti uğrunda gedən açıq-gizli mücadilə son dərəcə ciddi və kəskin xarakter alırdı.

Məsələn, Ali Xalq Təsərrüfatı Şurası yanında yanacaq şöbəsinin müdiri olmuş N.Solovyov adlı birisi V.İ.Leninin adına yazdığı məktubda xahiş etmişdi ki, Xalq Komissarları Sovetinin

---

* İzah: neft sənayesinin milliləşdirilməsi haqqında dekret Xalq Komissarları Soveti tərəfindən 1918-ci il iyunun 20-də qəbul olunmuşdu (Lenin V.İ. Əsərləri, IV nəşri, 44-cü cild. Bakı, 1969, s. 469).

Bakıya 50 milyon manat göndərmək haqqındakı 1918-ci il 5 iyun tarixli qərarı ilə əlaqədar olaraq həmin məbləğin "neft çıxarılmasını davam etdirmək məqsədilə" Bakı Xalq Təsərrüfat Şurası üçün saxlanması haqqında Maliyyə Komissarlığına lazımi sərəncam verilsin"[15].

V.İ.Lenin ləngimədən, dərhal Solovyovun məktubu üzərində aşağıdakı qeydləri etdi: "Saxlamaq olmaz, çünki orada müharibədir. Xərclənməsi Şaumyana tapşırılsın, ona sərəncam verilsin ki, nefti birinci yerə salsın"[16].


V.İ.Lenin

Leninin qeydlərində "çünki orada müharibədir" ifadəsi diqqəti cəlb edir. Bu, onu göstərir ki, Bakı ətrafında baş verən hadisələr onu son dərəcə əndişələndirirdi. Halbuki hadisələr hələ Bakıdan çox-çox uzaqlarda cərəyan edirdi. Bununla belə, Rusiya hökuməti hadisələri qabaqlayaraq belə bir məlumat yaymışdı ki, guya "Bakı alman-türk qoşunu, müsavatçıların və ingilis müdaxiləçilərinin quldur dəstələri tərəfindən mühasirəyə alınmışdır"[17].

Halbuki Bakı o zaman Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak quldurlarının işğalı altında inləyirdi.

Bundan bir qədər əvvəl isə, mayın 22-də Leninin imzası ilə Rusiya Xalq Komissarları Sovetinin verdiyi qərarda deyilirdi ki, "Bakıdan neft gətirmək və neft mədənlərinin fəhlələrinə əmək haqqı vermək üçün Dövlət xəzinəsi vəsaitindən Ali Xalq Təsərrüfatı şurası yanacaq şöbəsinin sərəncamına yüz milyon manat təxsis edilsin"[18].

"Xəzər Ticarət Donanmasının milliləşdirilməsi" haqqında aprelin 5-də verilmiş dekret həyata keçirildikdən sonra Sovet





Rusiyasına neft daşınması durmadan artırdı. Həmin ilin yazında və yayında Bakıdan Rusiyaya 4 milyon 300 min tondan artıq neft və neft məhsulları daşınmışdı[19].

Bakı Xalq Komissarları Sovetinə ünvanladığı başqa bir teleqramda Lenin, "Bakıdan neft məhsullarının tezliklə çıxarılması üçün tədbirlər görün"[20], deyə tələb edirdi.

Bakı neftini əldə saxlamaqdan ötrü Lenin min bir cildə girməkdən belə çəkinmirdi. Antantanın və Türkiyənin Bakıya doğru hərəkətini əngəlləmək məqsədilə o hətta keçmiş rəqibi Almaniya ilə işbirliyi qurmaq cəhdində də bulundu.

İyunun 30-da o, Sarıtsında olan Stalinə məxfi bir teleqram göndərdi. Orada deyilirdi: "Bu gün iyunun 30-da, Berlindən İoffedən* xəbər gəlmişdir ki, Külman İoffe ilə ilkin danışıq aparmışdır. Bu danışıqdan bəlli olduğuna görə, almanlar razılıq veriblər bu şərtlə ki, türkləri Brest müqaviləsində göstərilən sərhəddə hərbi əməliyyatı dayandırmağa məcbur etsinlər və özləri üçün dürüst demarkasiya xətti müəyyənləşdirsinlər. Söz verirlər ki, türkləri Bakıya qoymasınlar, özləri də neft istəyirlər. İoffe cavab vermişdir ki, biz Brest sülhünə ciddi əməl edəcəyik, lakin almaq xatirinə vermək prinsipinə tamamilə razıyıq. Bu xəbərə ciddi diqqət yetirin və çalışıb onu Şaumyana tez çatdırın. Zira Bakını əldə saxlamaq üçün indi ən ciddi imkanlar vardır. N e f t i n  b i r  q i s m i n i (seçmə mənimdir – *N.Rza*), əlbəttə verərik.

Lenin"[21]

Beləliklə, Lenin Bakı nefti ilə bağlı Almaniya ilə başladığı sövdələşməyə "əziz yoldaş" adlandırdığı Şaumyanı da qatmış oldu. Hələ iyunun 29-da Stalinə göndərdiyi teleqramdan bir qədər əvvəl Lenin Şaumyana ünvanladığı teleqramda ona "səmimi salamlar və xoş arzular" dilədikdən sonra, onun nəzərinə çatdırdı ki, "Stalin Sarıtsındadır. Yaxşı olar ki, məktubları Stalinin vasitəsilə göndərəsiniz"[22].

* Adolf İoffe – Rusiyanın Berlindəki səlahiyyətli nümayəndəsi.

Bakı nefti ilə yoğrulmuş Moskva-Berlin sövdələşməsi belə başlandı. 1918-ci il iyulun 7-də gecə saat 1-də Leninin göndərdiyi teleqram Saritsında olan Stalinə çatdırıldı. Teleqramda deyilirdi: "Bakı haqqında ən mühüm cəhət odur ki, siz Şaumyanla daim əlaqə saxlayasınız və Şaumyan Berlindəki səfir İoffeyə almanların etdikləri belə bir təklifdən xəbərdar olsun ki, əgər biz neftin bir hissəsinin almanlara verilməsini təmin etsək, onlar türklərin Bakıya hücumunu dayandırmağa razı olarlar. Əlbəttə, biz razı olarıq. Beləliklə, sol eserlərə qarşı amansız olun və tez-tez məlumat göndərin"[23].


İ.V.Stalin

Elə həmin gün, gecə saat 3-də Lenin, Stalinin təcili olaraq göndərdiyi cavab teleqramını aldı. Stalin yazırdı: "Lap bu gün Bakıya qasidlə məktub göndərirəm. Hər şeyi edəcəyik.

Şivən qoparanlara gəldikdə, əmin olun, əlimiz titrəməyəcək. Düşmənlərlə düşmən kimi rəftar edəcəyik"[24].

1918-ci il iyunun 4-də Azərbaycan ilə Türkiyə arasında bağlanmış sülh və dostluq haqqında müqavilə, bunun ardınca iyunun 5-də türk ordusunun Yelisavetpola (indiki Gəncəyə) daxil olması, iyunun 27-də Qafqaz ordusunun Göyçay ətrafında Bakı Sovetinin qoşunlarını ağır məğlubiyyətə uğratması və bu kimi başqa hərbi-siyasi əhəmiyyət kəsb edən mühüm hadisələr, Rusiyadakı bolşevik rejimini sözsüz ki, böyük təşvişə salmış və təcili o laraq çıxış yolları axtarmağa məcbur etmişdi. Bakı neft amilindən hərbi-siyasi məqsədlər üçün istifadə etmək cəhdləri də məhz bununla bağlı idi. Bu sövdələşmənin böyük operativlıklə həyata keçirilməsi üçün göstərilən səylər, hərbi-siyasi vəziyyətin bir tərəfdən Bakı Soveti, həmçinin Rusiya üçün də son dərəcə təhlükəli olduğundan xəbər verirdi. Digər tərəfdən isə Antanta amilini də nəzərdən qaçırmaq olmazdı. Onların Bakı nefti ilə bağlı iddiaları var idi. Və bu iddialar, onu təmsil edən dövlətlərin fikrincə, son dərəcə əsaslı sayılırdı.





Azərbaycanın neft sənayesinin milliləşdirilməsi haqqında verilmiş dekret nəinki Bakının neft sənayeçilərinin, həmçinin beynəlxalq maliyyə qurumlarının da hədsiz narazılığına səbəb oldu. Bakı neftində maraqları olan Antanta bloku dövlətləri İngiltərə və Fransanı təcili tədbirlərə əl atmağa məcbur etdi. Onların təşəbbüsü ilə İspaniyanın, Hollandiyanın, Norveçin, Danimarkanın, İsveçrənin və İranın Moskvadakı diplomatik nümayəndələri neft sənayesinin milliləşdirilməsinə qarşı etiraz elan etdilər. Lakin o, "RSFSR-in daxili işlərinə qarışmaq" kimi qiymətləndirilərək rədd edildi[25].

Zira Rusiya hökuməti unudurdu ki, Azərbaycanın neft sənayesini milliləşdirərkən, o da öz müstəqilliyini rəsmi şəkildə elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlərinə, yumşaq desək, kobud şəkildə qarışmış olurdu. Bakı neftinin gecəligündüzlü heç bir hüquqi əsası olmadan Rusiyaya daşınması isə iqtisadi quldurluq kimi qiymətləndirilməlidir. Çünki Rusiyada hakimiyyətə gələn bolşeviklərin özü qeyri-legitim idi. Odur ki, onların tələbləri də, atdıqları siyasi-iqtisadi addımlar da qeyri-legitim sayılmalı idi.

Brest-Litovsk müqaviləsi və Rusiya ilə Almaniya arasındakı Bakı nefti ilə bağlı sonrakı anlaşmaların özü də təbii ki, Antanta dövlətlərinin nəzər diqqətindən yayına bilməzdi. Bakı neftinə sahib çıxmaq məsələsində, necə deyərlər, oyundan kənar vəziyyətdə qalmamaq üçün onların qəti və radikal addımlar atacaqlarını proqnozlaşdırmaq heç də çətin deyildi. Həm də nəzərə almaq lazımdır ki, Rusiyanın müharibədən çıxması nəticəsində İranda ingilis amili son dərəcə yüksəlmiş və İngiltərə öz hərbi potensialını İranın quzeyində də artırmaq imkanı əldə etmişdi. Odur ki, əlverişli məqam yetişdiyi bir vaxtda Bakını ələ keçirmək onun üçün bir o qədər də mürəkkəb məsələ sayıla bilməzdi.

Türkiyəyə gəldikdə isə onun Almaniyanın tələbiylə hərəkət edəcəyi bir o qədər də inandırıcı görünmürdü. Çünki Birinci cahan

savaşının gedişatı açıq-aydın göstərdi ki, müttəfiq dövlətlərin milli maraqları heç də hər zaman üst-üstə düşmür, əksinə, bir çox hallarda müəyyən ziddiyyətlərin yaranmasına səbəb olurdu.

Türkiyə isə Güney Qafqazdakı fəaliyyətini gündən-günə genişləndirir və Almaniyanın atacağı addıma məhəl qoymadan onun silahlı qüvvələri Qafqaz islam ordusunun tərkibində Bakıya doğru hərəkətə başlayırdı.

Beləliklə, Bakı neftinin çoxəsrlik tarixində yeni bir mərhələnin təməli qoyulurdu. Bu nədən ibarət idi? Bu ondan ibarət idi ki, bu vaxta qədər Bakı neftini əldə etmək uğrunda müxtəlif ölkələrə məxsus ayrı-ayrı şirkətlər, yerli və xarici iş adamları mübarizə aparırdılarsa, indi o, hərbi-siyasi məna daşıdığından, dövlətlər səviyyəsində aparılan mübarizəyə çevrildi. Bu, mübarizədə iqtisadi amillərdən daha çox siyasi iradə və hərbi güc tələb edirdi. Odur ki, cari mərhələdə məhz bu amillər ön plana çıxmış oldu. Acınacaqlısı budur ki, dünyanın başqa bölgələrində olduğu kimi, bu amillər müdhiş bir ənənəyə çevrilərək, Bakı nefti ətrafında gələcəkdə də bir neçə dəfə təkrarlandı. Bakı dəfələrlə real təhlükə ilə üzbəüz qaldı.

Hələlik isə Bakının itirilməsi təhlükəsi Sovet Rusiyasını radikal tədbirlərə əl atmağa məcbur etdi. Qafqaz islam ordusunun iyulun 10-da Kürdəmiri azad etməsi, onun öz zəfər yürüşünü sona qədər davam etdirmək iqtidarında olduğundan xəbər verirdi. Digər tərəfdən, artıq İranın quzeyində özünü son dərəcə sərbəst hiss edən ingilislər, açıq-aşkar Bakıya doğru meyllənirdilər.

Belə bir vaxtda Bakının bolşeviklərin əlində qalması Rusiya üçün həyati əhəmiyyət kəsb edən bir məsələyə çevrildi. Odur ki, Şaumyan rejiminə kömək məqsədilə əlində olan imkanlar çərçivəsində hərbi yardım tədbirləri görməyə məcbur oldu.

İyulun əvvəllərində Quzey Qafqaz hərbi dairəsinin təchizat bürosunun rəhbəri tərəfindən Rusiyanın dəniz kollegiyasına bir kağız daxil oldu. Həmin kağızda xahiş edilmişdi ki, Xəzər dənizinə və Kür çayına "Nikson" katerləri və ya "Stasionar" keşik katerləri tipində 8-10 ədəd mühərrikli gəmi göndərilsin...





Həmin katerlərdə 37 m/m və 47 m/m-lik toplar və pulemyotlar olmalıdır. Katerlər, onların mühərrikləri üçün ehtiyat hissələri ilə, habelə ən çox işlənib xarab olan və sınan digər hissələrlə təchiz edilməlidir... Bu gəmilər təcili olaraq Bakı Xalq Komissarları Soveti hərbi-dəniz şöbəsinin sərəncamına göndərilməlidir"[26].

Lenin bu məktubun üzərinə dərkənar qoyub, onu Xalq Dəniz işləri Komissarlığına ünvanladı. 13 iyul tarixli bu dərkənarda yazılmışdı: "Çox xahiş edirəm Xəzər dənizinə bütün münasib tiplərdə dəniz hərb gəmilərinin çatdırılmasını sürətləndirmək üçün hər cür tədbir görəsiniz"[27].

1918-ci il iyulun 25-də Bakı Sovetinin iclası keçirildi. İclasda ingilis qoşunlarının Bakıya dəvət olunması barədə qərar qəbul edildi. Bu qərar Qafqaz islam ordusunun Bakıya doğru müzəffər yürüşünün qarşısının alınması ilə əlaqədar idi. Bunun üçün ingilislərin gəlişi daha məqbul sayılırdı. Qərara tabe olmaq istəməyən Bakı Xalq Komissarları Soveti hakimiyyəti təhvil vermək məcburiyyətində qaldı. Bolşevikləri sağ eserlərdən, menşeviklərdən və daşnaklardan təşkil edilmiş blok əvəz etdi. Avqustun 1-də "Sentrokaspi Diktaturası" adlanan hökumət fəaliyyətə başladı və özünün bolşevik Rusiyasına qarşı müxalifətdə olacağını bəyan etdi.

Belə bir vəziyyətdə Sovet Rusiyasının Şaumyan rejiminə hərbi yardım göstərə bilməsi olduqca müşkül görünürdü. Rusiya hökumətində dərin bir məyusluq hökm sürürdü. Bundan bir qədər əvvəlki günlərdə son dərəcə qətiyyətli görünən Lenin indi olduqca mürəkkəb bir vəziyyətlə üzləşdiyini dərk edirdi. Türk təhlükəsi azmış kimi, bu yandan da ingilis təhlükəsinin yaranması onun Bakı nefti ilə əlaqədar planlarını tamamilə alt-üst etmişdi.

Şaumyan rejiminin süqutundan cəmi 4 gün sonra, iyulun 29-da onun Həştərxan hərbi şurasının üzvü ilə birbaşa danışığı Leninin çaşqınlığından xəbər verirdi.

Həştərxandan verilmiş "Bakı üçün Həştərxana nə zaman və hansı miqdarda kömək gələcəyini gözləmək lazımdır ki, gəmi və ərzaq hazır edilsin?" – sualına Lenin belə cavab vermişdi: "Qəti vəd verə bilmərik, çünki burada da qoşun çatışmır"[28].

Elə həmin gün Şaumyana göndərdiyi teleqramda da Lenin deyirdi: "Qoşun göndərmək haqqında tədbirlər görəcəyik, lakin qəti vəd verə bilmərik"[29].

Bakı hadisələri Lenini son dərəcə hiddətləndirdi. O, bunu elə həmin gün, yəni iyulun 29-da ÜRMİK-nın, Moskva Sovetinin, Moskva fabrik-zavod komitələri və həmkarlar ittifaqlarının birgə iclasındakı nitqində də aydın bildirirdi. O, bu hadisələrdə ilk növbədə "bizim əleyhimizə olaraq ingilis-fransız imperializmi tərəfə" keçən Daşnaksütyun partiyasını günahlandırmışdı[30].

Nitqinin əvvəlində isə o belə demişdi: "Nəhayət, dünən xəbər alınmışdır ki, Bakıda ingilis-fransız imperializmi çox t ə s i r l i (seçmə mənimdir – *N.Rza*) bir manevr etməyə müvəffəq olmuşdur"[31].

Sonra nitqini yarıda kəsərək, Lenin Bakı Xalq Komissarları Sovetinin Mətbuat bürosunun göndərdiyi teleqramın məzmununu bütövlüklə iclas iştirakçılarının nəzərinə çatdırır.

Teleqramın məzmunu vəziyyətin son dərəcə mürəkkəb olduğundan xəbər verirdi. Orada deyilirdi: "İyulun 26-da Hacıqabul dəstəsi, xalq komissarı Korqanovun əmri ilə Hacıqabuldan Ələt yaxınlığındakı mövqelərə çəkildi. Şamaxı dəstəsi Şamaxı və Mərəzədən geri çəkiləndən sonra düşmən Pirsaat çayı vadisi ilə hücuma keçdi. Qubalı kəndi yaxınlığında avanqardla ilk toqquşma oldu.

Eyni zamanda cənubdan, Kür çayı tərəfdən Pirsaat stansiyasına doğru çoxlu süvari irəliləməyə başlamışdı. Belə bir vəziyyətdə Hacıqabul stansiyasını əldə saxlamaq üçün bütün mövcud qüvvələri üç tərəfə – Hacıqabuldan qərbə, Nəvahı-Pirsaat vadisindən şimala və cənuba doğru səpələmək lazım gəlirdi. Cəbhənin belə uzanıb getməsi bizi ehtiyat qüvvələrindən məhrum edərdi və süvari hissə olmadığına görə düşmənə zərbə endirmək imkanı verməzdi və cəbhə şimaldan və ya cənubdan yarıldıqda Hacıqabul qrupunu hətta ağır vəziyyətdə qoyardı. Vəziyyət belə olduğuna görə, habelə qoşun qüvvələrini mühafizə etmək məqsədilə, Hacıqabul dəstəsinin Ələt yaxınlığındakı mövqelərə çəkilməsi haqqında əmr verilmişdı. Dəstə tam intizamla geri





çəkilmişdir. Dəmir yolunda və Hacıqabul stansiyasındakı bütün tikintilər, habelə neft və ağneft çənləri partladılmışdır"[32].

Bütün bu hadisələr göstərir ki, Şaumyan rejiminə xidmət edən silahlı dəstələr artıq Qafqaz islam ordusunun daim artan təzyiqinə davam gətirmir, odur ki, geri çəkilməyə məcbur olurdular. Bu da son nəticədə bolşevik hakimiyyətinin süqutuna gətirib çıxardı.

Teleqramda ingilislərlə də bağlı maraqlı məlumatlar özünə yer almışdır.

"Son məlumat ingilislərin İranda irəliləyərək Rəşti (Gilan) tutduqlarını göstərir. Rəştdə ingilislər Kiçikxanla və Bakıdan qaçmış müsavatçılar başda olmaqla Kiçikxana qoşulan alman-türk quldur dəstələri ilə 4 gün vuruşmuşlar. Rəşt vuruşmasından sonra ingilislər bizdən kömək istəmişdilər, lakin bizim İrandakı müvəkkillərimiz onlara rədd cavabı vermişlər. Rəştdə ingilislər qalib gəlmişlər. Lakin onların İranda, demək olar, heç qüvvələri yoxdur. Müəyyən edilmişdir ki, Ənzəlidə cəmi 50 nəfər ingilis vardır. Onların benzinə ehtiyacı vardır və benzin əvəzində bizə avtomobil təklif edirlər. Onlar benzinsiz irəliləyə bilmirlər"[33].

Beləliklə, Qafqaz islam ordusunun getdikcə Bakıya doğru yaxınlaşması, hakimiyyətdə olan siyasi qüvvələri iki cəbhəyə



Qafqaz İslam Ordusu

parçaladı. Onlardan biri – Bakı Xalq Komissarları Soveti, qurtuluş yolunu bolşevik Rusiyasında görürdüsə, digəri – Bakı Soveti isə ingilislərin gəlişinə ümid bəsləyirdi. Fəqət, Azərbaycan Xalq Cümhurıyyətinin qanuni hakimiyyətini bütün ölkə ərazisində bərqərar etmək vəzifəsını həyata keçirməyə çalışan Qafqaz islam ordusu isə hər iki tərəf üçün eyni dərəcədə arzuaolunmaz idi. Çünki, o, milli maraqlara xidmət edən bir qüvvə idi.



# XXIII fəsil

# BAKI NEFTİ UĞRUNDA SÖVDƏLƏŞMƏLƏR

Sentrokaspi Diktaturasının hakimiyyəti ələ keçirməsi ilə Bakı nefti uğrunda mücadilənin yeni, daha fəal, daha intensiv bir mərhələsi başlandı. Bu mücadilənin üç böyük və əsas iştirakçıları olan Böyük Britaniya, Almaniya və Rusiya, əllərində olan bütün hərbi, siyasi, iqtisadi vasitələri işə salaraq, Bakı neftini ələ keçirməyə çalışırdılar. Halbuki bu mübarizə çoxdan başlamışdı. Müharibənin həlledici ilində Bakı neftinə sahib çıxmaq, böyük siyasi və hərbi üstünlüklər əldə etmək demək idi.

Maraqlıdır ki, Bakı nefti ilə bağlı məsələdə hər bir ölkənin öz nöqteyi-nəzəri, öz strategiyası mövcud idi. Məsələn, Mesopotamiyada Mosula doğru uğurla hərəkət edən ingilislər vaxtı itirmədən, Lüdendorfun təbirincə desək, "qaçıb-dağılmış rus qoşunlarının əvəzinə Quzey İranda möhkəmləndilər"[1].

İngilislərin İranın quzeyində möhkəmlənməsindən əndişələnən alman komandanlığı bunun nə demək olduğunu gözəl başa düşürdü. Rus ordusunun olmaması şəraitində ingilislər elə bir ciddi maneəyə rast gəlmədən, çox asanlıqla Bakını ələ keçirə bilərdilər. Bunun qarşısını almaq üçün alman komandanlığı iki istiqamətdə hərbi əməliyyat keçirməyi məqsədəuyğun sayırdı. Onlardan biri Mesopotamiya cəbhəsində idi, digəri isə Quzey İranda. Hər iki halda o, Türkiyənin fəal iştirakının vacibliyini də nəzərdən qaçırmırdı. Lakin Brest-Litovsk sülhündən sonrakı dövrdə Türkiyənin yeritdiyi siyasət heç də hər zaman Almaniyanın ürəyincə olmurdu. Türkiyənin yaranmış vəziyyətdən çıxış edərək, öz milli maraqlarını ön plana çəkməsi və öz müstəqilliyini yenicə elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti ilə bağladığı müqaviləyə əsasən fəaliyyət göstərməsi hətta öz müttəfiqini də qıcıqlandırırdı. Lüdendorf bu barədə yazırdı: "Mən Türkiyənin gördüyü tədbirlərə razılıqla yanaşırdım. Çünki onlar müharibənin ümumi inkişafına xidmət edirdilər. Lakin onlar Türkiyəni onun üzərinə qoyulmuş hərbi vəzifələrdən sapdırmasınlar və yaxud Qafqazdan

xammal* çıxarmaq işində bizə çətinlik yaratmasınlar. Çünki bu bizə, gözlədiyimiz kimi, əsaslı dərəcədə yüngüllük gətirə bilər. Ənvərin (Ənvər Paşa – *N.Rza*) vəzifəsi İngiltərə ilə mübarizə aparmaq idi. Həm də, hər şeydən əvvəl, Fələstin cəbhəsində"[2].

Fikrini davam etdirərək, Lüdendorf daha sonra yazır: "İndi isə ingilislərə, həmçinin İranın quzeyində zərbə endirmək imkanı yarandı. Tiflisdən keçməklə Batumdan Təbrizə qədər uzanan dəmir yolu xətti buna imkan verirdi. Quzey İranda türklər ingilislər üzərində üstünlük əldə edə bilərdilər. Bununla belə əgər Azərbaycan əhalisini də İngiltərəyə qarşı qaldırmaq mümkün olsaydı, bu, böyük rol oynamış olardı. Belə nəticəyə gətirib çıxara biləcək hər bir şeyə mən böyük məmnuniyyətlə kömək edərdim. Lakin Ənvər və Türkiyə hökuməti Qafqazda öz panislamist məqsədləri barədə daha çox düşünürdülər, nəinki İngiltərə ilə müharibə haqqında. Bu məsələ olduqca real məqsədlərə xidmət edirdi, əsas etibarilə isə Güney Qafqaz xammalından istifadə olunması ilə bağlı əldə edilmiş mənfəətə. Nəticədə Almaniyanın hərbi təsərrüfatı heç nə əldə edə bilməzdi.

Buna görə biz, türklərin güddükləri məqsədlərlə istər-istəməz ziddiyyətli mövqedə qalmış olduq"[3].

Burada, necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur. Müttəfiqlər olsalar da, maraqların və mövqelərin haçalanması göz qabağındadır. Bunun da əsas səbəbkarı təbii ki, Bakı nefti idi.

Hələ müharibədən xeyli əvvəl Almaniya duru yanacaqla bağlı son dərəcə mühüm problemlərini necə olur-olsun həll etmək zorunda qalmışdı.

Təbii neft mənbələrindən məhrum olan bu ölkə, özünün süni yanacaq istehsalını yaratmağa məcbur idi. İyirmi il ərzində xarici şirkətlərdən və əsas etibarilə "Standard Oil"dan asılı vəziyyətdə olan Almaniya üçün bu olduqca həyati əhəmiyyətə malik bir məsələ idi. Neft qıtlığı ona öz hərbi texnikasını müasir tələblər səviyyəsinə çatdırmağa da maneçilik törədirdi. Doğrudur, güclü sualtı donanma yaratmağa nail olmuşdusa da, onun hərəkətini təmin etmək üçün küllı miqdarda duru yanacaq tələb olunurdu. Məhz bu səbəbdən o, hələ müharibə başlamazdan əvvəl öz nəzərlərini Rumıniyaya, Mosula, Anadoluya, Quzey İrana və Qafqaza dikməli olmuşdu. Lakin çağdaş müharibədə, necə deyərlər, neftə çatmaq üçün də neft tələb olunurdu. Süni yanacaq əldə etmək ideyası da məhz elə o zaman meydana çıxdı.

Almaniyanın iri kimya sənayesi və onun mütəxəssisləri sintetik benzin əldə etməyin bir neçə texnoloji üsulunu yaratmağa nail oldular. Nəticədə Almaniya süni benzin istehsalı üzrə dünya liderinə çevrildi. 1913-cü ildə Bergiusun** ixtira etdiyi kömürdən benzin almaq prosesi isə kommersiya baxımından ən dəyərli hesab olunurdu. Lakin müharibənin gedişatı əyani surətdə sübüt etdi ki, qələbə əldə etmək üçün bu heç də kifayət deyildir. Müasir müharibə etibarlı yanacaq mənbələrinin olmasını tələb edir. Məhz bu səbəbdən Almaniya, sualtı donanmanı çıxmaq şərtilə, hərbi texnikanın digər növləri cəhətdən, əsas rəqibləri İngiltərə və Fransadan xeyli geri qalırdı. Bu da öz növbəsində hərbi əməliyyatları uğurla başa çatdırmaqda ona əngəl olurdu. Xüsusilə də qərb cəbhəsində. Halbuki alman ordusu hərbi hazırlıq baxımından rəqiblərdən nəinki geri qalmırdı, əksinə bir çox hallarda onlardan xeyli üstün idi.

General Lüdendorf, fransız generalı Foşun iyulun 17-də Şampanda, iyulun 18-də isə Reymsin cənub-qərbində almanların mövqeyinə uğursuz hücumlarını qeyd edərək, daha sonra fransızların hərbi texnikasının miqdarı və fəaliyyət dairəsi haqqında məlumat verərək yazır "Qısa və güclü artilleriya hazırlığından sonra düşmən hücuma o qədər tank göndərdi ki, hələ indiyədək məhdud bir sahədə bu qədər tank cəmləşdirilməmişdi. Həm də ilk dəfə idi ki, kiçik, alçaq, sürətli tanklar tətbiq olunurdu...

Daha sonra burada elə tanklar gördük ki, onlar yalnız insanları daşımağa xidmət edirdi. Onlar bizim müdafiə xətlərimizi asanlıqla keçir, öz sərnişinlərini pulemyotları ilə birlikdə boşaldır və

---

* İlk növbədə neft nəzərdə tutulur.

** Fridrix Bergius – Alman kimyaçı-alimi. 1931-ci ildə K.Boş ilə birlikdə Beynəlxalq Nobel mükafatına layiq görülmüşdür.

beləliklə də arxamızda pulemyot yuvaları yaradırdılar. Sonra isə yeni qüvvələrin ardınca yollanırdılar"[4].

Fransız qoşunlarının mütəhərrikliyindən, döyüş texnikasının böyük zərbə gücünə malik olmasından valeh olan alman generalı, öz ordusu üçün belə imkanları yalnız arzu edə bilərdi.

Yeri gəlmişkən bir daha yada salaq ki, müharibənin sonunda fransızların üç min tankı vardısa, almanların sərəncamında cəmi əlli tank vardı. Onların böyük əksəriyyətini qənimət alınmış tanklar təşkil edirdi[5].

Ordunun təchizatı məsələsi ilə bağlı problemlərə toxunarkən, Lüdendorf yazırdı: "Müxtəlif təchizat mallarının daşınması ilə yanaşı, böyük miqdarda hərbi ləvazimatın daşınması da tələb olunurdu. Arxada olan dəmir yolları vasitəsilə bu vəzifənin öhdəsindən gələ bilməzdik. Dəmir yolları lazımi qədər yanacaq ehtiyatına malik avtomobil nəqliyyatı ilə əvəz oluna bilərdi. Lakin bunlar da əsla yox idi"[6]. Halbuki müttəfiqlər müharibədə 105 min avtomobildən istifadə etmişdilər[7].

Neftə olan tələbatın günbəgün artdığı bir vaxtda alman komandanlığı qarşısında gözəl perspektivlər açıla bilərdi. Bakını ələ keçirməklə onlar özlərinin neft problemini birdəfəlik həll edə bilərdilər. Bu həm də Antantaya qarşı uzun müddətdən bəri aparılan sualtı müharibənin uğurlu davamının rəhni idi.

Fəqət bunun da öz mürəkkəbliyi, öz çətinlikləri vardı. Almanların əsas qüvvələrinin qərb cəbhəsində cəmləşdirildiyindən Bakını öz qüvvələri ilə ələ keçirmək imkanları xeyli dərəcədə məhdud idi. Həm də Qafqazın istər siyasi, istərsə milli münasibətlər baxımından öz özəllikləri vardı. Odur ki, Almainya hərbi cəhətdən yalnız Türkiyəyə bel bağlaya bilərdi. Lakin, bir qədər əvvəl qeyd etdiyimiz kimi, Türkiyənin də öz maraqları vardı. Odur ki, Almaniyanın ona münasibəti heç də birmənalı deyildi. Xüsusilə də türk silahlı qüvvələrinin də daxil olduğu Qafqaz islam ordusunun Bakıya doğru inadlı yürüşü fonunda. Fəqət Almaniyanın arsenalında daha iki variant mövcud idi. Onlardan biri Gürcüstana, digəri isə Rusiyaya aid idi.





Əvvəla onu deyək ki, almanlar Qafqaz islam ordusunun Bakını ala biləcəyinə bir o qədər də inam bəsləmirdilər. İkinci tərəfdən isə bolşevik Rusiyasının Bakıdakı mövqelərinin hələ də güclü olduğunu zənn edən Almaniya, bir qədər əvvəl göstərdiyimiz kimi, Rusiya ilə diplomatik danışıqlara girərək, Türkiyənin Bakıya gəlməsini əngəlləmək müqabilində Bakı neftindən pay almaq ümidində idi. Bu mövzu ətrafında Rusiya ilə danışıqların aparılmasının vacibliyini Almaniyanın İstanbuldakı konsulu da bildirmişdi. Öz hesabatında o yazırdı: "Əgər biz bolşeviklərlə razılaşa bilsək, o zaman Bakının neft mənbələri və neft ehtiyatları sağ-salamat bizim əlimizə keçəcək. Əgər gözlədiyimizin əksinə olaraq, bolşeviklər oranı tərk etməyə məcbur edilsələr, o zaman mədənləri yandıracaqlar. O vaxt nə türklər, nə də biz neft ehtiyatlarından istifadə edə bilməyəcəyik. Onlarsız isə Qafqaz dəmir yollarının fəaliyyəti tez bir zamanda kəsiləcək"[8].

Bakı mədənlərinin yandırılması perspektivi almanları son dərəcə narahat edirdi. Bu, onların fikrincə Qafqaz islam ordusunun Bakıya hücum edəcəyi təqdirdə baş verə bilərdi. Odur ki, Bakıda Sovet Rusiyasının qulbeçəsi – Şaumyan rejiminin mövcudluğu, çox güman ki, hələlik Almaınyanı daha çox qane edirdi. Odur ki, Rusiya ilə danışıqlara böyük önəm verirdi. Amma, məlum olduğu kimi, Qafqaz islam ordusunun Bakıya hücumundan hələ bir qədər öncə Şaumyan rejimi hakimiyyətdən birdəfəlik uzaqlaşdırıldı. Onun yerini tutan qüvvələr isə mövcud şəraitə uyğun olaraq, ingilislərə üstünlük verməyi daha məqsədəuyğun saydılar.

Gürcüstan variantına gəldikdə isə Almaniya hələ müharibədən əvvəl bu bölgədə özünə müəyyən qədər mənəvi dayaq nöqtələri yarada bilmişdi. Tiflis qubemiyası jandarm idarəsinin rəisi polkovnik Pastryulinin sözlərinə görə, müharibənin əvvəlində Rusiyaya qarşı düşmən əhval-ruhiyyədə olan bəzi sosial-federalistlərlə alman agenturası arasında almanların hərbi uğurlarına yardım göstərmək barədə həqiqətən danışıqlar aparılırdı[9].

Almanların, Rusiyaya qarşı mübarizə aparmaq üçün Qafqaza 50 min nəfərlik silahlı qüvvə və iki milyon rubla yaxın pul gön-

dərmək[10] barədəki niyyətləri haqda biz əvvəlki fəsillərdən birində məlumat vermişdik.

Sosial-federalistlər hətta İstanbulda Rusiya əleyhinə yönəldilmiş "Gürcü komitəsi" ("Qruzinskiy komitet") adlı bir qurum da yaratmağa nail olmuşdular.

Jandarm zabiti Kubitskinin dediyinə görə, "Gürcü komitəsi" Türkiyə və Almaniya hökumətləri ilə əlaqəyə girib, onlara köməklik göstərəcəyini vəd edib.[11]

Müharibə başlandıqdan sonra da Almaniya gürcü millətçiləri ilə əlaqəni kəsmir, əksinə, daha da möhkəmləndirməyə çalışırdı.

1918-ci il mayın 11-dən iyunun 4-nə kimi Batumda Türkiyə ilə Güney Qafqaz arasında keçirilən sülh konfransında general Otto fon Lossovun rəhbərliyi ilə Almaniyanın nümayəndə heyəti də iştirak edirdi. Lossov Batumda gürcü nümayəndələri ilə gizli görüşlər keçirərək, onlara hərbi və iqtisadi yardım ediləcəyini vəd etdi.[12]

Alman-gürcü danışıqlarına işıq salan general Lüdendorf yazır: "Batumda danışıqlar zamanı Gürcüstan respublikasının nümayəndələri general fon Lossova müraciət edərək, Almaniya imperiyasının himayəçiliyini xahiş etdilər. 1915-ci və 1916-cı illərdə uğurlu olmasa da, gürcü könüllü dəstələri ilə birlikdə Ermənistanda (oyuncaq "Türkiyə Ermənistanı" nəzərdə tutulur – *N.Rza*) fəaliyyət göstərmişdik. Bununla belə, bir neçə nüfuzlu gürcü ilə müəyyən əlaqə də yaratmışdıq. Bizə olan belə münasibəti və Gürcüstanın Almaniya tərəfindən himayəçilik edilməsi xahişini, hərbi mülahizələrə görə, mən yalnız alqışlaya bilərdim. Onlar bizə imkan verirdi ki, Türkiyədən asılı olmadan Qafqaz xammalına (neft nəzərdə tutulur – *N.Rza*) çataq və Tiflisdən keçən dəmir yolunun istismarı üzərində təsir imkanına malik ola bilək. Bu dəmir yolu Quzey İranda müharibə aparmaq üçün böyük əhəmiyyət kəsb edirdi. Və onun alman nəzarəti altında istismar olunması daha uğurlu ola bilərdi, nəinki türklərin iştirakı ilə"[13].

Lüdendorf daha sonra maraqlı bir açıqlama verir: "Hökumət başqa səbəblərə görə də Gürcüstana istiqamətlənən sifasəti dəstəkləyirdi. O, bolşevik Rusiyasına qarşı münasibətdə Türkiyənin





edə biləcəyi hərəkət nəticəsində yarana bilən əngəllərdən ehtiyatlanırdı"[14].

Beləliklə, müəyyən zaman çərçivəsində Bakı neftinə münasibətdə almanların maraqları rus bolşeviklərinin maraqları ilə üst-üstə düşmüş oldu. Lakin bir qədər sonra Lüdendorf qeyd edir: "Almaniya hökuməti bolşevizmin gizli işlərini duya bilmirdi... Hökumətimizin inamı sonsuz idi. Hətta Moskvada bizim səfirin* qətlinin cəzasız qalması da onu sarsıtmadı"[15].

Daha sonra bolşevik Rusiyasının məkrli, riyakar siyasətindən söz açan müəllif qeyd edirdi ki, Almaniyanın boynunu ipə keçirmək üçün, o (yəni Rusiya – *N.Rza*) xeyli güzəştlərə də getməyi lazım bildi: "O cümlədən Bakıdan neftlə təchiz edilməyə də".[16]

Lüdendorfun yazdığına görə Almaniyanın edəcəyi güzəştlər çox da böyük deyildi. Onlardan ən əsası ondan ibarət idi ki, Almaniya "türklərin Bakını tutmasına mane olmaq üçün Türkiyəyə təsir" göstərməliydi.[17]

Batum konfransının getdiyi bir vaxtda, mayın 25-də Almaniya vaxtı itirmədən özünün 3 minlik hərbi kontingentini general fon Kressin komandanlığı altında Gürcüstanın Poti limanına çıxardı və öz həqiqi niyyətinin ciddiyyətini bir daha nümayiş etdirdi. Məhz general fon Kressin bilavasitə təzyiqi nəticəsində Gürcüstan, Zaqafqaziya Federativ Respublikasının tərkibindən çıxdığını elan etdi. Beləliklə də Türkiyənin bilavasitə təzyiqi ilə yaranmış Zaqafqaziya Federativ Respublikası süqut etdi.

Bu hadisədən cəmi 4 gün sonra, 1918-ci il mayın 30-da Almaniyanın diplomatik nümayəndəliyi, başda qraf Şulenberq olmaqla Tiflisə təşrif gətirdi.

Bunun ardınca Gürcüstanda yaşayan yerli alman əhalisinin, habelə Güney Qafqazdakı Avstriya və alman əsirlərin səfərbərliyi elan olundu. Gürcüstana alman hərbi mütəxəssisləri və qoşunlar gəlməyə başladı. Tezliklə Gürcüstanın bütün dəmir yolları və su nəqliyyatı alman işğalçılarının əlinə keçdi.[18]

---

* Qraf Mirbax Vilhelm – alman diplomatı. Almaniyanın Moskvadakı səfiri. 1918-ci ildə sovet mənbələrinin məlumatına görə, sol eser U.Blyumkin tərəfindən qətlə yetirilmişdi.

1918-ci ilin iyulunda Belçikanın Spa şəhərində Almaniyanın Ali komandanlığının qərargahında keçirilmiş gizli müşavirədə Qafqazdakı vəziyyət və Bakı neft rayonuna çıxmağın üsulları geniş müzakirə obyektinə çevrildi. Almaniya kayzeri Vılhelmın, general-feldmarşal Hindenburqun, general Lüdendorfun, habelə Almanıyanın hərbi elitasının digər yüksək rütbəli zabitlərinin müşavirədə iştirakı, onun son dərəcə böyük əhəmiyyət kəsb etdiyindən xəbər verirdi. İmperiya kansleri, polkovnık fon Kressin Fələstin cəbhəsindən çağırılıb Almaniya hökumətinin nümayəndəsi kimi Tiflisə ezam olunması haqqında məlumat verdi[19].

Lüdendorf yazır: "Gürcüstanda biz qətiyyətlə hərəkət etməli idik. Bunu xammalla təczih edilməyimiz üçün mövcud şərait tələb edirdi... Bu məsələdə Türkiyəyə bel bağlaya bilməzdik, bunu onun Batumda etdiyi hərəkətlər də sübut etdi. Bakıdan nefti biz yalnız öz qüvvələrimizə arxalandığımız təqdirdə ala bilərdık. Almaniyada yanacaq materiallarının çatışmazlığını, qış dövründə işıqlandırma ilə bağlı çətinlikləri və bunlarla bağlı bütün əlavə təzahürləri olduqca aydın xatırlayıram. 7-ci ordunun hücumundan sonra biz ordunun bütün yanacaq ehtiyatlarını sərf etdik və bizdə onun son dərəcə böyük çatışmazlığı hiss olunurdu. Ukraynanın dəmir yolları üçün də neft tələb olunurdu. Rumıniyada neft hasilatı mümkün olan həddə qədər qaldırılmışdı. Lakin buna baxmayaraq, bütün tələbatımızı onunla (neft ilə – *N.Rza*) ödəmək haqqında isə heç düşünməyə belə dəyməzdi. İndi isə bizə elə gəlirdi ki, neft çatışmazlığını Güney Qafqazdan, xüsusilə də Bakıdan neft daşımaqla ödəmək mümkün olar..."[20]

Alman komandanlığı onu da gözəl başa düşürdü ki, Bakı neftini əldə etmək üçün həll edilməsi son dərəcə çətin olan problemlər də az deyildir. Onlardan ən vacibi, şübhəsiz ki, neftin nəqlı məsələsi idi. Neftin Bakıdan Qara dəniz sahilinə, oradan da Almaniyaya daşınması heç də asan deyıldi. Bunun üçün Güney Qafqaz dəmir yolunun tam təhlükəsizliyi, istənilən sayda vaqon-çənlərin və tankerlərın mövcudluğu tələb olunurdu. Bu isə öz növbəsində olduqca böyük təşkilatçılıq, əzmkarlıq işi və qətiyyətli tədbirlər sayəsində əldə oluna bilərdi. Fəqət, gözlənilməz hadisələrin də baş verə biləcəyini nəzərdən qaçırmaq olmazdı.





Belə hadisələrdən biri haqqında Lüdendorf yazır: "Bizə zərər vurmaq məqsədilə bolşeviklər Qara dənizdə ən böyük maye daşıyan gəmi olan "Elbrus" gəmisini Novorossiyskdə batırdıqda, mən olduqca məyus oldum"[21].

Almanların Türkiyə ilə razılaşmasına əsasən, Batum-Tiflis-Bakı dəmir yolunun işə salınmasının təşkili polkovnik fon Kressə həvalə olunmuşdu. Zira, orada böyük vaqon-çən parkı mövcud idi. Lakın bütün bunlarla yanaşı əsas məsələ, əlbəttə o idi ki, Bakıya biz necə gəlib çıxacağıq"[22].

Beləliklə, Bakı nefti ətrafında Rusiya, Almaniya və Türkiyə arasında gedən mübarizə son həddə çatmışdı. Hətta diplomatik dairələrdə o, "Bakı məsələsi" kimi hallanırdı.[23]

Bununla əlaqədar öz məktublarından birində M.Ə.Rəsulzadə qeyd etmişdi: "Neft məsələsi daha çox türk-alman məsələsi idi, nəinki Azərbaycan"[24].

Bakı neft mədənlərinin təhlükəsizliyi də marağı olan tərəfləri az narahat etmirdi. Onun hakimiyyətlərini itirməkdə olan bolşeviklər tərəfindən partladılıb dağıdılması ehtimalı olduqca böyük idı.

1918-ci ilın iyulunda İstanbulda keçirilən konfrans zamanı Almaniyanın İstanbuldakı səfiri Bernsdorfun M.Ə.Rəsulzadəyə verdiyi sual da bu narahatlığın nəticəsi idi. O soruşmuşdu: "Bolşeviklər tərəfindən Bakının dağıdılması təhlükəsi varmı?"[25]

Bakı neftinə olan münasibətdə Türkiyə ılə Almaniya arasında olan fərqli yanaşma İstanbulda olan Azərbaycan nümayəndə heyətinə də bəlli idı. Bakı mədənlərinin bolşeviklər tərəfindən dağıdıla biləcəyindən almanların keçirdikləri narahatlığa işarə vuran M.Ə.Rəsulzadə deyirdi: "Aydındır ki, Qafqaza aid məsələdə türklərlə almanlar arasında fikir ayrılığı mövcuddur".[26]

Bakı neftindən pay almaq barədə Rusiya ilə danışıqlarda iştirak edən Almaniyanın istər türklərin, istərsə də ingilislərın Bakıya gəlmələrinin qarşısını almaq barədə öz planları vardı. Məlumdur ki, almanların Qafqazdakı* hərbi kontingenti say etibarilə olduqca az idi. Odur kı, nə türk ordusuna müqavimət göstərə bılərdi, nə də

* Alman silahlı qüvvələri Gürcüstanda yerləşirdi.

özü öz silahlı qüvvələri ilə Bakı üzərinə yeriyə bilərdi. Odur ki, ruslara söz verdiyi kimi Qafqaz islam ordusunun tərkibində olan türklərin Bakıya hücumunun qarşısını almaqdan ötrü müxtəlif vasitələrdən istifadə etməyə çalışırdı. Onlardan biri diplomatik təzyiq idisə, digəri hərbi xarakter daşıyırdı. Əlbəttə, Türkiyə ilə Almaniya arasında hərbi ixtilafdan söhbət belə gedə bilməzdi. Sadəcə, Almaniya istərdi ki, Türkiyə öz hərbi fəallığını Güney Qafqazda deyil, daha çox Quzey İranda nümayiş etdirsin. Bununla da o, bir tərəfdən türklərin əli ilə ingilislərin Bakıya doğru irəliləməsinin qarşısını almış olar, digər tərəfdən isə türklərin başı ingilislərin zərərsizləşdirilməsi işinə qarışardı.

Fəqət almanların arzusu elə arzu olaraq da qalmaqda idi. Yaxşı deyiblər ki, sən saydığını say, gör fələk nə sayır. Daha doğrusu, gör türklər nə sayır.

İngilis qoşunlarının Fələstin və Mesopotamiyadakı nisbi uğursuzluqları fonunda türklərin, almanların nöqteyi-nəzərincə İrandakı fəaliyyətsizliyi Lüdendorfu da qıcıqlandırırdı. Vəziyyəti o belə şərh edirdi: "İngilislərin Fələstində yerli əhəmiyyət daşıyan hücumları baş tutmadı. Mesopotamiyada Mosula tərəf irəliləyən ingilis dəstələri isə geri çəkildilər. Lakin Quzey İranda və Xəzərin güney sahilində ingilislər, görünür ki, güclənirdilər. Türklər isə Təbrizin yaxınlığında, Bakının isə bilavasitə qarşısında hələ də dayanıb durmuşdular"[27].

1918-ci ilin iyununda yaranmış hərbi-siyasi vəziyyətə sonralar münasibətini bildirən Lüdendorf öz təəssüfünü heç cür gizlədə bilmirdi. O yazır: "İyunda bolşeviklər həm aşağı Volqada, həm də Xəzər dənizində hələ də hökmranlıq edirdilər Bu, Böyük Rusiyanın (Velikorossiya – *N.Rza*) neftlə təchiz edilməsi məsələsində Sovet hökuməti üçün böyük əhəmiyyətə malik idi"[28].

İoffe ilə Külman arasında gedən rus-alman danışıqları fonunda yuxarıda təsvir olunan vəziyyət Lüdendorfu sevindirsə də, digər vəziyyət onu son dərəcə məyus edirdi. O, yazır: "Türklər* Bakının

* Qafqaz İslam ordusu nəzərdə tutulur. Lüdendorf nədənsə bu ifadəni işlətməkdən daim yayınırdı. Görünür, türklərə olan narazılığını daha da qabartmaq məqsədi güdürdü.





qarşısında durmuşdular. Onlar, həmçinin Quzey İranda da kök salmışdılar, lakin orada kəskin təzyiq göstərmirdilər"[29].

Lakin türklərin iyun-iyul aylarında Bakının qarşısında olduğunu iddia edən Lüdendorf hadisəni bir qədər şişirtmişdi. Çünki türk əsgərlərinin də daxil olduğu Qafqaz islam ordusu yalnız sentyabrın 15-də Bakıya daxil olmuşdu. O vaxta isə hələ xeyli qalırdı. İngilislərə gəlincə isə, general Denstvervillin komandanlıq etdiyi hərbi dəstə Bakıya daha tez daxil ola bilmişdi. Fəqət, bu barədə daha ətraflı bir qədər sonra.

Lüdendorf isə, bu hadisə ilə əlaqədar ilk növbədə yenə də türkləri qınayaraq yazırdı: "İngilislərin Bakıda bərqərar olması yalnız türklərin Quzey İranda ləng hərəkəti nəticəsində mümkün olmuşdu; bizim hərbi təsərrüfatımız böyük itkilərə məruz qaldı"[30].

Öz müstəqilliyini elan etdiyi elə ilk günlərdən etibarən gənc Azərbaycan Xalq Cümhuriyyəti Bakı nefti uğrunda Rusiya, Almaniya və Türkiyə arasında gedən kəskin mübarizənin mərkəzində qalmışdı. Şiddətli yanacaq böhranı keçirən Almaniya və Rusiyanın pərdəarxası sövdələşmələri təbii ki, Azərbaycan üçün xüsusilə təhlükəli idi.

Müəyyən şərtlər əsasında Bakı neftinin bir hissəsini Almaniyaya verməyi öhdəsinə götürən Sovet Rusiyası özünün müstəmləkəçilik iddialarını təmin etmək üçün başqa bir mühüm şərtdən də yararlanmaq xəyalında idi. Şaumyana göndərdiyi məktubunda Stalin yazırdı: "Güney Qafqaz məsələsində bizim ümumi siyasətimiz ondan ibarətdir ki, almanları gürcü, erməni və Azərbaycan məsələlərinin Rusiyanın daxili məsələsi olduğunu rəsmi şəkildə tanımağa məcbur edək. Belə ki, onların həllində almanlar iştirak etməməlidirlər".[31]

Beləliklə, Azərbaycan xalqının qanuni hüquqlarını nəzərə almaqdan, onu təmsil edən siyasi qüvvə – Azərbaycan Xalq Cümhuriyyətinin səlahiyyətli şəxsləri ilə heç bir anlaşmaya getmədən iki əcnəbi ölkə öz yanacaq problemlərini Bakı neftinin hesabına ödəməyə çalışırdı. Odur ki, Qafqaz islam ordusunun Bakıya doğru hərəkəti onları heç də razı sala bilməzdi. Türkiyə ilə Almaniya

arasındakı ziddiyyətlər də məhz bu ikiüzlü siyasətdən qaynaqlanırdı.

Neftin əsl sahibi olan Azərbaycan, necə deyərlər, oyundankənar vəziyyətdə qalmışdı. Ağır maliyyə çətinlikləri ilə üz-üzə qalan milli hökumət Bakı neftindən bəhrələnərək öz saysız-hesabsız problemlərini həll etmək imkanından məhrum idi. Bu narahatlıq baş nazir Fətəlixan Xoyskinin İstanbula – M.Ə.Rəsulzadəyə göndərdiyi məktubda da öz əksini tapmışdı: "Hökumətimiz hazırda pul sarıdan ehtiyac içərisindədir. Hazırda normal borc almaq olduqca çətindir. Əsasən ona görə ki, Bakı bizim əlimizdə deyil".[32]

Odur ki, diplomatik səylərin artırılması tələb olunurdu. Bolşevik Rusiyası ilə danışıqların tam mümkünsüzlüyünü gözəl başa düşən Azərbaycan hökumətinin məqbul saydığı yeganə imkan Türkiyə və Almaniya ilə diplomatik anlaşmaları daha da intensivləşdirməklə, onların da maraqlarının təmin olunacağına zəmanət verməkdi.

M.Ə.Rəsulzadə bu münasibətlə belə demişdi: "Görünür, biz almanlara Bakıda müəyyən iqtisadi imtiyazlar verməli olacağıq".[33]

Xarici işlər naziri M.H.Hacınskı İstanbul konfransında Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadəyə ünvanladığı göndərişdə yazırdı: "Türkiyə, Azərbaycan və Almaniyanın maraqlarının uzlaşdırılması üçün zəmin axtarıb tapın. Belə zəmin Bakı nefti barəsində iqtisadi razılaşmadır. Burada güzəştə getmək olar".[34]

Beləliklə, Bakı nefti ətrafında gedən açıq-gizli sövdələşmələrin, pərdəarxası oyunların yüksək həddə çatdığı bir vaxtda üfüqdə yeni bir iddiaçı meydana çıxdı. Və bu iddia son dərəcə real görünürdü. Halbuki bu təhlükə çoxdan gözlənilirdi. Rusiya və Almaniyanı ən çox əndişələndirən də məhz bu təhlükə idi. Onun reallaşması hadisələri daha da sürətləndirməklə yanaşı, Güney Qafqazda, xüsusilə də Bakıda hərbi-siyasi durumu kəskin surətdə dəyişdirdi.



## XXIV fəsil

# NEFT UĞRUNDA MÜBARİZƏ SƏNGİMİR

İstanbul konfransı ilə eyni vaxtda "New York Times" qəzetinin 1918-ci il 14 iyul sayında bir məqalə dərc edildi. Orada deyilirdi: "Quzey İranda və Qafqazda istifadə edilmək üçün iri qüvvələr hazırlamaq lazımdır. Ola bilsin ki, bu, müttəfiqlər üçün ən mühüm istiqamətdir. Müttəfiqlərin təxirəsalınmaz vəzifəsi Qafqazın mühüm neft rayonlarını tutmaqdır"[1].

Bakı nefti ətrafında baş verən olaylar təbii ki, Antanta dövlətlərinin də diqqətindən yayına bilməzdi. Rusiyada və Bakıda bolşeviklərin hakimiyyəti ələ keçirmələri, Rusiya ilə Almaniya arasında mövzusu və məzmunu Bakı neftinə söykənən gizli sövdələşmələr, habelə əsas rəqibləri Türkiyə və Almaniyanın Bakı neftinə daha yaxın və əlverişli məsafədə olmaları yaxın gələcəkdə xoşagəlməz nəticələrə gətirib çıxaracağından xəbər verirdi. Digər tərəfdən Yaxın Şərqdə xeyli sayda hərbi qüvvələrə malik olan İngiltərə, bolşevizm ideyalarının Rusiyadan İrana da sirayət edəcəyindən ehtiyatlanırdı. İstər Güney Azərbaycanda, istərsə də Bakıda böyük neft maraqlarına malik olan İngiltərə, əlverişli məqamın yetişdiyini dərk edərək, qətiyyətli addımlar atmaq qərarına gəldi.

Həmin dövrə münasibət bildirərkən, o vaxt İngiltərənin baş naziri olmuş Lloyd Corc öz xatirələrində yazırdı: "Biz o zaman, əlimizi yanımıza salıb oturmamışdıq"[2].

Lloyd Corcun başqa bir açıqlamasına görə, "müharibənin sonunda Antantanın üstünlüyünə baxmayaraq, alman bloku Bakı neftindən istifadə edərdisə, hərbi əməliyyatlar xeyli uzanar və onun hansı nəticələr verəcəyini qabaqcadan söyləmək olmazdı"[3].

Maraqlıdır ki, ingilislər Bakı neftinə iddialı olduqlarını heç bir zaman – nə o vaxt, nə də sonralar gizlətmirdilər. Bu həm memuar ədəbiyyatında, həm də mətbuat səhifələrində öz əksini tapırdı. İngiltərənin "The Times" qəzeti sonralar elə beləcə də yazırdı: "Biz ora getdik ki, Bakının neft mədənlərini ələ keçirək"[4].

Rusiya və Almaniyanın əsas məqsədləri türklərin və ingilislərin Bakıya gəlişinin qarşısını almaq idisə, öz növbəsində, ingilislər də türklərin və almanların Bakıya doğru hərəkətini əngəlləməyə çalışırdılar.

Rusiyada 1917-ci ilin oktyabr çevrilişindən sonra və Almaniya ilə Rusiya arasında aparılan sülh danışıqlarının gündən-günə intensivləşdiyi bir vaxtda, hərbi-siyasi vəziyyətin əsaslı surətdə dəyişdiyini dərk edən Antantanın aparıcı ölkələri İngiltərə və Fransa ondan maksimum yararlanmaq üçün 1917-ci il dekabrın 23-də gizli saziş imzalayaraq, Rusiyanın cənub bölgələrini öz nəzarətləri altına almağı planlaşdırdılar. Hələ o zaman qərara alındı ki, Bakı ingilislərin nəzarəti altına keçməlidir. İndi belə əlverişli məqam yetişdiyindən İngiltərə hökuməti bu planı həyata keçirmək qərarına gəldi. Onun icrasını isə general-mayor Leonel Denstervillə tapşırdı.

Beləliklə, 1918-ci ilin yanvarından etibarən hazırlıq işlərinə başlandı. İngiltərənin Mesopotamiyadakı silahlı qüvvələrinin hesabına hətta xüsusi ekspedisiya da yaradıldı və Denstervillin sərəncamına verildi. Rəsmi dairələrdə "Densterfors" adlandırılan bu ordu Mesopotamiyadan İrana keçib, həmin il fevralın 17-də Xəzərin cənubuna çatdı. Zira Bakıya gəlməyə hələ çox qalırdı. İranda isə görüləsi işlər də az deyildi. Onlardan biri, hələ 1879-cu ildə yaradılmış kazak diviziyası idi. Bu həmin o diviziyadır ki, İngiltərə və Rusiyanın İrandakı neft maraqları xatirinə Məşrutə hərəkatının yatırılmasında böyük "xidmətlər" göstərmişdi. Polkovnik Lyaxovun başçılıq etdiyi komanda heyətinin isə başdan-başa ruslardan ibarət olduğu bu diviziya öz vəhşilikləri ilə "şöhrət" tapmışdı. Çar Rusiyasının Quzey İrandakı işlərə hərbi müdaxiləsinin rəmzi olan bu diviziya ingilislərə əlavə başağrısı olduğundan təcili olaraq tərksilah edilməli idi. Edildi də. Bununla da İngiltərə, bir tərəfdən Rusiyanın əvvəlki gücündə bərpasının tərəfdarı olmadığını, digər tərəfdən isə Quzey İranın da neft mənbələrinə nəzarəti öz əlində saxlamaq niyyətində olduğunu birmənalı şəkildə bildirmiş oldu. Denstervillin təbliğatı isə ingilislərin İranın şimalını ələ keçirməsini, əsasən Türkiyə və





Almaniyaya qarşı aparılan mübarizə ilə əlaqələndirirdi. Halbuki, həqiqət naminə onu da deyək ki, bu izahat gerçəklikdən heç də uzaq deyildi. Belə ki, hələ 1928-ci ildə İstanbulda çap etdirdiyi "Beynəlmiləl siyasətdə petrol" əsərində Azərbaycan mühacirətinin tanınmış simalarından biri Mir Yaqub Mehdizadə ingilislərin bu siyasətini obrazlı şəkildə ifadə edərək yazırdı: "İngilis arslanı əcələ* ilə gəlir, Bakı petrol ocaqlarına qonmaq istəyən alman qartalına yol vermək istəməyirdi"[5].

"New York Times" qəzeti isə 1918-ci il iyulun 14-də çap etdiyi məqalədə belə yazırdı: "Quzey İranda və Qafqazda istifadə etmək üçün böyük qüvvə hazırlamaq tələb olunur... Qafqazın əsas neft bölgələrinin işğalı müttəfiqlər üçün ən önəmli vəzifədır"[6].

1918-ci il avqustun 1-də "Sentrokaspi Diktaturası"nın yaradılması ingilislərin Bakıya gəlişinə əlverişli şərait yaratdı. Elə həmin gün yeni "hökumətin" nümayəndələri İrana gedib, ingilis komandanlığı ilə görüşdülər və rəsmi şəkildə öz hökumətləri adından yardım istədilər. İngilislər bu məqamı çoxdan gözləyirdilər. Beləliklə, avqustun 4-də polkovnik Stoksun başçılıq etdiyi ilk ingilis hərbi dəstəsi gəmi ilə Ənzəlidən yola düşüb, elə həmin gün də Bakıya gəldi. İngilislərin əsas qüvvələri isə Bakıya avqustun 9-17-si arasında daxil olmağa başladılar. Onun tərkibində 3 batalyon, bir səhra topçu batareyası və bir neçə zirehli avtomobil vardı. Ümumi sayının təqribən 1000 nəfərdən ibarət olduğu güman edilən bu hərbi kontingentin komandanı general Denstervill idi.

Qafqaz islam ordusunun Bakıya hücumunun son dərəcə qətiləşdiyi bir zamanda ingilis silahlı qüvvələrinin Bakıya daxil olması çoxlarının, xüsusilə də ermənilərin hədsiz sevincinə səbəb oldu. Onlar ingilislərə böyük ümidlər bəsləyirdilər. Lakin hərbi kontingentin sayca az olması, onun Qafqaz islam ordusu qarşısında duruş gətirəcəyini böyük şübhə altında qoyurdu. İngilis silahlı qüvvələrinin sayının 20-30 min nəfər olması barəsində deyilənlər isə əsl həqiqətdən son dərəcə uzaq idi və sadəcə olaraq təbliğat xarakteri daşıyırdı.

* Əcələ – tələsik.

Hər halda ingilislərin Bakıya gəlişi xeyli söz-söhbətə səbəb oldu. Xüsusilə də Rusiyada. Bu, Leninin 1918-ci il avqustun 23-də Daşkəndə, Türküstan Xalq Komissarları Sovetinin sədri F.İ.Kolesova vurduğu teleqramda da aydın hiss olunurdu. Orada deyilirdi: "Qafqaz və Bakı haqqında az şey bilirik. Məlumatlar yoxlanmamışdır... İngilislər Bakıya girmişlər və orada vəziyyət qeyri-sabitdir. Almanlar Bakıya hücum etməmək üçün təminat verməyə razıdırlar, bu şərtlə ki, biz ingilisləri oradan qovaq. Bəlli deyil ki, orada işlər necə olacaqdır. Bilmirik hərbi yardım haradadır. Güman edirik ki, Saritsın yaxınlığında yubanmışdır.

Götür-qoy edirik, sizin üçün müəyyən kömək hazırlayırıq, amma qəti söz verə bilmirik. Çünki hər şey ondan asılıdır ki, ingilisləri Bakıdan qovmaq mümkün olacaqdır, yoxsa onlar Xəzər sahilinin bir hissəsini işğal edə biləcəklər"[7].

Bakıdakı vəziyyət avqustun axırlarında Berlində üç aydan bəri başlamış alman-rus danışıqlarında da müzakirə edilmişdi. Leninin Kolesova ünvanlanmış teleqramındakı bir sıra mülahizələr də, məhz Almaniyanın Bakı barəsindəki mövqeyinə əsaslanırdı. Yəni türklərin Bakıya hücumunun dayandırılmasına.

Nəhayət, Külman ilə İoffe arasında gedən alman-rus danışıqları avqustun 27-də sazişin imzalanması ilə nəticələndi. Türkiyədən gizlin bağlanan bu saziş, əslində bir növ Brest-Litovsk müqaviləsinin əlavəsi kimi qiymətləndirilə bilərdi. Səkkiz fəsildən ibarət olan bu sazişin altıncı fəsli Qafqazla bağlı idi. Lakin sazişdə Gürcüstana və Azərbaycana qarşı münasibətdə ikili standartların olduğu açıq-aydın görünürdü. Məsələn, Gürcüstanın müstəqil dövlət kimi Almaniya tərəfindən tanınmasına razılıq verildiyi halda, Azərbaycana belə münasibət bildirilməmişdi. Daha dəqiq desək, sazişin Qafqaza aid maddələri Azərbaycanın ərazi bütövlüyünü şübhə altında qoymuş olurdu. Bu, həm də Türkiyə əleyhinə yönəlmiş bir saziş idi.

Azərbaycana qarşı belə ədalətsiz münasibət ilk növbədə neft amilindən qaynaqlanırdı. Dəhşətli yanacaq böhranı keçirən Almaniya və Rusiya Bakı neft rayonuna nəhəng yanacaq çəlləyi kimi baxır və Azərbaycan da daxil olmaqla digər ölkələrin iştirakına





yumşaq desək, olduqca böyük qısqanclıqla yanaşırdılar. Sazişin Türkiyədən gizlin imzalanması da məhz bununla əlaqədar idi. Bu saziş eyni zamanda Almaniyanın öz müttəfiqlərinə qarşı etdiyi xəyanət kimi qiymətləndirilməlidir.

Razılaşmaya əsasən Bakıda neftin çıxarılması Rusiyanın iştirakı və nəzarəti altında olmalı, onun dörddə biri isə Almaniyaya verilməli idi. Almaniya həmçinin Gürcüstandan kənarda üçüncü bir dövlətin hərbi əməliyyatlarına hər hansı yardım etməməyi də öhdəsinə götürmüş olurdu. Üçüncü dövlət dedikdə isə, təbii ki, yalnız Türkiyə nəzərdə tutulurdu.

Azərbaycanın böyük siyasi şəxsiyyətlərindən olan Əhməd bəy Ağayev bu məsələyə münasibət bildirərkən obrazlı şəkildə belə yazmışdı: "Almanlar Azərbaycanı bir bidon kerosinə satdılar"[8].

"Uğurlu" sazişdən ruhlanan Lenin Azərbaycana qarşı hərbi hazırlıqları gücləndirməyi tələb etdi. Sentyabrın 28-də hərbi-dəniz işləri qərargahına göndərdiyi məktubunda o yazırdı: "Volqaya və Xəzər dənizinə sualtı qayıqlar göndərmək məsələsi nə vəziyyətdədir? Doğrudurmu ki, yalnız köhnə sualtı qayıqları göndərmək olar? Neçə ədəddir? Göndərmək üçün nə vaxt sərəncam verilmişdir? Ümumiyyətlə nə edilmişdir?"[9]

Beləliklə, Lenin tələsirdi. Çox tələsirdi. Onu başa düşmək olardı. Şaumyan rejiminin süqutundan sonra yanacaq sarıdan böyük məhrumiyyətlərə düçar olmuş Sovet Rusiyası ən müxtəlif vasitələrə əl ataraq, fəlakətli vəziyyətdən çıxış yolları tapmağa çalışırdı. Vətəndaş müharibəsinin gündən-günə qızışdığı bir vaxtda bu ölüm-dirim məsələsinə bərabər idi. Odur ki, avqustun 27-də bağlanmış saziş, Leninin fikrincə Bakını yenidən ələ keçirmək üçün əlverişli imkan yaradırdı. Almanların Bakıya hücum etməmələri və onların türkləri də bu niyyətdən çəkindirmək üçün etdiyi səylərin uğurlu olacağı təqdirdə, Bakını işğal etməyin bir o qədər də çətin olmayacağı düşünülürdü. Və ilk baxışda o, doğrudan da son dərəcə real və asan görünürdü. Çox güman ki, Bakıda gizli fəaliyyətdə bulunan yerli bolşeviklərin və rus xüsusi xidmət orqanları agentlərinin şəhərdəki hərbi-siyasi vəziyyət haqqında Moskvaya ötürülmüş kəşfiyyat xarakterli məlumatları da belə

təsəvvürün yaranmasında əhəmiyyətli rol oynamışdı. Doğrudan da bir tərəfdən ingilis hərbi kontingentinin ciddi döyüşlər üçün bir o qədər də yetərli olmaması, digər tərəfdən isə "Sentrokaspi Diktaturası"nın yerli əhali arasında heç bir nüfuza malik olmaması Bakının işğalını xeyli asanlaşdıra bilərdi.

Fəqət, Lenin səhv etmişdi. Çünki növbəti hadisələr, onun nəzərdə tutduğunun əksinə olaraq, tamamilə başqa məcrada çox böyük sürətlə inkişaf etməyə başladı. Qafqaz islam ordusunun gündən-günə artan təzyiqi Denstervilldə haqlı olaraq belə bir fikir oyatdı ki, "Sentrokaspi Diktaturası"nın sərəncamında olan yerli ordunun heç nəyə qadir olmadığı bir şəraitdə Bakını müdafiə etmək qeyri-mümkündür. Denstervillin fikrincə, "yaranmış vəziyyətdə dünyada heç bir ordu Bakını türklərdən xilas edə bilməz"[10].

Baxmayaraq ki, ingilislər "Sentrokaspi Diktaturası"na böyük ümidlər bəsləyərək nəinki İrandakı öz qərargahını, həmçinin İngiltərə konsulluğunu Bakıya köçürmüşdülər. Denstervill tez bir zamanda Bakını tərk etmək qərarına gəldi. Bu, bir hərbçi kimi onun atdığı çox düzgün addım idi.

"Sentrokaspi Diktaturası"nın kəskin etirazına və hədələrinə məhəl qoymayan Denstervill Qafqaz islam ordusunun son hücumunadək gözləyəndən sonra ingilis silahlı qüvvələrinin Bakıdan çıxarılmasını əmr etdi. Sentyabrın 4-də ingilislər şəhəri tərk etdilər.

Türklərə gəldikdə isə onlar həm Brest-Litovsk müqaviləsinə, həm də avqustun 27-də imzalanmış gizli alman-rus sazişinə məhəl qoymadılar və Qafqaz islam ordusunun Bakıya doğru müzəffər yürüşünü təmin etdilər. Bu yürüşün gerçəkləşməsinin qarşısını almaq üçün Almaniyanın atmış olduğu başqa bir gizli addım da kömək etmədi.

Belə ki, bir qədər əvvəl qeyd etdiyimiz kimi, Belçikanın Spa şəhərində Almaniya kayzeri İkinci Vilhelm kazak atamanı Krasnovu qəbul edərək, Bakını tutmağa çalışan ingilislərə, habelə türklərə qarşı mübarizə aparmaqdan ötrü başçılıq etdiyi Don kazaklarından istifadə etmək barədə razılıq əldə etdi. Həmin gizli görüşdə Ukrayna getmanı da iştirak etmişdi.





Zira türklərin Bakının azad olunmasında bilavasitə iştirakının labüd olduğunu başa düşən alman komandanlığı oyundan kənarda qalmağın faydasız olduğunu başa düşdü və təcili tədbirlərə əl atmaq istəyində bulundu. Fəqət bu baş tutmadı.

Lüdendorf yazır: "...İngilislər Bakını tutan kimi, bizim əlimizin çatdığı bir məsafəyə yaxınlaşmış oldular. Kiçik bir qüvvə sərf etməklə onlara zərbə endirmək imkanı yarandı. Bunu nəzərə alaraq, ali komandanlıq Bakıya hücum hazırlığına başladı və bu məqsədlə Nurunun (Nuru paşa – *N.Rza*) qoşunlarını cəlb etdi, Tiflisə süvari briqadası və bir neçə batalyon göndərdi. Lakin biz qoşunları göndərməyə macal tapmamış Nuru Bakını tutdu..."[11]

Almaniyanın türklərin Bakını tutmasına münasibəti qısqanclıqdan daha çox narahatlıqdan qidalanırdı. Çünki güman edirdi ki, türklər almanların iştirakı olmadan Bakını tutduğu təqdirdə, Almaniyanın Bakı neftindən yararlanmaq arzusu yalnız bir xülyaya çevrilə bilər.

Lüdendorf yazır: "Bizim hərbi və hərbi-iqtisadi vəziyyətimizi nəzərə alaraq, şərqdə mən nə qədər lazım bildimsə, bir o qədər də içərilərə nüfuz edirdim. Dünyanı fəth etmək kimi, Napoleon planları məni cəlb etmirdi. Mən Ukraynada və Qafqazda ərazilər ələ keçirmək arzusunda deyildim. Mən yalnız oradan o xammalı əldə etmək istəyirdim ki, o ümumiyyətlə yaşayış və müharibənin davam etdirilməsi üçün son dərəcə vacib idi"[12].

Türklər isə, almanların ruslar ilə gizli sövdələşmələrini və pərdəarxası oyunlarını təbii ki, unutmamışdılar. Odur ki, haqlı olaraq, onların hərbi iştirakından imtina edərək, Qafqaz islam ordusunun tərkibində fəaliyyət göstərməyə üstünlük verdilər.

Gizli imzalanmış 27 avqust sazişi mənfi mənada Türkiyədə də böyük əks-səda doğurdu. Gürcüstanın müstəqilliyinin tanınması, Bakının isə, neft rayonu da daxil olmaqla, neft almaq müqabilində Rusiyanın əlinə keçməsinə Almaniyanın razılıq verməsi xəyanətkar addım kimi qiymətləndirilərək, Türkiyə ictimaiyyətinin hədsiz hiddətinə səbəb oldu. M.Ə.Rəsulzadə İstanbuldan Azərbaycan hökumətinə göndərdiyi 1 sentyabr məlumatında vəziyyəti qısaca belə şərh edirdi: "Bu xəbər hamımızı sarsıtdı. Qəzetlər

onu hiddətlə çap edir. Tələt paşa Berlinə getməyə hazırlaşır. Necə olursa-olsun Bakını almaq, almaq və almaq lazımdır"[13].

Məsələ burasındadır ki, Almaniya Rusiyanın öz qüvvələri hesabına Bakını ələ keçirəcəyinə həqiqətən də böyük inam bəsləyirdi. Qafqazda isə vəziyyət heç də almanların istəyinə uyğun inkişaf etmirdi. Hətta hadisələrin belə inkişafı Gürcüstanın özünü də Almaniyanın təsir dairəsindən çıxara bilərdi. Onun ilk əlamətləri artıq görünməkdə idi. Özü də Almaniya üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdə. Belə ki, alman səfiri Bernsdorfun "bolşeviklər Bakı uğrunda vuruşacaqlar" deməsinə baxmayaraq, məhz Gürcüstan və Dağlılar ittifaqı Quzey Qafqazdan Bakıya doğru hərəkət etmək istəyən rus bolşeviklərinin qarşısını almağa müvəffəq oldu.

İstanbulda olan M.Ə.Rəsulzadə yazırdı: "Bakı məsələsi ancaq qüvvədən asılıdır. Əgər Bakı alınmasa hər şey bitdi. Əlvida, Azərbaycan"[14].

Türkiyə və Azərbaycan diplomatiyasının intensiv fəaliyyəti, Almaniyaya ünvanlanmış nota və kəskin etirazlar, habelə hərbi-siyasi vəziyyətin Antantanın xeyrinə sürətlə dəyişməsi və bir sıra digər amillər ona gətirib çıxardı ki, o, Azərbaycana qarşı indiyədək tutduğu mövqeyi ciddi şəkildə dəyişdirmək məcburiyyətində qaldı. Bakı məsələsində böyük səhvə yol verdiklərini almanlar nəhayət ki, dərk etmiş oldular. Hətta, general-feldmarşal Paul fon Hindenburq Bakının azad edilməsi üçün iki briqadanın Güney Qafqaza göndərilməsi barədə sərəncam da verdi. Bu barədə məlumat general Lüdendorfun xatirələrində də əksini tapıb. Bunu bir qədər əvvəl hörmətli oxucuların nəzərinə çatdırmışdıq.

Almaniyanın 27 avqust sazişindən imtina etməsi və Bakını ingilislərdən azad etmək kampaniyasında Türkiyə ilə əməkdaşlıq etmək istəyində olması və bunun üçün hətta konkret addımlar atması da artıq heç nəyi dəyişmirdi. Əksinə, istər gənc Azərbaycan dövlətinə, istərsə də Türkiyəyə əlavə problemlər yaratmış olardı. Atalar demişkən, yağışdan çıxıb, yağmura düşmək perspektivi heç də cəlbedici görünə bilməzdi. Odur ki, Bakı neft mədənlərinin







Alman komandanlığı. Soldan Paul fon Hindenburq, II Vilhelm, Erix Lüdendorf

almanların nəzarəti altına keçməsindən ehtiyatlanan Türkiyə və Azərbaycan hökumətləri məsələni birlikdə həll etmək qərarına gəldilər. Həm də əlverişli məqam artıq yetişmişdi.

1918-ci il sentyabrın 15-də səhər erkən Qafqaz islam ordusunun Bakıya həlledici hücumu başlandı. Elə həmin günün axşamına qədər Bakı tamamilə azad olundu. Bundan bir qədər əvvəl isə ingilislərin ardınca "Sentrokaspı Diktaturası"nın üzvləri və onlarla birlikdə on minlərlə erməni Bakını tərk etməli oldular. Üzdəniraq "hərbi nazır" general Baqratuni də qaçanların arasında idi.

Beləliklə, Bakı nefti uğrunda gedən amansız mübarizənin növbəti mərhələsi də belə başa çatdı. Beynəlxalq səviyyədə aparılan çəkişmələrə, pərdəarxası oyunlara, gizli sövdələşmə və sazişlərə, hətta hərbi müdaxiləyə belə məhəl qoymadan Azərbaycan xalqı Türkiyənin hərbi, siyasi, diplomatik və ən əsası mənəvi yar-

dımı sayəsində nəhayət ki, öz milli sərvəti olan neftinə sahib çıxa bildi. Fəqət, əsl çətinliklər hələ irəlidə idi.

Türkiyənin prinsipial mövqeyi və atdığı konkret addımlar Bakı neftini ələ keçirmək imkanından birdəfəlik məhrum olan Almaniyada böyük məyusluq və qısqanclıqla qarşılandı. Hətta o dərəcədə ki, general E.Lüdendorf sonralar Birinci cahan savaşı haqqındakı xatirələrində öz keçmiş müttəfiqi Türkiyə silahlı qüvvələrinin və onun hərbi elitasının əleyhinə bir sıra subyektiv və qeyri-etik ifadələr işlətməkdən də çəkinməmişdi. Hələ bu azmış kimi, xeyli vaxt keçməsinə baxmayaraq, o da 1915-ci il hadisələrinə – üzdəniraq "erməni soyqırımı" məsələsinə özünün gecikmiş münasibətini bildirmək həvəsinə düşmüşdü. Lüdendorf yazırdı: "İmperiya kansleri türklərin Ermənistanın xristian əhalisinə (Türkiyədə yaşayan ermənilər nəzərdə tutulur – *N.Rza*) qarşı etdikləri zorakılığa son dərəcə mənfi münasibət bəsləyirdi. Bu həqiqətən də kobud və səhv addım idi, buna heç cür bəraət qazandırmaq mümkün deyildi"[15].

Beləliklə Lüdendorfun gecikmiş bu "etirafı" həlledici məqamda taktiki cəhətdən onu üstələmiş və qəti addımlar atmağa nail olmuş Türkiyəni bir növ pərt etmək, gözdən salmaq niyyəti kimi qiymətləndirilə bilər. Çünki nədənsə əvvəllər Almaniya hökuməti və şəxsən Lüdendorfun özü belə etiraflarda bulunmamışdılar.

Müharibə reallıqlarından doğan və bəlli maraqlar naminə süni surətdə törədilmiş bu hadisələrə heç vaxt "soyqırımı" prizmasından yanaşılmamışdır. Əksinə, rəhbərliyində E.Lüdendorfun da təmsil olunduğu alman komandanlığının özü də Türkiyənin erməni əhalisinin hərbi-strateji əhəmiyyət kəsb edən bölgələrdən Osmanlı imperiyasının digər ərazilərinə mütəşəkkil surətdə köçürülməsində son dərəcə maraqlı idi. Odur ki, Türkiyə hökumətinin erməni qiyamı və misilsiz zorakılıqları qarşısında məcburi olaraq atdığı bu addımı nəinki dəstəkləyir, hətta israrla tələb də edirdi.

Diqqətçəkən bir məqam da Lüdendorfun "xristian əhalisi" ifadəsini xüsusi olaraq vurğulamasıdır. Bununla da o, beynəlxalq aləmdə dəbdə olan "erməni məsələsi" xoruna qoşulmaqla, Avropada qınaq obyektinə çevrilmiş, rəzalət və səfalət içində boğulan Almaniya üçün müəyyən siyasi divident əldə etmək məqsədi güdürdü. Lakin Lüdendorf peşəkar siyasətçi deyil, peşəkar hərbçi idi. Odur ki, "erməni məsələsi" və yaxud "soyqırımı" kartının siyasi məqsədlərə xidmət etdiyinin fərqində deyildi. Maraqlıdır ki, Türkiyəyə qarşı zaman-zaman təzyiq vasitəsi kimi istifadə olunan bu kart, Lüdendorfun qəfil və gecikmiş "etirafı" cəmiyyətə bəlli olan vaxtda artıq öz aktuallığını itirmək üzrə idi. Çünki bu kart adı çəkilən dövrdə Mesopotamiya nefti uğrunda gedən şiddətli mübarizədə kəsərli diplomatik silahlardan birinə çevrilmişdi. Fəqət bu mübarizə artıq bitmək üzrə idi. Almaniyanın isə bu mübarizəyə heç bir aidiyyəti yox idi. Lüdendorfun "etirafı" isə alman komandanlığı üçün bir xülyaya çevrilən Bakı neftindən qaynaqlanırdı.

General Denstervill sonralar yazdığı "İrana və Qafqaza səfər" kitabında Bakıya gəlişinə həsr etdiyi fəsli "Həsrəti çəkilən yer" adlandırmışdı. Şübhəsiz ki, bu adda o, Bakı neftini nəzərdə tuturdu. Çünki kimsə bilməsə də ingilislər Bakı neftinin nə olduğunu yaxşı, həm də çoxdan bilirdilər. Rus tarixçisi A.Rayevskinin sözləri ilə deyilsə, bura "ingilis kapitalı və Bakı fəhlələrinin alın təri ilə sulanmış bir torpaqdır"[16].

Daha sonra Denstervilli nəzərdə tutaraq Rayevski yazır: "Bakını işğal etməklə o, xüsusi həvəslə neftə doğru can atan Britaniya imperializminin ən mühüm məqsədini həyata keçirirdi"[17].

Qafqaz neftinin İran neftindən xeyli əvvəl ingilis kapitalının diqqətini cəlb etdiyini qeyd edən A.Rayevski, təkcə Bakı rayonunda yanacaq ehtiyatlarının 400 milyard puda[18] bərabər olduğunu yazmağı belə unutmurdu. Təbii ki, bu rəqəm neft ehtiyatlarının müəyyən edilməsi sahəsində o dövrün texniki və geoloji imkanlarına əsaslanaraq göstərilmişdir. Sonrakı dövrlərdə aparılmış geoloji kəşfiyyat işləri və müasir texniki vasitələr Bakı neft rayonunda, xüsusilə də Xəzər dənizində neft ehtiyatlarının xeyli dərəcədə zəngin olduğunu sübut etdi və iyirminci yüzilliyin sonlarında Azərbaycanda yeni neft qızdırmasının başlanmasına rəvac verdi.

İngilislərin Bakıya gəlmələrinin səbəbini hərbi hadisələrlə əlaqələndirən Denstervill öz xatirələrində yazır: "Bakının bizim tərəfimizdən tutulması aşağıdakı nəticələrə gətirib çıxarardı: neft ehtiyatlarına düşmənin yolu bağlanar, Mərkəzi Asiyaya isə qapılar qapadılardı"[19].

Denstervillin xatirələrində başqa bir maraqlı cəhət də diqqəti cəlb edir. Onun sözlərindən belə məlum olur ki, Bakını tərk etməmişdən öncə, Bakı mədənlərini və ümumiyyətlə neft sənayesi infrastrukturunu məhv etməli imişlər. Bu məsələni Denstervill özü belə izah edir: "Güney Qafqazdakı fransız hərbi missiyasından olan polkovnik Şardini də o zaman Bakıda idi və biz onunla şəhəri düşmənə təhvil verməmişdən əvvəl neft müəssisələrinin və mədənlərin hansı dərəcəyə qədər dağıdılmasının məqsədəuyğun olduğu məsələsini müzakirə edirdik"[20].

Fəqət bizə məlumdur ki, ingilislər bunu etmədilər. Sual olunur: nə üçün? Doğrudan da maraqlı məsələdir. Bunu müxtəlif cür yozmaq olar. Məsələn, A.Rayevskinin gəldiyi nəticə belədir: "Nə qədər çətin olsa da, ingilis generalı dağıdılma işində çox şey edə bilərdi. Digər şəraitdə ingilislər Rumıniyanın neft mədənlərini əsaslı surətdə məhv edə bilmişdilər. O zaman ki, almanlar onları ələ keçirməyə hazırlaşırdılar. Lakin Denstervilldə kommersiya mülahizələri, hərbi mülahizələrə qalib gəldi. O bilirdi ki, onun ekspedisiyasının ağırlıq mərkəzi o qədər də türklərə və almanlara qarşı hərbi müqavimətdə yox, nə qədər ki, nefti ələ keçirməkdədir. Bu nöqteyi-nəzərdən aydın olur ki, o neftin müvəqqəti düşmən əlinə keçməsinə razı oldu ki, əvəzində yaxınlaşmaqda olan qələbədən sonra ingilislər tərəfindən istismar edilmək üçün saxlanılsın. Belə xətti tutmaq mümkün idi. Çünki 1918-ci ilin avqustunda artıq aydın idi ki, almanların məğlubiyyəti şəksizdir"[21]. Lakin Rayevskinin bu mülahizəsinə zənnimizcə başqa cür də yanaşmaq olar. Belə ki, Qafqaz islam ordusunun operativ və qətiyyətli hərəkəti, Denstervillə Bakı mədənlərini dağıtmaq barədə Böyük Britaniyanın Yaxın Şərqdəki ordusunun komandanı Marşalldan gələn teleqramdakı tələbləri yerinə yetirməyə imkan vermədi.





Eyni zamanda, Rayevski haqlı olaraq qeyd edirdi: "Britaniya siyasətinin əsas etibarilə neft dalınca qaçmağı əldə rəhbər tutması çox gözəl görünürdü"[22].

İngiltərənin Bakı neftinə köklənmiş siyasəti Boris Savinkovun* 1924-cü ildə sovet məhkəməsində verdiyi ifadədə də öz əksini tapmışdı. O zaman Savinkov ingilislərin yürütdükləri siyasət barədə belə demişdi: "Məsələn, ingilislər olduqca inadla və tez-tez mənimlə söhbət edib deyirdilər ki, Quzey Qafqaz ilə Güney Qafqazdan ibarət müstəqil Cənub-Şərq ittifaqını yaratmaq yaxşı olardı. Deyirdilər ki, bu ittifaq yalnız başlanğıc olmalı idi. Belə ki, sonra ona Gürcüstan və Azərbaycan da birləşdirilməlidir. Mən bunda neft qoxusu duyurdum. Onlar mənə neft dövlətlərinin yaradılması haqqında yalan-palan danışırdılar"[23].

Bakının azad olunması böyük siyasi hadisəyə çevrildi və Avropada böyük əks-səda oyatdı. Bu həm də Bakını Azərbaycandan qopartmaq kimi iblisvari niyyətlərin puça çıxması demək idi. Alman qəzeti "Völkischer Beobachter" bununla bağlı sonralar bir məqalə dərc etmişdi. Orada deyilirdi: "1918-ci il sentyabrın 15-i Azərbaycan tarixi üçün son dərəcə böyük əhəmiyyətə malikdir. O zaman Avropada Azərbaycan Respublikasına kömək etmək və ona yaşamaq imkanı verilməsinin zəruriliyi barəsində səslər eşidilirdi. Lakin bu, Azərbaycana Bakısız Azərbaycan hədiyyə etməkdən başqa bir şey deyildi. Belə düşüncə başsız kukla oyununa bənzəyirdi. Başsız bir bədənin yaşamasını təsəvvür etmək mümkün olmadığı kimi, Bakısız Azərbaycan da eynilə ağlasığmaz bir şeydir. Azərbaycanın süqutu və yüksəlişi Bakının taleyi ilə bağlıdır"[24].

Olduqca dəqiq və obyektiv deyilmiş sözlərdir. Azərbaycanı Bakısız təsəvvür etməyin mümkünsüz olduğunu xüsusi vurğulayan alman qəzeti, şübhəsiz ki, bunun ilk növbədə neft amili ilə əlaqəli olduğuna işarə edirdi.

---

* 1909-1917-ci illərdə eser "Döyüş təşkilatı"nın rəhbərlərindən biri. Müvəqqəti hökumətdə hərbi nazirin köməkçisi. Antisovet qiyamlarının rəhbərlərindən biri. 1924-cü ildə SSRİ sərhəddini keçərkən həbs edilmişdi

Fəqət, Bakı azad olsa da, tezliklə məlum oldu ki, Bakı nefti uğrunda mübarizə nəinki səngiməyib, əksinə, daha da şiddətlənib. Bu barədə bir qədər sonra.

Bakının azad edilməsində müstəsna rol oynamış Türkiyə dövlətinin neftə olan ehtiyacı son dərəcə böyük idi. Müharibə illərində yanacaq sarıdan böyük çətinliklərlə üzləşən Türkiyənin Bakı neftinə olan marağı başa düşüləndi. Bu marağı ödəmək üçün xeyli işlər görülməli idi. Bakı-Batum kerosin kəməri təmir edilib istismara verilməli, Güney Qafqaz dəmir yolunun işi yenidən qurulmalı idi. Tezliklə gün ərzində Türkiyə və Almaniyaya 23 vaqon-çən neft göndərmək mümkün oldu[25]. Bakı neftinin və kerosininin kütləvi surətdə daşınması nəticəsində İstanbulda onların qiyməti 10 dəfə aşağı düşdü[26].

1918-ci il oktyabrın 5-də Azərbaycan hökuməti neft sənayesinin milliləşdirilməsi barədə Şaumyan rejiminin qərarını ləğv edərək, onu əvvəlki sahiblərinə qaytardı.

Bakı ətrafında qalmaqal hələ də davam edirdi. Oktyabrın 7-də Sverdlov və Lenin Berlinə, Rusiya səfiri Alfred İoffeyə bir teleqram göndərdilər. Teleqramda deyilirdi: "Bakını hakimiyyət orqanlarımıza vermək barəsindəki təklif qəbul edilməyincə Türkiyə protokolunu imzalamağa razı deyilik. Çünki bu maddə olmadan güman etməyə tam əsas vardır ki, Bakını Antantaya təslim etmək barəsində Antanta ilə gizli saziş bağlanmışdır. Belə də dərc edirik"[27].

Bu teleqram Qafqazda hərbi vəziyyəti nizama salmaq haqqında protokol imzalanmasına Türkiyənin Almaniyadakı səfiri Rüfət paşanın təklifi ilə əlaqədar göndərilmişdir. Rüfət paşanın təqdim etdiyi protokol layihəsində Qafqazdan türk qoşunlarının Brest müqaviləsində göstərilmiş sərhədlərə çəkilməsi nəzərdə tutulurdu. Lakin layihədə türklərin boşaltdıqları ərazilərin bilavasitə sovet orqanlarına (Sovet Rusiyasının orqanları nəzərdə tutulur – *N.Rza*) verilməsi haqqında maddə* yox idi[28].

Beləliklə İoffeyə göndərilən teleqram bir daha sübut edirdi ki, Leninin rəhbərlik etdiyi Sovet Rusiyası Bakı neftinə olan iddialarından hələ də əl çəkmək fikrində deyildi. Dünya imperializminin vəhşiliyini gecəli-gündüzlü, yeri gəldi-gəlmədi kəskin tənqid atəşinə tutan, millətlərin öz müqəddəratını təyin etməsini əlində bayraq edən Lenin, əslində özünün də imperialist niyyətli olduğunu heç cür gizlədə bilmirdi.

* İoffeyə göndərilən teleqramda da məhz bu maddəyə işarə vurulur.





Nəhayət oktyabrın 30-da Antanta ilə Türkiyə arasında Mudros sülhü imzalandı. Bu, o demək idi ki, Almaniya və Türkiyə Birinci cahan savaşını məğlubiyyətlə başa vurublar. Bağlanmış müqavilənin ikinci maddəsinə görə Türkiyə öz silahlı qüvvələrini Güney Qafqazdan çıxarmalı, 14-cü maddəyə əsasən isə Bakı və Batum Antanta qoşunları tərəfindən tutulmalı idi. Həmin maddəyə görə Güney Qafqazın, Azərbaycan da daxil olmaqla bütün dəmir yolu şəbəkəsi də Antantanın nəzarəti altına keçirdi. Bu isə o demək idi ki, Bakı neftinə də nəzarət Antantanın, daha dəqiq desək, İngiltərənin əlində olacaqdı. Lenini əndişələndirən də məhz bu idi.

Bakının Antanta dövlətləri tərəfindən işğal edilməsinə Türkiyənin razılıq verməsi Azərbaycanda son dərəcə mənfi qarşılandı və Türkiyə hökumətinə etiraz edildi.

Noyabrın 3-də Avstriya-Macarıstan, 11-də isə Almaniya təslim olduqlarını bildirdilər. Hadisələr sürətlə inkişaf edirdi. Noyabrda türk və alman silahlı qüvvələri Güney Qafqazı tərk etdilər.

Nəhayət, noyabrın 17-də başda general V.Tomson olmaqla Böyük Britaniya qoşunları Bakıya daxil oldular. Onların ümumi sayı 5 min nəfər idi[29].

Elə ilk günlərdən başlayaraq general Tomson Bakı və Bakı quberniyasında bütün inzibati hakimiyyəti öz əlinə aldı. Bununla müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğuna mənfi münasibət bildirmiş oldu. Hətta Bakıya daxil olarkən o, körpüdə İngiltərə, ABŞ, Fransa, İtaliya bayraqları ilə yanaşı Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını gördükdə onun dərhal götürülməsini əmr etmişdi[30].

Azərbaycan çətin və mürəkkəb günlərini yaşayırdı. Onun iqtisadiyyatının və maliyyə durumunun əsasını təşkil edən neft səna-

yesinə nəzarət, gözlərini çoxdan bəri ona dikən yadellilərin əlinə keçmişdi.

Noyabrın 29-da Xəzər donanmasının ticarət gəmilərinin hamısı ingilis komandanlığının sərəncamına verildi[31]. Bunun ardınca "İngilis dəniz nəqliyyatı" şirkəti yaradıldı. Bu, Xəzər dənizi üzərində tam nəzarəti ələ keçirməyə imkan verdi.

Tezliklə Batum və Transqafqaz dəmir yolu da ingilislərin nəzarəti altına alındı. Təqribən eyni vaxtda ingilislərə məxsus "Bibiheybət neft şirkəti" peyda oldu. Bakı neftini daşıyıb aparmaq üçün son dərəcə əlverişli şərait yarandı. Həmin ilin dekabrında şirkətin sədri Herbert Allen Londonda elə beləcə də demişdi: "Britaniyanın rəhbərliyi ilə geniş şəkildə maliyyələşdirilən və təşkil edilən rus neft sənayesi, Britaniya imperiyası üçün qiymətli nailiyyət ola bilər. Britaniya hökumətinə Qroznı, Bakı və Zakaspi neft yataqlarında olduqca böyük həcmdə hasilata güclü təsir etmək imkanı yaranır"[32].

İngilislərin Bakıdakı neft "fəaliyyətini" diqqətlə təhlil edərkən, istər-istəməz Harvey O'Konnorun 1955-ci ildə "Neft imperiyası" kitabında yazdığı obrazlı sözləri xatırlamalı olursan. O'Konnor yazır: "Birinci dünya müharibəsinin sonuna doğru İngiltərə sarıbülbül (kanarya) udmuş pişik kimi böyük məmnunluq hissi keçirirdi. Avropada onun əsas rəqibi Almaniya məğlub edilmişdi. Ümid edirdilər ki, prezident Vilsonun* idealizmi ona rus** və Yaxın Şərq nefti kimi çirkin bir işlə maraqlanmağa imkan verməyəcək. Həm də Birləşmiş Ştatlar neftlə zəngin idi. Qənimət elələrinə məxsus idi ki, onlar Mesopotamiyanın neft mədənlərində qan axıtmış, İran sərvətlərinin keşiyində durmuşdu"[33].

Neft bankiri ser Edvard Makkey Edqar isə daha açıq danışırdı: "İngiltərənin vəziyyəti möhkəmdir. Birləşmiş Ştatlardan kənarda məlum və mümkün olan, yaxud ehtimal edilən neft yataqları ya Britaniya idarəçiliyi, yaxud nəzarəti altında olan ingilislərin əlindədir, ya da Britaniya kapitalı tərəfindən maliyyələşdirilir"[34].

İngilislərin Bakıya can atmasında Bakı neftinin ələ keçirilməsi son dərəcə mühüm və böyük rol oynadı. On doqquzuncu

* Vudro Vilson – ABŞ prezidenti.
** Bakı nefti nəzərdə tutulur.





yüzilliyin sonlarında və müharibəyə qədərki dövrdə Bakı neft biznesində ingilis kapitalının geniş və hərtərəfli təmsil olunması hamıya yaxşı bəllidir. Lakin bu dəfəki gəlişiylə ingilislər inqilabdan qabaqkı köhnə münasibətləri sadəcə bərpa etmək məqsədi güdmürdülər. Onların gəlişi tamamilə başqa niyyət daşıyırdı. Belə ki, neft sənayesi şirkətlərinin təchiz olunmasına qarşı tətbiq edilmiş yeni sistem, onların bütövlüklə əsarət altına düşməsinə səbəb olurdu. Neftin ölkədən çıxarılması ingilislərin tam nəzarəti altında idi.

Sovet Rusiyasına neft verilməsi isə tam qadağan edilmişdi. İngilis komandanlığının bu tədbiri onsuz da dərin böhran içində boğulan rus iqtisadiyyatını və ölkənin daxili həyatını dözülməz həddə çatdırırdı.

Lenin yazırdı: "Yanacaqsız işləmək mümkün deyil. Yalnız son vaxtlar Donets hövzəsindən kömür almağa başlamışıq. Siz bilirsiniz ki, Bakıda ingilislər nefti vurub əlimizdən alıblar, onlar Xəzər dənizindəki gəmilərin bir hissəsini ələ keçirib və Qroznını tutub, neftdən istifadə etməyimizə mane olurlar. Yanacaqsız isə nə sənaye, nə də dəmir yolları işləyə bilər. Bütün qüvvələrimizi gərmək məcburiyyətindəyik"[35].

1918-ci ilin dekabrında "Вечерные известия" qəzeti "Qorxunc məsələ" məqaləsində "Moskvada yanacaq aclığını yüngülləşdirmək üçün taxta tikililərin bir hissəsini yandırmağı... məsləhət görürdü"[36].

N.Baybakov yazır: "Yanacaqla əlaqədar fəlakətli vəziyyət yaranmışdır. Bununla bağlı, avtomobillərdə benzini əvəz etmək üçün, kerosin ilə spirtin və ya skipidarın qarışığından istifadə etmək barəsində qərar qəbul edildi. Lakin bu əvəzləyicilərin də ehtiyatları son dərəcə məhdud idi. Orta Asiya rayonlarında parovozların* odluğunda qurudulmuş balıq ehtiyatları yandırılırdı; parovozların xeyli hissəsi odunla işləyirdi"[37].

Mudros sülhünə əsasən, Batumun da ələ keçirilməsi, ingilislərin Bakı nefti ilə bağlı siyasətində gözəl perspektivlər açmış oldu. Bu münasibətlə İngiltərənin hərbi-dəniz naziri U.Çörçill

* Buxarla hərəkətə gətirilən lokomotiv.

böyük məmnunluqla yazırdı: "Britaniya qoşunları Batuma çıxarıldı və Qara dənizdən Xəzərə qədər, başqa sözlə, Bakıya qədər Güney Qafqaz dəmir yolunu tez bir vaxtda tutdular. Onlar gəmi donanmaları təşkil etdilər ki, bu da Xəzər dənizində ingilislərin üstünlüyünü təmin etdi. Bununla da Britaniya qoşunları dünyada ən böyük strateji xəttlərdən birinə sahib oldular"[38].

Beləliklə, əgər 4 il öncə Mosul nefti Birinci cahan savaşının əsas katalizatorlarından biri idisə, onun sonlarına yaxın hərbi-siyasi çarpışmaları qızışdıran öncül amillərdən biri Bakı nefti oldu. Lakin istər qalib, istərsə də məğlub dövlətlər unudurdular ki, Azərbaycan xalqının əsas sərvəti olan neft, onun özünə də son dərəcə gərəklidir.

1920-ci ildə müstəqil Azərbaycan dövləti Sovet Rusiyası tərəfindən işğal edildikdən bir qədər sonra qələmə aldığı "Əsrimizin Səyavuşu" əsərində bununla bağlı M.Ə.Rəsulzadə yazırdı: "Bu, (neft – *N.Rza*) elə qüvvədir ki, bütün dünyanı özüylə əlaqədar edir. Rusiya bütün əzəmət və qüdrətini ona bağlamışdır. Qafqasiya onunla canlı yaşar olduğuna qanedir. Avropanın yanacaq həsrətiylə yanan könlü bunun eşqiylə yanır. Azərbaycanın həyatı isə damarlarında cərəyan edən bu siyah qanla ayaq üstə durur. Nefti onun əlindən aldığınız gün, o bütün gözəlliklərini itirər və iflic olmuş hala gələr"[39].

Dünyanın güclü dövlətlərinin Bakı nefti uğrunda verdikləri amansız mücadilə ilə eyni vaxtda Azərbaycan xalqı da öz əzəli torpağında tarixi əsrlərlə deyil, min illərlə ölçülən öz neftinə sahib çıxmaq uğrunda üzüntülü mübarizə aparmaq məcburiyyətində qalmışdı. O zaman çox güman ki, çoxları elə düşünürdü ki, bu mübarizə tezliklə başa çatacaq, ixtilaflar sona yetəcək, hər şey öz qanuni məcrasına yönələcəkdir. Lakin belə olmadı. Tezliklə bəlli oldu ki, bu, əsl mübarizənin başlanğıcıdır. Ciddi və gərgin mübarizə hələ irəlidədir. Həm də təkcə Azərbaycanda deyil, bütün dünyada.



## XXV fəsil

# İMPERİALİST DÖVLƏTLƏRİ ARASINDA NEFT EHTİRASLARININ QIZIŞMASI

Birinci cahan savaşı Antantanın tam qələbəsi ilə nəticələndi. Bu qələbədə təbii ki, əlahəzrət neft amili son dərəcə müstəsna rol oynadı. Bu təkzibedilməz fakt hamılıqla qəbul edildi. Böyük Britaniyanın o zamankı xarici işlər naziri lord Kerzonun müharibədən sonra söylədiyi sözlər əsl həqiqətdən heç də uzaq deyildi. O, demişdi: "Müttəfiqlər qələbəyə neft dalğası üzərində gəlib çatdılar"[1].

Müharibədən sonra neft uğrunda mübarizə daha da şiddətləndi. Bu mübarizəyə bir qədər gec də olsa Amerika Birləşmiş Ştatları hökuməti də böyük fəallıqla qoşuldu və ölkədən kənarda da özünün neft maraqlarını qorumaq iqtidarında olduğunu qətiyyətlə nümayiş etdirdi. ABŞ-ın neft maraqları hətta Azərbaycana qədər ünvanlanmışdı.

Müharibədən sonra İngiltərənin qalib dövlət kimi beynəlxalq nüfuzunun xeyli artması, Dünya okeanında ingilis hərbi-dəniz donanmasının qeyd-şərtsiz hegemonluğu və ən əsası isə Böyük Britaniyanın dünyanın ən zəngin neft bölgələrinə hərbi, siyasi nəzarəti öz əlində cəmləşdirmək niyyəti və bu sahədə atdığı qeal və qətiyyətli addımlar ABŞ-ı narahat etməyə bilməzdi. Özəlliklə də özünün çoxdan bəri göz dikdiyi Bakı neftinin faktiki olaraq ingilis komandanlığının nəzarəti altına keçməsi, Amerika hökumətinin açıq-gizli narazılığına səbəb oldu. İngilislərdən fərqli olaraq, bölgədə həlledici hərbi təsir gücünə malik olmayan ABŞ, öz təzyiqini əsasən diplomatik müstəvidə aparmaq məcburiyyətində qalmışdı. Zira bu mübarizə son nəticədə getdikcə dərinləşərək, hər iki ölkə arasında müharibəyə səbəb olmasa da, hər halda, hətta hərbi toqquşmaya gətirib çıxara bilərdi. Bu barədə bir qədər sonra daha ətraflı danışacağıq. Hələlik isə ingilislərin Bakıda olduqları müddətdə, habelə öz qoşunlarını Azərbaycandan çıxardıqdan sonra, ölkənin 28 aprel işğalına qədər olan dönəmdə yeritdikləri neft siyasətinə işıq salmaq pis olmazdı. Bu barədə müxtəlif fikirlər, mülahizələr, habelə nöqteyi-nəzərlər mövcud-

dur. Lakin bütün bunlara baxmayaraq, inkaredilməz əsas cəhət odur ki, ingilis komandanlığının Bakıda yeritdiyi siyasət ilk növbədə İngiltərənin bölgədəki neft maraqlarının büsbütün təmin olunmasına yönəldilmiş bir siyasət idi.

Azərbaycanın müstəqilliyinə qarşı ilk dövrlərdə mənfi və şübhəli münasibətin kökündə də məhz neft amili dururdu.

İstər Azərbaycanın daxilində, istərsə də xaricində baş verən hadisələr ingilis komandanlığının təbii qısqanclığına səbəb olurdu. İngilislər yaxşı başa düşürdülər ki, əgər Azərbaycan əldən çıxarsa, neftdən də əbədi məhrum olacaqlar. Odur ki, istər Sovet Rusiyası olsun, istərsə də Denikinin ağqvardiyaçı ordusu, onlar üçün eyni dərəcədə arzuolunmaz sayılırdı.

1918-ci il noyabrın 17-də general Tomsonun komandanlığı altında müttəfiqlərin qoşunları ilə birlikdə Bakıya gəlmiş polkovnik Lazar Bıçeraxovun kazak dəstəsinin tezliklə tərksilah edilməsi, özünün isə İngiltərəyə göndərilməsi də bu siyasətin tərkib hissəsi idi. Bundan bir qədər əvvəl ingilislər Bakıdan bir qədər aralıda duran və Rusiya Xəzər donanması adlanan hərbi hissəni də tərksılah etmişdılər.

İngilislər Bakıya gəldikləri ilk günlərdən başlayaraq, ölkədən neft və neft məhsullarının çıxarılmasını özləri üçün ümdə vəzifə hesab etdilər və bu işi mümkün qədər səmərəli təşkil etməyə çalışdılar. Bu vəzifənin həyata keçirilməsində ingilislərin tez bir zamanda yaratdıqları "Britaniya neft administrasiyası" mühüm rol oynadı. Neft və neft məhsulları iki istiqamətdə daşınırdı: İrana və Batuma. Onun ümumi miqdarı rəsmi sənədlərə əsasən belə idi:[2]

| | |
|---|---|
| 1918-ci ildə | 13.284,2 t. |
| 1919-cu ildə | 375.308,9 t. |
| 1920-ci ildə (yanvar-may) | 153.221,8 t. |

Rəsmi sənədlərdə o da göstərilir ki, neft məhsullarının çox cüzi hissəsi İrana göndərilirdi. Bu, əsasən İrandakı Britaniya qoşunları üçün nəzərdə tutulmuş benzindən ibarət idi. Neftin əsas hissəsi Batum vasitəsilə daşınırdı. Ən böyük daşınma həcmi





1919-cu ildə qeydə alındı. Həmin il Bakıdan Batuma ingilislər 338.359,7 ton[3], yəni 20,7 mln. pud neft və neft məhsulları daşımağa müvəffəq olmuşdular.

Sual olunur: bu çoxdur, yoxsa az? Bir sıra tədqiqatçılar belə hesab edirlər ki, bu, əlbəttə, çoxdur. Onların mülahizəsinə görə əvvəlki illərdə bu rəqəm 6-7 mln. puddan[4] artıq olmurdu.

Digərləri isə buna etiraz edərək yazırlar ki, göstərilən rəqəmlər müharibə illərinə aiddir. Həmin dövrdə isə Bosfor və Dardanel boğazları bağlı idi və təbii ki, neftin daşınması da böyük problemlərlə üzləşməli olurdu.

Bu fikrin müdafiəçiləri öz mövqelərini əsaslandırmaq üçün müharibədən əvvəlki illərə istinad edərək, belə bir faktı nəzərə çatdırırlar ki, 1905-1914-cü illər ərzində Batum vasitəsilə daşınan neft, 1919-cu illərdən təqribən iki dəfə çox idi. Məsələn, təkcə 1908-ci ildə daşınmış neftin həcmi 45,5 mln. puda bərabər idi[5]. Hətta bəzi məlumatlara görə 1904-cü ildə neft daşınmasının həcmi 86,5 mln. puda çatırdı[6].

Bakı neft sənayeçilərinin orqanı olan "Нефтяное дело" jurnalında dərc olunmuş bir məlumatda göstərilir ki, ingilislər sərəncamlarında olan neft və kerosin daşıyan donanmasından istifadə etmir, ona öz imkanlarının hətta 2/3 hissəsi qədər belə neft doldurmurdular[7].

Bu nə ilə əlaqədar idi? Nə üçün Bakı neftini ələ keçirməyi qarşılarına məqsəd qoyan ingilislər, buna nail olduqdan sonra nefti daşımağa tələsmirdilər. Halbuki anbarlarda neft ehtiyatları istənilən qədər idi. Sovet Rusiyasına neft göndərilməsi isə ingilis komandanlığı tərəfindən qadağan edilmişdi. Belə vəziyyət gənc respublikanın iqtisadi yüksəlişini böyük problemlərlə üz-üzə qoyurdu.

1919-cu il aprelin 14-də parlamentin iclasında çıxış edərkən baş nazir Nəsib bəy Usubbəyli demişdi: "Ölkəmizin əzəməti və əmin-amanlığı neftdir. Bununla belə bütün neftimizin əsas istehlakçısı olan Rusiya ilə əlaqələrimiz qırılıb. Bu hal bizi son dərəcə çətin vəziyyətə sala bilər"[8].

Ümumiyyətlə, tədqiqatçıların bir qismi belə fikirdədilər ki, ingilislər neft amilindən hökumətə təzyiq vasitəsi kimi də istifadə edirdilər. Hər iki tərəf arasında bu və digər şəkildə mübahisə yarandıqda, ingilislər öz nəzarətləri altında saxladıqları neft kəmərini bağlamaqla yaranmış problemi öz istəklərinə uyğun şəkildə həll etməyə çalışırdılar. Odur ki, neftin fasiləsiz daşınması onları bir o qədər də narahat etmirdi. Hətta 1920-ci ildə Bakının itirilməsi təhlükəsi kifayət qədər qabarıq şəkildə göründükdə belə yanacaq daşınmasının həcmi artırılmadı[9].

Bu məsələni araşdırarkən sovet tarixçisi A.Rayevski gəldiyi nəticəni izah edərək yazır: "Ucuz qiymətə neft əldə etmək imkanını əldən qaçırmaq istəməyən ingilis komandanlığı buna (yəni neft daşınmasına – *N.Rza*) birinci dərəcəli əhəmiyyət vermirdi. Onun çalışmalarının əsas mahiyyəti neft sənayesi müəssisələrinin içərilərinə nüfuz etmək, onlarla asılılıq münasibətlərinin qurulması, Bakı rayonunun neft sahələrinin uzun illər boyu müntəzəm şəkildə istismarını hazırlamaq idi. Britaniya imperializmini çıxarılan neft deyil, çıxarılmayan neft, yeraltı sərvətlər daha çox maraqlandırırdı (seçmə – *A.Rayevskinindir*)"[10].

Ədalət naminə qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə əsasən subyektiv şəkildə, bolşevik ideologiyası prizmasından yanaşan Rayevskinin ingilislərin Bakı nefti ilə bağlı yürütdükləri siyasət barədə söylədiyi mülahizə, həqiqətdən heç də uzaq deyildi. İngiltərənin Bakı neftinə olan marağı son dərəcə perspektivli və strateji xarakter daşıyırdı. Rusiyada bolşeviklərin hakimiyyəti ələ keçirməsindən sonra İngiltərənin hakim dairələrinin operativ şəkildə atdıqları addımlar da məhz bu niyyətlərdən qaynaqlanırdı. Odur ki, bir qədər əvvələ qayıtmaq lazım gəlir.

1917-ci il dekabr ayının 3-də Londonda hərbi kabinetin gizli iclası keçirildi. Orada Don kazaklarının atamanı general Aleksey Kaledinə və Ukrayna Radasına yardım göstərilməsi məsələsi müzakirə olundu.





Həmin il dekabrın 22-də Parisdə geniş tərkibdə keçirilən müşavirədə İngiltərə tərəfindən lord Milner və lord Robert Sesil*, Fransadan isə baş nazir Klemanso, habelə xarici işlər naziri Pişon və marşal Foş iştirak edirdilər. Orada razılıq əldə olunmuşdu ki, "əyalət hökumətlərinə və onların ordularına rəhbərlik və kömək etmək məqsədilə agentlər və zabitlər" göndərilsin[11].

Ertəsi gün, dekabrın 23-də Rusiyada nüfuz dairələrini bölüşdürmək barədə birgə saziş imzalandı. O, belə adlanırdı: "1917-ci il dekabrın 23-də Parisdə razılaşdırılmış konvensiyanın şərtləri"[12].

İmzalanmada iştirak edirdilər: Fransadan J.Klemanso (baş nazir), St.Pişon (xarici işlər naziri), P.Kambon (Fransanın Londondakı səfiri), marşal Ferdinand Foş; İngiltərədən lord Milner, lord Robert Sesil, general-mayor ser Makdonoq, ser Georq Klerk, general-leytenant Spirs.

1917-ci il dekabrın 24-də İngiltərə və Fransa Rusiyadakı bütün əksinqilabçılara hərbi yardım göstərmək barədə bəyanat dərc etdirdilər[13]. Bolşevizmin qarşısının alınması ümdə məsələlərdən birinə çevrildi. Rusiyanın cənub bölgələrinə, o cümlədən Qafqaza yönəlik diqqət xüsusilə artdı.

1919-cu ilin əvvəllərində bolşevik təhlükəsi yüksək həddə çatdıqda, ağır vəziyyətdə olan ağqvardiyaçı general Denikinə kömək daha da artırıldı. Fevralın 15-də İngiltərə 100 minlik Denikin ordusuna aeroplanlar, tanklar, müxtəlif ölçülü toplar, tüfənglər göndərdi[14].

Bir qədər sonra Qara dənizin Batum və Novorossiysk limanları vasitəsilə daha bir 150 minlik ordu üçün silah və sursat ötürüldü. Beləliklə, İngiltərə 12 piyada və 4 süvari diviziyasından ibarət 250 minlik orduya silah və sursat göndərməyə nail oldu. Fevralın ortalarında təkcə ingilislər Denikin ordusuna 175 min tüfəng, 700-dən artıq müxtəlif kalibrli top, 400 milyon güllə, 2.100 mindən artıq mərmi, 5 min "vikkers" və "lyuks" pulemyotları, 12 tank, 124 aeroplan, 1000-dən çox avtomobil, 2.500 min telefon aparatı, 250 min avadanlıq dəsti vermişdilər[15].

---

* Böyük Britaniya hərbi nümayəndəliyi.

Şübhəsiz ki, Denikinə verilmiş tankları, təyyarələri, avtomobilləri hərəkətə gətirmək üçün Bakı neftindən istifadə edilirdi. Zira, bunu etmək heç də çətin deyildi. Batum limanına çatdırılan neftin müəyyən hissəsi çox asanlıqla Denikin ordusuna ötürülə bilərdi. Petrovsk* və Dərbəndin də onun əlinə keçməsi neftin Xəzər dənizi vasitəsilə də nəqlini mümkün edirdi. O da danılmaz faktdır ki, Denikin ordusunun istər canlı qüvvə, istərsə silah və döyüş sursatı cəhətdən təmin olunmasında ingilis komandanlığı Bakıda mövcud olan resurslardan da istifadə edirdi.

1919-cu il iyunun 8-də Bakının Balaxanı, Zabrat, Ramana rayonları fəhlələrinin mitinqində qəbul edilmiş qətnamədə deyilirdi: "Bakı limanından Denikinə mərmilər göndərilir və buna Güney Qafqazda, o cümlədən Bakıda ikiüzlü, alçaq siyasət yeridən ingilis komandanlığı kömək edir"[16].

Denikinin Yekaterinodardakı qərargahına bir-birinin ardınca ingilis hərbi missiyaları gəlməyə başladı. General Pulu general-leytenant Briqs əvəz etdi. Onun ardınca general-mayor Holman təşrif buyurdu. Nəhayət 1919-cu ilin mayında Yaxın Şərqdəki ingilis qoşunlarının baş komandanı general Miln şəxsən özü Denikinlə görüşmək qərarına gəldi. Görüş zamanı hər iki general Güney Qafqaz və Quzey Qafqaz məsələsində yekdilliyə nail oldular[17].

İngilislərin hərbi təchizatla bağlı "əliaçıqlığı" heç də onların Denikinə şəxsi məhəbbətlərindən irəli gəlmirdi. Ağqvardiyaçı general və onun ordusu sadəcə olaraq bolşeviklər qarşısında bir növ qalxan rolunu oynamalı idilər. Çünki cahan savaşı başa çatdıqdan sonra Bakı nefti ilə bağlı ingilislərin yalnız bir real rəqibi qalmış olurdu. Bu da təbii ki, Sovet Rusiyası idi. İngilislərin Denikinlə "yekdilliyinə" gəldikdə isə bu o demək idi ki, onlar (yəni ingilislər – *N.Rza*) Qafqazın neft mənbələrini heç kimlə bölüşmək fikrində deyillər və Denikin ordusu heç bir vəchlə bu bölgəyə, xüsusilə də Bakıya girə bilməz. Odur ki, bu fikrindən vaz keçməlidir.

---

* İndiki Mahaç-Qala.





İstər müstəqil Azərbaycan hökumətinə, istərsə ingilislərə öz mənfi münasibətini heç zaman gizlətməyən bolşevik tarixçisi Rayevski təbii ki, Denikinə də qarşı düşmən mövqe nümayiş etdirərək istehzalı bir tərzdə ingilis komandanlığının niyyətini belə açıqlayır: "Artıq yeni ilin əvvəlində Britaniya qərargahının meyli kifayət qədər aydın görünməyə başlayır. Rus ağqvardiyaçılarının gizli fəaliyyəti onun üçün heç də gizli deyildi. Odur ki, qərargah belə bir nəticəyə gəlir ki, denikinçilərə, "öz qulaqlarınızın ardını nə vaxt görə bilsəniz Bakını da o vaxt görərsiniz" deməyin zamanı çatıb"[18].

Tezliklə ingilis komandanlığında Denikin ordusuna münasibətdə müəyyən dəyişikliklər baş verdi. Bu münasibət bir çox hallarda hətta düşmənçilik əhval-ruhiyyəsindən xəbər verirdi. Denikin ordusunu silah-sursatla təmin edən ingilislər Güney Qafqaz hüdudlarında olan denikinçilərin bundan sonra da silahlandırılmasının təhlükəli nəticələrə gətirib çıxaracağından ehtiyatlanmağa başladılar. Bakıdakı hissələrin silahlandırılması isə xüsusilə yolverilməz idi. Bunu Fətəlixan Xoyski də general Tomsona ünvanladığı notada onun nəzərinə çatdırdı və onların təxirə salınmadan çıxarılmasını tələb etdi.

1919-cu il fevralın sonunda Tomson, bir qədər əvvəl F.Xoyskiyə verdiyi sözə əməl edərək, ağqvardiyaçı hissələrin Bakıdan çıxarılması üçün tədbirlər görməyə başladı. Rayevski buna öz münasibətini ifadə edərək yazır: "Könüllü təşkilatların bundan sonra Bakıda qalması Denikini bolşeviklərlə mübarizə üçün qüvvətləndirmirdi. Əksinə, onu Güney Qafqazda möhkəmləndirir və onun rəsmi olaraq Rusiyaya birləşdirilməsini hazırlayırdı. Bu isə artıq Britaniya proqramından kənara çıxan bir məsələ idi. Odur ki, Britaniya çəkməsi ilə vurulan təpik bu ziddiyyəti həll etməli idi"[19].

Lazar Biçeraxovun Bakıdan uzaqlaşdırılması bu yolda atılmış ən vacib addım idi. Hər halda ingilis komandanlığı üçün bu, mühüm məsələ idi. Çünki Biçeraxov problemini həll etmədən ağqvardiyaçı dəstələrin Bakıdan uzaqlaşdırılması bir qədər "nəzakətsiz" görünə bilərdi. Çünki Biçeraxovun ingilislər qarşısındakı xidmətləri danılmaz idi. İngilis generalı rütbəsinə layiq

görülən Biçeraxov Mesopotamiya və İranda keçirilən hərbi əməliyyatlarda fəal iştirak edərək, ingilis komandanlığının dərin rəğbətini qazanmışdı. Onu da unutmaq olmaz ki, ingilislərlə ikinci dəfə Bakıya gələn Biçeraxov həm də rus qoşunlarının komandanı hesab olunurdu. Beləliklə, Biçeraxovu müəmmalı bir səbəb ilə Londona yola salan ingilislər əsas məsələni rahatlıqla həyata keçirə bilərdilər. Odur ki, fevralın 28-də Denikinin əmri ilə Biçeraxovun yerinə yenicə təyin edilmiş general Prjevalski ingilislərin qərargahından gələn ultimatumu qeyd-şərtsiz yerinə yetirmək məcburiyyətində qaldı. Ultimatumda deyilirdi ki, ağqvardiyaçı qoşunlar 24 saat ərzində, mart ayının 1-i günorta saat 4-ə qədər Azərbaycanı tərk etməlidirlər[20].

Beləliklə, ingilislər bir daha sübut etdilər ki, neft məsələsi onlar üçün ən vacib məsələdir. Onu heç kimə, hətta müttəfiqlərə də güzəştə gedə bilməzlər.

1919-cu il yanvarın 12-də Nazirlər Şurası "Müttəfiq ölkələrə neft buraxılması haqqında" qərar qəbul etdi. Orada deyilirdi: "Ticarət və sənaye nazirliyinə tapşırılsın ki, neft məhsullarının ixracına aid müttəfiq ölkələrin bütün tələbləri hökumətin sərəncamında olan ehtiyatlar hesabına təxirə salınmadan təmin edilsin. Buraxılan neft məhsulları üçün hesablaşma aparılması qaydaları, tərkibində ticarət və sənaye nazirliyi, neft sənayeçiləri qurultayı və müttəfiqlərin komandanlığının nümayəndələri olan komissiyanın ixtiyarına verilməlidir"[21].

Müttəfiqlər arasında ən əlverişli vəziyyət ingilis komandanlığına məxsus idi. Bir qədər əvvəl qeyd etdiyimiz kimi, Transqafqaz dəmir yolunun və Bakı – Batum neft kəmərinin ingilislərin əlində olması, onlara böyük üstünlük verirdi. Həm də nəzərə almaq lazımdır ki, ilk dövrdə Britaniya komandanlığı bütün Antantanın nümayəndəsi hesab edilirdi.

1919-cu ildə "Azərbaycan" qəzetində dərc edilmiş "Saritsın – Həştərxan və Bakı nefti" məqaləsində verilən məlumata əsasən 1919-cu ilin 5 ayı ərzində Bakıdan Batuma göndərilən bütün neft məhsullarının 58 faizi ingilis komandanlığının payına düşürdü[22].

Təbii ki, Antantaya daxil olan digər dövlətlər də Bakı neftində maraqlı idilər. Məsələn, fransızların müharibə dövründə neftlə





bağlı üzləşdiyi problemlər yaxşı bəllidir. Lakin Bakı nefti uğrunda ingilislərlə rəqabət aparmağın özü də son dərəcə müşkül görünürdü. Öz ordusunu və donanmasını təchiz etmək üçün vəziyyətdən yeganə çıxış yolu neft alınması işlərinin təşkili ola bilərdi. Fəqət bunun özü də asan məsələ deyildi. Hətta 1919-cu ilin avqustunda ingilislər Bakını tərk etdikdən sonra belə.

Həmin ilin noyabrında Fransanın Dəniz nazirliyindən Bakıya bir nümayəndə heyəti təşrif buyurdu. Onun məqsədi Fransanın hərbi-dəniz donanmasının gəmiləri üçün duru yanacaq almaq idi. Cahan savaşı başa çatmış olsa da, Fransa bolşevik Rusiyasına qarşı fəal mübarizə aparan dövlətlərdən biri idi. Odur ki, hərbi-dəniz donanmasının yanacağa olan ehtiyacı anlaşılan idi. Həm də Bakıdan neft almaq hər cəhətdən əlverişli və sərfəli sayılırdı. Lakin həqiqətdə heç də hər şey fransızların düşündüyü qədər sadə və asan deyildi. Halbuki Azərbaycan hökuməti ilə fransızlar arasında hər iki tərəfin maraqlarını təmin edən razılaşma əldə olunmuşdu. Nəqliyyat vasitələrinə nəzarət edən ingilislər bu razılaşmanın reallaşmasına ciddi əngəllər yaratmağa başladılar. Nəticədə fransız hərbi missiyasının rəisi polkovnik Bertren, 1919-cu il dekabrın 15-də Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinə məktubla müraciət etmək məcburiyyətində qaldı. Orada deyilirdi: "Hörmətli Cənab! Aşağıdakı suallarla Sizə müraciət edirəm: 1) Batumdakı ingilis komandanlığının Bakıdan Batuma mazut daşımaq üçün qeyri-məhdud miqdarda sistern almaq hüququ nəyə əsaslanır? 2) Əgər bununla bağlı ingilislər tərəfindən təzyiq varsa Siz izah edə bilərsinizmi Bakı və Batumdakı ictimai təşkilatlara edilən bu təzyiq nədən ibarətdir?"[23].

Bu onu göstərir ki, Güney Qafqaz dəmir yolunda istismar edilən vaqon-sisternlər büsbütün ingilis komandanlığının əlində idi. Qeyri-normal vəziyyət də elə bu səbəbdən irəli gəlirdi.

Maraqlıdır ki, fransızların səylərinin heç biri onların istəklərinə uyğun nəticələnmədi. Məsələn, 1920-ci il aprelin 1-də fransızlar gün ərzində 7 sistern mazut almaq istədiklərini bildirsələr də buna nail ola bilmədilər. Ticarət və sənaye nazirliyi ingilislərə və italyanlara neft daşınmasında nəqliyyatın son dərəcə yüklənməsini

əsas gətirərək, yaxın vaxt ərzində hər hansı bir miqdarda neft satışından imtina etmişdi[24].

O zaman Fransada çıxan "Tan" qəzetində "Yanacaq üstündə mübahisə" adlı bir yazı dərc edilmişdi. Yaranmış vəziyyəti təhlil edən müəllif yazırdı: "Səbəb aşağıdakılardan ibarətdir: neft məhsullarını Bakıdan Batuma daşımaq üçün mövcud olanlar: 1) Bir para qüsurları olan neft kəməri fəaliyyət göstərir; 2) Tələb olunan miqdarda olmasa da, hər halda vaqon-sisternlər mövcuddur. Bədbəxtlikdən neft kəmərinə də, vaqonlara da bizim ingilis dostlarımız nəzarət edirlər. Onların razılığı olmadan isə neft çıxarıla bilməz. Həqiqət budur ki, Britaniya maraqlarını təmin edənləri çıxmaq şərtilə, verilmiş digər icazələr o qədər cüzi miqdarda neftə şamil edilir ki, neftin və neft məhsullarının çıxarılmasını faktiki olaraq, ingilis inhisarına çevirir. Beləliklə, Qafqaz nefti Batuma gəlib çatdıqda əsl həqiqətdə ingilis nefti olur. Bunun nəticəsində Fransa Bakıda bir pud mazutu 25 rubla almaq və valyuta kursunun əlverişli vəziyyətindən istifadə etmək əvəzinə, onu funt sterlinqlə almaq məcburiyyətində qaldı"[25].

1920-ci il aprelin 3-də "Azərbaycan" qəzetində də dərc edilmiş bu yazı çox-çox mətləblərdən xəbər verir. İngilislərin Bakı nefti ilə bağlı siyasətinə öz müttəfiqi olan Fransa mətbuatı tərəfindən verilən qiymət həqiqətən də böyük maraq doğurur. Bu onu göstərir ki, Fransa üçün Amerikadan neft daşımaq daha asandır nəinki Batumdan.

Rayevski yazır: "Fransızların vəziyyəti yaxşılaşdırmaq üçün etdiyi bütün təşəbbüslər son dərəcə cüzi nəticələr verirdi. Batum əmcəyi vasitəsilə Bakı neft inəyini sağan ingilislər, az-çox da olsa, əhəmiyyətli miqdarda neft məhsullarının çıxarılmasını heç kimə güzəştə getmək istəmirdilər"[26].

Digər qalib ölkə İtaliyaya gəldikdə isə o da özü üçün tələb olunan səviyyədə yanacaq ehtiyatı yarada bilmədi. Halbuki onun Azərbaycandakı siyasi mövqeləri heç də pis deyildi. Hətta italyanların hərbi kontingentinin Azərbaycana gəlişi də mümkün olan məsələlər sırasında idi. Fəqət italyanlar azacıq miqdarda neft almaq haqqında müqavilə imzalamaqdan uzağa gedə bilmədilər.





Belə bir vaxtda ingilislərə ən böyük təhlükə Amerikadan gəldi. ABŞ şirkəti "Standard Oil"un Bakı neftinə marağı hələ müharibə başlamazdan əvvəl bəlli idi. ABŞ Konqressinin kitabxanasında prezident U.Tafta məxsus kağızlar arasında maraqlı bir sənəd tapılmışdı. Sənəddən məlum olur ki, 1911-ci ildə "Nobel qardaşları" şirkəti ilə Rokfellerə məxsus Amerika neft tresti "Standard Oil K°" arasında əlaqələr yaradılmışdı[27]. Lakin o zaman Bakıda kifayət qədər möhkəmlənmiş ingilis-holland şirkəti "Shell", "Standard Oil"un Bakıda qərar tutmasına böyük əngəllər törədə bilmişdi.

Birinci cahan savaşı qalibiyyətlə başa çatdıqdan sonra isə "Standard Oil K°"-nin rəhbərliyi haqlı olaraq belə hesab etdi ki, Bakı neft mədənlərini ələ keçirməyin zamanı nəhayət ki, artıq gəlib çatıb. Odur ki, 1919-cu ilin yanvarında "Standard Oil"un Fransadakı filialının rəhbəri Bedford işlənməmiş neftli torpaqların 6 mln. franka alınması barədə Parisdə Azərbaycan burjua hökumətinin təmsilçiləri ilə saziş imzaladı[28]. Bununla da "Standard Oil", Bakı neft məkanında əlverişli mövqe tutmaq iddiasında olduğunu ciddi şəkildə təsdiq etdi. Amerika şirkəti eyni zamanda Bakıdan hazır neft məhsullarını da almaqda maraqlı olduğunu bildirdi və konkret addımlar atmağa başladı.

Maraqlıdır ki, neftlə bağlı məsələlərdə ABŞ-ın İngiltərə üçün ciddi rəqib olduğunu yaxşı bilən ingilis komandanlığı, "Standard Oil"un bu təşəbbüslərinə, nə qədər təəccüblü olsa da, xeyli loyal münasibət bəsləmiş oldu. Hətta sağlam məntiqin əksinə olaraq, müəyyən dərəcədə yardımçılıq funksiyasını öz üzərinə götürməkdən belə çəkinmədi. Bu fakt həqiqətən də paradoksal xarakter daşıyırdı. Bununla əlaqədar, "Britaniya neft administrasiyası"nın rəhbəri mayor Rullun 1919-cu ilin iyununda onunla danışıqlar aparan Azərbaycan komissiyasına söylədikləri böyük maraq doğurur. Bu, komissiyanın məruzəsində də öz əksini tapıb. Orada deyilir: "Mayor məlumat verdi ki, hazırkı vaxtda Batumdakı anbarların və neftin mühafizəsi məsələləri başqa müstəviyə keçirilib. Çünki "Standard Oil Company" neftin əlverişli qiymətlərlə çıxarılması barədə Azərbaycan hökumətinə son dərəcə ciddi təklif verib. Mayor Rull inandırır ki, Azərbaycan hökumətinin

razılığı olduğu təqdirdə ingilis və amerikan hökumət orqanları qarşılıqlı müqavilənin yerinə yetirilməsinə hər hansı bir maneçilik törətmə cəhdinin qarşısının alınmasını təmin edəcəklər. Madam ki, müqavilə "Standard Oil" ilə imzalanıb, o zaman İngiltərə tərəfindən hərtərəfli kömək göstəriləcək. Həm neft çənlərinin müsadirəsində və hər puda görə alınan rüsumun minimuma qədər azaldılmasında, həm də italyanlara qarşı müqavimət göstərilməsində. Əgər onlar hər hansı bir manеə yaratmaq fikrinə düşərlərsə, o zaman Birləşmiş Ştatların İtaliyaya ayırdığı kreditlər dayandırıla bilər"[29].

Lakin "Standard Oil"la təxirəsalınmadan müqavilə imzalanmasının tərəfdarı kimi çıxış edən və onu israrla tələb edən ingilislərin bu canfəşanlığı heç də onların öz neft maraqlarından müəyyən mənada kənara çəkilməsi kimi anlaşılmamalıdır. Əksinə, Bakı nefti üzərində tam nəzarəti öz əllərində saxlamaq üçün daha gərəkli, daha incə tədbirləri həyata keçirməyə çalışırdılar. Elə tədbirlər ki, qələbəni hərbi deyil, diplomatik müstəvidə qazandırmış olsun. Özü də uzunmüddətli qələbəni. Belə ki, Parisdə keçirilən Sülh konfransında Güney Qafqaz üzərində mandat əldə etmək üçün İngiltərə hökuməti gərgin danışıqlarda iştirak edərkən, "Standard Oil"la etdiyi tərəfdaşlığa görə bir tərəfdən ABŞ ilə münasibətləri yaxşılaşdırmağa, digər tərəfdən isə onun hüsn-rəğbətini əldə etməyə səy göstərirdi. Bir sözlə, mandat əldə etmək üçün Amerika hökumətindən dəstək almaq ümidində idi. "Standard Oil"la bağlı etdiyi təşəbbüslər isə, bir növ, Bakı nefti hesabına verilməli olan rüşvət kimi də qiymətləndirilə bilər.

Məşhur Amerika tədqiqatçısı Luis Fişer özünün hələ 1926-cı ildə nəşr olunmuş "Neft imperializmi" kitabının "Bakı uğrunda müharibə" fəslində haqlı olaraq yazır ki, imperialist dövlətlərin planlarında Bakı nəinki bütün Güney Qafqaz üzərində hökmranlığı təmin edən strateji məntəqə kimi, həm də mühüm xammal bazası kimi son dərəcə əhəmiyyətli yer tutur[30].

İngilis komandanlığının qeyri-adi "himayədarlığı" və "xeyirduasının" müşayiəti ilə "Standard Oil"un nümayəndəsi – H.Tomas Bakıdan neft almaq barədə Azərbaycan hökumətinin razılığını əldə edə bildi. Razılaşmaya əsasən, Azərbaycan 1919-cu il





iyulun 31-dən 1920-ci il yanvarın 31-dək olan müddətdə Batuma hər bir tonun qiyməti 33-34 dollar olmaqla 100.000 ton kerosin göndərməliydi. Əməliyyat uğurla başa çatdıqdan sonra "Standard Oil" eyni şərtlər əsasında daha 100.000 ton kerosin almalı idi[31].

Unutmaq olmaz ki, neft Azərbaycan iqtisadiyyatı üçün son dərəcə önəmli yer tutur, ölkə ixracatının əsasını təşkil edirdi. Odur ki, hökumət bu məsələyə olduqca ciddi diqqət yetirir, neft və neft məhsullarını alıcılara göndərmək üçün hər bir əlverişli imkandan yararlanmağa çalışırdı. "Standard Oil" ilə əldə edilmiş və iqtisadi cəhətdən az əhəmiyyət kəsb etməyən bu anlaşma, Azərbaycan Respublikasının o zamankı vəziyyətində bir çox problemlərin həll edilməsində mühüm rol oynamış olardı. Həm də nəzərə almaq lazımdır ki, Bakının bütün neft və kerosin anbarları ağzına qədər dolu idi. Əsas neft bazarı olan Sovet Rusiyası isə Britaniya komandanlığı tərəfindən tam blokadaya alınmışdı.

Belə bir vaxtda "Standard Oil"un biznes təklifi lap yerinə düşmüş oldu. Fəqət tezliklə məlum oldu ki, bu heç də asan və real məsələ deyilmiş. Müharibədən əvvəl olduğu kimi, neft nəhəngi "Shell" bu dəfə də qətiyyətlə öz sözünü deyə bildi.

"Standard Oil"a neft satışı məsələsi Bakı neft sənayeçilərinin qərargahı sayılan Qurultay Şurasında müzakirə edildikdə ciddi fikir ayrılığı meydana çıxdı. Neft sənayeçilərinin mülahizəsinə görə "Standard Oil"un 6 mln. pud kerosin almaq niyyəti dünya bazarında kerosin çatışmazlığını sübut edir. Odur ki, bu qədər neftin birdən satışı heç də arzuolunan deyil və əgər dünya bazarına kerosin çıxarmaq lazımdırsa, bunu rəqib şirkət vasitəsilə deyil, birbaşa* etmək gərəkdir. "Standard Oil" isə rəqib şirkətdir[32].

Beləliklə, "Shell"in təhriki ilə "Standard Oil"a "yox" cavabı verildi və müqavilə qüvvədən düşmüş hesab olundu. "Shell"in şəxsi maraqları nəinki Azərbaycan hökumətinin, həmçinin Britaniyanın da siyasi maraqlarına üstün gəldi. Nəticədə xarici valyutaya böyük ehtiyacı olan Azərbaycan müqavilənin təkcə birinci mərhələsinə görə əldə edə biləcəyi 3.300-3.400 min dollardan[33] məhrum oldu. "Standard Oil"un Bakı neft məkanına növbəti dəfə daxil

* Birbaşa dedikdə "Shell" nəzərdə tutulurdu.

olmaq niyyəti isə bu dəfə də uğursuzluqla nəticələndi. "Shell" isə Azərbaycan neft sənayesinin onsuz da ağır olan durumuna yeni bir zərbə vuran mənasız tədbirə imza atmış oldu.

1919-cu ildə hasil olunmuş 40,5 mln. pud neftin yalnız 18 faizini çıxarmaq mümkün olmuşdu. Bu da müharibədən əvvəlkinin 12 faizinə bərabər idi.

Nefti yığmağa yer yox idi. Bütün anbarlar ağzına qədər dolu idi. Bu problem son dərəcə kəskin xarakter daşıyırdı. Nəticədə 1920-ci ilin aprel çevrilişinə qədər satılmamış neft ehtiyatları 270-280 mln. puda çatırdı[34].

Həmin dövrdə Azərbaycan hökuməti neft ixracı məsələsində sözün əsl mənasında od ilə su arasında qalmışdı. Bu əsasən Rusiya ilə olan münasibətlərdə daha kəskin xarakter alırdı. Hətta demək olar ki, bu son dərəcə taleyüklü məsələ idi.

Yaxşı məlumdur ki, ənənəvi olaraq, Azərbaycan neftinin əsas istehlakçısı ucsuz-bucaqsız əraziyə malik olan Rusiya idi. İqtisadi nöqteyi-nəzərdən götürdükdə neftin Rusiyaya satılması bir tərəfdən Azərbaycan hökumətinə hava-su kimi lazım olan maliyyə vəsaiti əldə etməyə imkan verər, digər tərəfdən isə hasilatın artmasının stimullaşdırılmasına səbəb ola bilərdi. Həm də neftin qiymətinin sabitləşməsinə əlverişli şərait yaranardı. Çünki həmin dövrdə neftin çıxarılması ilə bağlı yaranmış süni məhdudiyyətlər onun qiymətinin katastrofik dərəcədə aşağı düşməsinə səbəb olmuşdu. Hətta o dərəcədə ki, bir pud neftin qiyməti iki qutu kibritin qiymətinə bərabər olurdu. Bəzi hallarda isə bir ədəd qəzetdən belə ucuz idi. Bu isə ölkə iqtisadiyyatına sarsıdıcı zərbə vurmaq demək idi. Lakin paradoksal vəziyyət ondan ibarət idi ki, iqtisadi sarsıntıya düçar olmuş Azərbaycan dövləti elə məhz onun sayəsində özünü digər təhlükədən sığortalamış olurdu. Belə ki, bolşevik Rusiyasının Bakı neftinə olan iştahası heç kimə sirr deyildi. Və onu mümkün qədər tez ələ keçirmək üçün müntəzəm olaraq apardığı təcavüzkar siyasət də açıq-aydın idi. Odur ki, Rusiyanı Bakı neftindən məhrum etməklə, onun Azərbaycana qarşı hərbi-siyasi planlarını xeyli dərəcədə əngəlləmək mümkün olurdu. Bu isə gənc Azərbaycan Cümhuriyyəti üçün heç də adi





məsələ deyildi. Əksinə, sözün əsl mənasında, son dərəcə taleyüklü məsələ idi.

Digər tərəfdən ingilis komandanlığının özü də, bir qədər əvvəl qeyd etdiyimiz kimi, Sovet Rusiyasına neft göndərilməsinin qəti əleyhdarı olduğunu sübut edərək, Rusiyaya gedən Xəzər dəniz yolunun tam blokadaya alınmasını təmin etmişdi. Çünki ingilislər Bakı üçün ən real təhlükəni, haqlı olaraq, bolşeviklərin timsalında görürdülər.

Sovet Rusiyasına neft satışına dair ingilislər tərəfindən qoyulmuş qadağaya münasibət bildirərkən "Azərbaycan" qəzeti 12 may 1919-cu il sayında yazırdı: "Moskvaya neft buraxmış olsaydılar, ingilislər özlərinə qarşı qaldırılan qılınc hazırlamış olardılar. Sovetlərin fabrik və zavodları işləməyə başlayar, dəmir və su yolları hərəkətə gələr, bolşevik cəbhəsini gücləndirməyə və möhkəmləndirməyə xidmət edə biləcək hər nə varsa, fəaliyyətə başlayardı.

Bu, ingilislərə faydalı idimi?

Bu, Azərbaycana faydalı idimi?

Əlbəttə yox, kim özü-özünə düşmən olar?"[35]

Odur ki, Sovet Rusiyasını zəiflətmək üçün istər Britaniya komandanlığı, istərsə də Azərbaycan hökuməti Bakı neft sənayesinin gündən-günə ağırlaşan vəziyyəti, dəqiq desək, tənəzzülə uğraması ilə barışmalı olurdular. Çünki şimaldan boylanan qırmızı kabus hər ikisi üçün təhlükə mənbəyi idi. Nəticədə hərbi-siyasi amil iqtisadi amili əməlli-başlı üstələmiş oldu.

Əlbəttə, Azərbaycan hökuməti öz iqtisadi vəziyyətini xeyli dərəcədə yaxşılaşdırmaq üçün digər real imkanlara malik idi. Bu şərtlə ki, Güney Qafqaz nəqliyyat dəhlizindən, habelə Batum limanından kifayət qədər bəhrələnə bilsəydi. Fəqət, bu da arzulanan səviyyədə mümkün olmadı. İngilislərin hərbi-siyasi məqsədləri Azərbaycan dövlətinin iqtisadi və milli maraqlarını üstələdi.

Tezliklə Bakı nefti uğrunda mübarizəyə Amerika Birləşmiş Ştatları da qoşulmaq qərarına gəldi. O'Konnor yazır: "Müharibə, qələbənin əldə olunmasında neftin müstəsna əhəmiyyətini üzə çıxardı"[36]. Bu aksiomanı şübhəsiz ki, Birləşmiş Ştatlar hökuməti də dərk etdi. Luis Fişer yazır: "Birinci cahan savaşının sonunda

ABŞ-da müdhiş bir nəticəyə gəldilər ki, nəinki dünya bazarında Birləşmiş Ştatların böyük üstünlük təşkil edən nüfuzu, həmçinin özünün ehtiyatları hesabına ölkənin ehtiyaclarının təmin edilməsi də dəhşətli təhlükə qarşısındadır. "Standard Oil" trestinin siyasəti ucbatından və ABŞ-ın coğrafi cəhətdən əlçatmaz uzaqlıqda olması nəticəsində ölkədə, onun hüdudlarından kənarda böyük neft ehtiyatlarının mövcud olmasına lazımi əhəmiyyət verilmirdi. Hərbi tələbatı ödəmək məqsədilə ABŞ-ın neft yataqlarının intensiv olaraq istismar edilməsi və bununla yanaşı yeni yataqların sayının azalması, daxili bazardakı çatışmazlığın yerini doldurmaq üçün neftin Meksikadan gətirilməsini faktiki olaraq zərurətə çevirdi"[37].

Müharibədə qalib gələn bir dövlət kimi ABŞ da Bakı neftində maraqlı olduğunu heç də gizlətmək fikrində deyildi. Güney Qafqazda hərbi iştirakı olmasa da öz niyyətini diplomatik vasitələrlə həyata keçirməyə çalışırdı. Bu, Güney Qafqaz respublikaları üzərində mandat əldə etmək məsələsində xüsusilə aydın göründü. ABŞ-ın atdığı siyasi addımlar və həyata keçirmək istədiyi tədbirlər bu məsələdə son dərəcə israrlı olduğunu sübut edirdi.

Hələ 1919-cu ilin mayında Dördlər Şurası Qara dəniz boğazları və Ermənistan üzərində mandatı ABŞ-a təklif etmişdi. İyulun 5-də Amerikanın təqdimatı və Onlar Şurasının qərarı ilə polkovnik V.N.Haskel ABŞ, İngiltərə, Fransa və İtaliya hökumətləri adından Ermənistana ali komissar təyin edildi və elə ilk günlərdən başlayaraq, Amerikanın bölgədəki strateji maraqlarını təmin etmək yolunda ciddi-cəhddə bulunmağa başladı. Hətta o, "erməni məsələsi"ndən də yararlanmağı unutmadı. İrəvanda özünə qərargah yaradan Haskel tezliklə bəyan etdi ki, o nəinki Ermənistanın, habelə hansı ərazidə yaşamalarından asılı olmayaraq, bütün erməni əsilli insanların qoruyucusudur və bu hüququ ona Paris Sülh konfransı həvalə etmişdir.

Haskelin bu bəyanatı çox incə mətləblərdən xəbər verirdi. Əlbəttə, dəfələrlə olduğu kimi, bu dəfə də üzdəniraq "erməni məsələsi" konkret məqsədləri həyata keçirmək yolunda tarixin sandığından götürülmüş sehrli alət rolunu oynamalı idi. Çünki "harada yaşamalarından asılı olmayaraq" dedikdə Haskel şübhəsiz





ki, ilk növbədə Azərbaycanı və Gürcüstanı, habelə Türkiyəni nəzərdə tuturdu. Bu isə artıq strateji məsələ idi. Çünki onun əsas cazibə qüvvəsi ilk növbədə ingilislərin nəzarəti altında olan Bakı nefti idi. Fəqət, Mosul neftini də yaddan çıxarmaq olmaz. Odur ki, bölgədə Amerikanın hərbi iştirakını təmin etmək məqsədilə Sülh konfransına müraciət edərək, qayda-qanun yaratmaq bəhanəsiylə ABŞ-ın hərbi kontingentinin göndərilməsini xahiş etdi.

Polkovnik Haskelin gəlişi və atdığı addımlar erməniləri də ruhlandırdı. Odur ki, onları növbəti dəfə Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə sövq etdi. Daha dəqiq desək, bu dəfə onlar Naxçıvan və Şərur-Dərələyəz ərazilərini Ermənistana qatmaq arzusunda idilər. Təbii ki, Amerikanın əli ilə. Şübhəsiz ki, erməni rəhbərləri ABŞ-ın Bakı neftinə olan maraqlarından xəbərdar idilər. Odur ki, ingilislərdən ala bilmədiklərini amerikanlardan almağa ümid etdilər. Belə ki, hələ 1918-ci ilin dekabrında erməni həyasızlığından canını qurtarmağa çalışan İngiltərə, onu Fransaya ötürmək qərarına gəldi. Bunu ayın 9-da hökumətin iclasında lord Kerzon özünəməxsus şəkildə belə əsaslandırmışdı: "Ermənistan Fransaya verilməlidir. Çünki Fransadan başqa heç bir ölkə bu qəribə, ürəyə yatmayan adamlarla hər hansı şəkildə əlaqədə olmaq istəmir"[38].

Haskel isə ermənilərin iddialarının təmin edilməsinə onlara hər cür yardım göstərəcəklərini vəd etdi və bu sahədə hətta konkret addımlar atmağa da cəhd göstərdi. O, Naxçıvan və Şərur-Dərələyəzdə bitərəf zona yaradılması və orada general-qubernatorluq təşkil edilməsi iddiasını irəli sürdü. Bu, ermənilərin gələcək planlarının həyata keçirilməsi üçün əlverişli imkan yaratmış olardı.

Haskel müxtəlif üsullara, variantlara əl ataraq bu planı tezliklə həyata keçirməyə çalışdı. Azərbaycan hökumətini də müxtəlif vədlərlə şirnikləndirib, ona yardımçı olmağa çağırdı. Hətta Azərbaycanın tanınması məsələsini Paris Sülh konfransında qaldıracağına da söz verməkdən çəkinmədi. Fəqət Azərbaycan hökuməti qəti şəkildə bildirdi ki, bu ərazi ölkənin ayrılmaz hissəsidir və yalnız bu şərtlə Amerika general-qubernatorluğunun müvəqqəti idarəsinə verilə bilər.

Lakin tezliklə Haskeli əvəz edən Ceyms Rey və ABŞ-ı təmsil edən digər yüksək rütbəli məmurlar da başa düşdülər ki, Naxçıvan və Şərur-Dərələyəzi Azərbaycandan bitərəf zona adı ilə qoparmaq mümkün deyil. Çünki yerli əhalinin bu təhlükəli plana münasibəti son dərəcə mənfi idi və kütləvi həyəcanlarla müşayiət olunurdu. Bunun qarşısını almaq üçün isə Amerikanın Ermənistanda hərbi qüvvəsi yox idi.

Tezliklə ABŞ-ın əsl niyyəti hamıya bəlli oldu. 1919-cu il noyabrın 14-də Paris Sülh konfransının Ali Şurasında qəflətən peyda olan Haskel çıxış edərək diplomatların nəzərinə çatdırdı ki, "nə vaxta qədər Azərbaycan və Gürcüstan mənim səlahiyyətimdən kənardadırlar, nə vaxta qədər bu üç respublika ümumi bir mandat altında birləşdirilməyib mən Ali Şuranın Ermənistanla bağlı üzərimə qoyduğu vəzifəni həyata keçirə bilməyəcəyəm?"[39].

Beləliklə, necə deyərlər, xoruzun quyruğu nəhayət ki, göründü. ABŞ hökuməti ingilislərin Bakıdan çıxmasının ardınca siyasi situasiyanın dəyişməsindən bəhrələnərək, Güney Qafqazı bütövlüklə öz nəzarəti altına almağa çalışırdı. Bu o demək idi ki, baş tutduğu təqdirdə Amerika müharibədən sonrakı ən böyük qələbəsinə imza atmış olacaqdı. Doğrudan da Bakı neftinə və onu nəql edən Transqafqaz dəmir yoluna nəzarət böyük qələbə sayıla bilər. Fəqət məsələ ABŞ-ın istədiyi kimi alınmadı. Gözlənildiyi kimi, İngiltərə Amerikanın bu iddiasına öz qəti etirazını bildirdi. Hamının nəzərinə çatdırıldı ki, "Böyük Britaniya hökuməti Amerika polkovniki Haskeli Transqafqazda ali komissar kimi tanımağa hazırlaşmır"[40].

Fransa və İtaliyanın da dəstək verdikləri bu qəti etiraz aksiyası Amerika neft sənayeçilərinin illərdən bəri Bakı neftinə olan ümidlərini növbəti dəfə əngəlləmiş oldu. İngilis tədqiqatçısı E.Monro hadisələri təhlil edərək yazırdı: "Mandatların bölüşdürülməsi zamanı Birləşmiş Ştatlar neft psixozu dumanında idi"[41].

Lakin ABŞ bu uğursuzluğu yaddan çıxarmadı. Məqamı çatdıqda, necə deyərlər, kimin kim olduğunu bir daha sübut etməyə çalışdı. Belə məqam isə çox tezliklə yetişdi.



## XXVI fəsil

# SOVET RUSİYASININ AZƏRBAYCANI İŞĞAL ETMƏSİ və BAKI NEFTİNƏ YİYƏLƏNMƏSİ

1919-cu ilin sonu 1920-ci ilin əvvəlində Sovet Rusiyasının silahlı qüvvələri Denikin ordusunu sıxışdıra-sıxışdıra cənuba doğru üz tutduqda, Azərbaycanın və Gürcüstanın dövlət müstəqilliyi real işğal təhlükəsi ilə üzləşdi. Belə bir kritik vəziyyətdə hər iki ölkənin rəhbərliyi yardım üçün Antanta ölkələrinə müraciət etmək məcburiyyətində qaldı. Odur ki, Böyük Britaniyanın xarici işlər naziri lord Kerzon Paris Sülh konfransının Ali Şurasına müraciət edərək, təxirəsalınmadan Azərbaycan və Gürcüstanın de-fakto tanınması təklifində bulundu. Nəticədə 1920-ci il yanvarın 11-də Ali Şura lord Kerzonun təklifinə əsasən qərar qəbul etdi. Qərarda deyilirdi: "Müttəfiq və birləşmiş dövlətlər birlikdə Azərbaycan və Gürcüstan hökumətlərini "de-fakto" səviyyəsində tanıyırlar"[1].

Zira, digər dövlətlərdən fərqli olaraq, ABŞ və Yaponiya bu akta qoşulmadılar. Doğrudur, bir qədər sonra – fevralın 7-də Yaponiya bu qərara qoşulsa da, ABŞ öz qərarında yenə də israrlı idi.

Ladvell Denni bunu belə şərh edir: "Nefti "Datç/Shell" ("Royal Dutch/Shell" nəzərdə tutulur – *N.Rza*) üçün mühafizə edərək, Britaniya qoşunları 1920-ci ilin iyuluna kimi Qafqazda qaldılar. Bu ilin əvvəlində müttəfiqlərin Ali Şurası Gürcüstan və Azərbaycanın antisovet respublikalarını bir şərtlə tanıdı ki, bu hökumətlər Britaniya və Fransa maraqlarına himayəçilik edəcəklər. Vaşinqton əksinqilabçı hökumətləri tanımaqdan imtina etdi. Əlbəttə, Sovet hökumətinə hər hansı bir rəğbətə görə yox. İş burasındadır ki, diplomatik və hərbi mülahizələrə görə ABŞ həmişə rus ərazisinin parçalanmasının əleyhinə olub və bundan sonra da olacaq. O zaman Rusiya neftinə* can atan Standard** da həmçinin, əksinqilabçı Qafqaz hökumətlərinin tanınmasına mane olurdu. Çünki çox güman ki, onlar İngiltərə xarici işlər nazirliyinin və Deterdinqin təsiri altında idilər"[2].

* Bakı nefti nəzərdə tutulur.
** "Standard Oil" şirkəti.

Necə deyərlər, şərhə ehtiyac yoxdur. Çünki Rusiyanın parçalanması əleyhinə olduğunu əldə əsas tutan ABŞ hökuməti nədənsə yanvarın 19-da Ermənistanın müstəqilliyinin müttəfiqlər tərəfindən de-fakto tanınmasını Rusiyanın parçalanmasına doğru yönəlmiş akt kimi qiymətləndirmədi, əksinə, aprelin 23-də onun özü də Ermənistanı de-fakto tanıdı.

Azərbaycanın müstəqilliyinin de-fakto tanınması Sovet Rusiyası rəhbərliyinin böyük narahatlığına səbəb oldu. Özünü keçmiş Rusiya imperiyasının qeyri-rəsmi varisi rolunda hiss edən və bu səbəbdən də, Bakı da daxil olmaqla, bütövlükdə Azərbaycanı onun ayrılmaz hissəsi sayan rus bolşevikləri Bakı neftinin həmişəlik itirilməsi təhlükəsini dərk edərək, öz təcavüzkar planlarını həyata keçirmək üçün səylərini daha da artırdılar. Hərbi-siyasi təzyiqləri davam etdirməklə yanaşı, hətta qaçaqmalçılıq yolu ilə Bakıdan neft əldə etməkdən belə çəkinmirdilər. Bu üzdəniraq neft "əməliyyatlarında" Bakı bolşevikləri müstəsna canfəşanlıq göstərirdilər. Onlar duru yanacaq sarıdan ağır vəziyyətdə olan Qızıl ordu birləşmələrinə mümkün qədər çox neft məhsulları göndərməyə çalışırdılar.

1919-cu ildə cənub-şərq cəbhəsində ağqvardiyaçılara qarşı mübarizə aparan Qızıl ordunun duru yanacaqla əlaqədar kəskin böhranla üzləşdiyini nəzərə alan S.Kirov Bakı bolşeviklərinə yalvarışa bənzər bir müraciət göndərdi. Orada deyilirdi: "Ümidimiz yalnız sizədir. Siz bizə 5-10 min pud benzin çatdırsanız Sarıtsın və Həştərxan ətrafında dayanan avtomobillərimiz və təyyarələrimiz yenidən hərəkətə gələr və yarım aydan sonra Sarıtsın ətrafında ağların cəbhəsi dağıdılar"[3]

Kirovun ümidsizlikdən doğan bu yalvarış tələbini Bakı bolşevikləri artıqlaması ilə yerinə yetirdilər. Onlar 1919-cu ilin avqust ayında qaçaqmalçılıq yoluyla Həştərxana qayıqlarla 2500 pud benzin göndərdilər. Bir qədər sonra həmin üsulla daha 20 min pud benzin və 3500 pud maşın yağı göndərildi[4].

Beləliklə, Rusiyanın rəsmi dairələri Bakı neftini əldə etməyin ən etibarlı üsulu kimi, qaçaqmalçılıq yolunu üstün tutmuş oldular. Neft qaçaqmalçılığı Azərbaycanın müstəqilliyi de-fakto tanındıq-





dan sonra da davam etdirildi. Aprel işğalından bir qədər əvvəl isə daha da intensivləşdirildi. Maraqlıdır ki, qaçaqmalçılıq yolu ilə neft daşınması hətta ölkənin rəhbəri Lenin tərəfindən də xüsusi dəstəklənir və daşınma əməliyyatlarının uğurlu keçməsi üçün öz məsləhətlərini də əsirgəmirdi. Çünki o, gözəl başa düşürdü ki, Bakı neft rayonunu ələ keçirmək üçün də ilk növbədə Bakı nefti gərəkdir.

1920-ci il martın 14-də Leninin Həştərxana – donanma komandanlığına və şəxsən Raskolnikova və Kirova ünvanladığı şifrəli teleqram da məhz bu problemin çözülməsi ilə əlaqədar idi. Teleqramda deyilirdi: "Sizin planlarınız nefti dənizin dərin yerləri ilə daşımağa əsaslanır. Babkin isə təklif edir ki, düşmən donanmasının ələ keçirə və batıra bilməməsi üçün neft dənizin dayaz, sahildən görünən yerləri ilə, Belinski bankasından keçməklə, daşınsın. Deyir ki, 4 çərəkdən 5 çərəyədək oturum üçün münasib olanları "Cambay", "Ukno", "Ratmir", "Lev", "Pluton", "Apollon", "Meduza", "Rusalka", "Valeriya", "Stefaniya" barjları və başqalarıdır. Neft Belinski bankası yaxınlığında vurulmalıdır. Güman edir ki, beləliklə, bir dəfəyə 320 min və ayda 1.600 min pud daşımaq olar. Rəyinizi bildirin"[5].

Müstəqil Azərbaycan Cümhuriyyətini tanımaqdan hər cür vəchlə imtina edən Sovet Rusiyası hökuməti onun neftindən imtina etmək iqtidarında deyildi. Əksinə, nəinki öz qurtuluşunu onda görürdü, həm də əlverişli imkan düşdükdə onu yenidən öz əlinə keçirmək planları üzərində düşünürdü. Lenin 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin hərbi-inqilab şurasına, şəxsən Orconikidzeyə göndərdiyi teleqram da məhz bu niyyətlərdən xəbər verirdi. Teleqramda deyilirdi: "Bakını almaq bizə olduqca və olduca zəruridir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır... Qüvvələr yeridilməsi haqqında Baş komandanla şərtləşin"[6].

Bolşevik Rusiyasının Güney Qafqaza gündən-günə artan təhlükəsi müttəfiqləri də az narahat etmirdi. İngiltərənin xarici işlər naziri lord Kerzon bunun qarşısını almaq üçün ən qəti tədbirlərin

belə görülməsinin tərəfdarı idi. Hətta bölgəyə hərbi müdaxilə də istisna edilmirdi. Belə ki, Güney Qafqazın əsas strateji nöqtələri sayılan Batum-Tiflis-Bakı yanacaq xəttinin yenidən işğal edilməsi məsələsi ingilis hərbi strateqlərinin əsas müzakirə mövzularından birinə çevrilmişdi.

İngilislərin Qafqaz və Qafqaz neftini ələ keçirmək niyyətlərinə fransızların mənfi münasibət bəslədiklərini xüsusi vurğulayan Rayevski bunu belə əsaslandırır: "İngilislərin Güney Qafqaza müdaxiləsinin artıq ilk ili göstərdi ki, onların hökmranlığı fransızların tamamilə sıxışdırılması deməkdir. Odur ki, onlar böyük məmnuniyyətlə öz "müttəfiqlərinin" yeni hoqqalarını bütün dünyaya car çəkdilər"[7].

1920-ci il yanvarın 21-də Fransanın Lion şəhərinin radiosu vasitəsilə efirdə səslənmiş ifşaedici mətn bir neçə gün sonra, yanvar ayının 25-də "Azərbaycan" qəzetində dərc edildi. Orada deyilirdi: "İngilislər Qafqaza göndərilmək üçün on min əsgərin gəmilərə mindirilməsinə hazırlıq işlərini qızğın surətdə başa çatdırırlar. İngilislərlə bolşeviklər arasında bir-birini qaç-qovdu oyunu baş verir, görək, Batum-Tiflis-Bakı dəmir yoluna kim daha tez çatacaq. Lloyd Corc fransızları güzəştə getməyə məcbur etdi və ingilis qoşunlarını Qafqaza göndərmək üçün fransız qoşunlarının Almaniyada olan ingilisləri əvəz etməsini təkid etdi. Lloyd Corc buna təhdid vasitəsilə nail oldu. Belə ki, əgər fransızlar imtina etsələr, o, (yəni Lloyd Corc – *N.Rza*) Sovet Rusiyasına dərhal sülh təklif edəcək. Qafqazın yolunun bağlanmasında heç kəs ingilislər qədər həyati maraq nümayiş etdirmir. Əgər bolşeviklər Türkiyənin içərisindən keçsələr, onlar Mesopotamiya üçün ciddi təhlükə ola bilərlər və Konstantinopol (İstanbul – *N.Rza*) – Bağdad dəmir yolunu kəsə bilərlər. İndi bu təşəbbüsdə Lloyd Corc və Çörçill birlikdə hərəkət edirlər. Ləvazimat, ərzaq, geyim, silah, əsgəri təchizat, pulemyotlar, aeroplanlar, tanklar, yanacaq Bakıya göndərilir, orada olan ingilis hissələri isə yerli gürcü* qoşunlarına təlim verərək, bolşeviklərə qarşı mübarizəyə hazırlayırlar. İngilislərin can atdıqları mükafat iri neft mərkəzi Bakıdır"[8].

* Lion radiosunun məlumatında qeyri-dəqiqliyə yol verilib. Nədənsə, Azərbaycan qoşunları əvəzinə, gürcü qoşunları ifadəsi işlədilib.





Fransız radiosunun yaydığı bu məlumatın həqiqətə nə dərəcədə uyğun olub-olmamasını, Böyük Britaniya ali komissarının Azərbaycandakı nümayəndəsi polkovnik Stoks təkzib edərək deyir ki, nə Uordrop*, nə də ki o, söylənilən fakta aid heç bir məlumat almamışıq və hesab edir ki, xəbər düzgün deyildir[9].

Fəqət, bütün bunlara baxmayaraq hər halda fransız radiosunun məlumatı bolşevik təhlükəsinin mövcudluğundan qaynaqlanırdı və təbii ki, müttəfiq dövlətlərin hərbi-siyasi maraqlarına toxunan məsələ idi. Odur ki, onların bu təhlükəyə cavab olaraq görmək istədikləri adekvat tədbirlər də başa düşülən idi. Bu, təbii ki, təhlükəsizlik baxımından Azərbaycanın da maraqlarına uyğun idi. Məntiqi nəticə ondan ibarət idi ki, Azərbaycan hökuməti dövlətin və millətin təhlükəsizliyini mühafizə etmək naminə ilk növbədə onun müstəqilliyini rəsmən tanımış dövlətlərə müraciət etməyə borclu idi. Yəni yaranmış təhlükəli vəziyyətdə istər siyasi, istərsə də hərbi yardımı gerçəkdən də yalnız bu dövlətlərdən almaq mümkün ola bilərdi.

Azərbaycan Xarici İşlər nazirliyinin Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Ə.Topçubaşova göndərdiyi məktub da məhz bu zərurətdən irəli gəlirdi. Orada deyilirdi: "Qızıl ordunun yaxınlaşması ilə əlaqədar olaraq yaranmış vəziyyət bizi məcbur edir ki, ingilislərin bizə edə biləcəyi hərbi yardım məsələsini aydınlaşdıraq. Polkovnik Stoks vasitəsilə Uordropla bu istiqamətdə danışıqlar aparıram. Bizdə olan məlumata görə Uordrop bununla bağlı London ilə əlaqə saxlayıb, oradan göstərişlər gözləyir. Buna görə sizə də lazımdır ki, bu istiqamətdə müəyyən addımlar atasınız"[10].

Eyni zamanda Azərbaycan hökuməti milli orduya tələb olunan hərbi ləvazimatın miqdarı haqqında məlumatları toplayaraq, ingilis komandanlığının nəzərinə çatdırırdı. Məsələn, Xarici İşlər nazirliyindən polkovnik Stoksa "gizli və təcili" qrif ilə

* Oliver Uordrop – Böyük Britaniya Ali Komissarı

göndərilmiş məktubda deyilir: "Azərbaycan ordusunun tərkibi haqqında məlumat və artilleriya haqqında məlumata əlavə", habelə Bakı hərbi limanı üçün avadanlığın və materialların siyahısı sizə göndərilir"[11].

Azərbaycan və Gürcüstanın başı üzərində asılmış Sovet Rusiyasının "Domokl qılıncı" təhlükəsi, 1920-ci il yanvarın 19-da Paris Sülh konfransının Alı Şurasında geniş müzakirə obyektinə çevrildi. Azərbaycan nümayəndə heyətinin də iştirak etdiyi müşavirədə Lloyd Corc, Klemanso, Nitti, Kerzon, Çörçill, Foş, Vilson və digər hərbi, siyasi xadimlər də var idilər. Müxtəlif fikirlərin, nöqteyi-nəzərlərin irəli sürüldüyü bu müzakirələrdə Güney Qafqaz respublikalarına ediləcək yardımın hansı formada məqsədəuyğun olması məsələsi xüsusilə diqqəti çəkirdi. Fransız marşalı Foş Qafqaza bir neçə diviziyanın göndərilməsini təklif etdi. İngilis feldmarşalı Vilson isə dedi ki, Britaniya donanması Xəzər dənizində təşəbbüsü öz üzərinə almasa, Qafqazı əldə saxlamaq mümkün



Soldan: Lloyd Corc, Orlando, Klemanso, Vilson





olmayacaq. Hərbi nazır U.Çörçill də Vilson ilə həmrəy olduğunu bildirərək dedi ki, əgər İngiltərə Xəzər dənizində hökmranlıq etməsə, Qafqaza göndərilən silahların hamısı bolşeviklər tərəfindən ələ keçiriləcək[12].

Hərbi ekspertlər adından çıxış edən marşal Foş müşavirə iştirakçılarına qəti şəkildə dedi ki, Qafqazı bolşevik hücumundan qorumaq yalnız ora ordu göndərməklə mümkündür[13].

Foşun təklifini Klemanso və Çörçill də dəstəklədilər və Qafqaza qoşun göndərilməsinin tərəfdarı olduqlarını bəyan etdilər. Lloyd Corc ilə Nitti isə hərbi ləvazimat göndərilməsini irəli sürdülər[14].

Gürcüstan nümayəndə heyətinin üzvü Z.Avalovun məlumatına görə, o zaman hətta Qafqaza 200 minlik bir ordunun göndərilməsi barədə böyük hay-küy də qaldırıldı. Son nəticədə isə bu layihə kənara qoyuldu[15].

Azərbaycana və Gürcüstana ordu göndərilməsi məsələsinə toxunarkən Böyük Britaniyanın baş naziri Lloyd Corc bu addımın mümkün olmadığını etıraf etdi[16].

Ali Şura Qafqaza aid qərar qəbul etdi. Oradakı dörd maddədən üçü Qafqaz respublikalarının təhlükəsizliyi məsələləri ilə bağlı idi. Həmin maddələrdə deyilirdi:

...2. Müttəfiq hökumətlər Qafqaz respublikalarına ordu göndərmək iqtidarında deyillər.

3. Müttəfiqlər silah, hərbi ləvazimat və ərzaq göndərmək yolu ilə Qafqaz respublikalarına kömək edəcəklər.

4. Hərbi materialların konkret tərkibini və onların Qafqaz respublikalarına çatdırılması yollarının müəyyən edilməsi ilə bağlı məsələlərin müzakirə olunmasını marşal Foşdan və feldmarşal Vilsondan xahiş etmək[17].

Beləliklə, müttəfiqlərin Güney Qafqaza silahlı qüvvələrin göndərilməsindən imtina etmələri Sovet Rusiyasının əl-qolunu açdı. Ermənistanla üzüntülü hərbi münaqişəyə cəlb edilmiş gənc Azərbaycan ordusunun iki cəbhədə mübarizə aparmaq imkanları son dərəcə məhdud idi. Ölkədəki siyasi vəziyyət də antimilli qruplaşmaların dağıdıcı fəaliyyəti sayəsində heç də ürəkaçan

deyildi. Sovet Rusiyası ilə neft amili üzərində köklənmiş diplomatik qarşıdurma gündən-günə şiddətlənirdi. Münasibətləri normallaşdırmaq sahəsində Azərbaycan hökumətinin atdığı addımlar birtərəfli xarakter daşıdığından heç bir əməli nəticə vermirdi. Əksinə, Rusiya iki ölkə arasındakı münasibətləri daha da gərginləşdirməkdə son dərəcə maraqlı görünürdü. Odur ki, daim Azərbaycanı öz ərazisindəki hərbi ixtilafın bilavasitə iştirakçısına çevirməyə çalışırdı.


G.V.Çiçerin

1920-ci il yanvarın 2-də və 23-də RSFSR xarici işlər komissarı Çiçerinin Azərbaycan Respublikasının xarici işlər naziri F.Xoyskiyə göndərdiyi notalar Azərbaycanı general Denikinin ağqvardiyaçı ordusu ilə mübarizəyə cəlb etmək məqsədi daşıyırdı. Həm də Azərbaycanın hərbi münaqişəyə cəlb edilməsi, eyni zamanda, istər-istəməz Bakı neftinin Rusiyaya daşınması demək idi. Nəzərə alınmaq lazımdır ki, həmin vaxtda şəhərin neft anbarları ağzına qədər dolu idi. Yanacağın ümumi miqdarı 250 mln. puddan artıq idi. Bakıda hər ay orta hesabla 18-19 milyon pud neft hasil edilirdi. Həmin vaxt ərzində isə ölkədən çıxarılan neftin miqdarı cəmi 5-6 milyon pud təşkil edirdi[18].

Nəhayət, Rusiya hökuməti başa düşdü ki, Azərbaycanı işğal etmək üçün əlverişli şərait yetişib. Azərbaycanı ələ keçirməklə, Sovet Rusiyası həmçinin Yaxın və Orta Şərq bölgələrinin həndəvərinə yaxınlaşmaq imkanı da əldə edə bilərdi. Bu ölkələr isə, bildiyimiz kimi, neftlə zəngin olan bölgələrdir. Beləliklə çar Rusiyasının həyata keçirə bilmədiyini Lenin rejimi reallaşdırmaq niyyətində idi.


F.Xoyski





Digər tərəfdən Rusiya hökuməti Azərbaycanı ələ keçirməkdə öz müstəqilliyi uğrunda qərb dövlətləri ilə ölüm-dirim mübarizəsinə cəlb edilmiş Türkiyə amilindən də məharətlə istifadə etməyi bacardı. Tərkibində türk hərbi əsirlərindən təşkil edilmiş hərbi hissələr də olmaqla XI rus ordusu quzeydən Azərbaycan sərhəddini keçib Bakıya doğru üz tutdu. Əldə edilmiş "razılığa" əsasən rus ordusu Bakıdan yan keçməklə, Qarabağı və Ermənistanı adlayıb Antanta qoşunlarına qarşı mübarizə aparmaq üçün Anadoluya doğru hərəkət etməli idi[19]. Lakin belə olmadı. Çətin vəziyyətdə olan Türkiyə hökuməti Rusiyanın Azərbaycanı işğal etmək istəyi qarşısında geri çəkilməli oldu. Bu, Mustafa Kamal Atatürkün 1920-ci il aprelin 26-da V.İ.Leninə ünvanladığı məktubdan da aydın görünürdü. Orada deyilirdi ki, Türkiyə ingilisləri Qafqaz ərazisindən qovmağı, imperialist Ermənistana qarşı hərbi əməliyyatları öz üzərinə götürür və Azərbaycan Respublikasını Sovet dövləti tərkibinə daxil olmağa məcbur edir[20].

Nəhayət, 1920-ci il aprelin 27-də gündüz saat 4-də Azərbaycan bolşevikləri, Rusiya Komunist (bolşeviklər) partiyası Qafqaz Diyar komitəsinin Bakı bürosu və fəhlə konfransı adından Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verdilər.

Ultimatumun parlamentdə müzakirəsi zamanı çıxış edən M.Ə.Rəsulzadə dedi: "Qardaşlar! Qarşımızda bir ultimatum durur. Burada təslimdən bəhs edilir. Fəqət, qardaşlar, təslim nə deməkdir? Kimə görə mövqeyimizi tərk edirik? Bizə deyirlər ki, hüdudlarımızdan keçən ordunun başında Nicati adında bir türk komandanı var. Rusiyadan gələn bu təcavüzkar ordu təxminən bilirəm ki, həyat və ölüm mübarizəsi aparan Türkiyəni xilas etmək üçün keçir.


M.Ə.Rəsulzadə

Qardaşlar! Türkiyə Azərbaycanın xilaskarıdır. Millətimizin amalını uca edən müqəddəs bir məmləkətdir. Onun xilasına gedən bir qüvvəni məmnuniyyətlə yola sala-

rıq. Fəqət bir şərtlə ki, bu qüvvə bizim azadlığımızı, müstəqilliyimizi çeynəməsin. Halbuki, qardaşlar, bizdən soruşmadan torpağımıza keçən hər hansı qüvvə dostumuz deyil, düşmənimizdir. Duyduğumuz bu təbliğat düşmən təbliğatıdır. Bizi aldadırlar. Yalandır, gələn rus ordusudur. Onun istədiyi 1914-cü il hüdudlarını almaqdır. Anadolunun imdadına getmək bəhanəsilə yurdumuza girən işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir"[21].



"Türk Ədəmi-Mərkəziyyət-Müsavat" partiyası Mərkəzi Komitəsinin bir qrup üzvü". 1918-ci il. Sağdan sola: Abbasqulu Kazımzadə, Kərbalayı Vəli Mikayılov, Nəsib bəy Usubbəyli, Mirzə Məhəmməd Axundzadə, Məhəmməd Əmin Rəsulzadə, Məmməd Əli Rəsulzadə, Tağı Nağıyev

Belə də oldu. Rus ordusunu Azərbaycana dartıb gətirən acı neft qoxusu, onun uzun müddət ərzində buradan çıxmasına imkan vermədi. Təsadüfi deyil ki, Volqa-Xəzər donanmasının komandanı F.F.Raskolnikova verilmiş tapşırıqda xüsusi olaraq qeyd edilmişdi ki, XI ordu hissələri gəlib çatana qədər, Bakı neftdaşıma donanmasını ələ keçirmək məqsədilə Ələt stansiyası rayonuna hərbi





dənizçi dəstəsindən ibarət desant çıxarsın və neft mədənlərinin güman edilən dağıdılmasının qarşısını alsın[22].

İşğalın ertəsi günü, aprelin 29-da Şüşə-çini istehsalı fəhlələrinin Ümumrusiya qurultayında çıxış edən V.Lenin öz hədsiz sevincini gizlətməyərək belə demişdi: "Elə dünən Bakıdan aldığımız bir xəbər göstərir ki, Sovet Rusiyasının vəziyyəti yaxşılaşmaqdadır; sənayemizin yanacaqsız qaldığı bizə məlumdur, indi xəbər almışıq ki, Bakı proletariatı hakimiyyəti öz əlinə almış və Azərbaycan hökumətini yıxmışdır (seçmə mənimdir – *N.Rza*). Bu o deməkdir ki, indi bizim bütün sənayemizi canlandıra biləcək bir iqtisadi bazamız vardır. Bakıda milyon pudlarla neft vardır, bu neft son zamanlara qədər satıla bilmirdi, bu səbəbdən də hətta neft sənayeçisi Nobel həmin nefti Sovet Rusiyasına gətirib satmaq haqqında bizimlə danışıqlara başlamağa çalışırdı. Beləliklə, nəqliyyatımız və sənayemiz Bakı neft mədənlərindən çox böyük yardım alacaqdır"[23].

Leninin bu çıxışını xüsusi olaraq təhlil etməyə heç bir lüzum yoxdur. Çünki bütövlükdə götürüldükdə o, siyasi həyasızlığın bariz nümunəsi kimi qiymətləndirilə bilər. Xalqların öz müqəddəratını təyinetmə hüququndan gecəli-gündüzlü ağız dolusu danışan Lenin, öz müqəddəratını yenicə təyin etmiş Azərbaycan xalqının bütün hüquqlarını tapdalayaraq, onun Rusiyanın neft maraqlarına qurban verilməsinə nail olmuşdu.

Acınacaqlı fakt isə odur ki, 70 ilə yaxın bir dövrdə Azərbaycan sovet tarixçiləri Leninin bu "tarixi" çıxışını son dərəcə yüksək dəyərləndirərək, yeri gəldi-gəlmədi ondan bir təbliğat vasitəsi kimi istifadə edir və geniş zəhmətkeş kütlələrinin şüurunda saxta beynəlmiləlçilik ideyalarının formalaşmasına çalışmışdılar. Əslində isə bu, müstəmləkəçilik siyasətinin forma etibarilə yeni bir təzahürü idi. Güney Qafqaz respublikaları arasında öncə məhz Azərbaycanın işğal edilməsi şübhəsiz ki, ilk növbədə neft amili ilə əlaqədar idi. Bu amil isə Rusiya üçün son dərəcə həyati əhəmiyyət kəsb edirdi. Bunu heç Lenin də gizlətmirdi və hər bir çıxışında xüsusi olaraq vurğulayırdı.

1920-ci il oktyabrın 2-də "Gön" istehsalı fəhlə və qulluqçularının qurultayı"ndakı çıxışında o, böyük bir qürur hissi ilə elə beləcə

demişdi: "...Siz bilirsiniz ki, Bakının əldə edilməsi indi 100 milyon puddan artıq neft gətirməyə imkan vermişdir"[24]. Həmin il oktyabrın 15-də keçirilmiş başqa bir müşavirədə isə Lenin demişdi: "... Sənaye üçün bizim yanacağımız vardır. Bakıdan 100 milyon puddan artıq neft almışıq"[25].

Bu elə bir vaxt idi ki, Azərbaycanda repressiya dalğası, xüsusilə də Gəncədəki may üsyanından sonra bir an belə səngimirdi. Azərbaycan istiqlalının mücahidləri total şəkildə təqib olunur, həbs edilir, açıq-gizli məhv edilir, ölkəni tərk etməyə məcbur edilirdi. Azərbaycanın Paris Sülh konfransı tərəfindən tanınmış qanuni hökumətinin hərbi zorakılıqla hakimiyyətdən kənarlaşdırılmasına və didərgin salınmasına nail olan bolşevik Rusiyası hədsiz acgözlüklə onun zəngin neft sərvətlərini həzm etməyə girişdi. Zira, eyni zamanda, ehtiyatı da əldən verməmək barədə düşündü. Çünki Lenin belə hesab edirdi ki, Bakıya olan Antanta təhlükəsi hələ də tam sovuşmayıb. Bu onun Respublika Hərbi-İnqilab Şurasının üzvü İ.Stalinə 1920-ci il oktyabrın 29-da göndərdiyi teleqramda da öz əksini tapmışdı. Orada deyilirdi: "Şübhəsiz hesab edirəm ki, Gürcüstan Batumu yəqin ki, gizlincə Antantaya verəcək və Antanta Bakının üzərinə gələcəkdir. Qurudan və dənizdən Bakının ətrafını möhkəmlətmək, ağır artilleriya gətirmək və sair üçün təcili tədbirlər düşünüb hazırlayın. Sizin qərarınızı xəbər verin"[26].

Noyabrın 15-də Bakıdan Leninə göndərdiyi cavab teleqramında İ.Stalin menşevik Gürcüstanı tərəfindən Bakıya hücum ediləcəyi halda Bakını müvəffəqiyyətlə müdafiə etmək üçün Qafqaz cəbhəsinin qoşun hissələrini gücləndirmək lazım olduğunu xəbər vermişdi[27].

Antanta xofu və Bakının yenidən itirilə biləcəyi təhlükəsi Lenini o dərəcədə narahat edirdi ki, o Stalindən aldığı teleqramdan hələ iki gün əvvəl, yəni noyabrın 13-də Stalinə bir teleqram da göndərmək zorunda qaldı. Həmin teleqramda Lenin təşvişlə soruşurdu: "...Bakının ətrafını möhkəmləndirmək üçün tam ciddiyyətlə iş görülürmü?"[28].





Stalin 15 noyabr tarixli teleqramı da məhz buna cavab olaraq göndərmişdi. Bundan bir neçə gün sonra, noyabrın 20-də gecə saatlarında Lenin ilə Stalin arasında birbaşa xətlə danışıq baş verdi. Danışıq vaxtı Leninə cavab verən Stalin bu gecə Moskvaya yola düşəcəyini, habelə Orconikidzeyə hazırlıq işləri görməsi və Moskvadan göstərişlər gözləməsi barədə sərəncam verməsini Leninin nəzərinə çatdırdı. Sonra onu da əlavə etdi ki, qüvvə göndərilməsini sürətləndirmək haqqında cəbhə ilə də danışacaq[29].

Noyabrın 23-də Lenin analoji problemlə əlaqədar Trotskiyə də müraciət etmək qərarına gəldi. Ona göndərdiyi məktubda Lenin yazırdı: "...Zəhmət olmasa sərəncam verin, yardım qüvvəsi göndərməyi dərhal gücləndirsinlər, sonra isə xahiş edirəm bunu elə bu gün Çiçerinə göndərəsiniz"[30]. Lakin Leninin Bakı barəsindəki narahatlığı təkcə Antanta ilə yekunlaşmırdı. Bu onun RK(b)P Moskva təşkilatı fəallarının oktyabrın 9-da keçirilmiş müşavirəsindəki çıxışından aydın görünürdü. Uzaq Şərqdə Yaponiya ilə yaranmış gərgin vəziyyəti şərh edərək Lenin daha sonra demişdi: "Türküstanda və Qafqazda vəziyyət daha mürəkkəbdir. Bu yaxınlarda türklər Batumu, sonra da ola bilsin, Bakını tutmaq üçün Ermənistana hücum etməyə başlamışlar. Aydındır ki, bu məsələdə biz maksimum ehtiyatlı olmalıyıq"[31].

Lenini ehtiyatlı olmağa vadar edən digər məsələ Bakıda tüğyan edən dəhşətli ərzaq qıtlığı və aclıq idi. Xarici müdaxilə olduğu təqdirdə bu bolşeviklərə onsuz da dərin nifrət bəsləyən yerli əhalinin üsyana qalxmasında katalizator rolunu oynaya bilərdi. Odur ki, noyabrın 27-də RK(b)P MK Siyasi Bürosu qərar layihəsi hazırladı. Layihədə ərzaq komissarlığına çox mühüm bir siyasi və iqtisadi vəzifə olaraq tapşırılması tövsiyə edildi ki, Bakı hökmən və müntəzəm surətdə 100 faizlik norma üzrə ərzaqla təchiz edilsin[32].

Qərarda hərbi-siyasi məsələlərə xüsusi diqqət yetirilirdi. Orada özəlliklə vurğulanırdı ki, Gürcüstan, Ermənistan, Türkiyə və İran haqqında maksimum barışıq siyasəti yeridilsin. Yəni bu siyasətin məqsədi ən çox ondan ibarət olsun ki, müharibədən qaçınılsın.

Gürcüstana, Ermənistana və İrana yürüş etmək vəzifəsi qarşıya qoyulmasın[33].

Azərbaycana gəldikdə isə qərar layihəsində hərbi tədbirlərə daha çox üstünlik verilməsi tövsiyə olunurdu. Orada deyilirdi: "Azərbaycanın qorunması və bütün Xəzər dənizinin əldə möhkəm saxlanılması başlıca vəzifə hesab edilsin. Bunun üçün Azərbaycana azı 7 diviziya göndərilməsi hər vasitə ilə gücləndirilib sürətləndirilsin"[34]. "Bütün Xəzər dənizinin əldə möhkəm saxlanması"na gəlincə, bu onu göstərir ki, Rusiya hökuməti İran ərazisindən Xəzər vasitəsilə Britaniyanın hərbi müdaxilə edə biləcəyindən hələ də ehtiyatlanmaq məcburiyyətində idi.

Belə bir mürəkkəb hərbi-siyasi şəraitdə Bakının Rusiya üçün əvəzsiz olduğunu yaxşıca dərk edən ermənilər, onu Türkiyəyə qarşı hərbi avantüraya cəlb etmək məqsədilə Bakı kartından yararlanmağa cəhd göstərdilər. Bu baxımdan dekabrın 14-də Leninin Çiçerinə göndərdiyi məktub şəksiz maraq doğurur. Məktubda deyilir: "Yoldaş Çiçerin! Ter-Qabrielyan dünən yanımda idi, o da qorxunc bir talan təhlükəsindən danışırdı.

1) Deyirdi ki, 600.000 erməni qaçqını məhv olur.

2) Deyirdi ki, Qarssız Bakı təhlükədədir.

Məncə, (1) №-ni (2) №-dən ayırmaq və (1) №-də hər vasitə ilə kömək etmək lazımdır.

Sizin rəyiniz? və (1) № ilə əlaqədar olaraq siz nə edirsiniz?"[35]

Beləliklə, Leninin məktubundan aydın görünür ki, Qars məsələsini qaçqın məsələsindən ayıraraq, ona heç bir önəm verməməklə o, erməni kələyinin nədən ibarət olduğunu gözəl başa düşmüşdü. Çünki Qars avantürasına baş qoşmaq bilavasitə Türkiyə ilə müharibəyə başlamaq demək idi. Bu isə Rusiyanın yaxın gələcək planlarına daxil olan məsələ deyildi. Zira, taleyüklü problemlər yetərincə idi. Bakı və Bakı neft mədənlərinin təhlükəsizliyi ən ümdə məsələlər sırasında idi.

Lakin erməni nümayəndəsinin dilindən səslənən "Qarssız Bakı təhlükədədir" ifadəsi çox-çox mətləblərdən xəbər verir. Bu ilk növbədə Rusiyanı şantaj etmək deməkdi. Bakı neftinin təhlükədə olduğunu xüsusi olaraq vurğulamaqla, Rusiyanın əli ilə Qars vilayətini Türkiyədən qoparıb Ermənistana qatmaq məqsədi güdülürdü. Lenini isə Rusiyanın gələcək neft strategiyası daha çox düşündürürdü. Bakı nefti ələ keçirildikdən sonra bu məsələ nəinki daha da aktuallaşdı, həmçinin yeni perspektivlərin, ideyaların ya-ranmasına səbəb oldu. Fəqət onları həyata keçirmək o qədər də asan məsələ deyildi. Bir tərəfdən Rusiyanın iqtisadi və maliyyə zəifliyi, digər tərəfdən isə işğal etdiyi Bakının zəngin neft mədənlərinin acınacaqlı vəziyyəti, mövcud problemlərin aradan qaldırılmasına böyük çətinliklər yaradırdı. Odur ki, 1921-ci il fevralın 1-də Rusiya Xalq Komissarları Sovetinin qəbul etdiyi "Neft Konsessiyaları haqqında"kı qərarı vəziyyətdən yeganə çıxış yolu kimi qiymətləndirilirdi. Hər halda Lenin bu işə son dərəcə ciddi yanaşır və hamıdan da eyni ciddiliyi və məsuliyyəti tələb edirdi. Məsələn, Konsessiya müqavilələrinin əsas prinsipləri layihəsinin hazırlanması AXTŞ* sədri A.Rıkova tapşırılmışdı. Lakin işin gedişatından son dərəcə narazı qalan Lenin martın 27-də ona qəzəbli bir məktub göndərdi. Orada deyilirdi: "Mən Konsessiya müqaviləsi haqqında Sizin materialları gözdən keçirdim və dedikcə hiddətləndim. Bu, Dosser və K°-sının sabotajı və ya zırramalığıdır.

Heç bir şeyə yaramayan və gülünc bir çox xırda təfsilat (od yandırmağın qadağan edilməsi və s.) vardır və əhəmiyyətli cəhət göstərilməmişdir. Əhəmiyyətli cəhət bürokratlıq zibili içində batırılmışdır. Düşünən baş özünü göstərmir"[36].

Leninin etiraz dolu bu məktubu onun neft konsessiyaları məsələsinə necə böyük həssaslıqla yanaşdığını bir daha sübut edir. Bu, onun martın 19-da L.Krasinə** göndərdiyi teleqramda da aydın görünür. Xalq xarici işlər komissarı G.Çiçerinin də imzaladığı bu teleqramda Lenin yazırdı: "Partiya qurultayı*** Qroznıda və Bakıda konsessiyalar haqqında mənim müdafiə etdiyim xətti bəyənmişdir. Bu konsessiyalar, habelə hər cür konsessiyalar haq-

* Ali Xalq Təsərrüfat Şurası.

** Rusiyanın Böyük Britaniyadakı səlahiyyətli nümayəndəsi.

*** 1921-ci ildə keçirilmiş RK(b)P-nin X qurultayı.

qındakı danışıqları sürətləndirin. Mənə daha tez-tez məlumat verin"[37].

Neft konsessiyaları ilə əlaqədar olan işlərin daha da sürətləndirilməsini daim tələb edən Lenin aprelin 2-də Azərneftkomun sədri A.Serebrovskiyə də məktub göndərməyi unutmadı. Məktubda deyilirdi: "Çox mühümdür ki, bakılı yoldaşlarda da konsessiyalar haqqında düzgün (və X partiya qurultayı tərəfindən bəyənilmiş, yeni partiya üzvləri üçün məcburi) görüş hasil olsun. Son dərəcə hasil olunur ki, Bakının 1/4-i (bəlkə hətta 2/4-si) konsessiyaçılara verilsin. *Ancaq* bu halda yerdə qalan 3/4-də (və ya 2/4-də) müasir qabaqcıl kapitalizmə *çatmaq* (və sonra onu ötüb keçmək) ümidi vardır.

Siz özünüz və hamınız qulağınıza sırğa edin: "konsessiyalar son dərəcə lazımdır. Kommunizm üçün kommunist lovğalığından... zərərli və fəlakətli heç bir şey yoxdur.

İndi, Batum bizdə olduğu bir vaxtda, xaricdə ən tez bir zamanda neft və kerosin ilə avadanlıq mübadiləsinə var qüvvə ilə güc vermək lazımdır.

Bunun üçün Bakı rayonuna müəyyən müstəqillik lazımdır. Əgər Sizdə belə bir müstəqillik yoxdursa, teleqrafla dəqiq bildirin, biz sizə bu müstəqilliyi verək.

Biz burdan sizə kömək edə bilmərik, çünki özümüz yoxsuluq. Neft və onun məhsulları müqabilində xaricdən lazım olan hər şeyi satın almaqla siz bizə kömək etməlisiniz"[38].

Maraqlıdır ki, Bakı neftinə aid proqram xarakteri daşıyan bu məktub nə qədər təəccüblü görünsə də, Azərbaycan hökumətinin başçısı Nəriman Nərimanova deyil, məhz Serebrovskiyə – Azərbaycan Neft Komitəsinin Lenin tərəfindən təyin olunmuş sədrinə ünvanlanmışdı. Bu bir daha sübut edirdi ki, Bakı nefti Rusiyanın inhisarındadır və onun gələcək perspektivi də bilavasitə məhz onun müəyyənləşdirdiyi neft siyasətindən asılıdır. Halbuki formal da olsa, Xalq Cümhuriyyətinin hüquqi varisi olmaqla Azərbaycan müstəqil dövlət idi və Rusiyanın tərkibinə də qatılmamışdı. Odur ki, özünün neft siyasətini də özü müəyyənləşdirməli idi. Fəqət, hər şey tərsinə idi. Sovet Rusiyasının işğalçılıq siyasəti Bakı





nefti məsələsində özünü xüsusilə qabarıq biruzə verirdi. Həqiqət naminə demək lazımdır ki, başqa sahələrdə də vəziyyət eyni cür idi. Lakin neft məsələsi diqqəti xüsusilə cəlb edir və istər-istəməz Böyük Britaniya hərbi komandanlığının 1918-ci ilin sonlarında Bakıda yaratdığı "Britaniya neft idarəsi" yada düşür. O zaman da Bakı nefti üzərində nəzarət ingilis administrasiyasına məxsus idi. Rəhbərliyi də britaniyalı Herbert Alenə həvalə olunmuşdu. Lakin o zaman ingilislər Azərbaycan hökuməti ilə məsləhətləşmələrdən və razılaşdırılmış addımlardan çəkinmirdilər. Sovet Rusiyası isə, Leninin məktubundan göründüyü kimi, hətta siyasi etika xatirinə buna əməl etməyi lazım bilmirdi.

Belə münasibəti Serebrovskinin fəaliyyətində də aydın görmək mümkün idi. Hiss olunurdu ki, neft məsələsində o, yalnız Lenin qarşısında özünü cavabdeh hesab edirdi. Və yalnız şəxsən Lenin onu tərifləmək və ya tənbeh etmək hüququna malik idi. Rəsmi sənədlər də bunu təsdiq edir.

1921-ci il aprelin 16-da Serebrovski Leninə göndərdiyi cavab teleqramında xahiş edirdi ki, İranda, Türküstanda və Avropada neft məhsullarını avadanlığa və fəhlələr üçün paltar və ərzağa mübadilə etməkdə neft komitəsinə müəyyən müstəqillik verilməsi haqqında rəsmi bildirilsin"[39].

Aprelin 19-da XKS İran, Türküstan və Avropada neft məhsullarını fəhlələr üçün təchizat şeylərinə mübadilə etməkdə Azərbaycan Neft Komitəsinin səlahiyyətini genişləndirmək haqqında qərar layihəsini hazırlamaq üçün xüsusi komissiya təyin etdi[40].

Elə həmin vaxt Serebrovski İstanbulda türk, fransız və italyan firmalarının nümayəndələri ilə apardığı ticarət danışıqları haqqında Q.Orconikidzeyə* teleqram göndərir. Serebrovski dəqiq məlumat vermədən, bir sıra firmalarla guya əlverişli şərtlərlə müqavilələr bağladığını, Batuma Bakı üçün mal göndərildiyini və Rusiyaya qayıtmaq arzusunda olan vrangelçi əsgərləri Bakı neft mədənlərində işləmək üçün göndərməyin mümkün olduğunu bildirirdi[41].

* Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Qafqaz bürosunun sədri.

Mayın 19-da İstanbulda Azərbaycan Neft Komitəsi ilə Rusiya üçün ticarət-sənaye və maliyyə cəmiyyəti (Societe Commerciale Industrielle financiere pour la Russie – "Sosifross") arasında müavilə imzalandı[42].

"Sosifross"dan xəbər tutan Lenin son dərəcə narahat oldu və surətləri Rabinoviçə* və Orconikidzeyə çatdırılmaqla, Serebrovskiyə teleqram göndərməyə məcbur oldu. Orada deyilirdi: "Mən Serebrovskinin Sosifross ilə bağladığı müqavilədən son dərəcə narahatam və təəccüb edirəm ki, bu xüsusda Rabinoviç təəssüf ki, şərh etmədən və əməli təkliflər irəli sürmədən xəbər vermişdir, Serebrovski özü isə xəbər verməmişdir. Müqavilə qəribədir. Sosifrossun aldatmayacağı barədə nə təminat vardır? Ona necə inhisar vermək olardı? Xahiş edirəm mənə dərhal cavab verəsiniz, Serebrovskinin İstanbulda bütün satın aldıqlarının dəqiq siyahısı etibarlı bir kuryer ilə göndərilmişdirmi? Məhz nə zaman göndərilmişdir? Və müqavilənin təfsilatı və vaxtı"[43].

Bu onu sübut edir ki, nəinki Rusiya, hətta şəxsən Leninin özü də Bakı neftini və onunla bağlı bütün məsələləri öz şəxsi nəzarətində saxlamağa çalışırdı.

Leninin qəzəbli teleqramından dərhal sonra, iyunun 11-də Serebrovski mal satın alınması, "Sosifross" ilə və Rusiya ticarəti üçün fransız kompaniyası ilə müqavilələr haqqındakı sənədləri xüsusi kuryerlə V.Leninə göndərdi.

Serebrovskinin teleqramı üzərində Lenin yazmışdı: "Smolyanikova. Gizlidir. Oxuyun. Yadda saxlayın"[44].

Leninin teleqramı o dərəcədə qəzəbli idi ki, Serebrovski onu özünə qarşı etimadsızlıq təzahürü hesab edərək, hətta vəzifəsindən istefa vermək məsələsini də irəli sürmüşdü. Bunu Leninin nəzərinə çatdıran Orconikidze tezliklə Lenindən bir teleqram aldı. Orada deyilirdi: "Serebrovski mənim teleqramımın tonundan inciməməlidir. Bakının müqəddəratı məni narahat etmişdi. Serebrovskini çox qiymətli işçi hesab edirəm. Bakıda neft işini yaxşılaşdırmaq sahəsindəki işlərin yekunu haqqında, habelə xarici ticarət əməliyyatlarının yekunları haqqında Sizdən tez-tez və dəqiq məlumat tələb edirəm. Bu teleqramı Serebrovskiyə göstərin"[45].

* F. Rabinoviç – Xalq Xarici Ticarət Komissarlığının Güney Qafqaz respublikalarındakı müvəkkili.





1922-ci il avqustun 16-da təşkil olunmuş "Azneft-sindikat" idarəsinin sədri təyin olunan A.Serebrovski sonralar həmin hadisələri belə xatırlayırdı: "..."Corciya" gəmisində biz 3.140 pud maşın yağı, 10 min puda qədər də benzin və kerosin aparırdıq. Fransızlar bunları çox tez aldılar. Sonra da İtaliya və digər xarici neft cəmiyyətləri tərəfindən alış-veriş başlandı. Pulları əvvəlcədən, malı heç görmədən verirdilər. Belə olduqda Bakıdan yağ və neft yola saldıq və Bakı-Batum kerosin kəməri yenidən işləməyə başladı. Qazandığımız pullara İstanbulda paltar, ayaqqabı və başqa mallar aldıq və elə oradaca İstanbuldakı "Sosifross" firması ilə ilk müqavilə münasibətləri yaratdıq, bir qədər sonra mal dövriyyəsi sürətlə artmağa başladı"[46].

Leninin qəzəbinə və narahatlığına səbəb olan da, Serebrovskinin təsvir etdiyi məhz bu hadisələr idi. Sovet Rusiyasını dəhşətli iqtisadi tənəzzüldən və siyasi təklənmədən qurtulmaq üçün dəridən-qabıqdan çıxmağa hazır olan Lenin və onun bolşevik güruhu Bakı neftinin hələ də yüksək olan beynəlxalq nüfuzundan mümkün qədər çox qazanc payı əldə etməyə çalışaraq, bir tərəfdən sərfəli neft müqavilələrindən, digər tərəfdən isə beynəlxalq aləmdə səngimək bilməyən ziddiyyətlərdən bəhrələnməyə çalışırdı. Təkbaşına mübarizənin uğursuzluğunu yaxşıca dərk edən Lenin vaxtilə onun hakimiyyətə gəlməsində müstəsna rol oynamış Almaniya kartından istifadə etməyi daha məqbul sayırdı. 1920-ci il dekabrın 6-da RK(b)P Moskva təşkilatı fəallarının yığıncağında konsessiyalar haqqında məruzə edərkən demişdi: "Almaniya məğlub olmuşdur, Versal müqaviləsi onu əzmişdir, lakin onun çox böyük iqtisadi imkanı vardır. Əgər Amerika birinci hesab edilərsə, Almaniya iqtisadi inkişaf dərəcəsinə görə dünyada ikinci ölkədir..."[47]

Lenin ABŞ ilə Avropa, Antanta ilə Almaniya arasındakı ziddiyyətlərdən istifadə etməyə çalışmaqla yanaşı, onları daha da dərinləşdirməyə səy göstərirdi. Və bir çox hallarda buna nail də olurdu. Bununla yanaşı Almaniyaya hər vəchlə yaxınlaşmağa çalı-

şır və bundan Antantaya qarşı istifadə edirdi. Məruzəsində Lenin daha sonra demişdi: "Bax, belə bir ölkəyə Versal müqaviləsi qəbul etdirilmişdir, o isə həmin müqavilə ilə yaşaya bilmir. Almaniya özü güclü, qabaqcıl kapitalist ölkələrindən biridir. Versal müqaviləsinə o dözə bilməz, buna görə də, özü imperialist ölkəsi olan Almaniya əzilmiş bir ölkə olduğu üçün ümumdünya imperializminə qarşı özünə müttəfiq axtarmalıdır (seçmə mənimdir – *N.Rza*). Bax, istifadə etməli olduğumuz vəziyyət belədir"[48].

Leninin bu sözləri çox-çox mətləblərdən xəbər verirdi. Əvvəla, Almaniyaya xoş məramlı mesaj göndərməklə, bir yandan onun əzilmiş ölkə olduğuna işarə edir, digər tərəfdən Rusiyanı ona yeganə müttəfiq kimi nişan verməklə, gələcək mücadilələrdə, xüsusilə də yaxın gələcəkdə baş verə biləcək neft mücadiləsində bir platformadan çıxış etməyin məqsədəuyğun olduğunu onun nəzərinə çatdırırdı. Antantaya və ABŞ-a gəldikdə isə bu, sözün əsl mənasında diplomatik şantaj kimi qiymətləndirilə bilər. Yəni Qərb dövlətlərinin nəzərinə çatdırılırdı ki, Rusiyaya sərf edən təkliflərlə razılaşmayacaqları təqdirdə Almaniya ilə ittifaq heç də mümkünsüz görünmür. Almaniyanın yanacağa, xüsusilə də neft yanacağına təsəvvüredilməz dərəcədə olan ehtiyacı belə bir ittifaqın yaranmasını müsbət sonluqla nəticələndirə bilər.

Lenin məruzəsində daha sonra demişdi: "Amerika ilə qalan Antanta arasındakı, bütün Antanta ilə Almaniya arasındakı ziddiyyətləri gücləndirən nə varsa, hamısından istifadə etməliyik... Almaniya üçün konsessiya qurtuluş vasitəsidir. Amerikanı Yaponiyaya qarşı, bütün Antantanı Amerikaya qarşı, bütün Almaniyanı Antantaya qarşı qoymaq lazımdır.

İmperialistlərin bütün işini çıxılmaz bir dolaşıqlığa salan bax, bu üç düyündür. Bütün mətləb bundadır. Bax, buna görə də siyasi baxımdan bütün qəlb ilə – yaxud qəlb lazım deyil, – bütün fayda niyyəti ilə konsessiyanın tərəfdarı olmaq lazımdır"[49].

Lakin kapitalizm dünyasına qarşı düşmənçilik münasibətini heç vaxt gizlətməyən Lenin "konsessiyaların sülh demək olduğunu düşünmək"dən xeyli uzaq idi. Əksinə, elə hesab edirdi ki, belə düşünmək "ən böyük bir səhv olardı". Konsessiyalar müha-





ribənin yeni formasından başqa bir şey deyildir. Avropa bizim ilə vuruşurdu və indi müharibə yeni bir sahəyə keçir. Əvvəllər müharibə imperialistlərin hədsiz dərəcədə güclü olduqları hərbi sahədə gedirdi. Onlarda və bizdə olan toplar, pulemyotlar hesablansa, bizim hökumətin və onların hökumətlərinin səfərbərliyə ala biləcəyi əsgərlərin sayı hesablansa, biz danışıqsız gərək ikicə həftədə əzilmiş olardıq. Lakin biz bu sahədə davam gətirdik və vuruşmanı davam etdirməyə girişirik, iqtisadi müharibəyə keçirik"[50].

İqisadi müharibə dedikdə, Lenin şübhəsiz ki, ilk növbədə bütünlüklə Rusiyanın sərəncamında olan neft amilini nəzərdə tuturdu. Konsessiya ideyası da əvvəldə dediyimiz kimi, əsasən neft amilinə söykənirdi. Çünki kapitalizm dünyası ilə uğurlu iqtisadi müharibə aparmaqdan ötrü Rusiyanın əlində neftdən savayı digər bir tutarlı dəstavüz yox idi. Digər tərəfdən hər şeyə ideoloji don geydirməyə adət etmiş Lenin bir şeyi başa düşmək istəmirdi ki, iqtisadiyyatda müharibə deyil, əməkdaşlıq etmək daha sərfəli, daha etibarlıdır. Lakin Lenin bunun tam əksini düşünürdü. Və bu düşüncə tərzi çox keçmədən Genuya konfransında da özünü göstərdi. Halbuki neft konsessiyaları baxımından bu konfransa Lenin böyük ümidlər bəsləyirdi.

Rəqabət prinsipini müharibə kimi dərk edən Lenin yazırdı: "Nə qədər ki, kapitalizmlə sosializm qalır, bunlar dinc yaşaya bilməzlər: ən nəhayət ya biri, ya da digəri qalib gələcəkdir: ya Sovet respublikasının fatihəsi oxunacaq, ya da kapitalizminki. Bu, müharibədə vaxtı uzatmaqdır. Kapitalistlər müharibə etmək üçün bəhanə axtaracaqlar. Əgər onlar təklifi qəbul edib konsessiyaya razı olsalar, onların işi çətinləşməyəcəkdir. Bir tərəfdən, müharibə olacağı təqdirdə bizim şəraitimiz ən yaxşı olacaqdır, digər tərəfdən müharibə etmək istəyənlər konsessiyaya razı olmayacaqlar. Konsessiyaların varlığı müharibə əleyhinə iqtisadi və siyasi dəlildir. Bizimlə müharibə etmək istəyə biləcək dövlətlər konsessiya götürsələr, müharibə edə bilməyəcəklər, onların əl-qolu bağlanacaqdır"[51].

Partiya fəalları qarşısında deyilmiş bu sözlər ilk baxışda populist ritorika təsiri bağışlasa da, əslində çox-çox mətləblərdən xəbər verirdi. Belə ki, qərb dövlətləri Rusiya hökumətinin irəli sürdüyü təkliflər və şərtlər əsasında neft konsessiyalarından imtina etdikləri təqdirdə, o zaman onları müharibə tərəfdarları kimi damğalamaq olardı. Yəni qərb dövlətləri konsessiyalardan hər vəchlə ona görə imtina edirlər ki, onlar imperialistdirlər və hər şeyi yalnız müharibə yolu ilə həll etməyə üstünlük verirlər. Konsessiyalar ideyasına ümid bəsləyən, lakin onun uğurlu olacağına daxilən şübhə edən Lenin, çox güman ki, vəziyyətdən çıxış yolunu qabaqlayıcı addımlar atmaqda görürdü. Odur ki, öz oyununu oynamaq qərarına gəldi. Hədə-qorxu, uydurma xarakteri daşıyan bu oyun, Bakı və Quzey Qafqaz neftində maraqlı olan qərb dövlətlərinə qarşı məqsədyönlü şəkildə yönəldilmiş şantaj və böhtan kimi də qiymətləndirilə bilər. Sadə dildə bu o deməkdir ki, əgər hər hansı bir kapitalist ölkəsi neft konsessiyalarını qəbul etməzsə, o zaman o dövlət "militarist" damğası ilə damğalana bilər.

Qərb dövlətlərini müdafiə etmək fikrindən xeyli uzağam. Çünki onların da böyük neftlə bağlı hərbi-siyasi çarpışmaları və neftlə bağlı oyunları sivil qaydalardan xəbər vermirdi. Bununla belə Leninin söylədiyi fikirlər sadəlövh olduğu qədər də məkrli idi.

1920-ci il dekabrın 22-dən 29-na kimi VIII Ümumrusiya Sovetlər qurultayı keçirildi. Qurultayda çıxış edən Lenin dedi: "Amerikalı Vanderlin* Xalq Komisarları Sovetinə müraciət etdiyi məktubda deyirdi: "Biz amerikalıların mənafeyi bizi Yaponiya ilə toqquşdurur, biz Yaponiya ilə müharibə edəcəyik. Bəlkə də bunu bilmək sizin üçün maraqsız deyil ki, 1923-cü ildə bizim donanmamız ingilis donanmasından güclü olacaqdır. Müharibə etmək üçün əlimizdə neft (seçmə mənimdir – *N.Rza*) olmalıdır. Neftsiz biz müasir müharibə apara bilmərik. Neftə malik olmaqdan əvvəl tədbir görmək lazımdır ki, düşmənin nefti olmasın (seçmə mənimdir – *N.Rza*). Yaponiya bu cəhətdən pis şəraitdədir. Kamçatkanın yaxınlığında bir körfəz vardır (adını unutmuşam), burada neft mənbələri vardır ki, biz istəyirik bu neft yaponların

* Frank Artur Vanderlin-Amerika bankiri.





əlində olmasın. Əgər siz həmin yeri bizə satsanız, mən təminat verirəm, xalqımızda elə bir ruh yüksəkliyi olacaqdır ki, sizin hökumətinizi dərhal tanıyacağıq"[52].

Bundan bir qədər əvvəl, oktyabrın 9-da RK(b)P Moskva təşkilatı fəallarının müşavirəsində daxili və xarici vəziyyət haqqında çıxış edərkən Lenin bu məsələyə münasibətini belə açıqlamışdı: "Uzaq Şərqdə vəziyyət elədir ki, Yaponiya çıxıb getməlidir, çünki onun üçün qış kampaniyası mümkün deyildir. Bu bizi qüvvətləndirir. Hazırda Moskvada bir Amerika milyarderi vardır. Bu konsessiyanı verməklə biz Yaponiya ilə Amerika arasındakı münasibətləri kəskinləşdiririk"[53].

Onu da deyək ki, sonralar məlum oldu ki, cənab Vanderlin konsessiya ideyasından, hətta bir layihə kimi belə qəti imtina edirdi. Bununla belə Rusiya, Yaponiya və ABŞ arasında mövcud olan Uzaq Şərq probleminə işıq salmaq üçün bir qədər əvvələ qayıtmaq gərəkdir. Deyilənlərdən bizə də məlum oldu ki, bu məsələdə də neft qoxusu yetərincə imiş.

Hələ Birinci cahan savaşı dövründə Yaponiya vəziyyətdən istifadə edərək, Saxalin adası üzərində tam nəzarəti ələ almaq və materikə nüfuz etmək üçün vaxt itirmədən əməli tədbirlərə əl atdı. Amerika diplomatiyasının uğursuzluğunu görən ABŞ prezidenti V.Vilson hətta konqressin razılığını almadan belə bölgəyə 8.500 nəfərdən ibarət kontingent göndərmək qərarına gəldi. ABŞ hökumətinin etirazına məhəl qoymayan Yaponiya bunun müqabilində 74 min nəfərlik bir ordunu nəzarətdə saxladığı əraziyə yeritdi və bununla da neftlə zəngin olan və bu vaxta qədər Rusiyaya məxsus olmuş Quzey Saxalinə olan iddialarının ciddiliyini bir növ sübut etmiş oldu. Lakin ABŞ Yaponiyanın Quzey Saxalini işğal etməsini heç cür qəbul edə bilmirdi və onun bütün təbii sərvətləri də daxil olmaqla, Rusiyaya qaytarılmasını israrla tələb edirdi. Nəhayət Vaşnqtonda keçirilmiş hərbi konfransda* Yaponiya Quzey Saxalini Rusiyaya qaytaracağına söz verdi. Əlbəttə, ABŞ-ın belə

* 1921-ci il noyabrın 12-dən 1922-ci il fevralın 6-na qədər keçirilib. ABŞ, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, İtaliya, Niderland, Belçika və Portəgiz iştirak edib. Konfrans ABŞ üçün uğurla nəticələnib.

canfəşanlığı heç də onun Sovet Rusiyasına canıyananlığından irəli gəlmirdi. Bu münasibətin kökündə ABŞ-ın neft maraqları dururdu.

1925-ci ilin yanvarında Moskva ilə Tokio arasında müqavilə imzalandı. Onun əsasında Yaponiya Saxalində 40-50 il müddətinə iri neft və kömür konsessiyaları əldə etdi. Bundan əlavə, Yaponiyaya adanın ruslara aid olan hissəsində neftli torpaqların alınması üçün digər xaricilər kimi bərabər hüquqlar da verildi[54].

Saxalin neftinin perspektivlərini dəyərləndirərkən ABŞ-ın ticarət departamenti öz hesabatında yazırdı: "Saxalində neftin istismarı üçün şərait əlverişlidir, satışı rentabelli olacaqdır. Çünki yataqlar okeana yaxın yerdədir və mövcud neft yataqlarından uzaqda yerləşir. Neft Yaponiyaya, Çinə, Rusiya Asiyasına satıla bilər, lakin onun böyük hissəsi çox güman ki, xarici valyuta almaq məqsədilə xarici ölkələrə satılacaqdır"[55].

Saxalin barəsində bağlanmış müqavilənin əhəmiyyətini şərh edərkən L.Fişer yazır: "Saxalin müqaviləsi beləliklə iki böyük şərq dövləti arasında yalnız etimad və dostluğun sübutu deyildi, həm də gələcəkdə mümkün ola biləcək çətinliklərə qarşı bir təminat idi... Saxalin nefti sözsüz ki, hələ imzalanmamış Çin-sovet-yapon blokunu möhkəmləndirən mayenin mühüm tərkib hissəsidir"[56].

Öz növbəsində L.Denni isə belə yazır: "Lakin Saxalin arzuedilən Asiya ittifaqında sürtgü yağı olmaq əvəzinə, Rusiya ilə Yaponiya arasında partlayışa da səbəb ola bilər. Bununla yanaşı Saxalin yapon donanmasının əsas təchizat mənbəyi kimi, gələcəkdə Sakit okeanda hər hansı bir dəniz müharibəsində hücum və yaxud müdafiənin əsas nöqtələrindən biri kimi dövlətlərin hərbi xəritələrində göstərilmişdir"[57].

Fəqət bütün bunlar sonralar baş verdi. Öncə daha qalmaqallı, daha taleyüklü hadisələr yaşandı. Neft ehtirasları açıq-gizli elə həddə çatdırıldı ki, son dərəcə ciddi münaqişələrin alovlanmasına münbit şərait yaratmış oldu.



## XXVII fəsil

# GENUYA KONFRANSI və AZƏRBAYCAN NEFTİNİN TALEYİ

Birinci cahan savaşı başa çatdıqdan sonra böyük neft uğrunda mübarizə daha da şiddətləndi. Bu mübarizədə ABŞ-Böyük Britaniya qarşıdurması xüsusilə nəzərə çarpırdı. Bu çəkişmələrin mərkəzində əsasən keçmiş çar Rusiyası ərazisində olan Bakı nefti dururdu. Ladvell Denni vəziyyəti belə səciyyələndirirdi: "Rus ehtiyatları üzərində nəzarət uğrunda Britaniya-Amerika mübarizəsi bütün neft münaqişələrini kölgədə qoyur. SSRİ-nin ehtiyatları şərq yarımkürəsində ən böyüyü hesab edilir. ABŞ-ı çıxmaq şərtilə, uzun illər boyu rus hasilatı digər bütün ölkələrin neft hasilatını üstələyirdi; bəzən hətta onun (ABŞ nəzərdə tutulur – *N.Rza*) hasilatından da çox olurdu. Müharibə bitdikdən sonra beynəlxalq diplomatiya rus nefti üçün çoxlu güc sərf etmiş oldu.

Qafqazın Britaniya və Almaniya-Türkiyə tərəfindən işğal edilməsinin, müttəfiqlərin Sovet hökumətinə qarşı hərbi müdaxiləsinin və yalançı əksinqilabi hökumətlərin* himayə edilməsinin tarixi, habelə Genuya və Haaqa beynəlxalq konfranslarının salnaməsi neftlə yazılmışdır. Rusiya nefti "Napoleon" Deterdinq və "Kral" Con D** arasındakı son və amansız müharibənin səbəbkarıdır"[1].

Rus nefti ilə bağlı münaqişənin lap əvvəldən, başqa ölkələrdəki ixtilaflara nisbətən "daha dolaşıq və qarma-qarışıq" olduğuna diqqəti çəkən Denni qeyd edir ki, bu münaqişə Sovet hökuməti tərəfindən neft sənayesinin milliləşdirilməsi məsələsinə və bolşevik "təhlükəsinə" qarşı vahid kapitalist cəbhəsinin yaradılması cəhdlərinə toxunurdu. Mübarizənin istiqamətləri çox tez müəyyən edildi. Deterdinqin və Rokfellerin gücü öncə ümumi "düşmənə" qarşı əlbir çıxış etmək üçün birləşdi; lakin ertəsi gün onlar bir-biri ilə mübarizəyə başladılar"[2].

1920-ci ildə "Shell" Rusiyanın əlindəki milliləşdirilmiş neft şirkətlərinin səhmlərini aldı və beləliklə də Qafqazın neft

---

* Azərbaycan və Gürcüstan nəzərdə tutulur.

** Amerikada Con Rokfelleri belə adlandırırdılar.

ehtiyatlarının ən iri sahibinə çevrildi. Bir daha yadımıza salaq ki, hələ 1912-ci ildə bu ingilis-holland şirkəti, Fransa maliyyəçisi Rotşıldə məxsus səhmlərin də böyük bir hissəsini mənimsəməyə nail olmuşdu. Lakin ingilislər başa düşürdülər ki, Fransanı da incitmək olmaz. Odur ki, həmin ilin aprelində San-Remoda hər iki ölkə arasında müqavilə imzalandı. Orada deyilirdi: "Keçmiş Rusiya imperiyasının ərazisində hər iki hökumət birlikdə öz təbəələrinin neft konsessiyalarını almağa yönəltdikləri səylərə köməklik göstərəcəklər. Bu, eyni zamanda, hasil edilmiş neft məhsullarının daşınmasına da şamil edilirdi"[3].

İngilis-fransız işbirliyi Vaşinqtonun narazılığına səbəb olmaqla yanaşı, onu da hərəkətə keçməyə məcbur etdi. 1920-ci ilin yayında Con Rokfellerin təmsilçiləri nobellərə məxsus Bakı müəssisələrinin səhmlərinin yarısının "Standard Oil K°" tərəfindən alınmasını rəsmi şəkildə reallaşdırdı[4]. Hətta bəzi mənbələrdə bunun tam nəzarət paketinin olduğu da iddia edilir.

San-Remo müqaviləsindən dərhal sonra "Shell"in başçısı Deterdinq İngiltərənin Xarici İşlər Nazirliyi ilə birlikdə Sovet Rusiyası hökuməti ilə birbaşa danışıqlara başlamaq qərarına gəldilər. Genuya konfransı ərəfəsində aparılan bu danışıqlar ingilis-rus ticarət müqaviləsinin imzalanması ilə nəticələndi. "Shell"in bütün səyləri ona yönəlmişdi ki, Rusiyanın nəzarəti altında olan Bakı və Qroznı neftinə aid konsessiyalara inhisarçı hüququnu əldə etsin. İstəyinə nail olmaq üçün Deterdinq öz nümayəndəsi polkovnik Boylu öz adından 1921-ci ilin oktyabrında Londonda Bakının neft sərvətlərinin istismarında "Shell"ə inhisar hüququnun verilməsi barədə Krasin ilə danışıqlar aparmağa cəlb etdi[5]. İngilislərin bu təşəbbüsləri istər ABŞ hökuməti, istərsə də "Standard Oil" tərəfindən çox ciddi qarşılandı və yaxınlaşmaqda olan Genuya konfransında bunun qarşısını almaq üçün etibarlı fəaliyyət proqramı hazırlamağa məcbur etdi.

Hər halda, Genuyaya hələ xeyli qalmış müxtəlif intriqalar, şayiələr, qalmaqallar bir-birini əvəz edirdi. Maraqlıdır ki, Krasin ilə Boyl arasında Londonda gedən danışıqlarla təqribən eyni vaxtda, Rusiyanın xalq xarici işlər komissarı G.V.Çiçerin Leninə





bir məktub və "Times"-n 12 oktyabr tarixli sayını göndərmişdi. Həmin məktubda bir amerikalı müxbirin belə bir teleqramından bəhs edilirdi ki, xarici kapitalistlər Sovet Rusiyasında konsessiya almağa həvəslə gəlmirlər. Çünki güclü şayiə gəzir ki, guya Sovet hökuməti keçmişdə xarici sahibkarlara məxsus zavodları yaxın gələcəkdə tamamilə onların mülkiyyətinə qaytaracaqmış. Çiçerin öz məktubunda bu şayiələrin təkzib olunmasını təklif etmişdi[6].

Məktub Lenini son dərəcə qəzəbləndirdi və oktyabrın 24-də Çiçerinə cavab məktubunda o, yazdı: "...Yoldaş Çiçerin! Məncə, olmaz, bu qədər axmaq şayiələri hökumətin təkzib etməsinə dəyməz. Mətbuata verməli və şayiələrə inananları və bunları yayanları lağa qoyub tamamilə ələ salmalı. Bu, urkartların və kerzonların təxribatıdır; indi müqavilələri belə şayiələrlə çətinləşdirmək aşkar təxribatdır"[7].

1922-ci il yanvarın 13-də İtaliya Nazirlər Şurasının sədri Bonomi Rusiya hökumətinə teleqram göndərdi. Orada deyilirdi ki, Antanta Ali şurasının 6-13 yanvarda Kann şəhərində olmuş konfransının qərarı ilə Ali Şuranın adından Sovet hökumətinin nümayəndə heyətini 1922-ci il martın əvvəllərində Genuyada çağırılan beynəlxalq iqtisadi və maliyyə konfransında iştirak etməyə dəvət edir[8].

Nəhayət, yanvarın 27-də ÜRMİK-in fövqəladə sessiyası Genuya konfransına gedəcək sovet nümayəndə heyətinin tərkibini təsdiq etdi. Nümayəndə heyətinə L.B.Krasin, M.M.Litvinov, N.N.Nərimanov, V.V.Vorovski, Y.E.Rudzutak, A.A.İoffe, X.Q.Rakovski və başqaları daxil edildilər. V.İ.Lenin nümayəndə heyətinin sədri, xalq xarici işlər komissarı G.V.Çiçerin müavin təyin edildilər[9].

N.Nərimanova gəldikdə bu son dərəcə rəmzi xarakter daşıyırdı. Əslində isə Rusiyanın müstəmləkəçilik siyasətinin bariz nümunəsi idi. Çünki hüquqi baxımdan Azərbaycan müstəqil ölkə sayılırdı və Rusiya dövlətinin tərkibinə qatılmamışdı. Azərbaycanın de-fakto müstəqilliyi isə yaxşı məlumdur ki, hələ bundan əvvəl Paris Sülh konfransının Ali Şurası tərəfindən tanınmışdı. N.Nərimanov isə təbii ki, ölkə başçısı statusuna malik idi. Odur ki, onun əcnəbi



Nərıman Nərimanov

dövlət olmaqla, Rusiya nümayəndə heyətinin tərkibinə, özü də sıravi üzv kimi daxil edilməsi yalnız siyasi ədəbsizlik və beynəlxalq hüquq normalarına qarşı saymazlıq və hörmətsizlik kimi qiymətləndirilə bilər. Odur ki, Azərbaycan sovet partiya tarixçilərinin yumşaq desək, həqiqətə uyğun olmayan və böyük canfəşanlıqla yazdıqları cəfəngiyyatlara baxmayaraq, Bakı neftinin gələcək taleyi ilə bağlı müzakirələrdə, dartışmalarda, pərdəarxası oyunlarda təəssüf ki, N.Nərimanov heç bir rol oynamır, Azərbaycan xalqının milli və qanuni hüquqlarını ifadə və müdafiə etmək imkanlarından son dərəcə uzaq idi. Bakı neftinin taleyi birmənalı olaraq gecə-gündüz proletar həmrəyliyindən, millətlərin öz müqəddəratlarını təyin etmə hüququndan dəm vuran Lenin və onun bolşevik silahdaşlarının iradəsindən asılı idi.

Genuya konfransının Rusiya üçün bir o qədər də uğurlu olacağına müəyyən qədər şübhə ilə yanaşan Lenin, bu ərəfədə ikibaşlı oyundan da bəhrələnməyə çalışırdı.

Yanvarın 26-da Berlinə, Smilqaya göndərdiyi teleqramda Lenin öz niyyətini qısaca belə açıqlayırdı: "Yalnız iqtisadi mülahizələrə görə deyil, habelə siyasi mülahizələrə görə də Qroznıda və əgər mümkün olarsa başqa yanacaq mərkəzlərində də almanlarla konsessiya bizim üçün mütləq zəruridir. Əgər siz sabotaj etsəniz, mən bunu açıq-aşkar cinayət hesab edəcəyəm. Genuyadan əvvəl müsbət nəticələr əldə etmək üçün tez hərəkət etmək lazımdır"[10].

İ.T.Smilqa özünün və B.S.Stomonyakovun neft konsessiyaları haqqında "Deutsche Bank" nümayəndələri ilə mübahisə etdiklərini Leninə xəbər verərək yazmışdı: "...Bütün Qroznı və Bakıda Bibi-Heybət rayonu barədə danışıq aparmağa prinsipial razılıq vermişik". Smılqa danışıq şərtləri haqqında göstəriş verilməsini xahiş edirdi. Bu işi sürətləndirmək məqsədilə Smilqa





təklif edirdi ki, ona, N.N.Krestinski, A.İ.Rıkov və B.S.Stomonyakova müqaviləni imzalamaq hüququ verilsin, sonra isə Xalq Komisarları Soveti onu təsdiq etsin[11].

Yanvarın 29-da qəzetlərdə İtaliya xarici işlər naziri Torrettinin G.V.Çiçerinin adına vurduğu 2 radioqram çap edilmişdi. İkinci radioqramda bildirilirdi ki, Ali Şuranın Kanndakı qərarlarına görə, konfransa "Ali Şuranın iştirakçısı olan dövlətlərdən və Rusiyadan əlavə, de-yure tanınmış bütün Avropa dövlətləri də" dəvət olunurlar[12].

Torrettinin bu açıqlaması Moskvada böyük təşviş doğurdu. Bəzi dairələr onun bu izahatını qovulmuş ağqvardiyaçı Kolçak və Denikin nümayəndələrinin, Gürcüstanın menşevik hökuməti, Ermənistanın daşnak hökuməti, Azərbaycanın müsavat hökuməti və başqalarının konfransa dəvət edildiyi kimi başa düşmüşdülər. Bununla əlaqədar olaraq L.D.Trotski bu cəhəti qəti surətdə bildirməyi təklif edirdi ki, əksinqilabçı mühacir təşkilatlarının dəvət olunması RSFSR-in belə bir konfransda iştirakını qeyri-mümkün edir[13].

Yanvarın 30-da RK(b)P MK Siyasi Büro üzvləri üçün V.M.Molotova göndərdiyi məktubda Lenin Trotskinin irəli sürdüyü təklifə öz münasibətini qısa şəkildə belə bildirdi: "Trotski ilə tam şərikəm"[14].

Beləliklə Rusiya hökuməti nəinki mövcud Azərbaycan hökumətinin, həmçinin 1920-ci ilin yanvarında Antanta tərəfindən tanınmış və tanınma qərarı hələ də qüvvədə olan Azərbaycan Xalq Cümhuriyyətinin mühacirətdə olan təmsilçilərinin də Genuya konfransında iştirakına son dərəcə mənfi yanaşırdı. Bakı neftinin gələcək taleyini Rusiyanın maraqları çərçivəsində təkbaşına həll etməyə çalışırdı. Sonralar Genuya konfransında və onun ətrafında baş vermiş hadisələr Rusiya hökumətinin narahatçılığının əsassız olmadığını göstərdi. Daha doğrusu, Rusiya Bakı neftinin bir növ dəllalı rolunda çıxış etdi.

1922-ci ilin fevralında Genuya konfransı ərəfəsində RK(b)P Mərkəzi Komitəsinin Siyasi Bürosunda Leninin təklifi əsasında bir

qərar qəbul edildi. Orada göstərilirdi ki, konfransda sovet nümayəndə heyəti sədrinin müavini G.V.Çiçerin nümayəndə heyəti sədrinin (yəni Lenin – N. *Rza*) bütün hüququ və səlahiyyətlərinə malıkdir və Çiçerinin xəstələnəcəyi və ya başqa yerə gedəcəyi halda onun bütün səlahiyyətləri növbə ilə iki üçlükdən birinə keçir: a) Litvinov, Krasın, Rakovskı: b) Litvinov, İoffe, Vorovski[15].

Bununla bağlı belə bir təbii sual meydana çıxır: bəs N.Nərimanov? Onun statusu nədən ibarət idi? Bu bir daha sübut edirdi ki, N.Nərimanovun konfransdakı iştırakı tamamilə görüntü xarakteri daşıyırdı və bir növ gözdən pərdə asmaq üçün nəzərdə tutulmuşdu.

Rusiya hökuməti Genuya konfransına ümidlər bəsləsə də, onun uğurlu olacağı ilə bağlı şübhələrdən də xali deyildi. Bu, Çiçerinin Leninə ünvanladığı məktubdan da aydın görünürdü. Həmin məktubda Çiçerin Genuya konfransının müvəffəqiyyəti və orada kapitalist dairələri ilə danışıb razılığa gəlmək imkanı barəsində bir sıra şübhəli fikirlər irəli sürmüşdü.

Buna cavab olaraq Lenin fevralın 7-də Çiçerinə məktub göndərdi. Məktub " Genuya konfransındakı sovet nümayəndə heyəti üçün RK(b)P MK-nın direktivləri haqqında" idi. Lenin yazırdı: "Sizin çoxlu ehtimallarınızın hamısı, məncə, kökündən doğru deyildir və necə deyərlər, polemika canfəşanlığından irəli gəlir. Direktivlərdə deyilməmişdir ki, biz əleyhdarlarımızın heç bir iddiasını özümüzün müqabil iddialarımızla *ödəməyin* heç bir formasına razı olmayacağıq...

Sizin məktubunuz (və daha çox Krasının məktubu) vahiməyə düşdüyünüzü göstərir, daha doğrusu, göstərirdi. Bu, hər şeydən qorxuludur. Konfransın pozulması bizə zərrə qədər də qorxulu deyildir: sabah daha yaxşı konfransa nail olacağıq..."[16]

Çiçerindən qətiyyətli olmağı, vahiməyə düşməməyi tələb edən Lenin özü də böyük intizar içində vurnuxur və lüzumsuz həyəcanlardan qurtara bilmirdi. Məktubun ayrı-ayrı hissələrində bu aydın nəzərə çarpır: "İndi bizi təkləmək və blokada ilə qorxutmaq olmaz, silahlı müdaxilə ilə də olmaz... Hətta ən məhdud proqrama da razı olarıq, amma bizim üçün əlverişli olmayan heç bir şeyə razı olmarıq. Ultimatumlara tabe olmayacağıq. Əgər ancaq





"alver etmək" istəyirsinizsə, gəlin edək, amma torbada pişik satın almayacağıq və "iddiaları" *axırıncı qəpiyinədək* hesablamadan sövdaya razı olmayacağıq. Vəssalam.

Bütün toplarımızı hazırlamaq və yerbəyer etmək lazımdır, – hansıları nümayiş üçün göstərməyi, hansılardan atəş açmağı və nə zaman atəş açmağı isə həmişə həll edə bilərik"[17].

Leninın Çiçerinə ünvanladığı bu məktub bir yandan sovet nümayəndə heyətinə bir növ hərəkət və fəaliyyət proqramı idisə, digər tərəfdən qərb dövlətlərinə doğru tuşlanmış təxribat, hədə-qorxu xarakteri daşıyırdı. Bu, hadisələri qabaqlamaq xatirinə atılmış bir addım kimi də qiymətləndirilə bilər. Onu da qeyd etmək lazımdır ki, istər konfransqabağı, istərsə də onun keçirildiyi günlərdə Leninin mövqeyi son dərəcə sərt və qaba idi. Hətta bir çox hallarda o, diplomatik çərçivədən kənara çıxmaqdan belə çəkinmirdi. Odur ki, heç bir kompromisə imkan vermirdi. Çiçerin və onu müşayiət edən nümayəndə heyətinin üzvləri Leninin ümumi nəticəyə ziyan vuran belə sərt mövqeyini mümkün qədər yumşaltmağa səy göstərsələr də, bu heç bir nəticə vermirdi. Əksinə, Leninin daha kəskin və qaba ifadələrlə dolu olan etirazları, ittihamları ilə üzləşməli olurdular.

Fevralın 24-də İtaliya xarici işlər naziri Torretti Çiçerinə göndərdiyi radioqramda xəbər verirdi ki, İtaliya hökuməti nazirlər böhranına görə Genuya konfransının açılışını təxirə salmaq məcburiyyətindədir[18].

Bu xəbər Lenini son dərəcə qəzəbləndirdi. Stalinə və Kamenevə göndərilmiş telefonoqramda o, vəziyyətlə əlaqədar aşağıdakıları söylədi: "Çiçerinə tapşırılsın ki, mümkün qədər tezliklə son dərəcə zəhərli bir nota göndərib, düz martın 15-nə təyin edilməsini (konfrans nəzərdə tutulur – *N.Rza*) təklif etsin..."[19]

Lenini hiddətləndirən konfransın açılışının İtaliya hökuməti tərəfindən qeyri-müəyyən vaxta qədər təxirə salınması idı. Odur ki, elə həmin gün o, Çiçerinə də müraciət etməli oldu. Bu müraciət son dərəcə kəskin və təhqiramiz idi. Orada deyilirdi: "Teleqramlardan əlavə bu günkü qəzetlərin baş məqalələrini oxuyandan sonra mən belə bir nəticəyə gəlirəm ki, müddəti göstərilmədən

Genuya konfransının təxirə salınması münasibəti ilə notanı ən ötkəm və təhqiramiz bir tonda tərtib etmək lazımdır ki, Genuyada bu silləni hiss etsinlər. Aydındır ki, ancaq həddən artıq ötkəmlık əsl təsir buraxa bilər..."[20]

Leninin dediyi bu sözlər bir daha sübut edir ki, siyasi şıltaqlığına və ərköyünlüyünə, şantaj və hədə-qorxularına baxmayaraq, o, Genuya konfransının mümkün qədər tez keçirilməsində son dərəcə maraqlı idı və konfransla bağlı hər hansı bır müəmmalı xəbər, anlaşılmazlıq və ya qeyri-müəyyənlık onu isterik həddə çatdırmaq iqtidarında idi. Çünki gündəmdə dözülməz iqtisadi vəziyyətdə olan Rusiya üçün taleyüklü problemlərin həlli perspektivi dururdu. Və bu ilk növbədə Bakı və Quzey Qafqaz neftı ilə bağlı məsələlərdən ibarət idı.

Odur ki, elə həmin gün Leninin tələbini yerinə yetirərək, Çiçerin Genuya konfransının çağırılması müddəti məsələsi ılə əlaqədar olaraq İtaliya xarici işlər nazıri Torrettıyə və Böyük Britaniya xarici ışlər nazırı Kerzona teleqram vurdu[21].

Nəhayət, 1922-ci il aprelın 10-da uzun sürən qalmaqallardan, pərdəarxası oyunlardan sonra çoxdan gözlənilən Genuya konfransı öz işinə başladı. Miryaqub Mehdizadə yazır ki, konfransın ikinci günü "Information" qəzetinə verdiyi müsahibədə Krasin bildirirdi: "Sovetlər böyük dövlətlərə, hər birinə 200-dən 1.000 desyatinə qədər olmaq üzrə, 3.000 hektarlıq bır petrol ərazısini imtiyaz verməyə" hazırdırlar[22].

Bu müsahibənin ertəsi günü konfransda iştirak edən Azərbaycan mürəxxəsəsi* Məhəmməd Məhərrəm bəy "Corriere de Italia" qəzetində bolşeviklərın Azərbaycan millətinə aid petrol ərazisini satmaq səlahiyyətləri olmadığını qeyd etməklə. Bakı petrol sənayesində rus kapıtalı ilə rus təşəbbüsünün əhəmiyyətsiz bir rol oynadığını, petrol ərazısinin məhəlli xalqa və oraya kapital vəd etmiş olan əcnəbilərə aid olduğunu yazmışdı[23].

Mehdizadə daha sonra yazır: "Eyni zamanda Londondakı "Azərbaycan informasion bürosu" rəsmi bülletenlər nəşr etməyə başladı. Bu bülletenlərdə Azərbaycan millətpərəstlərinin bolşe-

* Mürəxxəsə – izinli, rüsxətli, səlahiyyətli.







Genuya konfransında Rusiyanın nümayəndə heyəti. Aprel 1922-ci il

viklərə qarşı protest olmaq üzrə, Bakı ətrafındakı petrol ocaqlarını və emalatxanalarını yapdıqları qeyd olunurdu. Bu xəbər bütün dünya mətbuatı tərəfindən alınaraq şərh və təfsil ilə dərc olundu"[24].

Problemə Azərbaycanın Londondakı təmsilçisi də öz münasibətini bildirdi. O, "Rusiyada mənafeyi olan İngiltərə Sənaye ərbabı birliyi rəisi ilə görüşərək Azərbaycan millətinin bolşeviklər tərəfindən Bakı nahiyəsində imtiyaz verməlırinə heç bir zaman müsaidə etməyəcəyini bəyan etdi"[25].

Mehdizadənin qeyd etdiyi bir məqam isə diqqəti xüsusilə cəlb edir. O, yazır: "...Rəsmən konfransda bir dəfə də olsa petrol məsələsindən bəhs olmamışdır. Və bütün bu mücadilələr konfrans kulislərində (yəni məxfi – *N.Rza*) vaqe olurdu"[26]. Maraqlıdır, – deyilmi? Bu onu göstərir ki, Bakı neftinin taleyi onun əsl sahibi olan Azərbaycan xalqının iradəsi olmadan və ondan gizlincə qapalı qapılar arxasında həll edilirdi. Bu, sözün əsl mənasında beynəlxalq səviyyədə həyata keçirilən əsl qarət aksiyası idi. Və bu qarətdə dünyanın demək olar ki, bütün aparıcı dövlətləri və şirkətləri iştirak edirdilər. Rusiyanın rolu isə, bir qədər əvvəl qeyd

etdiyimiz kimi, artıq çoxdan məlum idi. Aprelin 13-də "Times" qəzetində onun müdiri U.Stid konfransın "bolşeviklər üçün bir meydan şəklinə girdiyini, üç gün sonrakı teleqramında isə bolşeviklər konfransın məhvərini* təşkil etməyə başladıqlarını xəbər verirdi"[27].

Bağlı qapılar arxasındakı danışıqlar, sövdələşmələr o dərəcədə gizli aparılırdı ki, bu da öz növbəsində çoxsaylı şayiələrin yaranmasına gətirib çıxarırdı. Bu isə konfrans iştirakçılarının təbii narahatlığına səbəb olurdu. Məsələn, ABŞ hökuməti, "Standard Oil"un başçıları "Royal Dutch/Shell"in nümayəndəsi polkovnik Boylun fəallığı barədə Genuyada yayılmış şayiələrdən son dərəcə narahat idilər[28].

ABŞ-ın dövlət katibi Hyuz, Amerikanın konfransdakı "müşahidəçisi", diplomatik nümayəndə Çaylda tapşırdı ki, Boylun ruslarla razılaşması haqqında olan məsələni məxfi şəkildə aydınlaşdırsın. Bunun üçün sovet nümayəndələri ilə qeyri-rəsmi görüşə icazə verdi[29].

Tezliklə Çayld Vaşinqtona xəbər verdi ki, ruslar və ingilislər razılaşma imzalanması faktını inkar edirlər[30].

Lakin ABŞ hökuməti bununla arxayınlaşmadı. Çayld "Standard Oil"un maraqları naminə, Hyuzun yeni bir təlimatını yerinə yetirməli oldu. O, İngiltərə, Fransa, Belçikanın Genuyadakı nümayəndə heyətlərinin rəhbərlərinə xəbərdarlıq etdi ki, ABŞ hökuməti Rusiyada ticarət və ya sənayedə imtiyazlar barədə hər hansı bir şəxsi, yaxud ümumi razılıqlarda heç bir üstünlüyə imkan verməyəcək[31].

Çayld dərc etdirdiyi bəyanatda əmlakı olan Amerika vətəndaşlarının hüquqları haqqında hökumətin mövqeyini də bildirdi. O bir daha təsdiqlədi ki, ABŞ hökuməti "açıq qapılar" prinsipinə zidd olan heç bir müqaviləni tanımayacaq[32].

Belə bir vaxtda "Times" qəzeti də İngiltərə hökumətinin mövqeyini açıqlayan bir məqalə dərc etdi. Orada yazılmışdı: "Britaniya hökuməti Rusiyada (Bakı nəzərdə tutulur – *N.Rza*) hər hansı bir neft birliyinə əhəmiyyətli inhisar verə bilən müqavilənin bağlanmasına imkan verməz"[33].

* Məhvərini – özəyini.





Onu da deyək ki, konfransda müxtəlif ölkələrdən olan irili-xırdalı 160 şirkət təmsil olunurdu. Lakin müşahidəçilər söyləyirlər ki, 160 şirkətdən yalnız ikisi böyük imkanlara malik idi – "Standard Oil" və "Royal Dutch/Shell". Mübarizə də əsasən bu iki şirkət arasında aparılırdı. Lakin İkinci cahan savaşından başlayaraq, neft amili o dərəcədə siyasiləşmişdi ki, bu mübarizəni həmçinin ABŞ ilə İngiltərə arasında gedən mübarizə adlandırsaq heç də səhv etmiş olmarıq. Bu mübarizənin konfransdan sonra daha da şiddətlənməsi bunu deməyə əsas verir. Halbuki bu mübarizə başqa bir müstəvidə hələ Genuya konfransından bir qədər əvvəl start götürmüşdü. 1920-ci il yanvarın 11-də Azərbaycanın, eləcə də Gürcüstanın müstəqilliyinin de-fakto Paris Sülh konfransının Ali Şurasında, digər dövlətlərdən fərqli olaraq, ABŞ tərəfindən qəti şəkildə tanınmaması da məhz bu mübarizənin tərkib hissəsi kimi qəbul edilməlidir.

Həmin hadisələrin canlı şahidlərindən olmuş M.Mehdizadə onları şərh edərək yazırdı: "London ilə Vaşinqton arasındakı bu rəqabətin siyasi bir səhnəsi... Azərbaycan nefti üzərindən başlamışdı"[34].

Azərbaycanın tanınması gününə işarə edən M.Mehdizadə maraqlı bir hadisədən bəhs edərək yazırdı: "...Tarixi hərəkatın baş verməsindən iki gün sonra admiral Gully (Denikinin yanında Amerika təmsilçisi – M.M.) general Denikinə Vaşinqton hökumətinin heç bir vəchlə Mavərayi-Qafqazın yeni cümhuriyyətlərinin istiqlaliyyətini tanımayacaqlarını[35] təhrirən* bildirirdi. General Denikin də Amerika təmsilçisinin yuxarıda məzkur** notasını oxuduğu zaman sevincindən ağlayaraq xaç çəkir və Rusiyaya qarşı göstərdiyi bir dostluq rəftarından dolayı təşəkkürlərini Amerika hökumətinə təqdim etməsini rica edirdi"[36].

ABŞ hökumətinin Güney Qafqaz cümhuriyyətlərinə qarşı etdiyi bu hərəkətin əsl mahiyyətini üzə çıxaran Mehdizadə daha sonra yazır: "Fəqət bu rəftarın iç üzü bizə bəllidir. "Standard" şirkəti Azərbaycan ilə Gürcüstanın kəndi milli istiqlaliyyətlərini

* Təhriri – yazılı.
** Məzkur – zikr olunan, haqqında danışılan.

müdafiə məqsədi ilə siyasətən ingilis dairəsində bulunaraq kəndi qapılarını rokfellerlərin üzünə bağlayacaqlarını kəndilərincə təxmin etmişdilər"[37].

Rusiyanın dağılmasından sonra onun müstəqil dövlətlərə ayrılmasından Amerikanı əndişələndirən başqa bir cəhəti şərh edərək Mehdizadə yazır: "İngiltərə bu kiçik dövlətlərin istiqlaliyyətini müdafiə etmək müqabilində Azərbaycan neftinin kontrolunu "Royal Dutch/Shell"ə verməк istəyəcəkdi. Təbii ki, bunu yaxşı dərk edən Amerika əfkari-ümumiyyəsi "böyük və vahid Rusiya" fikrini müdafiədə israr edirdi". Sonra Mehdizadə fikrini Firdovsinin təbiri ilə ifadə edərək "yeki əjdaha və yeki nərəşir"* olan bu iki şirkətin Azərbaycan nefti uğrunda başlanacaq mübarizəyə qızğın hazırlaşdıqlarına diqqəti çəkirdi[38].

Mehdizadə konfransın gedişatı vaxtı baş vermiş maraqlı bir hadisəni açıqlayaraq yazır: "...Kimsənin bəkləmədiyi bir zamanda "Standard" şirkətinin mürəxxisi (vəkili – *N.Rza*) Bedford rəsmi şəkildə bir raport nəşr etdi**. Bu raportda Bedford təmsil etdiyi şirkətlə Nobel qardaşları arasında hərb bitər-bitməz bir taqım tüccarı müzakirata girişərək, 1920 sənəsinin yazında aralarında bir etilaf*** hüsul bulduğundan bir müqavilənamə imza edilmiş olduğunu xəbər verirdi. Bu etilaf mocibincə Nobel qardaşları, bütün aksiyalarının 100-də 51-ni Standard şirkətinə verirdi. Bu raport Genuya konfransı üzərində partlayan bir bomba təsirini icra etdi, çünki bununla amerikanlar göstərmək istəyirdilər ki, onlar artıq Bakıda yerləşmiş bulunurlar və Standard şirkətinin iştirak və müvəffəqiyyəti olmadan Sovet hökuməti Bakı nefti haqqında kimsə ilə heç bir etilaf əqd edə bilməz və kimsəyə imtiyaz verməz"[39].

Aprelin 12-də "Standard Oil Trast"ın nəzarət şurasının sədri A.S.Bedford Londonda nəşr olunan "Times" qəzetinin səhifələrində dərc etdirdiyi bəyanatda yazırdı: "Bizim fikrimiz belədir ki, istər Genuya konfransında, istərsə də şəxsi danışıqlarda Rusiyanın

* Nərəşir – qoçaq, igid (yəni şir kimi qorxmaz).
** Paris – New-York Herald, 33, II, 1922.
*** Etilaf – görüş, razılıq.





təbii sərvətlərinin hər hansı bir dövlət tərəfindən təkbaşına istismarı məsələsi qaldırılmasın. Bütün ölkələr öz iqtisadi fəaliyyətini orada inkişaf etdirməkdən ötrü ədalətli və bərabər imkanlar əldə etməlidirlər"[40].

F.Merksin fikrincə "bu, təsadüfi bəyanat deyildi. Bu, "Standard Oil Trast"ın sovet neftinə (Bakı nefti nəzərdə tutulurdu – *N.Rza*) ünvanlanmış açıq-aydın təmənnası idi"[41].

Təbii ki, bu bəyanat ilk növbədə İngiltərənin mövqeyinə zərbə vurmaq üçün "Royal Dutch/Shell"ə ünvanlanmışdı. Çünki bir qədər əvvəl göstərdiyimiz kimi, konfransda 160 şirkətin təmsil olunmasına baxmayaraq, mübarizə əsasən "Standard Oil" ilə "Royal Dutch/Shell" arasında gedirdi.

Təsadüfi deyil ki, Almaniyada nəşr olunan "Reinische-festivalische zeitung" qəzeti də məhz bu məsələyə xüsusi diqqət yetirmişdi. Həmin günlərdə qəzetin müxbiri Genuyadan xəbər verərək yazırdı: "Çoxları əmindir ki, Genuya konfransının tarixi neftlə yazılacaqdır. Konfrans faktiki olaraq, "Standard Oil Trast" ilə "Royal Dutch/Shell" arasında gedən mübarizə meydanına çevrilib"[42].

Bedfordun bəyanatına münasibət bildirərək M.Mehdizadə qeyd edir ki, o, konfrans üzərindəki sirr pərdəsini müəyyən qədər qaldırmış oldu. Mehdizadə yazır: "Və o zaman hər kəs anladı ki, Genuya konfransı yalnız Azərbaycan neftini təqsim etmək üçün çağırılmış bir toplaşmadır"[43].

Mehdizadə yazır: "Konfrans zamanı "Royal Dutch/Shell" ilə bolşeviklər arasında razılaşma əldə oluna biləcəyi ehtimalı Bedfordu həddindən ziyadə narahat edirdi. Çünki o hesab edirdi ki, belə olduğu təqdirdə "Royal Doyç" şirkəti Azərbaycan neftinə təkbaşına sahib çıxa bilərdi. Mehdizadə qeyd edir: "Bedfordun bu qorxusu zatən o qədər də haqsız deyildi. Zira daha əvvəlcə və konfransın davamı əsasında Deterdinq bolşeviklərin London səfiri Krasin ilə bir taqım müzakirələrdə bulunur. Hətta "Royal Dutch/Shell" şirkəti xüsusi bir məqsəd üçün miralay* Boyl ismində birisini Bakıya ezam belə etmişdi. Konfrans dairəsində bu zat (Figure romanesgue) "dastanı bir sima" ləqəbi ilə məşhur olmuşdu"[44].

* Polkovnik mənasındadır.

Mehdizadə daha sonra onu da xüsusi olaraq vurğulayır ki, "Royal Dutch/Shell" şirkəti ilə miralay Boylun bolşeviklərlə olan anlaşmaları İngiltərə Xarici İşlər Nazirliyinin daimi himayəsi altında idi və o, oradan təlimatlanırdı. Bununla əlaqədar Mehdizadənin özünün "Beynəlxalq siyasətdə petrol" kitabında dərc etdirdiyi, müəllifliyi isə İngiltərə Xarici İşlər Nazirliyinə aid olan bir sənədi olduğu kimi hörmətli oxucuların bir daha nəzərinə çatdırmağı özümə borc bilirəm.

**İngiltərə xariciyyə nəzarəti**
**Təşrini-əvvəl 1921**

*Müsyö (Krasin)ə*

Əfəndim,

Miralay Y.W.Boyle-in marki (Kerzon Dokedlston)a verdiyi məlumata görə "Royal Doyç–Şel" ("Royal Dutch/Shell" – *N.Rza*) şirkəti cənubi Rusiya və Qafqazda kəndilərinə aid ərazi üzərində petrol istehsal etmək məqsədilə Sovet hökumətindən imtiyaz almaq niyyətindədirlər.

Miralay Boyle tərəfindən bu xüsusda vüqu bulan müraciətlərin Kral həzrətləri hökumətinin tamamilə təsvib və himayəsi ilə yapılmış olduğunu sizə xəbər verməyə məmuram. Kral həzrətləri hökuməti bu müzakiratın pək yaxında eyi nəticəyə iqtiran* edəcəyini ümid eylər.

Baş ehtiramatımın qəbulu...

İmza: Esmoud Ovey"[45].

* İqtiran – yaxınlaşma.



XXVIII fəsil

# İNGİLİS-RUS ANLAŞMASI və ABŞ-ın NARAHATLIĞI

Hadisələr və əldə olunan sənədlər onu göstərir ki, Azərbaycan nefti ətrafında cərəyan edən ingilis-rus anlaşmaları Amerika tərəfini əbəs yerə narahat etmirdi. Artıq 1921-ci il oktyabrın 19-da Britaniya xarici işlər naziri Kerzon RSFSR-in Böyük Britaniyadakı rəsmi nümayəndəsi L.B.Krasinə ünvanladığı məktubda yazırdı: "Royal Dutch/Shell" böyük məmnuniyyətlə Rusiyadan əvvəllərdə şirkətə məxsus olan yataqlarda neft hasil etməyə konsessiya almaq və Rusiyanın cənubundakı və Qafqazdakı müəssisələrdə onu emal etmək istərdi"[1].

F.Merks yazır: "Royal Dutch/Shell" və "Standard Oil Trast" onsuz da gərgin olan vəziyyəti hər vasitə ilə daha da qızışdırırdılar. Onlar konfrans haqqında mümkün qədər çox məlumat almaq və hadisələrin gedişatına bir qədər təsir göstərmək üçün qəzetçiləri, siyasətçiləri və diplomatları pul ilə ələ alırdılar. Hər iki şirkət Bakı neft yataqlarının işlənməsi üçün konsessiya almağa ümid edirdilər"[2].

Maraqlı odur ki, nə qədər təəccüblü görünsə də, konfransda nə protokollarda, nə də digər rəsmi sənədlərdə "rus nefti" (Bakı nefti – *N.Rza*) haqqında heç bir məlumat yox idi. Fəqət hər şey məhz onun ətrafında cərəyan edirdi. Rusiyanın xarici dövlətlərə olan köhnə borclarının ödənilməsi problemi də məhz neftlə əlaqələndirilir və bolşevik hökumətini neftlə bağlı böyük güzəştlərə məcbur etmək üçün ən müxtəlif təzyiq vasitələrinə əl atılırdı.

Digər maraqlı cəhət isə bundan ibarət idi ki, ABŞ konfransda rəsmi olaraq iştirak etmirdi. F.Merks bunu belə izah edir: "Birləşmiş Ştatların hakimiyyət dairələri əmin idilər ki, böyük miqdarda kapitala malik olmaqla konfransa və onun nəticələrinə vasitəçilərlə təsir etmək mümkündür. Bundan əlavə, Amerikanın neft konsernləri sovet diplomatları ilə birbaşa olaraq, qeyri-rəsmi əlaqələrə girdilər"[3].

L.Denni isə hər iki neft nəhəngi ilə bağlı başqa bir maraqlı cəhəti üzə çıxarır. O yazır: "Qeyd etmək lazımdır ki, mister Deterdinq öz pullarını daha etibarlı təşəbbüsə yatırır, nəinki mister Rokfeller. Hər ikisi milliləşdirilmiş şirkətlərin şübhəli səhmlərini alırdı. Fərq yalnız ondan ibarət idi ki, "Shell" beynəlxalq qanun və ənənələrə əsaslanan və müəyyən hüquqlara malık əcnəbilərin səhmlərini alırdı. "Standard" isə nobellərin rus müəssisəsinin səhmlərini almışdı. Halbuki o, bilməli idi ki, beynəlxalq qaydalara uyğun olaraq, hər bir suveren dövlət öz təbəələrinin mülkıyyəti ilə öz istədiyi kimi rəftar edə bilər və heç bir əcnəbi hökumət bu məsələyə müdaxilə edə bilməz"[4].

Məlum olduğu kımi, "Nobel qardaşları şirkəti" Rusiya şirkəti kimi fəaliyyət göstərirdi. Odur ki, bu mənada "Standard Oil"un mövqeləri "Shell" ilə müqayisədə xeyli zəif görünürdü. Bu amil isə, "Standard Oil"a öz mənfi təsirini göstərməmiş deyildi. Digər tərəfdən, bir qədər əvvəl qeyd etdiyimiz kimi, "Standard Oil" Rusiyanın Saxalin adasındakı perspektivli neft rayonlarına da böyük maraq göstərir və Yaponiyanı oradan sıxışdırıb çıxarmaq işində ABŞ Rusiyaya müəyyən xidmətlər göstərmişdi. Odur ki, bütün bunlar ABŞ diplomatiyasını, eləcə də "Standard Oil" rəhbərliyini daha fəal və daha qətiyyətli olmağa vadar edirdi. Zira, şirkətin Bakı neftinə olan marağının tarixi hələ XX yüzilliyin lap əvvəllərinə təsadüf edır. Belə ki, hələ 1903-cü il oktyabrın 31-də İngiltərədə nəşr olunan "Petroleum revyu" jurnalında "Standard Oil K°" şirkətinin Rusiyanın (Bakının – *N.Rza*) neft sənayesində iştirak etməsinin layihəsi dərc olunmuşdu. Bu layihə həyata keçirilməsə də, Amerika kapitalının Bakı neftini ələ keçirmək cəhdləri tükənməmişdi[5].

Odur ki, Genuya konfransı bu niyyətin gerçəkləşməsinə gözəl şans vermiş olardı. Fəqət, yaxşı deyiblər ki, sən saydığını say, gör fələk nə sayır. Daha doğrusu, Rusiya.

İngiltərədə nəşr olunan "Nir ist" jurnalında dərc olunmuş bir məqalədə, həqiqətdən heç də uzaq olmayan bir anlayış obrazlı şəkildə belə ifadə olunmuşdu: "Neftdə Bakının tayı yoxdur... Əgər neft kraliçadırsa, Bakı onun tacıdır"[6].





Genuyadakı mübarizə də məhz bu hökmdar və onun başının tacı uğrunda gedirdi. F.Volkov yazır: "Rokfellerin müvəkkilləri Hauss və Slegət Genuyada "Royal Dutch/Shell"in təmsilçiləri Boyl və Samuelə Bakı neftinə konsessiyaları ələ keçirməyə mane olmağa çalışırdılar. Ümid edirdilər ki, Sovet hökuməti şirkətin Nobeldən ucuz qiymətə aldığı Bakı neft müəssisələrini geri qaytaracaq"[7].

Lakin Bakı neftinə sahiblik hüququnu mənimsəyən Sovet Rusiyasının Lenin tərəfindən müəyyən edilmiş mövqeyi birmənalı idi. Denni yazır: "O, (yəni Rusiya – *N.Rza*) öz yataqlarının bir hissəsini xarici konsessiyalar əsasında ingilislər, amerikanlar, fransızlar, italyanlar, belçikalılar və almanlarla bölüşməyi təklif etdi"[8].

Bununla da Rusiya neftli torpaqların və avadanlığın milliləşdirilməsinin ləğvini tələb edənlərə rədd cavabı vermiş oldu. "Royal Dutch/Shell"in sahibi Henri Deterdinq və İngiltərənin baş naziri Lloyd Corc son məqamda milliləşdirilmənin ləğv edilməsi variantından imtina etməyə hazır olduqlarını bildirdilər. Lakin bir şərtlə ki, bu variant neft sahələrinin 99 il müddətinə icarəyə və yaxud konsessiyalara verilməsi ilə əvəzlənsin[9].

Bu, əlbəttə, ingilislər tərəfindən atılmış kompromis bir addım idi. Fəqət, bu addım heç də hamının ürəyincə deyildi və özəl maraqlara cavab vermirdi. Xüsusilə də ABŞ-ın və təbii ki, "Standard Oil"un. Tezliklə o da bəlli oldu ki, fransızların və belçikalıların da mövqeyi və maraqları amerikalılarınkı ilə üst-üstə düşür.

ABŞ-ın və "Standard Oil"un, habelə fransızlarla belçikalıların mənfi münasibətini dərk edən Deterdinq başqa bir təklif irəli sürdü. Maraqlıdır ki, şərtı olaraq Çiçerin tərəfindən də qəbul edilmiş bu təklıf Amerikanın maraqlarına qarşı yönəldilmiş son dərəcə ciddi nəticələrə səbəb ola bilərdi. Deterdinqin yeni təklifini Denni təhlil edərək yazır: "Ona əsasən rus konsessiyaları milliləşdirilmə haqqında dekret verilənə qədər mövcud olan xarici neft sahiblərinə mütənasib şəkildə verilsin. Bu plan həyata keçirildiyi təqdirdə "Royal Dutch/Shell"in əlinə külli-miqdarda pay düşdüyü halda, "Standard Oil" heç nə əldə edə bilməzdi"[10]

O cümlədən, fransızların və belçikalıların birgə yaratdıqları neft sındikatı da daxil olmaqla. Çünki o da "Standard Oil" kimi öz neft səhmlərini Bakı neftinin milliləşdirilməsindən sonra almışdı. Odur ki, fransızların və belçikalıların Deterdınq-Lloyd Corc-Çiçerin "işbirliyinə" qarşı "Standard Oil" ilə eyni cəbhədə olması mövcud gerçəklikdən bəhrələnirdi. Çünki bir daha xatırladaq ki, "Standard Oil"un da Nobeldən səhmlərinin alınma tarixi məhz milliləşdirilmədən sonrakı dövrə təsadüf edirdi.

Lloyd Corcun təklif etdiyi, Rusiya tərəfinin isə prinsip etibarilə qəbul etdiyi Deterdinq-Lloyd Corc-Çiçerin planının maraqlı və diqqəti çəkən bir məqamı var idi. Bu, Sovet Rusiyası hökumətinin hərtərəfli surətdə diplomatik tanınmasını təmin etməli idi. Yəni Bakı neftində İngiltərəyə müəyyən güzəştlər etmək bahasına Rusiya hökuməti öz legitimliyinə nail olmaq arzusunda idi. Bununla da Azərbaycan xalqının milli sərvəti olan neft, Rusiya bolşeviklərinin özəl maraqlarına qurban verilməliydi. Fəqət, o zaman heç kəs düşünmür və düşünmək belə istəmirdi ki, Bakı nefti ilə bağlı İngiltərə-Rusiya sövdələşməsi hüquq demirık, hətta elementar əxlaq normalarına belə zidd olan bir hərəkət idi.

Azərbaycanın Paris Sülh konfransının Ali Şurası tərəfindən tanınmış müstəqilliyini ayaqlar altında tapdalayan hər iki dövlət: İngiltərə və Rusiya Bakı neftini siyasi alver müstəvisinə çıxaraq, beynəlxalq neft dəllalları rolunda çıxış etməkdən də çəkinmirdilər. Halbuki Azərbaycanın müstəqilliyinin tanınması aktında Lloyd Corcun da imzası var idi. Bu bir daha onu sübut edirdi ki, neft o qədər fövqəl gücə malik bir amilə çevrilmişdi ki, beynəlxalq siyasətdə nəinki ən elementar, hətta ən yüksək əxlaq normalarını, qadağaları aşmaq iqtidarında idi. İstər Genuya konfransı, istərsə də ondan sonrakı çoxsaylı hadisələr bunu dəfələrlə təsdiq etmiş oldu.

Mıryaqub Mehdizadə hadisələri belə şərh edir: "Standard Oil" ixtilaldan* sonra Bakı sənaye dairəsində əmlakı olan bir çoxlarının müəssisələrini almış olduğundan Fransa ilə Belçikaya istınadən kəndı əmlakına sahib olmaq üçün bolşeviklərə mülkiyyət prinsipini qəbul etdirməyə çalışırdı. "Royal Dutch" ("Royal Dutch/Shell" – *N.Rza*) isə İngiltərənin yardımı ilə bolşeviklər ilə anlaşıb bütün Bakı petrol nahiyəsini əlinə almaq, "Standard Oil" şirkətini Bakıya buraxmamaq istəyirdi"[11].

* İxtilal – üsyan.





Mehdizadə İtaliyanın mövqeyinə aydınlıq gətirərək yazır: "Bu məsələdə İtaliyanın pozisyonu* İngiltərəyə mütəmail** olmaq üzrə bir bitərəfdən ibarət idi"[12].

Genuyada neft uğrunda mücadilə o dərəcədə kəskin idi ki, bu, "Times" qəzetinin mayın 7-də dərc etdiyi bir yazıda öz əksini tapdı. Orada son dərəcə lakonik formada belə deyilmişdi: "Bu gün mətbuat neft ilə doludur"[13].

Rusiyanın konfransdakı məkrli fəaliyyəti müşahidəçilərin də diqqətindən yayınmamışdı. M.Mehdizadə yazır: "Sovet Rusiyası Cenevrə (Genuya nəzərdə tutulur – *N.Rza*) konfransında ikiüzlü bir oyun oynayırdı. Bir tərəfdən "Royal Dutch" ("Royal Dutch/Shell" – *N.Rza*) mürəxxisləri ilə gizli müzakirədə bulunur; digər tərəfdən böyük dövlətlərin iştahalarını təhrik və təşviq ilə onları Azərbaycan neftində mənfəətdar etmək istəyirdi. İqtisadi müzakıratı idarə və idamə*** etdirən Krasin Moskvada "Известия" qəzetəsi**** müxbiri ilə icra etdiyi bir mülaqətdə***** imtiyaz haqqında Sovet hökumətinin nöqteyi-nəzərini izah edirdi. Krasinin nöqteyi-nəzərinə görə Sovet hökuməti Azərbaycanın neft ərazisinin dörddə birini kəndisinə qoymalıdı. Yerdə qalan üç qismini isə müsavi****** olaraq üç və yaxud dörd qismə ayırmalı və onları Fransa, İngiltərə, Amerika və Belçikaya verməliydi"[14].

Sovet Rusiyasının Bakı nefti ilə bağlı ikiüzlü, bəlkə də çoxüzlü siyasəti elə Genuya konfransının açılışı günündə, aprelin 10-da Genuyadan bir qədər aralıda yerləşən kiçik kurort şəhəri Rapalloda bəlli oldu. Hadisələri qabaqlamaq məqsədilə Sovet Rusiyası Almaniya ilə separat müqavilə bağlamaq qərarına gəldi. Bu xəbər

* Pozisyon – mövqe.
** Mütəmail – meylli.
*** İdamə – davam.
**** Moskow. "Izvestia", 9 Mais 1928.
***** Mülaqat – görüş, görüşmə, müsahibə.
****** Müsavi – bərabər.

konfrans iştirakçıları arasında bomba partlayışı təəssüratı yaratdı. Bu məlumata malik olduqdan sonra ABŞ-ın İtaliyadakı o zamankı səfiri öz təəssüfünü gizlətməyərək belə demişdi: "Bu bütün dünyanı silkələyəcək. Bu, həmçinin bütün konfransı da bünövrəsinə qədər silkələyəcək"[15].


Rapallo

Rapallo müqaviləsinin imzalanması barədə Litvinovun teleqramı ilə əlaqədar Lenin aprelin 18-də İ.V.Stalinə və L.B.Kamenevə bir telefonoqram göndərdi. Orada deyilirdi: "Almaniya ilə saziş imzalandığı haqqında Litvinovun teleqramı belə bir məsələ irəli sürür ki, bunu dərhal çap etdirməkmi məqsədə uyğundur, yoxsa Genuyadakı danışıqların labüddən kəsilib-kəsilməyəcəyi bir qədər aydınlaşanadək təxirə salmaq. Fikrimizcə, bu məsələni elə bu gün həll etmək lazımdır"[16].

Bu məktubun izahı ondan ibarətdir ki, "...Böyük Britaniya, Fransa, Belçika və Yaponiya ekspertlərinin London müşavirəsində martda hazırlanmış "ekspertlər məruzəsi" 1922-ci il aprelin 11-də (yəni Rapallo müqaviləsi imzalanmasının ertəsi günü – *N.Rza*) sovet nümayəndə heyətinə verilmişdi. "Ekspertlər məruzəsi"ndə irəli sürülən tələblərə görə Sovet hökuməti çar hökumətinin, Müvəqqəti hökumətin və keçmiş Rusiyadakı bütün hökumətlərin borclarının hamısını ödəməli, keçmişdə xaricilərə məxsus olub Sovet dövlətinin milliləşdirdiyi mülkiyyəti onlara qaytarmalı və ya onların mülkiyyətinə vurulan zərərin əvəzini ödəməli, bu mülkiyyət tələf olub itmişsə, bunun da əvəzini verməli, xaricilər üçün iqtisadi və hüquqi imtiyazlar qoymalı idi; burada xarici ticarət inhisarının həqiqətən ləğvi demək olan bir sıra başqa tələblər də var idi"[17].

"Ekspertlər məruzəsi"ni neytrallaşdırmaq üçün ən gözəl və etibarlı vasitə Bakı nefti idi. Almaniya ilə bağlanmış separat müqavilə də məhz bu yolda atılmış addım kimi qiymətləndirilə





bilər. Bununla da Sovet Rusiyası strateji təşəbbüsü öz əlinə almaq yolunda ciddi cəhd göstərmiş oldu.

Nəhayət sovet nümayəndə heyətinin 20 aprel tarixli memorandumunda "ekspertlər məruzəsi"nə rəsmi cavab verildi. Məruzədə irəli sürülən tələblər qəti surətdə rədd edilərək göstərildi ki, bu tələblər "Rusiyada onun suverenliyinə qəsd edən "təslimçiliklər sistemi tətbiq etmək" cəhdidir..."[18]

Qabaqcadan onu da deyək ki, Rapallo müqaviləsi Rusiyada böyük məmnuniyyətlə qarşılandı. Mayın 17-də ÜRMİK nümayəndə heyətinin hesabatı əsasında qərar qəbul etdi. Orada deyilirdi: "RSFSR ilə kapitalist dövlətləri arasıdakı münasibətlər üçün ancaq bu kimi müqavilələr normal hesab edilə bilər"[19].

Lakın bir tərəfdən Rapallo müqaviləsi, digər tərəfdən isə Leninin həddən artıq sərt mövqeyi və bunlarla bağlı konfransda yaranmış gərgin vəziyyət G.V.Çiçerinin də narahatlığına səbəb olmuşdu. Leninə göndərdiyi 20 aprel tarixli teleqramında o, konfransdakı vəziyyət haqqında Leninin rəyinə etiraz edərək yazırdı ki, xaricilərin mülkiyyətini milliləşdirmək nəticəsində onlara dəyən zərəri ödəmək məsələsində "başlıca olaraq Lloyd Corc maraqlıdır. Çünki nəhəng ingilis canavarları ona bərk təzyiq göstərirlər"[20].

Ertəsi gün – aprelin 21-də cavab teleqramında Lenin yazırdı: "Mən heç bir zaman şübhə etməmişəm ki, Lloyd Corc ingilis canavarlarının təzyiqi altında iş görür və İngiltərə Fransasız qalmayacaqdır, ancaq belə düşünürəm ki, bu bizim siyasətimizi bir qədər də dəyişdirməlidir və biz konfransın pozulmasından qorxmamalıyıq. Xüsusi borcların qəbul edilməsinə heç bir halda razılıq vermək olmaz. Fikrimcə, əsl vəziyyəti mən bilirəm"[21].

Ağır iqtisadi durumda çabalayan və dəhşətli yanacaq böhranında boğulan Almaniya ilə bağlanmış Rapallo müqaviləsi Lenini o qədər ruhlandırmışdı ki, o hətta konfransın işinin pozulmasından belə bir o qədər narahat olmurdu. Çiçerinə təzyiq göstərərək onu da özü kimi sərt və güzəştsiz mövqedən geri çəkilməməyə məcbur edirdi. Aprelin 24-də Stalinə göndərdiyi məktubda o yazırdı: "...Lloyd Corca göndərilən məktuba qarşı onun (Çiçerin

nəzərdə tutulur – *N.Rza*) etirazı göstərir ki, məncə, Çiçerin ya elə indi bir səhv etmiş və MK-nın direktivini pozmuşdur, ya da bunu tamamilə edə bilər. Səhv məhz bundan ibarətdir ki, Çiçerin heç bir əməli şeyə nail olmadan, danışıqların məhz xarici kapitalistlərin xüsusi mülkiyyətini bərpa etməyə razılıq vermədiyimiz üstündə kəsildiyini izah etmək üçün bizi bu yeganə... fürsətdən məhrum edə bilər"[22].

Maraqlıdır ki, "fürsətdən" danışarkən Lenin onu "tamamilə əlverişli", "prinsip cəhətdən mühüm və gələcəkdə bizə hökmən üstünlük verəcək" bir amil kimi qiymətləndirmişdir[23].

Stalinə ünvanlanan bu məktub Çiçerinə göndərilməli olan teleqramın layihəsi idi. Orada sonra deyilirdi: "...Biz razı ola biləcəyimiz ən böyük güzəştlərin həddinin dəqiq mətnini Sizə xəbər vermişik və bunlardan bir zərrə də geri çəkilməyəcəyik. Bu güzəştlər əsasında sazişə gəlməyin mümkün olmayacağı tamamilə aydınlaşan kimi Sizi danışıqları kəsməyə, təşviqat üçün və sonrakı diplomatik hücum üçün aşağıdakı iki mübarizə vasitəsini əldə saxlamağa vəkil edirik:

1) Rus-alman müqaviləsinin prinsipial əhəmiyyəti;

2) Kapitalistlərin mülkiyyətini bərpa etmək məsələsindəki ixtilafımız..."[24]

Aprelin 30-da RK(b)P MK Siyasi Bürosu tərəfindən qəbul olunmuş bir teleqram Çiçerinə göndərildi. Orada deyilirdi: "Təxminən üç aydan sonra yeni bir konfrans bizim üçün çox əlverişlidir. Genuya konfransı bağlanarkən heç bir halda öz üzərinizə zərrə qədər maliyyə təəhhüdləri götürməyin, borcları hətta yarımçıq qəbul etməyin və ümumiyyətlə danışıqların kəsilməsindən qorxmayın..."[25]

Leninə cavab teleqramında Çiçerin etiraf etdi ki, üç ay sonra konfrans çağırılması danışıqların tamamilə kəsilməsindən yaxşıdır. Lakin, eyni zamanda, qeyd etdi ki, "Lloyd Corc özünü xilas etmək üçün bizimlə sazişə gəlməyə çalışır, üç ay sonra isə İngiltərədə vəziyyət bizim üçün bundan xeyli pis ola bilər". Çiçerin daha sonra göstərirdi ki, Sovet hökuməti bütün keçmiş xarici mülkiyyətçiləri razı salmağa yalnız razılıq verəndən sonra





müttəfiqlər Sovet Rusiyasına kredit vermək haqqında konkret danışmağa razıdırlar[26].

Çiçerinin bu məktubu, habelə nümayəndə heyətinin digər üzvləri Litvinovun və Krasinin də oxşar mövqeləri Leninin səbr kasasını daşdırdı. O, RK(b)P MK Siyasi Bürosuna göndərdiyi məktubda yazırdı: "Çiçerin və Litvinovun, hələ Krasini demirəm, eşidilməmiş biabırçı və təhlükəli tərəddüdlərinə görə onlara b ə r k ç ə k m ə y i (seçmə mənimdir – *N.Rza*) təklif edirəm"[27].

Çiçerinə göndəriləcək teleqramın layihəsində isə o, öz mövqeyini belə açıqladı: "Son dərəcə təəssüf edirik ki, Çiçerin və qismən də Litvinov Krasinin cəfəngiyyatı dərəcəsinə yuvarlanmışlar. Bu tərəddüdləri nəzərə alaraq nümayəndə heyətinə əmr edirik: danışıqları şübhəsiz və mümükün qədər tez kəssin, həm də bunun səbəbini xüsusi mülkiyyəti bərpa etməyə razı olmadığımızla aydın və dəqiq əsaslandırın. Və bildirin ki, biz, şübhəsiz, bir-birinə bərabər olan iki tərəf, iki mülkiyyət sistemi arasındakı müqavilə üzərində duraraq, bəzi ayrı-ayrı güzəştlərə getməyə ancaq bu şərtlə razı oluruq ki, bizə dərhal çox əlverişli istiqraz verilsin. Litvinovun açıq teleqramı aşkar göstərir ki, bizi aldatmaq istəyirlər"[28].

Lenin adları çəkilən şəxslərə hədə-qorxu gəlməkdən də çəkinmədi. Mayın 2-də yazılmış bu teleqram layihəsində xüsusi olaraq qeyd edilirdi ki, "zərrə qədər tərəddüd göstəriləcəyi halda MİK-də açıq-açığına etibarsız hesab edərik və vəzifədən qovarıq"[29].

Bu sənəd Genuyadan alınan bir sıra xəbərlərlə əlaqədar olaraq yazılmışdır. Onlar belə bir təhlükə doğururdu ki, müttəfiq dövlətlərin nümayəndələri ilə danışıqlarda Çiçerin və Litvinov MK-nın direktivlərində nəzərdə tutulmayan güzəştlərə gedə bilərlər[30].

Lenin tərəfindən söylənilmiş "Krasinin cəfəngiyyatı" ifadəsi isə, onun (yəni Leninin – *N.Rza.*) Genuya konfransındakı danışıqlar məsələsində L.B.Krasinin öz xüsusi rəyini bildirən teleqramlarına cavabı idi. Həmin teleqramlarda Krasin ciddi güzəştlərə getməyi təklif edirdi[31].

Mayın 3-də müttəfiqlər sovet nümayəndə heyətinə bir memorandum təqdim etdilər. Onun daha çox ultimatum xarakterli

olduğunu düşünən Lenin, mayın 5-də Çiçerinin ünvanına bir teleqram layihəsi hazırladı. Orada deyilirdi: "Danışıqları hökmən kəsin və yaxşısı budur, müttəfiqlər yeni memorandum verəndə kəsin. Çünki bu mülkiyyətçilərə güzəştə getməyə razı olmayacağıq. Bundan yaxşı vaxt isə tapmaq olmaz.Ləngitmələr bizi zəiflədir. Əlimizdə alman müqaviləsi olandan sonra, indi biz uzun müddət ancaq buna əsaslanmaq cəhdimizdən əsla imtina etməyəcəyik. Son dərəcə ehtiyatla İtaliya ilə ayrıca flirt* başlayın"[32].

Ertəsi gün – mayın 6-da sovet nümayəndə heyətinin üzvü M.M.Litvinovdan Moskvaya, Rusiya hökumətinə bir teleqram gəldi. Orada Litvinov müttəfiqlərin 2 may tarixli memorandumunun ultimatum olmayıb danışıqları davam etdirmək imkanı verdiyini göstərərək, Genuyadakı sovet nümayəndə heyətinin danışıqları kəsməkdən qaçınmağa çalışdığını xəbər verir..."[33]

Bunun cavabında Litvinova bildirildi ki, "biz danışıqların kəsilməsini həll olunmuş bir məsələ hesab edərək, danışıqları kəsmək üçün ən münasib vaxt seçməyi sizin mülahizənizə verməyə hazırıq"[34].

Beləliklə, Almaniya ilə bağladığı Rapallo müqaviləsinə güvənən Rusiya hökuməti müttəfiqlərin iddiaları qarşısında duruş gətirməyə, lazım gəldikdə isə onları hətta şantaj etməyə belə səy göstərirdi. Rapallo müqaviləsi isə öz növbəsində, əvvəldə deyildiyi kimi, konfransda böyük əks-səda doğurmuşdu. Bunu Mehdizadə də təsdiq edir. O yazır: "Rapallo müahidəsi** konfrans məhafilində*** fəna bir təsir icra etmişdi. Fransızlarla belçikalılar Almaniyanın konfransdan ixracını tələb etdilər. Almaniya mürəxxislərindən Virt ilə Ratenau İngiltərə heyəti – mürəxxəsəsini, bilxassə Lloyd Corcu daima müzakirələrin kursunda tutmuş olduqlarını bəyan etdilər.

Lloyd Corc bu bəyanata protest etdi və kəndi vəziyyətini qurtarmaq üçün konfransın digər əzaları ilə bərabər Rapallo müahidəsi əleyhinə tənzim edilən məzbətəni**** imzaladı. Fəqət bu məz-

* Flirt – müaşiqə, işvə, naz, kələkbazlıq etmək.
** Müahidə – əhdnamə, öhdəlik.
*** Məhafil – məfhumlar.
**** Məzbətə – protokol.





bətə ilə tətmin* olunmayan fransız və belçikalılar, bundan sonra Cenevrə (Genuya – *N.Rza*) konfransının nəticəsiz bitməsinə sərfiməsai** etməyə başladılar"[35].

Mehdizadə bu münasibətlə alman mətbuatından da maraqlı bir açıqlamaya diqqəti cəlb edir. "Lakal Aidz" qəzeti yazırdı: "Fransız və belçikalıların Rapallo müahidəsinə müxalifət göstərmələrinə səbəb "Standard Oil" şirkətidir. Və bu da mənafelərinin Rusiyadakı istismarın şu və ya bu şəkildə olmasına müxalif olmasından nəşət etməyir***, biləks "Standard Oil" Sovet hökumətinin mali (maliyyə – *N.Rza*) böhranından istifadə edərək dünyanın ən zəngin petrol mənbəyini əldə etməyə müvəffəq olacağına ümid etdiyindən irəli gəlir. Amerikanın bu himayəsi olmasa idi, Fransa böylə cəsarətlə İngiltərə əleyhinə çıxmazdı"[36].

Nəhayət mayın 9-da RK(b)P MK Siyasi Bürosu tərəfindən, Leninin təklif etdiyi teleqram qəbul edildi və Genuyaya, Çiçerinə göndərildi. Teleqramda deyilirdi: "Rus-alman müqaviləsinin əhəmiyyətini, bunun Almaniya tərəfindən qəbul olunmasını, onun İtaliyaya təsirini və neft konsessiyaları üstündə dövlətlərin dalaşmasını (seçmə mənimdir – *N.Rza*) nəzərə alaraq, biz bu nəticəyə gəlirik ki, bizim üçün ən düzgünü, indi bütün beynəlxalq siyasətimizi elə qurmaqdır ki, azı bir neçə aylıq müəyyən dövr ərzində bütün və hər şeyi ancaq rus-alman müqaviləsi əsasında qurub, həmin müqaviləni yeganə nümunə elan edək. Bundan da biz ancaq böyük fayda əldə edəcəyimiz halda kənara çıxarıq. Çalışın danışıqları kəsmək formasında bunu hazırlayasınız"[37].

Sovet ideoloqlarının on illər boyu yazdıqlarının və təbliğ etdiklərinin tam əksinə olaraq, Genuya konfransının nəticələri Rusiya üçün heç də uğurlu olmadı. Yeganə uğur, əgər buna uğur demək mümkündürsə, Almaniya ilə bağlanmış separat Rapallo müqaviləsi oldu. Sovet Rusiyası nəzərdə tutduğu və böyük ümidlər bəslədiyi problemləri həll edə bilmədi. O, həmçinin

* Tətmin – təminat vermək.
** Məsai – çalışma, səy; sərfi məsai-çalışmadan yayınma.
***Nəşət etməyir – irəli gəlmir.

imperialist dövlətləri və onların çoxsaylı qruplaşmaları arasındakı ziddiyyətlərdən də öz mənafeyi naminə yararlanmağı bacarmadı. Rus diplomatiyası başda Çiçerin olmaqla nə qədər çalışsa da, vahid imperialist blokunu əsaslı surətdə yara bılmədi. "Rapallo müqaviləsinin imzalanması ilə vahid antisovet blokunun dağılması"nı iddia edən rus və digər sovet ideoloqlarının mülahizələri həqiqətdən son dərəcə uzaq idi.

Əvvəla, cahan savaşında məğlub olmuş Almaniya, istər iqtisadi, istərsə siyasi baxımdan öz çoxəsrlık tarixinin ən miskin və rəzalət dolu günlərini yaşayır və təbii ki, beynəlxalq aləmdə heç də nüfuz sahibi sayılmırdı. Odur ki, özü kimi müflis və rəzil vəziyyətdə olan Rusiya ilə istənilən şərtlər əsasında hər hansı müqavilə imzalamağa hazır idi. Təki, əlverişlı qiymətlərlə Rusiyadan Bakı neft məhsullarını almaq mümkün olsun. Bunun əvəzində Almaniya Rusiyada özünün milliləşdirilmiş müəssisələrindən imtina etmək məcburiyyətində qaldı. Çünki yanacaq fəlakəti ilə üz-üzə qalmış Almaniya üçün neft (seçmə mənimdir – *N.Rza*) daha vacib idi.

Müttəfiqlərə gəldikdə isə mövcud ziddiyyətlərin olmasına baxmayaraq, son məqamda vahid mövqe nümayiş etdirməyi bacardılar. Hətta bolşeviklərlə dil tapmağa fürsət əldə edən İngiltərə də müttəfiqlərin ümumi mövqeyindən kənara çıxa bilmədı. M.Mehdizadə yazır: "Fransanın baş naziri R.Puankare, Fransa təbəələrinin Rusiyada malik olduqları hüququn şərtsiz olaraq iadə* edilməsini tələb etdi. Belçikalılar isə təbiətilə işbu nöqteyi-nəzərə iltihaq** etdilər.

Digər tərəfdən "Standard Oil Company"nin rəisi Bedford da xariciyyə naziri olan Hughes-dən (Hyuz – N.Rza) Amerika kapitalının işbu sıradan kənar edilməsi haqqında sovet hökuməti ilə olacaq hər dürlü müzakirat və etilafın*** əqd olunmasına heç bir surətdə razı olmayacağı haqqında təminat aldı. Demək Amerika hökumətinin nöqteyi-nəzəri Azərbaycanda açıq qapı prinsipinin müdafiə olunması idi"[38].

* İadə – qayıtma, geri döndərmə.
** İltihaq – qatılma.
*** Etilaf – görüş.





Mayın əvvəllərində Lloyd Corc ilə ABŞ-ın diplomatik nümayəndəsi Çayld arasında görüş keçirildi. Lloyd Corc onu əmin etdi ki, Sovet Rusiyası ilə "Royal Dutch/Shell" arasında guya bağlanmış saziş, şayiədən başqa bir şey deyil. Lakin o, konfransın uğursuzluğa düçar ola biləcəyindən də əndişələndiyini Çayldın nəzərinə çatdırdı. Eyni zamanda onu xüsusi olaraq qeyd etdi ki, belə olduğu təqdirdə "ayrı-ayrı ölkələr və şirkətlər tərəfindən separat şəxsi müqavılələrin bağlanması "təhlükəsi" yarana bilər, o cümlədən "Royal Dutch/Shell" tərəfindən də"[39].


D.Lloyd Corc

Bu görüş nəticəsiz ötüşmədi. ABŞ dövlət katibi Hyuz Sovet Rusiyası ilə separat müqavilələrin qarşısını almaq məqsədilə, "danışıqları qurtarmaq" üçün dövlət departamentinə təkliflə müraciət etdi[40].

M.Mehdizadə yaranmış vəziyyəti belə şərh edir: "Əvət konfrans bir çıqmaza sapmışdı, bolşeviklər fransızlarla belçikalıların ortaya sürdükləri nöqteyi-nəzəri qəbul edəməzlərdi, çünkı bu nöqteyi-nəzər onların prinsiplərinə daban-dabana zidd idi. Buna görə də mayisin on birində onlar fransızlar tərəfindən dərmiyan* edilən şəraiti rəsmən rədd etdilər. Onlara artıq kəndi çanta-mantalarını toplayaraq Rusiyaya ovdət** etməkdən başqa bır şey qalmayırdı"[41].

Beləliklə, ABŞ-Fransa-Belçika üçlüyü nəinki Rusiyanın arzusunu ürəyində qoydu, həmçinin İngiltərənin də bolşeviklərlə anlaşmasının qarşısını aldı. Mehdizadənin təbirincə desək: "Bolşeviklərlə oynamasında İngiltərə əfkari-ümumiyyəsi tərəfindən... ədəmi*** müvəffəqiyyətə uğradı, çünki həddi-zatında bu konfransı dəvət edən o idi. Lloyd Corcun siyasi müvəffəqiyyətində bir enişdar başladı"[42].

* Dərmiyan – arada, aralıqda.
** Ovdət – geri dönmə, qayıtma.
*** Ədəmi – yoxluq, heçlik.

Nəticədə konfrans bitər-bitməz Lloyd Corc Londonda siyasi rəqiblərinin aramsız hücumlarına və kəskin tənqidlərinə məruz qaldı. Doğrudur, İngiltərədə Genuya konfransına başqa münasibət bəsləyənlər də tapıldı. Məsələn, "Foreign Affairs" jurnalı yazırdı: "Genuya konfransının tarixi tam təfərrüatı ilə yazıldıqda, gələcəyin tarixçisi deyəcək ki, onun nəticələri yalnız bir hökuməti-Rusiyanı təmin edirdi"[43]. Lakin Lloyd Corc rəqiblərini bir qədər sakitləşdirmək üçün bir aydan sonra yeni bir konfransın çağırılması ideyasını ortaya ataraq, onun hətta bolşeviklərsiz keçiriləcəyini də bəyan etdi. O da qeyd edilirdi ki, "yalnız rus məsailinə* münhəsir** olan bir konfransda ruslar doğrudan-doğruya iştirak edəcəkdilər. Bundan məada*** bu konfransa amerikalıların dəxi dəvət edilməsi qərara alındı"[44].

Beləliklə fakt faktlığında qalır. Genuya konfransı sovet ideoloqlarının ərz etdiklərinin əksinə olaraq Rusiyanın gözlədiyi nəticəni vermədi. Müttəfiqləri parçalamaq cəhdi uğursuzluğa düçar oldu. Separat danışıqlar isə, yalnız zəif və saysız-hesabsız problemlərlə əlləşən Almaniya ilə baş tutdu. Mehdizadə yazır: "Dünyanın gizli qüvvətlərindən ən böyüyü "Standard Oil Company" Genuya konfransını dağıtdı və bolşeviklərin "Royal Dutch/Shell" ilə etilaf etmələrinə mane oldu. Böyləcə də Genuya konfransı dastanına xitam verildi"[45].

* Məsail – məsələlər.
** Münhəsir – həsr edilmiş.
*** Məada – başqa, qeyri, özgə.



## XXIX fəsil

# RUSİYANIN HAAQADA İKİBAŞLI OYUNU

Beləliklə neft uğrunda ABŞ – Böyük Britaniya qarşıdurmasının yeni mərhələsi başlandı. Onun zirvəsində çoxillik mücadilə tarixinə malik "Standard Oil" ilə "Royal Dutch/Shell" şirkətləri dururdu. Mehdizadənin təbirincə desək, bu, "məhlək* bir duel" idi[1].

Mehdizadə yazır: "Genuya konfransı ərəfəsində bütün Avropada böyük bir nikbinlik höküm sürür, bu konfransdan bir çox şeylər bəklənirdi... Lahidə (Haaqa nəzərdə tutulur – *N.Rza*) isə mənzərə büsbütün başqa idi. Hollandiyanın bu kiçik, fəqət pək gözəl şəhəri bu tarixi günlərdə sıxıntılı bir həssasiyyət və sükuta dalmış görükürdü"[2].

Növbəti konfransın Hollandiyada keçirilməsi çoxları kimi, Mehdizadəni də son dərəcədə təəccübləndirmişdi. O yazır: "Heyrət! Əcəba konfrans neçin Hollandiyada dəvət edildi? Bu hal bir təsadüf əsərimi idı, yoxsa burada bir sirmi vardı? Bu nöqtələri tarix, əlbəttə, kəşf edəcəkdir; fəqət biz yalnız bir nöqtəni bilirik: Deterdinq hər nə qədər həşəmətli İngiltərə kralından ser ünvanını almışdısa da, yenə bir holland idı və bununla iftixar edirdi"[3].

Çox güman ki, konfransın öz vətənində keçirilməsindən "neft Napoleonu" müəyyən dividentlər əldə etməyə ümid edirdi. Digər tərəfdən Genuya konfransının "qəhrəmanları" Lloyd Corcun, Bartunun, Çiçerinin və Ratenaunun Haaqada təmsil olunmaları "Royal Dutch/Shell"in mövqelərini xeyli gücləndirə bilərdi. Lakin siyasi elitanın ikinci dərəcəli simalarının təmsil olunmasına baxmayaraq, neft kralları son dərəcə möhtəşəm təmsil olunmuşdular. Maraqlıdır ki, Genuya konfransının əsl məqsədi Azərbaycanın neft konsessiyalarını gizli saxlamaqdırsa, Haaqa konfransının əsl məşğuliyyətinin nədən ibarət olacağı lap əvvəldən hamıya bəlli idi. Bu, ilk növbədə Bakı nefti ilə bağlı idi.

Konfrans 1922-ci il iyunun 15-də öz işinə başladı. Hay-küylü və qalmaqal ilə müşayiət olunan Genuya konfransından fərqli ola-

* Məhlək – həlakedici.

raq, Haaqa konfransının ilk on günü son dərəcə sakitlik şəraitində keçdi. Lakin Çiçerini əvəz edən M.M.Litvinovun Haaqada peyda olması böyük canlanma yaratdı. Onun gəlişindən çox şey gözlənilirdi. Genuya uğursuzluğundan sonra, Haaqada Bakı neftinə aid yeni təkliflərin, ideyaların meydana çıxacağına böyük ümidlər bəslənilirdi. Litvinovun nə deyəcəyini və nə təklif edəcəyini hamı böyük intizarla gözləyirdi. Lakin tezliklə bəlli oldu ki, bu ümidlər yersiz imiş. Litvinovun gəlişinin əsas məqsədi başqa amillərlə bağlı idi. Daha doğrusu, neft məsələsi də məhz bu amillərdən asılı vəziyyətdə idi.



Haaqa

Litvinovun ilk dediyi sözlər ondan ibarət oldu ki, Rusiyanın maliyyə yardımına böyük ehtiyacı var. Odur ki, müəyyən məbləğdə kredit almaq məsələsi həll edilməyincə heç bir müzakirəyə qoşulmaq səlahiyyəti yoxdur. Rusiya təmsilçisi hamının nəzərinə onu da çatdırdı ki, kredit təminatı verilməyəcəyi təqdirdə, Rusiya tərəfi də heç bir kapitalistlə nəinki hər hansı bir imtiyaz, hətta əski sahibkarlarla təzminat barəsində söhbətlər belə aparmayacaq. Litvinovun, yumşaq desək, adi məntiqə belə sığmayan bu qəribə





bəyanatı son dərəcə mənfi qarşılandı. Aclıq və səfalət içində boğulan bir məmləkətin təmsilçisinin heç də sağlam təfəkkürə sığmayan belə bir çıxışı böyük məyusluğa səbəb oldu. Rəsmi dairələrdə buna qarşı sərt münasibət bəsləmək fikri də özünə yer tapdı.



M.M.Litvinov

Litvinovun bəyanatında böyük narahatlıq doğuran məqamlardan biri də o idi ki, orada köhnə şirkətlərə imtiyazların verilib-verilməyəcəyi barədə heç nə deyilmirdi. Bu məsələ ilə bağlı bütün sərəncamların verilməsini Rusiya hökuməti bilavasitə öz inhisarında saxlamaq niyyətində idi. Litvinovun bəyanatından o da aydın olurdu ki, Azərbaycanda, eləcə də Quzey Qafqazda heç bir vaxt neft hasilatı ilə məşğul olmayanlar da neft imtiyazları əldə edə bilərlər. Bəyanatda başqa müddəalar da öz əksini tapmışdı. Onların da mahiyyəti son dərəcə müəmmalı və ambisiyalı xarakter daşıyırdı. Bolşeviklərin heç bir iqtisadi əsaslara söykənməyən və daha çox siyasi-ideoloji prinsiplərə uyğun gələn iradə nümayiş etdirmək cəhdləri göz qabağında idi. Odur ki, Rusiya hökumətinin belə mövqeyinin uğur qazanacağı böyük şübhə doğururdu. Bunu Mehdizadə də təsdiq edir. O, yazır: "...Bolşeviklərin ortaya atdıqları təklif kimsəni məmnun etmədi. Yalnız fransızlarla belçikalılar deyil, hətta ingilislər də bu təklifə qarşı getdilər. Həqiqətən də Sovet hökuməti müsbət olaraq heç bir təklif etmirdi. Biləks bolşeviklər bu təklifləri̇lə neft işlərinə bəlli bir qarışıqlıq sokurdular. Şübhəsiz bolşeviklər tərəfindən bu bir manevr idi və bununla onlar ingilislərlə amerikanların münasibətlərini pozmaq istəyirdilər. Fəqət burası məlum bir şey idi ki, bolşeviklər ortaya belə bir təklif atmaqla amerikalılar, daha doğrusu "Standard Oil" ilə flirt yapmaq istədilər. Hədd-zatında bu təhlükəli bir oyundu"[4].

"Azərbaycanda, eləcə də Quzey Qafqazda heç bir vaxt neft hasilatı ilə məşğul olmayanlar da neft imtiyazları əldə edə bilər

-lər", – dedikdə bolşeviklər şübhəsiz ki, ilk növbədə "Standard Oil"u nəzərdə tuturdular. Təbii ki, bu, ingilis-holland şirkəti "Royal Dutch/Shell"in maraqlarına yönəldilmiş bir aksiya olmaqla yanaşı, onun "Standard Oil" ilə onsuz da mürəkkəb olan münasibətlərini daha da gərginləşdirmək məqsədi güdürdü. Çünki yaxşı məlumdur ki, "Royal Dutch/Shell" istər Bakıda, istərsə də Quzey Qafqazda neft hasilatı və satışı sahəsində müəyyən tarixə malik idi. Odur ki, Litvinovun məkrli bəyanatına baxmayaraq, Bakı neftinə münasibətdə "Royal Dutch/Shell"in də öz baxışları mövcud idi və başqalarınınkından xeyli fərqlənirdi. Bunu Ladvell Denni belə dəyərləndirir: "Genuyadakı uğursuzluğunu, habelə ABŞ-ın diplomatik fəallığının artmasını nəzərə alan Britaniya hökuməti və "Shell" Haaqada yeni təkliflər irəli sürdülər. Bu plana əsasən "Shell" Rusiyanın bir sıra neft mənbələrinə konsessiya almalı, digər xarici sahibkarların iddiaları haqqındakı məsələlərin nizamlanması barədə üzərinə öhdəlik götürməli, hasilatı onlarla bölüşməli, yaxud bu iddiaları pul ilə almalıdır. Bir çox müddəalarına görə plan qeyri-müəyyən idi və elə buna görə də o, "Shell"i inhisarı mənimsəməkdə ittiham etmək imkanı verirdi".



Bakı nefti uğrunda aparılan Genuya və Haaqa mücadilələri





Rusiya hökumətinin Bakı nefti ilə bağlı Haaqada apardığı ikibaşlı oyunu mühacirətdə olan Azərbaycanın siyasi dairələrində də mənfi qarşılandı. Londonda məskunlaşan Azərbaycan nümayəndəliyindən Britaniyanın "Reuter" agentliyinin müxbirinə verilmiş müsahibə bunu aydın sübut edir. Azərbaycan nümayəndəsi verdiyi müsahibədə "heç bir zaman gələcək Azərbaycan milli hökuməti Azərbaycanın milli sərvətinin bu şəkildə qarət edilməsinə razı olmayacağını qəti bir lisanla söyləmiş və agentlik vasitəsilə bütün hökumətlərə əyan və bəyan etmişdi"[6]. Eyni məzmunda başqa bir memorandum isə Haaqa konfransına göndərildi. Onun müəllifi Parisdə olan Azərbaycan heyəti təmsilçisi idi.

Haaqa konfransına böyük ümidlər bəsləyən və hər necə olursa-olsun bolşeviklərlə müqavilə bağlamağa hazır olan Deterdinq, ən müxtəlif neft mücadilələrində dəfələrlə qalib çıxmasına baxmayaraq, bu dəfə öz acizliyinin fərqinə varmalı oldu. Litvinovun ağlasığmaz bəyanatı onu sözün əsl mənasında tərksilah etdi. Çünki Rusiyanın ortaya atdığı bu təklif, "Royal Dutch/Shell"in maraqlarına, eləcə də, bütövlükdə ingilis mənafeyinə ciddi təhlükə demək idi. Təbii ki, bu, ingilisləri son dərəcə qorxutdu və rusların bu təklifinə qarşı birmənalı şəkildə əks mövqe nümayiş etdirməsi ilə nəticələndi.

İngilislərin belə hərəkəti Rusiya hökumətinin böyük narahatlığına səbəb oldu. Çünki hələ Genuya konfransında ABŞ-Fransa-Belçika üçlüyünün məlum təzyiqi və təpkisi olmasaydı, İngiltərə-Rusiya işbirliyi çox güman ki, reallaşa bilərdi. Fəqət Rusiyanın ingilislərə olan ümidləri özünü doğrultmadı. Genuya konfransından fərqli olaraq, bu dəfə ingilislər ruslara arxa çevirmək məcburiyyətində qaldılar. Hələ bu azmış kimi, Genuyada onlara qarşı müxalif mövqedə duran fransızlar və belçikalılar ilə birləşib, xüsusi əmlakın öz köhnə sahiblərinə qaytarılmasını təkidlə tələb etdilər. Rus diplomatiyası vəziyyətin onun əleyhinə dəyişdiyini və hadisələrin başqa məcraya yönəldiyini dərk edərək, təcili olaraq öz mövqeyində əsaslı dəyişiklər etmək zorunda qaldı. İngilislərin neft maraqları ilə oynamaq arzuedilməz nəticələrə gətirib çıxara bilərdi. Digər tərəfdən Sovet Rusiyasının Böyük Britaniya qarşı-

sında müəyyən mənada borclu qalması ingilislərin yaddaşından çox güman ki, hələ də silinməmişdi. Tarixə bir qədər ekskurs edərək, Rusiya üçün son dərəcə taleyüklü bir məqamı yada salmaq, zənnimcə yerinə düşmüş olardı.

Söhbət 1920-ci ildəki Polşa ilə Sovet Rusiyası arasındakı müharibədən gedir. O zaman Polşa marşalı Y.Pilsudskinin qoşunları Qızıl ordu hissələrini ağır məğlubiyyətə uğradaraq Moskvaya doğru hərəkət edirdi. Rusiyanın bolşevik rejimi üçün olduqca təhlükəli bir vəziyyət yaranmışdı. Belə bir vaxtda Böyük Britaniya hökuməti Rusiyanın xeyrinə olan bir addım atmış oldu. Bu, Polşa hökumətinə ünvanlanmış Kerzon ultimatumu idi. Ona əsasən Polşa qoşunlarına tarixdə "Kerzon xətti" adlandırılan xətti keçmək qadağan edilirdi. Bununla da Sovet Rusiyası başının üstünü almış real təhlükədən özünü birtəhər qurtara bildi. Doğrudur, sonrakı illərdə rus-sovet tarixçiləri onun mahiyyətini xeyli təhrif etsələr də, fakt faktlığında qalırdı. Təbii ki, İngiltərə öz mənafeyini də nəzərdən qaçırmamışdı.

Qayıdaq Haaqaya. Beləliklə ingilislərin müxalif mövqeyə çəkilməsini görən rus diplomatları onlara güzəştə getmək haqda düşünməli oldular və Genuyada müzakirəyə çıxardıqları ideyaları bir daha gündəmə gətirmək məcburiyyətində qaldılar. O zaman hətta "The Daily Telegraph" qəzeti Litvinova istinad edərək Sovet Rusiyasının ortaya atdığı yeni neft siyasəti ilə bağlı bir yazı da dərc etmişdi.

Bununla əlaqədar Mehdizadə yazır: "Bu teleqrafdan bolşeviklərin imtiyazlar haqqındakı siyasətlərinin nə şəkil aldığını görməkdəyik. Sovet hökuməti saysız surətdə bulunan kapitalistlərlə etilafə girişməkdən qaçırdı. Digər tərəfdən o yalnız bir əcnəbi kapitalistə imtiyaz verməyə də müxalif deyildi; çünki bu təqdirdə bu kapitalist əski maliklərin ərazisini kəndi imtiyazı daxilində almış bulunduğundan bu sondakıları razı edə biləcəkdi. Əgər sovetlərin bu təklifi Lahidə (Haaqa nəzərdə tutulur – *N.Rza*) qəbul edilmiş bulunsa idi o zaman mühəqqəqdi ki, bu kapitalist yalnız "Royal Dutch/Shell" ola bilərdi".





Beləliklə Sovet hökuməti bu təkliflə Deterdinqin başçılıq etdiyi şirkətə əlverişli perspektiv vəd etmiş oldu. Belə olduqda o, (yəni Deterdinq – *N.Rza*) özünün inqilaba qədər əlində olduğu neft sahələrinin hamısını "uzunmüddətli bir icarə üsulu ilə ala biləcəkdi"[8].

Genuyadakı məlum olayların bir daha təkrarlanmasını əsla istəməyən Deterdinq Fransa–Belçika sindikatını da razı salmağı lazım bildi. Məlumdur ki, məhz Fransa–Belçika sindikatı ABŞ ilə birlikdə müxalif üçlük yaradaraq, İngiltərə–Rusiya işbirliyinin yaranmasını əngəlləyə bilmişdi. Deterdinqin bu niyyəti şübhəsiz ki, eyni zamanda "Standard Oil"un Bakı nefti ilə bağlı strateji maraqlarına da güclü zərbə vurmaq demək idi. Çünki Fransa və Belçikanın Bakı neft sənayesində bu və ya digər şəkildə təmsil olunması "Standard Oil"u illərdən bəri arzuladığı Bakı neftindən tamamilə təcrid etməklə yanaşı, həm də öz müttəfiqlərindən məhrum edə bilərdi. Yəni Fransa və Belçikadan.

Yarana biləcək yeni formatlı "üçlər ittifaqı" isə, yəni İngiltərə-Fransa-Belçika, Bakı başda olmaqla bütün Qafqaz neftini ələ almaq imkanına malik ola bilərdi. "Royal Dutch/Shell"in bölgədəki əvvəlki təcrübəsini də nəzərə alsaq, bunu ingilislərin Bakı və Quzey Qafqaza yönəlmiş neft siyasətinin böyük uğuru kimi dəyərləndirmək olardı. Çünki Fransa və Belçikanın istər iqtisadi, istərsə də siyasi baxımdan Böyük Britaniyadan xeyli zəif olması, istər-istəməz "Royal Dutch/Shell"in Bakı və Quzey Qafqaz neftindəki hegemonluğunu təmin edə bilərdi. Odur ki, zəif Fransa-Belçika sindikatı ilə ittifaq "Royal Dutch/Shell"ə daha əlverişli idi nəinki "Standard Oil" kimi nəhəng neft şirkəti ilə.

İllərdən bəri "Standard Oil"un Bakı neftinə olan iddialarını uğurla dəf etməyi bacaran "Royal Dutch/Shell"in rəhbərləri indinin özündə də onu Azərbaycan neftindən təcrid etmək iqtidarında olduqlarını düşünürdülər. Odur ki, "Standard Oil" ilə deyil, məhz Fransa-Belçika sindikatı ilə konsorsium yaratmaq cəhdləri də məhz yuxarıda qeyd edilmiş amillərdən qaynaqlanırdı.

ABŞ hökuməti konfransda rəsmən iştirak etməsə də, hadisələri diqqətlə izləyir, təhlil edirdi. Şübhəsiz ki, Genuyada qazandığı

müttəfiqləri-fransızlar və belçikalılarla mütəmadı olaraq əlaqə saxlamağı da unutmurdu. Fransızlara və belçikalılara gəldikdə isə onların vəziyyəti heç də asan deyildı. Əksinə, xeylı narahatlıq doğururdu. Çünkı ingilislərin təklifi nə qədər cazibədar görünsə belə, Amerikanın sərt üzü də bir o qədər təhlükəlı görünürdü. Odur ki, Fransa-Belçika sindikatının müəyyən tərəddüdlər içərisində bulunması başa düşülən idi. Həm də bir daha yada salmaq yerinə düşər ki, məhz ABŞ-ın bilavasitə yanacaq yardımı sayəsində Fransa özünün neftlə bağlı son dərəcə kəskin olan problemlərini cahan savaşı vaxtı həll edə bilmişdi.

Rusiyaya gəldikdə isə, onun mövqeyı günbəgün zəifləyir. ilk günlərdə müşahidə edilən təkəbbürdən əsər-əlamət belə qalmayırdı. Rusiya Genuya uğursuzluğunu, Haaqada bir daha təkrarlamaq fikrindən tamamilə uzaq idı.

Miryaqub Mehdizadə vəziyyəti belə dəyərləndirir: "... Moskva kredit almaqdan büsbütün ümidini kəsmiş olsa da belə ancaq müzakirata girişmək, yaxud da idamə** etdirməkçün lazım gələn güzəştlərə gedəcəkdi. Litvinov nə olursa-olsun, Moskvaya əlində imzalanmış bir müqavilə olduğu halda dönmək istəyirdi... Buna binaən təmmuzun*** 19-da Litvinov hər dürlü güzəştlərə hazır olduğunu və bu xüsusda hökumətın teleqraf çəkdiyini bəyan ilə üçgünlük bir möhlət istədi"[9].

Bu, Rusiyanın geriyə atdığı çox ciddi addım idı. Fəqət əsl hadisə də elə bundan sonra baş verdi. Üç günlük möhlətın bitməsini gözləmədən konfransın məsləhət məclisinin qərarı ilə Haaqa konfransının işinin bitmiş olduğu elan edildi. Maraqlıdır ki, iyulun 20-də qəbul edilmiş bu qərarın müzakirəsində Rusiyanın, Litvinov başda olmaqla nümayəndə heyəti iştirak etmirdi. Bu isə öz növbəsində onu deməyə əsas verir ki, konfransın bağlanması haqqında gözlənilməz qərarın qəbul edilməsi Rusiya nümayəndəliyindən məqsədyönlü şəkildə gizlədilirmiş.

Mehdizadə yazır: "Bu əsnada konfrans böylə bir qərar nəşr etdi; "Konfrans, kəndisində təmsil bulunan hökumətlərın ənzari****

** İdamə – davam

*** Təmmuz – iyul.

**** Ənzar – baxışlar, nəzərlər.





- diqqətinə atidəki* şu arzunu vəz** edir: Bütün hökumətlər, əcnəbi təbəələrinə aid olub sahiblərinin, yaxud da imtiyazçıların rizası olmadan 1917 sənəsi 1 təşrini-sanidən*** etibarən müsadirə edilmiş olan mal və mülklərın kəndi təbəələri tərəfindən satın alınmasına heç bir növlə müavinətdə**** bulunmamalıdırlar. Bu şərtlə ki, eyni tövsiyə Lahi (Haaqa – *N. Rza*) konfransında təmsil edilmiş hökumətlərə dəxi təbliğ edilsin və bu xüsusda alınacaq bütün qərarlarda şu hökumətlərlə birlikdə alınsın"[10].

Bu qərarın məzmununda "Standard Oil"un dəst-xətti aydın duyulurdu. Hadisələri kənardan diqqətlə izləyən amerikanlar, konkret addımlar atmaqdan da çəkinmirdilər. Fransa-Belçika sindikatı ilə "Royal Dutch/Shell" ittifaqının pozulması "Standard Oil" un maraqlarına tam cavab verə biləcək bir amil idi. Hər halda konfransın gedişatı ərzində Belçika təmsilçisi Fotyenin ABŞ-ın Hollandiyadakı səfiri ilə sıx əlaqədə olduğu barədə məlumatlar yetərincə idı. Təbii ki, bu əlaqə səbəbsiz deyildi və nəticəsiz də ötüşməmişdı. Əsas nəticə isə Azərbaycan, həmçinin bütövlükdə Quzey Qafqaz neftinin "Royal Dutch/Shell"in inhisarına keçməsinin qarşısının alınması idi.

Maraqlıdır ki, bu qərarın ABŞ-da hazırlanmasına şübhə edənlərin sayı son dərəcə az idi. Çünki qısa bir zaman kəsiyində "Standard Oil"un özü kimi Bakı neftinə iddialı olan "Royal Dutch/Shell" üzərində ikinci dəfə mühüm qələbə qazanması çox-çox mətləblərdən xəbər verirdi. O mətləblərdən biri də məlum qərarın müəllifliyinə aid idi.

"Standard Oil" "Royal Dutch/Shell"dən fərqli olaraq, hadisələri qabaqlamamaq prinsipini üstün tutmağı lazım bildi və səbrli olaraq, əlverişli şəraitin və imkanın yetişməsini gözləməyi daha məqsədəuyğun hesab etdi. Sovet Rusiyasının iqtisadi vəziyyətinin son dərəcə ağır olduğu, bayaq dediyimiz kimi, amerikanlara yaxşı bəllı idi. Və onu yaxşılaşdırmaq üçün ilk növbədə Bakı neftinə

* Ati – gələcək, gələcək zaman.

** Vəz – təyin etmə, təsis etmə, bildirmə.

***Təşrini-isan – noyabr ayı.

**** Müavinət – kömək etmə, yardım etmə, köməklik.

bağladığı böyük ümidlər də həmçinin. Lakin ABŞ və onu təmsil edən "Standard Oil" bolşeviklərin iqtisadi vəziyyətinin bundan sonra daha da ağırlaşacağını arzu edirdilər. Çünki belə olacağı təqdirdə "Standard Oil" öz tələblərini daha asanlıqla həyata keçirib, Bakı neftinə olan çoxdankı iddialarını təmin edə biləcəkdi. Yəni 1917-ci ilin oktyabr çevrilişindən sonra nobellərdən aldığı səhmlərin faktiki olaraq hüquqiliyi qüvvəyə minəcəkdi. Fəqət bu mücadilənin "Standard Oil" üçün təhlükəli məqamları da yox deyildi. Lakin Bakı neftinə inhisarçı kimi sahıb çıxmaq eşqi o qədər güclü idi ki, o, hətta baş verə biləcək problemlərə məhəl qoymadan "Royal Dutch/Shell" kimi qüdrətli rəqibə qarşı mürəkkəb bir oyuna girişməkdən belə imtina edə bilmədi. Və hətta növbəti qələbəyə də imza atmağı bacardı. Halbuki hər şey "Standard Oil"un arzu etmədiyi məcraya da yönələ bilərdi.

Fəqət, öz növbəsində Fransa-Belçika sindikatının dəstəyindən məhrum olan "Royal Dutch/Shell", "Standard Oil"a qarşı təkbaşına dirəniş gətirməkdən vaz keçdi və bunun üçün daha əlverişli məqamın yetişəcəyini düşündü. Beləliklə də Genuyada olduğu kimi, Haaqa konfransı Sovet Rusiyası üçün uğursuz nəticələndi. Siyasi üsullarla Bakı neftindən həm siyasi, həm də iqtisadi qazanclar əldə etmək cəhdi növbəti dəfə iflasa uğradı.

Konfransdan bir ay sonra, sentyabrın 19-da "Standard Oil"un təşəbbüsü ilə "Royal Dutch/Shell" başda olmaqla, əski rus səhmlərinin sahibləri olan digər 16 cəmiyyət və qurumun təmsilçiləri beynəlxalq "müdafiə komitəsi"nin işində iştirak etmək üçün Parisə toplaşdılar. Henri Deterdinqin sədrliyi ilə keçən bu toplantıda "Rusiyadakı neft şirkətlərinin beynəlxalq birliyi" adlı yeni bir qurum yaradıldı. L.Denni Paris konfransı kimi təqdim etdiyi bu toplantının gəldiyi nəticəni şərh edərək yazır: "Konfrans iştirakçıları sovet (Bakı və Quzey Qafqaz – *N.Rza*) neftini baykot etməyə o vaxta qədər razılıq verdilər ki, Moskva bütün maraqlı tərəflərin neft sahibliyinə olan hüquqlarını bərabərlik əsasları ilə bərpa etmiş olsun"[11].

Denni daha sonra qeyd edir: "Onlar həmçinin öhdələrinə götürdülər ki, rus hökuməti ilə heç bir sövdəyə girməsinlər, bunu yalnız birləşmiş qrup adından etsinlər"[12].





F.Merks yazır ki, birliyin iştirakçıları "mövcud olduqları yarım il ərzində öz planlarını realizə edə bilmədilər. Onların arasında ziddiyyətlər yarandı ki, bu da işgüzar mülahizələrlə deyil, qazanc götürmək ehtirası ilə diqtə olunurdu"[13].

Hətta Henri Deterdinqin özü də əldə edilmiş razılaşmaya məhəl qoymadan Rusiyadan Bakı neftini almağı özünə rəva bildi. Denninin yazdığına görə o, "1923-cü ilin martında 70 min ton rus neft məhsulları üçün müqavilə bağladı və sonrakı 100 min ton üçün qabaqcadan şərt kəsdi"[14].

Hətta 1923-cü il mayın 26-da "Petroleum Times" qəzeti də Deterdinqin bolşeviklərdən 100 min ton neft aldıqları barədə xəbər çap etdi[15].

Deterdinqin bu hərəkəti "Beynəlxalq birliyin" kəskin etirazına səbəb oldu. Bolşeviklərdən nə üçün neft aldığı soruşulduqda o, belə cavab verdi: "...Mən bolşeviklərdən neft almaqla heç bir surətlə (vəchlə – *N.Rza*) cəmiyyətin (birliyin – *N.Rza*) çıxardığı qərara müxalif hərəkət etmirəm. Çünki mən şor deyil, neft hasilatı alırdım. Halbuki məhud* qərarda ərazi deyilmiş, neft deyilməmişdir"[16]. Burada Deterdinq "ərazi" və "neft" sözlərini oynatmaqla vəziyyətdən çıxmağa və özünə haqq qazandırmağa çalışırdı. Halbuki bu məntiq heç də tutarlı deyildi. Çünki Mehdizadənin sözlərilə desək, həqiqətən də "neftsiz ərazi heç bir faydaya havi** deyildi"[17].

"Beynəlxalq birlik" Rusiyaya qarşı boykotu davam etdirmək istəyilə Deterdinqdən rus neftindən imtina etməyi təklif etsə də, xeyri olmadı. "Royal Dutch/Shell"in bu hərəkəti "Birlik" üçün dağıdıcı bir zərbə oldu. Öz növbəsində şirkət də etibarsız bir tərəfdaş kimi öz nüfuzunu xeyli dərəcədə itirdi.

Neftin cəzbedici mahiyyəti bu dəfə də özünü bütün qüdrəti ilə göstərmiş oldu. Qərbi Avropa bu qüdrət qarşısında son dərəcə aciz görünürdü. Mehdizadə yazır: "İngiltərə, Fransa və İtaliya artıq bolşeviklərin müştəriləri olmuşdular. 1924-1925 sənələrində bolşeviklər 80 milyon pud neft ixrac etdilər. Bu yekundan ingilislər

* Məhud – qəbul edilmiş.

** Havi – malik olma.

(yəni "Royal Dutch/Shell" – *N.Rza*), 34 milyon pud neft aldılar"[18]. Qalan neft isə Fransa və İtaliyanın payına düşdü. Mehdızadə daha sonra yazır: "Amerikanlar isə səbat göstərdilər və Sovetlərdən neft almağa tənəzzül etmədilər. Əski maliklər daha şiddətli bir surətdə neft alınması əleyhinə protest etdilər. Və kəndiləri üçün təzminat istədilər. Fəqət onların səsi boş səhrada imiş kimi nəticəsiz qaldı və bu səsə kimsə etina etmədi"[19].

Genuya və Haaqa konfranslarının nəticələri, daha doğrusu, nəticəsizliyi və sonrakı hadisələr, onsuz da kəskin olan ABŞ-Böyük Britaniya qarşıdurmasını daha da şiddətləndirdi. Onun kökləri isə bir qədər əvvələ söykənirdi.



## XXX fəsil

# NEFT və ABŞ – BÖYÜK BRİTANİYA QARŞIDURMASI

Birinci cahan müharibəsi başa çatdıqdan sonra, 1920-ci ilin aprelində San-Remoda bir sıra kəskin ziddiyyətlərin olmasına baxmayaraq, Yaxın və Orta Şərqdə İngiltərə və Fransa arasında nüfuz dairələrinin bölüşdürülməsi haqda kompromis bir müqavilə imzalandı. Mesopotamiya (sonralar İraq adlandırıldı – *N.Rza*) və Fələstin üzərində İngiltərə, Suriya və Livan üzərində isə Fransa mandat əldə etdi. Bundan əlavə, İngiltərənin nəzarəti altında olan Mosul neftindən də 25 faiz Fransanın payına düşməli idi. Maraqlıdır ki, istər İngiltərə-Fransa danışıqları, istərsə də San-Remo müqaviləsinin imzalanması amerikalılardan gizli aparılırdı. Məsələnin üstünün açılması İngiltərə ilə ABŞ arasında böyük gərginlik yaratdı. Vəziyyət hətta o dərəcəyə çatdı ki, az qala 1920-ci ilin iyununda iki ölkə arasında hərbi qarşıdurma ilə nəticələnəcəkdi. Bu məqamda istər-istəməz 1917-ci ildə "Standard Oil Trast"ın direktoru Uolter Tiqlin dediyi sözlər bir daha yerinə düşür. O zaman o, belə demişdi: "Standard Oil"un fəaliyyəti üçün Britaniya hökmranlığı Almaniyanın müharibədəki qələbəsi qədər təhlükəlidir"[1].

Hadisələrin sonrakı gedişatı sübut etdi ki, Tiqlin uzaqgörənliklə dediyi bu fikir həqiqətdən heç də uzaq deyildi. Hər halda müharibə qurtarandan sonra, 1919-cu il ərzində ingilislərin rəsmi strukturları "Standard Oil"a Fələstin ərazisində axtarış-kəşfiyyat işləri aparmağa imkan vermədilər. Halbuki müharibədən əvvəl amerikalı geoloqlar bu ərazidə axtarış işləri ilə məşğul olurdular. "Standard Oil"dan fərqli olaraq "Royal Dutch/Shell" isə Mesopotamiyada geniş fəaliyyət göstərirdi.

ABŞ-ın Dövlət Departamenti hesab edirdi ki, Orta Şərqin neft mənbələrini öz nəzarətində saxlamaq və Amerika kapitalının bu bölgədə qərar tutmasını əngəlləmək üçün İngiltərə özünün bu bölgədə məskunlaşmış hərbi gücündən istifadə etmək niyyətindədir. San-Remo müqaviləsi də mövcud hərbi güc amilindən yararlanmağın bariz nümunəsi idi. Amerika Birləşmiş Ştatları

hökuməti öz tərəfindən haqlı olaraq hesab edirdi ki, müharibədəki qələbə bütün müttəfiq dövlətlərin səyi nəticəsində əldə edilib. Odur ki, onun bəhrələri də bərabər bölünməlidir. ABŞ onu da bəyan etdi ki, əks təqdirdə bu, həm də "açıq qapılar" prinsipinə daban-dabana ziddir. İngiltərə ABŞ-ın bu arqumentinin haqlı olduğunu etiraf etsə də, əvəzində öz dəlil-sübutunu ortaya qoymağı unutmadı. ABŞ hökumətinin nəzərinə çatdırıldı ki, bu ona "Turkish petroleum company"nin hüquqlarını pozmağa əsas vermir.Çünki bu hüquqlar müharibədən əvvəlki dövrdə əldə edilib. ABŞ İngiltərənin bu iddiasını da əsassız saydı. Onun nəzərinə çatdırıldı ki, bu, Osmanlı sultanının baş vəziri tərəfindən verilmiş bir vəddir. Odur ki, əhəmiyyətli konsessiya hüquqlarına da malik ola bilməz[2].

K.Tügendhet və A.Hamilton yazırlar: "Bütün bu diplomatik kinayələrin arxasında hər iki tərəf onları təqib edən qorxunu gizli saxlayırdı. Rusiyada 1917-ci il inqilabından sonra dünya neft hasilatının 65 faizi ABŞ-ın əlində cəmləşdi. Və güman etmək üçün heç bir əsas yox idi ki, yeni müharibə olacağı təqdirdə İngiltərə bu mənbədən neft ala bilər. Britaniya imperiyasına vacib idi ki, özünün xüsusi neft ehtiyatlarına malik olsun. Onları axtarmaq üçün belə münasib yer isə təbii ki, Orta Şərq idi.

ABŞ-ı isə narahat edən başqa məsələ idi. Dünya neft hasilatının lideri olmağına baxmayaraq, o hesab edirdi ki, ölkənin neft ehtiyatları tükənmək həddindədir. Hesablamalar göstərirdi ki, 1914-cü ildən 1920-ci ilədək olan dövr ərzində ölkə daxilində neftə olan tələbat nə az, nə çox 210 milyon barreldən 455 milyon[3] barrelə qədər, yəni iki dəfədən də çox artıb. Yeni neft mənbələri olmadığı təqdirdə, neftə olan tələbatın belə sürətlə artımı gələcəkdə ölkənin milli təhlükəsizliyi üçün müəyyən problemlər də yarada bilərdi.

"Standard Oil of New Jersey" şirkətinin direktorlar şurasının sədri A.Bedford yaranmış vəziyyətdə ABŞ hökumətinin atmalı olduğu addımı belə təsəvvür edirdi: "Birləşmiş Ştatların təcavüzkar xarici siyasət yeritməsi indi yeganə zəruri addımdır"[4].





"Standard Oil"un təklifi ABŞ-ın Federal ticarət komissiyasının da ürəyincə idi. Odur ki, hökumətə məsləhət gördü ki, xaricdə neft yataqlarının əldə edilməsi və istismarı üçün tələb olunan diplomatik yardımı əsirgəməsin.

1921-ci ilin noyabrında ABŞ-ın ticarət naziri və gələcək prezidenti Herbert Huver ölkənin ən iri yeddi neft şirkətini: "Standard Oil of New Jersey"ni, "Standard Oil of New York"u, "Gulf Oil"u, "Texas"ı, "Sinclair"i, "Atlantic"i və "Mexican"ı vahid sindikatda birləşməyə inandıra bildi. Bu sindikat Orta Şərqdə Amerika maraqlarını təmsil etməli idi[5].

Təqribən elə həmin vaxtda Asiyanın neft hasilatı mərkəzi "Royal Dutch/Shell"in hökmranlıq etdiyi İndoneziyadan İrana, "Anglo-Persian oil Company"nın neft mədənlərinə köçdü. Həmin günlərdə bütün İran körfəzi rayonunda bir nəfər də olsun amerikalı yox idi[6].

ABŞ-Böyük Britaniya neft qarşıdurması əsasən iki nöqtəyə söykənirdi. Biri Bakı, digəri isə Mosul nefti idi. Bakı nefti uğrunda Haaqada pərdəarxası oyunlar getdiyi bir vaxtda, 1922-ci ilin iyununda "Anglo-Persian oil Company"nin sədri Çarlz Qriney yeni yaradılmış Amerika sindikatına "Turkish petroleum company"yə daxil olmaq barədə danışıqlara başlamağı təklif etdi. Onun təklifi dərhal qəbul edildi[7].

Nəhayət 1923-cü ildə Mosulda bağlanmış müqaviləyə əsasən Amerika şirkətləri İraq neftinin işlənilməsində iştirak etmək hüququ qazandılar. 1927-ci ildə orada qazdıqları ilk quyu üççə gün ərzində 36 min ton neft verdi.

"Standard Oil" Bakı neftindən də imtina etmək niyyətində deyildi. 1926-cı ilin əvvəlində Amerika şirkətləri Aralıq dənizi və Süveyş kanalı bölgələrində neft satışını öz nəzarətinə almaq üçün konkret addımlar atmağa başladı. Bunu həyata keçirmək üçün Bakı nefti son dərəcə əlverişli imkanlar yarada bilərdi. Təbii ki, bu "Standard"ın rəhbərlərinə də yaxşı bəlli idi. Uğurlu olacağı təqdirdə bu, "Shell"in həmin bölgədəki hökmranlığına son qoya bilərdi. Odur ki, o, amerikalılara maneçilik yaratmağa çalışdısa da heç nə edə bilmədi. 1926-cı ilin martında "Standard"

şirkətlər qrupuna daxil olan "Vacuum" cəmiyyəti Rusiya neft sindikatından Misirdə satılmaq üçün 800 min ton xam neft və 100 min ton kerosin aldı. Bunun ardınca "Standard Oil of New York" tərəfindən daha 500 min ton kerosin almaq üçün sifariş gəldi. Moskva Aralıq dənizinin şərq bölgəsində "Standard"ın ticarət təşkilatları ilə rəqabət aparmamaq barədə öhdəlik də götürdü[8].

L.Fişer hesab edirdi ki, "Standard Oil of New Jersey" o zaman gizli olaraq Emba (Qazaxıstandadır – *N.Rza*) neft yataqlarına konsessiya almağa səy göstərirdi. Halbuki o, Bakı və Qroznı ilə müqayisədə ikinci dərəcəli əhəmiyyət daşıyırdı.

Amerika şirkətlərinin Bakı və Quzey Qafqaz nefti ilə əlaqələri o dərəcədə böyük perspektivlər vəd etdi ki, mətbuatda uzun müddət ərzində aparılan antirus təbliğatı hətta qəflətən dayandırıldı da.

Mehdizadə yazır: "Türkiyə, Bolqarıstan və Balkan məmləkətləri Bəhri-Səfid* sahilləri "Standard Oil of New York" kompaniyası ilə "Vakuum oyl" kompaniyasının nüfuzları altında idi"[9]. Adı çəkilən şirkətlərin hər il Sovetlərdən 100 min ton neft almaq barədə müqavilə bağlamaları haqqında məlumat verən Mehdizadə onu da qeyd edir ki, Türkiyədə satılan Azərbaycan neftinin 55 faizi amerikalıların, 45 faizi isə Sovet ticarətinin payına düşürdü[10].

ABŞ-Rusiya neft əməkdaşlığı Henri Deterdinqin hədsiz narahatlığına və qəzəbinə səbəb olmuşdu. Odur ki, suyu bulandırmaq üçün müxtəlif üsullara əl atmaq məcburiyyətində qalmışdı. Hətta "Morning Post" qəzetində dərc etdirdiyi bir məqalədə o, 1926-cı il ərzində SSRİ-nin süqut edəcəyini belə iddia etmişdi.

1927-ci il iyunun 22-də "Standard Oil of New York" bolşeviklərlə 5 il müddətinə çox mühüm əhəmiyyətə malik bir müqavilə imzaladı. Müqaviləyə görə bolşeviklər hər il İstanbul, Port-Səid və Kolumbiya limanlarında "Standard Oil"a 100 min ton neft verməyi öhdələrinə götürdülər[11]. Amerikalıların qətiyyətli addımları ingilisləri əməlli-başlı əndişələndirdi. Mehdizadə yazır: "...Yalnız şərq-qərb deyil, hətta Bəhri-Səfid

* Bəhri-Səfid – Aralıq (Ağ) dənizi.





hövzəsi belə amerikalılar sayəsində Sovet nefti ilə doldurulacaqdı. Buna görə də ingilislər bütün qüvvələri ilə sovetlərə qarşı mücadiləyə girişdilər və bu nefti "çalınmış", yaxud da "qanlı neft" adlandırdılar"[12].

Lakin Deterdinqin bu hərəkəti daha çox cığallığa bənzəyirdi. Çünki onun rəhbərlik etdiyi şirkətin özü 1925-ci ildə həmin "çalınmış" və yaxud "qanlı" adlandırdığı neftdən xeyli faydalana bilmişdi. Bir sıra müxalif qəzetlərdə bu xüsusda verilmiş tənqidi yazılarda bunun nə üçün baş verdiyi bir sual kimi onun qarşısında qoyulduqda, Deterdinq özünə bəraət qazandırmaq məqsədilə 1927-ci il avqustun 13-də "Petroleum Times" qəzetinə verdiyi müsahibədə belə demişdi: "Əgər bundan əvvəl o, Sovet nefti alırdısa, bunu yalnız hökumətin israrı və bir taqım siyasi səbəblərdən dolayı yapırdı"[13].

Lakin bu əsl həqiqətdən son dərəcə uzaq olan bir etiraf idi. Çünki Bakı və Quzey Qafqaz neftinə konsessiya əldə etmək uğrunda Deterdinqin verdiyi mücadilə hamıya yaxşı bəlli idi. Bu, sadəcə bir daha onu sübut edirdi ki,böyük neft uğrunda mücadilədə hətta ən çirkin üsullardan belə istifadə etmək elə bir qəbahət sayılmırdı. Bir vaxtlar Mosul neftini ələ keçirmək və buna görə Türkiyəni oyundankənar vəziyyətə salmağın vacibliyini "dərk" edən Qərb siyasi dairələri özlərinin icad edib şişirtdikləri üzdəniraq "erməni soyqırımı" mifini zaman yetişdikdə, vəziyyət və tələblər dəyişdikdə böyük neft naminə tarixin arxivinə göndərməyi də unutmadılar. Bunun mərkəzində yenə də Mosul nefti dururdu. Hadisələr isə Vaşinqtonda vaqe olurdu.

Xülasə, 1928-ci il martın 24-də ABŞ senatoru Boraya ünvanlanmış bir məktub gəldi. Onun müəllifi Ermənistan Respublikasının nümayəndəliyinin müvəkkili Vahan Kardaşyan idi. Məktubda o yazırdı: "Əgər xarici əlaqələr komitəsi onun xahişi üzrə xeyirxah qərar qəbul etməsə, o, prezident Kulicə* təklif edəcək ki, amerikan-erməni mübahisəsini Haaqa tribunalının müzakirəsinə təqdim etsin"[14].

* Kalvin Kulic – 1923-1929-cu illərdə ABŞ prezidenti.

Söhbət 1923-cü ildə Lozanna konfransında bağlanmış türk-amerikan müqaviləsindən gedir. Həmin müqaviləyə əsasən ABŞ admiralı Çester Türkiyə hökumətindən 99 il müddətinə dəmir yolu, mineral və neft konsessiyaları almağa nail olur. Beləliklə, 2.400 mil uzunluğu olan dəmir yolunun özü də daxil olmaqla onun hər iki tərəfindəki 20 km enində olan ərazi amerikalıların inhisarına verilməli idi. Bu müqavilə, fransızlarla ingilislər arasında baş vermiş kəskin ixtilafın məntiqi nəticəsi idi. Türkiyə vəziyyətdən istifadə edib Çester ilə müqavilə bağlamağa macal tapa bilmişdi. Faktiki olaraq bu konsessiya almanların köhnə Bağdad dəmir yolu konsessiyası idi. Maraqlıdır ki, ABŞ tərəfi uydurma "erməni soyqırımını" heç yada salmamışdı. Hakimiyyətdə olan respublikaçılara qarşı müxalifətdə olan "Demokrat" partiyası növbəti seçkilərdə Türkiyə–ABŞ arasında bağlanmış Lozanna müqaviləsini mühakimə etmək qərarına gəldi. Səbəbi də ondan ibarət idi ki, "o, (yəni müqavilə – *N.Rza*) Çesterin neft konsessiyasının maraqları naminə Amerikanın qanuni hüquqlarını dəyişdirir və Ermənistanı aldadır"[15].

Lakin müqavilə ilə bağlı müəyyən incəliklər də var idi. Mosulun ərazisi Türkiyənin deyil, Böyük Britaniyanın nəzarəti altında idi. Odur ki, müqavilə böyük mübahisələrə səbəb oldu. Məsələnin həlli xeyli uzandı. 1925-ci ilin dekabrında Millətlər Cəmiyyəti Şurası onu Böyük Britaniyanın xeyrinə həll etdi. "Turkish petroleum company"yə 75 illik bir müddətə verilmiş İraq neft konsessiyasında da əhəmiyyətli dəyişikliklər edildi. ABŞ və Fransanın şirkətlər qruplarına ayrı-ayrılıqda müvafiq olaraq 25 faiz səhmlər verilməsi nəzərdə tutulsa da, bir qədər sonra bu rəqəm 21,25 faizə endirildi[16].

Millətlər Cəmiyyəti Şurasının qərarı 1926-cı ilin əvvəlində az qala İngiltərə-Türkiyə müharibəsi ilə nəticələnəcəkdi. İngiltərə İtaliya kartından istifadə etmək qərarına gəldi və Türkiyənin ərazisi olan Kilikiyanı İtaliyaya verəcəyi ilə hədələdi. Ağır və üzüntülü müharibələr nəticəsində xeyli zəifləmiş Türkiyə Böyük Britaniya ilə saziş bağlamaq məcburiyyətində qaldı.





İndi isə qayıdaq senator Boraya ünvanlanmış məktuba. Erməni nümayəndəsi Kardaşyan orada yazırdı: "Əziz senator Bora, Lozanna müqaviləsi haqqındakı məsələni Senatın xarici əlaqələr komitəsində müzakirə edilməsi üçün xahiş etməyi özümə şərəf bilirəm və öz xahişimin müdafiəsi üçün məsələni qısaca olaraq izah edirəm. Mən Lozanna konfransında erməni məsələsi ilə bağlı sövdələşməyə girmiş nazirlər kabinetinin iki üzvünü ittiham edirəm. Onlar demək olar ki, 1 milyon ermənininin öz əcdadlarının evlərindən qovulması haqqında gizli razılığa gəlib, bunun əvəzində isə Mosul nefti alıblar; indi isə onlar ermənilərin tərk etdikləri rayonlarda neft yataqlarını ələ keçirməyi layihələşdirirlər"[17].

Daha sonra Nazirlər Kabinetinin iki üzvünü, onların naməlum ortaqlarını, habelə ABŞ Dövlət Departamentini müxtəlif yönümlü yağlı "epitetlərlə" bəzəyən erməni müvəkkili öz istədiyi nəticəyə gələrək sual edir: "...Xarici İşlər nazirliyinin (Dövlət Departamenti – *N.Rza*) Türkiyə siyasəti arasında gizlədilmiş motivləri və məqsədləri nədən ibarət ola bilər?" Erməni müvəkkili sualının cavabını da belə verir: "Mən bəyan edirəm ki, bunda neft məsələsi durur"[18].

ABŞ administrasiyasına, onun siyasətinə, ölkə konstitusiyasını kobud şəkildə pozmasına ermənisayağı ağır ittihamlarla çıxış edən erməni müvəkkili daha sonra bəyan edərək deyir: "Belə administrasiya tərəddüd etmədən erməni xalqını və onun yaşadığı evləri, imtiyazlı qrupların maraqları naminə neftə satar"[19].

Ərizəsinin sonunda erməni müvəkkili onu da bildirdi ki, əgər hər hansı bir səbəbdən Senat komitəsi namuslu bir xalqa qarşı edilmiş bu müsibəti müzakirə etməsə və ya edə bilməsə, o zaman mən ABŞ prezidentinə təklif edəcəyəm ki, indiki administrasiya ilə Ermənistan arasında müxtəlif fikir ayrılığına səbəb olan bu məsələləri daimi Haaqa arbitraj məhkəməsinin müzakirəsinə versin"[20].

Öz cavabında senator Bora yazdı: "Bu məsələ ilə maraqlanmamışdan əvvəl mən ümumi bəyanatlara malik olmaq istəməzdim. Mən qeyd edilən şəxslərin adlarını, rüşvətlə ələ alma və yaxud sövdələşmənin xarakterini, bəyan etdiyiniz və təsdiqini tap-

mış faktları, habelə sizin ittihamları təsdiqləyə biləcək şahidlərin adlarını bilməliyəm"[21].

ABŞ senatorları isə, öz növbəsində, ermənisayağı edilmiş bu "diplomatik" hücumu, partizanların etdikləri hücumlara bənzətdilər. Onlar belə hesab etdilər ki, bu məsələ ilə bağlı xarici siyasəti bu dərəcədə bayağılaşdırmaqla hər hansı nəticə əldə etmək mümkün deyil[22].

Belə də oldu. ABŞ Senatı ermənilərin irəli sürdükləri yalan arqumentləri və iddiaları əsassız saydı və böyük səs çoxluğu ilə Lozanna müqaviləsinə tərəfdar çıxdı.

Bu bir daha sübut etdi ki, milli, irqi, dini qarşıdurmalar və onların süni surətdə qızışdırılması və hətta mif həddinə qədər şişirdilməsi, kiçik də olsa, hər halda böyük neft uğrunda dünyanın imperialist dövlətlərinin apardıqları mübarizənin yalnız tərkib hissəsidir. Mübarizə qızışdıqda əski qarşıdurmalar yada düşür və gündəmə gətirilir. Neft tələbləri təmin edildikdə, ehtiraslar səngidikdə bu uydurma problemlər də unudulur və lazım gəldikdə yenidən istifadə edilmək üçün bir növ arxivə göndərilmiş olur. Sonrakı onilliklərdə baş verən hadisələr dəfələrlə sübut etdi ki, bu, həqiqətən belədir və o, öz aktuallığını zaman-zaman biruzə verməklə yanaşı, ondan lazımınca bəhrələnməyə də imkan yaradır.

Birinci cahan savaşı dörd il davam etsə də, onun sonlarından etibarən xüsusilə geniş vüsət almış neft mübarizəsi daha uzun, daha üzüntülü oldu. Bəşər tarixində ilk dəfə baş vermiş Cahan savaşı, necə deyərlər, yatmışları da oyatdı. Hamı başa düşdü ki, bəşəriyyət keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub. Neftin hökmranlıq etdiyi bir mərhələyə. Bu mərhələ neft uğrundakı mübarizəni son dərəcə yüksək nöqtəyə qaldırdı. Bu mübarizədə nəinki dünənki rəqiblər, hətta dünənki müttəfiqlər də qarşı-qarşıya durdular, diplomatik əlbəyaxaya keçdilər. Onlardan ABŞ-Böyük Britaniya qarşıdurması xüsusilə yadda qaldı.

Bu münasibətlə L.Denni yazır: "Neft uğrunda gedən bu mübarizə iki böyük iqtisadi imperiya arasında dünya hökmranlığı uğrunda böyük mübarizənin kiçik bir hissəsi kimi əlamətdardır. Ona ayrıca baxdıqda, o fantastik, qeyri-mümkün görünür; lakin





daha geniş münaqişənin fonunda o faciəvi şəkildə qaçılmaz görünür.

Əgər Amerika qəflətən Böyük Britaniyanın uzun illər boyu davam edən ticarət və hərbi-dəniz üstünlüyünə təhlükə yaradan imperiyaya çevrilməsəydi, neft uğrunda heç bir ciddi mübarizə də olmayacaqdı"[23].

Lakin təəssüflər olsun ki, Denni səhv etmişdi. Çünki 1928-ci ildə bu fikri söylədikdə o, ikinci cahan savaşının başlayacağından xəbərdar deyildi və ola da bilməzdi. Odur ki, ABŞ-Böyük Britaniya çəkişməsini yeganə və əsas qarşıdurma kimi təsəvvür edirdi. Bu qarşıdurma isə həqiqətən son dərəcə ciddi idi və müşahidəçilərin mülahizələrinə görə, hətta müharibə ilə də nəticələnə bilərdi. Hər halda diplomatik müharibə açıq-gizli artıq gedirdi.

Böyük Britaniyanın böyük hərbi-dəniz qüvvələri potensialına malik olduğunu nəzərə alan ABŞ hökuməti qüvvələr nisbətini tarazlaşdırmaq məqsədilə İngiltərədən hər iki dövlətin dəniz donanmalarının gücünün bərabərləşdirilməsini tələb etdi. Bu məqsədlə Vaşinqtonda silahların məhdudlaşdırılmasına dair konfrans da keçirildi. İngiltərənin imtina edəcəyi təqdirdə ABŞ özünün hərbi-donanmasını iri tonnajlı hərbi gəmilərlə təchiz etmək üçün geniş fəaliyyətə başlayacağı ilə hədələdi. Bunun baş tutacağı təqdirdə Böyük Britaniyanın dünya okeanındakı hegemonluğuna ciddi təhlükə yarana bilərdi. Bunu əngəlləmək üçün İngiltərə hökuməti ABŞ Dövlət katibi Hyuzun təklif etdiyi tənasüb ilə razılaşmalı oldu. Hyuz üç güclü dəniz dövləti olan Böyük Britaniya, ABŞ və Yaponiya üçün 5:5:3 nisbətini təklif etmişdi. Bu, İngiltərəyə sərfəli idi. Çünki bu, ABŞ-ı iri miqyaslı gəmiqayırma proqramını təxirə salmağa sövq edir, İngiltərənin isə kiçik həcmli kreyserlərin inşasına şərait yaradırdı. Həm də hərbi-dəniz mütəxəssislərinin gəldiyi qənaətə görə kiçik həcmli kreyserlər və sualtı qayıqlar hərbi əməliyyatlarda daha səmərəli idilər.

Vaşinqton konfransı bütün problemləri həll edə bilmədi. Çünki bu iki ölkə arasında ziddiyyətlər yetərincə idi. Onun da başında təbii ki, əlahəzrət neft dururdu.

Üfüqdə müharibə kabusu olduqca aydın görünürdü. Vəziyyəti hərtərəfli tədqiq edən Denni yazırdı: "Müharibə mümkündür. Əgər hər iki imperiya qarşılıqlı güzəştlər yolu ilə özlərinin bir-birinə zidd maraqlarını barışdırmağa səy göstərməsə, o zaman müharibə çox güman ki, mümkün ola bilər. Bu, daha zəif xalqların hüquqlarını məhdudlaşdırmadan, xammal mənbələrinin və satış bazarlarının, habelə dəniz hökmranlığının müvafiq olaraq bölünməsini tələb edəcəkdir. Əgər nə vaxtsa buna bənzər diplomatik möcüzə baş verərsə, o zaman neft beynəlxalq münaqişələrin səbəbkarı olmaqdan qurtula bilər"[24].

Fəqət belə möcüzə baş vermədi. Dünyanı daha qorxunc müharibə kabusu bürüdü. Bəşəriyyət bir dəfə keçmiş olduğu dəhşətli yolu, bir daha keçmək məcburiyyətində qalmış oldu. Əvvəlkindən daha ciddi, daha kəskin, daha amansız.





## NƏTİCƏ

Böyük Britaniyanın sabiq baş naziri Uinston Çörçill 1950-ci ildə nəşr etdirdiyi "İkinci cahan savaşı" kitabında yazır: "1914-cü ilin Cahan savaşı başa çatdıqdan sonra demək olar ki, hamı dərindən inanır və ümid edirdi ki, bütün bəşəri-cahanda əmin-amanlıq bərqərar olacaq.

Haqlı əqidələri qətiyyətlə müdafiə etməklə və lazımi sağlam düşüncə və ağıl nümayiş etdirməklə, bütün xalqların bu məhrəm arzusunu asanlıqla yerinə yetirmək olardı. "Müharibəni dayandırmaq üçün müharibə" ibarəsi hamının dilində idi və bu formulu gerçəkliyə çevirmək üçün tədbirlər görülürdü"[1].

Fəqət nə Birinci, nə də İkinci cahan savaşlarından sonra, Çörçillin təbirincə desək, "xalqların bu məhrəm arzusunu" yerinə yetirmək mümkün olmadı. Baş vermiş hadisələr sübut etdi ki, bunu həyata keçirmək heç də asan məsələ deyil. Hər halda dünya sivilizasiyasının XXI yüzilliyə qədərki səviyyəsi bunu etməyə heç cür imkan vermirdi. Səbəbi isə nə qədər təəccüblü görünsə də, neft idi. Çünki bu, təkcə iqtisadi məsələ deyildi, ilk növbədə hərbi-siyasi amillərlə bağlı bir məsələ idi. Neft təkcə pul demək deyildi. O, daha çox, qüdrət və söz sahibi olmaq demək idi.

K.Tügendhet və A.Hamilton olduqca haqlı olaraq deyiblər: "Bizim sivilizasiya neftdən daha çox asılıdır, nəinki ayrıca olaraq götürülmüş hər hansı bir məhsuldan. Neft üçün mümkün olmayan demək olar ki, heç bir şey yoxdur"[2].

Məhz bu cəhətinə görə, nefti əvəzləyə biləcək digər bir alternativ enerji mənbəyini təsəvvür etmək son dərəcə müşkül bir işdir. Yüzilliklər boyu müxtəlif xalqlar tərəfindən məişətdə geniş istifadə edilməsinə baxmayaraq, onun qeyri-adiliyi yalnız XIX yüzilliyin sonlarında, xüsusilə də XX yüzilliyin əvvəllərində bəlli olmuşdur. Elə həmin vaxtdan başlayaraq neftin qeyri-adiliyi onun hərbi-siyasi məna kəsb etməsi ilə nəticələndi.

Beləliklə də ümumbəşəri əhəmiyyət kəsb edən neft amili və onu əldə etmək uğrunda gündən-günə genişlənən mübarizə dünyanın aparıcı və qüdrətli dövlətlərinin hərbi-siyasi doktrinasının tərkib hissəsi olmaqla, yeni strategiyanın – neft strategiyasının da təşəkkül tapmasını zəruri etdi.

Hər şey daxiliyanma mühərrikinin yaradılmasından və bu mühərrikin tətbiqedilmə dairəsinin, habelə bunun nəticəsində hələ o vaxta qədər təsəvvür belə edilə bilməyən perspektivlərin nə qədər geniş və əhatəli olmasının dərk edilməsindən başlandı. Yüz illər boyu yalnız işıqlandırma və qızdırıcı keyfiyyətlərinə görə məşhur olan neft məhz bu dövrdən başlayaraq, özünün fövqəladə təbiətini bütün dünyaya faş etdi. Bəşəriyyət başa düşdü ki, yerdə də, göydə də, suda da onun tayı-bərabəri yoxdur. Elmi-texniki tərəqqinin görülməmiş sıçrayışı da ilk növbədə məhz neftlə bağlı idi. Müxtəlif sahələrin yaranmasına və inkişafına güclü təkan və istiqamət verən neft, həm də qüdrətli hərəkətverici qüvvə olduğunu da tez bir zamanda sübuta yetirdi. İrili-xırdalı müharibələrə, hərbi münaqişələrə min illər boyu meylli olan bəşəriyyət təəssüf ki, neftin yalnız bu imkanlarından mümkün qədər hərtərəfli "bəhrələnməyə" çalışdı Və demək olar ki, buna nail oldu da.

XIX yüzilliyin ikinci yarısından başlamış "neft qızdırması" çox keçmədən sırf iqtisadi amildən hərbi-siyasi amilə çevrildi. Dünyanın müxtəlif bölgələrində neft sahələrini ələ keçirmək uğrunda açıq-gizli və əsasən təkbaşına mübarizə aparan neft şirkətlərinin və maliyyə qurumlarının arxasında tezliklə, təmsil etdikləri ölkələrin hərbi-siyasi elitası dayandı. Tügendhet və Hamilton neftin qiymətini özlərinə məxsus şəkildə dəyərləndirərək yazırdılar: "Orta əsrlərdə insanlar əbədi gənclik əldə etmək üçün həyat iksirini və oksidləşən (yaxud paslanan) metalları qızıla çevirməyə qadir olan iksiri axtarmağa çalışırdılar. Hətta çağdaş tibb elmi insanlara ölməzlik vəd edə bilmir, lakin neftin timsalında bəşəriyyət iksirdən daha qiymətli və universal maddə tapdı"[3].

Bu maddənin kəşfi min illər çəksə də, onun əsl mahiyyətinin tapılması tarixi xeyli cavandır. Lakin, buna baxmayaraq, XX yüzillikdə bəşər tarixinin "zənginləşməsində" bu "universal maddə"nin misilsiz rolu danılmazdır. Bu, ilk növbədə onun qısa zamanda, həm də son dərəcə böyük bir sürətlə hərbi-siyasi amilə çevrilməsi ilə əlamətdardır. Birinci cahan savaşının başlanması, onun gedişatı və sona yetməsi, habelə müharibədən sonrakı irili-xırdalı çoxsaylı hadisələr, Genuya və Haaqa konfranslarındakı açıq-gizli qarşıdurmalar, qalmaqallar, pərdəarxası oyunlar və ən nəhayət, təhlükəli ABŞ – Böyük Britaniya çəkişmələri buna əyani misaldır. Bu hadisələrin demək olar ki, əksəriyyəti Bakı və Orta Şərq nefti ətrafında cərəyan edirdi. Adları hallananlar əsasən eyni dövlətlər: Böyük Britaniya, ABŞ, Fransa, Rusiya, Türkiyə idi.

Müharibənin müqəddəratının həll olunmasında neftin misilsiz rolu sonrakı dövrdə layiqincə qiymətləndirildi və bundan lazımi nəticələr çıxarılmasını sürətləndirdi.





1917-ci ilin oktyabrında Rusiyada baş vermiş inqilabdan sonra Güney Qafqazda cərəyan edən hadisələrin də kökündə ilk növbədə Bakı nefti dururdu. Azərbaycanın müstəqilliyinin Antanta dövlətləri tərəfindən tanınması da və ABŞ hökuməti tərəfindən tanınmaması da Bakı nefti ilə əlaqədar idi.

Müharibənin sonuna yaxın qarşı-qarşıya döyüşən bütün dövlətlərin Azərbaycana olan hədsiz marağı və bu marağı gerçəkləşdirmək yolunda atdıqları konkret addımlar da məhz Bakı neftindən qaynaqlanırdı. Qısa zaman kəsiyində Azərbaycan nefti, eləcə də Mosul nefti ətrafında həyata keçirilmiş və ya keçirilməli olan çoxgedişli kombinasiyalar, ziddiyyət və çəkişmələr, hərbi və siyasi təzyiqlər, diplomatik çarpışmalar, etnik "problemlərin" vaxtaşırı qabardılması, "soyqırımı" mifinin dövriyyəyə buraxılması və lazım gəldikdə ondan istifadə olunması və s. neft amilinin hərbi-siyasi amilə çevrilməsinin dönməz xarakter almasından irəli gəlirdi.

Cahan savaşından sonra keçirilmiş bütün konfransların, bağlanmış saziş və müqavilələrin əsas qayəsi neftə söykənirdi. Halbuki, ilk baxışda onların heç də hamısının neftə elə bir aidiyyətinin olmadığı təsəvvürünü yaradırdı.

Neftin gündən-günə artan əhəmiyyəti və bu səbəbdən də ona göstərilən hədsiz maraq bir sıra həqiqətləri üzə çıxardı. Aydın oldu ki, başqa sənaye sahələri ilə müqayisədə neft sənayesi son dərəcə beynəlmiləl xarakter daşıyır. Dünyada ikinci bir sənaye sahəsi və faydalı qazıntı yoxdur ki, neft və neft sənayesi qədər diqqət mərkəzində dursun, beynəlxalq forumlarda bu qədər geniş müzakirə olunsun, hərbi-siyasi qarşıdurmalara səbəb olsun, dövlət siyasətinin vacib ünsürlərindən birinə çevrilsin. Neft sənayesi qədər geniş yayılmış və transmilli şirkətlərə malik digər sənaye sahəsini təsəvvür etmək mümkün deyildir.

Neft sənayesi dünyada ən iri sənaye sahəsidir. Onun demək olar ki, məhdud milli sərhədləri olmur. Dünyanın iri neft şirkətləri istənilən ölkənin dövlət və hökumət başçıları ilə bilavasitə danışıqlar aparmaq iqtidarındadırlar. "Standard Oil"un və "Royal Dutch/Shell"in Cahan savaşından sonrakı fəaliyyəti buna əyani misaldır. Və bu barədə əvvəlki fəsillərdə ətraflı danışmışıq. Onu da deyək ki, bir çox hallarda iri neft şirkətlərinin maliyyə imkanları dünyanın əksər ölkələrinin milli gəlirlərindən qat-qat çoxdur. Təbii ki, dünyanın böyük dövlətlərini çıxmaq şərtilə.

Hadisələr dəfələrlə sübut etmişdir ki, neftdən təcrid olunmuş ölkə nəinki müharibədə qalib gələ bilməz, hətta onun mövcudluğu belə

şübhə altında qalmış olar. "Üçlər ittifaqı"nın Birinci cahan savaşında məğlubiyyəti də məhz bununla izah olunur. Nəticədə üç qüdrətli imperiya: Osmanlı Türkiyəsi, Almaniya və Avstriya – Macarıstan imperiyaları süquta uğradılar. Almaniyanın müharibədən sonrakı acınacaqlı və fəlakətli durumu da məhz duru yanacağın qıtlığı ilə əlaqədar idi.

Eyni sözləri Rusiya haqqında da söyləmək olar. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ingilislərin birbaşa təzyiqi ilə Sovet Rusiyasına qarşı tətbiq edilmiş neft embarqosu, bolşevik rejimini son dərəcə çıxılmaz vəziyyətə salaraq, hətta onu rüsvayçı Brest müqaviləsini imzalamağa vadar etdi. Rusiya bu məsələnin həllində həm də Almaniyadan yardım diləmək məcburiyyətində qaldı.

Analoji vəziyyət 1917-ci ilin sonlarında İngiltərə və Fransada da yaşanmışdı. Almaniyanın sualtı qayıqlarının uğurlu əməliyyatları müttəfiqləri son dərəcə təhlükəli durumla üz-üzə qoymuşdu. Hətta o dərəcədə ki, müharibənin gələcək taleyi böyük şübhə altında idi. Həmin vaxtda Fransanın baş naziri Klemansonun ABŞ prezidenti Vilsona ünvanladığı məşhur müraciəti, müttəfiqlərin böyük üzgünlüyündən xəbər verirdi. Klemanso elə beləcə də yazmışdı: "Müttəfiq millətlərin əmin-amanlığı təhlükə altındadır"[4].

Klemanso onu da xüsusi olaraq vurğulamışdı ki, "qarşıdakı döyüşlərdə neft, insan qanı qədər vacibdir"[5]. Dünya okeanında hökmranlıq edən Böyük Britaniya hərbi-dəniz donanmasının da vəziyyəti son dərəcə acınacaqlı idi. Kəskin duru yanacaq qıtlığı dünyanın bu möhtəşəm donanmasının hətta təslim olmaq perspektivi ilə üz-üzə qalmasına səbəb olmuşdu.

Yanacaq qıtlığından böyük məhrumiyyətlərlə üzləşən Almaniya öz rəqiblərinin də yanacaq təchizatını mümkün qədər pozmağa çalışırdı. Nəticədə dünyanın müxtəlif bölgələrində böyük yanacaq mənbələrinə nəzarət etməsinə baxmayaraq, alman sualtı qayıqlarının "səmərəli" fəaliyyəti nəticəsində İngiltərə böyük problemlərlə üzləşməli olmuşdu. Və bu problem, demək olar ki, müharibənin gündəmində qalmaqda davam edirdi. Təsadüfi deyil ki, 1918-ci il 5 oktyabr sayında nüfuzlu "Morning Post" qəzeti bu münasibətlə yazırdı: "Bu, indiyədək İngiltərə üzərinə hərəkət etmiş təhlükələrdən ən dəhşətlisi idi"[6].

Beləliklə ABŞ-ın neft yardımı olmasaydı, istər İngiltərənin, istərsə də Fransanın qələbə perspektivi şirin xəyaldan başqa bir şey olmayacaqdı.

Maraqlıdır ki, dünyada aşkar edilmiş neft yataqlarının əksəriyyəti iqlim və coğrafi şərait cəhətdən planetimizin ən əlverişsiz və çətinliklə fəth edilə bilən bölgələrində yerləşir. Ərəbistan və Afri-





kanın cəhənnəmtək isti səhraları, İndoneziya cəngəllikləri, şaxtalı Sibir ənginlikləri, ABŞ-ın sərt iqlimə malik Alyaska diyarı və s. dünyanın neftlə zəngin bölgələridir. Əgər neft olmasaydı bu bölgələrin xalqları son dərəcə kasıb yaşayar, çağdaş sivilizasiyadan xeyli geridə qalardılar. Çünki həmin bölgələrin çoxunda neftdən savayı faydalı qazıntılar və təbii sərvətlər, demək olar ki, yox dərəcəsindədir. Lakin neft satışından əldə edilən fantastik gəlirlər həmin bölgələrdə yerləşən ölkələri dünya siyasətinə müəyyən dərəcədə təsir edə biləcək gücə çevirməklə yanaşı, onların özlərini də beynəlxalq siyasətin cazibə nöqtəsinə çevirmişdir. Bunun bünövrəsi isə əsasən Birinci cahan savaşından sonra qoyuldu.

Bəşər tarixində Birinci cahan savaşına qədər baş vermiş irili-xırdalı müharibələrin sayı-hesabı yoxdur. Fəqət onların heç birinin müqəddəratı neftdən asılı olmamışdır. Qələbəni başqa amillər təmin edib. Birinci cahan savaşı tarixdə ilk müharibədir ki, onun müqəddəratı bilavasitə neft amili ilə sıx bağlı olub.

Müharibə bitdikdən sonra Böyük Britaniyanın o zamankı xarici işlər naziri lord Kerzonun bir etirafı çoxlarının yaddaşına həkk olundu. O cümlədən bir qədər sonra Almaniyada hakimiyyəti ələ keçirmiş Hitler və onun komandasının da. Kerzonun o vaxt dediyi sözləri bir daha yada salaq. O demişdi: "Müttəfiqlər qələbəyə neft dalğası üzərində gəlib çatdılar"[7].

Birinci cahan savaşının acı nəticələri Hitlerə də yaxşı bəlli idi. Odur ki, o, müharibəyə hazırlaşarkən duru yanacaq probleminin həllinə xüsusi diqqət yetirdi. O zaman Almaniyanın şimal-qərbində əsasən alman şirkətlərinə məxsus olan kiçik həcmli neft mədənləri vardı. Almaniyanın silahlı qüvvələrində xüsusi çəkisi olan hərbi-hava qüvvələrini – "Lüftvaffe"ni duru yanacaqla etibarlı təmin etmək məqsədilə, həmin mədənlər German Görinqin birbaşa nəzarətinə verildi. Süni benzin istehsalı genişləndirildi, həcmi gündən-günə artırıldı. Neft ehtiyatının artırılması ən vacib məsələlərdən birinə çevrildi.

1938-ci ildə Almaniya əsasən "Standard Oil of New Jersey", "Shell" və "Anqlo-İranian company" vasitəsilə 41 milyon barrelə qədər neft idxal etdi. Halbuki ölkədə özünün yerli neft hasilatı cəmi 4 milyon barrel idi[8].

İdxal edilmiş neft milli strateji ehtiyat kimi anbarlara doldurulurdu. Yeni müharibənin qaçılmazlığını yaxşı dərk edən Hitler, Almaniyanın Birinci cahan savaşından sonrakı aqibətini bir daha yaşamaq fikrindən son dərəcə uzaq idi. Odur ki, ciddi-cəhdlə neft ehtiyatlarının artırılması üçün mümkün olan və olmayan bütün vasitələrdən və imkanlardan istifadə etməyə çalışırdı. Təkcə onu göstərmək kifayətdir ki, artıq

Polşaya hücum ərəfəsində Almaniyanın strateji neft ehtiyatı 50 milyon barrelə yaxın idi.

Hitler Birinci cahan savaşından sonra general Erix Lüdendorfun dediklərindən də yaxşı məlumatlı idi. Həmin sözləri bir daha yada salmaq zənnimcə, yerinə düşərdi. Alman generalı o zaman belə demişdi: "Almaniyanın diz çökdürülməsində neft çatışmazlığı (seçmə mənimdir – *N.Rza*) mühüm rol oynamışdı"[9].

Neft məsələsi təkcə Almaniyanın problemi deyildi. Bu, onun ən yaxın müttəfiqi İtaliyanın da bəlası idi. Odur ki, Hitlerin məsləkdaşı, İtaliya diktatoru Benito Mussolini də ölkənin neft ehtiyatlarını zənginləşdirmək yolunda əlindən gələni etməyə çalışırdı. O, hələ Hitler Almaniyada hakimiyyətə gəlməmişdən 7 il əvvəl, 1926-cı ildə "Asiyende cenerale italyanc petroli" dövlət neft şirkətini yaratdı. Qısaca olaraq "Agip"* adlanan bu şirkət həm İtaliya ərazisində, həm də Orta Şərqdə intensiv neft axtarışına başladı və hətta İraqda neft konsessiyasından özü üçün pay da qopara bildi. Bir qədər sonra isə Albaniya və Rumıniya neftindən də bəhrələnmək imkanı əldə etdi. Neft ehtiyatları artdıqca Hitler kimi Mussolinin də iştahası durmadan artırdı. Zira, yaxın gələcəkdə o, öz məslək dostu fürerlə birlikdə böyük zəfərlərə imza atmaq eşqində idi. Bu zəfərləri isə neftsiz əldə etmək qətiyyən mümkünsüz görünürdü. Bunu fürer də, duçe də gözəl bilirdilər.

Almaniya və İtaliya öz strateji neft ehtiyatlarını artırdıqları və yeni duru yanacaq mənbələri axtardıqları bir vaxtda, ABŞ – Böyük Britaniya qarşıdurması səngimək bilmirdi.

Ladvell Denni yazırdı: "Bu mübarizənin səbəbləri çoxları, əsasən avropalılar tərəfindən öyrənilirdi. Onlar Avropa müharibəsindən (Birinci cahan savaşı nəzərdə tutulur – *N.Rza*) dərhal sonra başlanan dövr ərzində Rusiyanın və Yaxın Şərqin neft sərvətləri uğrunda dövlətlər arasındakı rəqabətin təsvirini veriblər"[10].

Lakin bu araşdırmaların kifayətedici səviyyədə və hərtərəfli olmamasını iddia edən amerikalı tədqiqatçı, hadisələri daha geniş işıqlandırmaq məqsədilə daha sonra yazır: "1925-ci ildən sonra döyüş meydanlarının yeri dəyişdi. Rus neft mənbələri uğrunda mübarizə daha da şiddətli oldu. Mosul üstündə yeni mübahisə başlayır. Meksikadakı vəziyyət kökündən dəyişdi. Yeni, daha mühüm cəbhələr peyda oldu. Venesuela və Kolumbiyada, yaxınlıqda yerləşən Panama kanalına təhdidedici məqsədlə mövqe tutmaq üçün Böyük Britaniya manevr edir.

* "Agip" 1998-ci ildə Azərbaycanda Xəzər dənizində "Kürdaşı" perspektiv yatağı üzrə layihənin əməliyyatçısı olmuşdu – müəllif.





Bu məsələdə bilavasitə Britaniya hökumətinin əli var. O, beynəlxalq rəqabətdə son dərəcə təcavüzkar bir cəmiyyətə malikdir və ona da rəhbərlik edir"[11].

ABŞ-ın neft ehtiyatlarının getdikcə tükəndiyini xüsusi vurğulayan Denni daha sonra qeyd edir ki, bunun müqabilində Böyük Britaniya öz imperiyası tərkibində olan və neft hasil edən ölkələrin əksəriyyətinə ABŞ şirkətlərinin daxil olmalarının qarşısını alır. Denni yazır: "Bu təhlükə ilə mübarizə aparmaq üçün Vaşinqton hökuməti "ciddi" siyasət yeridir"[12].

Neftin iqtisadi amildən sürətlə hərbi-siyasi amilə çevrildiyi bir vaxtda ABŞ hökumətinin narahatlığı və bu səbəbdən də atdığı fövqəladə addımlar başa düşülən idi. Çünki bu, ilk növbədə, milli təhlükəsizlik məsələsi idi. Belə ki, neftin konservasiyası* üzrə ABŞ-ın federal bürosunun nəzəri hesablamalarına görə, yerin altındakı neft ehtiyatları o dövrün tempinə uyğun olaraq istehlak edildiyi təqdirdə yalnız altı ilə bəs edə bilər[13].

Beləliklə, neft uğrunda ABŞ – Böyük Britaniya qarşıdurması müəyyən mənada "məntiqi" xarakter daşıyırdı. Və bu qarşıdurmanın nə vaxt və nə ilə nəticələnəcəyi çox güman ki, heç kəsə bəlli deyildi. Lakin tezliklə böyük neftə iddialı olan yeni, özü də son dərəcə ciddi və təhlükəli bir rəqib peyda oldu. Bu, Birinci cahan savaşında aldığı yaralardan büsbütün sağalmış və yeni keyfiyyətdə dirçəlmiş Hitler Almaniyası idi. Süni yanacağın gələcək perspektivinə görünür bir o qədər də inanmayan alman strateqləri, ona müvəqqəti və yardımçı vasitə kimi baxmaqla, yaxın zamanlarda dünyanın zəngin neft mənbələrinin ələ keçirilməsini Almaniya dövlətinin gələcəyi üçün həyati zərurət hesab edirdilər. Belə bir şəraitdə ingilis-amerikan qarşıdurması təbii ki, arxa plana çəkilmək zorunda qaldı. Digər tərəfdən, SSRİ-nin də təcavüzkar davranışları və Almaniya ilə müəmmalı anlaşmaları başqa bir təhlükədən xəbər verirdi. Dünyanın yaxın gələcəkdəki hərbi-siyasi perspektivi son dərəcə dumanlı görünürdü. Neftin həlledici amilə çevriləcəyi günə çox az qalırdı.

Beləliklə, daxiliyanma mühərrikinin kəşfi ilə neftin hərəkətverici enerjiyə çevrilməsi, çox keçmədən havada, suda və quruda hərəkət etməyə qadir olan müdhiş və mürəkkəb hərbi texnikanın yaranmasına əlverişli şərait yaratdı. Nəticədə orduların mütəhərrikliyi ağlasığmaz dərəcədə artdı. Bununla da onsuz da güclü olan imperializm meylləri daha da şiddətləndi. Neft böyük sürətlə iqtisadi amildən hərbi-siyasi

* Konservasiya – müvəqqəti dayandırma, dondurma.

amilə çevrilməyə başladı. Artıq neft uğrunda mübarizə təkcə ayrı-ayrı şirkətlərin deyil, ilk növbədə, iri dövlətlərin xarici siyasətinin mühüm problemlərindən biri oldu. Dünyanın inkişaf etmiş dövlətləri ilk dəfə olaraq, neft məsələsinə bilavasitə himayədarlıq etməyə başladılar. Tarixdə ilk cahan savaşı da məhz bu sehrli nemətə sahib olmaq uğrunda baş verdi. Onun gedişatını və müqəddəratını da neft həll etdi. Dünyanın müharibədən sonrakı durumu da, ilk növbədə, neftə köklənmiş oldu. Dünya siyasətində baş vermiş irili-xırdalı, demək olar ki, bütün olaylardan bir qayda olaraq neft qoxusu gəlməyə başladı. Genuya, Rapallo, Haaqa, San-Remo, Lozanna və digər ünvanlar məhz neftin sayəsində həmişəlik tarixə düşdü. Süni törədilmiş dini, etnik, irqi münaqişələrin, soyqırımı miflərinin də mayasında neft amili dururdu.

ABŞ – Böyük Britaniya qarşıdurması isə neft uğrunda mübarizənin apogeyinə çevrilə bilərdi. Əgər bu zəmində, yeni neft zəminində başlanmış İkinci cahan savaşı olmasaydı.

Tarixi hadisələrin gedişatı sübut etdi ki, neftin hərbi-siyasi amilə çevrilməsi prosesi son dərəcə sürətlə baş verdi. Nəticədə dünya sivilizasiyası mənəvi cəhətdən buna əsla hazır olmadığını açıq-aşkar büruzə verdi. Neftin misli görünməmiş hərəkətverici qüdrətə malik olması düzgün qiymətləndirilmədi. Belə olmasaydı, o lap əzəldən dağıdıcı niyyətlərin törədilməsinə deyil, bütünlüklə bəşəriyyətin tərəqqi və əmin-amanlığına yönəldilərdi. Təsadüfi deyil ki, 1951-ci il dekabrın 21-də "Oil Daily" qəzetində dərc edilmiş bir yazıda bu məsələ özünəməxsus bir tərzdə belə işıqlandırılmışdı: "Dünyanın dövlət xadimləri insanların planlarından və düşüncələrindən xəbisliyi qovmaq və onun yerini xeyirin tutmasını təmin etmək üçün neftin enerjisindən istifadə etməyə hələ başlamayıblar. O, xalqın rifahına qarşı yönəldilmiş şöhrətpərəstlik niyyətlərinin atəşini daha tez söndürə bilərdi, nəinki onu alovlandırardı"[14].

Bundan on il əvvəl, 1941-ci il avqustun 27-də İkinci cahan savaşının gündən-günə böyük vüsət aldığı bir vaxtda "Punch" jurnalında ser Alan Herbert böyük uzaqgörənliklə yazırdı: "Neftlə yaşayan, neftlə də ölər"[15].

Beləliklə, hadisələrin sonrakı inkişafı göstərdi ki, XX yüzilliyin əvvəllərindən neft uğrunda başlamış hərbi-siyasi mücadilənin ən şiddətli və üzücü mərhələsi hələ irəlidədir. Dünya diplomatiyasının ana xəttində də neft amili xüsusi yer tutmuş oldu.





## SUMMARY


Ex prime-minister of the Great Britain Winston Churchill in the book published in 1950 "The Second World war" wrote: "Upon termination of World War of 1914 almost everyone have been deeply convinced and hoped, that on all light the world will be established. This secret expectation of all people could be carried out, firmly defending fair belief and showing necessary common sense and prudence. The phrase "war to end all wars" was at all on lips and took measures to put this formula into practice"[1].

However on the termination the First, Second world wars, according to Churchill's words: "This secret expectation of people" has not been put into practice. Events have proved, that this realization during a life not so an easy problem. Anyway the level of a world civilization before XXI century has not allowed this. The reason noted, however as it and it is no wonder, was oil. It was not only economic problem, but also first of all, the question connected with the military-political factor. Oil meant more than money. More likely, it was a force and position.

Ch.Tugendhat and A.Hamilton fairly marked: "Our civilization depends on oil more, than on any other separately taken product. For oil there is as though almost nothing impossible"[2]. It is very difficult to present alternative energy source because of this quality of oil. Though during centuries people widely used oil in life, but its special property has been revealed in the end of XIX century, especially in the beginning of XX century. From that time this special quality of oil became the reason of its military-political value.

Thus, the oil factor, having world value extending struggle day by day for possession by oil being main component of military-political doctrines of the leading world states, at the same time has made necessary development and new strategy – oil strategy.

All has begun with the invention of an internal combustion engine, and also as result of this process, comprehension of wide and universal prospects of the given phenomenon.

Over centuries the importance of oil was limited only by illumination and heating, the extreme importance of oil now has been revealed.

The world civilization has realized that on a land, in air, water there is no equal oil. Unprecedented rise of scientific and technical progress first of all has been connected with oil. The oil promoting occurrence and development of various branches, for short time has confirmed itself as powerful motive power.

Unfortunately, the mankind keen on centuries by military conflicts, local and large-scale wars, aspired to use comprehensively oil only in this direction. Also it is possible to tell, it has been reached the purpose.

The "oil fever", begun in the end of XIX century, for short time from an economic force has turned in military-political. The course of historical events has proved that transformation of oil into the military-political factor has occurred as jump. However the world civilization from the moral point of view has shown the full imp reparation to it. The unprecedented powerful motive power inherent in oil has incorrectly been estimated. If it would not be so the applicability of oil would already be reduced not to destructive intentions, and to service of universal progress and safety. And it is not casual, that on December 21st, 1951 in one clause published in the newspaper "Oil Daily", this question in an inherent manner was shined in this way: "Statesmen of the world yet have not started to use energy of oil to expel harm from human plans and ideas and to force goods to take its place. It can extinguish more likely, than inflate a flame of the ambitious plans directed against the blessing of people"[3].

Ten years earlier, on August 27, 1941, in conditions of the Second World War which has inflated day by day in magazine "Punch" sir Alan Herbert with big foresight wrote: "Who lived by oil, from oil also will die"[4].

In XX century, the role of this "universal substance" in enrichment of world history is unknown. An example to that undertaking of the First world war, its course and end, during the post-war period numerous large and small-scale events, open and veiled form of opposition at the Genoa and Hague conferences, secret games and, at last, dangerous confrontation between the USA and Great Britain.

Confrontation of the USA and Great Britain could turn to apogee of struggle for oil, more precisely the Second World War has been unleashed because of oil and that was the main catch.

The subsequent events have shown, that a strong and exhausted stage begun in the beginning of XX century of political strike for oil is still ahead.





## РЕЗЮМЕ

Экс-премьер министр Великобритании Уинстон Черчилль в изданной в 1950 году книге "Вторая мировая война" писал: "По окончании мировой войны 1914 года почти все были глубоко убеждены и надеялись, что на всем свете воцарится мир. Это сокровенное чаяние всех народов легко можно было осуществить, твердо отстаивая справедливые убеждения и проявляя необходимый здравый смысл и благоразумие. Фраза "война за прекращение войны" была у всех на устах и принимались меры к тому, чтобы претворить эту формулу в действительность"[1].

Однако по окончании ни Первой, ни Второй мировых войн, говоря словами Черчилля, "это сокровенное чаяние народов" невозможно было претворить в жизнь. События доказали, что претворение этого в жизнь не столь легкая задача. Во всяком случае уровень мировой цивилизации до XXI столетия не позволил этого. Причиной же отмеченного, сколь это и неудивительно, являлась нефть. Дело в том, что это был не только экономический, но в первую очередь, связанный с военно-политическим фактором вопрос. Нефть означала не только деньги. Скорее, это была сила и положение.

К.Тьюгендхет и А.Гамильтон справедливо отмечали: "Наша цивилизация зависит от нефти больше, чем от любого другого отдельно взятого продукта. Для нефти нет как будто почти ничего невозможного"[2]. Именно из-за этого качества нефти очень сложно представить альтернативный ей источник энергии. Хотя на протяжении столетий люди широко использовали нефть в быту, но ее особое свойство было выявлено лишь в конце XIX столетия, особенно же в начале XX века. Именно с этого времени это особое качество нефти явилось причиной ее военно-политического значения.

Таким образом, имеющий мировое значение нефтяной фактор, расширяющаяся изо дня в день борьба за обладание нефтью являясь составной частью военно-политических доктрин ведущих мировых государств, в то же время сделала необходимым разработку и новой стратегии – нефтяной стратегии.

Все началось с изобретения двигателя внутреннего сгорания, а также как результат этого процесса, осознания широких и всеобъемлющих перспектив данного явления. Столетиями – значимость нефти ограничивалась лишь в качестве освещения и обогрева, теперь же была выявлена чрезвычайная значимость нефти. Мировая цивилизация осознала, что на суше, в воздухе, воде нет равной нефти. Невиданный взлет научно-технического прогресса в первую очередь был связан с нефтью. Нефть, содействующая появлению и развитию различных отраслей, за короткое время подтвердила себя и в качестве мощной движущей силы. К сожалению, человечество, увлеченное столетиями военными конфликтами, локальными и крупномасштабными войнами, стремилось всесторонне использовать нефть лишь в этом направлении. И, можно сказать, оно достигло цели.

"Нефтяная лихорадка", начавшаяся с конца XIX столетия, за короткое время из экономического фактора превратилась в военно-политический. Ход исторических событий доказал, что превращение нефти в военно-политический фактор произошло как скачок. Однако мировая цивилизация с моральной точки зрения показала свою полную неподготовленность к этому. Присущая нефти невиданная мощная движущая сила неверно была оценена. Если бы это было не так, то предназначение нефти уже сводилось бы не разрушительным намерениям, а служению общечеловеческого прогресса и безопасности. И неслучайно, что 21 декабря 1951 г. в одной статье, опубликованной в газете "Oil Daily", этот вопрос в присущей манере был так освещен: "Государственные деятели мира еще не начали использовать энергию нефти, чтобы изгнать зло из человеческих планов и замыслов и заставить добро занять его место. Она может скорее затушить, чем раздуть пламя честолюбивых замыслов, направленных против блага народа"[3].

На 10 лет раньше, 27 августа 1941 г., в условиях раздувавшейся изо дня в день Второй мировой войны в журнале "Punch" сэр Алан Герберт с большой дальновидностью писал: "Кто нефтью жил, от нефти и умрет"[4].

В XX столетии в "обогащении" мировой истории роль этого "универсального вещества" небывалая. Пример тому развязывание Первой мировой войны, его ход и завершение, в послевоенный период многочисленные крупно и мелкомасштабные события, открытая и завуалированная форма противостояния на Генуэзской





и Гаагской конференциях, закулисные игры и, наконец, опасное противостояние между США и Великобританией.

Противостояние США – Великобритании могло превратиться в апогей борьбы за нефть, если бы на этой почве, т.е. на почве нефти, ни была бы развязана Вторая мировая война.

Последующие события показали, что сильный и изнуряющийся этап начавшейся с начала XX столетия политической борьбы за нефть еще впереди.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


## GİRİŞ

1. Fisher L. Oil imperialism, ch. Westport Connekticut, 1926, London, 1976. (The war for Baku).
2. Меркс Ф. Черная кровь, Москва, 1978, с.3.
3. Тьюгендхет К, Гамильтон А. Нефть. Самый большой бизнес, Москва, 1978, с.41.

## I fəsil. İlk odlu silah

1. Гаврилов В. Черное золото планеты, Москва, 1990, с.4.
2. Yenə orada, s.5.
3. Yenə orada.
4. Меркс Ф. Göstərilən əsər, s.13.
5. Гаврилов В. Göstərilən əsər, s.4.
6. Алигусейнов М. Прошлое и настоящее Азербайджанской нефти, Баку, 1987, с.5.
7. Yenə orada.
8. Yenə orada.
9. Yenə orada.
10. Yenə orada.
11. Azərbaycan neft təsərrüfatı. Азербайджанское нефтяное хозяйство. Bakı, 1989, №5, s.61.
12. Yenə orada.
13. Yenə orada.
14. Plutarx. İskəndər Zülqərneyn, Bakı, 1993, s.35.
15. Yenə orada.
16. Советский Энциклопедический Словарь (СЭС). Москва, 1987, с.340.
17. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Bakı, 1991, s.38-39.
18. Гаврилов В. Göstərilən əsər, s.5.
19. Yenə orada.
20. Yenə orada.
21. Ашурбейли С. История города Баку, Баку, 1992, с.66.
22. Yenə orada.
23. Akademik V.Bartold Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri, Bakı, 1999, s.43.
24. Гаврилов В. Göstərilən əsər, s.6.







25. Yenə orada.
26. Yenə orada.

## II fəsil. Bakı nefti və qədim dövr

1. Ашурбейли С. Göstərilən əsər, s.66.
2. Yenə orada.
3. Dərbəndnamə, s.136-138.
4. Yenə orada.
5. Алигусейнов М. Göstərilən əsər, s.36.
6. Akademik V.Bartold. Göstərilən əsər, s.42.
7. Никитин А. Хождение за три моря, Ленинград, 1986, с.141.
8. Книга Марко Поло. Путешествия, с.56-57.
9. Yenə orada, s.249.
10. Yenə orada, s.249-250.
11. Yenə orada, s.250.
12. Yenə orada.
13. Меркс Ф. Göstərilən əsər, s.13-14.
14. Azərbaycan neft təsərrüfatı. Азербайджанское нефтяное хозяйство, Bakı, 1989, №5, c.62.
15. Yenə orada.
16. Azərbaycan Neft Sənayesi Tarixinə dair Birinci Beynəlxalq Konfrans. Hyuston, 1997, s.2.
17. Yenə orada, s.5.
18. Yenə orada, s.6.
19. Профессор Ковалевский С.А. Лик Каспия, Москва, 1933, с.90.
20. Yenə orada, s.12.
21. Yenə orada.
22. Yenə orada, s.90.
23. Plutarx. Göstərilən əsər, s.35.
24. Сомойлов Ф. Описание Каспийского моря и чиненных на оном российских завоеваний. СПб., 1763, 2-ое полугодие, с.419.
25. Ашурбейли С. Göstərilən əsər, s.248.
26. Сомойлов Ф. Göstərilən əsər, s.429.
27. Комаров В. Персидская война, Приложения, Собственноручный указ императора Петра генералу Матюшкину, Русский вестник, 1867, c.602.
28. Бакиханов А.А. Гюлистани-Ирам, Баку, 1991, с.132.
29. Yenə orada.
30. Комаров В. Göstərilən əsər, s.603.
31. Yenə orada, s.606.
32. Yenə orada, s.609.

33. Мустафазаде Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в., Баку, 1993, с.23.

### III fəsil. Üfüqdə yeni əsr görünür

1. Губкин И. Учение о нефти, Москва, 1975, с.6.
2. Yenə orada, s.11.
3. Yenə orada, s.12.
4. Yenə orada.
5. О'Коннор Х. Империя нефти, Москва, 1958, с.41.
6. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, с.45-46.
7. Алигусейнов М. Göstərilən əsər, с.67.
8. Yenə orada, s.65.
9. Yenə orada.
10. Yenə orada, s.67.
11. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 72.
12. Yenə orada, s.73.
13. Yenə orada.
14. Yenə orada.
15. Алигусейнов М. Göstərilən əsər, s.42.
16. Yenə orada.
17. Yenə orada, s.43.
18. İsrafiloğlu N.R. Odlu məmləkət, Bakı, 2002, s.39.
19. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.73.
20. Алигусейнов М. Göstərilən əsər, s.35.
21. Меркс Ф. Göstərilən əsər, s.9.
22. Yenə orada.
23. Алигусейнов М. Göstərilən əsər, s.25.
24. Yenə orada, s.21.
25. Yenə orada, s.24.
26. Yenə orada.
27. Yenə orada, s.24-25.
28. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.74.
29. Yenə orada.

### IV fəsil. Bakı nefti Uzaq Şərqdə

1. Говарт С. Шелл снова в Баку, Лондон, с.3.
2. История концерна Ройял Датч / Шелл, Лондон, 1996, с.3.
3. Yenə orada.
4. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.89.
5. Yenə orada, s.90.





6. Yenə orada, s.89.
7. Yenə orada, s.90.
8. Говарт С. Göstərilən əsər, s.3.
9. Yenə orada.
10. О'Коннор Х. Göstərilən əsər, s. 360.

### V fəsil. Kerosin erasından benzin erasına keçid və dünya siyasətində yeni çalarlar

1. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.75.
2. Yenə orada.
3. Yenə orada, s.76.
4. Yenə orada, s.77.
5. О'Коннор Х. Göstərilən əsər, s.32.
6. Советский Энциклопедический Словарь (СЭС), с.16.
7. О'Коннор Х. Göstərilən əsər, s.41.
8. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.77.
9. Yenə orada.
10. Yenə orada.
11. Yenə orada.
12. О'Коннор Х. Göstərilən əsər, s.41.
13. Yenə orada.
14. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.99.
15. Советский Энциклопедический Словарь (СЭС), с.16.
16. Yenə orada, s.13.
17. Яковлев А. Цель жизни, Москва, 1970, с. 47.

### VI fəsil. Duru yanacaq və hərbi-dəniz strategiyasında inqilab

1. Симонович В. Нефть и нефтяная промышленность в России, историко-статистический очерк, СПб., 1909, с.9.
2. Мовсумзаде Э., Самедов В. Бакинская нефть и военно-морской флот царской России, Уфа, 1996, с.86.
3. Бакинские известия, 1884, №5.
4. Дьяконова И. Нобелевская корпорация в России, Москва, 1980, с. 62.
5. Мовсумзаде Э., Самедов В. Göstərilən əsər, s.87.
6. Yenə orada.
7. Yenə orada, s.88.
8. Yenə orada.
9. Yenə orada.
10. Yenə orada.
11. Yenə orada, s.88-89.

12. Отчет морского ведомства за 1897-1900 гг., с.273.
13. Меркс Ф. Göstərilən əsər, s.45-50.
14. Промышленный мир, 1899, №6, с.123.
15. Губкин И. Göstərilən əsər, s.12-13.
16. Yenə orada, s.13.
17. Мовсумзаде Э., Самедов В. Göstərilən əsər, s.91.
18. Yenə orada.
19. Yenə orada, s.92.
20. Журнал "Нефтяное дело", 1902, №3, с.158.
21. Мовсумзаде Э., Самедов В. Göstərilən əsər, s.93.
22. "Нефтяное дело", 1904, №4, с.326.
23. Yenə orada, №20-21, s.2003.
24. Yenə orada, s.1989.
25. İsrafiloğlu N.R. Göstərilən əsər, s.43.
26. Yenə orada.
27. Грозненский бюллетень, 1905, №120, с.8.
28. Мовсумзаде Э., Самедов В. Göstərilən əsər, s.97.
29. Yenə orada, s.98.
30. "Нефтяное дело", 1905, №9, s.947.
31. Yenə orada, 1905, №10, s.1064.
32. Меркс Ф. Göstərilən əsər, s.48.
33. Yenə orada.
34. Yenə orada.
35. Yenə orada.
36. Yenə orada.
37. Yenə orada, s.55-56.
38. Yenə orada, s.56.
39. Yenə orada.
40. Yenə orada.
41. Yenə orada.
42. Мовсумзаде Э., Самедов В. Göstərilən əsər, s.103.
43. Yenə orada.
44. Yenə orada.
45. Yenə orada.
46. Yenə orada.
47. Yenə orada, s.104.

**VII fəsil. Bakı dünyanın cazibə mərkəzinə çevrilir**

1. Меркс Ф. Göstərilən əsər, s.37.
2. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.93.
3. Yenə orada.





4. Yenə orada.
5. История концерна Ройял Датч / Шелл, Лондон, Шелл Центр, SE 17 NA, Англия, с.3.
6. Yenə orada.
7. Говарт С. Göstərilən əsər, s.3.
8. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.94.
9. Говарт С. Göstərilən əsər, s.3.
10. Yenə orada, s.99.
11. История концерна Ройял Датч / Шелл, с.7.
12. Говарт С. Göstərilən əsər, s.4.
13. Yenə orada.
14. Yenə orada.
15. Yenə orada.
16. Yenə orada.
17. Yenə orada.
18. Yenə orada.
19. Yenə orada.
20. Yenə orada.
21. Бовыкин В. Российская нефть и Ротшильды, журнал "Вопросы истории", 1978, №4, с.41.
22. Yenə orada.
23. О'Коннор Х. Göstərilən əsər, s.360.
24. Yenə orada, s.360, 362.
25. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 92.
26. Yenə orada, s. 92-93.
27. "Нефтяное дело", 1913, №7, с.30.
28. Монополистический капитал в нефтяной промышленности России 1883-1914. Документы и материалы, М.-Л., 1961, с.656.
29. Алигусейнов М. Göstərilən əsər, s.91.
30. Yenə orada, s.90.
31. Yenə orada.
32. Говарт С. Göstərilən əsər, s.4.

**VIII fəsil. İran nefti və dünya neft strategiyasının ilk əlamətləri**

1. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 102.
2. Yenə orada, s.106.
3. Yenə orada.
4. Yenə orada, s.107.
5. Yenə orada.
6. О'Коннор Х. Göstərilən əsər, s.364.

7. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 107.
8. Yenə orada.
9. Yenə orada, s.108.
10. Меркс Ф. Göstərilən əsər, s.34.
11. Yenə orada.
12. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 108.
13. Yenə orada.
14. Yenə orada, s.109.
15. Yenə orada.
16. O'Коннор X. Göstərilən əsər, s.364.
17. Yenə orada.
18. Yenə orada.
19. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 110.
20. O'Коннор X. Göstərilən əsər, s.364.
21. Yenə orada.
22. Меркс Ф. Göstərilən əsər, s.34.
23. Yenə orada.
24. O'Коннор X. Göstərilən əsər, s.364.
25. Меркс Ф. Göstərilən əsər, s.34.

**IX fəsil. Neftə köklənmiş siyasət**

1. O'Коннор X. Göstərilən əsər, s.380-381.
2. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 102.
3. Меркс Ф. Göstərilən əsər, s.40-41.
4. Yenə orada, s.40.
5. Yenə orada.
6. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 102.
7. Меркс Ф. Göstərilən əsər, s.41.
8. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 103-104.
9. Меркс Ф. Göstərilən əsər, s.42.
10. Yenə orada.
11. Yenə orada.
12. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 112.
13. Yenə orada, s.103.
14. Yenə orada, s.105.
15. Yenə orada, s. 112.
16. O'Коннор X. Göstərilən əsər, s.381.
17. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 113.
18. Yenə orada.
19. Yenə orada.





20. Yenə orada.
21. Yenə orada, s.114.
22. O'Коннор X. Göstərilən əsər, s.386.
23. Yenə orada.
24. Меркс Ф. Göstərilən əsər, s.74.
25. Yenə orada, s.46.
26. Yenə orada, s.50.
27. Yenə orada.

**X fəsil. Neft və Rusiyanın hərbi-dəniz donanmasında inqilab**

1. Меркс Ф. Göstərilən əsər, s.45.
2. Яковлев А. Göstərilən əsər, s.47.
3. Yenə orada, s.48.
4. Yenə orada.
5. Yenə orada.
6. Меркс Ф. Göstərilən əsər, s.48.
7. "Двигатель", 1911, №19, с.284.
8. Мовсумзаде Э., Самедов В. Göstərilən əsər, s.105.
9. Yenə orada.
10. Всеподданнейший отчет по Морскому Министерству за 1906-1909 гг., с.39.
11. "Нефтяное дело", 1908, №2, стлб.8.
12. Yenə orada, stlb.2-4.
13. Всеподданнейший отчет по Морскому Министерству за 1906-1909 гг., с.44-45.
14. "Нефтяное дело", 1909, №6, стлб.5-6.
15. Yenə orada, 1910, №17, стлб.33.
16. Yenə orada, №20, стлб.6.
17. Вестник общества технологов, 1912, №11, с.474.
18. Yenə orada, №2, s.66.
19. Волжское судоходство, 1912, №2, с.54.
20. Вестник общества технологов, 1913, №10, с.335.
21. Yenə orada, №3, s.93.
22. Мовсумзаде Э., Самедов В. Göstərilən əsər, s.121.
23. Yenə orada, s.124.
24. Yenə orada, s.123.
25. Yenə orada.
26. Yenə orada.
27. Мовсумзаде Э., Самедов В. Göstərilən əsər, s.123.
28. Yenə orada.

29. "Нефтяное дело", 1913, №8, стлб.50.
30. Мовсумзаде Э., Самедов В. Göstərilən əsər, s.124.
31. Yenə orada.
32. Yenə orada.
33. Yenə orada, s.125.
34. Yenə orada.
35. Всеподданнейший отчет по Морскому министерству за 1913 г. с.158.
36. Yenə orada, s. 159.

### XI fəsil. Rusiya böhran məngənəsində

1. Людендорф Э. Мои воспоминания о войне 1914-1918 гг., I том, Москва, 1923, с. 277.
2. Денни Л. Борьба за нефтяную монополию, Москва- Ленинград, 1934, с.44.
3. Раевский А. Английская интервенция и мусаватское правительство, Баку, 1927, с.10.
4. Yenə orada.
5. Мерkc Ф. Göstərilən əsər, s.56.
6. Раевский А. Göstərilən əsər, s.9.
7. Lenin V.İ. Əsərləri məcmuəsi, Bakı, 1981, s.434.
8. Yenə orada.
9. Ибрагимов М. Нефтяная промышленность Азербайджана в период империализма, Баку, 1984, с.178.
10. Yenə orada.
11. Yenə orada.
12. Yenə orada, s.179.
13. Yenə orada, s.180.
14. Yenə orada.
15. Yenə orada.
16. Yenə orada.
17. Yenə orada.
18. Yenə orada.
19. Yenə orada.
20. Yenə orada.
21. Yenə orada.
22. Yenə orada, s.181.
23. Yenə orada.
24. Yenə orada.





### XII fəsil. Ehtiraslar qızışır

1. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 113.
2. Yenə orada.
3. Денни Л. Göstərilən əsər, s.41.
4. Yenə orada.
5. Yenə orada.
6. Yenə orada.
7. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 115-116.
8. Yenə orada, s.116.
9. Денни Л. Göstərilən əsər, s.43.
10. Yenə orada.
11. Yenə orada.
12. Yenə orada, s.44.

### XIII fəsil. I Cahan savaşının başlanması və neft amili

1. Меркс Ф. Göstərilən əsər, s.54.
2. Yenə orada.
3. Людендорф Э. Мои воспоминания о войне 1914-1918 гг., II том, Москва, 1924, с. 146.
4. Yenə orada, s.146-147.
5. Меркс Ф. Göstərilən əsər, s.55.
6. Yenə orada.
7. Yenə orada.
8. Yenə orada.
9. Людендорф Э. Göstərilən əsər, s. 147.
10. Yenə orada.
11. Yenə orada.
12. Меркс Ф. Göstərilən əsər, s.55.
13. Людендорф Э. Göstərilən əsər, s. 146.
14. Yenə orada, s.147.
15. Yenə orada.
16. Меркс Ф. Göstərilən əsər, s.55.
17. Yenə orada.
18. Yenə orada.
19. Yenə orada.
20. Людендорф Э. Göstərilən əsər, s. 16.

### XIV fəsil. Qurudakı əməliyyatlarda neftlə bağlı problemlər

1. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.115.
2. Меркс Ф. Göstərilən əsər, s.57.
3. Yenə orada.

4. Людендорф Э. Göstərilən əsər, II cild, s.146.
5. Yenə orada, I cild, s.277.
6. Yenə orada, s.278.
7. Yenə orada, s.286.
8. Yenə orada, II cild, s.103.
9. Yenə orada, I cild, s.278.
10. Yenə orada, I cild, s.277.
11. Yenə orada.
12. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.116.
13. Людендорф Э. Göstərilən əsər, I cild, s.287.
14. Yenə orada, s.288.

### XV fəsil. Sualtı müharibə və yanacaq böhranı

1. Людендорф Э. Göstərilən əsər, I cild, s.174.
2. Меркс Ф. Göstərilən əsər, s.56.
3. Yenə orada.
4. Yenə orada, s.57.
5. Людендорф Э. Göstərilən əsər, s.174-175.
6. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.117.
7. Меркс Ф. Göstərilən əsər, s.57.
8. Денни Л. Göstərilən əsər, s.36.
9. Меркс Ф. Göstərilən əsər, s.57.
10. Денни Л. Göstərilən əsər, s.44.
11. Меркс Ф. Göstərilən əsər, s.58.
12. Yenə orada.
13. Денни Л. Göstərilən əsər, s.45.
14. Людендорф Э. Göstərilən əsər, s.249.
15. Денни Л. Göstərilən əsər, s.45.
16. Людендорф Э. Göstərilən əsər, s.175.
17. Yenə orada.
18. Yenə orada, s.250.
19. Yenə orada, II cild, s.10.
20. Yenə orada, s.304.
21. Меркс Ф. Göstərilən əsər, s.58.
22. Yenə orada.
23. Yenə orada.

### XVI fəsil. Yaxın Şərqdə müharibə və neft ehtirasları

1. Меркс Ф. Göstərilən əsər, s.70.
2. Денни Л. Göstərilən əsər, s.44.
3. Yenə orada, s.45.





4. Yenə orada.
5. Yenə orada, s.111.
6. Меркс Ф. Göstərilən əsər, s.117.

### XVII fəsil. Bakı nefti və Rusiyanın yanacaq problemləri

1. Ибрагимов М. Göstərilən əsər, s. 69.
2. Басилая Ш. Закавказье в годы первой мировой войны, Сухуми, 1968, с.256.
3. Yenə orada.
4. Ибрагимов М. Göstərilən əsər, s.69.
5. Yenə orada.
6. Yenə orada.
7. Yenə orada, s.69-70.
8. Журнал “Горнозаводское дело”, 1910-1917, 1917, №7, с.15332.
9. Журнал “Финансовое образование”, 1910-1916, 1914, №7, с.16.
10. Yenə orada.
11. Ибрагимов М. Göstərilən əsər, s.70.
12. Басилая Ш. Göstərilən əsər, s.256.
13. Yenə orada.
14. Ибрагимов М. Göstərilən əsər, s.183.
15. Ленин В. Письма из далека, Полное собрание сочинений, т. 31, с.15.
16. Басилая Ш. Göstərilən əsər, s.257.
17. Yenə orada.
18. Yenə orada.
19. Ибрагимов М. Göstərilən əsər, s.195-196.
20. Yenə orada, s.196.
21. Yenə orada.
22. Газета “Баку”, 1915, №93, с.5.
23. Ибрагимов М. Göstərilən əsər, s.184.
24. Басилая Ш. Göstərilən əsər, s.257.
25. Yenə orada, s.297
26. Ибрагимов М. Göstərilən əsər, s.214.
27. Yenə orada.
28. Yenə orada.

### XVIII fəsil. Rusiyanın müharibəyə qoşulması və bunun əsas səbəbləri

1. Басилая Ш. Göstərilən əsər, s.67.
2. Корсун Н. Алашкертская и Хамаданская операции на кавказском фронте мировой войны, Москва, 1940, с.5.
3. Сталин В. Вопросы ленинизма, изд. 10-е, Москва, 1936, с.5.

4. Денни Л. Göstərilən əsər, s.124.
5. Yenə orada.
6. Yenə orada.
7. Корсун Н. Göstərilən əsər, s.6.
8. Денни Л. Göstərilən əsər, s.124.
9. Корсун Н. Göstərilən əsər, s.6.
10. Меркс Ф. Göstərilən əsər, s.42.
11. Yenə orada.
12. Ленин В. Сочинения, XIX том, Москва, с.281.
13. Корсун Н. Göstərilən əsər, s.6.
14. Yenə orada.
15. Yenə orada, s.7.
16. Меркс Ф. Göstərilən əsər, s.42.
17. Yenə orada, s.42-43.

### XIX fəsil. Rusiyanın Yaxın Şərq neft siyasətində erməni kartı

1. Корсун Н. Göstərilən əsər, s.6.
2. Yenə orada, s.6-7.
3. Басилая Ш. Göstərilən əsər, s.32.
4. Красный архив, I том (26), ГИЗ, М.-Л., 1928, с.118-119.
5. Басилая Ш. Göstərilən əsər, s.32.
6. Yenə orada.
7. Корсун Н. Göstərilən əsər, s.7.
8. Басилая Ш. Göstərilən əsər, s.32.
9. Корсун Н. Göstərilən əsər, s.188-189.
10. Yenə orada, s.189.
11. Yenə orada.
12. Yenə orada.
13. Yenə orada.
14. Амфитеатров А. Армянский вопрос, Пб., 1906, с.32.
15. Корсун Н. Göstərilən əsər, s.7.
16. Yenə orada.
17. Басилая Ш. Göstərilən əsər, s.92.
18. Yenə orada, s.93.
19. Yenə orada.
20. Газета "Новое время", 5 марта 1915 г.
21. Басилая Ш. Göstərilən əsər, s.89.
22. Yenə orada.
23. Yenə orada, s.98-99.
24. Корсун Н. Göstərilən əsər, s.7-8.
25. Yenə orada, s.23.





### XX fəsil. Rusiyanın Türkiyə siyasətində erməni qiyamı və onun nəticələri

1. Корсун Н. Göstərilən əsər, s.152-153.
2. Yenə orada.
3. Лалаян А. Контрреволюционный "Дашнакцутюн" и империалистическая война 1914-1918 гг., Az.SSR Elmlər Akademiyasının xəbərləri, Bakı, 1989, №4, s.39.
4. Yenə orada.
5. Yenə orada.
6. Yenə orada, s.53.
7. Международные отношения в эпоху империализма, т. VII, ч. II, с.121.
8. Yenə orada, ч. I, с.304-305.
9. Лалаян А. Göstərilən əsər, s.45.
10. Yenə orada.
11. Международные отношения в эпоху империализма, т. VII, ч. II, с.456.
12. Лалаян А. Göstərilən əsər, s.44.
13. Международные отношения в эпоху империализма, т. VII, ч. II, с.456.
14. Лалаян А. Göstərilən əsər, s.42.
15. Yenə orada.
16. Красный архив, №1 (26), Москва, 1928, с.118-119.
17. Yenə orada, s.119-120.
18. Yenə orada, s.120.
19. Газета "Правда", 4 декабря 1920 г.
20. Газета "Правда", 4 декабря 1920 г.
21. Yenə orada, s.44-45.
22. Международные отношения в эпоху империализма, т. VII, ч. II, с.472.
23. "Раздел Азиатской Турции" по секретным документам министерства иностранных дел, Москва, 1924, с.245.
24. Борьян Д. Армения, международная дипломатия и СССР, ч. I, 1921, М.-Л., с.356.
25. Басилая Ш. Göstərilən əsər, s.109.
26. Лалаян А. Göstərilən əsər, s.50.
27. Yenə orada.
28. Yenə orada.
29. Корсун Н. Göstərilən əsər, s.153.
30. Yenə orada.

31. Yenə orada.
32. Басилая Ш. Göstərilən əsər, s.111.
33. Корсун Н. Göstərilən əsər, s.154.
34. Yenə orada.
35. Басилая Ш. Göstərilən əsər, s.111.
36. Yenə orada, s.108.
37. Yenə orada, s.114.
38. Yenə orada, s.118.
39. Лалаян А. Göstərilən əsər, s.54.
40. Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, №4, 1989, s.
41. Yenə orada.
42. Yenə orada, s.156.

### XXI fəsil. Çar Rusiyasının süqutu və müharibə strategiyasında dəyişiklik

1. Ленин В. Сочинения, XIX г., изд. 3-е, Москва, с.281.
2. Корсун Н. Göstərilən əsər, s.183.
3. Yenə orada.
4. Yenə orada.
5. Yenə orada.
6. Yenə orada, s.167.
7. Людендорф Э. Göstərilən əsər, II cild, s.9.
8. Yenə orada.
9. Yenə orada.
10. Yenə orada.
11. Ленин В. Сочинения, XIX т., изд. 3-е, с.270.
12. Корсун Н. Göstərilən əsər, s.155.
13. Денни Л. Göstərilən əsər, s.111.
14. Людендорф Э. Göstərilən əsər, s.10.
15. Yenə orada.
16. Yenə orada, s.25.
17. Yenə orada, s.30.
18. Yenə orada, s.89.
19. Советский Энциклопедический Словарь. Москва, 1987, с.168.

### XXII fəsil. Bakı nefti uğrunda mücadilə getdikcə şiddətlənir

1. Денстервилль Л. Британский империализм в Баку и Персии 1917-1918 г.г., Тифлис, 1925, с.164.
2. Yenə orada.
3. Денни Л. Göstərilən əsər, s.121.





4. Yenə orada.
5. Азербайджанская Демократическая Республика (1918-1920), Баку, 1998, с.50.
6. Жвания Г. Великий Октябрь и победа Советской власти в Грузии, Тбилиси, 1987, с.207.
7. Азербайджанская Демократическая Республика, с.50.
8. Yenə orada, s.51.
9. Yenə orada.
10. Yenə orada, s.62.
11. Yenə orada.
12. Документы и материалы по внешней политике Закавказья, с.224.
13. Ленин В. Полное собрание сочинений, т.39, с.306.
14. Lenin V. Əsərləri, IV nəşri, cild 44, Bakı, 1969, s.70.
15. Lenin V. Azərbaycan haqqında, Bakı, 1958, s.207.
16. Lenin V. Əsərləri məcmuəsi. XXI c. s.177.
17. Lenin V. Azərbaycan haqqında, s.207.
18. Yenə orada, s.82.
19. Yenə orada, s.84.
20. Вестник Бакинского Совнаркома, 1918, с.1-2.
21. Lenin V. Əsərləri, IV nəşri, 44-cü cild, Bakı, 1969, s.74.
22. Yenə orada, 35-ci cild, s.323.
23. Yenə orada, 27-ci cild, s.554.
24. Yenə orada, s.555.
25. Азербайджанская Демократическая Республика, с.69.
26. Lenin V. Azərbcan haqqında, s.208.
27. Lenin məcmuəsi, XXXIV kitab, s.33.
28. Yenə orada, s.35.
29. Lenin V. Əsərləri, IV nəşr, 35-ci cild, s.350.
30. Lenin V. Azərbaycan haqqında, s.98.
31. Yenə orada.
32. Yenə orada, s.98-99.
33. Yenə orada, s.99.

### XXIII fəsil. Bakı nefti uğrunda sövdələşmələr

1. Людендорф Э. Göstərilən əsər, II cild, s.187.
2. Yenə orada.
3. Yenə orada, s.187-188.
4. Yenə orada, s.227.
5. Меркс Ф. Göstərilən əsər, s.55.
6. Людендорф Э. Göstərilən əsər, s.231.

7. Меркс Ф. Göstərilən əsər, s.57.
8. Папия Т. Политика Германии в Закавказье 1918 г., Тбилиси, 19, с.58-59.
9. Басилая Ш. Göstərilən əsər, s.89.
10. Yenə orada.
11. Yenə orada.
12. Азербайджанская Демократическая Республика, с.65.
13. Людендорф Э. Göstərilən əsər, s.188.
14. Yenə orada.
15. Yenə orada, s.219.
16. Yenə orada.
17. Yenə orada.
18. Гречко А. Битва за Кавказ, Москва, 1969, с.20.
19. Людендорф Э. Göstərilən əsər, s.219.
20. Yenə orada, s.219-220.
21. Yenə orada, s.220.
22. Yenə orada.
23. Азербайджанская Демократическая Республика, с.82.
24. Yenə orada, s.81.
25. Yenə orada.
26. Yenə orada.
27. Людендорф Э. Göstərilən əsər, s.201.
28. Yenə orada, s.218.
29. Yenə orada.
30. Yenə orada, s.220.
31. Документы по истории гражданской войны в СССР, т.I, с.289-2
32. Азербайджанская Демократическая Республика, с.83.
33. Yenə orada.
34. Yenə orada.

### XXIV fəsil. Neft uğrunda mübarizə səngimir

1. Байбаков Н. Дело жизни, Москва, 1984, с.26.
2. Ллойд Джордж Д. Военные мемуары, т.VI, Москва, 1937, с.98.
3. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, Ba 1993, s.27.
4. "The Times", 1922, July 10.
5. Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol, Bakı, 1994, s.11.
6. "The New-York Times", 1918, July 14.
7. Lenin V. Əsərləri, IV nəşri, 44-cü cild, s.107-108.
8. "Yeni Forum" jurnalı, eylül, 1993, №292, s.19.





9. Lenin V. Azərbaycan haqqında, s.106.
10. Həsənov C. Göstərilən əsər, s.118.
11. Людендорф Э. Göstərilən əsər, II cild, s.220.
12. Yenə orada.
13. Həsənov C. Göstərilən əsər, s.120.
14. Yenə orada, f.894, siy.10, iş 154, v.16.
15. Людендорф Э. Göstərilən əsər, s.188.
16. Раевский А. Göstərilən əsər, s.17.
17. Yenə orada,
18. Yenə orada.
19. Денстервилль Э. Göstərilən əsər, s.228-229.
20. Yenə orada.
21. Раевский А. Göstərilən əsər, s.18-19.
22. Yenə orada, s.19.
23. Дело Савинкова, изд. ГИЗ, с.53.
24. Mehmetzade. Milli Azerbaycan hareketi, p.98.
25. Азербайджанская Демократическая Республика, с.98.
26. Жизнь национальностей, 1918, 8 декабря.
27. Lenin V. Əsərləri, IV nəşri, 44-cü cild, s.118.
28. Yenə orada, s.475.
29. Токаржевский Е. Из истории иностранной интервенции и гражданской войны, с.232.
30. Yenə orada.
31. Газ. "Азербайджан", 1918, 29 ноября.
32. Байбаков Н. Göstərilən əsər, s.26.
33. О'Коннор Х. Империя нефти, Москва, 1958, с.379.
34. Yenə orada.
35. Байбаков Н. Göstərilən əsər, s.166.
36. Yenə orada, s.24.
37. Yenə orada.
38. Черчилль У. Мировой кризис, Москва, 1932, с.105.
39. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Bakı, 1991, s.39.

### XXV fəsil. İmperialist dövlətləri arasında neft ehtiraslarının qızışması

1. Денни Л. Göstərilən əsər, s.36.
2. Раевский А. Göstərilən əsər, s.20.
3. Yenə orada s.21.
4. Yenə orada.
5. Yenə orada.

6. Справочная книжка для нефтепромышленников на 1914 г., гл. VI, с.48-49.
7. Раевский А. Göstərilən əsər, s.21.
8. Газ. «Азербайджан», 1919, 16 апреля.
9. Раевский А. Göstərilən əsər, s.22.
10. Yenə orada.
11. Волков Ф. Тайны Уайтхолла и Даунингстрит, Москва, 1980, с.28.
12. Yenə orada.
13. Ллойд Джордж. Военные мемуары, т.VI, Москва, 1937, с.85.
14. Волков Ф. Göstərilən əsər, s.102.
15. Yenə orada.
16. «Заря», 1919, 15 июня.
17. Волков Ф. Göstərilən əsər, s.102-103.
18. Раевский А. Göstərilən əsər, s.93.
19. Yenə orada, s.94.
20. Yenə orada, s.95.
21. Попов А. Из истории английской интервенции в Закавказье, "Пролетарская революция", №6-7, 1923 г., с.231.
22. "Azərbaycan" qəz. №143, 10 iyun 1919-cu il.
23. Раевский А. Göstərilən əsər, s.77.
24. Yenə orada.
25. "Azərbaycan" qəz. №67, 3 aprel 1920-ci il.
26. Раевский А. Göstərilən əsər, s.77.
27. Фурсенко А. Можно ли считать компанию Нобеля русским концерном? – В книге: Исследования по социально-политической истории России. Сб. статей, Ленинград, 1971, с.352.
28. Yenə orada, s.359.
29. Раевский А. Göstərilən əsər, s.79.
30. Ибрагимов М. Göstərilən əsər, s.23.
31. "Нефтяное дело", №13-14, 1919-cu il, s.41
32. Раевский А. Göstərilən əsər, s.80.
33. Yenə orada, s.81.
34. Yenə orada, s.81-82.
35. "Azərbaycan" qəz., №97, 12 may 1919-cu il.
36. O'Коннор Х. Göstərilən əsər, s.365.
37. Louis Fisher. Oil Imperialism, International Publishers, 1926, pp. 244-245.
38. Həsənov C. Göstərilən əsər, s.157.
39. Yenə orada, s.274.
40. Yenə orada, s.276.
41. Yenə orada, s.275.





**XXVI fəsil. Sovet Rusiyasının Azərbaycanı işğal etməsi və Bakı neftinə yiyələnməsi**

1. Həsənov C. Göstərilən əsər, s.320.
2. Денни Л. Göstərilən əsər, s.121.
3. Rəsulov A. "Azərbaycanda neft sənayesinin inkişafı tarixindən", Bakı, 1962, s.17.
4. Yenə orada, s.17-18.
5. Lenin V. Əsərləri, IV nəşri, 44-cü cild, Bakı, 1969, s.337-338.
6. Lenin V. Azərbaycan haqqında. Bakı, 1958, s.111.
7. Раевский А. Göstərilən əsər, s.167-168.
8. "Azərbaycan" qəz. №17, 25 yanvar 1920-ci il.
9. Раевский А. Göstərilən əsər, s.169.
10. Yenə orada, s.169.
11. Yenə orada.
12. Азербайджанская Демократическая Республика, с.225.
13. Yenə orada, s.226.
14. Yenə orada.
15. Авалов З. Независимость Грузии в международной политике, Париж, 1924, с.244.
16. Paris Peace conference, p.901-902.
17. Yenə orada, s.902.
18. Журнал "Новый мир", 1920-ci il, 19 fevral.
19. Lenin V. Əsərləri küllıyyatı, 51-ci cild, s.163-164.
20. Хейфец А. Советская Россия и сопредельные страны Востока в 1918-1920 годах, Москва, 1964, с.107.
21. Rəsulzadə M.Ə. Göstərilən əsər, s.55.
22. Директивы командования фронтов, т.III, Москва, 1974, с.310.
23. Lenin V. Azərbaycan haqqında. Bakı, 1958, s.113.
24. Yenə orada, s.124.
25. Yenə orada, s.126.
26. Lenin V. Əsərləri, IV nəşri, 31ci cild, s.368.
27. Lenin V. Azərbaycan haqqında. Bakı, 1958, s.210.
28. Yenə orada, s.131.
29. Yenə orada, s.132.
30. Lenin V. Əsərləri məcmuəsi, Bakı, 1981, s.477.
31. Yenə orada, s.472.
32. Yenə orada, s.477.
33. Yenə orada.
34. Yenə orada.
35. Yenə orada, s.480.

36. Lenin V. Əsərləri, 45-ci cild, s.67.
37. Yenə orada, s.60-61.
38. Yenə orada, s.73-74.
39. Yenə orada, s.657.
40. Yenə orada, s.658.
41. Yenə orada, s.667.
42. Yenə orada, s.675.
43. Yenə orada, s.145-146.
44. Yenə orada, s.675.
45. Yenə orada, s.156.
46. Алигусейнов M. Göstərilən əsər, s.34.
47. Lenin V. Əsərləri külliyyatı, V nəşr, Bakı, 1983, s.73.
48. Yenə orada, s.74.
49. Yenə orada.
50. Yenə orada, s.81.
51. Yenə orada, s.82.
52. Yenə orada, s.102-103.
53. Lenin V. Əsərləri məcmuəsi, Bakı, 1981, s.472.
54. Денни Л. Göstərilən əsər, s.127.
55. Yenə orada.
56. Yenə orada, s.128.
57. Yenə orada.

### XXVII fəsil. Genuya konfransı və Azərbaycan neftinin taleyi

1. Денни Л. Göstərilən əsər, s.120.
2. Yenə orada.
3. Yenə orada, s.122.
4. Фурсенко A. Göstərilən əsər, s.359.
5. Волков Ф. Göstərilən əsər, s.207.
6. Lenin V. Əsərləri, IV nəşr, 45-ci cild, Bakı, 1970, s.715.
7. Yenə orada, s.347.
8. Yenə orada, s.745.
9. SSRİ xarici siyasəti sənədləri, V cild, Moskva, 1961, s.66-67.
10. Lenin V. Əsərləri, IV nəşr, 45-ci cild, s.541.
11. Yenə orada, s.746.
12. SSRİ xarici siyasəti sənədləri, V cild, s.59.
13. Lenin V. Əsərləri, IV nəşr, 45-ci cild, s.748.
14. Yenə orada, s.458.
15. Yenə orada, s.756.
16. Yenə orada, s.466.
17. Yenə orada, s.466-467.





18. Yenə orada, s.756.
19. Lenin V. Əsərləri, IV nəşr, 42-ci cild, s.417-418.
20. Lenin V. Əsərləri, IV nəşr, 45-ci cild, s.496-497.
21. Yenə orada, s.756.
22. Mehdizadə M. Göstərilən əsər, s.20.
23. Yenə orada.
24. Yenə orada, s.20-21.
25. Yenə orada, s.21.
26. Yenə orada.
27. Yenə orada.
28. Волков Ф. Göstərilən əsər, s.207.
29. Yenə orada.
30. Yenə orada.
31. Yenə orada.
32. Денни Л. Göstərilən əsər, s.123.
33. Волков Ф. Göstərilən əsər, s.207.
34. Mehdizadə M. Göstərilən əsər, s.17.
35. Yenə orada.
36. Yenə orada.
37. Yenə orada, s.18.
38. Yenə orada.
39. Yenə orada.
40. Меркс Ф. Göstərilən əsər, s.63.
41. Yenə orada.
42. Yenə orada, s.64.
43. Mehdizadə M. Göstərilən əsər, s.19.
44. Yenə orada.
45. Yenə orada, s.19-20

### XXVIII fəsil. İngilis-rus anlaşması və ABŞ-ın narahatlığı

1. Меркс Ф. Göstərilən əsər, s.63.
2. Yenə orada, s.64.
3. Yenə orada.
4. Денни Л. Göstərilən əsər, s.122.
5. "Нефтяное дело", 1900-1917, 5 ноября 1903 г.
6. Rəsulov A. Azərbaycanda neft sənayesinin inkişafı tarixindən, Bakı, 1962, s.22.
7. Yenə orada, s.206.
8. Денни Л. Göstərilən əsər, s.122.
9. Yenə orada, s.122-123.
10. Yenə orada.

11. Mehdizadə M. Göstərilən əsər, s.21-22.
12. Yenə orada, s.22.
13. Yenə orada, s.23.
14. Yenə orada, s.25.
15. Меркс Ф. Göstərilən əsər, s.65.
16. Lenin V. Əsərləri, 45-ci cild, IV nəşr, s.647-648.
17. SSRİ xarici siyasətinin sənədləri, V cild, Moskva, 1961, s.235.
18. Yenə orada.
19. Lenin V. Əsərləri, 45-ci cild, IV nəşr, s.767.
20. Yenə orada, s.768.
21. Yenə orada.
22. Yenə orada, s.550.
23. Yenə orada.
24. Yenə orada, s.551.
25. Yenə orada, s.554.
26. Yenə orada, s.770-771.
27. Yenə orada, s.555.
28. Yenə orada.
29. Yenə orada.
30. Yenə orada, s.771.
31. Yenə orada.
32. Yenə orada, s.772.
33. Yenə orada.
34. Yenə orada, s.559-560.
35. Mehdizadə M. Göstərilən əsər, s.22.
36. Yenə orada.
37. Lenin V. Əsərləri, 45-ci cild, IV nəşr, s.560.
38. Mehdizadə M. Göstərilən əsər, s.27.
39. Волков Ф. Göstərilən əsər, s.207.
40. Yenə orada, s.207-208.
41. Mehdizadə M. Göstərilən əsər, s.27.
42. Yenə orada.
43. Волков Ф. Göstərilən əsər, s.208.
44. Mehdizadə M. Göstərilən əsər, s.28.
45. Yenə orada.

### XXIX fəsil. Rusiyanın Haaqada ikibaşlı oyunu

1. Mehdizadə M. Göstərilən əsər, s.28.
2. Yenə orada, s.34.
3. Yenə orada.





4. Yenə orada, s.36.
5. Денни Л. Göstərilən əsər, s.123.
6. Mehdizadə M. Göstərilən əsər, s.38.
7. Yenə orada, s.39-40.
8. Yenə orada, s.40
9. Yenə orada, s.41.
10. Yenə orada, s.41-42.
11. Денни Л. Göstərilən əsər, s.123.
12. Yenə orada.
13. Меркс Ф. Göstərilən əsər, s.66.
14. Денни Л. Göstərilən əsər, s.123.
15. Mehdizadə M. Göstərilən əsər, s.51.
16. Yenə orada.
17. Yenə orada.
18. Yenə orada, s.52.
19. Yenə orada.

### XXX fəsil. Neft və ABŞ – Böyük Britaniya qarşıdurması

1. Меркс Ф. Göstərilən əsər, s.70.
2. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.119.
3. Yenə orada.
4. О'Коннор Х. Göstərilən əsər, s.380.
5. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, 121.
6. О'Коннор Х. Göstərilən əsər, s.364.
7. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, 121.
8. Денни Л. Göstərilən əsər, s.129.
9. Mehdizadə M. Göstərilən əsər, s.54.
10. Yenə orada.
11. Yenə orada, s.53.
12. Yenə orada.
13. Yenə orada.
14. Денни Л. Göstərilən əsər, s.118.
15. Yenə orada, s.113.
16. Yenə orada, s.114.
17. Yenə orada, s.118.
18. Yenə orada.
19. Yenə orada, s.118-119.
20. Yenə orada, s.119.
21. Yenə orada.
22. Yenə orada.

23. O'Коннор Х. Göstərilən əsər, s.367.
24. Yenə orada.

## NƏTİCƏ

1. Черчилль У. Вторая мировая война. Москва, 1991 г., с.19.
2. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.35-36.
3. Yenə orada, s.35.
4. Денни Л. Göstərilən əsər, s.44.
5. O'Коннор Х. Göstərilən əsər, s.366.
6. Людендорф Э. Göstərilən əsər, II cild, s.116.
7. O'Коннор Х. Göstərilən əsər, s.366.
8. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.163-164.
9. Yenə orada, s.165.
10. Денни Л. Göstərilən əsər, s.27.
11. Yenə orada.
12. Yenə orada.
13. Yenə orada.
14. "Oil Daily", December 21, 1951.
15. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s.41.

## SUMMARY

1. Черчилль У. Вторая мировая война. Москва, 1991, с.19.
2. Тьюгендхет К., Гамильтон А. Нефть. Самый большой бизнес. Москва, 1978, с. 35-36.
3. "Oil Daily", December 21, 1951.
4. Тьюгендхет К., Гамильтон А. Eobve works, s. 41.

## РЕЗЮМЕ

1. Черчилль У. Вторая мировая война. Москва, 1991, с.19.
2. Тюгендхет К. Гамильтон А. Нефть. Самый большой бизнес. Москва, 1978, с. 35-36.
3. "Oil Daily", December 21, 1951.
4. Тюгендхет К. Гамильтон. Вышеназванное произведение, с. 41.





## KİTABIN İÇİNDƏKİLƏR

**Müəllifdən** ....5
**Giriş** ....7
**I fəsil.** İlk odlu silah ....15
**II fəsil.** Bakı nefti və qədim dövr ....27
**III fəsil.** Üfüqdə yeni əsr görünür ....43
**IV fəsil.** Bakı nefti Uzaq Şərqdə ....59
**V fəsil.** Kerosin erasından benzin erasına keçid və dünya siyasətində yeni çalarlar ....67
**VI fəsil.** Duru yanacaq və hərbi-dəniz strategiyasında inqilab ....77
**VII fəsil.** Bakı dünyanın cazibə mərkəzinə çevrilir ....89
**VIII fəsil.** İran nefti və dünya neft strategiyasının ilk əlamətləri ....103
**IX fəsil.** Neftə köklənmiş siyasət ....115
**X fəsil.** Neft və Rusiyanın hərbi-dəniz donanmasında inqilab ....127
**XI fəsil.** Rusiya böhran məngənəsində ....139
**XII fəsil.** Ehtiraslar qızışır ....153
**XIII fəsil.** I Cahan savaşının başlanması və neft amili ....161
**XIV fəsil.** Qurudakı əməliyyatlarda neftlə bağlı problemlər ....171
**XV fəsil.** Sualtı müharibə və yanacaq böhranı ....179
**XVI fəsil.** Yaxın Şərqdə müharibə və neft ehtirasları ....189
**XVII fəsil.** Bakı nefti və Rusiyanın yanacaq problemləri ....197
**XVIII fəsil.** Rusiyanın müharibəyə qoşulması və bunun əsas səbəbləri ....207
**XIX fəsil.** Rusiyanın Yaxın Şərq neft siyasətində erməni kartı ....217
**XX fəsil.** Rusiyanın Türkiyə siyasətində erməni qiyamı və onun nəticələri ....233
**XXI fəsil.** Çar Rusiyasının süqutu və müharibə strategiyasında dəyişiklik ....253
**XXII fəsil.** Bakı nefti uğrunda mücadilə getdikcə şiddətlənir ....267
**XXIII fəsil.** Bakı nefti uğrunda sövdələşmələr ....285

**XXIV fəsil.** Neft uğrunda mübarizə səngimir ....299
**XXV fəsil.** İmperialist dövlətləri arasında neft ehtiraslarının qızışması ....319
**XXVI fəsil.** Sovet Rusiyasının Azərbaycanı işğal etməsi və Bakı neftinə yiyələnməsi ....339
**XXVII fəsil.** Genuya konfransı və Azərbaycan neftinin taleyi ....365
**XXVIII fəsil.** İngilis-rus anlaşması və ABŞ-ın narahatlığı ....381
**XXIX fəsil.** Rusiyanın Haaqada ikibaşlı oyunu ....397
**XXX fəsil.** Neft və ABŞ – Böyük Britaniya qarşıdurması ....411

**Nəticə** ....423
**Summary** ....431
**Резюме** ....433
**İstifadə olunmuş ədəbiyyat** ....436



Kitab müəllifin şəxsi vəsaiti hesabına nəşr olunub.

Müəllif kitabın hazırlanmasında göstərdikləri yardıma görə tarix elmləri doktoru, professor Elmira Muradəliyevaya, jurnalist Seyfullah Cəfərliyə, biblioqraf Tərlan Hacıyevaya, Səmayə Xəlilovaya və "Şərq-Qərb" ASC-nin kollektivinə dərin minnətdarlığını bildirir.

**Qeyd:** Kitabın üz qabığında V.Vilson, D.Lloyd Corc, C.Klemanso, V Mehmet, II Nikolay, U. Çörçill, V.İ.Lenin və II Vilhelmin fotoları verilmişdir.

Texniki redaktor: *Rövşən Ağayev*

Kompüter yığımı: *Səbinə Məmmədova*

Kompüter səhifələyicisi: *Allahverdi Kərimov*

Üz qabığının dizaynı: *Emin Əlibəyli*

Korrektor: *Səmayə Xəlilova*

Çapa imzalanmışdır 03.04.2009.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 29.
Ofset çap üsulu. Tirajı 400 .

Kitab "Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17